

*Zəngilan, Laçın, Füzuli hava limanlarının inşa edilməsi və istismara verilməsi bölgənin canlanmasına gətirib çıxaracaq. Bu hava limanlarının həm yüklər, həm sərnişinlər, eyni zamanda, hərbi təyinatı da, təbii ki, göz önündədir. Biz daim hazır olmalıyıq, daim öz hərbi gücümüzü artırmalıyıq, hərbi infrastruktur yaratmalıyıq və yaradırıq, o cümlədən hava limanları bizim hərbi məqsədlərimizə də xidmət edəcək.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:
## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2021**
**3 (75)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2021**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Ramiz Mehdiyev, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Namiq Əliyev, Ziyafət Həbibova, Elçin Əhmədov, İsaxan Vəliyev, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Rəcəb Rəhimli, Sevil Məmmədova, Firdovsiyyə Əhmədova, Yusif Ağayev***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2021, №3(75).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2021, 296s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2021*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2021
3 (75)

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2021

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Ramiz Mehdiyev, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Namiq Aliyev, Ziyafet Habibova, Elchin Ahmadov, Isakhan Valiyev, Khatira Huseynova, Gulnara Gurbanova, Rajab Rahimli, Sevil Mammadova, Firdovsiyya Ahmadova, Yusif Agayev***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2021, №3(75)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2021, 296p.*

*© Academy of Public Administration, 2021*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

***İyul - avqust - sentyabr 2021-ci il***

## İyul

**1 iyul**
- Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimində iştirak etmişdir.
- Sonra Azərbaycan Televiziyasına müsahibə vermişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydeni təbrik etmişdir.

**3 iyul**
- Ad günü münasibətilə Qazaxıstan Respublikasının Birinci Prezidenti – Elbası Nursultan Nazarbayevi təbrik etmişdir.

**8 iyul**
- XXIV Avrasiya İqtisadi Zirvə Toplantısının iştirakçılarını təbrik etmişdir.

**10 iyul**
- Monteneqronun milli bayramı münasibətilə Prezident Milo Cukanoviçi təbrik etmişdir.

**12 iyul**
- Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ona telefonla zəng edərək, Tacikistan-Azərbaycan ikitərəfli münasibətlərinin aktual aspektlərini müzakirə etmiş, son illərdə bu əlaqələrin inkişafının müsbət dinamikasını vurğulamış, Əfqanıstanda hazırkı hərbi-siyasi vəziyyətə xüsusi diqqət ayırmışdır.
- Futbol üzrə İtaliya milli yığma komandasının Avropa çempionu adını qazanması münasibətilə İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanı təbrik etmişdir.

**13 iyul**
- Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul etmişdir.
- Qoşulmama Hərəkatının Xarici işlər nazirlərinin onlayn keçirilən aralıq konfransında onun videoformatda çıxışı təqdim olunmuşdur.

**14 iyul**
- Gürcüstanın paytaxtı Tbilisi şəhərinin meri Kaxa Kaladzeni qəbul etmişdir.
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Abşeron DOST Mərkəzinin açılışında iştirak etmişdir.
- Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak etmişdir.
- Sonra şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Daha sonra qazilərlə söhbət etmişdir.

**15 iyul**
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək, 15 iyul dövlət çevrilişi cəhdinin beşinci ildönümünü ilə əlaqədar dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını verən şəhidlərin əziz xatirəsini dərin hörmət və ehtiramla yad etmişdir.

**17 iyul**
- Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

**18 iyul**
- Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə birgə işçi naharı etmişdir.
- Sonra Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə hər iki tərəfin nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü olmuşdur.
- Geniş tərkibdə görüşdən sonra Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə birgə mətbuat konfransı keçirmiş, bəyanatla çıxış etmişdir.

**19 iyul**
- Rəsmi Feysbuk səhifəsində Qurban bayramı münasibətilə paylaşım etmişdir.

**20 iyul**
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiyaya işgüzar səfərə gəlmişdir
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur.
- Rusiyaya işgüzar səfəri başa çatmışdır.

**22 iyul**
- Daşkəsən rayonuna səfərə gəlmişdir.
- Daşkəsən şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla anmış, abidəsi önünə gül dəstəsi qoymuşdur.
- Daşkəsəndə Şəhidlər xiyabanını ziyarət edərək əbədi məşəl abidəsi önünə gül dəstəsi qoymuşdur.

- Daşkəsən rayonuna səfəri çərçivəsində “AzerGold” QSC-nin “Çovdar” İnteqrəolunmuş Regional Emal Sahəsinin fəaliyyəti ilə tanış olmuşdur.
- Sonra “Mərəh” qızıl mədənində süxurların ilk partlayış prosesini izləmişdir.
- Daha sonra Azərbaycan Televiziyasına müsahibə vermişdir.
- “Daşkəsən şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi üzrə görülən işlərlə tanış olmuşdur.
- Ölkəmizin qərb bölgəsinə səfəri çərçivəsində Naftalan şəhərində olmuşdur.
- Xalqımızın Ulu Öndəri Heydər Əliyevin Naftalan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Naftalan şəhərinə səfəri çərçivəsində istismar müddəti başa çatmış Naftalan şəhər hava limanına baxmışdır
- Naftalan Mərkəzi Sanatoriyasının açılış mərasimində iştirak etmişdir.
- Naftalan şəhərində 200 yerlik körpələr evi-uşaq bağçasının istifadəyə verilməsi tədbirində iştirak etmişdir.
- Qərb bölgəsinə səfəri çərçivəsində Goranboy rayonunda da olmuşdur.
- Goranboy şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Goranboy rayonunda Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tapqaraqoyunlu avtomobil yolunun açılışında iştirak etmişdir.
- Goranboy Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.
- Ölkəmizin qərb bölgəsinə səfəri çərçivəsində Gəncə şəhərinə gəlmişdir.
- Ermənistanın günahsız mülki insanlara və enerji infrastrukturuna qarşı həyata keçirdiyi məsuliyyətsiz raket hücumlarının səbəb olduğu cinayət səhnələri ilə tanış olmuşdur.

**25 iyul**

- Serbiya Respublikasının xarici işlər naziri Nikola Selakoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**26 iyul**

- Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**27 iyul**

- Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Amerika Birləşmiş Ştatlarının Oklahoma ştatının qubernatoru Con Kevin Stittin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
- Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**29 iyul**

- Ölkəsinin milli bayramı münasibətilə İsveçrə Konfederasiyasının Prezidenti Qi Parmöləni təbrik etmişdir.

## Avqust

**3 avqust**

- 6 saylı Bakı “ASAN xidmət” mərkəzinin açılışında iştirak etmişdir.

**5 avqust**

- Fransa Respublikasının Prezidenti Emmanuel Makron ona telefonla zəng edərək, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonrakı dövrdə regional məsələlər və Bəyanatın müddəalarının həyata keçirilməsi, Ermənistan-Azərbaycan dövlət sərhədindəki vəziyyət və postmünaqişə dövründə regionda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparmış, eyni zamanda Azərbaycan-Fransa ikitərəfli əlaqələrinin müxtəlif sahələrinə aid məsələləri də müzakirə etmişdir.

**6 avqust**

- Əsaslı şəkildə yenidən qurulan 110/35/6 kilovoltluq “Suraxanı” yarımstansiyasının açılışında iştirak etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək, qardaş Türkiyənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları nəticəsində insanların həlak olması ilə əlaqədar başsağlığı vermiş, yanğınların söndürülməsi və onların törətdiyi fəsadların qarşısının alınmasında Azərbaycanın Türkiyənin yanında olduğunu bildirmiş və həmrəyliyini ifadə etmişdir.

**9 avqust**

- Əsaslı şəkildə yenidən qurulan 500/330/220 kilovoltluq “Abşeron” yarımstansiyasının açılışında iştirak etmişdir.
- Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ona telefonla zəng edərək, Azərbaycan-Bolqarıstan münasibətləri, o cümlədən energetika sahəsində əməkdaşlıq və ikitərəfli əlaqələrin inkişaf perspektivlərini müzakirə etmiş, ölkələrimiz arasında tərəfdaşlığın yüksək səviyyəsindən məmnunluğunu ifadə etmişdir.

**12 avqust**
- Görkəmli qazax şairi və ictimai xadim Oljas Süleymenovu qəbul etmişdir.
- Sonra görkəmli qazax şairinə Azərbaycanın ali mükafatı olan "Şərəf" ordenini təqdim etmişdir.

**14 avqust**
- "CNN Türk" televiziya kanalına müsahibə vermişdir.
- İndoneziya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Coko Vidodonu təbrik etmişdir.

**16 avqust**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Kəlbəcər və Laçın rayonlarında olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ömər aşırımından Kəlbəcərin füsunkar mənzərəsini seyr etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11.6 kilometrlik tunelin təməlinin qoyulması mərasimində iştirak etmişdir.
- Sonra Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak etmişdir.
- Sonra Lev çayının sahilində çay süfrəsi arxasında söhbət etmişdir.
- Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Laçın Beynəlxalq Hava Limanının təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Kəlbəcərdə arıçılarla görüşüb söhbət etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Kəlbəcər şəhərinə gəlmişdir.
- Kəlbəcər şəhərində Dövlət bayrağını ucaltmış və burada çıxış etmişdir.
- Sonra Kəlbəcər şəhərindəki N saylı hərbi hissəyə gəlmişdir.
- Hərbi hissədə yaradılan şəraitlə tanış olmuşdur.
- Kəlbəcərə səfər çərçivəsində Birinci xanım Mehriban Əliyeva ilə birlikdə "İstisu" sanatoriyasında da olmuşdur.
- Sonra burada uzunluğu 51 kilometr olan İstisu-Minkənd yolunun çəkilməsi işlərinə də baxmışdır.

**19 avqust**
- Koreya Respublikası Milli Assambleyasının sədri Park Byonq-Soqun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**20 avqust**
- Dost Ukraynanın müstəqilliyinin 30-cu ildönümü münasibətilə Ukraynanın Prezidenti Volodimir Zelenskini təbrik etmişdir.

**24 avqust**
- BMT-nin Azərbaycan Respublikasında yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul etmişdir.
- Belçika Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mişel Pitermansın etimadnaməsini qəbul etmişdir.
- Dost Moldova Respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Moldova Respublikasının Prezidenti xanım Maya Sandunu təbrik etmişdir.

**26 avqust**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Xətai rayonu ərazisində yeni yaradılan "Gənclik" parkının açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə uşaq bağçasında yaradılan şəraitlə tanış olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə şəhid ailələrinin üzvləri, müharibə əlilləri və Vətən müharibəsi qəhrəmanları ilə görüşmüş və görüşdə çıxış etmişdir.

**28 avqust**
- Tvitter hesabında paylaşım edərək "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə qızıl medallar qazandıran idmançılarımızı təbrik etmişdir.
- Qardaş Qırğız Respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Qırğız Respublikasının Prezidenti Sadır Japarovu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Malayziyanın XVI Ali Başçısı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billahı təbrik etmişdir.

**29 avqust**
- Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində yenidənqurma işləri yekunlaşan "Qarabağ" hotelinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada aparılan bərpa işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşa şəhərində dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün açılışında iştirak etmişdir.

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılış mərasimində iştirak etmiş, görülən işlərlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra açılış mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışında iştirak iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada "Otel və Konfrans Mərkəzi"nin təməlqoyma mərasimində iştirak etmişdir.
- Ona və Birinci xanım Mehriban Əliyevaya Şuşa şəhərinin baş planı təqdim olunmuşdur.
- Tvitter hesabında paylaşım edərək "Tokio-2020" Yay Paralimpiya Oyunlarında yüksək nəticə göstərən idmançılarımızı təbrik etmişdir.
- Tvitter hesabında paylaşım edərək "Tokio-2020" Yay Paralimpiya Oyunlarında növbəti qızıl medallar qazanan idmançılarımızı təbrik etmişdir.

**30 avqust**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olunan Vaqif Poeziya Günlərinin rəsmi açılış mərasimində iştirak və çıxış etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir" və "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" sərgiləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə əvvəlcə Şuşa Rəsm Qalereyasında "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir" adlı sərgi ilə tanış olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Heydər Əliyev Fondu tərəfindən bərpa və təmir olunaraq yaradılan Şuşadakı Xalçaçılıq Qalereyasında "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" sərgisi ilə tanış olmuşdur.
- Qardaş Özbəkistan Respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevi təbrik etmişdir.

**31 avqust**
- Tvitter hesabında paylaşım edərək "Tokio-2020" Yay Paralimpiya Oyunlarında yüksək nəticə göstərən idmançılarımızı təbrik etmişdir.
- Vyetnam Sosialist Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Prezident
- Nquyen Suan Fuku təbrik etmişdir.

## Sentyabr

**2 sentyabr**
- Tvitter hesabında paylaşım edərək "Tokio-2020" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanan idmançımızı təbrik etmişdir.

**3 sentyabr**
- Sumqayıt şəhərində səfərdə olmuşdur.
- Ulu Öndər Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Sumqayıt Kimya Sənaye Parkında "Azmonbat" Məhdud Məsuliyyətli Cəmiyyətinin açılışında iştirak etmişdir.
- Sumqayıt Məhkəmə Kompleksinin açılışında iştirak etmişdir.
- Heydər Əliyev Fondu tərəfindən yeni inşa olunan 1100 şagird yerlik Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə də tanış olmuşdur.
- Sumqayıt şəhərində güzəştli mənzil layihəsi çərçivəsində növbəti yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Enerji sistemin Reabilitasiya Proqramı çərçivəsində inşa olunan "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasının açılışında iştirak etmişdir.
- Yəhudi xalqının yeni il bayramı – Roş ha-Şana münasibətilə Azərbaycanın yəhudi icmasını təbrik etmişdir.
- Tvitter hesabında paylaşım edərək "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalı qazandıran idmançımızı təbrik etmişdir.

**4 sentyabr**
- Tvitter hesabında paylaşım edərək "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalları qazandıran idmançılarımızı təbrik etmişdir.

**6 sentyabr**

- Ölkəsinin müstəqilliyinin 30-cu ildönümü münasibətilə Şimali Makedoniya Respublikasının Prezidenti Stevo Pendarovskini təbrik etmişdir.
- Tacikistan Respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Prezident Emoməli Rəhmonu təbrik etmişdir.

**7 sentyabr**

- Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul etmiş və qəbulda çıxış etmişdir.

**9 sentyabr**

- Estoniya Respublikasının Prezidenti vəzifəsinə yeni seçilməsi münasibətilə Prezident Alar Karisi təbrik etmişdir.

**10 sentyabr**

- Bakı gəmiqayırma zavodunda "Kəlbəcər" neftdaşıyan tankerin istismara verilməsi mərasimində iştirak etmişdir.

**13 sentyabr**

- Ölkəsinin müstəqilliyinin 200-cü ildönümü münasibətilə Meksika Birləşmiş Ştatlarının Prezidenti Andres Manuel Lopes Obradoru təbrik etmişdir.

**14 sentyabr**

- Rafiq Cəlilovu Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı və Rəşad Tağıyevi Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmaları ilə əlaqədar videoformatda qəbul etmiş və qəbulda çıxış etmişdir.

**15 sentyabr**

- Paytaxtın Xəzər rayonunda yeni tikilən 110/35/10 kilovoltluq "Buzovna-1" yarımstansiyasının açılışında iştirak etmişdir.

**20 sentyabr**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edərək, onu Hakim "Yedinaya Rossiya" Partiyasının parlament seçkilərində qələbə qazanması münasibətilə təbrik etmişdir.

**21 sentyabr**

- "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaimi qəbul etmişdir.
- Paytaxtın Sabunçu rayonunda 71 saylı tam orta məktəbdə aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.
- Paytaxtın Sabunçu rayonundakı 307 saylı tam orta məktəbdə aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə paytaxtdakı Ağ Şəhərdə Bakı Avropa Liseyi üçün inşa edilən 1560 şagird yerlik yeni binanın açılışında iştirak etmişdir.
- Perm Dövlət Milli Tədqiqat Universitetində atışma nəticəsində həlak olanlar və yaralananlar ilə əlaqədar Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə başsağlığı vermişdir.
- Ölkəsinin milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səudu təbrik etmişdir.

**23 sentyabr**

- BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri zamanı videoformatda çıxışı təqdim olmuşdur.

**24 sentyabr**

- İraq Respublikasının neft naziri İhsan Əbdül Cabbarı qəbul etmişdir.
- Əlamətdar ildönümü – qardaş Türkmənistanın müstəqilliyinin 30 illiyi münasibətilə Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovu təbrik etmişdir.

**25 sentyabr**

- Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenkoya müsahibə vermişdir.

**26 sentyabr**

- 27 sentyabr – Anım Günü ilə əlaqədar Azərbaycan Ordusunun hərbi qulluqçularının - Xüsusi Təyinatlı Qüvvələrin əsgərlərinin əks olunduğu fotonu rəsmi feysbuk və instaqram profilindən paylaşmışdır

**27 sentyabr**

- Sentyabrın 27-də – Anım Günündə Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, Ulu Öndərin abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anmışdır.
- Sentyabrın 27-də – Anım Günü ilə əlaqədar xalqa müraciət etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq sentyabrın 27-də – Anım Günündə Bakı şəhərində təşkil edilən yürüşdə iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakı şəhərinin 8 Noyabr prospektində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Təməlqoyma mərasimindən sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Dənizkənarı bulvar ərazisinə gələrək qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etmişdir.

- Türkiyənin Anadolu Agentliyinə müsahibə vermişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Anım Günü ilə bağlı ona telefonla zəng edərək, Vətən müharibəsində həlak olmuş şəhidlərimizlə əlaqədar bir daha başsağlığı vermiş, eyni zamanda, İkinci Qarabağ müharibəsində ordumuzun şanlı Qələbəsi ilə bağlı ona təbriklərini də çatdırmışdır.

**28 sentyabr**

- Fransanın "France-24" televiziya kanalına müsahibə vermişdir.

**29 sentyabr**

- Azərbaycanda səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşmüşdür.
- Sonra Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə işçi nahar etmişdir.

**30 sentyabr**

- Çex Respublikasının xarici işlər naziri Yakub Kulhaneki qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Çin Xalq Respublikasının Sədri Si Cinpini təbrik etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçukun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.

Rusiya Baş nazirinin müavini Aleksey Overçuk Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Rusiyanın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan, Rusiya və Ermənistan baş nazirləri müavinlərinin sədrliyi ilə üçtərəfli İşçi qrupunun fəaliyyəti ilə bağlı məsələlər müzakirə edildi.

Azərbaycan-Rusiya ikitərəfli əlaqələrinə toxunuldu, ticarət dövriyyəsinin və Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsullarının ixracının artması məmnunluqla vurğulandı. Azərbaycan-Rusiya sərhədində sərhəd-keçid məntəqələrinin fəaliyyətinin daha da təkmilləşdirilməsi ilə bağlı məsələlər müzakirə olundu, Şimal-Cənub dəhlizi ilə tranzitin artırılması prosesinin çox fəal getdiyi bildirildi.

Söhbət zamanı ticarət, iqtisadiyyat, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *Tbilisi şəhərinin meri Kaxa Kaladzenin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Gürcüstanın paytaxtı Tbilisi şəhərinin meri Kaxa Kaladzeni qəbul edib.

Tbilisi şəhərinin meri Kaxa Kaladzeni salamlayan Prezident İlham Əliyev dedi:

– Xoş gəlmisiniz. Sizi ürəkdən salamlayıram. Azərbaycanda dəfələrlə olmusunuz, bu gün Tbilisi şəhərinin meri kimi gəlmisiniz. Mənə verilən məlumata görə, dünən Tbilisi və Bakı şəhərlərinin tarixində əlamətdar hadisə baş verib, qardaşlaşma haqqında saziş imzalanıb. Mən bunu alqışlayıram, çox düzgün addımdır və düşünürəm ki, təbii addımdır. Çünki ölkələrimiz də qardaş ölkələrdir, xalqlarımız da qardaş xalqlardır və təbii ki, paytaxtlar da qardaş paytaxtlar olmalıdır. Eyni zamanda, həm Bakı, həm də Tbilisi tarixi şəhərlərdir və hər iki şəhərdə bir çox tarixi memarlıq abidələri mövcuddur. Hər iki şəhərdə köhnə kvartal var – İçərişəhər və köhnə Tbilisi. Siz də yaxşı bilirsiniz, heç də bütün ölkələrdə belə şəhərlər yoxdur ki, köhnə kvartallar olsun və o kvartalların siması qorunsun. Tarixboyu Cənubi Qafqazda həm Bakı, həm də Tbilisi həmişə öz gözəlliyi ilə fərqlənirdi və həm siyasi, həm iqtisadi, həm də mədəni mərkəz rolunu oynayırdılar. Əlbəttə ki, dünən imzalanmış sazişdən sonra iki şəhər arasındakı təmaslar daha da sıx olacaq və olmalıdır. Yəqin ki, birgə fəaliyyət planı da hazırlanacaq. Mən istəyirəm ki, çoxlu qarşılıqlı səfərlər olsun, ictimaiyyət nümayəndələri, media nümayəndələri, tanınmış şəxslər müntəzəm olaraq qarşılıqlı səfərlər etsinlər. Həm Tbilisi, həm də Bakı dünyanın heç bir başqa şəhərinə oxşamırlar.

Mən bilirəm ki, siz Tbilisinin meri kimi çox böyük səylər göstərirsiniz və şəhərin tarixi simasını qorumaq istiqamətində çox böyük addımlar atmısınız. Tbilisi şəhərinin tarixi hissəsi, hesab edirəm ki, dünya üçün çox əhəmiyyətlidir. Çünki bu, unikal memarlıq əsəridir. Əlbəttə, hər bir böyük şəhər kimi, Tbilisi də inkişaf etməlidir və bilirəm ki, sizin rəhbərliyiniz altında bu inkişaf da çox düşünülmüş şəkildə aparılır. Biz sizin fəaliyyətinizi çox yüksək qiymətləndiririk. Siz Gürcüstan-Azərbaycan əlaqələrinin inkişafında da böyük səylər göstərirsiniz, Azərbaycanın dostusunuz. Bir daha xoş gəlmisiniz.

* * *

Tbilisi şəhərinin meri Kaxa Kaladze dedi:

-Cənab Prezident, ilk növbədə, məni qəbul etdiyiniz üçün təşəkkür edirəm. Bakı şəhərinə gəlmək mənim üçün həmişə xoşdur. Bakı, buranın mədəniyyəti, ənənələri, insanları məni həmişə valeh edib. Şəhər gündəngünə gözəlləşir, abadlaşır, biz bunu alqışlayırıq. Bugünkü səfər üçün bir daha təşəkkür edirəm.

Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyiniz üçün Sizə təşəkkür edirəm. Gürcüstan da öz tərəfindən hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Dünən qardaşlıq haqqında mühüm sənəd imzalandı. Lakin biz hər zaman qardaş olmuşuq, hər zaman bir-birimizə dost və dayaq olmuşuq. Şəxsən mənim üçün Azərbaycan çox yaxın ölkədir, burada çoxlu dostlarım var. Mən energetika naziri olanda da buraya gəlirdim, çoxlu dostlarım var və çox şadam ki, yenə burada, Bakıdayam.

### *Serbiyanın xarici işlər naziri Nikola Selakoviçin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 25-də Serbiya Respublikasının xarici işlər naziri Nikola Selakoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Serbiyanın xarici işlər naziri Nikola Selakoviç Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Serbiya Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Vuçiçə çatdırmağı xahiş etdi.

Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi məmnunluqla qeyd olundu, Bakıda keçiriləcək Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclasının əməkdaşlığın genişlənməsi baxımından önəmi vurğulandı.

Söhbət zamanı Azərbaycanın və Serbiyanın bir-birinin ərazi bütövlüyünü qarşılıqlı şəkildə dəstəklədiyi bildirildi. İqtisadi əməkdaşlıq məsələləri müzakirə olundu. Prezident İlham Əliyev dedi ki, işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində dost ölkələrin şirkətləri iştirak edir. Bu baxımdan Serbiya şirkətlərinin gələcəkdə bu işlərdə iştirakının mümkünlüyü bildirildi.

### *Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 26-da Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Dövlət başçıları arasında mütəmadi təmasların əlaqələrimizin genişlənməsində xüsusi rolu vurğulandı.

Söhbət zamanı Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlıq məsələləri müzakirə olundu. Qeyd edildi ki, partiyalar arasında əlaqələr ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır. Eyni zamanda, ölkələrimizin müxtəlif qurumlarının nümayəndələrinin qarşılıqlı səfərlərinin əhəmiyyətinə toxunuldu.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı, ölkələrimiz arasında münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

### *Türkiyə Böyük Millət Məclisi sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Görüşdə Türkiyə Böyük Millət Məclisi sədrinin ölkəmizə səfərinin Azərbaycanla Türkiyə arasında əlaqələrin daha da möhkəmlənməsi işinə töhfə verəcəyi qeyd edildi. Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya edəcəyi səfərin önəminə toxunularaq bildirildi ki, Azərbaycan və Türkiyə prezidentləri arasında imzalanan müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi əlaqələrimizin daha yüksək səviyyəyə qalxmasına xidmət edir. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında bütün sahələrdə uğurlu işbirliyinin olduğu vurğulandı.

Bakıda keçiriləcək Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin birinci üçtərəfli görüşünün önəmi qeyd edilərək bildirildi ki, bu görüş üç ölkə arasında mövcud olan birliyi nümayiş etdirir. Vurğulandı ki, Azərbaycan, Türkiyə və Pakistan arasında qardaşlıq əlaqələri mövcuddur. Həm Türkiyə, həm də Pakistanın Vətən müharibəsinin ilk anlarından Azərbaycana dəstəyinin mühüm rolu qeyd edildi.

Söhbət zamanı üç ölkə arasında əməkdaşlığın geniş mənada Avrasiyada yeni işbirliyi çərçivələri formalaşdırdığı bildirildi.

Görüşdə Azərbaycan və Türkiyə parlamentlərarası əməkdaşlığının da uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olundu.

### *ABŞ-ın Oklahoma ştatının qubernatoru Con Kevin Stittin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Amerika Birləşmiş Ştatlarının Oklahoma ştatının qubernatoru Con Kevin Stittin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Amerika Birləşmiş Ştatlarının Oklahoma ştatının qubernatoru Con Kevin Stittin Azərbaycana səfərinin əhəmiyyətinə toxunuldu. Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi

bildirildi, ölkəmizin ABŞ-ın ayrı-ayrı ştatları, o cümlədən 2000-ci ilin əvvəllərindən Oklahoma ştatı ilə əməkdaşlığından məmnunluq ifadə olundu.

Con Kevin Stitt Zəngilan rayonuna edəcəyi səfərinin Azərbaycanın həmin ərazilərdə icra etdiyi "yaşıl enerji" və "ağıllı kənd" layihələri ilə yaxından tanış olmağa imkan yaradacağına ümid etdiyini bildirdi.

Oklahoma Milli Qvardiyası ilə Azərbaycanın Müdafiə Nazirliyinin təxminən 20 ildir əməkdaşlıq etdiyi və indi bu əməkdaşlığın daha geniş tərəfdaşlıq formatına çevrildiyi vurğulandı.

Söhbət zamanı Oklahoma ştatı ilə kənd təsərrüfatı sahəsində əməkdaşlıq məsələlərinə toxunuldu, azərbaycanlı tələbələrin bu ştatda kənd təsərrüfatı üzrə təhsil aldıqları məmnunluqla qeyd edildi.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Sonda xatirə hədiyyələri təqdim olundu.

### *Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Pakistan Milli Assambleyasının sədri Pakistan İslam Respublikasının Prezidenti Arif Alvinin və Baş nazir İmran Xanın salamlarını Azərbaycan Prezidentinə çatdırdı.

Prezident İlham Əliyev Pakistan Prezidentinin və Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Arif Alviyə və İmran Xana çatdırmağı xahiş etdi.

Milli Assambleyanın sədri dövlətimizin başçısını 44 günlük Vətən müharibəsində qazanılan Qələbə münasibətilə təbrik edərək Pakistan xalqının bu Zəfəri Azərbaycan xalqı ilə birlikdə qeyd etdiyini dedi.

Görüşdə Pakistan Milli Assambleyasının sədrinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin gələcək inkişafı baxımından önəmi qeyd edildi. Həmçinin Pakistan, Türkiyə və Azərbaycan parlamentlərinin sədrlərinin üçtərəfli görüşünün əhəmiyyəti vurğulandı, bu görüşün qardaş ölkələr arasında üçtərəfli tərəfdaşlığın inkişafı işinə xidmət etdiyi qeyd olundu, Pakistan və Azərbaycanın bütün məsələlərdə hər zaman bir-birini dəstəkləyən qardaş ölkələr olduğu bildirildi.

Görüşdə İkinci Qarabağ müharibəsi zamanı Pakistanın dəstəyinə görə minnətdarlıq ifadə edildi, müharibənin ilk günlərindən dost ölkənin rəhbərliyinin Azərbaycanı dəstəklədiyi və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı önəmli bəyanatlar verdiyi qeyd olundu.

Söhbət zamanı ölkələrimizin bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəklədikləri vurğulandı. Prezident İlham Əliyev Pakistana səfərini məmnunluqla xatırladaraq əməkdaşlığın müxtəlif sahələrdə daha da genişləndirilməsinin zəruriliyini qeyd etdi.

Görüşdə Pakistan Milli Assambleyasının sədrinin Şuşaya edəcəyi səfərin əhəmiyyətinə toxunuldu və bu, ölkələrimiz arasında münasibətlərin inkişafının bariz nümunəsi kimi dəyərləndirildi.

Söhbət zamanı ölkələrimizin parlamentləri arasında əməkdaşlığın inkişafı məmnunluqla qeyd edildi.

### *Görkəmli qazax şairi və ictimai xadim Oljas Süleymenovun qəbulu*

Avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli qazax şairi və ictimai xadim Oljas Süleymenovu qəbul edib.

Prezident İlham Əliyev Oljas Süleymenovu ölkəmizdə salamlamaqdan məmnunluğunu bildirdi və qeyd etdi ki, onu Azərbaycanda xalqımızın böyük dostu kimi tanıyır, həm qardaş Qazaxıstan mədəniyyətinin görkəmli nümayəndəsi, həm də bütün məsələlər üzrə öz prinsipial mövqeyini hər zaman söyləmiş ictimai xadim kimi sevirlər.

Görkəmli qazax şairinin Azərbaycanı həmişə dəstəklədiyini vurğulayan dövlətimizin başçısı bildirdi ki, Oljas Süleymenov Ermənistanla Azərbaycan arasında münaqişənin həlli işində ölkəmizi həmişə dəstəkləyib. Prezident İlham Əliyev görkəmli şairin ən çətin zamanlarda da öz köklərinə, xalqına sadiq olduğunu və Qazaxıstanın uğurlu inkişafı üçün əlindən gələni əsirgəmədiyini dedi.

Ulu öndər Heydər Əliyevlə Oljas Süleymenovun dostluq münasibətlərini və görüşlərini xatırladan dövlətimizin başçısı bu görüşlərin bir neçəsində özünün də iştirak etdiyini bildirdi, Ümummilli Liderin Oljas Süleymenova həm istedadı, həm də ictimai fəaliyyətinə görə hörmət bəslədiyini qeyd etdi.

Türk dünyası ölkələrinin birliyi, türkdilli ölkələr arasında həmrəyliyin möhkəmləndirilməsi işində görkəmli şairin səylərini vurğulayan Prezident İlham Əliyev bunun xüsusən hazırda dünyada vəziyyətin dəyişdiyi dövrdə mühüm əhəmiyyət daşıdığını dedi.

Dövlətimizin başçısı Oljas Süleymenovun Azərbaycanın bir neçə ali mükafatı ilə təltif olunduğunu xatırlatdı, Azərbaycanla Qazaxıstan arasında mədəni əlaqələrin inkişafına verdiyi töhfələrə görə bu ilin may ayında "Şərəf" ordeni ilə təltif edildiyini bildirdi və ordeni görkəmli qazax şairinə təqdim etdi.

Azərbaycanın "Şərəf" ordeni ilə təltif edilməsinə görə qürur duyduğunu deyən Oljas Süleymenov dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi sayəsində 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasını məmnunluqla vurğuladı və həmin günlərdə mənəvi cəhətdən Azərbaycan xalqının yanında olduğunu qeyd etdi. Görkəmli qazax şairi bildirdi ki, bu Qələbə bütün türk

dünyasının çox böyük növbəti uğurudur və o, tarixdə qalacaq.

Oljas Süleymenov Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma işlərini də məmnunluqla vurğuladı.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Oljas Süleymenova "Qarabağ işğaldan əvvəl və sonra" adlı kitab hədiyyə etdi.

***Koreya Respublikası Milli Assambleyasının sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Koreya Respublikası Milli Assambleyasının sədri Park Byonq-Soqun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev dedi:

– Mən sizi salamlayıram, xoş gəlmisiniz Azərbaycana. Əminəm ki, sizin səfəriniz çox uğurlu olacaq. Şadam ki, siz böyük heyətlə Azərbaycana gəlmisiniz və əminəm ki, Bakıda keçirəcəyiniz görüşlər Koreya-Azərbaycan əlaqələrinin inkişafına xidmət edəcək.

Bizim ölkələrimizi dostluq əlaqələri birləşdirir və müstəqillik dövründə Koreya-Azərbaycan əlaqələri daim uğurla inkişaf etmişdir. Yüksəksəviyyəli qarşılıqlı rəsmi səfərlər həyata keçirilmişdir və siyasi əlaqələrimizin inkişafı üçün çox önəmli addımlar atılmışdır.

Eyni zamanda, Koreya şirkətləri Azərbaycanda müxtəlif sahələrdə iştirak edirlər, müxtəlif layihələri həyata keçirirlər. Əlbəttə, əminəm ki, gələcəkdə iqtisadi-ticari əlaqələrimizin həcmi daha da artacaq. Biz Koreya şirkətlərini azad edilmiş torpaqlarda icra olunacaq layihələrə dəvət etmişik. Mən artıq dəfələrlə demişdim ki, bu layihələrdə Azərbaycan üçün dost olan ölkələrin şirkətləri iştirak edəcəklər. Görüləcək işlərin həcmi çox böyükdür. Biz 10 min kvadratkilometr ərazisi olan yerləri yenidən qurmalıyıq.

Əlbəttə ki, parlamentlərarası əlaqələrimizin inkişafı üçün yaxşı imkanlar var və siz bu gün Azərbaycan Milli Məclisində görüşlər keçirəcəksiniz. Əminəm ki, görüşlərin nəticələri çox müsbət olacaq və nəticə etibarilə əlaqələrimizin inkişafı istiqamətində növbəti uğurlu addım atılacaqdır. Bir daha xoş gəlmisiniz.

* * *

Koreya Respublikası Milli Assambleyasının sədri Park Byonq-Soq dedi:

-Cənab Prezident İlham Əliyev, çox sağ olun ki, dəyərli vaxtınızdan ayırdınız və bizi qəbul etdiniz. İlk növbədə, Koreya Respublikasının Prezidenti cənab Mun Ce-inin salamlarını Sizə çatdırmaq istəyirəm. Cənab Əliyev, mən çox yüksək qiymətləndirirəm ki, Sizin prezidentlik fəaliyyətiniz dövründə Azərbaycanda həm siyasi sabitlik hökm sürmüşdür, həm də Azərbaycan iqtisadi cəhətdən inkişaf etmişdir. Mən çox şadam ki, Sizi belə bir mühüm ildə ziyarət etdim. Çünki bu il sizin müstəqilliyinizin 30 ili tamam olur. Həmçinin növbəti il Azərbaycan ilə Koreya arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam olur. Mən səkkiz il əvvəl Azərbaycana Milli Assambleyanın sədr müavini vəzifəsində gəlmişdim və Sizinlə görüşmüşdüm. Bu səkkiz il ərzində Bakı çox dəyişib, inkişaf edib. Canlı şahidiyəm ki, Bakını tanımaq olmur. Bakı çox inkişaf edib. Bizim əlaqələrimizin potensialı hazırkı inkişaf səviyyəsindən daha artıqdır.

* * *

Prezident İlham Əliyev Koreya Respublikasının Prezidenti Mun Ce-inin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Prezidentinə çatdırmağı xahiş etdi.

***BMT-nin Azərbaycanda yeni təyin olunmuş rezident əlaqələndiricisinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul edib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva təyinatı ilə bağlı məktubu Prezident İlham Əliyevə təqdim edərək dedi:

-BMT-nin Azərbaycan Respublikasına rezident əlaqələndirici vəzifəsinə təyin olunmağımla bağlı məktubu Sizə təqdim etməkdən məmnunluq hissi keçirirəm. Dayanaqlı İnkişaf Məqsədlərini inkişaf etdirməkdə və onlara nail olmaqda Azərbaycana dəstək vermək üçün burada olmaq və BMT sisteminə rəhbərlik etmək mənim üçün şərəfdir.

Prezident İlham Əliyev dedi:

– Xoş gəlmisiniz. Sizi görməyə şadam. Sizə Azərbaycanda yaxşı vaxt keçirməyi arzulayıram. Bildiyiniz kimi, Azərbaycan həmişə BMT-nin fəal üzvü olmuşdur. Biz təqribən on il bundan əvvəl beynəlxalq birliyin böyük dəstəyi ilə hətta Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdik. 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdir və bu da Azərbaycanın beynəlxalq nüfuzunu və fəal xarici siyasətini nümayiş etdirirdi. İkiillik sədrlik dövründə biz mühüm məsələlərlə bağlı təşəbbüslər irəli sürdük və beynəlxalq birliyin gündəliyində duran vacib qlobal məsələlərə toxunduq. İndi isə BMT-dən sonra ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının sədri kimi biz beynəlxalq münasibətlər sistemində mühüm rol oynayırıq və BMT Baş katibinin təşəbbüslərinə dəstək oluruq, xüsusilə COVID ilə mübarizə sahəsində. Bildiyiniz kimi, ötən ilin sonunda Qoşulmama Hərəkatının sədri kimi bizim təşəbbüsümüzlə koronavirusa həsr olunmuş BMT Baş Assambleyasının xüsusi sessiyası keçirilmişdir və bu da

bu xəstəliyə qarşı bizim qlobal mübarizəyə bir töhfəmiz idi. Həmçinin milli qisimdə 30-dan çox ölkəyə yardım göstərmişik. Maliyyə, humanitar yardımı göstərmişik, biz dəstəyə ehtiyacı olan ölkələrlə peyvəndləri paylaşmışdıq. Bu, bizim beynəlxalq birliyin məsul üzvü kimi gündəliyimizi nümayiş etdirir.

İmkanlarımız və potensialımız daxilində biz sülhə və təhlükəsizliyə töhfə verməyə çalışırıq. BMT ilə bizim fəal qarşılıqlı əlaqəmiz Ermənistanın təcavüzü nəticəsində başlamışdır və 1993-cü ildə Təhlükəsizlik Şurasının məşhur qətnamələri qəbul olunmuşdur. Bu, çox müsbət addım idi, erməni təcavüzünə toxunularaq bizə dəstəyin çox ümidverici bir jesti idi. Bizim beynəlxalq səviyyədə tanınan ərazilərimizdən erməni qoşunlarının dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələbi Təhlükəsizlik Şurasının çox mühüm siyasi bir jesti idi. Lakin, əfsuslar olsun ki, bu qətnamələr icra olunmamışdır və yəqin sizin də bildiyiniz kimi, Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin olmaması məsələsini mən şəxsən dəfələrlə qaldırmışam. Bəzi hallarda qətnamələr qısa müddət ərzində icra olunur, lakin bizə gəldikdə onlar beynəlxalq iştirakçılar tərəfindən ümumiyyətlə icra olunmamışdır. Xüsusilə bizi narahat edən və Azərbaycan cəmiyyətinin anlamaqda çətinlik çəkdiyi məsələ o idi ki, bu qətnamələri qəbul edənlər, Təhlükəsizlik Şurasının daimi üzvü olan beş ölkədən üçü ATƏT-in Minsk qrupuna həmsədr olan və hələ də həmsədrlik edən ölkələrdir. Onlar özləri bu qətnamələri qəbul etmişdir. Bu qətnamələrin həyata keçirilməsinə imkan yaratmaq üçün onların mandatı var idi. Lakin, əfsuslar olsun ki, 28 il ərzində Minsk qrupu çox imkanları əldən verib. Bir çox hallarda mən Ermənistana qarşı sanksiyaların tətbiq edilməsi məsələsini qaldırmışdım. Çünki düşünürdüm ki, bu, toqquşmanın, müharibənin qarşısının alınması üçün bir yol ola bilərdi. Biz məsələni sülh yolu ilə həll etmək istəyirdik. Ötən il, müharibədən cəmi bir neçə gün əvvəl, Baş Assambleyada çıxış edərkən mən beynəlxalq birliyi xəbərdar edərək, Ermənistanın müharibəyə hazırlaşdığını dedim. Bu, təbliğat deyildi, Ermənistanın müharibədən əvvəlki aylar ərzində davranışının real təhlilinin nəticəsi idi. Əfsuslar olsun ki, mən haqlı çıxdım. Ona görə də, əgər Ermənistana qarşı vaxtında sanksiyalar tətbiq edilsəydi, əgər Minsk qrupunun həmsədrləri, dünyanın üç aparıcı ölkəsi potensialının 5 faizini Ermənistanı öz işğalçı qüvvələrini geri çəkməyə inandırmağa və ya məcbur etməyə istifadə etsəydi, müharibə baş verməzdi. Odur ki, müharibəyə görə məsuliyyət yalnız Ermənistanın üzərində deyil, həmçinin onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin üzərinə düşür. Nəticədə Azərbaycan bu qətnamələri beynəlxalq hüququn normaları çərçivəsində özü həyata keçirdi. Biz ədaləti, beynəlxalq hüququn normalarını bərpa etdik. Biz Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrini özümüz yerinə yetirdik. Biz BMT-nin Nizamnaməsini rəhbər tutaraq hərəkət etdik. 51-ci maddə hər bir ölkənin özünümüdafiə hüququnu tanıyır. Beləliklə, biz bütün beynəlxalq alətlərdən istifadə edərək, öz ərazi bütövlüyümüzü bərpa etdik.

İndi müharibə bitib, münaqişə həll olunub, bu baş verənlər haqda danışılası heç bir məsələ qalmayıb. Biz artıq gələcəyə baxmalıyıq və hazırda bizim əsas narahatlığımız dağıdılmış, tamamilə viran qoyulmuş ərazilərin bərpasıdır. Əlbəttə ki, biz Birləşmiş Millətlər Təşkilatı ilə bu məsələlərdə, humanitar vəziyyətlə bağlı məsələlərdə, işğaldan azad olunmuş ərazilərin bərpasına dair planlarımızla bağlı gələcək əməkdaşlığa ümid edirik. Sözsüz ki, bizim BMT institutları ilə daha çox qarşılıqlı əlaqəyə ehtiyacımız var. Bildiyiniz kimi, UNESCO ilə də təmasdayıq. Biz UNESCO-nu, demək olar ki, 30 ilə yaxındır gözləyirik. Bilmirəm bunu bilirsiniz ya yox biz, bir neçə il bundan öncə hələ işğal dövründə, UNESCO-nu buraya səfər etməyə və bizim ərazilərdə nələrin törədildiyini görməyə dəvət etmişdik. Çünki ATƏT-in Minsk qrupu işğal olunmuş ərazilərə artıq iki faktaraşdırıcı missiya göndərmişdi. Biz onlardan yenidən bir missiya göndərməyi xahiş etdik, lakin onlar göndərmədilər. Biz UNESCO-dan tarixi abidələrimizə erməni təcavüzkarları tərəfindən dəymiş ziyanı gəlib görməyi xahiş edirdik, lakin onlar imtina etdilər. UNESCO rəsmiləri dedilər ki, UNESCO siyasi məsələlərə qarışmır. Lakin, müharibə bitdikdən sonra UNESCO tərəfindən onların gəlmək istədiyinə dair siqnallar aldıq. Əlbəttə, biz öz təəccübümüzü bildirdik. Çünki demək olar, 30 il idi ki, biz onları çağıranda gəlmirdilər. Müharibədən sonra isə gəlməyə qərar verdilər. Buna görə biz buna razılaşdıq və mənim də bildiyim qədər son məlumat belə idi ki, missiya artıq yaradılıb, amma indi Ermənistan yenə etiraz edir. Buna görə yenə də missiya gecikir.

BMT-nin digər təsisatları ilə daimi təmasdayıq. Bizə ekspert biliyi və məsləhətlər nöqteyi-nəzərdən geniş beynəlxalq iştirak və yardım lazım olacaq. Çünki indi bizim bərpa etdiyimiz ərazi on minlərlə kilometrdən çoxdur və əlbəttə ki, biz BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə təmasdayıq. Mümkün olan ən qısa müddətdə bütün keçmiş məcburi köçkünləri orada yenidən məskunlaşdırmağı planlaşdırırıq, amma əsas problem mina və hər yerin tamamilə dağıdılıb, viran qoyulmasıdır. Buna görə də Birləşmiş Millətlər Təşkilatı və qurumları ilə əsas məqsədimiz bir-birimizə etimad göstərərək və tərəfdaş olaraq azad edilmiş torpaqlarımızın bərpa edilməsinə nail olmaqdır. Bakıdakı nümayəndəliyinizin bu işə fəal cəlb olunacağına güvənirik.

* * *

BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreyeva dedi:

– Sağ olun, cənab Prezident. BMT ilə Azərbaycan arasında dostluğun artıq 29 yaşı var. Gələn il, biz Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyini qeyd edəcəyik. Eyni zamanda, BMT-nin Bakıda nümayəndə-

liyinin açılmasının da 30 illiyi olacaq. Bir halda, qeyd olunacaq və nəzərdən keçiriləcək tarixlər çoxdur, hesab edirəm ki, son 18 ay görünməmiş hadisələrlə yadda qaldı. COVID-19 qlobal böhrana çevrildi və bir çox dövlətlər mübarizə aparırdılar. Mən COVID-19-a qarşı çox qətiyyətli milli cavab tədbirlərinin görülməsində Sizin və hökumətinizin göstərdiyi səyləri alqışlamaq istəyirəm. Bununla belə, Siz də qeyd etdiniz ki, bu dövrdə biz çoxtərəfliliyə, ümumi məsuliyyətə daha güclü sadiqliyimizi nümayiş etdirməli olduq. Biz, ilk olaraq, COVID-19-a qarşı cavab tədbirlərinin müzakirəsinə həsr olunmuş Qoşulmama Hərəkatının Zirvə görüşünün keçirilməsi, sonra isə, BMT-nin Baş Assambleyasında xüsusi sessiyanın təşkil olunması üçün göstərdiyiniz səylərə görə minnətdarıq.

Azərbaycanda peyvənd işlərinə gəldikdə, ölkəniz regionda perspektivli mövqelərdən birini tutur. BMT son 18 ay ərzində gördüyü işlərə sadiq qalaraq, öz yardımını bundan sonra da göstərməyə hazırdır. Biz 4 milyona yaxın ilk təcili əşyalardan ibarət dəstləri paylamışıq. Hökumət ilə səhiyyə işçilərinin birgə təlimlərinə sərmayələr yatırmışıq. Həmin təlimlərdən 3 mindən artıq işçi keçmişdir. COVID-19-un qarşısının alınmasına yönəlmiş ictimai kampaniya 1 milyondan artıq insanı əhatə etmişdir. Sizin də qeyd etdiyiniz kimi bu, son 18 ay ərzində Azərbaycan xalqının üzləşdiyi yeganə çətinlik olmamışdır. Ümid edirik ki, noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat Cənubi Qafqaz regionunda uzunmüddətli sülhün bərqərar olunmasında, əmin-amanlığa və əməkdaşlığa aparan yeni eraya təkan olacaq. BMT tərəfindən dekabr ayında Qarabağ bölgəsində tələbatların qiymətləndirilməsində hökumətə dəstək olmuşuq. Biz əvvəlki təmas xətti boyu 6 rayonda minaların təmizlənməsi üçün ANAMA-ya yardım məqsədilə dərhal 1 milyon dollar topladıq. Biz minaların təmizlənməsi işində milli mütəxəssislərə dəstəyi davam etdirəcəyik, çünki anlayırıq ki, bu, prioritetdir. Eyni zamanda, BMT Dünya Bankı, Avropa İttifaqı və digər beynəlxalq tərəfdaşlar ilə fond yaradaraq, əlaqələndirmə işini aparır ki, ANAMA üçün təlimlər davam etsin və minaların təmizlənməsi prosesi ən yüksək standartlara uyğun aparılsın. Biz məcburi köçkünlərin həmin bölgəyə təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı üçün göstərilən səylərin dəstəklənməsinə tam sadiq qalırıq. İrəliyə doğru addım ataraq, martın 1-də biz BMT ilə Azərbaycan arasında əməkdaşlığa dair yeni Çərçivə sənədini, yeni paktı imzalamışıq. Növbəti beş il ərzində qarşımızda çox böyük vəzifələr qoymuşuq. Əslində, biz inklüziv artıma dəstək vermək və gənclərlə iş aparmağı arzulayırıq ki, onların əmək bazarlarına aid bacarıqları formalaşsın. Biz, həmçinin daha yaşıl iqtisadiyyatın qurulmasında və səhiyyə, sosial müdafiə, təhsil və ədliyyə sahələrində xidmət göstərən təsisatların imkanlarının gücləndirilməsində hökumətin təşəbbüslərinə dəstək vermək istərdik. Bundan əlavə, qadın və qızların həyatın bütün sahələrində imkanlarının genişləndirilməsi istiqamətində hökumətin səylərini dəstəkləmək istərdik.

### *Belçikanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mişel Pitermansın etimadnaməsini qəbul edib.

Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mişel Pitermans etimadnaməsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etdi.

Söhbət zamanı Azərbaycan Prezidenti İlham Əliyevin Belçika Krallığına səfərləri və bu səfərlər zamanı Belçikalıların Kralı Əlahəzrət Filiplə görüşləri xatırlanaraq, bu görüşlərdə ölkələrimiz arasında əməkdaşlığa dair çox səmərəli müzakirələrin aparıldığı bildirildi.

Görüşdə Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında əlaqələrin genişləndirilməsinin önəminə toxunularaq, əməkdaşlığın konkret sahələrinin müəyyənləşdirilməsi, o cümlədən ticarət dövriyyəsinin artırılması istiqamətində praktiki addımların atılmasının vacibliyi qeyd edildi.

Səfir Mişel Pitermansın ölkəmizdə diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyinə ümidvarlıq ifadə olundu.

### *Fərid Qayıbovun gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

Dövlətimizin başçısı qəbulda çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

– Siz gənclər və idman naziri vəzifəsinə təyin edilirsiniz, sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız. Ölkəmizin idman ictimaiyyəti sizi yaxşı tanıyır. Siz uzun illər idman sahəsində fəaliyyət göstərirsiniz, eyni zamanda, siz Avropa Gimnastikasının prezidentisiniz. Bu vəzifəyə bir neçə il bundan əvvəl seçilmisiniz və bu, onu göstərir ki, beynəlxalq arenada da nüfuz qazanmısınız. Bu amilləri nəzərə alaraq, bu yüksək etimadı sizə göstərirəm və ümid edirəm ki, idman sahəsində, gənclər siyasəti sahəsində yaxşı nəticələr olacaq.

Bütövlükdə idman sahəsi Azərbaycanda sürətlə inkişaf edibdir və bu gün dünya miqyasında Azərbaycan

idman ölkəsi kimi tanınır. Beynəlxalq yarışlarda idmançılarımız yüksək nəticələr göstərirlər. Düzdür, Azərbaycan ictimaiyyəti bizim idman sahəsindəki qələbələrə öyrəşib və əgər biz hansısa nəticəni əldə edə bilmiriksə, əlbəttə ki, məyus olur. Ancaq hamımız bilməliyik ki, idman sahəsində rəqabət kifayət qədər güclüdür və bütövlükdə son illər ərzində idman sahəsində göstərilən nəticələr, əlbəttə, qürurvericidir. İdmançılarımız Dünya, Avropa oyunlarında, digər beynəlxalq yarışlarda bizi sevindirirlər. Son Yay Olimpiya Oyunlarında Rio Olimpiya Oyunları ilə müqayisədə az medal qazansaq da, yenə də hesab edirəm ki, idmançılarımız yaxşı nəticə göstəriblər. Medalların sayına görə Azərbaycan 33-cü yeri, Avropa ölkələri arasında 20-ci, müsəlman ölkələri arasında isə 4-cü yeri tutub. Düzdür, idmançılarımız bu dəfə qızıl medal qazana bilmədilər, amma ona çox yaxın idilər. Amma yenə də deyirəm, idmanda məğlubiyyətlər də olur, qələbələr də olur. Bütövlükdə idman sahəsində əldə edilmiş nəticələr çox müsbətdir. Paralimpiyaçılarımız bizi çox sevindirib və böyük məharət, peşəkarlıq, fədakarlıq göstərərək çoxlu medallar, o cümlədən bir çox qızıl medallar qazanıblar. Əlbəttə ki, bu da çox önəmli hadisədir və biz haqlı olaraq paralimpiyaçılarımızla fəxr edirik.

Eyni zamanda, idman sahəsində buraxılan nöqsanlar da ciddi araşdırılmalıdır, ciddi təhlil aparılmalıdır. Xüsusilə Olimpiya Oyunlarına hazırlıq dövründə bəzi federasiyalarda işlər qeyri-qənaətbəxş olmuşdur və bütün federasiyalarda mövcud olan vəziyyət ciddi təhlil edilməlidir. Deməli, məşq prosesinə, təlim-məşq toplanışlarına xüsusi diqqət verilməlidir. Onu da nəzərə almalıyıq ki, son Olimpiya Oyunlarında medallar qazanmış idmançılarımız bizim təcrübəli idmançılardır. Demək olar ki, veteran idmançılardır. Onların arasında gənc nəslin nümayəndələri yoxdur və bu, çox ciddi təhlil edilməlidir. Necə ola bilər ki, nəsillər arasında artıq belə bir ara, elə bil ki, məsafə yaranır. Son illərdə bütün bölgələrdə idman obyektlərinin tikintisi geniş vüsət almışdır, təkcə bölgələrdə 50-yə yaxın idman-olimpiya kompleksimiz fəaliyyət göstərir. Onların fəaliyyəti ciddi təftiş edilməlidir, orada məşq prosesi nə səviyyədədir, uşaqlar, yeniyetmələr idman bölmələrinə gəlirmi, gəlmirmi, idmanla məşğul olmaq üçün şərait nə dərəcədədir? Çünki biz, bu infrastrukturu, bu kompleksləri o məqsədlə yaratmışıq ki, həm idmanın kütləviliyi artsın, eyni zamanda, peşəkar idmançılar yetişsin. Nəzərə alsaq ki, Tokio Olimpiya Oyunlarında gənc idmançılar medallar qazana bilmədilər, bu, çox ciddi təftiş edilməlidir. Klublardakı vəziyyətlə bağlı təhlil aparılmalıdır. Yəni, biz nəticə çıxarmalıyıq. Biz, əlbəttə, qələbələrlə fəxr edə bilərik. Ancaq çatışmazlıqlar da var və onlar aradan qaldırılmalıdır. Bu sahədə şəffaflıq tam təmin edilməlidir və bütün xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır.

İdman sahəsində tərbiyə məsələlərinə də çox ciddi diqqət yetirmək lazımdır. Bütövlükdə gənclərimizin tərbiyə edilməsi prosesi diqqət mərkəzində olmalıdır. Gənclərimiz ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Həm məktəblərdə, həm ailələrdə ənənəvi dəyərlər bizim əsas sütunumuzdur. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər savadlı, bilikli olmalıdırlar, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar. Bizim milli dəyərlərimizi dərk etməlidirlər, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır. Çünki indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni, gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır. Burada vətənpərvərlik hissləri ön planda olmalıdır. Əlbəttə ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır. 44 günlük Vətən müharibəsinin hər günü bizim üçün əzizdir, doğmadır. Vətən uğrunda öz canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bizim üçün doğmadır, bizim üçün müqəddəsdir və gənclər bu nümunələr əsasında tərbiyə almalıdırlar. Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Bunun çox böyük mənəvi və psixoloji mənası var. Uzun illər Azərbaycan işğala məruz qalmış ölkə, biz azərbaycanlılar isə düşmən tərəfindən öz doğma torpağından didərgin salınmış xalq kimi yaşamışıq, əzab-əziyyət içində yaşamışıq, fiziki və mənəvi əzablar içində yaşamışıq. Biz buna son qoyduq. Bundan sonra müzəffər xalq kimi, qalib ölkə kimi, qürurlu insanlar kimi əbədi yaşayacağıq. Bu şanlı tarixi yaşatmaq üçün, qorumaq üçün və gəncləri bunun əsasında tərbiyə etmək üçün sizin nazirliyinizin üzərinə böyük vəzifələr düşür.

Mən əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və bu prinsipləri gündəlik fəaliyyətinizdə rəhbər tutaraq nazirliyin fəaliyyətini təşkil edəcəksiniz. Sizi təbrik edirəm və sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

* * *

Fərid Qayıbov: Çox sağ olun, cənab Prezident. Əvvəlcə icazə verin, göstərdiyiniz bu etimada, haqqımda deyilən bu sözlərə görə Sizə dərin minnətdarlığımı bildirim. Bu, mənim üçün böyük bir şərəfdir. Verdiyiniz tapşırıqlar, tövsiyələr aydın oldu, elə dərhal bu istiqamətdə işləməyə başlayacağam. Söz verirəm ki, əlimdən gələni edəcəyəm. İnanıram ki, sağlam cəmiyyətdə yaşayan Azərbaycan gəncləri yaxın gələcəkdə də öz yeni uğurları ilə, idmançılarımız isə yeni qələbələri ilə, cənab Prezident, Sizi və Azərbaycan xalqını sevindirəcəklər. Çox sağ olun.

***Rafiq Cəlilovun Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı və Rəşad Tağıyevin Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar videoformatda qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Rafiq Cəlilovu Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı və Rəşad Tağıyevi Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib.

Dövlətimizin başçısı qəbulda çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

– Siz Cəlilabad və Şəmkir rayonlarının icra başçıları vəzifələrinə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Ümid edirəm ki, siz bu etimadı doğruldacaqsınız.

Son illər Cəlilabad və Şəmkir rayonlarının sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görülüb. Dövlət investisiya proqramları çərçivəsində əsas infrastruktur layihələri icra edilib, ya da ki, bu layihələrin icrası başa çatmaq üzrədir. Regionların Sosial-İqtisadi İnkişafı Dövlət proqramlarının icrası çərçivəsində hər iki rayonda böyük abadlıq işləri aparılıb. Demək olar ki, əsas infrastruktur layihələri icra edilmiş hesab oluna bilər. Hər iki rayonda elektrik təsərrüfatı tamamilə yenilənib və elektrik enerjisinin təchizatında hər hansı bir problem yoxdur. Qazlaşdırma işləri sürətlə aparılmışdır. Cəlilabad rayonunda qazlaşdırmanın səviyyəsi 90 faizdən çoxdur, Şəmkir rayonunda isə 100 faizə yaxınlaşır. Hesab edirəm ki, bu, son illər ərzində bölgələrdə aparılmış işlər arasında xüsusi yerə layiq olan işlərdir. Çünki təbii qazla vətəndaşlarımızı təmin etmək bizim əsas vəzifələrimizdən biri idi və bu gün ölkə üzrə təbii qazla təchizat 96–97 faizə çatıbdır. Bu göstəriciyə görə Azərbaycan dünya miqyasında ən qabaqcıl yerlərdədir.

Mənim iştirakımla Cəlilabad və Şəmkir şəhərlərinin içməli su layihələri mərasimləri həyata keçirilmişdir. Şəhərlərə 2013-cü və 2017-ci illərdə içməli suyun verilməsi də böyük hadisə idi. Eyni zamanda, bir çox kəndlərdə bu problem öz həllini tapıb. Suvarma ilə bağlı böyük işlər görülüb. Bir çox artezian quyuları qazılıb. Eyni zamanda, Şəmkir rayonunda böyük su anbarı tikilib – Şəmkirçay su anbarı. Hansı ki, həm Şəmkir, həm də qonşu rayonlarda meliorativ tədbirlərin görülməsi üçün yeni imkanlar yaradıb, həmçinin suvarılan torpaqların miqyasını böyük dərəcədə genişləndirib.

Sosial infrastrukturla bağlı böyük işlər görülüb. Hər iki rayonda 120-yə yaxın məktəb tikilib və ya əsaslı təmir edilib. İki böyük xəstəxana inşa edilib – 190 və 145 yerlik. Bundan əlavə Cəlilabadda Müalicə-Diaqnostika Mərkəzi inşa edilib. İki böyük Olimpiya İdman Kompleksi istifadəyə verilib. Yəni, sosial və infrastruktur layihələrinin icrası göz qabağındadır. Əlbəttə ki, bu, rayonların uğurlu inkişafı üçün əsas zəmin yaradır. Çünki əgər bu ilkin addımlar atılmasaydı rayonların inkişafından söhbət gedə bilməzdi. Bütün bu işlər dövlət büdcəsi hesabına və mənim göstərişimlə, mənim tərəfimdən təsdiq edilmiş Regionların Sosial-İqtisadi İnkişafı Dövlət proqramları çərçivəsində görülübdür.

Cəlilabad və Şəmkir rayonlarına icra başçıları təyin olunarkən onlara göstəriş vermişdim ki, siz artıq yerdə qalan məsələləri həll edin. Əsas böyük işlər görülüb, çox gözəl zəmin yaradılıb. Siz isə gündəlik həyatda elə işləyin, elə çalışın ki, həm vətəndaşlar sizdən razı olsunlar, həm də rayonların inkişafı sürətlə getsin və təşəbbüs göstərin, investorları cəlb edin, sahibkarlara şərait yaradın. Ancaq əfsuslar olsun ki, real həyatda biz bunun tam əksini görürük. Bunun nəticəsində və eyni zamanda, buraxılmış ciddi nöqsanlar, pozuntular, rüşvətxorluq və korrupsiya hallarına görə həm Cəlilabad, həm də Şəmkir rayonlarının keçmiş icra başçıları cinayət məsuliyyətinə cəlb olunmuşlar. İndi hər kəs görür ki, heç kim qanundan yuxarı dayana bilməz və burada hər kəs qanun qarşısında bərabərdir. Heç kimdə immunitet yoxdur və ola bilməz. Bütün dövlət məmurlarını vəzifəyə təyin edərkən mən bu tövsiyələri verirəm. Ancaq sizdən əvvəl bu vəzifələrdə çalışmış insanlar yalnız şəxsi mənafelərini güdürdülər, talançılığa, rüşvətxorluğa və korrupsiyaya qurşanmışdılar, insanlara laqeyd yanaşırdılar, rayonların qarşısında duran gündəlik problemlərlə yox, öz şəxsi problemləri ilə, şəxsi biznesləri ilə məşğul idilər və əlbəttə, insanların haqlı narazılığına səbəb olmuşdular. Bütün bu faktlar üzə çıxandan sonra, əlbəttə ki, hər iki icra başçısı öz vəzifələrindən azad edildi və indi onlar qanun qarşısında cavab verəcəklər. İstintaq gedir, istintaq hər şeyi göstərəcək. Ancaq ilkin məlumatlar, o cümlədən sübutlar və istintaq materialları deməyə əsas verir ki, bu insanların cinayət məsuliyyətinə cəlb edilməsi tam əsaslı idi.

Son illər ərzində bir çox yüksəkvəzifəli məmurlar, yerli və mərkəzi icra orqanlarının rəhbərləri, eyni zamanda, sabiq rəhbərlər, nazirlər, icra başçıları cinayət məsuliyyətinə cəlb edilmişlər. Nəyə görə? Törətdikləri cinayətlərə görə, əməllərə görə. Hər kəs bilməlidir ki, heç kim məsuliyyətdən canını, yaxasını qurtara bilməz. Bunu mən dəfələrlə demişəm, bir daha demək istəyirəm, sizə də deyirəm və bu gün bütün digər məmurlara deyirəm – əgər məmurlar öz işində yenə də bu çirkin əməllərdən əl çəkməsələr, onların da aqibəti eyni olacaq. Hətta çıxışlarımın birində demişdim ki, əgər təmiz işləmək istəmirsinizsə, getməyin bu işlərə, razılıq verməyin, yoxsa bədbəxt olacaqsınız. Əgər siz bu məsuliyyətin altına girirsinizsə, onda, bax, dediyim kimi, qanun çərçivəsində işləməlisiniz və bu yüksək etimadı doğrultmalısınız. Elə işləməlisiniz ki, vətəndaşlar sizdən razı olsunlar. Ancaq indi istintaq materiallarının bir çoxunda göstərilir ki, bir neçə rayonun icra başçıları hətta sosial cəhətdən ən həssas təbəqənin nümayəndələrindən də pul, rüşvət almışlar. İşsizliyin səviyyəsini azaltmaq, xüsusilə dünyada gedən böhranlı vəziyyəti, sosial-iqti-

sadi böhranı, pandemiya dövrünü nəzərə alaraq mənim təşəbbüsümlə ən həssas təbəqə üçün yüz minə yaxın ödənişli ictimai iş yeri açılıbdır və orada məvacib minimum əməkhaqqına bərabərdir. Bunları da çox görüblər o insanlara və onların da ödəniş kartlarını öz kabinetlərində saxlayaraq oradan pul çəkmişdilər. Yəni, bu qədər vicdansızlıq ola bilərmi? Məşhur videokadrlar var. Dəstəyə, sosial müdafiəyə ehtiyacı olan ailələrə Heydər Əliyev Fondu tərəfindən göndərilən humanitar yardımın da dalına keçirlər. Bu videokadrlar var, hər kəs bunu görüb və nifrət edib o adamlara ki, nə qədər yardım göndərilib, bunun filan faizini götürək bazarda sataq. Bu qədər alçaqlıq, vicdansızlıq ola bilər?! Bu insanlar özlərini biabır edirlər, bizim iqtidarımıza ləkə vururlar. Əgər kimsə hesab edir ki, bu, onlar üçün nəticəsiz qalacaq, səhv edir.

Mən hesab edirəm, artıq hər kəs başa düşüb ki, dövlət məmuru nümunə olmalıdır, yerlərdə insanların dolanışığı, insanların rahatlığı dövlət məmurunun fəaliyyətindən asılıdır. Onlar elə işləməlidirlər ki, daim insanlarla bir yerdə olsunlar. Mənim tövsiyələrimin içində bu tövsiyə də həmişə xüsusi yer tutur. Sizə də deyirəm, siz insanların arasında olmalısınız, onlarla daim təmasda olmalısınız, onların qayğıları ilə yaşamalısınız və çalışmalısınız ki, imkan daxilində onlara kömək edəsiniz.

Eyni zamanda, yenə də deyirəm, dövlət tərəfindən, mərkəzi icra orqanları tərəfindən rayonların inkişafı ilə bağlı böyük işlər görülüb, işlərin böyük hissəsi görülüb. Siz yerlərdə elə işləyin ki, rayonlar daha sürətlə inkişaf etsin. İndi bizim bir çox rayonlarımız artıq mərkəzdən dotasiya almır. Ancaq 10 il bundan əvvəl demək olar ki, rayonların mütləq əksəriyyəti dotasiya alırdı. Nə üçün? Çünki yerlərdə yığılan vəsait məmurların cibinə gedirdi, dövlət xəzinəsinə, dövlət büdcəsinə yox, məmurların cibinə. Gecə-gündüz elə burada, qapılarda fırlanıb, hansısa maddi dəstək, maddi yardım istəyənlərin sayı kifayət qədər çox idi, icra başçılarını nəzərdə tuturam. Amma aparılan islahatlar nəticəsində indi bir çox rayonlar artıq dotasiya almır. Biz elə etməliyik ki, ümumiyyətlə, rayonların inkişafı yerlərdə, bütün rayonlarda yığılan vəsait hesabına təmin olunsun.

Əlbəttə, biz hər bir rayonun inkişafı ilə bağlı lazımi addımları atacağıq. Əsas infrastruktur layihələrinin başa çatması o demək deyil ki, biz bu maliyyə və maddi dəstəyi kəsəcəyik. Yox, verəcəyik, ancaq məqsədyönlü şəkildə, ancaq bütün qaydaları nəzərə almaq şərti ilə verəcəyik. Bir də ki, həbs edilmiş icra başçıları, - təkcə Cəlilabad, Şəmkir rayonlarından söhbət getmir, - digər rayonlarda da tender prosedurlarını kobudcasına pozurdular. Yəni, dövlət xətti ilə aparılan layihələrin, dövlət alışlarının icrası ilə əlaqədar tenderlərdə adətən bir neçə icra başçısına, ya da ki, onun müavininə yaxın olan şirkətlər qalib gəlirdilər. Nə üçün? Çünki burada da rüşvətxorluq və mənimsəmə halları kütləvi xarakter alırdı və bu da dövlət büdcəsinə böyük ziyandır. Əgər korrupsiya, rüşvətxorluq halları olmasaydı, baxın, bizim dövlət büdcəmiz nə qədər artardı, bizim imkanlarımız nə qədər genişlənərdi. Biz bu gün aparılan islahatlar nəticəsində əldə edilmiş əlavə mənfəəti, ilk növbədə, insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldirik. İndi ilin doqquzuncu ayıdır. Ancaq şəffaflıq nəticəsində, islahatlar nəticəsində dövlət büdcəsində profisit yaranıb və biz bunun böyük hissəsini yenə də insanların sosial müdafiəsinə yönəldirik.

Eyni zamanda, siz çalışmalısınız ki, rayonlara investisiyalar cəlb edəsiniz, həm yerli, həm xarici. Burada da fəallıq göstərilməlidir. Çünki özəl investisiyalar olmadan ölkəmiz istədiyimiz qədər inkişaf edə bilməz. Dövlət hər şeyi öz boynuna götürə bilməz. Onsuz da bütün ölkə üzrə bütün bu quruculuq-abadlıq işləri dövlət investisiya xətti ilə görülmüşdür və sahibkarlara şərait yaradılmalıdır. Sahibkarlara imkanlar verilməlidir ki, gəlsinlər öz vəsaitlərini qoysunlar, iş yerləri yaratsınlar. Ancaq iş görmək istəyən sahibkar bəzi hallarda problemlərlə üzləşir, ona qarşı hansısa əsassız tələblər qoyulur, ondan pay istənilir və sahibkar da küsüb gedir, ümumiyyətlə, nə iş yeri yaradır, nə müəssisə yaradır, çıxıb gedir. Bu hallar da var. Buna da son qoyulmalıdır. Sahibkar əmin olmalıdır ki, o, ancaq dövlətin vergisini ödəməlidir, vəssalam. Xüsusilə nəzərə alınmalıdır ki, həm Cəlilabad, həm Şəmkir rayonlarının çox böyük potensialı var, münbit torpaqları var, insan resursları var, hazırlıqlı kadr potensialı var. Hər iki rayonun əhalisi də kifayət qədər böyükdür, digər rayonlarla müqayisədə çox böyük sənaye və kənd təsərrüfatı, turizm potensialı var. Bunlardan səmərəli şəkildə istifadə etmək lazımdır. Baxın, dövlət hər şeyi edib, gözəl yollar, qaz xətləri, elektrik xətləri, su xətləri çəkilib, suvarma sistemləri, su anbarları yaradılıb, xəstəxanalar, məktəblər, idman qurğuları tikilib. Qalan işləri yerlərdəki rəhbərlər etməlidirlər. Ona görə, bu da sizə verdiyim tapşırıqlardan biridir və elə işləməlisiniz ki, bir də demək istəyirəm, insanlar sizdən razı qalsınlar, rayonlarda işlər yaxşı getsin, inkişaf olsun, quruculuq olsun, abadlıq olsun. Belə olan halda siz məndən yüksək qiymət alacaqsınız. Əks təqdirdə, sizi nələr gözləyir, sizdən əvvəl işləyənlərin aqibəti daim sizin gözünüzün qabağında olmalıdır.

Ümid edirəm ki, siz mən deyən kimi işləyəcəksiniz. Eyni zamanda, Cəlilabad və Şəmkir rayonlarının sakinləri, fəallar gərək daim sizin fəaliyyətinizlə bağlı öz təhlillərini aparsınlar. İctimai nəzarət güclü olmalıdır. İctimai nəzarətin gücləndirilməsi üçün siz yerlərdə təşəbbüs göstərməlisiniz ki, fəallar bu quruculuq-abadlıq işlərinə qoşulsunlar. Eyni zamanda, dövlət orqanlarında təmsil olunan məmurların işi də elə şəffaf olmalıdır ki, ictimai nəzarət də bunu təsdiqləsin. Onsuz da bizim kifayət qədər informasiya mənbələrimiz var və əgər nə isə orada düzgün istiqamətdə getməsə, kimsə əyri yolla getsə, biz ondan gec-tez xəbər tutacağıq. Ona görə, bu da nəzərə alınmalıdır.

Mən bir daha demək istəyirəm ki, sizə böyük etimad göstərilir. Ümid edirəm ki, siz bu etimadı öz işinizlə doğruldacaqsınız.

* * *

Rafiq Cəlilov: Cənab Prezident, mənə göstərdiyiniz bu yüksək etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm, çox təşəkkür edirəm. Göstərdiyiniz etimadı, Sizin dəstəyinizə arxalanaraq yüksək səviyyədə doğruldacağıma söz verirəm. Çox sağ olun.

* * *

Rəşad Tağıyev: Mən də öz növbəmdə, mənə göstərdiyiniz yüksək etimada görə Sizə təşəkkür edirəm. Eyni zamanda, qeyd etmək istərdim ki, mən bunu yüksək etimadla yanaşı, yüksək məsuliyyət kimi də qəbul edirəm və söz verirəm ki, rayonun iqtisadi, sosial, mədəni inkişafının təmin olunmasında əlimdən gələni əsirgəməyəcəyəm. Yüksək etimada görə, Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

### *"DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaiminin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaimi qəbul edib.

Görüşdə Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı. Söhbət zamanı investisiya qoyuluşu, logistika sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi. Eyni zamanda bildirildi ki, Azərbaycanın təşəbbüskarı olduğu yeni nəqliyyat dəhlizlərinin açılması və ölkəmizdə azad ticarət zonasının fəaliyyətə başlaması həm ölkələrimiz arasında, həm də regionda iqtisadi əlaqələrin genişlənməsində mühüm rol oynayacaq.

### *İraqın neft nazirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də İraq Respublikasının neft naziri İhsan Əbdül Cabbarı qəbul edib.

Görüşdə Azərbaycanla İraq arasında siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğu qeyd edildi, enerji sektorunda Azərbaycanın İraq üçün mühüm tərəfdaş olduğu bildirildi. Qeyd edildi ki, ölkələrimiz OPEC+ formatında uğurlu əməkdaşlıq həyata keçirir. Bildirildi ki, İraq daha çox Azərbaycan şirkətinin ölkə iqtisadiyyatında iştirakında maraqlıdır.

Nazir vurğuladı ki, İraqın Baş naziri Azərbaycanın ölkəsinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını çatdırıb və bildirib ki, İraq da öz növbəsində Azərbaycana dəstəyini ifadə edir.

Söhbət zamanı dövlətimizin başçısı tərəfindən COVID-19-la mübarizədə İraqa göstərilən dəstək də yüksək qiymətləndirildi.

Görüşdə Ermənistan tərəfindən torpaqlarımızın işğalı dövründə İraqın hər zaman Birləşmiş Millətlər Təşkilatında, İslam Əməkdaşlıq Təşkilatında və digər beynəlxalq formatlarda Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində haqq işinə verdiyi dəstəyə görə minnətdarlıq ifadə olundu.

Söhbət zamanı ticarət, investisiya qoyuluşu, nəqliyyat və digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

### *Çex Respublikasının xarici işlər nazirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Çex Respublikasının xarici işlər naziri Yakub Kulhaneki qəbul edib.

Görüş zamanı 2015-ci ildə Azərbaycan Respublikası ilə Çex Respublikası arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamədən irəli gələn əlaqələrin inkişaf etdirilməsi və genişləndirilməsinin vacibliyi vurğulandı. Qeyd edildi ki, Çex Respublikasının xarici işlər naziri Yakub Kulhanekin Azərbaycana səfəri postkovid dövründə münasibətlərimizin perspektivlərinin nəzərdən keçirilməsi, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, ticarət, iqtisadiyyat, investisiya qoyuluşu, nəqliyyat, enerji sahələrində əlaqələrin inkişaf etdirilməsi, Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradır.

Yakub Kulhanek Çex Respublikası əsgərlərinin Əfqanıstandan təxliyə edilməsi işində Azərbaycanın göstərdiyi köməyə görə minnətdarlığını bildirdi.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏFƏRLƏRİ

## *Rusiya Federasiyasına işgüzar səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə iyulun 20-də Rusiyaya işgüzar səfərə gəlib.

Moskvanın Vnukovo-2 beynəlxalq hava limanında Prezident İlham Əliyevi Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko və digər rəsmi şəxslər qarşıladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında görüş olub.

Rusiya Prezidenti Vladimir Putin dedi:

-Qurban bayramınız mübarək! Sizi təbrik edirəm, ən xoş arzularımı bildirirəm.

Prezident İlham Əliyev: Çox sağ olun.

Prezident Vladimir Putin: Gələn il bizim böyük bayramımız olacaq – diplomatik münasibətlərin yaradılmasının 30 illiyi. Moskvaya gəlməyə razılıq verdiyiniz üçün Sizə təşəkkür edirəm. Allaha şükür, koronavirusdan sonra münasibətlərimiz bərpa olunur, ilk növbədə, iqtisadiyyatı nəzərdə tuturam. Keçən il müəyyən azalma olmuşdu, indi inamlı artım, bərpa gedir.

Rusiya iqtisadiyyat sahəsində inamla lider yerlərdən birini tutur və bizim hökumətlərarası komissiya fəal işləyir, orada əməkdaşlıq istiqamətləri çoxdur.

Biz yaxın vaxtlarda sizə nüfuzlu nümayəndə heyəti göndərməyi planlaşdırırıq, bu nümayəndə heyəti həmin məsələlərlə artıq Bakıda məşğul olacaq. Onlar müxtəlif məkanlarda müntəzəm surətdə görüşürlər. Bu, müxtəlif istiqamətlər üzrə qarışıq qrup olacaq. Həm sənaye, həm nəqliyyat, həm infrastruktur və bəzi başqa məsələlər nəzərdə tutulur.

Biz indi koronavirusa qarşı mübarizədə get-gedə daha fəal əməkdaşlıq edirik. Məncə, artıq 100 min doza vaksin göndərilib.

Prezident İlham Əliyev: Hətta daha çox.

Prezident Vladimir Putin: Azərbaycan ərazisində birgə istehsalın genişləndirilməsi üzərində işləyirik.

Aydındır ki, regionda vəziyyətin nizamlanması ən mühüm məsələlərdən biri olaraq qalır. Əlbəttə, bilirəm ki, Siz bu məsələyə çox böyük diqqət və əhəmiyyət verirsiniz. Buna görə Sizə təşəkkür etmək istəyirəm ki, kompromisli qərarlar tapılır. Onlar həmişə ən mürəkkəb məsələlərdir, lakin əgər biz nizamlama istəyiriksə, - biz hamımız isə bunu istəyirik, - onda bu yolla getməliyik. İndiyə qədər biz bunu etməyə nail olmuşuq, buna görə Sizə təşəkkür etmək istəyirəm.

Sizi yenidən görməyimə çox şadam. Xoş gəlmisiniz.

Azərbaycan Prezidenti İlham Əliyev dedi:

– Sağ olun. Sağ olun, Vladimir Vladimiroviç. İlk növbədə, dəvətə görə sağ olun. Mən də Sizi görməyimə çox şadam. Bizim qarşılıqlı fəaliyyətimizlə bağlı mühüm məsələləri yenidən müzakirə etmək üçün yaxşı imkandır. Təbriklərə görə sağ olun. Fürsətdən istifadə edib Rusiyanın bütün müsəlmanlarını Qurban bayramı münasibətilə təbrik etmək istərdim. Bu, həmrəylik bayramı, birlik bayramıdır.

Əlbəttə, ikitərəfli gündəlik barədə Sizinlə tam razıyam ki, biz çox inamla irəliləyirik. İlin birinci yarısında əmtəə dövriyyəsi artıb. Bu, çox vacibdir, çünki keçən il bizdə 10 faizdən çox azalma olmuşdu. Nəqliyyat-tranzit münasibətləri məsələsində də əməkdaşlığı fəal surətdə genişləndiririk. Mənə verilən məlumata görə, Şimal-Cənub nəqliyyat dəhlizi üzrə keçənilki ilə müqayisədə təqribən 20 faiz çox yük daşınıb. Beləliklə, bu dəhliz artıq işləyir, demək olar ki, geniş həcmdə.

Koronavirusa qarşı mübarizədə köməyə görə təşəkkür etmək istərdim. Biz Rusiyadan 200 min dozadan artıq "Sputnik V" vaksini almışıq və bu vaksinin yenə göndərilməsi gözlənilir. Bilirəm ki, onu almaq istəyənlərin sayı lap çoxdur. Ona görə ki, bu vaksin öz effektivliyini sübut edib və əlbəttə, yəqin ki, hamını təmin edə bilmək də çox çətindir. Lakin Sizin dostlarınız, tərəfdaşlarınız kimi bir daha təşəkkürümü bildirmək istəyirəm ki, biz vaksini alanlar arasında ilk sıralardayıq.

Sizə onu da bildirmək istərdim ki, bu il Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialının birinci buraxılışı oldu. Bu, əlamətdar hadisədir. Zaman sürətlə keçir. Bizim iki filialda – MDU-nun və Seçenov Universitetinin filiallarında mindən çox tələbə təhsil alır. Rusiyada təhsil alan azərbaycanlı tələbələrin sayı 15 mindən çoxdur. Azərbaycanda isə 16 min tələbə rus dili bölməsində təhsil alır. Beləliklə, Azərbaycan gənclərinin belə bir böyük dəstəsi artıq Rusiya ilə dil, ünsiyyət və təhsil vasitəsilə bağlıdır. Düşünürəm ki, bizim təcrübəmizi böyüməkdə olan nəslə əməli surətdə ötürmək çox vacibdir.

Əlbəttə, regionda münaqişədən sonrakı vəziyyət mövzusu da var. Bu məsələyə daimi diqqətinizə, çox vacib və həssas məsələlərin həllində şəxsən iştirakınıza görə Sizə təşəkkürümü bildirmək istərdim. Biz Sizinlə daim əlaqə saxlayırıq. Hərbi əməliyyatlar başa çatandan sonra ötən səkkiz ay ərzində, zənnimcə, yanvar ayında Moskvada şəxsən görüşümüz və telefon söhbətlərimiz vəziyyətin sabitləşdirilməsi işində çox mühüm rol oynayıb. Biz qətiyyətlə münaqişədən sonrakı dövrün maksimum ağrısız keçməsi əzmindəyik. Düşünürəm ki, ümumi səylərimizlə buna nail olacağıq.

Dəvət üçün bir daha təşəkkür edirəm və əlbəttə, qarşılıqlı fəaliyyətin, regional problemlərin mühüm məsələlərini müzakirə edəcəyik.

Prezident Vladimir Putin: Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri iyulun 20-də başa çatıb.

## *Daşkəsən, Naftalan, Goranboy və Gəncəyə səfəri*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Daşkəsən rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı Daşkəsən şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla anıb, abidəsi önünə gül dəstəsi qoyub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Daşkəsəndə Şəhidlər xiyabanını ziyarət edib.

Dövlətimizin başçısı Şəhidlər xiyabanındakı əbədi məşəl abidəsi önünə gül dəstəsi qoyub.

Qeyd edək ki, 1993-cü ildə salınan Şəhidlər xiyabanında həm Birinci Qarabağ savaşında, həm də Vətən müharibəsində həlak olan şəhidlər dəfn edilib. Ümumiyyətlə, Daşkəsəndən olan gənclər də ərazilərimizin düşməndən azad edilməsi uğrunda hər zaman qəhrəmanlıqla döyüşüb, Vətən naminə canlarından keçiblər. Vətən müharibəsinin gedişində yenidən silaha sarılan daşkəsənli gənclərdən 31 nəfər şəhidlik zirvəsinə ucalıb. Bu qəhrəman Vətən övladlarının əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Daşkəsən rayonuna səfəri çərçivəsində "AzerGold" QSC-nin "Çovdar" İnteqrəolunmuş Regional Emal Sahəsinin fəaliyyəti ilə tanış olub.

Dövlətimizin başçısına "Çovdar" qızıl mədənində görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, "Çovdar" qızıl mədənində hasilat işlərinə 2016-cı ildən başlanıb, bu mədəndə böyük yenidənqurma və infrastruktur işləri həyata keçirilib. Bu günədək 259 min unsiya qızıl istehsal edilib, növbəti illərdə isə əlavə 338 min unsiya qızılın istehsalı planlaşdırılır.

"AzerGold" QSC təkcə "Çovdar" yatağının istismarı nəticəsində ölkənin qeyri-neft məhsulları ixracatçıları arasında lider mövqeyə yüksəlib, qızıl və gümüş ixracından ölkə iqtisadiyyatına xarici valyutada 640 milyon manata yaxın vəsait cəlb edilib. İndiyədək ümumilikdə 245 min unsiyadan çox qızıl və 434 min unsiyadan çox gümüş ixrac edilib. Artıq "AzerGold" qızıl layihələrinin icrası üzrə büdcədən asılılığın tam surətdə aradan qaldırılmasına nail olub. Cəmiyyət tədavülə istiqraz buraxan ilk milli dağ-mədən şirkəti kimi də tarixə düşüb. Cəmiyyətin metal ehtiyatları 24 dəfə artıb.

Məlumat verildi ki, 2017-ci ildə "Ağyoxuş-1" və "Ağyoxuş-2" qızıl yataqları, 2018-ci ildə isə "Mərəh" qızıl yatağı kəşf edilib. Bu ildən etibarən bir sıra yataqların istismara verilməsi planlaşdırılır. Mürəkkəb və çoxmərhələli emal prosesin yekunu olaraq mədəndən çıxarılan süxurlardan qızıl və gümüş qarışıqlı xəlitələr istehsal edilir. İstehsal olunan xəlitələr İsveçrəyə saflaşdırılma üçün göndərilir. Saflaşdırıldıqdan sonra 999.9 əyarda qızıl və gümüş külçələr beynəlxalq birjalarda satışa çıxarılır.

Daha sonra "Made in Azerbaijan" nişanı ilə Azərbaycan qızılı və gümüşündən hazırlanan 5, 10 və 20 qramlıq sikkələr, eləcə də qızıl külçələr nümayiş etdirildi. Üzərində Heydər Əliyev Mərkəzi, Qarabağ xalçası və Qobustan qayaüstü rəsmləri təsvir olunan sikkə və külçələr istehsal edilib. Heydər Əliyev Mərkəzi ilə birgə təşkil edilən "Qarabağ inciləri" sikkə dizaynı müsabiqəsinin nəticələrinə əsasən, daha iki dizaynda qızıl sikkələr istehsal olunub. Qızıl sikkələrin üzərində Qarabağın qədim memarlıq inciləri, tarixi abidələri, Şuşa şəhəri təsvir edilib.

Onu da qeyd edək ki, "Mərəh" "AzerGold"un istismarına başladığı üçüncü qızıl mədənidir. Layihənin icra müddəti iki ildir.

Qeyd edək ki, 2020-ci ildən "AzerGold"un fəaliyyət sahəsi genişləndirilib. Ölkə ərazisində qara metal filizi yataqlarının işlənilməsi və idarə edilməsi də Cəmiyyətə həvalə olunub. Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə "Daşkəsən Dəmir Filiz" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlayıb. Bu layihənin başlıca hədəfi qısa müddət ərzində dəmir filiz yataqlarının istismara verilməsi və metal qırıntılarını əvəzləyən, həmçinin daha keyfiyyətli metallurgiya məhsullarının istehsalı üçün xammala tələbin təmin edilməsidir.

Prezident İlham Əliyev "Mərəh" qızıl mədənində süxurların ilk partlayış prosesini izlədi.

Sonra dövlətimizin başçısı Azərbaycan Televiziyasına müsahibə verdi.

### Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsi

*– Salam, cənab Prezident, xoş gördük Sizi. Cənab Prezident, bu gün Siz Azərbaycanın qərb bölgəsinə – Daşkəsən, Naftalan və Goranboya səfər edirsiniz, bir neçə obyektin açılışında iştirak edəcəksiniz. Səfərlə bağlı fikirlərinizi bilmək istərdik.*

– Bu səfərlər müntəzəm olaraq həyata keçirilir. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası ilə bağlı verdiyim tapşırıqlar yerində də yoxlanılır və son illər ərzində mənim bölgələrə yüzlərlə səfərim olubdur. Bu səfər də bu sıradan olan səfərdir. Səfər zamanı bir neçə açılışda iştirak edəcəyəm. Bu açılışlar, əslində, gördüyümüz işlərin həcmini göstərir. Eyni zamanda, onu göstərir ki, ölkə hərtərəfli inkişaf edir. Çünki bu səfər çərçivəsində həm infrastruktur layihələrinin istismara verilməsi qeyd olunacaq, eyni zamanda, sənaye müəssisələrinin, idman obyektlərinin, yolların, içməli su və kanalizasiya xətlərinin istismara verilməsi nəzərdə tutulur.

Qərb bölgəsinin önəmli hissəsi olan bu bölgə, əlbəttə ki, özünəməxsus inkişaf perspektivlərinə malikdir. Mənim bu bölgəyə səfərlərim bir daha demək istəyirəm, – müntəzəm xarakter daşıyır. Misal üçün bu gün biz Daşkəsəndə yeni qızıl yatağının istifadəyə verilməsini qeyd etdik. Bu, çox önəmli hadisədir. Çünki qeyri-neft sektorunun inkişafı üçün bu sahə xüsusi

perspektivlərə malikdir. Dağ-mədən sahəsi bizim qeyri-neft sektorumuzda aparıcı sahəyə çevrilir və perspektivlər də çox gözəldir. Bu gün həm açılışını qeyd etdik, eyni zamanda, bundan sonra görüləcək işlərlə bağlı təqdimat oldu. Təkcə qızıl yox, digər qiymətli metalların hasilatı Azərbaycanda bundan sonra daha geniş miqyasda öz həllini tapacaq.

Bununla paralel olaraq, Daşkəsənin ənənəvi sahəsi olan dəmir filizi yataqlarının işlənilməsi ilə bağlı konkret planlar var. Bir müddət bundan əvvəl mənim göstərişimlə xüsusi proqram tərtib edilmişdir, dövlət investisiya resursları cəlb olunmuşdur. Bu sahə çox böyük gəlir gətirən sahə olacaq. Eyni zamanda, minlərlə iş yeri yaradılacaq və idxaldan asılılıq azalacaq. Çünki son beş il ərzində, - verilən təqdimatda da bu, göstərilir, - təkcə dəmir məmulatlarının idxalına ölkədən 1,7 milyard manat vəsait gedibdir. Bu sahənin inkişafı imkan verəcək ki, idxaldan asılılıq kəskin şəkildə azalacaq, biz daha böyük dəyərə malik olan dəyər zəncirini yaratmış oluruq və eyni zamanda, ixrac imkanlarımız da yaranacaq. Çünki bu gün dağ-mədən sənayemizin inkişafı bu yolla getməlidir.

Onu da bildirməliyəm ki, azad edilmiş torpaqlarda da bu sahənin çox böyük perspektivi var. Bildiyiniz kimi, uzun illər xarici şirkətlər qanunsuz olaraq bizim qızıl və digər mədənlərimizi istismar edirdilər. Bu, cinayətdir və mən bu haqda artıq öz sözümü demişəm, bir daha demək istəyirəm, bu şirkətlərin iki yolu var: ya bizə təzminat ödəyəcəklər, bizim şərtlərimizi qəbul edəcəklər, ya da ki, onların başqa alternativi hüquqi müstəvidə bu məsələnin həll olunmasıdır. Onu da deməliyəm ki, bütün hazırlıq işləri artıq tamamlanmaq üzrədir. Bizim həm Zəngilan, həm də Kəlbəcər rayonlarında xarici şirkətlər tərəfindən qanunsuz istismar edilən qızıl yataqlarımızın bütün təhlili aparılıbdır. Beynəlxalq məsləhətçilər dəvət olunubdur. Bir daha demək istəyirəm ki, onlar vurulmuş ziyanın təzminatını öz xoşu ilə həll etsinlər, Azərbaycan dövlətinə vurulmuş ziyanı ödəsinlər və ondan sonra, ancaq ondan sonra onlar rahat yaşaya bilərlər. Yoxsa ki, bu şirkətlərin başqa yerlərdə də əməliyyatları var və onların iş reputasiyasına çox böyük ziyan dəyəcək. Hər halda biz artıq öz mövqeyimizi açıq şəkildə ifadə etmişik.

O ki qaldı, səfərlə bağlı digər obyektlərin açılışlarına, Goranboy rayonunda idman kompleksi də var. Bu, sayca 48-ci idman kompleksidir və onu göstərir ki, rayonlarımızın əksəriyyətində ən müasir idman qurğuları var. Naftalan şəhərində yeni sanatoriyanın açılışı olacaq. Bu da çox əlamətdar hadisədir. Çünki Naftalan şəhəri turizm mərkəzlərindən birinə çevrilməlidir. Mən bunu ilk dəfə Naftalanda olarkən bəyan etmişdim. O vaxt Naftalanın sovet dövründən qalan bütün sanatoriyalarında məcburi köçkünlər yerləşmişdi. Biz onlar üçün elə bu ərazidə, yaxın ərazidə müasir evlər tikdik, qəsəbələr saldıq, onları köçürdük. Ondan sonra böyük investisiyalar cəlb olundu və artıq 13 mehmanxana və sanatoriya fəaliyyətdədir. Üçünün - beşulduzlu "Çinar", "Qarabağ" və "Qaşaltı" mehmanxanalarının açılışında mən şəxsən iştirak etmişəm. Göstəriş vermişəm ki, bütün kateqoriyadan olan müxtəlif səviyyəli istirahət zonaları olmalıdır - beşulduzlu, dördulduzlu, üçulduzlu. Yəni, Azərbaycan vətəndaşları və xarici qonaqlar bundan istifadə edə bilsinlər.

Sovet vaxtında Naftalana Sovet İttifaqının müxtəlif yerlərindən ildə 50-60 min turist gəlirdi. Təqribən son 15 il ərzində görülmüş işlər nəticəsində burada qalacaq turistlər üçün 2300-dən çox yer artıq istifadəyə verilibdir və bu proses davam edir.

Onu da bildirməliyəm ki, İkinci Qarabağ müharibəsində Suqovuşan qəsəbəsi də işğaldan azad edildi və Naftalandan Suqovuşan qəsəbəsinə məsafə o qədər də böyük deyil. Mənim tapşırığımla yeni yolun çəkilişi də təmin edilir və beləliklə, bu zona vahid bir turizm məkanı olacaq. Çünki Naftalana gələn qonaqların, – istər Azərbaycan vətəndaşları, istərsə də xarici qonaqlar olsun, - ölkəmizlə tanış olmaları üçün gərək daha geniş imkanlar olsun, həm Gəncəyə, həm digər şəhərlərə gedə bilsinlər, eyni zamanda, Suqovuşan qəsəbəsinə. Şiddətli döyüşlər gedən əraziyə gedib baxmaq həm onlar üçün maraqlı olar, həm də ki, Suqovuşan çox mənzərəli bir yerdir, - dağlar, böyük su anbarı və həyat o bölgələrə qayıdır.

Onu da bildirməliyəm ki, kənd təsərrüfatı üçün bu bölgədə böyük işlər görülüb, xüsusilə Goranboy rayonunda. Mənim göstərişimlə Şəmkir maşın kanalı çəkilibdir, uzunluğu təqribən 30 kilometrə yaxındır. Bu kanal artıq 30 min hektardan çox torpağa suyun verilməsini yaxşılaşdırır və bunun kənd təsərrüfatının inkişafına böyük köməyi olubdur.

Naftalan şəhərində, Goranboy, Daşkəsən rayonlarında digər layihələr də icra edilib. Yollar, içməli su xətləri çəkilib, xəstəxanalar, sosial obyektlər tikilib, iş yerləri yaradılıb, yəni, bu bölgə sürətlə inkişaf edir və deyə bilərəm ki, hər şey plan üzrə gedir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra edilir. Əlbəttə, İkinci Qarabağ müharibəsindən sonra bizim əsas diqqətimiz azad edilmiş torpaqlaradır. Ancaq bizim ənənəvi işlərimiz, regionlarla bağlı olan proqramlar da yaddan çıxmamalıdır və çıxmır.

*- Cənab Prezident, ilin altı ayı artıq arxada qaldı. Bu altı ayın sosial-iqtisadi yekunlarını necə qiymətləndirirsiniz?*

- Müsbət qiymətləndirirəm. Çünki altı ayın yekunları onu göstərir ki, artıq Azərbaycan iqtisadiyyatı tənəzzüldən çıxıb. Əgər bu altı ayın hər bir ayının iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, ilin əvvəlində iqtisadi tənəzzül daha böyük rəqəmlərlə ölçülürdü. Hər ay tənəzzül azalırdı və biz may ayının yekunlarına görə bir balaca iqtisadi inkişafa nail ola bildik. Altı ayın yekunları isə bunu göstərir ki, bizim iqtisadiyyatımız 2 faiz artıb. Bu, yaxşı göstəricidir. Xüsusilə dünyada gedən proseslərə nəzər saldıqda görürük ki, dünya ölkələrinin böyük əksəriyyəti hələ ki, iqtisadi tənəzzüldədir. Bizim iqtisadiyyatımız isə artır və əminəm ki, ilin sonuna qədər daha da artacaq. Daha sevindirici məsələ odur ki, qeyri-neft sektorumuz 5 faizdən çox artıb. Bu, doğrudan da böyük rəqəmdir, böyük göstəricidir, görülmüş işlərin təzahürüdür.

Əgər sənaye istehsalına fikir versək görərik ki, sənaye istehsalı 0,3 faiz azalıb. Amma bunun əsas

səbəbi neft hasilatı ilə bağlıdır, OPEC+ razılaşmasının yerinə yetirilməsidir. Bilirsiniz ki, biz hasilatı azaltmışıq və necə deyərlər, bu versiyanı təsdiqləyən digər göstəriciyə diqqətinizi cəlb etmək istərdim. Qeyri-neft sənayemiz 16,6 faiz artıb və daha da artacaq. Bugünkü bu açılış və görüləcək digər işlər qeyri-neft sektorunun sənaye potensialını daha da artıracaq. Çünki 16,6 faiz artım olub, mən bilmirəm hansı başqa ölkədə buna rast gəlmək olar.

Kənd təsərrüfatı 5,6 faiz artıb. Bu da əhəmiyyətli artımdır. Keçən il, hətta pandemiyaya qədər kənd təsərrüfatında artım daha az idi – təqribən 3 faiz, 3,5 faiz, indi isə 5,6 faiz. Bu da görülmüş işlərin, islahatların nəticəsidir. Fermerlər də bunu görür və bu sahəyə daim dövlət dəstəyi olacaq. Çünki dövlət dəstəyi olmadan kənd təsərrüfatı istədiyimiz qədər inkişaf edə bilməz.

İnflyasiya məqbul hesab edilən rəqəmlər ətrafındadır – 4,3 faiz. Hesab edirəm ki, bu da yaxşı nəticədir. Valyuta ehtiyatlarımız artıb. Altı ayda valyuta ehtiyatlarımız 1 milyard dollar həcmində artıb. Amma bu artım daha da böyük olacaqdı. Çünki bizim ehtiyatlarımızın bir hissəsi müxtəlif valyutalardadır, o cümlədən avro və dollar əksəriyyət təşkil edir. Bu məzənnədə olan dəyişiklik bizim mütləq rəqəmlərə təsir göstərdi. Əgər bu dəyişiklik olmasaydı və əgər qızılın qiyməti düşməsəydi, – çünki bizim kifayət qədər böyük ehtiyatımız qızıldadır, – bu artım 1,7 milyard dollar olacaqdı. Yəni, biz real bu qədər əlavə pul qazanmışıq və məzənnə fərqi, deməli, qızılın qiyməti müvəqqəti olaraq buna təsir göstərir. Yəni, bu, nəyi göstərir? Baxmayaraq ki, biz genişmiqyaslı quruculuq işləri aparırıq, baxmayaraq ki, biz Qarabağı və Şərqi Zəngəzuru sürətlə bərpa edirik, nəinki valyuta ehtiyatlarımızı azaltmamışıq, artırmışıq və heç bir kreditə də müraciət etməmişik. Bu, nəyi göstərir? Resursumuzu göstərir, resurs bazasını göstərir. Eyni zamanda, onu göstərir ki, biz vəsaitdən çox ehtiyatla istifadə edirik, israfçılığa, lazım olmayan xərclərə yol vermirik. Vaxtilə nəzarətsiz olan xərclər artıq keçmişdə qalıbdır, bütün dövlət məmurları mənim təlimatlarımı icra etməlidirlər və edirlər ki, hər manata qənaət etməliyik. Lazım olmayan layihələrə, xeyir gətirməyən layihələrə, sadəcə, görüntü naminə, yaxud da ki, hansısa başqa maraqlar naminə dövlət investisiya xərcləri verilməyəcək. Bunu hər kəs bilir. Ona görə valyuta ehtiyatlarımızın artımı da çox vacib məsələdir. Nə qədər çox valyutamız olsa, biz özümüzü o qədər də əmin hiss edirik.

Onu da deməliyəm ki, Azərbaycanda valyuta ehtiyatları xarici dövlət borcundan təxminən 6 dəfə çoxdur. Bu, dünyada çox nadir halda rast gəlinən məsələdir. Çünki ölkələrin mütləq əksəriyyətinin dövlət borcu valyuta ehtiyatlarından qat-qat böyük rəqəmlərlə ölçülür. Ancaq bizdə bu, tamamilə fərqlidir. Bu nəyi göstərir? Onu göstərir ki, istədiyimiz halda biz xarici dövlət borcumuzu sıfırlaya bilərik. Sadəcə olaraq, buna hələ ki, ehtiyac yoxdur. Çünki uzunmüddətli və yaxşı şərtlərlə götürülmüş kreditlər də var, onları vaxtında ödəyirik. Bu onu göstərir ki, biz heç kimin yardımına qalmamışıq və buna görə də həm siyasi, həm də iqtisadi sahədə müstəqil siyasət aparmaq iqtidarındayıq.

Bir rəqəmi də səsləndirmək istərdim. Bu da ixracla bağlıdır. İxrac 15 faiz artıb. Bu da çox yaxşı göstəricidir və qeyri-neft ixracı 27 faizdən çox artıb. Bax, bu, bizim planlarımızın real nəticəsidir. Çünki təkcə neft-qaz hesabına valyuta qazanmamalıyıq, qeyri-neft sektoru hesabına valyuta qazanmalıyıq, ölkəyə gətirməliyik, 27 faiz artım böyük rəqəmdir.

Xarici ticarətimizin müsbət saldosu 3,4 milyard dollardır, ancaq 6 ayda. Əgər belə getsə, ilin sonuna qədər müsbət saldo təqribən 6-7 milyard dollar olacaq. Dünya ölkələrinin əksəriyyətində saldo mənfidir, yəni, daha çox idxal edir, nəinki ixrac edir. Ona görə bu valyuta məzənnəsinə təsir göstərir, ona görə ölkələr borclanmaya gedirlər. İnkişaf etmiş ölkələrdə xarici borc o ölkələrin ümumi daxili məhsulunun 100 faizini, bəzən 120 faizini təşkil edir, 50 faiz müsbət hal kimi sayılır. Amma Azərbaycanda bu, 19 faizdir və daha da düşəcək. Çünki göstəriş vermişəm ki, ildən-ilə borcumuzu azaltmalıyıq. Mən indi, əlbəttə, Ermənistanla Azərbaycanı müqayisə etmək istəmirəm. Burada, tamamilə yerlə göy qədər fərq var. Amma Ermənistan indi xarici borc içində boğulur və onların xarici borcu ümumi daxili məhsulun təqribən 70 faizinə qalxıbdır. Onların xarici borcu təqribən bizim borcumuz səviyyəsindədir, təqribən 8-9 milyard dollar. Amma əgər bizim 52 milyard dollar valyuta ehtiyatımız varsa, Ermənistanın valyuta ehtiyatları 1 milyarddır. O da, Mərkəzi Bankın vəsaitidir. Onlar ondan istifadə edə bilməzlər. O, müəyyən dərəcədə daxili məzənnənin sabitləşdirilməsi üçün nəzərdə tutulub. Yəni, sərbəst vəsait yoxdur. Fərq bundadır.

Aparılan islahatlar nəticəsində 6 ayda vergi və gömrük orqanları nəzərdə tutulandan daha çox vəsait toplayıblar. Vergi orqanları 810 milyon manat daha çox, gömrük orqanları 206 milyon manat. Nəyin hesabına? İslahatların hesabına. Nəyin hesabına? Dürüstlüyün, şəffaflığın hesabına, uçotun hesabına, aparılan islahatların hesabına. Biznes qurumlarına vaxt verilmişdir, onlara tövsiyələr edilmişdir ki, bax, bundan sonra belə işləməlisiniz, kölgə iqtisadiyyatı olmamalıdır, hər kəs vergisini verməlidir. Hər hansı bir qanunsuz ödəmələr olmamalıdır. Heç bir dövlət məmuru hansısa biznes qurumuna sahiblik etməməlidir. Bu yanaşma biznes qurumları, dairələri tərəfindən çox müsbət qarşılandı. Onlar üçün də vaxt lazım idi yeni münasibətlər qaydalarına öyrəşsinlər, düz işləsinlər, dürüst olsunlar və artıq biz bunu görürük. Biz bir milyard manatdan çox əlavə gəlir əldə etmişik və bunun hesabına sosial ödəmələr edirik, şəhid ailələrini evlərlə təmin edirik, maaşları, pensiyaları qaldırırıq, infrastruktur layihələrini icra edirik. Əgər belə getsə, əlbəttə ki, ilin sonuna qədər rəqəmlər daha böyük olacaq.

Bax, qısaca olsa da, budur əsas iqtisadi göstəricilər. Hər bir qərəzsiz mütəxəssis bu göstəriciləri görərkən özü üçün yəqin edir ki, hər bir ölkə bizim göstəricilərlə fəxr edə bilər.

*– Cənab Prezident, işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma işləri aparılır. Bu istiqamətdə hansı yeniliklər barədə danışmaq olar?*

– Biz müntəzəm olaraq Azərbaycan ictimaiyyətini gedən işlərlə bağlı məlumatlandırırıq. Görülən bütün işlər xalq tərəfindən bəyənilir, dəstəklənir. Əlbəttə, o bölgələrdən olan insanlar – keçmiş köçkünlər bu layihələrin icrasında iştirak edirlər, onların rəyi mütləq nəzərə alınır. Müharibədən cəmi 8 ay keçib, amma görün nə qədər böyük işlər görülür. Biz, əlbəttə, ilk növbədə, mina təmizləmə işləri ilə məşğul olmalıydıq və məşğul oluruq. Bu, həm çox vaxt, həm də böyük vəsait aparır. Əfsuslar olsun ki, müharibədən sonra 150-yə yaxın Azərbaycan vətəndaşı minalara düşərək ya həlak olub, ya da öz sağlamlığını itirib.

Mina xəritələrinin Azərbaycana verilməməsi və bunun hansısa şərtlərlə verilməsi Ermənistan tərəfindən göstərilən növbəti əxlaqsızlıqdır, mənəviyyatsızlıqdır, vicdansızlıqdır, normal insani davranışa zidd olan yanaşmadır. Bu, bir daha Ermənistan rəhbərliyinin bizə qarşı olan nifrətinin, düşmənçiliyin təzahürüdür. Çünki mina xəritələrini verməməsinin heç bir əsası yoxdur. Müharibə qurtarıb, biz qalib gəlmişik. Ermənistan məğlub olub, bu məğlubiyyətlə barışıb, barışmalı olub, məcbur etdik. İndi mina xəritələrini verməməsi nə məqsəd güdür? Daha çox azərbaycanlılar həlak olsun, daha çox insanlar əlil olsunlar. Bu, düşmənçilik deyil, nədir? Bu, bir daha onların xislətini göstərir. Bir daha göstərir ki, Azərbaycan xalqı heç nəyi unutmamalıdır. Azərbaycan xalqı çox xeyirxah xalqdır, çox xoşniyyətli xalqdır. Bəzi hallarda biz bəzi tarixi məqamları tez unuduruq. Biz erməni vəhşiliyini, Xocalı soyqırımını, torpaqlarımızın işğal altına düşməsini, törədilən urbisidi heç vaxt unutmamalıyıq və unutmayacağıq. Ona görə minatəmizləmə məsələləri əsas məsələlərdən biridir. Bununla paralel olaraq görün nə qədər böyük işlər görülür. Biz bu ilin sonuna qədər azad edilmiş torpaqlarda – həm Qarabağda, həm Şərqi Zəngəzurda bütün elektrik təsərrüfatını quracağıq: yeni xətlər, ötürücü xətlər, transformatorlar, yarımstansiyalar, elektrik stansiyaları. Ermənilər tərəfindən dağıdılmış 12 su elektrik stansiyasını ki, Kəlbəcər və Laçın rayonlarında onlara iki həftə möhlət verəndən sonra onları yandırıb dağıtmışdılar. Beləliklə, bu, əsas məsələdir. Çünki bu olmasa, heç bir inkişafdan söhbət gedə bilməz. İlin sonuna qədər planlaşdırılır ki, tam yekunlaşdıraq. Amma, əlbəttə ki, bundan sonra dediyim kimi, yaşıl enerji layihəsi icra ediləcək. Artıq bir xarici şirkət tərəfindən maraq göstərilib. 200 meqavatlıq günəş elektrik stansiyasının xarici şirkətin vəsaiti hesabına tikintisi ilə bağlı razılığa gəldik. Bu, çox gözəl, önəmli hadisədir. Eyni zamanda, başqa şirkətlər üçün də bu, bir siqnaldır. Mən bilirəm ki, indi dünyanın müxtəlif enerji şirkətləri öz prioriteti üçün bərpaolunan enerjini təsbit ediblər. Biz onları da dəvət edirik, gəlsinlər, investisiya qoysunlar. Bizim şaxələndirilmiş enerji şəbəkəmiz var, bizim bütün qonşu ölkələrlə – Türkiyə, Rusiya, İran, Gürcüstanla yüksək gərginlikli enerji xətlərimiz var. Biz istənilən yerə enerjini ötürə bilərik. Məsələn, biz İrana indi ixrac edirik, Rusiyaya həm ixrac edirik, həm idxal edirik, amma daha çox ixrac edirik. Eyni zamanda, Gürcüstana, Türkiyəyə ixrac edirik. Daxili tələbat artacaq. Ona görə bu sahə xüsusi önəm daşıyır.

Enerji sahəsindən başqa ikinci vacib sahə yol infrastrukturudur. Burada da 8 ay ərzində görün nə qədər böyük işlər görülüb. Bərdə-Ağdam avtomobil yolu tikilir, Zəfər yoluna, demək olar ki, sentyabr ayında asfalt döşənməsi də başa çatacaq. Zəfər yolu olmayıb heç vaxt. Dərədən, dağlardan, meşələrdən keçən o yol gərək açılaydı, torpaq yol çəkiləydi, ondan sonra asfalt yol. Cəmi 8-9 ayda biz bunu edirik. Paralel olaraq Füzuli–Şuşa magistral yolu, Horadiz–Ağbənd yolu çəkilir, 4-6 zolaqlı yoldur. Zəngilan-Qubadlı-Laçın yolu çəkilir. Bu da çox önəmli yoldur. Füzuli-Hadrut, Füzuli-Cəbrayıl yolları – bütün yollar üzrə qızğın iş gedir. Kəlbəcərə rahat çatmaq üçün Göygöldən Ömər aşırımı üzrə yol çəkilir. Bu yol heç vaxt olmayıb, cığır olub. Qış aylarında heç vaxt ondan istifadə olunmayıb. Biz indi yol çəkirik, tunellər çəkirik ki, ilin bütün mövsümlərində o yoldan istifadə edə bilək. Eyni zamanda, biz Göygölü də turizm mərkəzi kimi Kəlbəcərin gələcək mənzərəli turist mərkəzləri ilə bağlamış oluruq. Digər yollar, Kəlbəcər, Laçın rayonlarında hərbi əhəmiyyətli yollar çəkilir. Bu yolların ümumi uzunluğu 700 kilometrə qədərdir. Çünki orada yol olmayıb, sərhədə gedən istiqamətdə yol olmayıb. Orada qar may ayında əriyib. İndi qış gələnə qədər – qış da oktyabr ayında gələcək, – oktyabr ayına qədər biz orada nə qədər yol çəkməliyik və bunu edirik. Bu, böyükmiqyaslı işdir, mətbuatda çox da işıqlandırılmır. Təbiidir, amma strateji nöqteyi-nəzərdən və sərhəddə öz mövqelərimizi möhkəmləndirmək nöqteyi-nəzərindən bu yolların çox böyük əhəmiyyəti var.

Üç aeroport tikilir. Artıq mən demişəm, bu aeroportlar nə vaxt istifadəyə veriləcək. Bu, təkcə əsas infrastruktur layihələridir. Şəhərsalma ilə bağlı bizim işçilərimiz böyük işlər görür, çox fəal işləyirlər. Ağdamın baş planı təsdiqləndi. Füzulinin, Cəbrayılın baş planlarının ilkin versiyası mənə təqdim edildi. İndi müfəssəl plan üzərində iş aparılır. Yaxın aylarda Füzuli və Cəbrayıl şəhərlərinin baş planı ictimaiyyətə təqdim ediləcək. Zəngilan şəhərinin baş planının hazırlanması prosesinə artıq başlanmışdır. Bir neçə xarici şirkət, tanınmış dünya səviyyəli şirkət öz təklifini verdi. İndi seçim aparılır. Eyni zamanda, əlbəttə ki, Qubadlı da, Laçın və Kəlbəcər də - o şəhərlər də yenidən qurulacaq. Yəni, bu boyda miqyaslı işi cəmi 8 ay ərzində görmək doğrudan da, mən hesab edirəm ki, böyük qəhrəmanlıqdır. Onu da bildirməliyəm ki, biz bütün bu işləri öz hesabımıza edirik. Bütün xərcləri öz hesabımıza edirik, heç bir yerdən bir manat yardım almamışıq. Bəli, xarici şirkətləri biz dəvət etmişik, amma podratçı kimi. Bütün vəsait dövlət büdcəsindən gedir. Dövlət büdcəsi üçün bu, böyük yükdür. Təbiidir, amma biz bunu edirik, edəcəyik. Dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik.

*– Cənab Prezident, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi üzv dövlətlərin dəvəti ilə daha bir il uzadıldı. İlk növbədə, icazə verin, bu, tarixi diplomatik qərar münasibətilə Sizi təbrik edək. Cənab Prezident, Azərbaycanın bu Hərəkata sədrliyinin daha bir il uzadılması hansı səbəblərlə bağlıdır?*

– Mən hesab edirəm ki, bir neçə səbəb var. İlk növbədə, bizim sədrliyimiz dövründə bütün üzv ölkələr

gördülər ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Bakı Zirvə görüşündə rəsmən Azərbaycan sədrliyi öz üzərinə götürmüşdü. Mən öz çıxışımda demişdim ki, biz üzv ölkələrin maraqlarını müdafiə edəcəyik, beynəlxalq hüququ və ədaləti müdafiə edəcəyik və bunu edirik. Bunun ən gözəl nümunəsi İkinci Qarabağ müharibəsidir. Biz təkbaşına, bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, beynəlxalq hüququ və ədaləti bərpa etdik. Əlbəttə ki, bu tarixi Qələbə bütün üzv ölkələr tərəfindən bizə olan hörməti daha da artırdı. Eyni zamanda, biz sədrliyimizə çox böyük məsuliyyətlə yanaşmışıq. Mən sədrliyimizin ilk aylarında demişdim ki, biz buna formal yanaşmırıq. Çünki Qoşulmama Hərəkatının 60 illik tarixi var və bu müddət ərzində müxtəlif sədrlər olubdur. Bəziləri buna laqeyd yanaşıblar. Sadəcə olaraq, necə deyərlər, bir status kimi formal yanaşırdılar. Bizim yanaşmamız isə çox dəqiqdir, məsuliyyətlidir və məqsədə hesablanmışdır. Biz üzv ölkələrin maraqlarını beynəlxalq tribunalarda müdafiə edirik, onlar da bizi müdafiə edirlər. Bizim təşəbbüsümüzlə COVID-lə bağlı Zirvə görüşü keçirildi. Biz 30-dan çox ölkəyə humanitar və maddi yardım göstərdik. Onların böyük hissəsi Qoşulmama Hərəkatına üzv ölkələrdir. Bizim təşəbbüsümüzlə COVID-lə bağlı BMT Baş Assambleyasının Xüsusi sessiyası keçirildi. BMT çərçivəsində digər addımlar atıldı. Biz vaksin millətçiliyinə qarşı öz səsimizi ucaltmışıq. Mən bunu rəqəmlərlə dəfələrlə ən yüksək kürsülərdən səsləndirmişəm ki, zəngin ölkələr vaksinlərin 82 faizini özünə götürüb, əl qoyub, amma kasıb ölkələrin cəmi 0,3 faiz vaksinə əli çatır. Bu, nə dərəcədə ədalətlidir? Əlbəttə, ədalətsizlikdir. Müstəmləkəçiliyin elə bil ki, növbəti təzahürüdür. Vaksin millətçiliyinə qarşı biz fəal mübarizə aparırıq. Mən deyə bilərəm ki, dünyada ön sıralardayıq. Bu məsələ ilə bağlı bizim qədər, yəni, ölkə qismində çıxış edən, sözünü deyən ikinci ölkə yoxdur. Bəli, Ümumdünya Səhiyyə Təşkilatı deyir, BMT deyir, amma bunun təşəbbüskarı, deyə bilərəm ki, biz olmuşuq. Üzv ölkələr də görürlər ki, biz doğrudan da, onları müdafiə etməyə çalışırıq, öz imkanlarımız daxilində kömək göstəririk, beynəlxalq tribunalarda onları müdafiə edirik. Bütün bu amillər və əlbəttə ki, bizim tarixi Zəfərimiz bizə olan hörməti daha da artırdı. Hesab edirəm ki, üzv ölkələr gördülər ki, biz nəyi deyiriksə, onu da edirik. Gördülər ki, Azərbaycan əgər Qoşulmama Hərəkatına bir il də sədrlik etsə, 2023-cü ilə qədər bu Hərəkatın nüfuzu da artacaq, təsir imkanları da artacaq. Eyni zamanda, tarixdə ilk dəfə olaraq, Qoşulmama Hərəkatının Zirvə görüşündə Avropa İttifaqının yüksəkvəzifəli şəxsi - xarici siyasət üzrə xüsusi nümayəndə iştirak edirdi, vitse-prezident statusunda. Tarixdə olmayıb və Qoşulmama Hərəkatını digər beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində bağlanması bizim gündəliyimizdə duran məsələdir. Bu yaxınlarda mən Azərbaycanda səfərdə olmuş Avropa İttifaqı Şurasının sədri cənab Mişellə bu məsələni müzakirə etdim və hesab edirəm ki, bu əməkdaşlığın perspektivləri var. Bu faktorlar, bu amillər bu rolu oynadı və ilk növbədə, bizə müraciət olundu. Bizim razılığımız alındı və mən bu razılığı verdim. Ondan sonra bu yaxınlarda keçirilmiş aralıq konfransda bu məsələ gündəliyə gətirildi və bütün üzv ölkələr adından Azərbaycana minnətdarlıq bildirildi.

*– Cənab Prezident, Siz qeyd etdiniz, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin ölkəmizə səfəri oldu. Siz bu səfərin nəticələrini necə qiymətləndirirsiniz və bu səfər Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın hansı sahələrdə genişlənməsi üçün perspektivlər açır?*

– Mən səfəri yüksək qiymətləndirirəm. Bu, Avropa İttifaqı-Azərbaycan siyasi əlaqələrinin inkişafına xidmət göstərən bir səfərdir. Onu da bildirməliyəm ki, bizim siyasi əlaqələrimiz çox uğurla inkişaf edir. Mən Avropa İttifaqına çoxsaylı səfərlər etmişəm. Avropa İttifaqının rəhbərləri də Azərbaycana çoxsaylı səfərlər etmişlər. İki il bundan əvvəl Avropa İttifaqı Şurasının sədri cənab Donald Tusk Azərbaycanda səfərdə idi. İki ildən sonra cənab Şarl Mişel yeni sədr regional səfər çərçivəsində Azərbaycana səfər edir. Bu, nəyi göstərir? Onu göstərir ki, biz əməkdaşlıq üçün çox gözəl zəmin yaratdıq. İllər keçdikcə, əməkdaşlığın həcmi də, əhatə olunan sahələr də artır. Əgər ilkin mərhələdə daha çox enerji məsələləri gündəlikdə idisə, bu gün biz bunları həll etmişik. Cənub Qaz Dəhlizini həll etmişik, Azərbaycanın təşəbbüsü ilə inşa etmişik. Avropa İttifaqı da burada öz müsbət rolunu oynamışdır. Çünki Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının sədri Azərbaycan və Avropa İttifaqıdır. Onu da bildirməliyəm ki, Məşvərət Şurasının keçirilməsi təşəbbüsünü də mən irəli sürmüşdüm. Avropa İttifaqına təklif etmişdim, onlar da müsbət qarşıladılar. Hər il Məşvərət Şurası böyük səmərə ilə keçirilir. Əgər fəal əməkdaşlıq enerji məsələlərindən başlamışdısa, indi daha geniş sahəni əhatə edir. Ona görə siyasi nöqteyi-nəzərdən bu səfərin çox böyük əhəmiyyəti var. Mən cənab Mişelə də görüş zamanı bildirdim ki, bizim 9 üzv ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər - ya sazişlər, ya bəyannamələr qəbul edilib və imzalanıb. Bu, Avropa İttifaqının üçdəbir hissəsidir. Bu, nə deməkdir? Demək, Avropa İttifaqının üçdəbir hissəsi Azərbaycanı strateji tərəfdaş hesab edir. Yenə də Azərbaycanı heç kimlə müqayisə etmək istəmirəm. Amma başqa bir ölkə desin, görsün, belə bir əməkdaşlıq formatı var, ikitərəfli formatda yoxsa yox? O ki qaldı, Avropa İttifaqı-Azərbaycan əlaqələrinə, bütövlükdə, biz indi bildiyiniz kimi, yeni saziş üzərində çalışırıq. Sazişin 90 faizi razılaşdırılıb, qalan məsələlər də, hesab edirəm ki, realizm prinsipləri üstünlük təşkil etsə və bəzi məsələlərlə bağlı bizim narahatlığımız nəzərə alınsa, bu saziş yaxın günlərdə, bəlkə də yaxın aylarda imzalana bilər. Ticarət sahəsində bizim əsas tərəfdaşımız Avropa İttifaqıdır - ticarətimizin təxminən 40 faizi. İxracla bağlı da əsas tərəfdaşımız Avropa İttifaqıdır. Biz Avropa İttifaqına ildə 6,8 milyard dollarlıq ixrac edirik. İdxal isə təxminən 2,5 milyard dollardır. Onlarla da bizim müsbət saldomuz var.

Son vaxtlar Avropa İttifaqı nəqliyyat sektoruna çox böyük önəm göstərir. Misal üçün, deyə bilərəm ki, cənab Donald Tuskun iki il əvvəl Azərbaycana çox qısa müddətli səfəri olmuşdu. Buna baxmayaraq, Ələt Beynəlxalq Dəniz Ticarət Limanına da baş çəkdi. Ora getdi, vəziyyətlə tanış oldu, ona təqdimat edildi. Bu,

nəyi göstərir? Marağı göstərir. Cənab Şarl Mişel Azərbaycanda olarkən – onu da bildirməliyəm ki, ilk dəfə olaraq, Avropa İttifaqının rəhbəri Azərbaycanın bölgələrinə də səfər edib – Şamaxı şəhərinə, Şamaxı Cümə məscidinə səfər edib. Mən bunu çox yüksək qiymətləndirirəm. Bu, çox gözəl bir mesajdır, gözəl jestdir, xüsusilə Qurban bayramı ərəfəsində. Bunu biz yüksək qiymətləndirməliyik. Azərbaycan xalqı da bunu bilməlidir. Şamaxıda ona Ələt Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyəti, Ələt Azad İqtisadi Zonasının gələcək fəaliyyəti və turizm imkanları ilə bağlı təqdimat edildi. Yəni nəqliyyat sektoru Avropada çox böyük maraq doğurur. Bu yaxınlarda Azərbaycana səfər etmiş Avropa Komissiyasının Genişlənmə üzrə Komissarı cənab Varhelyi də Ələt Dəniz Ticarət Limanına baş çəkdi. Avropa İttifaqı Azərbaycanı artıq nəinki önəmli nəqliyyat, logistika mərkəzi kimi tanıyır və bizim potensialımıza da arxalana bilir. Ancaq, gəlin, yada salaq, biz Bakı-Tbilisi-Qars dəmiryolu çəkilişinin təşəbbüsünü irəli sürəndə Avropa bizi dəstəkləmədi. Amerika nəinki dəstəkləmədi, bunun əleyhinə çıxdı. Bunlar hamısı mənim yadımdadır. Biz o vaxt nə qədər səylər göstərdik ki, Amerika Birləşmiş Ştatları bu layihəni pozmasın. Çünki o vaxt Amerikanın Gürcüstana çox böyük təsir imkanları var idi. Mən bilirəm, Gürcüstana açıq-aydın deyilirdi ki, Gürcüstan bu layihəyə qoşulmasın. Tarixi yaxşı xatırlayıram. Nəyə görə? Ermənistana görə. Erməni lobbisi, hansı ki, bu gün də böyük ölkələrin paytaxtlarında at oynadır, o vaxt bütün gücləri səfərbər etmişdi ki, bu, baş tutmasın, çünki Ermənistan kənarda qalır. Amma Ermənistanın kənarda qalmasının səbəbi, səbəbkarı elə Ermənistandır. Mən deyirdim ki, işğala son qoy və kommunikasiyalar açılacaq, necə ki, indi bunu deyirəm və edirik də. Ona görə o vaxt biz hətta kreditlər üçün müraciət etmişdik. Amma heç kim yaxın durmadı. Biz özümüz – Azərbaycan, Türkiyə, Gürcüstan bunu etdik. Özü də siz bilirsiniz ki, nə qədər maliyyə yükünü Azərbaycan öz üzərinə götürmüşdür. Amma indi həmin Bakı-Tbilisi-Qars dəmiryolu, digər infrastruktur – liman, Azad İqtisadi Zona, perspektivdə Zəngəzur dəhlizi böyük maraq doğurur. Nə üçün? Çünki onlar üçün sərfəlidir. Mən indi bu xatirələri dilə gətirməklə heç kimi ittiham etmək istəmirəm. Olan olub, keçən keçib. Əsas odur ki, biz istəyimizə nail ola bilmişik. Amma bu tarixçə onu göstərir ki, bizim bu təşəbbüslərimiz vaxtında, düzgün atılmış təşəbbüslərdir. Əgər kimsə birinci, ilkin mərhələdə bunu anlamırsa, illər keçdikcə, bunu anlamağa başlayır. Bu gün nəqliyyat sahəsində Avropa İttifaqı-Azərbaycan əlaqələrinin xüsusi gündəliyi vardır.

*– Cənab Prezident, Şarl Mişel Bakıda olarkən bir dəfə də olsun "Dağlıq Qarabağ" və "status" sözlərini işlətmədi. Belə görünürdü ki, o, bunu, necə deyərlər, Sizdən hansısa bir sərt sözləri eşitməmək üçün etdi. Bu, nəyə dəlalət edir? Eyni zamanda, Şarl Mişel İrəvanda olarkən Ermənistanla sərhədə dair "mübahisəli ərazilər" sözlərini işlətmişdi. Bu da Ermənistanda böyük məyusluğa gətirib çıxarmışdı.*

– Bəli, Ermənistanın məyusluğu davam edəcək. Çünki görünür ki, onlar hələ də müharibədən tam nəticə çıxarmayıblar. Çünki onların bəzi yersiz bəyanatları, addımları onu göstərir ki, onlar hələ nəticə çıxarmalıdırlar. İkinci Qarabağ müharibəsini unutmamalıdırlar. Şarl Mişel İrəvanda olarkən sərhəd ərazilərini mübahisəli ərazilər adlandırdı. Sözün düzü, mən də bu ifadə ilə razı deyiləm. Çünki biz hesab edirik ki, bu, bizim ərazilərdir. Mən hesab edirəm ki, bu, Zəngəzur ərazisidir. Zəngəzur isə bizim dədə-baba torpağımızdır və biz öz ərazimizdəyik.

Təbii ki, bu məsələ səfər zamanı müzakirə olundu və mən izah etməyə çalışdım ki, biz öz sərhədimizə çıxmışıq. Nə üçün may ayında çıxmışıq? Çünki qar əridi. Qar idi, iki-üç metrlik qar idi. Ora çıxmaq mümkün deyildi. Qar əriyəndən sonra biz çıxdıq, lazım bildiyimiz nöqtələri götürdük və orada yerləşdik, orada möhkəmlənirik və möhkəmlənəcəyik. Ona görə Ermənistanın, əlbəttə, məyus olması ondan irəli gəlir ki, onlar yenə də xülyalarla yaşayırlar. Onlar postmüharibə reallıqları ilə barışa bilmirlər. Hesab edirəm ki, burada psixoloji amil da öz rolunu oynayır. Yəqin onlara vaxt lazımdır ki, psixoloji nöqteyi-nəzərdən yeni reallığa öyrəşsinlər. Çünki bizim Zəfərimiz onların bütün ideoloji sütunlarını darmadağın edib. Onlar 30 il ərzində özləri haqqında olmazın yalanlarını uydururdular, dünyaya qəbul etdirməyə çalışırdılar ki, guya onların müzəffər ordusu var, yenilməz ordusu var, erməni xalqı döyüşkən xalqdır, erməni ordusu ən güclü ordudur. Bəs nə oldu? Məhv etdik, darmadağın etdik, 44 gün ərzində yox etdik. Göstərdik ki, Azərbaycan xalqı müzəffər xalqdır. Göstərdik ki, onların bütün təbliğatı mifdir, mifologiyadır. Göstərdik ki, Birinci Qarabağ müharibəsində onlar xarici dəstək hesabına üstünlük qazanmışlar. Bu, heç kimə sirr deyil. Əlbəttə, mən başa düşürəm ki, bunu dərk etmək, bu reallıqla yaşamaq, buna öyrəşmək asan məsələ deyil. Ona görə biz bu psixoloji durumu nəzərə almalıyıq. Ancaq bununla bərabər deməliyəm ki, Ermənistan əvvəlki səhvləri buraxmamalıdır. Çünki onların yersiz və qəbuledilməz addımları, bəyanatları onlara çox baha başa gəldi. İkinci Qarabağ müharibəsi onu göstərdi. Ona görə boş-boşuna havanı silkələmək lazım deyil. Şarl Mişelin statusu, Dağlıq Qarabağ sözlərini işlətməməsi, əlbəttə, çox müdrik bir addım idi. Bu, dövlət xadiminin addımı idi. Biz bunu qiymətləndiririk və Ermənistan da bundan nəticə çıxarmalıdır. Nə status var, nə Dağlıq Qarabağ. Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü il iyulun 7-də süni qurum kimi yaradılmışdı. Sadəcə olaraq, o vaxt sovet hökumətində təmsil olunan ermənilər demək olar ki, bu qanunsuz və heç bir əsası olmayan qərarı qəbul etdilər və əlbəttə, Sovet Azərbaycanı o vaxt məcbur olub bununla razılaşıb, barışıb. Heç bizi soruşan da yox idi. Amma bu tamamilə əsassız və süni şəkildə yaradılmış bir qurum idi. Azərbaycan parlamenti müstəqillik bərpa olunandan bir ay sonra – 1991-ci ilin noyabrında Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv edib. Bu hamısı sənədlərdir, özü də qanuni şəkildə ləğv edib. Onun səlahiyyəti çatırdı buna. Nə üçün ondan sonra Dağlıq Qarabağ sözündən istifadə olunurdu? Münaqişəyə görə. Beynəlxalq sənədlərdə də, ondan sonra danışıqlar masasında da, mən şəxsən özüm dəfələrlə Dağlıq Qarabağ sözünü

işlətmişəm münaqişə ilə bağlı, ərazi ilə bağlı yox. Onu da bildirməliyəm ki, hər dəfə münaqişə ilə bağlı mən hansısa məsələyə toxunanda həmişə deyirdim Ermənistan–Azərbaycan Dağlıq Qarabağ. Heç vaxt Ermənistan-Azərbaycan demədən Dağlıq Qarabağ münaqişəsi sözünü işlətməmişəm. Bunun da səbəbi var, elə-belə deyil. Müharibə başa çatandan, münaqişə öz həllini tapandan sonra, əlbəttə, Dağlıq Qarabağdan danışmaq yersizdir. Ona görə mən demişəm ki, Azərbaycanda belə bir ərazi vahidi yoxdur. Əgər bu söz kiminsə xoşuna gəlirsə, mən etiraz etmirəm, getsinlər öz ölkələrində Dağlıq Qarabağ adlı bir vilayət yaratsınlar, yaxud da ki, bir rayon adlandırsınlar, ya cümhuriyyət yaratsınlar, onların işidir. Yəni, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı inzibati ərazi yoxdur və Şarl Mişelin bu sözləri işlətməməsi, əlbəttə ki, bizim mövqeyimizə göstərdiyi hörmətin əlaməti kimi qəbul edilməlidir. Status məsələsi də, həmçinin. Mən müharibə başa çatandan sonra noyabrın 10-da statusun yerini göstərmişdim. O, hələ oradadır və orada qalacaq yana-yana, əbədi. Ona görə bu məsələ ilə də bağlı başqa fikir ola bilməz.

Bir də bilirsiniz, gəlin belə danışaq, bu, süni şəkildə Azərbaycanın içində daim bir münaqişə ocağı yaratmaq üçün sovet hökuməti tərəfindən ortalığa atılmış təxribat idi. Bizim tarixi torpağımızda Dağlıq Qarabağ Muxtar Vilayətini yaratmaq, bir kəndi - Xankəndini, hansı ki, kənd idi, onu oranın mərkəzi etmək və cəllad Şaumyanın adını vermək Azərbaycan xalqına qarşı çox mənfi bir addım idi. Bizim üçün təhqir idi. Tarix hər şeyi yerinə qoyub. Ancaq statusa gəldikdə, bu gün orada 25 min adam yaşayır. Orada gedən proseslərlə bağlı bizim məlumatımız kifayət qədər böyükdür, çoxşaxəlidir. Biz əvvəllər də, müharibədən əvvəl də bilirdik orada nələr baş verir. Əlbəttə, indi də bilirik, çünki onlar bizim ayağımızın altındadır. Orada yaşayanların real sayı 25 mindir. Başqa rəqəmlər də səsləndirilib ki, müharibədən sonra oraya 50 mindən çox adam qayıdıb, ola bilər, ancaq qayıdan o demək deyil ki, orada qalır. Qayıdıb, sonra çıxıb gedib, geri dönüb. İkincisi, bizim müxtəlif texniki vasitələrimiz, peykimiz var. Biz oradakı maşınların sayını bilirik. Biz insanların hərəkətini görürük. Necə deyərlər, digər obyektiv vasitələr var ki, onları əsas götürüb, dəqiq bilirik orada nə qədər adam yaşayır - 25 min maksimum. Biz gündəlik monitorinq aparırıq, neçə maşın girib Laçın dəhlizinə, neçə maşın çıxıb. Eyni zamanda, biz xaricdən gələn maşınları da görürük və demişik ki, buna son qoyulmalıdır, bu, yaxşı deyil, bu, bizim ərazimizdir. Bizim icazəmiz olmadan xarici maşın necə girə bilər ora. Bir də əgər kimsə hesab edir ki, biz bunu görmürük, səhv edir. Bəzi hallarda o maşınlara erməni nömrələri yapışdırılır. Ancaq biz oradayıq, biz dəhlizdəyik. Biz hər şeyi görürük, Xankəndini də, dəhlizi də. Ona görə buna da son qoyulmalıdır. Oradan gündəlik çıxan maşınların sayı girən maşınlardan xeyli çoxdur. 25 min insan üçün status yaratmaq hansı məntiqə sığır? Mən sual verirəm. Bu gün Fransada və Amerikada bu məsələ ilə bağlı reallığı əks etdirməyən bəyanatlar səslənəndə haqlı olaraq Azərbaycan xalqı bundan narazı olur ki, münaqişə öz həllini tapmalıdır. Mən demişəm, deyin necə həll olunmalıdır? Mən deyirəm, mən Azərbaycan Prezidenti deyirəm, mən bu məsələni həll etmişəm, vəssalam! Dağlıq Qarabağ yoxdur, status yoxdur! Şərqi Zəngəzur var, hansı ki, mənim Sərəncamımla Qarabağ iqtisadi zonası ilə bərabər 7 iyul 2021-ci ildə imzalanıb. 7 iyul 1923-cü ildə - bir əsr bundan əvvəl Dağlıq Qarabağ Muxtar Vilayəti yarandı, 7 iyul 2021-ci ildə Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonası yaradıldı. Ona görə yoxdur bu və əgər kimsə, yenə deyirəm, status vermək istəyir, Amerikada bir milyona yaxın erməni yaşayır, Fransada 500 mindən çox erməni yaşayır, Marsel şəhərində 100 mindən çox erməni yaşayır və onun həndəvərində. Niyə orada status verilmir? Bəs niyə Azərbaycanda bu status verilməlidir? Bunun hansı hüquqi, siyasi, tarixi əsasları var? Yoxdur! Ermənilər orada daha əvvəl yaşamağa başlayıblar, nəinki bizim ərazimizdə. Bizim ərazimizə onlar 1828-ci ildən – 12-ci, 28-ci ildən sonra köçürülməyə başlamışlar. Onların orada yaşamaları üçün tarixi əsasları yoxdur. Biz indi, sadəcə olaraq, humanizm göstəririk, deyirik ki, etiraz eləmirik, deyirik ki, onlar bizim vətəndaşlarımızdır. Əgər o xunta başçıları o xalqa imkan versə, əminəm ki, onlar böyük məmnuniyyətlə Azərbaycan vətəndaşları kimi də yaşayacaqlar, çalışacaqlar, gələcəklər, gedəcəklər, o cümlədən iş dalınca gələcəklər, Ağdama da gələcəklər, Füzuliyə də, hələ bizdən xahiş edəcəklər. Ona görə status məsələsi, bax, bu qiymətə layiq olmalıdır. Olmasa, başqa yerdə beş dənə Dağlıq Qarabağ yaratsınlar, mən etiraz etmirəm. Mən onu tanıyacağam. Amma Azərbaycanda yox.

*– Cənab Prezident, Şarl Mişel Ermənistanda bəyan etmişdi ki, Avropa İttifaqı Ermənistana 2,6 milyard avro, Gürcüstanda isə bəyan etmişdi ki, Avropa İttifaqı Gürcüstana 2,3 milyard avro vəsait ayıracaq. Azərbaycana isə heç bir vəsait ayrılmır. Bu mövqe nə dərəcədə ədalətlidir?*

– Əlbəttə, bu mövqe ədalətsizdir. Azərbaycana gəldikdə, 150 milyon avro rəqəmi səsləndirildi, amma konkret bizə deyilmədi bu, nə rəqəmdir və nə vaxt veriləcək, verilməyəcək, bunun şərtləri nədir? Əlbəttə, mən hesab edirəm ki, bu, ədalətsiz mövqedir. Çünki Azərbaycan Cənubi Qafqazın ən böyük ölkəsidir həm ərazisi, həm əhalisi, həm də potensialı baxımından. Bu günə qədər Cənubi Qafqaz ölkələrinə belə böyük məbləğdə vəsait verilmirdi. Yəni bu, onu göstərir ki, bu vəsait məhz müharibədən sonra verilir. Yəni, bu vəsaitin verilməsinin səbəbi müharibədir. Əks təqdirdə, 30 il bundan əvvəl verəydilər, niyə məhz indi verirlər? Əgər belədirsə, onda müharibədən ən çox əziyyət çəkən ölkə Azərbaycandır. Azərbaycana bu vəsait verilməlidir. 10 min kvadratkilometr ərazi tamamilə dağıdılıb, erməni vandalları tərəfindən məhv edilib. 100 minlərlə mina döşənilib və bütün binalar, tarixi binalar, bütün infrastruktur məhv edilib. Amma pulu verirlər Ermənistana. Ermənistanda bir dağıntı var? Yoxdur. Mina döşəmişik orada? Yox. Bu qədər işğaldan əziyyət çəkən ölkə olub? Yox. Əlbəttə bu, ədalətsizdir. Bu məsələ ilə də bağlı əlbəttə, fikir mübadiləsi oldu. Cavab elə oldu ki, Azərbaycana elə bil ki, vəsait lazım deyil. Birincisi, bizə heç kim təklif etməyib, bizə təklif edin,

mən deyərəm, bizə lazımdır, yoxsa yox. Amma bizə heç kim təklif etmədiyi halda deyirlər ki, Azərbaycana vəsait lazım deyil. Bəs azad edilmiş torpaqları biz bərpa edəsi deyilik? Milyardlarla dollar vəsait lazımdır, o, göydən düşür. Azərbaycan şəffaf bir ölkədir. Maliyyə resursları da bəllidir. Bəli, biz özümüzü təmin edən ölkəyik. Amma əgər bizə də Ermənistan kimi qrant olaraq vəsait verilsə, biz heç vaxt imtina etmərik. İkinci tezis odur ki, verilən o 2,6 milyardın bir hissəsi kreditdir, bir hissəsi qrantdır. Azərbaycan elə bil ki, kreditlər götürmür. Düzdür, götürmürük, ancaq güzəştli şərtlər olsa, niyə də götürməyək, götürərik. Bir də ki, Ermənistana qrant verilir, yəni hədiyyə. Bizə isə verilmir. Amma buna daha çox bizim ehtiyacımız var. Ona görə bu məsələlər gərək gündəlikdən düşməsin. Əlbəttə, biz Avropa İttifaqı ilə növbəti təmaslar əsnasında bu məsələni daim müzakirə edəcəyik, baxacağıq Ermənistana nə qədər qrant verilirsə ən azı o qədər də bizə verilməlidir. Əgər verilmirsə, qoy desinlər nə üçün? Qoy desinlər ki, bu ermənipərəstlikdir, qoy açıq desinlər, mən açıq söhbətin tərəfdarıyam. Bütün görüşlərdə, o cümlədən cənab Mişellə çox səmimi və açıq söhbət etmişik. Çünki biz ona görə söhbət edirik ki, məsələləri həll edək, bir-birimizin mövqeyini öyrənək. Hansısa diplomatik sözlər arxasında gizlənməməliyik. Ona görə biz ümid edirik ki, bu məsələyə aydınlıq gətiriləcək və Ermənistana verilən qədər eyni şərtlərlə bizə də təklif olunsun. Biz o təklifi qəbul edəcəyik, etməyəcəyik bu, başqa məsələdir.

*– Cənab Prezident, iyulun 20-də Siz Rusiyada işgüzar səfərdə oldunuz və Rusiya Prezidenti Vladimir Putinlə görüşdünüz. Səfərin nəticələri barədə nə deyə bilərsiniz?*

– Səfərin nəticələrini mən müsbət qiymətləndirirəm. Rusiya Prezidentinin dəvəti ilə mən növbəti dəfə Rusiyaya səfər etmişəm və səfər zamanı çox geniş fikir mübadiləsi aparıldı – ilk növbədə, ikitərəfli məsələlərlə bağlı və əlbəttə, postmünaqişə vəziyyəti ilə bağlı. İkitərəfli münasibətlərə gəldikdə, bildiyiniz kimi, Rusiya və Azərbaycan strateji tərəfdaşlardır və bu, sadəcə olaraq, söz deyil. Real həyatda da biz strateji tərəfdaşıq, çünki uzunmüddətli strateji əməkdaşlıq perspektivləri ilə bağlı fikir ayrılığı yoxdur. Bizim aramızda çox möhkəm dostluq əlaqələri var və şəxsən mənim cənab Putinlə çox yaxın əlaqələrim var, biz bir-birinə inanan siyasətçilərik. Bu, çox önəmlidir və bu səfər zamanı ikitərəfli məsələlərin gündəliyi müzakirə olundu. Hazırda yeddi yol xəritəsi üzərində işləyirik. Hər bir yol xəritəsi konkret sahəyə aiddir. Hər bir sahə üzrə də yaxşı nəticələr var. Bu dəfə daha çox ticarət, iqtisadi, nəqliyyat, humanitar məsələləri müzakirə etdik. Nəqliyyat məsələlərinə gəldikdə, əlbəttə ki, həm əvvəlki dövrdə razılaşdırılmış məsələləri, "Şimal-Cənub" nəqliyyat dəhlizini, perspektivlərini, eyni zamanda, müharibədən sonra yaranmış vəziyyəti, o cümlədən Zəngəzur dəhlizini və postmünaqişə dövrünü müzakirə etdik. Bizim yanaşmamızda fikir ayrılığı yoxdur. Biz - Rusiya və Azərbaycan hesab edirik ki, müharibə başa çatıb, münaqişə başa çatıb. Ermənistanda heç bir revanşist meyillərə yol verilməməlidir və bundan sonra bölgədə sülh olmalıdır. Müharibə riskləri minimuma endirilməlidir və aradan qaldırılmalıdır. Burada bizim aramızda heç bir fikir ayrılığı yoxdur, biz də eyni fikirdəyik. Zəngəzur dəhlizinə gəldikdə, mən cənab Putinə bildirdim ki, bizdə olan məlumata görə, Ermənistan bu məsələ ilə bağlı yenə də özünü səmimi aparmır. Fikir vermisinizsə, mən cənab Şarl Mişellə mətbuat konfransında dedim ki, bütün yollar paralel şəkildə açılmalıdır və selektiv yanaşma olmamalıdır, yəni ayrı-seçkilik olmamalıdır. Amma biz görürük ki, Ermənistan burada da növbəti dəfə hansısa oyun oynamaq istəyir. Dəmir yolunun Zəngəzur dəhlizindən keçməsinə razılıq verib, halbuki müharibədən dərhal sonra buna etiraz edirdi. Mən deyirdim ki, biz onları məcbur edəcəyik, bəziləri bunu təhdid kimi qəbul edirdi. Amma mən nəzərdə tuturdum ki, biz onları o mənada inandıracağıq. Ancaq avtomobil yolunun çəkilişinə etiraz edir. Bu da 10 noyabr tarixində imzalanmış Bəyannaməyə ziddir. Çünki orada 9-cu maddədə göstərilir: yollar açılır - dəmir yolu, avtomobil yolları. Necə ola bilər dəmir yolu açılsın ki, Ermənistan İranla, Rusiya ilə dəmir yoluna malik olsun, amma biz avtomobillə Naxçıvana gedə bilməyək? Belə şey olar? Belə şey ola bilməz. Bu məsələ ilə bağlı Rusiya Prezidenti ilə fikir mübadiləsi apardıq və hesab edirəm ki, növbəti mərhələdə İrəvandan daha ümidverici xəbərlər gələcək. Üçtərəfli işçi qrupuna Ermənistan elə bil ki, müvəqqəti olaraq son qoydu. İyunun əvvəlindən bu işçi qrup yığışmır. Rusiyanın Baş nazirinin müavini Ermənistana, Azərbaycana səfərlər edir və məsələləri ikitərəfli formatda müzakirə edir. Hər halda bizim mövqeyimiz dəyişməz olaraq qalır və Zəngəzur dəhlizi mütləq açılmalıdır. Ermənistan bunu nə qədər tez dərk etsə, onlar üçün o qədər də yaxşıdır.

Bir məsələyə də vətəndaşların diqqətini cəlb etmək istəyirəm. Baxın, indi Avropa İttifaqı Şurasının Prezidenti Azərbaycana səfər edib, münasibətlər inkişafdadır. Rusiyaya mənim səfərim olub və müzakirə zamanı – bizim görüşümüz bir neçə saat davam etmişdir – bir dənə də olsun mübahisəli məsələ olmayıb. Bir dənə də olsun narahatlıq doğuran məsələ olmayıb. Türkiyə ilə biz iyun ayında müttəfiqlik haqqında Bəyannamə imzaladıq, əlaqələrimizi daha da yüksək səviyyəyə qaldırdıq. Digər qonşu ölkələrlə – İran və Gürcüstanla dostluq əlaqələrimiz güclənir. Qoşulmama Hərəkatı bizə növbəti mandat verib, növbəti dəstək göstərib. Azərbaycan da daxil olmaqla, bu təşkilatda 120 ölkə birləşir. İslam Əməkdaşlıq Təşkilatı daim bizi dəstəkləyir – həm işğal dövründə və həm də müharibədən sonra. İslam Əməkdaşlıq Təşkilatının Baş katibi xüsusilə bu dəstəyi ifadə etmək üçün Azərbaycana gəlmişdir. Görün, bütün aparıcı dünya gücləri ilə bizim əlaqələrimiz nə dərəcədə səmimidir, səmərəlidir və bizim məqsədlərimizə cavab verir. Səbəb nədir? Səbəb bizim düzgün siyasətimizdir, səbəb bizim dürüstlüyümüzdür, sözlə imza arasındakı vəhdətdir və səbəb bizim daxili gücümüzdədir. Çünki bizim bütün tərəfmüqabillərimiz çox yaxşı bilirlər ki, Azərbaycanın çox güclü daxili potensialı var. Biz onu müharibə dövründə, postmüharibə dövründə göstərdik. Bilirlər ki, Azərbaycanda milli həmrəylik var, xalq-iqtidar birliyi var və biz ləyaqətli ölkə kimi bütün tərəfdaşlarla bərabərhüquqlu, dostluq və əməkdaşlıq

əsasında münasibətlər qura bilmişik. Hesab edirəm ki, bu, bizim böyük nailiyyətimizdir.

*– Cənab Prezident, Vətən müharibəsinin başa çatmasından artıq 8 ay ötüb. Postmünaqişə dövrünü necə qiymətləndirirsiniz?*

– Müsbət. Çünki biz həm müharibə dövründə, həm postmüharibə dövründə istədiyimizə nail olmuşuq və nail oluruq. Bir məsələni də qeyd etməliyəm ki, mənim həm müharibədən əvvəl, həm müharibə zamanı, həm müharibədən sonra gələcək addımlarla bağlı çox dəqiq təsəvvürüm var və bilirəm nə etməliyik, nə vaxt etməliyik, necə etməliyik. Bütün sahələrdə olduğu kimi, bu sahədə də konseptual yanaşma ortadadır. Qısamüddətli, ortamüddətli, uzunmüddətli hədəflər müəyyən olunub. Əlbəttə ki, bütün bu hədəflər bəyan edilməyib, çünki bu, hələ tezdir. Ancaq biz bilirik, biz nə istəyirik, indi nə istəyirik, nəyə nail ola bilərik və buna biz necə nail ola bilərik. Bütün addımlarımızı buna uyğun şəkildə atırıq və deyə bilərəm ki, bu 8 ay bizim ssenari əsasında keçir. Çünki postmüharibə dövrü müharibə dövrü qədər çətin olmasa da, çox qeyri-müəyyən bir dövr idi, çünki kim bilə bilərdi ki, proseslər necə inkişaf edəcək. Çünki müharibə dövründə bəzi ölkələr bizə qarşı açıq-aydın hərəkətə keçmişdilər, bizi əsassız ittiham edirdilər, bizi hədələyirdilər, sanksiyalarla hədələyirdilər, bu məsələni BMT Təhlükəsizlik Şurasına çıxarmağa çalışırdılar. Bütün bunlar anti-Azərbaycan ssenarisinin tərkib hissəsidir və biz bunu da unutmamışıq.

Postmüharibə dövründə biz cəld tərpəndik, fəallıq göstərdik, öz gündəliyimizi qəbul etdirdik və indi bu gündəlik əsasında işlər gedir. Həm Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altında olan ərazilərdə, həm onun ətrafında, həm siyasi müstəvidə, həm Ermənistan-Azərbaycan sərhədində biz öz gündəliyimizi qəbul etdirdik və heç bir addım təsadüfi olmayıb. Hər bir addım düşünülmüş proqram üzərində olub. Postmüharibə dövrü haqqında, bizim atacağımız addımlar haqqında mən müharibə zamanı fikirləşirdim. Mən tam əmin idim ki, biz qələbə çalacağıq. Tam əmin idim və deyirdim ki, heç kim bizi dayandıra bilməz, heç bir qüvvə bizi dayandıra bilməz. Öldü var, döndü yoxdur. Ancaq postmüharibə dövrü də çox böyük çağırışlarla doludur və biz bunu məharətlə keçirik. Deyə bilərəm ki, postmüharibə dövrünün gündəliyini böyük dərəcədə biz tərtib edirik. Əlbəttə, qonşu ölkələrlə daim təmasda olmaq şərti ilə və onların narahatlığını nəzərə almaq şərti ilə. Amma bizim də gündəliyimizin əsasında bütün bu işlər gedir. Mən artıq bərpa işlərinin miqyasını qeyd etdim və buna bir də qayıtmaq istəmirəm. Eyni zamanda, biz şəhid ailələri üçün indi böyük sosial proqramlar icra edirik. Bu ilin sonuna qədər 3 min şəhid ailəsi və müharibə qazisi mənzillərlə təmin ediləcək, təsəvvür edin, 3 min. Artıq 1300-ü təmin olunub və bu sahə də diqqət mərkəzindədir.

Diplomatik müstəvidə, Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları, qonşu ölkələr – Türkiyə, İran, Gürcüstan, müsəlman aləmi, Qoşulmama Hərəkatı – bütün bu təmaslar müsbət məcrada inkişaf edir. Bu gün Ermənistanın siyasi gündəliyini müəyyən dərəcədə, deyə bilmərəm hələ ki böyük dərəcədə, amma müəyyən dərəcədə biz formalaşdırırıq və bu, həqiqətdir. Ermənistan bizim gündəliyimizin 0,1 faizini də formalaşdıra bilməz, amma biz Ermənistanın müəyyən siyasi gündəliyini formalaşdırırıq və getdikcə bizim imkanlarımız daha da genişlənəcək. Biz siyasi leksikona "Zəngəzur dəhlizi" sözünü daxil etmişik. Nəinki regionun, dünyanın aparıcı kütləvi informasiya vasitələri Zəngəzur dəhlizi haqqında danışırlar, yazırlar. Nə üçün? Biz bunu daxil etmişik, müntəzəm səylərlə, artıq bu reallıqdır. Biz Ermənistana gündəlik göndərmişik - sülh müqaviləsi. Qoy desin ki, istəmir, qoy desin ki, imtina edir. Mən bunu dəfələrlə demişəm, deyirəm: Biz hazırıq, danışıqlara başlayaq. Müharibə qurtarıb? Qurtarıb. Sülh istəyirsən, Ermənistan? İstəyirsən elə bil ki. Onda nə üçün sülh müqaviləsi imzalanmasın? Tanı bizim ərazi bütövlüyümüzü, sülh müqaviləsi imzalansın, sərhədlərin delimitasiyası həll olunsun. Bu məsələ ilə bağlı, baxın, bizim gündəliyimiz Avropa İttifaqının gündəliyi ilə, Türkiyənin, Rusiyanın gündəliyi ilə vəhdət təşkil edir. Onlar da deyirlər ki, delimitasiya üzrə iş aparılmalıdır, biz də deyirik. Ermənistan nə deyir? Deyir ki, yox, qoy, Azərbaycan bizim torpaqlarımızdan çıxsın. Biz öz torpağımızdayıq. Biz yeni reallıq yaratmışıq, təkcə Qarabağ zonasında yox. Yeni gündəliyi formalaşdıraraq artıq status məsələsi də qaldı kənarda, Dağlıq Qarabağ sözü də işlədilmir. Buna nail olmaq lazım idi. Özü-özünə yaranan məsələlər deyil, göydəndüşmə deyil. Nəyə görə? Cəsarət, qətiyyət, düzgün addımlar, hücum siyasətimiz. Əvvəllər mən deyirdim hücum diplomatiyası, o yerindədir, amma indi bütünlükdə hücum siyasətimiz. Budur və Ermənistan bununla hesablaşmalıdır, yeni reallıqları qəbul etməlidir - istəsə də, istəməsə də. Heç vaxt unutmamalıdır ki, dəmir yumruq yerindədir.

*– Cənab Prezident, vaxt ayırıb bu sualları cavablandırdığınız üçün minnətdarıq Sizə. Çox sağ olun.*

– Sağ olun.

"Daşkəsən şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi başa çatıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Daşkəsənə səfəri çərçivəsində layihə üzrə görülən işlərlə tanış olub.

Qeyd edək ki, Daşkəsən şəhərinin mərkəzləşdirilmiş içməli su təchizatı sistemi 1950-1960-cı illərdə yaradılmışdı. Mövcud su və kanalizasiya xətləri şəhəri tam əhatə etmirdi və istismara yararsız vəziyyətə düşmüşdü. "Azərsu" şəhər sakinlərinin yalnız 43 faizinə xidmət göstərirdi. Şəhər əhalisi içməli suyu qrafiklə alırdı, sakinlərin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi.

Azərbaycan Hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən bu layihə isə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Daşkəsən şəhərində 12 min nəfərin içməli və tullantı su xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Daşkəsən şəhərini, həmçinin ətraf kəndləri keyfiyyətli içməli su ilə təmin etmək üçün Qarainək bulaqları və Gurbulaq su mənbəyində 5 suqəbuledici qurğu inşa edilib. Mənbədən şəhərə 20 kilometrdən çox uzunluğu olan magistral su kəməri çəkilib, 2030 ünvana birləşmə verilərək

sayğaclar quraşdırılıb. Hazırda yeni yaradılmış su təchizatı sistemi ilə şəhərin 10 mindən artıq sakini fasiləsiz içməli su ilə təmin edilir. Layihə çərçivəsində Daşkəsən şəhərində 11,5 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi də qurulub. Daşkəsən Sukanal Sahəsi üçün müasir tipli inzibati bina tikilib. Yeni yaradılmış infrastruktur hesabına rayonun Alunitdağ qəsəbəsinə də içməli suyun verilməsi təmin edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də ölkəmizin qərb bölgəsinə səfəri çərçivəsində Naftalan şəhərində olub.

Dövlətimizin başçısı xalqımızın ulu öndəri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

İyulun 22-də Naftalan şəhərinə səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev istismar müddəti başa çatmış Naftalan şəhər hava limanına baxdı.

Dövlətimizin başçısına hava limanı haqqında məlumat verilib.

Bildirildi ki, 1977-ci ildə istismara verilən hava limanı 1997-ci ilə qədər erməni qəsbkarları tərəfindən dəfələrlə atəşə tutulub. Bu, limanda təyyarələrin enmə və qalxması üçün real təhlükəyə çevrilib. 1997-ci ildə isə hava limanının fəaliyyəti dayandırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Naftalan Mərkəzi Sanatoriyasının açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısına sanatoriya haqqında məlumat verilib.

Qeyd edək ki, Naftalanın tarixində dönüş mərhələsi 1970-1990-cı illərə təsadüf edir. Həmin dövrdə ümummilli lider Heydər Əliyev şəhərin inkişafı və böyük şöhrət qazanması üçün misilsiz xidmətlər göstərib. Belə ki, o illərdə şəhərdə müxtəlif sosial və iqtisadi təyinatlı müəssisələr tikilib istifadəyə verilib. Sonrakı dövrdə isə Prezident İlham Əliyevin şəxsi təşəbbüsü və həyata keçirilən proqramlar sayəsində Naftalan şəhəri turizm sektorunda ön sıralara yüksəldi. Şəhərin əsasını sanatoriya–kurort infrastrukturu təşkil edir. Son illər müasir əsaslarla yeni kurortların yaradılması ilə şəhərin turizm potensialı genişləndirilir, sahibkarlığın inkişafı üçün münbit şərait formalaşır. “Naftalan Mərkəzi sanatoriyası” da belə layihələrdən biridir.

Ölkədə sağlamlıq turizminin əhatə dairəsini daha da genişləndirən, bir hektar ərazidə yerləşən sanatoriya müalicə üçün bu məkana üz tutan vətəndaşların məmnunluğunu tam təmin edəcək şəraitə malikdir. Mərkəz bir çox terapiya sahələrini özündə birləşdirməklə, müxtəlif xəstəliklərin müalicəsi üçün sağlamlıq-profilaktik müəssisəyə çevrilir. Yeni müəssisədə 50 nəfərə yaxın personalın çalışması şəhər əhalisinin məşğulluğunun təmin olunmasına mühüm töhfədir.

Ümumilikdə, Naftalanda fəaliyyət göstərən kurort–sanatoriya müəssisələrində 1000 nəfərdən çox şəxs işlə təmin olunub ki, bu da şəhərdə işsizliyin aradan qaldırılmasında əhəmiyyətli rol oynayır. Hazırda fəaliyyət göstərən müəssisələr gün ərzində 3000-ə yaxın turist qəbul etmə imkanına malikdir. Son illərdə Naftalan şəhərində müasir tələblərə cavab verən 10-dan çox istirahət və sağlamlıq mərkəzi istifadəyə verilib. 2021-ci ildə daha 4 sanatoriya kompleksinin açılışı nəzərdə tutulur. Bu da gələcəkdə yeni iş yerlərinin açılması və daha çox turist qarşılanması deməkdir. Qeyd edək ki, müalicə müəssisələrinə gələn qonaqların sayında ən yüksək göstərici 2019-cu ildə qeydə alınıb, həmin ildə 60 ölkədən 12000-dən çox, ümumilikdə isə 40000-ə yaxın turist gəlib.

Diqqətə çatdıraq ki, 2020-2021-ci illərdə koronavirus pandemiyası turizm sənayesinə də təsir etdiyindən rəqəmlərdə azalma müşahidə olunub. Lakin bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə Naftalanın turizm sektorunda yenidən canlanma hiss edilir. Belə ki, son bir ayda sanatoriyalara 2000-ə yaxın turist gəlib. Beləliklə, şəhər infrastrukturunun yenilənməsi, yeni sağlamlıq-istirahət mərkəzlərinin istifadəyə verilməsi yerli və xarici turistlərin Naftalana olan marağını postpandemiya dövründə daha da artıracaq.

İyulun 22-də Naftalan şəhərində 200 yerlik körpələr evi-uşaq bağçası istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Müasir standartlara uyğun qurulan bağçada azyaşlıların təlim-tərbiyəsi və onların sağlam vətəndaş kimi yetişmələri üçün hər cür şərait var. Uşaqların günün əsas hissəsini burada keçirmələri məktəbəqədər təhsil müəssisəsində təlim-tərbiyənin keyfiyyətinə, sağlam abhavanın yaradılmasına xüsusi diqqət yetirilməsini tələb edir. “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı” proqramı Azərbaycanın uğurlu gələcəyinə hesablanıb. Ən müasir infrastrukturla təchiz edilən körpələr evi-uşaq bağçası Naftalanda sayca ikinci məktəbəqədər təhsil müəssisəsidir. Bu sahədə görülən işlər ölkəmizdə uşaqların sağlam və intellektli böyümələrini təmin edir.

Son illərdə paytaxtla yanaşı, bölgələrimizdə də bir çox uşaq təhsil-tərbiyə müəssisələrində əsaslı təmir və yenidənqurma işləri aparılıb, yeni uşaq bağçaları tikilib. Əsas məqsəd məktəbəqədər təhsil sahəsində əvvəllər mövcud olan çatışmazlıqları aradan qaldırmaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də qərb bölgəsinə səfəri çərçivəsində Goranboy rayonunda da olub.

Dövlətimizin başçısı Goranboy şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Goranboy rayonunda Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tapqaraqoyunlu avtomobil yolunun açılışında iştirak edib.

Dövlətimizin başçısına yolun inşası ilə bağlı görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, ümumi uzunluğu 38 kilometr olan yol dövlətimizin başçısının müvafiq sərəncamlarına əsasən tikilib. Bu məqsədlə Prezidentin Ehtiyat Fondundan vəsait ayrılıb. Dördüncü texniki dərəcəli yol iki hərəkət zolaqlıdır. Avtomobil yolunun tikintisi 8 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edəcək.

Qeyd edək ki, bu gün də ölkəmizdə yol-nəqliyyat infrastrukturunun tamamilə yenilənməsi və müasirləşdirilməsi, bu sahədə əsaslı dəyişikliklərin yer aldığı proses uğurla davam edir. Regionların, həmçinin kənd və qəsəbələri birləşdirən avtomobil yollarının, yolayrıcıların və körpülərin inşasına və yenidən qurulmasına xüsusi diqqət göstərilir. Bu cür yolların müasir səviyyədə inşası isə əhalinin rahatlığını təmin edən əsas sosial amildir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Goranboy Olimpiya İdman Kompleksinin açılışında iştirak edib.

Dövlətimizin başçısına kompleksdə görülən işlər barədə məlumat verilib.

İnşasına 2014-cü ildə başlanılan bu kompleksin ərazisi 3 hektardan çoxdur. Sahəsi 9137 kvadratmetr olan kompleksdə böyük idman korpusu yerləşir. Universal idman zalı 905 tamaşaçı tutumludur. Bu zal basketbol, voleybol, həndbol, mini futbol idman növləri üzrə məşqlərin və yarışların keçirilməsinə imkan verir. Eyni zamanda, cüdo, taekvondo, sambo, karate, kikboksinq və digər idman növləri üzrə məşqlərin və yarışların keçirilməsi üçün nəzərdə tutulub.

Uzun illərdir ölkəmizdə Olimpiya hərəkatı geniş vüsət alıb. Ötən illər ərzində Azərbaycanda onlarla Olimpiya İdman Kompleksi tikilib. Bu isə ölkəmizdə idmana marağı artırıb, gənclərin asudə vaxtlarını daha səmərəli keçirmələri üçün geniş imkanlar açıb. Goranboyda istifadəyə verilən Olimpiya İdman Kompleksi də bu qəbildən icra olunan layihələr sırasında xüsusi yer tutur.

Kompleksə üzgüçülük hovuzu da daxildir. Burada 200-dən çox tamaşaçının yarışları izləməsi üçün hər cür şərait var. Burada, həmçinin güləş, boks, fitnes-trenajor, aerobika, gimnastika və rəqs zalları, şahmat otağı, konfrans zalı və digər otaqlar yaradılıb. Ərazidə üçmərtəbəli, 44 yerlik mehmanxana da fəaliyyət göstərəcək. Burada da idmançıların və qonaqların istirahəti üçün bütün imkanlar var. Futbol stadionunun tribunası 1141 tamaşaçı yerlikdir. Bundan əlavə, iki mini futbol meydançası da qurulub. Voleybol-basketbol meydançası, həmçinin uşaq əyləncə meydançası yaradılıb. Kompleksdə fiziki imkanları məhdud idmançılar və tamaşaçılar üçün də müvafiq şərait yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də ölkəmizin qərb bölgəsinə səfəri çərçivəsində Gəncə şəhərinə gəlib.

Dövlətimizin başçısı Ermənistanın günahsız mülki insanlara və enerji infrastrukturuna qarşı həyata keçirdiyi məsuliyyətsiz raket hücumlarının səbəb olduğu cinayət səhnələri ilə tanış olub.

Qeyd edək ki, düşmənin Azərbaycanın ikinci böyük şəhəri, yarım milyon əhalisi olan və münaqişə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olub, 142 nəfər isə yaralanıb. Şəhərdə mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Erməni faşizminin izləri ilə tanış olan Prezident İlham Əliyev həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq, tamamilə dağılmış yaşayış binalarının ətrafına gül düzüb.

## *Kəlbəcər və Laçın rayonlarına səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 16-da Kəlbəcər və Laçın rayonlarında olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ömər aşırımından Kəlbəcərin füsunkar mənzərəsini seyr etdilər.

Prezident İlham Əliyev: Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik. Bu yol son bir neçə ay ərzində genişləndirildi. Çünki bu yol demək olar ki, keçilməz idi. İndi yol boyunca tunellər tikilir. Tunellər tikiləndən sonra gediş-gəliş çox rahat olacaq. Amma hələlik biz bu yoldan istifadə edirik və bu gözəl mənzərələr də göz oxşayır. Kəlbəcərin mənzərələri indi daha da gözəldir. İndi yolumuza davam edirik. Bu aşırımın hündür hissəsində dayanaraq bir daha Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm.

Müharibədən sonra Kəlbəcərə ilk səfərimdir. Bir neçə tədbir nəzərdə tutulur. Kəlbəcərin bərpası, yenidən qurulması prosesinə start veriləcəkdir.

Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!

Kəlbəcərə gedərkən avtomobildən çəkilən videogörüntüdə Prezident İlham Əliyev deyir: Mehriban xanım Kəlbəcərin gözəl mənzərəsini çəkir və yol boyunca Azərbaycanın gözəl təbiətini seyr edirik. Əminəm ki, bu, kadrlara baxanlar üçün də çox maraqlı olacaq. Artıq Kəlbəcərin meşələri də göründü. Bildiyimiz kimi, Kəlbəcərin çox füsunkar təbiəti var – dağlar, dərələr, meşələr.

Baxın bu dağıntılara. Ermənilər Kəlbəcəri tərk edərkən buraları dağıdıblar. Bütün binaları, su elektrik stansiyalarını, hamısını dağıdıblar. Bu dağıntılar erməni vəhşiliyinin növbəti təzahürüdür.

Ermənilər tərəfindən dağıdılmış evlər. Bura Zallar kəndinin ərazisidir.

Dövlətimizin başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11.6 kilometrlik tunelin təməlinin qoyulması mərasimində iştirak etdi.

Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun layihə uzunluğu 81 kilometr təşkil edir. Dövlət başçısının tapşırığına əsasən avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Layihənin 16-cı kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artır.

Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından 11.6 kilometrlik tunelin tikintisi məqsədəuyğun hesab edilib.

Dövlətimizin başçısı tunelin təməlini qoydu.

Prezident İlham Əliyev dedi: Durduğumuz yol ermənilər tərəfindən çəkilmiş Basarkeçər-Kəlbəcər yoludur. Onlar Ermənistanı Qarabağla birləşdirmək üçün ikinci yol çəkdilər. Laçın dəhlizindən əlavə. Beləliklə, Kəlbəcəri və digər əraziləri məskunlaşdırmaq və özlərinin gediş-gəlişini daha rahat etmək üçün bu yolu çəkdilər. Bu yol birbaşa Basarkeçər rayonuna gedir. Basarkeçər rayonuna Ermənistanda "Vardenis rayonu" deyilir. Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır. 1930-cu ildə Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb. Orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. O cümlədən Zod kəndinin sakinləri də azərbaycanlılar idi, deportasiyaya məruz qalmışlar. Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunu, onun adını dəyişdirərək ona "Vardenis" adı qoymuşdur. Xahiş edirəm ki, Azərbaycanda bu bölgə ilə bağlı reportajlar hazırlayan və ümumiyyətlə, bizim ümumi leksikonumuzda "Vardenis" yox, Basarkeçər adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır. Misal üçün, Naxçıvan-Ermənistan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın "Yerasx" kəndində, onun ətrafında hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər – Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri.

Biz indi bu yoldan istifadə edirik. Ermənilər üçüncü yolu da çəkmək istəyirdilər – Cəbrayıla gedən yol. Bu haqda müharibə zamanı dəfələrlə öz fikirlərimi bildirmişdim və beləliklə, Ermənistanı Şərqi Zəngəzurla və Qarabağla üç yolla birləşdirmək istəyirdilər. Bunun yeganə məqsədi qanunsuz məskunlaşma siyasəti aparmaqdı və bu da hərbi cinayət sayılır. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan beynəlxalq qurumlar, ilk növbədə, ATƏT-in Minsk qrupu buna laqeyd yanaşmışdır, Ermənistana heç bir irad tutmamışdır, onları bu işlərdən çəkindirməyə cəhd etməmişdir, sadəcə olaraq, müşahidəçi kimi bunu müşahidə edirdi. Onlar, hətta bu yolda da olublar, onu da görüblər və Cəbrayıl rayonunda nəzərdə tutulmuş yolun inşasına da etiraz bildirməmişdilər. O vaxt bu yol çəkiləndə biz etirazımızı bildirmişdik. Biz səsimizi qaldırmışdıq, biz demişdik ki, buna yol vermək olmaz, Azərbaycan ərazisində qanunsuz işlər aparıla bilməz. Ancaq bizi eşidən yox idi. Amma bu gün mən gəlmişəm, həmin yolun üstündə durmuşam və biz bu yolda bundan sonra əbədi qalacağıq, bu bölgədə əbədi yaşayacağıq.

Bu da gözəl Kəlbəcər dağları, hər tərəf dağ, çay, meşə, cənnətməkan. Cənnətə də çevriləcəkdir.

Prezident İlham Əliyev: Qamışlı kəndi. Burada bizim enerji infrastrukturumuz yaradılıb və bu yüksəkgərginlikli xətlər bu yaxınlarda çəkilib.

Bu asfalt yolu da ermənilər Basarkeçərdən çəkiblər. Kəlbəcərə getmək üçün Laçın dəhlizinə alternativ bir yol çəkmişdilər. Görün, gözəl də yoldur. İndi biz bu yoldan istifadə edirik. Bu yol çəkiləndə Azərbaycan tərəfi buna ciddi etiraz etmişdir. Deyirdik ki, buna yol vermək olmaz. Bu, ermənilərin məskunlaşma siyasətinin bir hissəsidir. Ancaq bizi eşidən olmadı. Nəticədə biz gəldik, bayrağımızı qaldırdıq. Düşməni torpağımızdan qovduq və indi bu yoldan istifadə edirik. Ermənilər isə bu yoldan məhrum oldular. Ona görə bu yolu da hərbi qənimət saymaq olar. Onlar üçüncü yolu da Cəbrayıldan salmaq istəyirdilər. O da yarımçıq qaldı. Onların arzuları gözlərində qaldı.

Bizim evlər - azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar – bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq.

Biz indi "Kəlbəcər-1" Su Elektrik Stansiyasının yerinə gəlmişik.

Sonra Prezident İlham Əliyev Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanış oldu.

Hazırda Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası tamamilə yenidən qurulur, stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenilənir. Suyu hidroaqreqata ötürən dağıdılmış plastik su borusu 1,3 kilometr məsafədə diametri 1,8 metr olan metal borularla əvəz edilir. Stansiyanın maşın zalı və 110/6 kilovoltluq yarımstansiyasında isə işlər tamamlanıb. Beləliklə, ermənilər tərəfindən dağıdılaraq yandırılan "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası tam yenidən tikilir və işlərin qarşıdan gələn aylarda başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev: Lev çayı bizim gözəl çaylarımızdan biridir. Uzunluğu o qədər də böyük deyil – təxminən 20 kilometrə yaxındır. Ancaq mənbəyi Azərbaycandadır və bu gündən elektrik enerjisi istehsalına xidmət edəcək.

Bura da "Kəlbəcər" yarımstansiyasıdır. Qısa müddətdə – cəmi altı ay ərzində inşa edilib və Kəlbəcəri elektrik enerjisi ilə təmin edəcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak etdilər.

Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərin ən qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, bu ərazilərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məsələsinə xüsusi diqqətlə yanaşır. Bunun nəticəsidir ki, bu istiqamətdə işğaldan azad edilmiş bütün yaşayış məntəqələrində, o cümlədən Kəlbəcər rayonunda genişmiqyaslı işlər həyata keçirilib.

110/35/10 kV-luq “Kəlbəcər” yarımstansiyasının qısa müddətə inşası həyata keçirilən layihələrdən biridir.

Kəlbəcər rayonunun Qamışlı kəndi ərazisində müasir avadanlıqlarla təchiz olunaraq inşa edilən yeni yarımstansiyada 80 MVA gücündə yeni transformatorlar quraşdırılıb. Yarımstansiyada 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular yaradılıb. “Kəlbəcər” yarımstansiyası məsafədən idarəolunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulub və bunun üçün yeni idarəetmə binası tikilib. Burada ən yeni rəqəmsal texnologiyalardan istifadə edilib.

Dövlətimizin başçısı yarımstansiyanı işə saldı.

Qeyd edək ki, ermənilər tərəfindən enerji sistemi tamamilə dağıdılan Kəlbəcər rayonuna Daşkəsəndən 70 kilometr məsafədə 110 kV-luq yüksəkgərginlikli ikidövrəli elektrikötürmə xətti çəkilib. Murov dağını aşmaqla çəkilən xəttin bəzi anker dayaqları dəniz səviyyəsindən 3400 metr yüksəklikdə quraşdırılıb.

Sonra Lev çayının sahilində çay süfrəsi arxasında söhbət edən Prezident İlham Əliyev dedi:

– Kəlbəcər rayon yarımstansiyasının açılışını etdik. Çox əlamətdar hadisədir. Kəlbəcər rayonunun elektrik enerjisi ilə təchizatı üçün bunun çox böyük əhəmiyyəti var və deyə bilərəm ki, cəmi altı ay ərzində bu yarımstansiya ərsəyə gəldi. Özü də çox çətin bir hava şəraitində, çətin relyefdən, dağlardan keçərək, bu önəmli infrastruktur obyektini istifadəyə verdik. Yeni dirəkləri də görürsünüz. Dirəklərin ən hündür olan yeri 3400 metrdir. Doğrudan da böyük peşəkarlıq və məharət tələb edən layihədir və onu göstərir ki, bizim daxili resurslarımız o qədər güclüdür ki, biz qısa müddət ərzində bu işləri görə bilərik. Beləliklə, bu yarımstansiya Kəlbəcər rayonunu elektrik enerjisi ilə təchiz edəcək. Bu tədbirə qədər Lev çayı üzərində su elektrik stansiyasının tikintisi ilə tanış oldum. Orada generasiya gücü 4,4 meqavatdır. Biz artıq Güləbird Su Elektrik Stansiyasını işə saldıq, orada 8 meqavatdır, o, Laçın rayonundadır. Suqovuşan Su Elektrik Stansiyası da təmir olundu, yenidən quruldu, orada da 7,8 meqavatdır. Yəni, görün, biz artıq 20 meqavatdan çox elektrik enerjisini alternativ mənbələrdən hasil etməyə başlayırıq və bu hələ başlanğıcdır. Ermənilər bu bölgələri tərk edərkən bütün su elektrik stansiyalarını məhv etdilər, dağıtdılar. Biz onları bərpa edəcəyik. Güləbird, indi isə Lev çayı üzərində və digər su elektrik stansiyaları və onların sayını tədricən təxminən 20-yə çatdıracağıq, bəlkə də 30-a çatdıracağıq, amma tədricən. Beləliklə, bizim enerji potensialımız da güclənəcək. Qarabağ və Şərqi Zəngəzur “yaşıl enerji” zonası kimi yaşayacaq və bizim bütün planlarımız yerinə yetiriləcək. Cəmi 7-8 ay ərzində bu qədər işin görülməsi bizim gücümüzü göstərir, əzmkarlığımızı göstərir, güclü siyasi iradəni göstərir.

Bu gün biz Lev çayının kənarında çay içəcəyik armudu stəkanda. Bu, onu bir daha göstərir ki, nə qədər ermənilər çalışsalar da bizim xalqımızın iradəsini qıra bilmədilər. Biz buraya qayıtmalı idik və qayıtdıq. Onlar buradan getməli idilər və getdilər. Tarixi ədalət bərpa olundu və biz ölkəmizin bəlkə də ən gözəl rayonlarından biri olan Kəlbəcərə nəinki qayıtmışıq, Kəlbəcərin inkişafı ilə bağlı artıq planlarımızı reallaşdırırıq. Bundan sonra da tədbirlər olacaq. Hələlik isə çayımızı içək və təbiətdən zövq alaq. Yaşasın Azərbaycan!

Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq. Yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq.

Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoydu.

Dövlətimizin başçısı dedi: Bu gün ikinci tunelin təməli qoyuldu. Kəlbəcər-Laçın avtomobil yolunda tunel tikiləcək və beləliklə, ikinci tunelin bir müddətdən sonra istifadəyə verilməsi gediş-gəlişi daha da rahat edəcək. Bütün bu bölgənin, Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yolları xüsusi əhəmiyyət daşıyır. Azad edilmiş torpaqların investisiya proqramı tutulanda mənim göstərişimlə məhz tunellər də bu layihələrə salınmışdır, o cümlədən Şuşaya gedən yolda və burada tunellər çəkilməkdədir. Tunelin tikintisi həm çətindir, xüsusilə belə ağır dağlıq relyefdə, eyni zamanda, çox böyük xərclər tələb edir. Ancaq biz bunu edirik və edəcəyik. Çünki bu, bölgənin, Şərqi Zəngəzurun inkişafına lazımdır. İnsanlar buraya qayıdandan sonra artıq Azərbaycanın digər bölgələri ilə çox rahat əlaqəyə malik olacaqlar. Həm Kəlbəcər və Laçın rayonları arasında əlaqələr möhkəmlənəcək, - Laçın rayonunda aeroportun tikintisi nəzərdə tutulur, - eyni zamanda, Kəlbəcər-Göygöl-Gəncə istiqamətində gediş-gəliş daha da rahat olacaq. Cəmi 8-9 ay ərzində görülmüş işlər onu bir daha göstərir ki, bizim çox güclü iradəmiz var, siyasi qərarlar verildi, bütün güclər, texniki imkanlar səfərbər olundu, maliyyə vəsaiti təmin edildi, Azərbaycanda, o cümlədən inşaat sahəsində kadr potensialı formalaşdı və hərtərəfli işlər gedir - elektrik xətləri, su elektrik stansiyaları, yarımstansiyalar, tunellər, körpülər, hava limanları, sosial obyektlər və bütün digər məsələlər. Bax, bu tunelin şəkli də burada göstərilir, çox rahat və təhlükəsiz bir yol olacaq.

Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev: İndi biz Laçın rayonuna gedirik. Sonra Kəlbəcər şəhərinə gedəcəyik. Yolumuz Laçın rayonunadır. Hava limanının təməlini qoyacağıq.

Birinci xanım Mehriban Əliyeva: Bu yol təzə yoldur? Yoxsa olub bu yol?

Prezident İlham Əliyev: Yox, bu, olub. Kəlbəcər-Laçın yolu da təbii ki, ən yüksək səviyyədə yenidən qurulacaq. İndicə təməlini qoyduğum hər iki tunel bu yolu daha da rahat edəcək. Bu da sovet vaxtında inşa edilmiş məşhur tuneldir. Burada göstərilir - inşası 1958-ci ildə başlamışdır, uzunluğu cəmi 200 metrdir. Bizim inşa edəcəyimiz tunellər isə 11 kilometr, 5 kilometrdir. Bax, bu gün Azərbaycan buna qadirdir. Bu isə köhnədən qalan Kəlbəcərlə Laçını birləşdirən yeganə yoldur. Artıq tunel işıqlandırılıb. Ermənilər Kəlbəcər və Laçını tərk edərkən bu tuneli partlatmaq istədilər. Görün, bu

adamlar nə qədər məkrli hisslərlə yaşamışlar. Baxın bu hissəyə, buranı partlatmaq istədilər, amma alınmadı. Qaça-qaç idi, tələsirdilər.

Azərbaycanın gözəl mənzərələri. Kəlbəcər və Laçın rayonları təbiət nöqteyi-nəzərdən ən gözəl rayonlardandır. Ermənilər təbiətimizə nə qədər ziyan vursalar da, onu tam məhv edə bilmədilər.

Qeyd edək ki, Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, şübhəsiz ki, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Laçın hava limanın inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Beynəlxalq Hava Limanının təməlini qoydular.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev dedi:

-Bu gün azad edilmiş torpaqlarda böyük infrastruktur obyektinin təməli qoyulur. Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilir. Bu hava limanının tikintisi mənim tərəfimdən bir müddət əvvəl elan edilmişdir. Demişdim ki, azad edilmiş torpaqlarda üç beynəlxalq hava limanı tikiləcək. Artıq Füzulidə və Zəngilanda bu işlərə start verildi. Füzuli Beynəlxalq Hava Limanı bu ilin sonuna, ya da gələn ilin əvvəlinə istismara tam hazır olacaq.

Zəngilanda da işlərə start verildi, mən şəxsən Zəngilan Beynəlxalq hava limanının təməlini qoydum. Zəngilan Hava Limanının istifadəyə verilməsi tarixi yəqin ki, 2022-ci il olacaq. Kəlbəcər və Laçın rayonlarında, – mən müharibə başa çatandan sonra elan etmişdim, - yer axtarılacaq və beynəlxalq hava limanları tikiləcək. Yerin axtarışı, əlbəttə ki, çox vaxt apardı. Çünki Kəlbəcər və Laçın rayonlarının relyefi elədir ki, burada düzən yer tapmaq mümkün deyil. Baxmayaraq ki, hər iki rayonun çox geniş ərazisi var, - dağlar, meşələr, dərələr, təpələr, - düz yol, düz yer demək olar ki, yoxdur. Yeganə bu yer seçildi ki, burada yenə də böyük torpaq işləri aparmaqla hava limanının tikilməsi mümkündür. Hava limanının zolağı bax, arxamdakı yerdə olacaq, indi bunu təsəvvür etmək belə çətindir. Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə yer bura - Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda, ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda, Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni, gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq. Dediyim kimi, burada böyük torpaq işləri aparılacaq. Bəzi boşluqlar doldurulacaq. Yəni, torpaq işləri vaxtımızı aparan əsas işlər olacaqdır.

O ki qaldı, uçuş-enmə zolağına, o da standart ölçüdə olmalıdır. Yeni inşa edilən və ediləcək hər üç hava limanında uçuş-enmə zolağı üç kilometrə bərabərdir. Yəni, bütün növ təyyarələr, o cümlədən ən ağır yük təyyarələri də bu hava limanlarına enə biləcək.

Beləliklə, azad edilmiş bölgələrin – Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların buraya, bu zonaya qaytarılması üçün yeni imkanlar açılacaq. İndi demək çətindir, bu inşaat nə qədər zaman aparacaq. Ancaq, əlbəttə, biz istəyirik ki, maksimum qısa müddətdə aparılsın. Lakin bildirmək istəyirəm ki, mal-materialların gətirilməsi üçün logistik problemlər var. İndi yay başa çatır, bir müddətdən – oktyabr ayından sonra buralarda qar yağacaq. Mən bunu demək istəməzdim - yollardan istifadə çətinləşəcək. Hər halda, bu gün bu tarixi hadisə baş verir, biz Laçın Beynəlxalq Hava Limanının tikintisinə start veririk. Hesab edirəm ki, bu, bir çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki sovet dövründə heç vaxt bu bölgədə – Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Məhz bu səbəbə görə. Çünki çox bahalı bir layihə ola bilərdi və məqbul yer də tapmaq mümkün deyil. Ancaq biz müstəqil Azərbaycan dövlətiyik, buna texniki imkanlarımız da, maliyyə imkanlarımız da və güclü iradəmiz də var. Bu hava limanını inşa edən Azərbaycan şirkəti olacaq. Bu da çox sevindiricidir. Çünki azad edilmiş torpaqlarda yerli şirkətlərin fəal işləməsi önəmli amillərdən biridir. Bizimlə bərabər, böyük layihələrdə qardaş Türkiyə şirkətləri də fəal iştirak edirlər.

Zəngilan, Laçın, Füzuli hava limanlarının inşa edilməsi və istismara verilməsi bölgənin canlanmasına gətirib çıxaracaq. Bu hava limanlarının həm yüklər, həm sərnişinlər, eyni zamanda, hərbi təyinatı da, təbii ki, göz önündədir. Biz daim hazır olmalıyıq, daim öz hərbi gücümüzü artırmalıyıq, hərbi infrastruktur yaratmalıyıq və yaradırıq, o cümlədən hava limanları bizim hərbi məqsədlərimizə də xidmət edəcək.

Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını, laçınlıları, kəlbəcərliləri, bütün keçmiş köçkünləri ürəkdən təbrik edirəm.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə arıçılarla görüşüb söhbət etdilər.

Arıçılar: Azərbaycanda arı ailələri iki dəfədən çox artıb.

Prezident İlham Əliyev: Bizim balımız da çox keyfiyyətlidir. İndi Kəlbəcər balı yəqin ki, bütün digər yerlərdən daha da keyfiyyətli olacaq. Ona görə gərək həm daxili bazarı təmin edəsiniz, həm də ki, ixrac edəsiniz. Göstərməyə bir şey var?

Arıçı: Göstərməyə bəli var. Mən indi bir arı papağı verəcəyəm.

Prezident İlham Əliyev: Onlar bilirlər biz kimik, bizə dəyməzlər. Bu, baldır?

Arıçı: Bəli, baldır, əsl Kəlbəcər balıdır. İcazə versəydiniz, bunlardan Sizə iki dənə hədiyyə verərdim.

Prezident İlham Əliyev: İki dənə çoxdur, yox. Bir dənə bəsdir. Biz Kəlbəcər balından da dadarıq. Hazırdır da bu?

Arıçılar: Bəli, artıq hazırdır. Biri budur, birini də başqa yeşikdən taparam.

Prezident İlham Əliyev: Yox, biri bəsdir. Bir dənə bəsdir dadmaq üçün.

Birinci xanım Mehriban Əliyeva: Bir dənə bəsdir.

Arıçılar: Vuracaq indi.

Prezident İlham Əliyev: Yox, bizə dəyməz, o, bilir ki, biz kimik. Sizdən başqa da arıçılar var?

Arıçılar: Var, başqa arıçılar da var. Pilot layihə kimi 5 arıçı gəldi. Sonra başqa arıçılar gəldilər. Qoy bir dənə də çıxarım.

Prezident İlham Əliyev: Yox, yox bəsdir.

Birinci xanım Mehriban Əliyeva: Orada arı qalıb üstündə.

Arıçı: Bu, tam möhürlü olmadı, istəyirəm tam möhürlüsünü verim.

Prezident İlham Əliyev: Yox, elə bu, kifayətdir.

Birinci xanım Mehriban Əliyeva: Orada arılar var. Çəkirəm.

Prezident İlham Əliyev: Gəlin birlikdə şəkil çəkdirək.

Sağ olun. Mən bütün köçkünlərə söz vermişdim ki, onları dədə-baba yurduna qaytaracağam.

Arıçılar: Biz inanırdıq, ona görə ki, biz Sizə inanırdıq, xalqımıza inanırdıq, şəhidlərimizə inanırdıq. Bizim təsərrüfatımızın builki məhsulunun 20 faizi şəhid ailələrinə yönəldiləcək.

Prezident İlham Əliyev: Çox yaxşı. Yəqin ki, təsərrüfatınızı getdikcə genişləndirəcəksiniz.

Arıçı: Bəli genişləndirəcəyik. Çünki tək Kəlbəcər yox, ümumiyyətlə, işğaldan azad olunmuş torpaqlar arıçılıq üçün böyük yem bazasıdır. Ermənilərin böyük təsərrüfatları var idi burada və ixracla məşğul idilər.

Prezident İlham Əliyev: Sovet vaxtında da Kəlbəcərdə arıçılıq inkişaf etmişdi.

Arıçılar: Kəndin özündə olub sovet vaxtında. Sovet İttifaqında Kəlbəcər balının adı çıxmışdı. Bu adı inşallah, özünə qaytaracağıq.

Prezident İlham Əliyev: Ermənilər çox qanunsuz işlər görüblər, təbiətimizi məhv ediblər, istismar ediblər.

Arıçı: Ata-babalarımızın kökü buradadır, atamın qəbri buradadır. Kəlbəcərdə heç vaxt erməni yaşamayıb.

Prezident İlham Əliyev: Bilirəm, heç vaxt. Amma sonra Kəlbəcəri özününküləşdirmək istədilər, adını dəyişdirməyə çalışdılar. Biz də gəldik, dərsini verdik, torpağımızı geri aldıq.

Arıçılar: Çox sağ olun. Təşəkkür edirik.

Prezident İlham Əliyev: Sağ olun.

Birinci xanım Mehriban Əliyeva: Sağ olun, uğurlar sizə. Çox sağ olun.

Prezident İlham Əliyev: Bütün qohum-qardaşlara salam deyin.

Arıçılar: Allah Sizi bu xalqımıza çox görməsin. Sağ olun.

Prezident İlham Əliyev: Kəlbəcər şəhərinə yaxınlaşırıq. Bir neçə dəqiqədən sonra Kəlbəcər şəhərində olacağıq.

Artıq Kəlbəcər şəhərindəyik, şəhərin girəcəyindəyik. Bax, bunlar vəhşi ermənilərin əməlləridir. Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərinə gəldilər.

Dövlətimizin başçısı Kəlbəcər şəhərində Dövlət bayrağını ucaltdı və çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Hərbi əməliyyat nəticəsində torpaqlarımız işğaldan azad edildi. İkinci Qarabağ müharibəsi bizim şanlı Zəfərimiz kimi tarixdə əbədi qalacaq. Qələbə nəticəsində Kəlbəcər rayonu da Laçın və Ağdam rayonları ilə bərabər işğalçılardan azad edildi. Ermənistan noyabrın 10-da kapitulyasiya aktını imzalayaraq bu öhdəliyi də öz üzərinə götürmüşdür və Kəlbəcər, Laçın və Ağdam rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur.

İkinci Qarabağ müharibəsinin ilk günlərində döyüşlər gedən zaman Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçılardan azad edilmişdir. Murov dağının ərazisində və ətraf yerlərdə şiddətli döyüşlər gedirdi, şəhidlər vermişdik. Ancaq strateji yüksəklikləri götürdük və bu yüksəkliklər bizə imkan verirdi ki, ermənilərin istifadə etdikləri nəqliyyat-kommunikasiya infrastrukturuna da nəzarət edək. Beləliklə, biz Kəlbəcərin şimal hissəsində strateji yüksəklikləri götürərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə böyük dərəcədə məhdudlaşdıra bildik və faktiki olaraq onlar Basarkeçar-Kəlbəcər yolundan istifadə edə bilmədilər. Bu, hərbi əməliyyatın, əks-hücum əməliyyatının tərkib hissəsi idi. Biz əks-hücum əməliyyatını bir neçə istiqamətdə aparırdıq və hər istiqamət önəmli idi. Çünki biz artıq bəzi istiqamətlər üzrə müdafiə xəttini yararaq işğalda olan torpaqları azad edirdik, bəzi istiqamətlərdə strateji nöqtələri götürərək Ermənistan ordusunun hərəkətlərini demək olar ki, iflic vəziyyətə salmışdıq. Bəzi istiqamətlər üzrə, sadəcə olaraq, hərbi manevrlər apararaq erməni silahlı birləşmələrinin başqa yerə göndərilməsinin qabağını alırdıq. Beləliklə, Kəlbəcərin bir hissəsi, kiçik olan hissə döyüş meydanında azad edildi. Ancaq əksər hissəsi, böyük hissə Ermənistan kapitulyasiya aktına imza atandan sonra azad edildi.

Kəlbəcərin azad edilməsi tarixi hadisədir. Kəlbəcərin işğal altına düşməsi isə xalqımızın böyük faciəsi idi. Çünki Laçın və Şuşa rayonları 1992-ci ilin may ayında işğal altına düşəndən sonra ermənilərin növbəti hədəfi Kəlbəcər idi. Şuşa və Laçının işğalı ilə bağlı artıq Azərbaycanda çox dəqiq təsəvvür var. Hər kəs bilir ki, Şuşa və Laçının işğala məruz qalması AXC-Müsavat

cütlüyünün xəyanəti nəticəsində baş vermişdir. O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi, AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, nəyin bahasına olursa-olsun hakimiyyəti zəbt etməyə çalışırdı və onların nəzarəti altında olan bəzi qüvvələr, bəzi satqınlar Şuşanı demək olar ki, ermənilərə təhvil verdilər və Şuşa demək olar ki, müdafiə olunmadı. Şuşada olan bəzi silahlı dəstələr Şuşadan çıxdı və faktiki olaraq Şuşa ermənilərə təslim edildi. Məhz bunun nəticəsində Azərbaycanda hakimiyyət böhranı yaşandı və AXC-Müsavat cütlüyü bundan istifadə edib qanunsuz yollarla hakimiyyəti uzaqlaşdırıb, hərbi çevriliş törədib hakimiyyətə gəldi. Şuşa və Laçının işğal altına düşməsi sırf AXC-Müsavat cütlüyünün xəyanətidir, satqınlığıdır. Kəlbəcər rayonu işğal altına düşəndə artıq AXC-Müsavat cütlüyü öz çirkin məqsədlərinə çatmışdı, hakimiyyətdə idi. Təxminən bir ilə yaxın hakimiyyətdə idi. Kəlbəcər 1993-cü il aprel ayının əvvəlində işğal altına düşmüşdü və bunun da günahkarı AXC-Müsavat cütlüyüdür, AXC-Müsavat hakimiyyətidir. Onların xəyanətkar, satqın, antimilli hakimiyyəti Kəlbəcərin işğalını şərtləndirdi. Çünki 1992-ci ilin bahar-yay aylarından onlar demək olar ki, hakimiyyətdə idilər və bir il ərzində ancaq talançılıqla, rüşvətxorluqla, soyğunçuluqla, qanunsuzluqla və digər çirkin əməllərlə məşğul idilər. İndi bir çoxları bunu unudur. Gənc nəsil isə bundan xəbərsizdir. O dövr bizim milli faciəmiz, milli rəzalət dövrü idi. AXC-Müsavat hakimiyyəti dünya miqyasında bəlkə də ən biabırçı hakimiyyətlərdən biri idi, bəlkə də birincisi idi. Ölkə əldən gedirdi, ölkədə vətəndaş qarşıdurması pik həddə çatmışdı, torpaqlar işğal altına düşürdü, ancaq onlar yalnız öz mənafeyini, öz maraqlarını düşünürdülər. Hakimiyyətə gəlmiş antimilli ünsürlər Azərbaycanı demək olar ki, bütün beynəlxalq tərəfdaşlardan, xarici tərəfdaşlardan təcrid etdilər və həm xarici, həm daxili siyasətdə kobud səhvlər buraxdılar və cinayətlər törətdilər. Kəlbəcərin işğala məruz qalması satqın AXC-Müsavat hakimiyyətinin əməlləridir. Kəlbəcər işğal altına düşəndən sonra Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında birbaşa coğrafi bağlantı yarandı və artıq digər torpaqların işğalı da labüd idi. Çünki AXC-Müsavat hakimiyyəti ordu quruculuğuna fikir vermirdi, orduda heç bir islahat aparılmırdı. Əksinə, ordumuzu zəiflətmək üçün hər vasitədən istifadə edirdi. Torpaqlar işğal altına düşürdü, onlar isə öz laxlamış hakimiyyətini qorumaq üçün Gəncəni bombalayırdılar. Onlar Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Bu videokadrlar var. Burada ermənilər soyqırımı törədirdilər, şəhərlərimizi viran qoyurdular. Baxın, Kəlbəcər nə gündədir, digər şəhərlər nə gündədir. Onlar isə Azərbaycan əsgərlərini əsir götürüb, öz hakimiyyətini möhkəmləndirmək istəyirdilər. Görəndə ki, artıq bu da mümkün deyil, qaçdılar gizləndilər, dövlət səviyyəsində fərarilik etdilər. AXC-Müsavat hakimiyyəti, onun başında duranlar fəraridirlər, satqındırlar, qorxaqdırlar, xaindirlər və bu, əsl həqiqətdir.

Əlbəttə, biz torpaqlarımızı azad etmək üçün addımlarımızı elə atırdıq ki, bütün torpaqlar azad edilsin. Artıq bu da sirr deyil ki, danışıqlar dövründə masa üzərində olan təkliflər bizim maraqlarımızı qane etmirdi. Mən bunu açıq bəyan etmişdim və məhz buna görə təklif edilən varianta razılıq vermirdim. Çünki son 10 il ərzində nədən söhbət gedirdi – beş rayon Azərbaycana qaytarıla bilər, Kəlbəcər və Laçın rayonları isə keçmiş Dağlıq Qarabağda referendum keçiriləndən sonra Azərbaycana qaytarıla bilər. Əlbəttə, biz buna heç cür razı ola bilməzdik. Çünki heç bir referendumdan söhbət gedə bilməzdi. Mənim siyasətim ondan ibarət idi və mən bunu açıq şəkildə bəyan edirdim ki, bizim bütün torpaqlarımız işğalçılardan azad edilməlidir, ərazi bütövlüyü tam bərpa edilməlidir, bizə məsələnin yarımçıq həlli lazım deyil. Məhz buna görə edilən təkliflərə Azərbaycan tərəfi razılıq vermirdi. Ancaq sonra bilindi ki, Ermənistan da buna razı deyil. Çünki Ermənistanın məqsədi bu torpaqları, zəbt edilmiş bütün torpaqları əbədi işğal altında saxlamaq idi. İndi çıxan yeni məlumatlar və eyni zamanda, azad edilmiş torpaqlarda mövcud olan mənzərə onu göstərir. Torpaqları təhvil vermək istəyən 6 xətt müdafiə istehkamları qurmazdı. İndi bilinir ki, onların məqsədi status-kvonu əbədi etmək, bizə bir qarış torpaq qaytarmamaq, məsələni uzatmaq idi. Onlar öz xarici havadarlarına güvənərək bunu 30 il ərzində həyata keçirirdilər və istəyirdilər ki, bundan sonra da 300 il ərzində bunu həyata keçirsinlər. Hesab edirdilər ki, bu siyasət onlara xeyir gətirəcək. Hesab edirdilər ki, Azərbaycan öz torpaqlarını müharibə yolu ilə azad etməyəcək. Hesab edirdilər ki, bizi kimsə dayandıracaq. Onların himayədarları bizə, necə deyərlər, təsir göstərəcəklər, təzyiq göstərəcəklər. Ancaq bilmirdilər bütün Azərbaycan xalqı bir amalla yaşayır ki, işğala son qoyulsun, düşmən torpaqlarımızdan qovulsun və biz öz dədə-baba torpaqlarımıza qayıdaq və qayıtdıq. Ermənistan ordusunu məhv edərək qayıtdıq, Ermənistan faşizminin başını əzərək qayıtdıq, erməni cəlladlarını cəzalandıraraq qayıtdıq, şəhidlərimizin qanını alaraq qayıtdıq. Qayıtmışıq, bu gün burada durmuşuq və əbədi duracağıq!

İkinci Qarabağ müharibəsi, bir daha demək istəyirəm, tarixi Zəfərimizdir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır. Müharibə ilə bağlı artıq kifayət qədər məlumatlar var və təkrar etmək istəmirəm. Müharibənin gedişatı hər kəsə məlumdur. Sadəcə olaraq, indi bizim dərsliklərimizdə, elmi əsərlərdə, məqalələrdə, kitablarda müharibə ilə bağlı və müharibədən əvvəlki dövrlə bağlı çox müfəssəl və geniş məlumat verilməlidir ki, biz bu tarixi olduğu kimi qeyd edək, bu tarixi olduğu kimi yazaq və gələcək nəsillər də daim bunu bilsinlər və unutmasınlar, o cümlədən erməni vəhşiliyini unutmasınlar.

Ancaq bu gün İkinci Qarabağ müharibəsi ilə bağlı bu sözləri deyərkən bir məsələyə diqqət yetirmək istəyirəm. Bu müharibə, eyni zamanda, erməni mifologiyasının tamamilə məhv olması deməkdir. Çünki uzun illər ərzində, otuz il ərzində ermənilər dırnaqarası "hərbi qələbə" ilə öyünürdülər. Ermənilər bir neçə mif uydurmuşdular ki, onların ordusu "yenilməz ordu"dur və onların ordusu bu torpaqları əbədi işğal altında saxlaya bilər. Biz bu mifi dağıtdıq. Erməni ordusu yoxdur bu gün. Erməni ordusu tamamilə məhv edildi. Erməni ordusunun silah-sursatlarının mütləq əksəriyyəti məhv

edildi, ya da ki, qənimət kimi götürüldü və indi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Biz erməni ordusunu "yenilməz ordu" kimi təqdim edən mifologiyaya son qoyduq.

İkinci mif ondan ibarət idi ki, erməni əsgəri "cəsur"dur və istənilən müharibədə qalib gələ bilər. Biz bu mifi də darmadağın etdik. Erməni əsgəri fərariridir, qorxaqdır. Onlar özləri etiraf etdilər və bu da sübut olundu ki, müharibə dövründə Ermənistan ordusunda 10 min fərari olmuşdur. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır. Yəni, bu mif də darmadağın edildi. Erməni əsgəri fərariridir.

Növbəti mif isə o idi ki, azərbaycanlılar öz torpaqları uğrunda vuruşmayacaqlar, onlar bu vəziyyətlə barışıblar və əgər otuz ilə yaxın müddət ərzində müharibə başlamayıbsa, bundan sonra da başlamayacaq. Bu mifi də biz dağıtdıq. Biz göstərdik ki, bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildik. Mən bunu dəfələrlə deyirdim. Bütün çıxışlarımda deyirdim ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Bu mifologiya da darmadağın edildi.

Növbəti mif onların dırnaqarası "sərkərdələri" ilə bağlı idi. Guya Ermənistanda elə görkəmli generallar, sərkərdələr var ki, onlar istənilən hərbi vəzifəni yerinə yetirə bilərlər. Biz gördük ki, onların generalları oğrudurlar, "tuşenka" satandırlar. Onların sərkərdələri də qorxaqdırlar, fərariridirlər. Xocalı cəlladları Köçaryan, Sarkisyan, Ohanyan müharibə zamanı Qarabağa soxulmuşdular, orada idilər. Amma görəndə ki, müzəffər Azərbaycan Ordusu öz torpaqlarını qəhrəmancasına azad edir, qaçdılar gizləndilər. Soruşmaq lazımdır onlardan, oradan nəyə görə çıxdılar? Onlar Xankəndidə idilər, üçü də. Niyə qaçmısınız? Niyə gizlənmisiniz? Mən demişəm, bir daha deyirəm, o dəmir-dümürləri çıxarın, onları atın zibil yeşiyinə. Siz fərarisiniz, qorxaqsınız. Biz sizi məhv etmişik. Xocalı soyqırımında ən fəal rollardan birini oynayan keçmiş müdafiə naziri Şuşadan güclə canını qurtardı, son anda canını qurtardı. Dovşan kimi qaçmışdılar. Biz onları məhv etmişik. Onların dırnaqarası "qəhrəmanlarını", "Artsax", olmayan "Artsax" qəhrəmanlarını məhv etmişik. Onlar bu damğa ilə əbədi yaşayacaqlar. Fərarilər, satqınlar, cəlladlar, qorxaqlar - onlar ancaq əliyalın əhali ilə müharibə apara bilərlər. Necə ki, vaxtilə Xocalını işğal edəndə burada demək olar ki, onlara müqavimət göstərən qüvvə yox idi, mülki vətəndaşlar idi. Bax, bu evlərdə yaşamış mülki vətəndaşlar idi və aprel ayında hələ burada qarlar əriməmişdi, onların böyük hissəsi burada həlak oldu. Onlar buradan Gəncə istiqamətinə, o Murov dağının üstündən, Ömər aşırımından keçərkən onlara pusqular qurdular. Onları – uşaqları, qadınları, qocaları qətlə yetirdilər. Onlar məcbur olub ayaqyalın, qarlı-şaxtalı havada Ömər aşırımından keçərək, on kilometrlərlə yolu qət edərək buradan çıxmalı idilər. Bir çoxları da yolda qaldı, dondu, öldü. Bu, erməni vəhşiliyidir. Biz vəhşiləri məğlub etdik. Biz bölgəni vəhşilərdən, faşistlərdən xilas etdik. Bunu heç kim heç vaxt unutmamalıdır.

Erməni mifologiyasının biri də o idi ki, guya ermənilər qədim tarixə, mədəniyyətə malikdirlər və burada "vəhşi müsəlmanlar" arasında qalıblar. Guya ki, o, Qafqazda mədəniyyətin ocağıdır, beşiyidir, yaxud da son məntəqəsidir. Onların mədəniyyəti, bax, budur. Bax, bu binalardır, qazılmış qəbirlərdir, dağıdılmış məscidlərdir. Bunu hansısa başqa planetdən gələn yadplanetli yox, erməni edib. Özü də Birinci Qarabağ müharibəsi dövründə yox, müharibədən sonra, məqsədyönlü şəkildə, barbar kimi, vəhşi kimi, vandal kimi, bir-bir evlərin kərpiclərini, daşlarını sökub aparıb özləri üçün daxmalar tikiblər.

Onlar artıq buradan gedəsi olanda, kapitulyasiya aktını imzalayandan sonra da bizdən vaxt istədilər. Rusiya rəhbərliyi bizə müraciət etmişdir ki, onlara əlavə on gün vaxt verin, onlar buradan öz şələ-şüləlerini yığışdıra bilmirlər. Onlara vaxt verin ki, çıxsınlar. Biz yenə də humanistlik göstərdik. Yenə də vaxt verdik noyabrın 25-nə qədər. Amma onlar bu müddət ərzində nə etdilər?! Onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırdılar, dağıtdılar. İndi yol boyunca o evlər görünür. Ağacları kəsdilər, ağacları yandırdılar. Bax, erməni vəhşiliyi budur. Zaman dəyişir, erməni faşizmi dəyişmir və dəyişməyəcək. Heç kim bunu unutmamalıdır. İndi onların bəzi hallarda göndərdikləri yaltaqlıqla dolu sözlərinə inanmaq olmaz. Buna inanmaq istəyən, bax, bu mənzərəni göz önünə gətirsin, dağıdılmış Ağdamı, Füzulini, Şuşanı, Kəlbəcəri, Laçını, Zəngilanı, Qubadlını, Cəbrayılı göz önünə gətirsin. Erməni vəhşilərin əməlləri göz qabağındadır. Amma onların hamiləri bunu görmək istəmirlər. Amma görməlidirlər və görəcəklər. Onların gözünə soxacağıq. Biz indi kitablar da dərc edirik, göstəriş vermişəm, təqdimatlar da olacaq. Xarici ölkələrdə sərgilər olacaq. Biz göstərəcəyik. Bunu görmək istəməyən məcbur olub görəcək. Görəcək ki, erməni faşizmi, erməni vəhşiliyi nədir.

Ermənilər işğal dövründə, eyni zamanda, bizim təbii sərvətlərimizi də qanunsuz olaraq talan edirdilər. Bu işlərdə bəzi xarici şirkətlər onlara yardım edirdi. Bu şirkətlərin indi iki yolu var: ya bizə təzminat ödəyəcəklər, ya da ki, beynəlxalq məhkəməyə gedəcəklər.

Artıq məhkəmə prosedurları başlamışdır. Buna biz start verdik, tanınmış beynəlxalq hüquq şirkətlərini dəvət etdik və indi məhkəmə işləri hazırlanır. Kəlbəcərdə Söyüdlüdə, Zəngilanda Vejnəlidə, başqa yerlərdə bizim qızıl yataqlarımız xarici şirkətlər tərəfindən istismar edilirdi. O şirkətlər bilmirdilər ki, bu, Azərbaycan torpağıdır? Bilirdilər! Amma buna məhəl qoymurdular. İndi cavab verəcəklər. Biz demişik, əgər istəmirlərsə ki, biz onları dünya miqyasında biabır edək, gəlsinlər, vurulmuş ziyanı bizə ödəsinlər, təzminat ödəsinlər və ondan sonra rahat yaşaya bilərlər.

Bizim meşələrimiz ermənilər tərəfindən məhv edilib. İndi bizim "Azərkosmos"un fotoları var - işğaldan əvvəl neçə min hektar meşə altında idi və indi nə qədərdir. Ağacla dolu olan altmış min hektara yaxın sahəni, meşə fondunu ermənilər dağıdıblar, yəni, kəsiblər. Kəsiblər, talayıblar, aparıblar. Eşitdiyimə görə orada parket işləri, bu biznes çox sürətlə gedirdi. Bu da talançılıqdır. Bu talançılığa görə də cavab verəcəklər. Bizim çaylarımızı zəhərləyiblər. Oxçuçay nə gündədir? Oxçuçay təbii fəlakətdir və onu zəhərləyən yenə də

xarici şirkətdir. O şirkət də cavab verməlidir və verəcəkdir. Dəymiş hər bir ziyan hesablanır. Azad edilmiş bütün torpaqlarda, şəhərlərlə, kəndlərdə indi monitorinq aparılır, pasportlaşdırma aparılır, bütün evlərin pasportları hazırlanır, dəymiş ziyan təsbit edilir və biz beynəlxalq məhkəmələrdə dəymiş bütün ziyanın qaytarılmasını tələb edəcəyik.

Təbii sərvətlər talan edilib, istismar edilib, çaylarımız zəhərlənib, meşələrimiz qırılıb, evlərimiz dağıdılıb, məscidlərimiz sökülüb. Bunu kim edib? Ermənilər! Cavab verməlidirlər və verəcəklər.

Biz isə indi genişmiqyaslı bərpa işlərinə start verdik. O cümlədən Kəlbəcər və Laçın rayonlarında, Şərqi Zəngəzur regionunda. Artıq bu işlərin bir hissəsi bu gün qeyd olundu – yarımstansiya fəaliyyətə başladı, su elektrik stansiyasının tikintisi ilə tanış oldum, Laçın rayonunda beynəlxalq hava limanının təməli qoyuldu, iki tunelin təməli qoyuldu və digər infrastruktur layihələri artıq icra edilməkdədir. Eyni zamanda, biz pilot layihələr kimi Kəlbəcər və Laçın rayonlarının arıçılıqla və heyvandarlıqla məşğul olan sakinlərini buraya göndərdik, ezam etdik, şərait yaratdıq ki, onlar işə başlasınlar və artıq bu işlərə də start verildi.

Biz, eyni zamanda, Kəlbəcər, Laçın istiqamətində dövlət sərhədimizi möhkəmləndiririk. Bu sərhəd 30 ilə yaxın müddət ərzində ermənilərin əlində idi və biz may ayında qarlar əriyəndən sonra bu sərhədlərə çıxmışıq, öz mövqelərimizi tutmuşuq, Zəngəzurda yerləşmişik və orada möhkəmlənirik. Bu, bizim torpağımızdır. Ermənistan tərəfindən səslənən fikirlər tamamilə əsassızdır. Biz öz torpağımızdayıq, Qaragöl də bizimdir, başqa yerlər də bizimdir. Biz gəlmişik. 30 il bu ərazi ermənilərin əlində idi. Əgər o sərhəd onların dediyi yerdən keçirdisə, durardılar o sərhəddə. Durardılar, deyərdilər ki, sərhəd budur. Nə oldu bəs? Biz gələndən sonra, durandan sonra dedilər ki, yox, biz düz yerdə durmamışıq. Biz düz yerdə durmuşuq, harada lazımdır, orada durmuşuq və əgər istəsək, harada lazım bilsək, orada da duracağıq. Onu heç kim unutmasın. Ona görə indi Müdafiə Nazirliyinin və Sərhəd Qoşunlarının xətti ilə bütün sərhəd boyunca – Murovdağdan ta Araz çayına qədər bütün sərhəd infrastrukturu, hərbi hissələr yaradılır, biz bu sərhədlərdə möhkəmlənirik.

Daxili əhəmiyyət daşıyan 700 kilometr uzunluğunda yolların çəkilişi prosesi gedir. Mən hələ əsas şəhərlərarası yolları kənara qoyuram, o layihələr haqqında kifayət qədər məlumat verildi. Bizim sərhədlərə gedən 700 kilometr yolların çəkilişi prosesi gedir və artıq qış gələnə qədər bu işin təqribən 80 faizi görüləcək. Yəni, torpaq, çınqıl örtüklə döşənmiş yollar və bu, bizə imkan verəcək ki, həm hərəkət üçün, həm hərbi nöqteyi-nəzərdən bu bölgələrdə daha da möhkəmlənək. Əlbəttə ki, Azərbaycan-Ermənistan sərhədində biz söz sahibiyik. Bu, təbiidir və bundan sonra da söz sahibi olacağıq. Ona görə, bu məsələ ilə bağlı bəzən hansısa xarici dairələrdə də qeyri-adekvat fikirlər səsləndirilir. Buna ehtiyac yoxdur. Biz harada lazım bilmişiksə, orada da durmuşuq və əgər bu kimisə narahat edirsə, əgər kimsə əsəbləşirsə, necə deyərlər, getsinlər, su içsinlər.

Bildiyiniz kimi, mənim Sərəncamımla 14 iqtisadi rayon yaradıldı. Onların arasında iki iqtisadi rayonun yaradılması diqqət çəkdi – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı. Hesab edirəm ki, bu da çox düzgün addımdır. Bu, həm tarixə əsaslanır, eyni zamanda, gələcəyə əsaslanır. Çünki, həm Qarabağ, həm Zəngəzur bizim tarixi dədə-baba torpağımızdır. Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonlar birləşdi. Şərqi Zəngəzur iqtisadi rayonunda Şərqi Zəngəzura aid olan rayonlar birləşdi. Qərbi Zəngəzur isə hazırda Ermənistanın nəzarəti altındadır. Ancaq Zəngəzur dəhlizinin çəkilişi nəticəsində əlbəttə ki, biz bu dəhlizdən istifadə edib öz vətəndaşlarımızı dədə-baba torpaqlarımıza qaytaracağıq. Belə planlar var və bu da təbiidir. Çünki bizim vətəndaşlar indiki Ermənistan ərazisindən, təkcə Zəngəzur mahalından yox, Göyçə mahalından da, – bura ilə həmsərhəddir, - zorla qovulmuşlar və onların tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar. Biz bunu sonrakı mərhələyə saxlayırıq.

İndiki mərhələdə bizim əsas vəzifəmiz müharibənin nəticələrini möhkəmləndirməkdir, azad edilmiş torpaqlarda möhkəmlənməkdir. Azərbaycan-Ermənistan sərhədində bundan sonra da mövqelərimizi gücləndirməkdir. Yenidənqurma, bərpa işlərinə artıq start verilib, bu da əsas vəzifələrdən biridir. Keçmiş məcburi köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaq da gündəlikdə duran məsələdir. Mən artıq bildirmişəm, Zəngilan rayonunda bir neçə aydan sonra artıq birinci qrup keçmiş köçkünlər yerləşəcək. Eyni zamanda, Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər seçildi. Artıq işlər gedir ki, o kəndlərin bərpasına start verək və vətəndaşları oraya qaytaraq. Ağdam şəhərinin baş planı təsdiqləndi, digər şəhərlərin baş planının təsdiqlənməsi yaxın aylarda nəzərdə tutulur.

Beləliklə, biz bundan sonrakı əsas hədəfləri düzgün müəyyən edərək, bu hədəflərə çatmağa da nail olacağıq. Biz bu gün buradayıq, Kəlbəcərdəyik, Azərbaycanın çox gözəl guşələrindən biri olan Kəlbəcərdəyik və biz bundan sonra burada əbədi yaşayacağıq. Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!

Prezident İlham Əliyev: Kəlbəcər şəhəri. Yolun sağında da, solunda da bir dənə salamat bina yoxdur. Baxmayaraq ki, ermənilərin bir hissəsi Kəlbəcər rayonunda qanunsuz məskunlaşmışdılar. Ancaq azərbaycanlılara məxsus olan bütün evləri yerlə-yeksan ediblər. Bax, indiki Kəlbəcər şəhəri budur. Biz Kəlbəcər şəhərini də, kənləri də yenidən quracağıq. Bax, bütün evlər dağılmış vəziyyətdədir.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Kəlbəcər şəhərindəki N saylı hərbi hissəyə gəldi.

Quru qoşunları komandanı general-mayor Ənvər Əfəndiyev Ali Baş Komandan İlham Əliyevə raport verdi.

– Cənab Ali Baş Komandan, quru qoşunlarının əməliyyat şəraitində dəyişiklik olmayıb, hadisə baş verməyib.

Prezident, Ali Baş Komandan hərbi hissədə yaradılan şəraitlə tanış oldu.

Qeyd edək ki, burada hərbi qulluqçuların xidməti yüksək səviyyədə aparması üçün hər cür şərait yaradılıb.

Bu da hərbi qulluqçularımıza Vətənin keşiyində hər zaman ayıq-sayıq durmağa, onu düşməndən layiqincə müdafiə etməyə imkan verir.

Prezident İlham Əliyev: İndi isə biz İstisuya gəldik. İstisu sanatoriyasının dağılmış görüntüləri gözümüzün önündədir. Vəhşi düşmən buranı da söküb. Baxın, nə günə qoyub sanatoriya korpuslarını.

Kəlbəcər faydalı qazıntı yataqları, səfalı təbiəti ilə yanaşı, İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə də məşhurdur. Erməni vandalları ərazilərimizi işğal etdikdən sonra oradakı təbii ehtiyatları da istismar ediblər. İndi "İstisu"ya öz əvvəlki şöhrətini qaytarmaq qarşıda duran vəzifələrdən biridir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərə səfər çərçivəsində "İstisu" sanatoriyasında da oldular.

İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyni adlı sanatoriyası salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb. Mənbələrə görə, istisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxıb.

Öz kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə İstisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir. Suyun temperaturu səthdə müsbət 74, dərinlikdə isə 90 dərəcəyə çata bilər. İstisu mineral bulaqları 12 bulaqdan ibarətdir.

Prezident İlham Əliyev: Vəhşilər bu abidəni də söküblər. Qəribədir, burada "mir" yazılıb, bu abidə sülhü tərənnüm edirdi. Vəhşi düşmən bunu da sökübdür. Onu da söküb, bu binanı da söküb, hər tərəfi söküb. Biz bütün yerləri yenidən bərpa edəcəyik, yenidən həyat qayıdacaq.

Prezident İlham Əliyev burada uzunluğu 51 kilometr olan İstisu-Minkənd yolunun çəkilməsi işlərinə də baxdı.

Prezident İlham Əliyev dedi: Bu, İstisu-Minkənd yoludur. Bu yol olmayıb, yenidən çəkilir, uzunluğu 51 kilometrdir. Kəlbəcərin İstisu qəsəbəsini Laçının Minkənd kəndi ilə birləşdirən yoldur. Bu, Kəlbəcər və Laçın rayonları arasında ikinci bağlantı olacaq. Hazırda bu yol boyunca işlər gedir, torpaq işləri başa çatıb. Bundan sonra asfalt qatı da vurulacaq. Beləliklə, biz növbəti yol infrastrukturunu yaradacağıq. Həm İstisuya Laçın Beynəlxalq Hava Limanından istifadə edərək gəlmək üçün rahat imkan olacaq, eyni zamanda, Kəlbəcərlə Laçın arasında ikinci yol bağlantısı olacaq. Bunun həm strateji, həm də hərbi əhəmiyyəti var. Eyni zamanda, vətəndaşların rahatlığı, İstisu kurortunu yenidən bərpa etmək, müasir səviyyəyə gətirmək üçün bu yolun böyük əhəmiyyəti var. Bu yol layihəsi də uğurla icra edilir. Xəritədə də artıq yaşayış məntəqələrindən keçən yol göstərilir.

Beləliklə, Kəlbəcər və Laçın rayonlarına səfərimiz başa çatır. Səfər çox uğurlu idi. Bir çox önəmli obyektlərin açılışını etdik, təməlini qoyduq. Şərqi Zəngəzurun gələcək inkişafı ilə bağlı bütün işlər plan üzrə gedəcək və biz istəyimizə nail olacağıq.

Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!

Prezident İlham Əliyev: Heyvandarlar da Kəlbəcər yaylaqlarına qayıdıblar. Həm arıçıları, həm heyvandarlıqla məşğul olanları biz qaytarmışıq. Görürsünüz, onlar məskunlaşıblar. Qoyunları da burada otarırlar. Bu ənənə də bərpa edildi. İşğaldan əvvəl heyvandarlar həmişə buraya gəlirdilər. İndi bizi salamlayırlar. Biz də onları salamlayırıq. Xoş gəliblər öz Vətənlərinə.

Səma bizi yola salır, biz də Ömər aşırımına yaxınlaşırıq, qayıdırıq.

## *Füzuli və Şuşaya səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının Sərəncamı ilə təsdiq edilmiş işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Zəfər yolunun tikintisi başa çatmaq üzrədir. İki-üç hərəkət zolaqlı yolun uzunluğu 101 kilometrdir. Artıq yolun 92 kilometrlik hissəsinə asfalt-beton örtüyü salınıb. Digər hissələrdə isə işlər davam etdirilir. Yolda körpülər və yeraltı keçidlər inşa edilib.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun ölkəmizin mədəniyyət mərkəzi elan olunan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdikləri cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu dövlətimizin başçısı tərəfindən Zəfər yolu adlandırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

Birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanının videogörüntüsünü paylaşıb. Paylaşımda bu sözlər qeyd olunur: “İşğaldan azad olunmuş ərazilərə növbəti səfərimiz. Şuşaya gedərkən”.

Avtomobildə çəkilən videogörüntüdə Prezident İlham Əliyev deyir: “Füzuli Beynəlxalq Hava Limanına yaxınlaşırıq. Sol tərəfdə aerovağzal kompleksidir, qarşıda uçuş-enmə zolağı. Cəmi bir neçə ay ərzində hava limanı demək olar ki, artıq açılışa hazırlaşır. Hava limanının inşası bu il başlamışdır. Mən demişdim ki, bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Bəlkə də dünyada bu sürətli templərlə heç bir hava limanı tikilməmişdir. Artıq uçuş-enmə zolağı da hazırdır. Burada son tamamlama işləri aparılır. Bir daha qeyd etmək istəyirəm, bu il mən hava limanının təməlini qoydum, indi isə gəlirik inşaat işləri ilə tanış olmağa. Bu aeroport Qarabağın hava qapısıdır”.

Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunur. Baqaj konveyerlərinin, qeydiyyat və digər sistemlərin işə salınması nəzərə alınmaqla, sentyabr ayının sonuna qədər sərnişin terminalının istismara verilməsi işləri tam başa çatdırılacaq.

Hava limanında uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib. Aeroport istənilən tip hava gəmisini qəbul etməyə imkan verəcək. Burada perron da inşa edilib. Avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə (HHİ) qülləsinin tikintisi başa çatdırılıb. Bunun sayəsində Füzuli hava limanına ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanması mümkün olacaq.

Sərnişinlərin rahatlığını təmin etmək məqsədilə terminalın qarşısında 150 avtomobil üçün nəzərdə tutulmuş dayanacaq inşa olunub. Bundan başqa, Füzuli Beynəlxalq Hava Limanına giriş üçün yolun tikintisi, həmçinin aeroportun ərazisində yaşıllaşdırma işləri aparılır.

Prezident İlham Əliyevin tapşırığı ilə Füzuli rayonunda belə bir qısa müddətdə bu cür ən müasir standartlara cavab verən Beynəlxalq Hava Limanının inşasının həyata keçirilməsi sözün əsl mənasında misli görünməmiş hadisədir və bu bir daha Azərbaycan Prezidentinin mənfur düşməndən azad olunmuş torpaqlarımızda böyük yenidən qurma və tikinti işlərinin aparılması barədə fikirlərinin bariz nümunəsidir.

Avqustun 29-da Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində yenidənqurma işləri yekunlaşan “Qarabağ” hotelinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Sənayeləşmə siyasətinə uyğun olaraq, ölkəmizdə daxili tələbatın ödənilməsində yerli məhsulların payını əhəmiyyətli dərəcədə artıran və ixrac imkanlarımızı genişləndirən yüzlərlə müasir sənaye müəssisəsi, yeni istehsal sahələri yaradılır. Sumqayıt Kimya Sənaye Parkında yaradılan “Azmonbat” Məhdud Məsuliyyətli Cəmiyyəti də bu müəssisələrdən biridir. Müəssisə Parkda fəaliyyətə başlayan 17-ci rezidentdir. “Azmonbat”da istifadə müddəti bitmiş qurğuşun turşulu akkumulyator batareyalarının utilizasiyası aparılacaq, nəticədə propilen və yüksək sıxlıqlı polietilen, qurğuşun külçə, qurğuşunlu aktiv kütlə və ammonium sulfat məhlulu əldə olunacaq. Müəssisədə bir sıra ölkələrin qabaqcıl texnologiyalarından istifadə edilir. 100 nəfərin daimi işlə təmin olunduğu müəssisədə istehsal edilən məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, Türkiyə, Bolqarıstan və MDB ölkələrinə ixrac ediləcək.

Prezident İlham Əliyev müəssisəni işə saldı.

Məlumat verildi ki, müəssisə ildə 30 min ton akkumulyator utilizasiya etmək gücünə malikdir. Bu, orta hesabla 800 min ədəd akkumulyator deməkdir ki, ondan da 15 min ton qurğuşun və 4,5 min ton gübrə almaq mümkündür. İstehsal prosesi ətraf mühitə zərər vurmadan, ekoloji standartlara tam cavab verir. İstifadə

müddəti bitmiş qurğuşun turşulu akkumulyator batareyalarının utilizasiyasının təşkili həm də xüsusi əhəmiyyətli ekoloji layihədir.

"Azmonbat" MMC sənaye parkında tətbiq edilən vergi və gömrük güzəştlərindən yararlanaraq, indiyədək xərclərinə 1 milyon manat məbləğində qənaət edib.

Sentyabrın 3-də Sumqayıt Məhkəmə Kompleksinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Ədliyyə naziri Fikrət Məmmədov kompleksdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verdi.

Qeyd edək ki, ölkəmizdə digər sahələrdə olduğu kimi, məhkəmə sistemində də islahatlar uğurla davam etdirilir. Prezident İlham Əliyevin 2019-cu ildə imzaladığı Fərman bu sahədə mühüm "yol xəritəsi" olmaqla onun icrası ilə bağlı kompleks qanunvericilik və praktiki tədbirlər görülür. Yeni regional inzibati və kommersiya məhkəmələri təsis edilib, vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün işlək mexanizmlər yaradılıb, məhkəmələrin və hakimlərin təminatı gücləndirilib. Bu sahədə infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirlər çərçivəsində yeni məhkəmə bina və komplekslərinin inşası, onların ən müasir İKT qurğuları ilə təchizi xüsusi yer tutur. Sumqayıt Məhkəmə Kompleksinin inşası da bu istiqamətində icra olunan layihələrdən biridir. Bu, respublikamızda inşa olunan sayca dördüncü məhkəmə kompleksidir.

Kompleks Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində inşa olunub. Konseptual baxımdan yeni olan, öz funksionallığı ilə fərqlənən müasir Məhkəmə Kompleksi altı məhkəməni, o cümlədən Sumqayıt apellyasiya, inzibati, kommersiya və ağır cinayətlər, Sumqayıt şəhər, eləcə də müvəqqəti olaraq Qubadlı rayon məhkəmələrini əhatə edir. "Bir qapı" prinsipi ilə fəaliyyət göstərəcək məhkəmə kompleksi ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə, vətəndaşların müraciət imkanlarının asanlaşdırılmasına xidmət edəcək.

Məhkəmə zallarında proseslərə "Elektron məhkəmə" informasiya sistemi və digər müasir İKT-lərin tətbiqi ilə daha keyfiyyətli baxılması və şəffaflığın təmin edilməsi üçün "Femida" sistemi quraşdırılıb. Burada 50-dək hakim, ümumilikdə isə 240 işçi fəaliyyət göstərəcək. Sumqayıt Məhkəmə Kompleksində yaradılmış müasir şərait təxminən 1 milyon 460 min əhaliyə yüksək səviyyədə məhkəmə xidmətləri göstərməyə imkan verəcək.

Prezident İlham Əliyevə ədliyyə və məhkəmə sahəsində tətbiq olunan növbəti rəqəmsal innovasiyalar barədə də məlumat verildi, bununla bağlı videoçarx nümayiş etdirildi.

Bildirildi ki, dövlətimizin başçısının sosial ədalətə əsaslanan islahatlarına, eləcə də birinci xanım Mehriban Əliyevanın inklüziv cəmiyyətin inkişafı üzrə təşəbbüslərinə uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən innovasiyaların tətbiqinin genişləndirilməsi üzrə ardıcıl tədbirlər görülür. Bütün bu işlər vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılmasına, onlara yüksək keyfiyyətli hüquqi xidmətlərin göstərilməsinə, şəffaflığın artırılmasına, bütövlükdə məhkəmə hakimiyyətinə ictimai etimadın yüksəldilməsinə yönəlib.

Sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən yeni inşa olunan 1100 şagird yerlik Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə də tanış olub.

Sumqayıt şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov məktəbdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, təhsil müəssisəsində 42 sinif otağı, fənn kabinələri, laboratoriyalar, əmək və hərbi təlim otaqları, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.

Qeyd edək ki, son illərdə dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsində aparılan islahatların uğurlu nəticələrindən biri də bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsidir. Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə də yaradılan şərait Azərbaycanda təhsil sahəsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının əyani göstəricisidir. Paytaxtla yanaşı, digər şəhərlər də yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması ölkəmizdə təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində aparılan işlərin tərkib hissəsidir. Bütün bu işlər həm də Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısının olduğunu göstərir. Bu da təsadüfi deyil. Çünki Azərbaycan dövlətinin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsi, gənc nəslin bilikli və savadlı, yüksək intellektual potensiala malik yetişdirilməsidir.

Sentyabrın 3-də Sumqayıt şəhərində güzəştli mənzil layihəsi çərçivəsində növbəti yaşayış kompleksinin təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.

Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlətimizin başçısına yeni layihə barədə məlumat verdi.

Bildirildi ki, Sumqayıt şəhərində növbəti güzəştli mənzil layihəsi 2 hektar ərazini əhatə edir. Burada doqquz, on iki və on altı mərtəbəli 11 bina inşa olunacaq. Mənzillərin ümumi sayı isə 466-dır. Onlar studio tipli, 2, 3 və 4 otaqlı olacaq. Ərazidə, həmçinin 90 yerlik uşaq bağçası da inşa ediləcək.

Diqqətə çatdırıldı ki, Mənzil İnşaatı Dövlət Agentliyinin regionda inşa olunmuş ilk layihəsi də Sumqayıt şəhərindədir. Vətəndaşlara güzəştli şərtlərlə təklif edilən

bütün mənzillər tam təmirli olacaq. Mənzillər, həmçinin mətbəx mebeli, kombi isitmə sistemi, su, qaz və elektriklə təmin ediləcək. Mənzillərin satışı həm güzəştli ipoteka kreditindən istifadə etməklə, həm də öz vəsaiti hesabına ödəniş üsulu ilə aparılacaq.

Dövlətimizin başçısı yeni yaşayış kompleksinin təməlini qoydu.

Qeyd edək ki, hazırda dünyada baş verən iqtisadi böhran fonunda ölkəmizdə bu layihənin icrası Prezident İlham Əliyevin vətəndaşlarımızın sosial məsələlərinin həllinə yüksək dərəcədə diqqət, qayğı və həssaslıqla yanaşmasının növbəti təzahürüdür. Bu, bir daha sübut edir ki, Azərbaycan vətəndaşının sosial məsələlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayanır. Ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən müasir memarlıq üslubunda çoxmənzilli yaşayış binalarının tikintisini təmin etmək baxımından bu layihə əhəmiyyəti ilə seçilir.

Sentyabrın 3-də Enerjisistemin Reabilitasiya Proqramı çərçivəsində inşa olunan "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Son illərdə Azərbaycanda enerjisistemin maddi-texniki bazasının möhkəmləndirilməsi, ölkəmizin enerji potensialının daha da artırılması, yeni elektrik stansiyaları və yarımstansiyaların inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində çox mühüm layihələr icra olunub. Dövlətimizin başçısının tapşırığına əsasən 2018-ci ilin sonundan Enerjisistemin Reabilitasiya Proqramının qəbul edilərək icrasına başlanılması bu istiqamətdə həyata keçirilən işlər arasında xüsusi əhəmiyyəti ilə seçilir. Belə ki, bu Proqramın icrasına vaxtında başlanaraq təcili işlər görülməsəydi 2019-cu və 2020-ci illərin yayında artan tələbatın, həmçinin Kür və Xəzərdə su səviyyəsinin kəskin aşağı düşməsinin fonunda enerjisistemdə problemlər yarana bilərdi. Ümumiyyətlə, proqram çərçivəsində 12 elektrik stansiyasında və 23 yarımstansiyada yenidənqurma, təmir və bərpa işləri həyata keçirilib.

Son illərdə Xəzər dənizində suyun səviyyəsinin 1,7 metrə qədər aşağı düşməsi "Sumqayıt" Elektrik Stansiyasının soyutma suyunun götürülməsində ciddi problem yaratmaqla yanaşı, stansiyanın avadanlıqlarının da tədricən sıradan çıxmasına səbəb olmuşdu. Yaranmış vəziyyətlə, xüsusilə dənizdə su səviyyəsinin düşməsi ilə əlaqədar il ərzində bir neçə dəfə qəza açılmaları baş vermişdi.

Reabilitasiya Proqramı çərçivəsində "Sumqayıt" Elektrik Stansiyasında əsas avadanlıqlar, generatorlar və digər qurğular əsaslı təmir olunub. Bununla yanaşı, stansiyanın mövcud su nasos stansiyası da əsaslı şəkildə yenidən qurulub. Aparılan yenidənqurma və əsaslı təmir işləri stansiyanın etibarlı və səmərəli fəaliyyətinə müsbət təsir göstərib. Belə ki, elektrik enerjisinin istehsalına sərf olunan şərti yanacağın həcminin azalması nəticəsində ildə 10 min ton yanacağa qənaət ediləcək. Stansiyanın əsaslı təmirdən sonra yük artımı 20 meqavat olub.

Dövlətimizin başçısı "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasını işə saldı.

Qeyd edək ki, Xəzər dənizində suyun səviyyəsinin düşmə prosesinin hələ də davam etməsi və stansiyanın avadanlıqlarının uzunmüddətli istismarı nəzərə alınmaqla, dayanıqlı və etibarlı iş rejiminə nail olmaq məqsədilə təxirəsalınmaz irimiqyaslı işlərə başlanılıb. Belə ki, dənizin içərisinə doğru, 5 metr dərinlikdən soyuq suyun götürülməsinə imkan verən 750 metr məsafədə estakada, həmçinin yeni su nasos stansiyası tikilib. Bununla da stansiyanın soyuducu su təchizatının etibarlılığı təmin edilib və ən əsası stansiyanın fəaliyyətinin dayanmasının qarşısı alınıb. Yeni estakada üzərində tikilən və elektrik stansiyasını xüsusi üsulla soyuq su ilə təmin edən yeni nasosxana istilik energetikası sahəsində ilk təcrübə sayılır.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQLƏRİ, ÇIXIŞLARI VƏ MÜSAHİBƏLƏRİ

## *Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik*

Hörmətli həmvətənlər!

Sizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı dünya müsəlmanlarının birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İnsanları humanizmə, mərhəmətə və vəhdətə dəvət edən Qurban bayramında müsəlmanlar Haqq yolunda, nəcib amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, Ulu Yaradana yaxınlığın sevincini yaşayırlar.

Bəşər mədəniyyətinin möhtəşəm mərhələsini təşkil edən İslam sivilizasiyası xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi İslam adət-ənənələri və mənəvi-əxlaqi dəyərləri Azərbaycanda hər zaman uca tutulmuşdur. İslam dünyasının tarixi-mədəni mərkəzlərindən biri kimi Azərbaycan dünya mədəniyyətinə və elmi-fəlsəfi fikrinin inkişafına misilsiz töhfələr bəxş etmişdir.

Əziz bacı və qardaşlarım!

Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman övladlarımızın nurlu xatirəsini bu mübarək bayram günlərində dərin ehtiramla yad edirik. Xalqımız şəhidlərimizin şərəfli adını heç zaman unutmayacaq, onların ailələri və qazilərimiz dövlətin daimi diqqət və qayğısı ilə əhatə olunacaqdır. Əminəm ki, ölkəmizin rifahı, firavanlığı üçün edilən dualar, torpaqlarımızın işğaldan azad olunmasının doğurduğu Qələbə ovqatı və Allaha şükranlıq hissi ilə kəsilən qurbanlar cəmiyyətimizdə milli-mənəvi həmrəylik ruhunu daha da gücləndirəcək, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Dua və niyyətlərinizin Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hamınıza xoşbəxtlik, ailələrinizə əmin-amanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 iyul 2021-ci il*

## *İlham Əliyevin "CNN Türk" televiziya kanalına müsahibəsi*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "CNN Türk" televiziya kanalına müsahibə verib.

*Müxbir: Hörmətli tamaşaçılar, "CNN Türk"dən salamlar. "CNN Türk" olaraq hazırda Azərbaycanda - Bakıdayıq və Qarabağ Zəfərindən sonra Azərbaycanda necə bir vəziyyət olacaq. Maraq doğuran bütün sualları Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlayacağıq.*

*Əvvəlcə ev sahibliyinizə görə çox təşəkkür edirəm, cənab Əliyev.*

Prezident İlham Əliyev: Xoş gəldiniz.

*-Xoş gördük. Qarabağ, əslində, 30 ildir işğal altında olan bir bölgə idi. Amma 30 ilin sonunda ilk dəfə həm Zəfər qazanıldı, həm də bu problemin həllinə çox yaxınlaşıldı. Siz bunu necə dəyərləndirirsiniz?*

- Bu, bizim üçün tarixi bir Zəfərdir. Çünki qeyd etdiyiniz kimi, 30 il ərzində torpaqlarımız işğal altında idi. Bu, böyük ədalətsizlik idi və beynəlxalq hüququn bütün norma və prinsiplərinə zidd olan bir vəziyyət idi. Təəssüflər olsun ki, 30 il ərzində Minsk qrupu bu məsələnin çözülməsinə yaxınlaşmadı, fəaliyyəti oldu, amma nəticə etibarilə nəticə olmadı. Nəticə sıfıra bərabər idi və Azərbaycan xalqının ümidləri tam tükənmişdi. Çünki 30 il ərzində aparılan danışıqlar nəticəsiz qalırdısa, deməli, bu məsələnin dondurulması prosesi gedirdi. Təbii ki, biz heç zaman bu vəziyyətlə barışmaq fikrində deyildik. Mən son illər ərzində dəfələrlə demişdim ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarını işğalçılardan azad edəcək və belə də oldu. Dediyim sözlər həyatda öz yerini tutdu və Azərbaycan Qurtuluş savaşına başlayaraq öz tarixi torpaqlarını işğalçılardan azad etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları bizim torpaqlardan qovdu və öz ərazi bütövlüyünü, torpaq bütövlüyünü bərpa etdi.

*- Barışmayacaq deyirsiniz, amma Ermənistan həmişə təcavüzkar mövqe sərgiləyib, yaşayış məntəqələrinə də atəş açması, əslində, Azərbaycanı eyni addımı atmağa təhrik edə bilərdi. Ancaq Azərbaycan çox səbirli, təmkinli münasibət göstərdi və eyni qarşılığı vermədi. Bununla bağlı Sizin mövqeyinizi bilmək istərdik.*

- Doğrudur, yəni, müzakirə prosesi çərçivəsində də Ermənistan daim bizə qarşı hərbi təxribatlar, provokasiyalar törədirdi və müzakirə prosesinin müxtəlif dövrlərində biz bunu görürdük. Danışıqlar prosesində bir az tərəqqi olan kimi dərhal hərbi təxribat, provokasiya törədilirdi, bizə, mülki əhaliyə hücum edirdi və danışıqları pozurdu. İkinci Qarabağ savaşından öncə – iyul və avqust aylarında da buna oxşar hərbi təcavüz etdi. İyul ayında bizim mülki əhalini və hərbçiləri artilleriya atəşinə tutdu. Bunun nəticəsində bizdə itkilər olmuşdur. Avqust ayında isə təxribat qrupunu Azərbaycana göndərmiş və burada terror aktları törətməyə cəhd etmişdi. Bu təxribat qrupu da zərərsizləşdirildi. Bildiyiniz kimi, ondan sonra - sentyabr ayında yenə də bizim kəndlərimizi və hərbi mövqelərimizi atəşə tutmuşdur. Bunun nəticəsində müharibənin ilk günündə bizdə mülki əhali və hərbçilər arasında itkilər, şəhidlər olmuşdur. Təbii ki, artıq buna son qoyulmalı idi və qoyuldu.

İkinci Qarabağ savaşı dönəmində də Ermənistan döyüş meydanında ilk gündən məğlubiyyətə uğramağa başlamışdı. 44 gün ərzində hər gün biz irəli gedirdik, bir gün belə geri addım atmadıq. Hətta manevr etmək məqsədilə də geri addım atmadıq. Ermənistan isə artıq öz qaçılmaz məğlubiyyətini dərk edərək bizi durdurmaq və mülki əhaliyə böyük zərər vermək üçün şəhər və kəndlərimizi ballistik raketlərlə, artilleriya qurğuları ilə daim atəşə tuturdu. Bunun nəticəsində 100-dən çox mülki şəxs, o cümlədən qadınlar və uşaqlar həlak oldular. Bu görüntülər var. Gəncə, Bərdə, Ağdam, Goranboy, Naftalan, Tərtər, Füzuli və digər bölgələrimizi hər gün atəşə tuturdular. Tərtər şəhərinə, - o qədər də böyük şəhər deyil, – 20 minə yaxın raket düşmüşdür. Ancaq Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Öz yaxınlarını, öz qohumlarını, əqrəbalarını itirmiş insanlar da deyirdilər ki, ancaq irəli getməliyik. Yəni, ermənilərin bu qeyri-insani davranışı da onlara heç bir xeyir, mənfəət gətirmədi, sadəcə olaraq, dünyanın gözü qarşısında özlərini növbəti dəfə vəhşilər kimi göstərdilər. Biz isə buna cavab vermədik, onun üçün Ermənistan tərəfində mülki əhali arasında itkilər çox azdır, təqribən 30 civarında və onların böyük əksəriyyəti savaşda iştirak edənlərdir. Bu, videokadrlarda da var. Biz görürdük ki, bəzi artilleriya qurğularının yanında mülki şəxslər də var və təbii ki, bizim atəşimiz ora düşəndə onlar da həyatlarını itirirdilər. Qarabağ bölgəsində – ermənilərin işğalı altında olan yerlərdə və onların yaşadıqları yerlərdə heç bir dağıntılar olmamışdır. Yəni, bu, bir daha onu göstərir ki, biz müharibəni də ləyaqətlə aparmışıq və savaşa xas olan bütün qaydalara riayət etmişik.

*– Biz “CNN Türk” olaraq burada Şuşadan, Ağdamdan, Cəbrayıldan və digər rayonlardan olan insanlarla görüşdük. Hamısı illərdir yurd həsrətini qəlbində daşıyıb. Hamısı indi yenidən oralara getmək, öz yurdlarına, torpaqlarına geri qayıtmaq istəyirlər. Bu insanlar çox acılar çəkib. İnşallah, bundan sonra üzləri həmişə gülər, bir daha belə bir acı yaşamazlar. Siz bu barədə nə söyləmək istərdiniz?*

– Əlbəttə ki, onların sevinci bizim sevincimizdir. Mənim üçün ən sevincli günlər onların sevincini görməkdir. Təbii ki, 30 il Vətən həsrəti ilə yaşamış insanlar tezliklə öz yurdlarına, öz torpağına qayıtmaq istəyirlər. Ancaq onu da çox yaxşı bilirlər ki, orada bütün evlər, bütün şəhərlər dağıdılıb. Siz indi bölgələrə gedəcəksiniz, səfər edəcəksiniz, görəcəksiniz ki, Ağdam şəhəri yoxdur. Ağdam şəhərində 30 mindən çox insan yaşayırdı. Şəhərdə bir dənə salamat bina qalmamışdır. Yəni, bütün binaları işğal dövründə erməni vəhşiləri yerlə bir etmişlər. Həmçinin Füzuli şəhəri də, digər şəhərlər və bütün kəndlər də. İnsanlar yüz kilometrlərlə yol qət edirlər və yol boyunca görür ki, sağ-sol, hər tərəf dağıdılıb, yəni, qayıtmağa yer yoxdur. Eyni zamanda, ermənilər orada yüz minlərlə mina basdırıb. Müharibə başa çatandan sonra – 10 noyabr tarixindən bu günə qədər 150-dən çox mülki şəxs və hərbçi minaya düşərək ya həlak olub, ya da ki, öz sağlamlığını itirib. Ona görə minatəmizləmə işi getməlidir və gedir. Ermənistan bizə minaların xəritələrini də vermir və son mərhələdə verilən xəritələrin dəqiqliyi cəmi yüzdə iyirmi beş faizdir. Yəni, burada da özlərini qeyri-səmimi aparırlar. Biz insanların həyatını risk altına ata bilmərik. Ona görə azad edilmiş torpaqlarda – Qarabağda və Şərqi Zəngəzurda indi həm minalardan təmizləmə işləri, eyni zamanda, infrastruktur işləri sürətlə gedir. Siz oraya gedəndə böyük infrastruktur layihələri – yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları görəcəksiniz. Yəni, bunlar olmadan oraya həyat qayıda bilməz. Eyni zamanda, Ağdam şəhərinin baş planı da mayın 28-də, bizim Müstəqillik Günündə təsdiqləndi və orada artıq işlər başlayır.

Biz indi o bölgələrə jurnalistləri, ictimai xadimləri, digər yerli və xarici vətəndaşları dəvət edirik və

getməyə imkanlar yaradırıq. Eyni zamanda, o yerlərdə yaşamış insanları da yaxın gələcəkdə biz oraya aparacağıq ki, onlar o yerləri görsünlər. Ancaq qayıdış üçün bizə zaman lazımdır. Çünki 30 il ərzində ermənilər o yerləri dağıdıblar və bu gün oranı bərpa etmək, əlbəttə ki, vaxt tələb edir. Bizim burada əsas rəqibimiz zamandır. Çünki Qarabağın və Şərqi Zəngəzurun bərpası üçün kifayət qədər maliyyə vəsaiti toplanıb və səfərbər olunub. Amma bizim əsas rəqibimiz zamandır və hər kəs anlamalıdır ki, burada da zamana ehtiyac var. Lakin biz vətəndaşlarımızı ən qısa müddət ərzində qaytaracağıq. Birinci pilot layihə artıq gerçəkləşir, Zəngilan rayonunda 3 kəndi birləşdirən bir layihə bu ilin sonuna, ya da ki, gələn ilin əvvəlinə hazır olacaqdır. Bu yaxınlarda yenə də bir neçə kəndin planı mənə təqdim edildi, təsdiqləndi. Yaxın gələcəkdə o kəndlərin də layihələri icra ediləcək və tədricən biz insanları o bölgələrə qaytaracağıq.

*– İndi isə Ermənistanla bağlı sual vermək istəyirəm. Məğlubiyyətinə baxmayaraq, Nikol Paşinyan yenidən seçildi. Bundan sonra Azərbaycan və Ermənistan əlaqələri hansı şərtlərlə necə bir prosesə daxil olacaq?*

– Bunu demək çox çətindir. Çünki biz öz mövqeyimizi dəfələrlə bildirmişdik. Mən bir neçə dəfə öz sözümü açıq demişdim ki, biz istəyirik Ermənistanla sülh müqaviləsi imzalansın. Ermənistan və Azərbaycan bir-birilərinin ərazi bütövlüyünü tanısınlar və sərhədlərin delimitasiyası, yəni, müəyyən edilməsi prosesi də başlasın. Ancaq bu günə qədər Ermənistandan müsbət cavab almamışıq. Belə görünür ki, Ermənistan buna hazır deyil, ya da bunun əleyhinədir. Mən söylədim ki, bu, böyük yanlışlıq olar və onlar özləri də peşman olacaqlar. Çünki biz bu təklifi masa üzərində əbədi saxlamalı deyilik. Əgər buna etiraz edirlərsə, açıq söyləsinlər ki, onlar Azərbaycanla sülh müqaviləsi imzalamaq istəmirlər. Belə olan halda biz də öz siyasətimizi buna uyğun şəkildə aparacağıq. Əgər Ermənistan buna hazırdırsa, əgər Azərbaycanın bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünü tanımağa hazırdırsa, onda əlbəttə ki, bölgəyə uzunmüddətli sülh gələcək. Biz bunu istəyirik və eyni zamanda, buna nail olmaq üçün indi konkret təkliflər də masa üzərindədir. Yolların açılması, Zəngəzur dəhlizinin yaradılması, bütün ticarət əlaqələrinin bərpası, yəni Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi bizim maraqlarımıza cavab verir. Hesab edirəm ki, Ermənistanın da maraqlarına cavab verir. Çünki Zəngəzur dəhlizi onların da maraqlarına xidmət edəcək. Onlar da dəmir yolu ilə həm İranla, həm Rusiya ilə əlaqə yarada bilərlər. Bu günə qədər bu əlaqə yoxdur və onlar üçün də yeni fürsətlər ortaya çıxacaq.

Ancaq Ermənistanda ifrat millətçilik, türkofobiya, azərbaycanofobiya, islamofobiya o dərəcədə insanların və hakim dairələrin beyinlərini zəhərləyib ki, onlar bunu istəsələr də, dilə gətirə bilmirlər. Ermənistanda cəmiyyət və hakimiyyət təbii ki, indi çox çətin bir psixoloji durumdadır. Çünki onların otuz il ərzindəki ideoloji sütunları darmadağın edildi, mifologiya darmadağın edildi. Erməni ordusunun "müzəffər ordu" olmasını biz 44 gün ərzində yerlə bir etdik. Onların ərazi iddiaları məhv edildi.

*– Əslində, onların beş ildə işğal etdikləri torpaqları 44 gündə geri qaytardınız.*

– Bəli, əlbəttə, çox çətin bir şəraitdə. Siz indi gedib görəcəksiniz. Onlar altı xətt istehkam qurmuşdular, müdafiə zolağı qurmuşdular və oranı keçmək böyük məharət, qəhrəmanlıq tələb edirdi. Bizim hərbçilərimiz ölümə gedirdilər. Eyni zamanda, o bölgənin coğrafiyası, relyefi də onlar üçün əlverişli idi. Çünki onlar dağlarda yerləşmişdilər, bütün yüksəklikləri götürmüşdülər, biz isə aşağıdan getməli idik. İndi siz Şuşaya da gedəcəksiniz, görəcəksiniz ki, Şuşanın alınması bir möcüzə sayılır.

*– Mən onun haqqındakı fikirlərinizi də soruşacaqdım. Çünki Şuşa ilə bağlı atanızın xüsusi vəsiyyəti var idi.*

– Atamın vəsiyyəti təkcə Şuşa ilə bağlı deyildi, o vaxt işğal altında olan bütün torpaqlarla bağlı idi. Şuşa alınandan sonra mən atamın qəbrini ziyarət edərək dedim ki, onun vəsiyyətini yerinə yetirdim. Mən həyatımda bəlkə də ən xoşbəxt günlərimdən birini yaşadım. Şuşa, əlbəttə ki, hər bir azərbaycanlı üçün doğma, əziz şəhərdir, böyük rəmzi məna daşıyır. Təsadüfi deyil ki, mən Şuşanı Azərbaycanın Mədəniyyət Paytaxtı elan etdim. Ancaq bütün digər şəhərlər də mənim üçün, bütün Azərbaycan xalqı üçün Şuşa qədər əzizdir və doğmadır. Hər qarış torpaq bizim torpaqdır və onları biz azad etməli idik. Bu, xalq qarşısında, tarix qarşısında, gələcək nəsillər qarşısında bizim borcumuz idi və biz bu borcu şərəflə yerinə yetirdik.

*– Bir az əvvəl Zəngəzurdan bəhs etdiniz. Orada dəhlizin açılması, əslində, Türkiyə ilə iqtisadi əlaqələri də gücləndirə bilərmi?*

– Əlbəttə, bu dəhlizin açılması bir çox məqsədlərə, hədəflərə xidmət göstərir. Azərbaycanla Türkiyə yeni bir nəqliyyat layihəsi ilə birləşəcək. Bildiyiniz kimi, dörd il bundan əvvəl Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılış mərasimi olmuşdur. Biz bu dəmir

yolu sayəsində Türkiyə ilə birləşdik. Zəngəzur dəhlizi isə ikinci bir birləşmə istiqaməti olacaq. Beləliklə, bizim üçün yeni fürsətlər ortaya çıxacaq. Eyni zamanda, Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə də dəmir yolu ilə birləşəcək. Eyni zamanda, biz tələb edirik ki, avtomobil yolu da çəkilsin – Ermənistanın nəzarəti altında olan Qərbi Zəngəzur ərazisində, Mehri bölgəsində. Çünki bu da mütləq lazımdır.

Əfsuslar olsun ki, Ermənistan buna etiraz edir. Son günlərə qədər Zəngəzur dəhlizinin açılmasına etiraz etmişdi. Sadəcə olaraq, bir neçə gün bundan əvvəl orada bir müsbət fikir ortaya çıxdı ki, onlar da etiraz etmirlər. Ancaq Zəngəzur dəhlizinin tam fəaliyyəti üçün həm dəmir yolu, həm avtomobil yolu olmalıdır. Biz Bakıda avtomobilə əyləşib oradan rahatlıqla Türkiyəyə və Naxçıvana keçə bilərik.

Bu, eyni zamanda, bölgə ölkələri üçün də yeni fürsət olacaq. Türkiyə öz mallarını Orta Asiyaya bu daha qısa yolla, alternativ yolla daşıya biləcək. Beləliklə, bu, Avrasiyanın yeni bir nəqliyyat layihəsinə çevrilə bilər. Biz bunu artıq təşəbbüs olaraq ortaya qoymuşuq. Bu dəhlizə Zəngəzur dəhlizi adını da biz qoymuşuq. Artıq bu, beynəlxalq leksikona da daxil edilibdir. Mən bilirəm ki, Avropa İttifaqı bu məsələyə də çox müsbət yanaşır. Bu yaxınlarda Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişel Bakıda olarkən bu məsələ ilə bağlı biz geniş fikir mübadiləsi apardıq və onlar da təbii ki, bu layihəni çox dəstəkləyirlər.

Yəni, bu, həm Türkiyə, həm Azərbaycan, həm bölgə üçün və o cümlədən Ermənistan üçün də yeni fürsət olacaq. Mən artıq dedim, onlar Rusiya və İranla bu dəmir yolu ilə bağlantı yarada bilərlər. Çünki Ermənistan–İran dəmir yolunun inşası bəlkə də 20 il müzakirə edilən bir məsələdir. Amma hələ ki, ortalıqda bir şey yoxdur. Çünki bu layihə təqribən ən azı 3 milyard dollar tələb edir. Ancaq Naxçıvan ərazisindən, – Naxçıvan ilə İran arasında artıq dəmir yolu xətti var, – istifadə edə bilərlər.

*– İndi başqa bir önəmli dəhliz də Laçın dəhlizidir. Belə bir iddia var, o iddianın doğruluğunu Sizdən soruşmaq istəyirəm. "Ermənistanın xarici işlər naziri əsgərləri Laçın dəhlizi ilə Qarabağa göndərir" şəklində bir iddia var. Bu iddia doğrudurmu?*

– Əlbəttə, bu, təəssüf ki, doğrudur. Bunu biz bu yaxınlarda təsbit etdik. Bizim Müdafiə Nazirliyi bir neçə gün əvvəl rəsmi açıqlama verdi ki, buna son qoyulsun. Rusiyanın sülhməramlı qüvvələrinin nəzarətində olan ərazilərə Ermənistandan silahlar və hərbçilər göndərilə bilməz. Bu, 10 noyabr üçtərəfli Bəyanatına ziddir. Təəssüf ki, bu günə qədər davam edir. Biz bir neçə dəfə şifahi qaydada öz iradlarımızı bildirmişdik. Ancaq bunun nəticəsi olmadı, ona görə biz rəsmi qaydada bunu bildirdik.

Laçın dəhlizi bizim gözümüzün önündədir. Siz Şuşada olarkən Laçın dəhlizini görə bilərsiniz. Orada bir yer var, yuxarıdan bütün avtomobillər görünür. Oradan məsafə bəlkə də 10 metrdir. Bizim orada təbii ki, texniki vasitələrimiz, kameralarımız var. Biz Laçın dəhlizi ilə Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan bölgələrdə baş verən hadisələri də izləyirik. Xankəndiyə gedən avtomobillərin sayını dəqiqliyi ilə bilirik. Bu yaxınlarda bizim mətbuatda bu məsələ ilə bağlı açıqlama verildi, o cümlədən göstərildi ki, son bir ay ərazində - iyulun 11-dən avqustun 8-dək təqribən 5 minə yaxın insan Xankəndidən Ermənistan tərəfinə getdi və qayıtmadı. Yəni, oradan 20 min insan çıxdı və 15 min insan oraya girdi. Deməli, biz insanların sayına qədər bilirik. Təbii ki, buna son qoyulmalıdır. Çünki bunun heç bir məntiqi əsası yoxdur. Nədir, Ermənistan yeni müharibəyəmi hazırlaşır?! Əgər belədirsə, onda biz qabaqlayıcı tədbirlər görəcəyik. Mən bunu demişdim və bir daha demək istəyirəm, əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik. İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır.

*– İndi Cənubi Qafqazdakı vəziyyət də dəyişir. Bununla bağlı indi 3+3 formatı da müzakirə olunur. Siz buna necə baxırsınız?*

– Mən müsbət baxıram. Mən əziz qardaşım sayın Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla bu məsələni dəfələrlə müzakirə etdim və bizim mövqeyimiz üst-üstə düşür. Biz bu formatı dəstəkləyirik və ümid edirik ki, digər ölkələr də buna qoşulacaqlar. Mən bilirəm ki, Gürcüstan tərəfi buna hazır deyil. Çünki Gürcüstanla Rusiya arasında diplomatik münasibətlər yoxdur. Bu, Gürcüstanın mövqeyidir, biz bu mövqeyə hörmətlə yanaşmalıyıq. Amma buna baxmayaraq, regional işbirliyi, sabitliyin təmin olunması və gələcəkdə müharibə riskinin sıfra endirilməsi üçün bölgə ölkələri arasındakı əlaqələr çox önəmlidir. Burada konkret layihələr də müzakirə oluna bilər. Çünki bu, sadəcə olaraq, siyasi təşəbbüs deyil. Burada, ilk növbədə, Zəngəzur dəhlizinin və digər yolların açılması, – çünki təkcə Zəngəzur dəhlizindən söhbət getmir, – bizim Ermənistanla digər nəqliyyat layihələrimiz ola bilər. Ondan sonra ticarət əlaqələrinin bərpası, Cənubi Qafqazda uzunmüddətli sülhün təmin edilməsi. Yəni, bütün bunlar çox önəmli

məsələlərdir. Çünki biz artıq öz tarixi missiyamızı yerinə yetirdik. Bizə yeni müharibə lazım deyil. Rusiya sülhməramlı missiyasının nəzarətində olan ərazidə yaşayan erməniləri biz yolunu azmış Azərbaycan vətəndaşları sayırıq. Onların sayı o qədər də çox deyil. Dəqiq məlumata görə, 25 minin altındadır. Əlbəttə ki, onlar da Azərbaycan cəmiyyətinə inteqrə olunmalıdır. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir və burada bir çox xalqlar yaşayır, bir ailə kimi yaşayır, o cümlədən ermənilər də yaşayır. Bu gün Bakıda erməni də var.

*– Mədəniyyətə də sahib çıxırsınız. Burada bir erməni kilsəsi var, heç toxunulmayıb, heç ziyan görməyib.*

– Bəli, əksinə, biz onu təmir etdik. O, şəhərin mərkəzində yerləşir və əgər oraya kimsə getsə görər ki, orada 5 minə yaxın erməni kitabı var. Amma bizim məscidlərimizə nə etdilər? Müqayisə üçün deyim ki, 60-dan çox məscidimizi yerlə bir etdilər. Ona görə bu gün Xankəndidə və ətraf kəndlərdə yaşayan ermənilər də bizim cəmiyyətimizə mütləq inteqrə edilməlidir, onlar üçün bu, daha böyük fürsətlər yaradacaq. Ümumilikdə Cənubi Qafqazda Azərbaycan, Gürcüstan, Ermənistan arasındakı üçtərəfli əlaqələrin yaradılması üçün ilkin addımlar atılmalıdır, biz buna hazırıq.

*– Hazırda Qarabağ Azərbaycan üçün və digər dövlətlər üçün əslində, çox önəmli bir mövqedədir. Bu yeni vəziyyətdə Rusiyadan bir gözləntiniz varmı? Bir də İran, Sizcə, bu vəziyyətin harasındadır?*

– Rusiyadan gözləntimiz odur ki, üçtərəfli Bəyanatın bütün müddəaları yerinə yetirilsin. Çünki bu üçtərəfli Bəyanatı Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri imzalamışlar və onların böyük qismi artıq gerçəkləşib. Amma bəzi məsələlər var ki, hələ də açıqdır. Gözləntimiz bundan ibarətdir. Rusiya Azərbaycanın qonşusu və Ermənistanın yaxın müttəfiqi kimi, əlbəttə, bu bölgədə xüsusi rol oynayır. Bu, təbiidir. Ümid edirik ki, Rusiya bundan sonra da bu bölgənin təhlükəsizliyi üçün öz səylərini əsirgəməsin və uzunmüddətli sülhü təmin etmək üçün addımlar atsın. Eyni zamanda, bizim gözləntimiz odur ki, Rusiya Ermənistanı silahlandırmasın. Biz bu məsələni Rusiya tərəfinə çatdırmışıq. Bu, bizi narahat edir. Müharibə başa çatıb. Yəni, erməni xalqı da bu vəziyyətlə barışıb. Erməni rəhbərliyi də məğlubiyyətlə barışıb və Ermənistanda keçirilmiş son parlament seçkiləri bunu göstərdi. Tarixdə görünməmiş bir mənzərədir ki, məğlub edilmiş rəhbərlik, yenidən xalqdan səs alır. Belə olan halda, əlbəttə ki, Ermənistanı silahlandırmaq heç bir məntiqə sığmır. Biz hələ ki, bunu görmürük, müşahidə etmirik. Amma Rusiya tərəfindən bəzi açıqlamalar oldu. Bir neçə gün bundan əvvəl Rusiya müdafiə naziri Ermənistan müdafiə naziri ilə görüş zamanı söyləmişdir ki, Ermənistana Rusiya silahlarının göndərilməsi prosesi başlamışdır. Bu, çox narahatedici bir məsələdir. Həm də Ermənistanın yeni müdafiə naziri çox məsuliyyətsiz açıqlamalar verdi ki, əgər Azərbaycan tərəfi Ermənistan sərhədini bir santimetr pozsa, o zaman onlar atəş açacaqlar. Yəni, görünür, İkinci Qarabağ savaşı hələ ki, hər kəs üçün dərs olmadı. Əgər belədirsə, biz dərsini yenidən verməyə hazırıq. Ona görə biz ümid edirik ki, Rusiya Ermənistanı silahlandırmayacaq. Çünki buna ehtiyac yoxdur.

Xankəndidə Rusiyanın sülhməramlı missiyasının nəzarəti altında olan ərazi indi təhlükəsiz ərazidir. Eyni zamanda, bizim Ermənistanla sərhədimizdə də vəziyyət bəzən narahatlıq doğurur, amma ümumilikdə sabitdir. Ona görə, əlbəttə, biz istəyirik ki, Rusiya bu məsələdə bizim narahatlığımızı nəzərə alsın. Çünki nə qədər silahlar verilsə də, yenə də güclər nisbəti dəyişməyəcək. Çünki son 30 il ərzində Rusiya Ermənistana milyardlarla dollar dəyərində pulsuz-parasız silahlar verib, – onların bir qismi indi bizim Hərbi Qənimətlər Parkında dağılmış muzey eksponatları kimi sərgilənir, – buna baxmayaraq, Ermənistan ordusu tamamilə darmadağın edilib. Biz ordumuzun silahlanmasına nə qədər lazımdır, o qədər də vəsait ayıracağıq və bunu edirdik. Sadəcə, hesab edirik ki, artıq müharibə bitdi, buna ehtiyac yoxdur. Bölgənin yenidən silahlandırılması prosesinə biz təşəbbüskar olmamışıq və deyilik. Ümid edirik ki, digər tərəfdaşlar da buna uyğun addımlar atacaqlar.

İranla bağlı verdiyiniz suala cavabım belədir ki, bu ölkədə indi yeni rəhbərlik hakimiyyətə gəlib. Onların bölgə ilə bağlı siyasəti formalaşmaqdadır. Hələ ki, təyinatlar olmayıb. Əlbəttə ki, həm Azərbaycanla, həm də qonşu ölkələrlə bağlı ilkin bəyanatlar müsbətdir. Ancaq əlbəttə, vaxt lazımdır ki, yeni rəhbərlik bu məsələ və Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı öz siyasətini ortaya qoysun. Biz bunu gözləyirik.

*– İndi Rusiya ilə bağlı bəhs etdiyiniz məsələyə yenidən qayıtmaq istəyirəm. Əslində, İkinci Qarabağ müharibəsinin Zəfərlə nəticələnməsinin bir səbəbi də Azərbaycanın doğru mövqe nümayiş etdirməsidir. Son 30 il ərzində Azərbaycan, əslində, həm müdafiə potensialını və Ordusunun döyüş qabiliyyətini inkişaf etdirdi, həm də Ermənistan kimi yanlış bir mövqe nümayiş etdirmədi. Çox səbirli və təmkinli mövqe sərgilədi. Qələbənin qazanılmasında, əslində, bu amilin də təsiri olduğunu düşünürsünüzmü?*

– Əlbəttə, burada bir çox amillər rol oynadı. İlk növbədə, əlbəttə ki, xalqımızın əzmi, barışmaz mövqeyi

və bizim siyasətimiz. Çünki mən artıq 18 ilə yaxındır ki, Prezidentəm və bütün bu illər ərzində deyirdim ki, nəyin bahasına olursa-olsun biz torpaqlarımızı azad etməliyik və edəcəyik. Sadəcə olaraq, bunu düzgün anda etməli idik və etdik, səhvə yol verə bilməzdik. Çünki bu, tarixi məsuliyyətdir və ona görə zamanında atılan addımlar bax, belə nəticəyə gətirib çıxardı. Xalqın barışmaz ruhu, əlbəttə ki, əsas amillərdən biridir. Çünki biz Qarabağı unutmadıq. Hətta Qarabağı görməyən və çadır şəhərciklərində doğulan uşaqlar da bir arzu ilə, bir amalla yaşayırdılar ki, getsinlər, öz torpağına qayıtsınlar. Ölümə gedənlər məhz onlar kimi minlərlə gənc olmuşdur.

Əlbəttə, Ordumuzun gücləndirilməsi, silah, texnika, təchizat məsələləri də əsas amillərdəndir. Son illərdə ən çağdaş texnologiyaya əsaslanan silahlar alındı və Ordumuzun peşəkarlığı artdı. Çünki silahlar, texnologiya, əlbəttə, bir çox məsələləri həll edir. Ancaq yerində torpağı alan, bayrağı sancan əsgərdir. Əgər o, döyüşə həvəslə getmirsə, heç bir silah sənə kömək edə bilməz. Bu amillər bizi Qələbəyə apardı. Bizim bütün hərbi strategiyamız və silahların alınması bir məqsədə xidmət edirdi – biz bu torpaqları necə az itkilərlə azad edək və belə də oldu. Heç kim inana bilmirdi ki, bizim itkilərimiz cəmi təqribən 3 minin altında olsun. Hər bir insanın həyatı qiymətlidir, ancaq bu miqyaslı əməliyyatda cəmi 2900 şəhidin verilməsi, əlbəttə, onu göstərir ki, hər əsgərin canını biz son ana qədər qorumağa çalışırdıq.

*– Bəzi qətliamlarda xüsusilə elə hekayələr var ki, insanın canını incidir. Əslində, bu, insanlığa qarşıdır. Beynəlxalq hüququn müəyyən mənada Ermənistana qarşı münasibətdə tətbiq olunmaması bu problemin həll edilməməsinin səbəblərindən biri ola bilərmi?*

– Burada təbii ki, ikili standartlar əsas rol oynayır, çünki Xocalı soyqırımı dünyanın gözü qarşısında baş verdi. Bu, yaxın tarixin hadisəsidir. Ancaq bunu bir çox ölkələr görmək istəmirlər və cəmi 13 ölkə Xocalı qətliamını soyqırımı kimi tanıyıb. Əlbəttə, bu da böyük nailiyyətdir. Çünki mən hakimiyyətə gələndə bu ölkələrin sayı sıfra bərabər idi. Yəni, bizim səylərimiz və eyni zamanda, apardığımız düzgün təbliğat, təhsil, sərgilər, təqdimatlar bir çox ölkələrdə Xocalı qurbanları ilə bağlı həqiqətlərin çatdırılmasında mühüm rol oynadı. Əlbəttə ki, bizim başqa ölkələrlə münasibətlərimiz. Biz son illər ərzində bir çox müttəfiq qazandıq. Ancaq sözdə "erməni soyqırımı"nı tanıyan, o saxta "soyqırımı" tanıyan ölkələr Xocalı soyqırımını tanımaq istəmirlər. Onlar saxta tarixi qəbul edirlər. Aydın məsələdir ki, burada da əsas amil siyasi amildir. Amma real soyqırımı görməzliyə vururlar. Bu, ədalətsizlikdir. Biz çoxdandır ki, bu ədalətsizliklə yaşayırıq, buna öyrəşmişik, təəccüb də etmirik. Bizim əsas hədəfimiz öz məqsədlərimizə nail olmaqdır. Bir nömrəli hədəf Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi idi. Bu, tarixi missiya idi. Bütün güclər səfərbər edilmişdi. Biz gecə-gündüz bu hədəfə doğru gedirdik və ona çatdıq. İndi yeni hədəflər ortadadır. Bu hədəflər Qələbəni, Zəfəri möhkəmləndirmək, Azərbaycanın təhlükəsizliyini təmin etmək, azad olunmuş torpaqları yenidən qurmaq və Ermənistanın revanşist qüvvələrinin baş qaldırmasına imkan verməməkdir.

*– Bunlar hazırda Zəfərdən sonra həyata keçirməyi planlaşdırdıqlarınızdır. Türkiyə İkinci Qarabağ savaşında silahlı PUA-ları ilə birlikdə Azərbaycana dəstək oldu.*

– Türkiyə təkcə silahlı PUA-ları ilə yox, hərtərəfli dəstək oldu. İlk növbədə, İkinci Qarabağ savaşının ilk saatlarında əziz Qardaşım Rəcəb Tayyib Ərdoğanın qətiyyətli açıqlamaları çox böyük və müsbət rol oynadı. O demişdir ki, Türkiyə Azərbaycanın yanındadır və Azərbaycanın haqq işində Türkiyə Azərbaycana siyasi və mənəvi dəstək verir və verəcəkdir. Bunun çox böyük mənası var idi. Çünki bu, bir çoxlarını məsələyə müdaxilə etməkdən çəkindirdi. Çünki bilmək olmurdu bəzi ölkələr özlərini necə aparacaqlar. Bəzi ölkələrin İkinci Qarabağ savaşı dönəmində sərgilədikləri siyasi mövqe onu göstərir ki, onlar Ermənistan tərəfində idilər. Onlar şər qüvvələrin tərəfində idilər, işğalçının, zalımın, vəhşinin tərəfində idilər. Heç bir izahat, məntiqə əsaslanan hər hansı bir söz onların mövqeyinə təsir etmirdi. Onlar real həqiqəti görmək istəmirdilər və bizi ittiham edirdilər, sanki biz işğalçıyıq. Mən isə deyirdim ki, biz öz torpağımızda savaş aparırıq. BMT Nizamnaməsi bu hüququ bizə verir. Hər bir ölkə özünü müdafiə edə bilər və bu hüquq Birləşmiş Millətlər Təşkilatı tərəfindən verilib. Ancaq buna baxmayaraq, bizə qarşı çox çirkin şər-böhtan kampaniyası aparılırdı. Biz bilirik bunun arxasında kimlər dayanır. Ona görə Türkiyənin Cümhurbaşqanının və digər yüksəkvəzifəli şəxslərin – müdafiə, xarici işlər nazirlərinin, parlament sədrinin açıqlamaları, əlbəttə, bir çoxlarını çəkindirdi. Əlbəttə ki, Türkiyədən alınmış müasir silahlar, "Bayraktar"lar daxil olmaqla, bizim işimizi böyük dərəcədə yüngülləşdirdi və insan itkisinin çox olmamasına da səbəb oldu. Çünki əgər bu silahlar bizdə olmasaydı, əlbəttə, bizim işimiz daha çətin olardı, daha çox şəhidlər olacaqdı, bu, şübhəsiz. Ancaq biz Türkiyədən təkcə silahlı PUA-lar deyil, başqa silahlar da almışdıq – "Qasırğa"lar, hərbi maşınlar, "Kobra"lar. Yəni, bir çox silahlar var və bu proses

davam edir. Maşallah, Türkiyənin müdafiə sənayesi çox sürətlə inkişaf edir və əlbəttə ki, biz də bundan faydalanırıq və faydalanacağıq.

*– Əslində, belə bir həmrəylik oldu. Təəssüf ki, ötən günlərdə Türkiyədə şiddətli yanğınlar baş verdi. Yanğınlara qarşı Türkiyə Cümhuriyyəti ciddi mübarizə apardı. Əlbəttə, Azərbaycandan da çox gözəl dəstək gəldi. Belə təbii fəlakətlərdə və çətin zamanlarda iki dövlət arasında həmrəyliyin davam edəcəyini deyə bilərikmi?*

– Əlbəttə, bu, təbiidir. Yəni, biz bunu dəfələrlə demişik. Mən dəfələrlə demişəm ki, bu gün dünya miqyasında Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkələr yoxdur. Əgər axtarmaq istəsəniz, tapa bilməzsiniz, yoxdur. Bu birlik, həmrəylik, qardaşlıq sözdə deyil, əməldədir. Mən hər zaman deyirdim ki, ölkələr arasındakı münasibətlər əməldə olmalıdır. Çünki yaxşı günlərdə hər kəs yaxşı sözlər deyə bilər, yaxşı çıxışlar edə bilər. Amma ağır gündə sən gəl yanında dur. Necə ki, Türkiyə İkinci Qarabağ savaşında bizim yanımızda durdu. Mən tam əminəm ki, Türkiyə amili olmasaydı, ermənipərəst qüvvələr, ölkələr, ermənilərin hamiləri burunlarını soxacaqdılar və bizə böyük problemlər yaradacaqdılar. Bizim həmrəyliyimiz və bir-birimizə etdiyimiz yardımlar təbiidir. Çünki Türkiyə bizim üçün doğma ölkə, doğma vətəndir və sizin üçün də Azərbaycan doğma vətəndir. Əziz Qardaşımla imzaladığım Şuşa Bəyannaməsi bunun zirvəsidir. Yəni, bizim əlaqələrimiz müttəfiqlik səviyyəsinə qalxdı. Ona görə bu yanğınlardan xəbər tutan kimi biz dərhal hərəkətə keçdik, heyətlər göndərdik, maşınlar göndərdik. Hörmətli Cümhurbaşkanı ilə bir neçə dəfə telefonla danışdım və qısa zaman içərisində biz həm əlavə heyət, həm də maşınlar göndərdik. Bizim cəmi bir amfibiya təyyarəmiz var, təəssüf ki, o da təmirdə idi. Təlimat verdim ki, təmir çox sürətlə yekunlaşsın ki, biz onu göndərə bilək. Təmir plan üzrə hələ iki ay davam etməli idi. Amma biz onu bir həftəyə saz vəziyyətə gətirdik və oraya göndərdik. Türkiyəyə 93 yanğınsöndürən maşın, 700-dən çox yanğınsöndürən yola saldıq. Onlara hər hansı bir xüsusi təlimat vermək lazım deyildi. Çünki onlar özləri bu faciəni öz faciəsi kimi qəbul etdilər və qardaş kimi orada çalışdılar. Allaha şükürlər olsun ki, bildiyimə görə artıq yanğınlar da səngiyir və bu, bir daha bizim birliyimizi göstərdi. Bir daha göstərdi ki, işbirliyi və həmrəylik sözdə olmamalıdır. Mən çox da dərinə getmək istəmirəm, amma düşünürəm ki, türk xalqı bu günlərdə kimin-kim olduğunu yaxşı gördü. Yaxşı sözlər, açıqlamalar, bəzi ölkələrdən gələn dəstək ifadələri təəssüf ki, real həyatda özünü göstərmədi.

*– İndi mən buradayam. Bir az əvvəl dediyiniz kimi. Özümü məmləkətimdə, dövlətimdəki kimi hiss edirəm. Amma diqqətimi çəkən çox gözəl bir məqam var. Hara getsək Azərbaycan bayrağının yanında Türkiyə bayrağını görürük və çox gözəl qarşılanırıq. Cənab Prezident, Siz bu mövzu haqqında nə düşünürsünüz? Burada necə bir yanaşma var? Mən burada gördüklərimdən çox məmnunam. Bu, nəyə əsaslanır? Kökümüzəmi? Kökümüz bir olduğu üçün belə davam edirik?*

– Bilirsiniz, bu, bir günün hadisəsi deyil. Siz mənə söylədiniz ki, ilk dəfədir Azərbaycandasınız. Amma əvvəlki dövrlərdə də gəlsəydiniz, görərdiniz ki, bu, bizim üçün təbiidir. Biz bütün bu illər ərzində Türkiyə-Azərbaycan birliyini möhkəmləndirmək üçün çox böyük səylər göstərdik. Bilirsiniz, dünyada oxşar tarixə, mədəniyyətə, etnik köklərə malik olan ölkələr çoxdur. Bizim ətrafımızda elə ölkələr var ki, onların dili də bir-birinə bənzəyir, etnik kökləri də bir-birinə yaxındır. Amma baxın, görün, bu ölkələr arasında əlaqələr necədir? Bəziləri bir-birinə düşməndir. Yəni, ortaq tarix və ortaq etnik köklər hələ o demək deyil ki, ölkələr də qardaş ölkələr olsunlar, xalqlar da qardaş xalqlar olsunlar. Yəni, bu, böyük bir siyasətin təzahürüdür. Son 18 il ərzində həm Türkiyə, həm Azərbaycan tərəfindən vahid siyasət formalaşdırılıb. Ondan daha əvvəl atamın dönəmində onun məşhur kəlamı var: “Bir millət, iki dövlət”. Bunu indi bilməyən yoxdur. Amma bəziləri bəlkə də bilmir ki, bunun müəllifi Heydər Əliyev olmuşdur. Bu sözləri o demişdi. Bu sözlər bizim üçün işıqlı bir yoldur. Bu vəsiyyətə, bu sözlərə sadiq olaraq biz hər istiqamət üzrə əlaqələrimizi gücləndirdik, yüksək səviyyəyə qaldırdıq. Siz burada insanlarla təmaslar əsnasında görürsünüz ki, Türkiyəyə nə qədər böyük sevgi və məhəbbət var. Bu, hər zaman belə idi. Amma İkinci Qarabağ müharibəsində bu, daha da artdı. Çünki Azərbaycan xalqı çox gözəl gördü ki, onun əsl dostu, qardaşı kimdir. Bizim yanımızda olan ölkə Türkiyə və Pakistan idi. Biz bəzi ölkələrdən heç dəstək ifadələri də duymadıq. Halbuki biz haqlı idik. Yenə də deyirəm, biz öz ərazi bütövlüyümüzü bərpa edirdik. Ona görə Türkiyə və Azərbaycan bayraqlarının birgə dalğalanması təbiidir. Birliyimiz də əbədidir. Yeni nəsil, gənc nəsil, bax, sizin nəsliniz gərək bizim yolumuzu davam etsin. Çünki biz bu təməli qoyduq, yoluna oturtduq, çox güclü müttəfiqlik yaratdıq, sarsılmaz birlik yaratdıq. Ancaq siyasət elə bir sahədir ki, bunun üzərində hər gün çalışmalısan. Boşluq olmamalıdır, ara olmamalıdır ki,

kimsə bu araya girməsin. Çünki elələri də var. Türkiyə-Azərbaycan birliyi artıq bölgəsəl amildir. Bəlkə də nə vaxtsa qlobal amilə çevriləcək, ola bilər. Çünki indi bizim artıq başqa ölkələrlə də müttəfiqlik əlaqələrimiz formalaşmaqdadır. Bu, bəzilərini narahat edir. Çalışacaqlar ki, aramıza girsinlər, çalışacaqlar ki, provokasiyalar, təxribatlar, uydurmalar ortaya atılsın. Ona görə bizdən sonra gələn nəsil bu yolla getməlidir. Bu yol əbədi olmalıdır.

*– Bu gün atanız Heydər Əliyevdən də bəhs etdik. Heydər Əliyevi hörmət və rəhmətlə anmaq istəyirəm. Səmimiyyətlə, həddimi aşmıramsa, bir sual məni çox maraqlandırır. Son sualım. Zəfərdən sonra ritorik bir ifadəniz vardı: "Nə oldu Paşinyan?". Tam səmimiyyətlə deyirəm, bu sözlər hamımızı həm çox sevindirdi, həm güldürdü, həm də duyğulandırdı. Çox gözəl bir ifadə idi. Bu, ictimaiyyətə etdiyiniz bir müraciət idi. Ancaq evdə, şəxsi həyatınızda bu sevinci necə yaşadınız?*

– Bilirsiniz, o sözlər öz-özünə ortaya çıxdı.

*– İçdən gəldiyi çox aydındır.*

– Bəli, içdən gəldi. Çünki "Nə oldu Paşinyan?" sözlərini müharibədən sonra yox, müharibə dönəmində dedim və sonra, necə deyərlər, "mem" oldu. Əslində, mən doğrudan da yenə bu sualı vermək istəyirəm: Bəs, nə oldu Paşinyan?!

Mən sizə deyim ki, müharibə bitəndən sonra evdə Mehriban xanım məndən xahiş etdi ki, sən Allah bir də "Nə oldu, Paşinyan?" demə və bu işləri bitir. Hər şey bitdi, bu da bitsin.

Təbii ki, biz sevinc içində idik. Hər gün həm sevincli, həm də kədərli anlar yaşayırdıq. Çünki müharibənin ilk günündən biz artıq Zəfər əldə etdik. Müharibənin ilk günündə bir neçə kənd azad edildi və bu, Ordumuza da ruh yüksəkliyi verdi, özümüzə də əminlik verdi və inam verdi. Ancaq biz hər gün insanlarımızı itirirdik, hər gün şəhidlər verirdik. Hər gün mənə verilən o məlumat, o raport bizim, necə deyərlər, içimizi yandırırdı. Hər ölən bizim övladımızdır, hər həlak olanın həyatının qiyməti yoxdur. Onun ömrü təkrarolunmazdır, ölümü yaxınları, valideynləri, anaları, ataları, övladları üçün faciədir. Amma, eyni zamanda, hər gün zəfərlə dolu anlar yaşamışdıq. Yəni, bu 44 gün ərzində bizim həyatımızın, günümüzün yarısı kədərli, yarısı sevincli idi. Bütün Azərbaycan xalqında inam var idi ki, biz bunu edəcəyik.

Müharibənin ilk günlərində, bilirəm, bəziləri düşünürdü ki, görəsən dayanacaqlarmı, dayanmayacaqlarmı, dayandıracaqlarmı, dayandırmayacaqlarmı, İlham Əliyev sona qədər gedəcəkmi, getməyəcəkmi. Amma müharibə davam etdikcə hər kəs gördü ki, öldü var, döndü yoxdur, sona qədər gedəcəyik.

Müharibə dövründə mən dəfələrlə "Nə oldu, Paşinyan?" sözləri ilə bərabər deyirdim ki, Paşinyan özü mənə tarix versin, təqvim versin ki, nə zaman bizim torpaqlarımızdan rədd olur, həmin gün biz müharibəni dayandırırıq. Belə də oldu, 9 noyabrda o tarixi verdi, 10 noyabrda gecə kapitulyasiya aktı, yəni, təslim aktı imzalandı. Biz dayandıq, yenə də sözümüzə əməl etdik və dərinə getmədik. Yəni, ermənilərdən fərqli olaraq biz etnik təmizləmə aparmadıq, hərbi cinayət törətmədik, müharibəni ləyaqətlə apardıq, mülki şəxsləri vurmadıq. Hətta erməni əsgərlərini lazımsız yerə məhv etmədik. Müharibədən bir ay sonra böyük bir təxribat qrupu bizim torpağımıza göndərilmişdi. Onlar həbs olundu, halbuki məhv edilə bilərdilər. Çünki onlar bizim 4 hərbçimizi öldürdülər, amma biz onlara dəymədik. Yəni, müharibənin öz qanunları var və hər şey gərək ləyaqətlə olsun. Müharibədə də, mülki həyatda da, məişətdə də, evdə də, işdə də, siyasətdə də ləyaqət əsas prinsiplərdən biri olmalıdır. Ona görə indiki şəraitdə, əlbəttə ki, bizim başqa planlarımız var. Ancaq İkinci Qarabağ savaşı Azərbaycan xalqının tarixində əbədi qalacaq.

*– Cənab Prezident, ətraflı məlumata və mənə vaxt ayırdığınıza görə Sizə bir daha təşəkkür edirəm.*

– Sağ olun, sizə təşəkkür edirəm. "CNN Türk"ə də xüsusilə təşəkkür etmək istəyirəm. Çünki İkinci Qarabağ savaşında sizin müxbirləriniz ən qaynar nöqtələrdə idilər, atəş altında böyük fədakarlıqla, böyük sevgi və məhəbbətlə canlı reportajlar verirdilər. Deyə bilərəm ki, İkinci Qarabağ savaşında biz Türkiyə mətbuat nümayəndələrini özümüz üçün yenidən kəşf etdik.

*– Allah bir daha acılar yaşatmasın. Amma nə olsa, yenə də yanınızda olacağıq. Bir daha təşəkkür edirəm, cənab Prezident.*

– Sağ olun. Təşəkkür edirəm.

## *Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində İlham Əliyevin nitqi*

– Bu görüş şəhid ailələri, Qarabağ qaziləri ilə növbəti görüşümdür. Xahiş edirəm ki, görüşümüzün əvvəlində Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Son illər ərzində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri ilə mənim çoxsaylı görüşlərim olub. Müharibədən əvvəl hər dəfə görüş əsnasında mən deyirdim ki, biz nəyin bahasına olursa-olsun öz torpağımızı qaytaracağıq, Qarabağı qaytaracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik, şəhidlərimizin qisasını alacağıq və belə də oldu. Azərbaycan ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi, öz torpaqlarını qaytardı və şəhidlərimizin qanını aldı.

Bu gün müharibədən keçən aylar ərzində şəhid ailələri, Qarabağ qaziləri ilə görüşlər əsnasında tam başqa ab-hava hökm sürür. Əgər əvvəlki illərdə biz hər zaman şəhidlərimizin xatirəsini yad edərək özümüzə söz verirdik ki, onların qisasını alacağıq, bu gün qürur hissi ilə deyə bilərik ki, şəhidlərimizin qanını yerdə qoymadıq, ədaləti bərpa etdik, düşməni torpağımızdan qovduq və müzəffər xalq kimi dünya tarixinə öz adımızı yazdırdıq. Bu gün Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsini əbədiləşdirmək, daim qəlbimizdə saxlamaq üçün böyük işlər görülür və görülməlidir. Şəhid ailələrini, Qarabağ qazilərini evlərlə təmin etmək bizim siyasətimizin əsas istiqamətlərindən biri idi, bu gün də bu, belədir. Ancaq bununla yanaşı, əlbəttə ki, bu proses müəyyən müddət davam etdiriləcək. Çünki yaxın gələcəkdə bu problem tamamilə aradan qaldırılacaq. Ancaq bununla paralel olaraq, İkinci Qarabağ müharibəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün biz daha fəal olmalıyıq. Eyni zamanda, gənclərimizin tərbiyə işində də mütləq bu mövzu ön planda olmalıdır. Çünki İkinci Qarabağ müharibəsindəki, Vətən müharibəsindəki Qələbəmiz tarixi zəfərimizdir.

Bu günə qədər dövlət siyasəti olaraq şəhid ailələri, müharibə əlilləri üçün çox böyük işlər görülmüşdür. Onu demək kifayətdir ki, bu kateqoriyadan olan 10 minə yaxın insan dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin edilmişdir. Təkcə keçən il 1572 mənzil verilmişdir, bu il 3 minə yaxın mənzil veriləcəkdir və beləliklə, növbədə duran vətəndaşların problemi öz həllini tapacaq. Eyni zamanda, bu gün 50 avtomobil təqdim ediləcək. Bu günə qədər verilən maşınların sayı 7 mini ötüb, daha doğrusu, 7200-dür. Bu gün açılışına toplaşdığımız yaşayış kompleksində bu kateqoriyadan olan mindən çox vətəndaş yaşayacaq. Burada bütün şərait yaradılıb, gözəl yaşayış kompleksidir, əsas yollara da yaxındır. Burada 1500 nəfərlik məktəb, – harada ki, biz indi görüşürük, – uşaq bağçası, işıqlı, yaraşıqlı, rahat mənzillər inşa edilib və bu, bir daha dövlət tərəfindən aparılan siyasəti göstərir.

Onu da bildirməliyəm ki, bu sahədə Azərbaycan dünya miqyasında nümunəvi ölkə sayıla bilər. Çünki bir daha demək istəyirəm ki, bu günə qədər 10 minə yaxın vətəndaş mənzillərlə, fərdi evlərlə təmin edilib. Biz hər il dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayırırıq ki, bu məsələlər öz həllini tapsın və növbəti müddət ərzində bu proqram tam icra olunacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müvafiq göstərişlər verilib, gələn ilin büdcəsi formalaşdıqda, əlbəttə ki, bu məsələ öz həllini tapacaq. Onu da bildirməliyəm ki, dünən imzaladığım Sərəncam əsasında İkinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş və qəhrəman adına layiq görülmüş şəxslər də mənzillərlə təmin ediləcək, müvafiq Sərəncam imzalanıbdır. Vətən Müharibəsi Qəhrəmanı adını alan bütün şəxslər mənzillərlə təmin ediləcək. Ölümündən sonra bu ada layiq görülmüş şəhidlərin ailələri də bu mənzillərə sahib olacaqlar.

Eyni zamanda, müharibədən sonra 9 mindən çox insana sosial ödənişlər verilibdir. Orta hesabla hər insana 2 ödəniş edilib. Yaralı və sağlamlığını itirmiş hərbçilər ən müasir protezlərlə təmin edilir. Onlar üçün belə imkan yaradılıb və son nəsil protezlər alınıb. Mənə verilən məlumata görə, 180 nəfərdən çox insanın protezə ehtiyacı var, onlardan 140 nəfəri artıq protezlərlə təmin edilib və bu protezlər onları normal həyata qaytarır. Onlar normal gəzə, qaça, hətta futbol oynaya da bilərlər. Bu da siyasətimizin tərkib hissəsidir. Çünki mən dəfələrlə demişdim ki, biz ən həssas kateqoriyadan olan insanlara daim diqqət göstərməliyik və Birinci Qarabağ müharibəsindən sonra keçən dövr ərzində maddi imkanlar çərçivəsində bunu edirdik. İmkanlar az olanda az edirdik, imkanlar çox olanda çox edirdik, amma edirdik, bu gün də edirik və edəcəyik.

Eyni zamanda, müharibə dövründə öz əmlakını itirmiş insanlar üçün də minlərlə yeni ev tikilməkdədir.

Çünki mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən bunun əvəzini mülki vətəndaşlardan çıxmaq istəyirdi. Bizim bir çox şəhərlərimiz daim atəş altında idi, artilleriya ilə, qadağan edilmiş bombalarla, ağ fosforlu bombalarla, ballistik raketlərlə bombalanırdı. Yüzdən çox mülki şəxs, onların arasında qadınlar, uşaqlar bu namərd atəş nəticəsində həlak olmuşlar və minlərlə insan öz əmlakını itirmişdir. Ona görə bu gün bu işlər də görülür, minlərlə ev inşa edilir, onların böyük hissəsi artıq inşa edilib.

Təbii ki, bütün bunlar böyük vəsait tələb edir və bütün bu işləri Azərbaycan öz vəsaiti hesabına edir, heç kimə möhtac deyil, heç kimdən yardım istəmir, öz hesabına edir və edəcək. O cümlədən, azad edilmiş torpaqlarda bu gün bütün bərpa işləri Azərbaycanın vəsaiti hesabına icra olunur. Biz Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqram qəbul etdik. Bu proqram bir neçə ili əhatə edir və birinci il - 2021-ci il üçün proqram icra olunur. Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük. Əlbəttə, burada təkcə maliyyə vəsaiti kifayət etməz. Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq. Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur.

Müharibə dövründə Azərbaycan hərbçiləri həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda, fədakarlıq göstərmişlər, sözün əsl mənasında, ölümə gedirdilər. Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir. Biz əməliyyatları planlaşdıranda, ilk növbədə, mümkün olan itkilər haqqında düşünürdük və müqayisə apardıqda Azərbaycan məhz buna görə az itki verib. Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir.

Ancaq, eyni zamanda, onu da bildirmək istəyirəm ki, şəhidlərin sayı daha çox ola bilərdi. Əgər biz əməliyyatları planlaşdıranda bu amili nəzərə almasaydıq. Ona görə Ermənistan ordusu ilə müqayisədə bizdə itkilər kifayət qədər azdır. Düzdür, Ermənistan öz itkilərini gizlədir. Ancaq bizdə olan dəqiq məlumata görə ən azı 7-8 min itki vermişdir. Təkcə azad edilmiş torpaqlarda bu günə qədər davam edən axtarış əməliyyatları nəticəsində 1600-dən çox erməni işğalçının cəsədi tapılmışdır. Burada da Azərbaycan humanistlik göstərir. Birinci Qarabağ müharibəsindən sonra bizim təxminən 4 minə yaxın itkin düşmüş insanımız olmuşdur. Ermənilər onların nəşini bizə qaytarmadılar. Ancaq biz yenə də humanizmin ən ülvi əlamətlərini, prinsiplərini rəhbər tutaraq bu işi də görürük. Biz bütün əməliyyatları planlaşdıranda əməliyyatların gedişatını izləyirdik, canlı rejimdə izləyirdik. Biz bilirik ki, düşmən ən azı 7-8 min itki verib. Azərbaycan isə 3 minədək şəhid verib. Nəzərə alsaq ki, biz əks hücum əməliyyatı keçirirdik. Nəzərə alsaq ki, 5-6 müdafiə xətti var, böyük mühəndis istehkamları var idi, təbii relyef bizim üçün əlverişsiz idi. Anlamaq olar ki, biz insanların sağlamlığını, həyatda qalmasını nə qədər düşünürdük və buna nail olduq.

İkinci Qarabağ müharibəsi tarixdə əbədi qalacaq. Azərbaycan xalqının çoxəsrlik tarixində buna oxşar parlaq və tam Qələbə olmamışdır. Biz 300-dən çox şəhəri, kəndi, qəsəbəni döyüş meydanında işğalçılardan azad etdik. İşğalçıları məcbur etdik ki, onlar kapitulyasiya aktını imzalayaraq digər rayonlardan öz xoşları ilə çıxsınlar. Halbuki müharibənin ilk günlərindən mən deyirdim ki, Ermənistan rəhbərliyi bizə tarix verməlidir nə vaxt bizim torpaqlarımızdan çıxır və biz müharibəni dayandırmağa hazırıq. Belə də oldu. Noyabrın 9-da Ermənistan artıq kapitulyasiya aktını imzalamağa hazır olmuşdur. Ağdam, Kəlbəcər, Laçın rayonlarının bizə qaytarılması tarixi müəyyən olunmuşdur. Noyabrın 10-na keçən gecə isə Ermənistan kapitulyasiya aktını imzaladı və müharibə dayandı. Müharibənin bizim tərəfimizdən dayandırılması da tamamilə əsaslı bir addım idi. Çünki müharibə davam etsəydi, birincisi biz daha çox itkilər verəcəkdik. Müharibə davam etsəydi, Kəlbəcər və Laçın rayonlarının azad edilməsi müəyyən çətinliklərlə üzləşə bilərdi. Çünki o bölgənin təbii iqlimi, dağları bizə problem yarada bilərdi. Bir də ki, qış başlayırdı. Eyni zamanda, Azərbaycan müharibəni müharibə qanunları ilə aparırdı. Biz ermənilərdən fərqli olaraq hərbi cinayət törətməmişik, etnik təmizləmə siyasəti aparmamışıq. Bu, bir daha xalqımızın böyüklüyünü, siyasətimizin müdrikliyini göstərir. Ona görə biz hər şeyi vaxtında etdik, hər şeyi vaxtında. Torpaqlarımızı vaxtında azad etdik, müharibəni vaxtında dayandırdıq və tarixi Zəfərə çatdıq. Bir neçə gün bundan əvvəl dediyim kimi, ermənilərin bütün miflərini darmadağın etdik. Bu gün Ermənistan artıq açıq etiraf edir ki, öz təhlükəsizliyini özü təmin edə bilmir, öz sərhədlərini özü qoruya bilmir,

öz hesabına yaşaya bilmir. Belə olan halda müstəqillikdən söhbət gedə bilməz. Ermənistanı müstəqil ölkə adlandırmaq tamamilə əsassızdır. Çünki müstəqil ölkəyə xas olan əlamətlərin mütləq əksəriyyəti Ermənistan dövlətində yoxdur. Bunun da səbəbi onların işğalçılıq siyasətidir. Əgər vaxtında mənim sözlərimə əməl edib torpaqlarımızdan çıxsaydılar, belə bir rəzil vəziyyətə düşməzdilər. Nəticədə yenə də mənim sözlərimə əməl etməli oldular. Mən deyirdim ki, bizim torpağımızdan rədd olmalısınız. Rədd oldular. Nəticədə mən deyən oldu, amma vaxt itirdilər. Bu gün Ermənistan nə gündədir, hər kəs bunu görür. Əlbəttə, acı məğlubiyyətin şokunu onlar hələ uzun illər yaşayacaqlar. Biz isə bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq, qürurla yaşayacağıq. Öz gələcəyimizi özümüz quracağıq, azad edilmiş torpaqları bərpa edəcəyik. Şəhidlərimizin xatirəsini daim qəlbimizdə yaşadacağıq.

Müharibədən sonra bütün dünya erməni vəhşiliyinin yırtıcı sifətini gördü. Çünki müharibəyə qədər işğal dövründə Ermənistan tərəfi o vaxt işğal edilmiş torpaqlara heç kimi buraxmırdı. Eyni zamanda, bu məsələ ilə məşğul olan vasitəçilər də oraya getməyə o qədər can atmırdılar. Halbuki qanunsuz məskunlaşma hərbi cinayət sayılır. Əgər 1990-cı illərin əvvəllərində Ermənistan bu qanunsuz məskunlaşmanı gizlin şəkildə edirdisə, son vaxtlar o qədər azğınlaşmışdılar ki, bunu açıq şəkildə edirdilər. İndi yada salmaq lazımdır, müharibədən əvvəl onların televiziyalarında hansı reportajlar gedirdi. Xaricdən – Suriyadan, Livandan gəlmiş ermənilər Şuşa şəhərində müsahibələr verirdilər. Deyirdilər ki, bəli, biz gəlmişik buraya. Bura Ermənistan torpağıdır. Biz burada yaşayırıq. Bunları təbliğ edirdi, hərbi cinayəti təbliğ edirdi. Onlara bizdən başqa söz deyən yox idi. Minsk qrupu onlara bir söz demirdi. Qanunsuz məskunlaşma tək Şuşada getmirdi, Cəbrayılda da gedirdi, Zəngilanda da gedirdi, Kəlbəcərdə də, Laçında da. Təkcə Ağdam və Füzulidə məskunlaşma getmirdi. Çünki orda heç nə yox idi, hər şeyi dağıdıblar, bütün şəhər və kəndlərimizi yerlə-yeksan ediblər. Amma qalan yerlərdə – Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər və Şuşada qanunsuz məskunlaşma gedirdi. Düzdür, az gedirdi, çünki onların insan resursları yox idi, amma gedirdi. Bu, hərbi cinayətdir. Bu hərbi cinayətə görə təkcə Ermənistan yox, o cinayətlərə göz yuman da məsuliyyət daşıyır. Bizim uğurlu əməliyyatlarımız buna son qoydu. Ancaq bu gün qeyd etdiyim kimi, bütün dünya erməni vəhşiliyini görür. Görür ki, ermənilər bizim məscidlərimizi dağıdıblar, 60-dan çox məscid dağıdılıb. Ermənilər bizim məscidlərimizdə inək, donuz saxlayıblar. Bu, bütün müsəlman aləminə təhqirdir. Bir daha sizin qarşınızda bütün müsəlman ölkələrinin rəhbərlərinə üz tutaraq deyirəm, bunu heç vaxt unutmayın, buna göz yummayın, görməzliyə vurmayın. Ermənistan rəhbərliyi bütün müsəlman aləmini təhqir edib. Qəbirləri dağıdan da, qəbir daşlarının üzünü silərək satan da ermənidir, ölülərin qızıl dişlərini çıxardan da ermənidir, məscidlərimizi sökən də ermənidir, evlərimizi kərpic-kərpic söküb öz daxmasına daşıyan da ermənidir. Bunu hər kəs görür və görməlidir. Biz azad edilmiş torpaqlara xarici qonaqları, jurnalistləri, siyasətçiləri, ictimai xadimləri müntəzəm olaraq gətiririk ki, görsünlər və bilsinlər, biz təkcə öz ərazimizi işğaldan azad etməmişik, biz bölgəni erməni faşizmindən azad etmişik.

Bu gün biz bu əraziləri bərpa edərək tarixi ədaləti bərpa edirik. Əfsuslar olsun ki, xalqımız uzun illərdir ədalətsizliklərlə üzləşir. XX əsrin 20-ci illərində xalqımıza iki böyük zərbə vuruldu. Birincisi, 1920-ci ildə. O vaxt sovet hakimiyyəti bizim tarixi torpağımız olan Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana birləşdirdi. Ondan sonra o bölgədə azərbaycanlılar deportasiyaya məruz qaldılar.

İkinci isə 1923-cü ildə bizim ərazimizdə süni bir qurum yaradıldı – Dağlıq Qarabağ Muxtar Vilayəti, hansı ki, bunun yaradılmasının heç bir əsası yox idi. Nə tarixi əsası var idi, nə coğrafi əsası var idi, nə də iqtisadi əsası var idi. Heç bir əsası yox idi. Sadəcə olaraq, bizim canımıza bu süni bir cisim yeridildi ki, bir canlı bomba kimi orada dursun və vaxtında partlasın. Belə də oldu. 1923-cü il iyulun 7-də Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Onun da mərkəzi şəhəri bizim Xankəndi qəsəbəmiz olmuşdu. Ona da cəllad Stepan Şaumyanın adını verdilər, Stepanakert adlandırdılar. Xalqımıza iki böyük zərbə dəymişdi. Ondan sonra da zərbələr oldu. 1940-1950-ci illərdə Ermənistan ərazisindən - qədim Azərbaycan torpaqlarından azərbaycanlıların deportasiyası, 1980-ci illərin sonlarında erməni separatizminin baş qaldırması və buna sovet hakimiyyəti tərəfindən reaksiyanın verilməməsi. Əksinə, separatçıları təhrik edirdilər, onların havadarları bizə meydan oxuyurdular. Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək sovet vaxtında ortaya atılmış tezis idi. Heydər Əliyev hakimiyyətdən gedəndən iki həftə sonra bu, ortalığa atıldı. Görünür ki, çoxdan belə planlar var idi. Amma Heydər Əliyev amili, onun qətiyyəti və gücü imkan vermirdi ki, baş qaldırsınlar. O canlı bomba, hansı ki, 1923-cü ildə qoyuldu Azərbaycanda və o partladı o vaxt. O vaxtkı Azərbaycan rəhbərliyi, sadəcə olaraq, buna ya hazır deyildi, ya da ki, öz vəzifə borcunu yerinə

yetirə bilmədi. Bəzi hallarda xəyanət etdi, satqınlıq etdi. Nəticə etibarilə hələ sovet vaxtında Dağlıq Qarabağ Muxtar Vilayəti faktiki olaraq Azərbaycandan defakto ayrılmışdı. Orada bir xüsusi komitə yaradılmışdı. O komitəyə rəhbərlik üçün Moskvadan ermənipərəst bir adam gətirilmişdi. Hansı ki, faktiki olaraq orada ermənilərlə birləşib bizə qarşı iş aparılırdı.

Azərbaycanlılar öz doğma torpağında artıq müdafiəsiz bir topluma çevrildilər. Ondan sonrakı tarix məlumdur. Biz isə tarixi, bu antiazərbaycan siyasətini geri çeviririk. Biz bəzilərinin heç yuxusuna gəlməyən işləri görürük. Bu gün bölgəyə tam sahibik, söz sahibiyik, işğal edilmiş torpaqları azad etmişik. Bu torpaqlarda indi möhkəmlənirik.

Mən görürəm, bəzi xarici mətbu orqanlarında deyilir ki, Azərbaycan yeddi rayonu azad edib. Bu həqiqətə uyğun deyil. Yeddi rayonu azad edib, amma bununla bərabər Şuşa şəhərini azad edib, bununla bərabər Hadrutu azad edib, bununla bərabər Xocavənd rayonunun 60 faizini azad edib, Suqovuşan qəsəbəsini azad edib. Ona görə biz yeddi rayondan daha çox ərazini azad etmişik. Bu ərazilərin strateji əhəmiyyəti göz önündədir. Hər kəs xəritəyə baxıb görə bilər ki, Azərbaycan hakim strateji nöqtələrə sahibdir, istər Qarabağ bölgəsində, istər Azərbaycan-Ermənistan sərhədində. Əgər 1923-cü il 7 iyul tarixi xalqımızın faciəsi idisə, 2021-ci ildə biz artıq bu qara səhifəni də qapadıq. Artıq 7 iyul gözəl bir tarix kimi tarixdə qalacaq. Çünki 2021-ci il iyulun 7-də mənim tərəfimdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılmasına dair Fərman imzalandı, tarixi ədalət bərpa edildi.

Mən bir daha şəhidlərimizin əziz xatirəsini yad edərək deməliyəm ki, siz – onların yaxınları onlarla fəxr edirsiniz. Haqlı olaraq fəxr edirsiniz. Bütün Azərbaycan xalqı şəhidlərimizlə, hərbçilərimizlə fəxr edir. Şəhidlərimizin əziz xatirəsi bizim ürəyimizdə əbədi yaşayacaqdır.

Bir daha sizi bu hadisə münasibətilə təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Sağ olun.

## *İlham Əliyevin Türkiyənin Anadolu Agentliyinə müsahibəsi*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Anadolu Agentliyinə müsahibə verib.

*– Hörmətli Prezident, Anadolu Agentliyinə müsahibə vermək barədə təklifimizi qəbul etdiyiniz üçün Sizə çox təşəkkür edirik. Önəmli bir tarixdəyik - Azərbaycan Zəfərinin, 30 ilə yaxın işğal altında olan torpaqların azad edilməsinə başlandığı 27 sentyabr tarixinin birinci ildönümündəyik. O günə qayıtsaq, o günün şərtlərini zehnimizdə yeniləsək, Azərbaycan nə üçün əks-hücuma keçdi?*

– Bilirsiniz, son müddət ərzində Ermənistanın bizə qarşı təxribatları müntəzəm xarakter almışdı. Həm bizə qarşı yönəlmiş açıqlamalar, eyni zamanda, addımlar onu göstərirdi ki, Ermənistan yeni müharibəyə hazırlaşır. Mən bunun səbəblərini bu günə qədər də anlaya bilmirəm. Çünki 30 il ərzində digər dövlətin torpaqlarını işğal altında saxlayan bir dövlət yeni savaşa çıxmaq fikrində olursa, bu, çox ciddi araşdırılmalıdır ki, bunun səbəbi nədir. Sözümün təsdiqi olan addımlar da göz qabağındadır. Çünki iyul ayında Ermənistan Azərbaycan–Ermənistan sərhədində hərbi təxribat törətmişdir və bu təxribat nəticəsində 13 mülki şəxs və hərbçi həlak olmuşdur. Azərbaycan o zaman düşmənə layiqli cavab verdi. Ancaq biz dövlət sərhədini keçmədik. Yəni, sadəcə olaraq, onları girdikləri Azərbaycan ərazisindən çıxardıq və bir neçə gün davam edən toqquşma sona çatdı. Ondan sonra avqust ayında bir təxribat qrupu göndərildi, təmas xəttini keçdilər və orada bizim hərbçilərimiz onları tərk-silah etdilər. Bir il bundan əvvəl Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının sessiyasında çıxış edərkən mən demişdim ki, Ermənistan yeni savaşa hazırlaşır. Üç gün sonra artıq yenidən bizim mövqelərimiz və yaşayış məntəqələrimiz artilleriya atəşinə tutulmuşdu, yenə də şəhidlər verdik və mənim əmrimlə genişmiqyaslı əks-hücum əməliyyatına başladıq və bildiyiniz kimi, bu əməliyyat böyük Zəfərlə nəticələndi.

Bir il əvvələ qayıdarkən, əlbəttə, bütün bu prosesləri, bütün bu hadisələri daha da dəqiq təhlil etmək imkanımız olur və görünür ki, Ermənistan rəhbərliyi, hakimiyyətə yeni gəlmiş rəhbərlik hansısa hərbi uğurla da öyünmək istəyirdi, hansısa hərbi uğur əldə etmək istəyirdi. Ancaq hesablamaları çox səhv apardılar, çox böyük xəta törətdilər və bunun nəticəsində acı məğlubiyyətə uğradılar.

*– Cənab Prezident, bu savaşın qarşısını almaq olmazdımı? Çox uzun müddət fəaliyyət göstərən Minsk qrupu həmsədrlərinin görüşləri vardı. Minsk qrupunun həmsədrləri və ya başqa amillər bu savaşın qarşısını ala bilərdilərmi? Əslində, qarşısını necə almalı idilər?*

– Təbii, qarşısını ala bilərdilər. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim. Əgər Minsk

qrupu Ermənistana vaxtında ciddi təzyiq göstərsəydi, təbii ki, Ermənistan məcbur olub işğal edilmiş torpaqlardan çıxacaqdı və belə olan halda müharibəyə ehtiyac qalmazdı. Ancaq onlar bu təzyiqi etmədilər. Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən üç dövlət Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvüdür. Yəni, onlar dünya miqyasında ən güclü ölkələr sayılır. Məgər, onların siyasi çəkisi, siyasi imkanları olmayıb ki, Ermənistana bu ciddi mesajları göndərsinlər? Sadəcə olaraq, nə hərb, nə sülh siyasətinə üstünlük verirdilər.

Digər tərəfdən, mən Minsk qrupunun həmsədrlərinə və digər böyük dövlətlərə dəfələrlə müraciət etdim ki, Ermənistana sanksiyalar tətbiq edilməlidir. Bu da savaşın qarşısını ala bilərdi. Çünki bu sanksiyalar Ermənistan üçün böyük çətinliklər yaşadacaqdı və onlar məcbur olub bizim torpağımızdan çıxacaqdılar. Yəni, biz bütün imkanlardan istifadə etdik ki, bunu sülh yolu ilə çözək, müharibə olmasın, qan tökülməsin. Ancaq bununla bərabər, mən deyirdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Nəyin bahasına olursa-olsun öz torpağımızı azad edəcəyik və sadəcə olaraq, şans verirdik.

Bilirsiniz, Ermənistanın 2018-ci ildə hakimiyyətə gəlmiş yeni rəhbərliyi bu danışıqlar, yəni, müzakirə prosesinə də çox böyük zərbə vurdu. Çünki onların yersiz və çox məsuliyyətsiz açıqlamaları faktiki olaraq müzakirə prosesini iflic etdi, yəni, danışıqlar iflic vəziyyətinə düşmüşdü. Belə olan halda, Minsk qrupu daha müsbət, daha da cəsarətli addımlar atmalı idi. Onlar isə sadəcə olaraq, müşahidə edirdilər, sadəcə olaraq, buna müşahidəçi kimi yanaşırdılar. Ona görə, İkinci Qarabağ müharibəsinin başlanmasında, əlbəttə ki, ən böyük məsuliyyət Ermənistanın üzərinə düşür, eyni zamanda, Ermənistanı vaxtında dayandırmayan böyük dövlətlərin üzərinə düşür.

*– Həmsədrlərin ölkələri uzun müddət status-kvonu davam etdirmək strategiyasını yürütdü. Ancaq Zəfərdən sonra Minsk qrupunun, həmsədrlərin yenidən prosesə daxil olması, vasitəçilik diplomatiyası yürütməsi gündəmdədir, belə tələblər var. Bununla əlaqədar nə düşünürsünüz? Bu, gələcəkdə bir həll yolu ola bilərmi, bunun bir faydası olacaqmı?*

– Bilirsiniz, Minsk qrupuna sədrlik edən ölkələr, onların prezidentləri işğal dövründə bir neçə dəfə çox müsbət açıqlamalar verdilər, təqribən 7–8 il bundan öncə. Onlardan biri də o idi və açıq bəyan edilmişdi ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Biz də bunu çox müsbət qəbul etdik. Şəxsən mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim və demişdim ki, bu, uzun illər ərzində gözlənilən bir açıqlamadır. Status-kvonun dəyişdirilməsi nə deməkdir – işğala son qoyulması. Ancaq bu açıqlamalardan sonra onlar praktiki addımlara keçmədilər. Ondan da əlavə, bir müddət sonra onlar bu ifadədən də geri çəkildilər və həmsədrlər tərəfindən yeni bir ifadə ortalığa atıldı - status-kvo dayanıqlı deyil. Yəni, bunların arasında çox böyük fərq var. Biri var ki, qəbuledilməzdir, bir də var ki, dayanıqlı deyil. Mən o zaman da onları tənqid etmişdim və demişdim ki, bu mövqe dəyişikliyi Ermənistanın işğalçılıq siyasətinin dəyirmanına su tökür. Ancaq təəssüf ki, ondan sonrakı dövr də onu göstərdi ki, Minsk qrupu, sadəcə olaraq, bu məsələni həll etmək fikrində deyildi. Biz 44 günlük müharibə zamanı bunu bir daha gördük. Çünki Birləşmiş Millətlər Təşkilatında bizə qarşı məsələni qaldıran Minsk qrupuna həmsədrlik edən bəzi ölkələr idi. Müharibə gedir, biz öz torpağımızda beynəlxalq hüququ bərpa edirik, ədalət savaşına çıxmışıq. Ancaq Birləşmiş Millətlər Təşkilatında bizə qarşı hansısa sanksiya məsələsini ortaya atmaq tamamilə ədalətsizlikdir.

İndiki dövrə gəldikdə, Minsk qrupunun fəaliyyətini biz demək olar ki, görmürük. Adətən onlar danışıqlar prosesi dövründə gəlirdilər, təkliflər verirdilər, prezidentlər səviyyəsində keçirilən görüşlərin gündəliyini təsbit edirdilər, bizə təkliflər edirdilər ki, hansı məsələlər müzakirə oluna bilər. Hər iki tərəf də razılaşma əsasında bu məsələləri müzakirə edirdi. İndi isə müharibənin bitməsindən bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, onlardan hər hansı bir təklif yoxdur. Bir dəfə Azərbaycana gəlmişdilər və mən onlara dedim ki, siz təklif verin. Biz bu məsələni həll etdik, Dağlıq Qarabağ münaqişəsi başa çatdı, “Dağlıq Qarabağ” adlı inzibati ərazi, yəni, qurum mövcud deyil. Bu günlərdə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının sessiyasında çıxışımda da mən bütün ölkələrə müraciət etdim və dedim, rica edirəm ki, bundan sonra “Dağlıq Qarabağ” ifadəsi işlədilməsin, Azərbaycan ərazisində belə bir qurum yoxdur. Qarabağ zonası var, Şərqi Zəngəzur var. Belə olan halda Minsk qrupunun fəaliyyəti üçün bu gün yeni məsələlər ortalığa çıxmalıdır. Yəni, məsələ – Dağlıq Qarabağ münaqişəsi bitdi. Nə ola bilər? Mənim fikrimcə, yəni, etimad tədbirləri, ondan sonra yolların açılması, dəhlizlərin açılması, sülh prosesinə dəstək vermək, Ermənistan–Azərbaycan əlaqələrini tənzimləmək, çalışmaq ki, Ermənistan-Azərbaycan arasında bizim təklif etdiyimiz sülh müqaviləsi imzalansın. Yəni, məncə, onların fəaliyyət dairəsi bu gündən sonra bundan ibarət olmalıdır. Yoxsa “Dağlıq Qarabağ” - olmayan qurumun statusu ola

bilərmi? Əlbəttə ki, yox. Mən demişəm, bir daha demək istəyirəm ki, əgər kimsə "Dağlıq Qarabağ"a status vermək istəyirsə, öz ölkəsində bir ərazi versin, orada bir qurum yaratsın, ya cümhuriyyət yaratsın, onların müstəqilliyini tanısın, biz də tanıyaq. Amma Azərbaycan ərazisində yox!

*– Cənab Prezident, sözlərinizdən anladığıma görə Minsk qrupu da hazırkı – 44 günlük müharibədən sonrakı reallığı, bölgədə yaranan reallığı qəbul etməlidir və bununla bağlı addımlar atmalıdır, yeni təkliflər verməlidir. Bunlarımı ifadə edirsiniz?*

– Əslində, bilirsiniz, bir daha demək istəyirəm, İkinci Qarabağ müharibəsindən sonra Minsk qrupundan bu günə qədər bizə hər hansı bir təklif verilmədi. Təklif olmadığı təqdirdə Minsk qrupunun fəaliyyəti haqqında danışmaq yersizdir. Yəni, bir il artıq keçir. Nə təklif edirsən? Deyirsən ki, bu münaqişə həll edilməlidir. Mən Azərbaycan olaraq deyirəm ki, bunu həll etmişəm, təkbaşına, bütün təzyiqlərə rəğmən. Ona görə bu təklif olmalıdır. Nə ilə məşğul olmalıdır? Mən öz fikirlərimi ifadə etdim. Qalan şeylər isə onların məsuliyyətidir.

*– Yeni yaranan bu reallıqdan sonra Azərbaycan, Ermənistan, Rusiya arasında bir protokol imzalandı. Orada bəzi maddələr var, xatırladığıma görə 9 maddə idi. Siz bu maddələrin həyata keçirilməsindən məmnunsunuzmu? Ötən bir il ərzində kifayət qədər həyata keçirildimi? Həmin maddələrdən nələr əskikdir?*

– Bütövlükdə məmnunam. Çünki orada olan əsas məsələlər öz həllini tapdı. Bildiyiniz kimi, Ermənistan bu Bəyanata imza atmaqla öz üzərinə öhdəliklər götürmüşdür və bu öhdəlikləri məcbur olub yerinə yetirdi. Bu öhdəliklərin yerinə yetirilməsi müharibədən dərhal sonra baş vermişdir. Yəni, o zaman işğal altında olan bölgələrdən erməni qüvvələrinin çıxarılması orada açıq-aydın göstərilirdi və müharibə bitəndən sonra 20 gün ərzində Ağdam, Kəlbəcər və Laçın rayonları bizə qaytarıldı. O zaman Ermənistan bu məsələyə çox məsuliyyətli yanaşırdı. Nə üçün? Çünki qorxu içində idi. Çünki bilirdi ki, əgər 10 noyabr tarixində bu Bəyanata imza atmasaydı, onların durumu daha pis ola bilərdi. Yəni, bizi dayandıracaq bir qüvvə yox idi və savaş dönəmində dəfələrlə mən Azərbaycan xalqına müraciət edərək deyirdim ki, Ermənistan bizə tarix versin, təqvim versin nə zaman bizim torpaqlarımızdan çıxır, biz dərhal müharibəni dayandırmağa hazırıq.

Bu tarix bizə noyabrın 9-da verildi, Ermənistan faktiki olaraq kapitulyasiya, yəni, təslim aktını imzaladı və noyabrın 10-da müharibə dayandı. Ona görə o önəmli məsələlərin həlli Ermənistanın qorxu içində olmasından qaynaqlanır. Amma ondan sonra nə oldu? Sülhməramlı qüvvələr gəldi, bir müddət keçdi və qalan məsələlərin icra edilməsi dayandı. Orada açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri bizim torpağımızdan tam çıxarılmalıdır. Müharibə başa çatandan təxminən 15-20 gün sonra Ermənistandan sülhməramlı qüvvələrin məsuliyyətində olan ərazidən – Laçın dəhlizindən azad edilmiş torpaqlara 62 nəfərdən ibarət bir təxribat qrupu göndərildi. Bu, 10 noyabr Bəyanatına tam ziddir. Azərbaycan Ordusu onları zərərsizləşdirdi və onlar həbs olundular. İndi onlara hərbi əsir deyirlər. Amma gedin baxın beynəlxalq konvensiyalara, hərbi əsir kim ola bilər. Bunlar hərbi əsir deyil. Müharibə bitdi, noyabrın 10-da Bəyanat imzalandı. Ondan sonra göndərilən hər hansı bir hərbçi təxribat qrupunun üzvü kimi təsbit edilməlidir. Yəni, bu məsələ öz həllini tapmadı. Bu, çox önəmli məsələdir və biz israr edirik ki, bu, öz həllini tapsın, tam həllini tapsın. Ola bilər ki, qismən həllini tapıbdır.

Digər məsələ dəhlizlərin açılmasıdır. Noyabrın 9-dan 10-na keçən gecə imzalanmış Bəyanatda göstərilir ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantı olmalıdır. Bu, bağlantı təmin edildimi? Xeyr. Amma bu bağlantını təmin etmək üçün o qədər də böyük zamana ehtiyac yoxdur. Orada quru yollarla məsafə cəmi 40 kilometrdir. Biz müharibədən sonra keçən bir il ərzində min kilometrdən çox yol çəkdik – həm torpaq yol, həm asfalt yol. İndi orada 40 kilometr yolun açılması böyük problem deyil. Ancaq buna baxmayaraq, – hətta Ermənistan buna razılıq da verib, – aparılan müzakirələr nəticəsiz qalıb. Yəni, Ermənistan 10 noyabr Bəyanatını, onun şərtlərini kobudcasına pozur. Biz hələlik səbirli, təmkinli davranırıq. Amma bizim səbrimizin də həddi var və İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir. Ona görə Ermənistan rəhbərliyinə şans veririk ki, noyabrın 10-da imzalanmış Bəyanatın bütün müddəalarını yerinə yetirsin və özünü məsuliyyətlə aparsın.

*– Bu xüsusda bunu soruşmaq istəyirəm, cənab Prezident. Bu təxribat qruplarının rahat hərəkət etməsi və Laçın dəhlizinə nəzarət olunması. Həmin bölgələrdə xidmət aparan rus müvəqqəti hərbçiləri var, əsgərləri var. Beş il ərzində orada xidmət etməli olan rus silahlı qüvvələri var. Bu məsələdəki şikayətlərinizi Moskvaya bildirdikdə necə bir cavab alırsınız? Sizə verilən cavabların bölgədə təsiri olurmu, yəni oradakı birliklərin davranışları dəyişirmi?*

– Əlbəttə, biz bütün bu hallarla bağlı Rusiyaya öz haqlı iradlarımızı bildiririk. Ancaq təxribat qrupunun

oraya daxil olması o vaxt olub ki, Rusiya sülhməramlı qüvvələri hələ tam yerləşməmişdi. Çünki noyabrın 10-da müharibə başa çatdı, ondan sonra bir müddət lazım idi ki, Rusiya sülhməramlı qüvvələr - iki minə yaxın əsgər oraya yerləşsin və orada boşluqlar çox idi. Yəni, burada biz ədalətli olmalıyıq. Onlar o yeri tam mühafizə edə bilməmişdilər və ermənilər də bundan istifadə edib bizim azad edilmiş ərazilərə daxil oldular. Ancaq ümumilikdə, Rusiya sülhməramlı qüvvələrinin fəaliyyəti müsbət qiymətləndirilə bilər. Əlbəttə ki, bizim narazılığımız da var, iradlarımız da var – ilk növbədə, xarici vətəndaşların ərazimizə qanunsuz olaraq gəlməsi ilə bağlı. Biz dəfələrlə bu məsələni qaldırmışıq. Çünki Qarabağ bizim ərazimizdir və bizim icazəmiz olmadan o bölgələrə heç bir xarici vətəndaş, yaxud da ki, avtomobil daxil ola bilməz, bizdən icazə alınmalıdır. Ancaq deyə bilərəm ki, bu, hələ tam yüz faiz həll olunmayıb. Halbuki onu da deməliyəm ki, xarici vətəndaşların Qarabağa qanunsuz gəlməsi halları çox az saydadır. Onu da bildirməliyəm ki, bizim siyasətimiz və təkidimiz nəticəsində artıq bu prosesə də son qoyulur. Ancaq biz, əlbəttə, istərdik ki, suverenliyimizə, ərazi bütövlüyümüzə tam miqyasda, tam həcmdə sayğı göstərilsin. Zatən, Rusiyanın rəsmi nümayəndələri, yüksəkvəzifəli nümayəndələr deyirlər ki, Qarabağ Azərbaycan torpağıdır və belə olan halda, yerlərdə, orada xidmət göstərən hərbçilər də bu bəyanatlara uyğun şəkildə öz fəaliyyətini aparmalıdırlar.

*– Ötən günlərdə Ermənistan müdafiə naziri ilə Rusiya müdafiə nazirinin görüşü olmuşdu. O görüşdən sonra Ermənistanın silahlandırılması prosesi yenidən başladı deyə bir açıqlama verildi. Yəni, bu, bölgəyə nə gətirə bilər? Bu açıqlama barədə Siz nə düşünürsünüz? Əslində, yox olan bir Ermənistan ordusu var idi, 44 gündə Azərbaycan Ordusu onu darmadağın etdi. İndi yenidən rus silahları ilə ayağa qalxmağa çalışacaq. Bu məsələ barədə fikirlərinizi bilmək istərdim, cənab Prezident.*

– Bu məsələdən xəbər tutanda biz dərhal Rusiya tərəfinə sorğu göndərdik və maraqlandıq ki, əcəba bu, nə məsələdir. Biz eyni fikirləri də bölüşürük. Ancaq bizə məlumat gəldi ki, Ermənistan mediasında çıxan bu açıqlama həqiqəti əks etdirmir. Yəni, Rusiya müdafiə naziri belə sözlər deməmişdir. Bu, Ermənistan təbliğatının növbəti çirkin əməlidir, belə söz deyilməmişdir. Bizə rəsmi qaydada bildirildi ki, belə planlar yoxdur. Ermənistan ordusunun yenə də pulsuz silahlandırılması ilə bağlı Rusiya tərəfindən yetərincə dəqiq cavab aldıq və biz bu məsələni artıq gündəlikdən çıxartdıq. Bu, onu göstərir ki, Ermənistan öz çirkin əməllərindən əl çəkmir. Bax ortalığa atılan bu yalan, birincisi, çox böyük yanlışlıqdır. Çünki əgər sən Rusiya müdafiə nazirinin dediyi sözləri yayırsansa, bu, ən azı məsuliyyətsizlikdir və bu, təxribatdır. İkincisi, – bunu biz işğal dövründə və işğaldan sonra dəfələrlə görmüşük, – Ermənistan və Rusiyada fəaliyyət göstərən erməni lobbisi hər gün, müntəzəm olaraq çalışır ki, Rusiya–Azərbaycan münasibətlərində bir çat yaransın. Onların gündəlik peşəsi Azərbaycanı ləkələmək, Rusiya mediasında Azərbaycan haqqında mənfi imic yaratmaq, Rusiya-Azərbaycan münasibətlərinə kölgə salmaqdır. Hesab edirlər ki, belə olan halda, revanşist qüvvələr nə vaxtsa yenə də baş qaldırıb bizə qarşı yeni savaşa çıxa bilərlər. Amma onlar yanılırlar. Birincisi, Rusiya–Azərbaycan münasibətləri kifayət qədər yüksəksəviyyəli münasibətlərdir. Biz bütün məsələləri açıq şəkildə müzakirə edirik – prezidentlər səviyyəsində, müdafiə və xarici işlər nazirləri səviyyəsində. Hansısa tərəfi narahat edən istənilən məsələ ilə bağlı biz dərhal təmasda oluruq və məsələləri həll edirik. Deyə bilərəm ki, bu gün Rusiya–Azərbaycan münasibətlərində hansısa təcili məsələni həll etməklə bağlı bir mövzu da yoxdur. Çünki bu münasibətlər kifayət qədər müsbətdir. Ermənistanın bu təbliğat cəhdləri onlara uğur gətirməyəcək. Ermənistanın yenidən silahlanması ilə bağlı bizim narahatlığımız Rusiya tərəfindən anlayışla qəbul olunur.

– Zaman-zaman Ermənistan silahlı qüvvələri və siyasətçilər tərəfindən müxtəlif fikirlər, bəyanatlar səsləndirilir. Müdafiə Nazirliyi belə açıqlamalar verərkən, baş nazir Paşinyan Türkiyə ilə görüşmək istədiyinə dair ifadələr səsləndirir. Belə cümlələri var. Ötən həftələrdə bunu bir neçə dəfə təkrarladı. Paşinyanın bu sözlərini Siz necə dəyərləndirirsiniz? Üstəlik, bu düşüncə Türkiyə və Azərbaycan üçün yetərlidirmi? Yəni, Ermənistanın görüşlərə başlaya bilməsi üçün etməli olduğu, yerinə yetirməli olduğu öhdəlikləri varmı?

– Bilirsiniz, müharibədən öncə və müharibə zamanı Ermənistan rəhbərləri tərəfindən o qədər təzadlı, o qədər yanlış və yalan bəyanatlar olmuşdur ki, onların sayı-hesabı yoxdur. İndi belə misalları saatlarla gətirmək olar. Biz şəhərləri, kəndləri azad edərkən onlar bildirirdilər ki, guya bizim şəhərlərimizi yenidən işğal edirlər. Artıq Azərbaycanın azad edilmiş şəhərlərində bayraqlar qaldırılarkən onlar bunu inkar edirdilər. Yəni, "ağa qara, qaraya ağ demək" onların xislətidir. Ona görə onlar hər hansı bir açıqlama verəndə, sözün düzü, biz bunu ciddiyə almırıq. Bunu analiz etmək, dəqiqləşdirmək lazımdır. Çünki bu açıqlamalar bir yalanın, gerçəkləşməyən

arzuların, xülyaların və təxribatların sintezidir. Bugünkü Ermənistan, bax, budur. Biz deyəndə ki, bu, uğursuz dövlətdir, – yəni, bunun beynəlxalq adı da var – "Failed state", – bunu nəzərdə tuturuq. Hər bir dövlətin dövlətçilik rəmzlərindən biri də məsuliyyətli davranışdır. Biz isə bunu görmürük.

O ki qaldı, Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasına, əlbəttə, biz istəyirik ki, bütün bölgədə sülh olsun. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın təklif etdiyi 3+3 platforması hesab edirəm ki, bunun ən gözəl yolu ola bilər. Ancaq Ermənistan hələ ki, buna razılıq verməyib. İndi bu, Türkiyə Prezidenti tərəfindən səslənir, Ermənistana şans verilir. Azərbaycan bunu dəstəklədi, Rusiya dəstəklədi, İran dəstəklədi, ancaq Ermənistan bunun əleyhinə çıxır. Bunun əleyhinə çıxan Ermənistan indi bəyan edir ki, Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyir. Əgər normallaşdırmaq istəyirsənsə, sən, ilk növbədə, bu təklifə müsbət cavab ver. Əks təqdirdə, burada yenə təzad yaranır, yəni, anlaşılmazlıq yaranır. Əgər nə vaxtsa Ermənistan tərəfindən səslənən rəsmi açıqlamalar gerçək siyasətlə uzlaşsa, o zaman, əlbəttə ki, təhlil etmək daha asan olacaq. Bir də siz də yaxşı bilirsiniz ki, Ermənistan konstitusiyasında Türkiyəyə qarşı torpaq iddiası var, ondan əl çəkməlidir. Öz konstitusiyasını yenidən işləyib qəbul etməlidir. Ermənistan kimi gücsüz və bu gün tamamilə darmadağın edilmiş ölkə Türkiyə kimi nəhəng ölkəyə qarşı necə torpaq iddiasında ola bilər? Bu, psixi xəstəliyə bənzəyən bir şeydir. Ona görə Türkiyəyə və Azərbaycana qarşı iddialardan əl çəkməlidirlər. Azərbaycanla olan münasibətləri normallaşdırmalıdırlar və mən əminəm ki, Türkiyə tərəfi hər zaman bölgədə sülhün və genişmiqyaslı əməkdaşlığın tərəfdarı olub. Bu gün də belədir və Türkiyədən çox müsbət siqnallar gəlir.

Amma Ermənistanda bunu gərək çox düzgün dəyərləndirsinlər. Təəssüf ki, İkinci Qarabağ müharibəsindən əvvəlki iki il ərzində Azərbaycan tərəfindən verilən müsbət siqnallar orada yanlış anlaşıldı – bir zəiflik kimi, bir gücsüzlük kimi. Biz, sadəcə olaraq, qan tökmək istəmirdik. Biz gücümüzü bilirdik və bilirdik ki, biz bu məsələni güc yolu ilə həll edə bilərik. Ermənistan isə buna inanmırdı. İndi də hələ gec deyil. Yeni yaranmış reallığı düzgün dərk etsin, bu reallığa görə addımlar atsın, xəritəyə baxıb öz yerini orada tapsın, əgər tapa bilərsə, bir nöqtədir xəritədə və buna uyğun addımlar atsın. Belə olan halda, əlbəttə ki, bölgədə genişmiqyaslı əməkdaşlıq mümkündür.

*– Burada insanın ağlına belə bir şey gəlir. Yəni, bölgəsindəki ölkələrin tələblərinə, əlaqələrinə önəm verməyən bir Ermənistanın arxasında necə bir güc ola bilər? Ya da nəyi planlaşdırırlar ki, belə qərarları həyata keçirməyə çalışırlar, cənab Prezident?*

– Bunu mən deyə bilmərəm. Bunu yəqin ki, bu məsələ ilə məşğul olan politoloqlar, təhlilçilər deyə bilər. Amma öz təcrübəmə əsaslanaraq deyə bilərəm ki, onların bir çox addımları irrasional addımlardır, yəni, reallıqdan uzaq, hansısa mifologiyaya, xülyalara və gerçəkləşməmiş arzulara əsaslanmış bir yanaşmadır. Onu da siyasi aləmdə düzgün təhlil etmək çox çətindir. Bu, yəqin ki, tibb aləmində təhlil olunarsa, daha düzgün olar.

*– Aydındır. Bir az əvvəl regional əməkdaşlıqdan bəhs etdiniz. Prezident Ərdoğanla Sizin davamlı ifadə etdiyiniz altılı əməkdaşlıq platformasının yaradılmasından bəhs etdiniz. Bu platformada İranın da adı keçir. Ancaq ötən günlərdə İrandan gələn yük avtomobillərinin Xankəndiyə getməsinə dair görüntülər ortaya çıxdı. Siz də bu mövzuda etirazınızı bildirdiniz. Bundan dərhal sonra İran sərhədində İran əsgərlərinin təlim görüntüləri paylaşıldı. Bu məsələ ilə bağlı bir dəyərləndirmənizi öyrənmək istərdim. Bu, ani bir şey idi, yoxsa planlı, müəyyən bir mesaj verən hərəkətlər idi?*

– Bilirsiniz, İran tırlarının qanunsuz olaraq Qarabağ bölgəsinə getməsi birinci dəfə baş vermir. Bu, işğal dövründə də dəfələrlə olan hadisələrdir. Bu tırlar müntəzəm olaraq oraya gedirdi. Bizim məlumatımız var idi. Ancaq dəqiq məlumat, yəni, indiki qədər dəqiq məlumat, əlbəttə ki, yox idi. Bunu nəzərə alaraq, biz müxtəlif kanallarla İran tərəfinə narazılığımızı ifadə edirdik. Ancaq bu proses davam edirdi.

Müharibə başa çatandan sonra artıq Laçın dəhlizi gözümüzün önündədir və bizim hərbi mövqelərimizdən Xankəndiyə gedən yola məsafə bəlkə də 5-6 metrdir. Biz Laçın dəhlizi boyunca və o cümlədən Şuşa ətrafında və digər yerlərdə kifayət qədər texniki imkanlara malikik. Kameralar var, peykdən istifadə edirik, dronlardan istifadə edirik. Biz yenə gördük ki, bu tırlar müharibədən sonra da oraya getməyə davam edir. Belə olan halda, mən bizim Prezident Administrasiyasının əməkdaşlarına göstəriş verdim ki, İranın Azərbaycandakı səfiri ilə danışsınlar. Biz bunu rəsmiyyətə salmaq istəmirik, dostcasına danışsınlar və söyləsinlər ki, buna son qoyulmalıdır. Bu, bizə qarşı hörmətsizlikdir. Azərbaycanın ərazi bütövlüyünə qarşı hörmətsizlikdir, buna son qoyulmalıdır. Bu söhbət səhv etmirəmsə, iyul ayında olmuşdur. Ondan sonra təbii ki, biz bunu izləməyə başladıq və hər ayın başında bizdə məlumat yığılır ki, nə qədər tır girdi, neçə tır çıxdı, nə gətirdi, nə apardı.

Onların nömrələrinə qədər bizim bütün bilgilərimiz var və onlar mətbuatda dərc olunub. Amma nə etdilər ondan sonra? İran tırlarının üzərinə erməni nömrələrini yapışdırmağa çalışdılar. Belə bir saxtakarlığa yol verdilər və bizi aldatmağa çalışdılar. Olduqca səriştəsiz bir addım atıldı – o tırın üstündə fars dilində yazılan sistern, altda da erməni nömrələri. Onu da sizə bildirməliyəm ki, eyni nömrələri bir neçə avtomobilin üstünə də yapışdırdılar. Yəni, o qədər səliqəsiz görülən bu iş nəyi göstərir? Onu göstərir ki, bu işi davam etdirmək, sadəcə olaraq, bunu pərdələmək istədilər. Təbii ki, belə olan halda, bir ay keçəndən sonra biz artıq rəsmi qaydada diplomatik nota verdik. İranın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət edildi, ona iradlar bildirildi və xahiş olundu ki, buna son qoyulsun. Bu, avqust ayının ortalarında olan məsələdir. Biz ümid edirdik ki, buna son qoyulacaq. Ancaq buna baxmayaraq, avqustun 11-dən sentyabrın 11-nə qədər yenə də İrandan gələn 60-a yaxın tır qanunsuz olaraq Qarabağa hərəkət etdi. Bunun qabağını almaq üçün biz artıq praktiki addımlara keçdik. Yəni, bizim davranışımız, addımlarımız məsuliyyətlidir, dostluq əlaqələrinə əsaslanandır. Birinci dəfə şifahi xəbərdarlıq, ikinci dəfə rəsmi nota, üçüncü dəfə postlar – gömrük, sərhəd, polis. Beləliklə, biz Azərbaycan ərazisindən keçən yola artıq nəzarət etməyə başladıq və ondan sonra Qarabağa gedən tırların sayı sıfra endi. İndi baxın, buna gətirib çıxarmaq lazım idimi? İndi orada - rus sülhməramlı qüvvələrinin nəzarətində olan Qarabağ bölgəsində cəmi 25 min adam yaşayır. Yəni, bu bazar o qədər önəmlidir? O ticarət o qədər önəmlidir ki, dost, qardaş saydığın ölkəyə qarşı belə nümayişkaranə hörmətsizlik edirsən? Əlbəttə, biz beynəlxalq konvensiyalarda, beynəlxalq hüquqda təsbit edilmiş bütün imkanlardan istifadə etdik. Bəziləri deyir ki, indi İran tırlarından rüsum götürülür. Biz xarici ölkəyə gedəndə rüsum ödəyirik? Ödəyirik. Onlar Azərbaycan ərazisindən istifadə edirlər, rüsum ödəməlidirlər?

*– Ödəməlidirlər.*

– Ödəməlidirlər. Bu, məsələnin bir tərəfi. O ki qaldı, bizim sərhədimizin yaxınlığında keçirilən hərbi təlimlərə, bu, çox təəccüb doğuran bir məsələdir. Çünki 30 illik müstəqillik dönəmində belə hadisələr olmamışdır. İlk növbədə, deməliyəm ki, hər bir ölkə öz ərazisində istənilən hərbi təlimi keçirə bilər. Bu, onun suveren hüququdur, söz ola bilməz. Ancaq, eyni zamanda, bunu bir zaman kəsiyində analiz edərkən görürük ki, bu, heç vaxt olmamışdır.

Nə üçün məhz indi? Nə üçün məhz bizim sərhədimizdə? Bu sualları mən yox, Azərbaycan ictimaiyyəti verir. Bu sualları dünya azərbaycanlıları verir. Bir sual da verilir ki, nə üçün işğal dövründə o bölgədə təlim keçirilmirdi? Ermənilərin Cəbrayılda, Zəngilanda, Füzulidə oturduğu dövrdə nə üçün təlim keçirilmirdi? Nə üçün bu, biz torpaqları azad edəndən sonra, 30 illik əsarətə, işğala son qoyandan sonra keçirilir? Bu suallar legitim suallardır.

Əlbəttə, biz istəyirik ki, bölgədə uzunmüddətli əməkdaşlığa zərbə vuran heç bir hal olmasın. Bir daha demək istəyirəm ki, Azərbaycan burada da özünü çox məsuliyyətlə aparır, təmkinlə aparır. Ümid edirik, bizim legitim addımlarımıza emosional reaksiya, yəqin ki, müvəqqəti xarakter daşıyır.

*– Çox önəmli sualları gündəmə gətirdiniz. Bizim də buna İran tərəfindən cavabların verilməsini gözləməkdən başqa çarəmiz qalmayacaq. Nəqliyyat problemlərindən danışarkən, bu məsələni bir az əvvəlki suala bağlamaq istəyirəm. Məsələn, Zəngəzur dəhlizi Ermənistanın normallaşma əlaqələrinə başlaması üçün bir şərtdirmi?*

– Əlbəttə, bir şərtdir. Çünki o, noyabrın 10-da imzalanmış Bəyanatda təsbit edilir və Ermənistan öz üzərinə bu öhdəliyi götürüb. Birincisi, əgər o, bu öhdəliyi icra etməyəcəksə, onda hansı normallaşmadan söhbət gedir? İkincisi, Ermənistanda, – yenə də qayıdıram əvvəlki fikirlərimə, – postmüharibə dövrünü çox düzgün təhlil etməlidirlər. Artıq vəziyyət tam fərqlidir. İndiki durum güc nisbətini açıq-aydın göstərir. İşğal dövründə də bilirdik ki, bizim imkanımız nədir, Ermənistan ordusunun imkanı nədir. Biz bilirdik ki, balansı öz xeyrimizə çoxdan dəyişdirmişik. İndi bunu bütün dünya görür. Ona görə indiki şəraitdə mən hesab edirəm ki, Ermənistan Azərbaycanla münasibətləri normallaşdırmaq üçün daha çox səy göstərməlidir. Çünki onlar üçün bu, önəmlidir. Biz bunsuz da yaşaya bilərik, necə ki, yaşamışıq, indi də yaşayırıq. İndi daha yaxşı yaşayacağıq. Çünki o böyük əraziyə yenə də sahib olduq, öz doğma torpağımıza qayıtdıq. Onların durumu daha da pisləşdi. Ona görə daim münaqişədə olmaq, qonşularla əsassız, saxta tarix əsasında gələcək əlaqələri planlaşdırmaq çox yanlış bir addımdır. Ermənistan maraqlı olmalıdır ki, ilk növbədə, Türkiyə ilə əlaqələri normallaşdırsın, eyni zamanda, Azərbaycanla münasibətləri normallaşdırsın. Türkiyə və Azərbaycanla öz sərhədlərini müəyyən etsin, delimitasiya, demarkasiya aparılsın. Onlar buna çox maraqlıdır, nəinki biz. Çünki bu olmasa, deməli, sərhəd yoxdur. Bilirsiniz indi Ermənistanda və bəzi xarici siyasətçilər bizi ittiham edirlər ki, biz Ermənistanı işğal etmişik. Birincisi, bu, yalandır. İkincisi, bəs Ermənistan bizim əraziləri işğal

edəndə niyə səsinizi qaldırmırdınız? Niyə gözünüzü yumurdunuz? Otuzillik işğal dövründə bizim bütün tarixi, dini abidələrimiz yerlə bir edildi. Bütün binalar söküldü. Bunu görmürdünüz? Minsk qrupunun həmsədrləri dəfələrlə orada olublar, Ağdamda da olublar, Kəlbəcərdə də olublar, Füzulidə də, Cəbrayılda da, görmürdülərmi?

Otuzillik işğal dövründə, cəmi iki dəfə faktaraşdırıcı missiya göndərildi və məruzə hazırlandı. Ermənilərin bütün cinayətləri məruzədə göstərildi. Sonuncu belə bir missiya təqribən 10 il əvvəl həyata keçirilmişdi. Biz dəfələrlə Minsk qrupuna, onun həmsədrlərinə müraciət etdik ki, yenə də missiya göndərin. Çünki orada qanunsuz məskunlaşma gedir, Suriyadan, Livandan, başqa yerlərdən ermənilər gətirilir, məskunlaşdırılır. Bu, hərbi cinayətdir. Bütün beynəlxalq konvensiyalara görə bu, hərbi cinayət sayılır. Etmədilər onu. Ona görə bu işğalı 30 il ərzində görməyən, indi olmayan işğalı görən, əlbəttə ki, ya kordur, ya nankordur, ya da, sadəcə olaraq, riyakardır. Bu, daha düzgün ifadə ola bilər.

Biz isə öz dədə-baba torpağımıza qayıtmışıq. Biz 30 il orada olmamışıq. Əgər Ermənistan tərəfi deyirsə ki, sərhəd oradan keçir, nə üçün orada heç kim yox idi? Sərhəddirsə, gəl sərhədi qoru. Biz gəldik, o dağlara yerləşdik. Bizim xəritələrə görə biz öz ərazimizdə yerləşmişik. Əgər Ermənistan tərəfi fərqli fikirdədirsə, gəlsin, otursun, bizimlə bərabər bunu müzakirə edək, bir il çəkər, beş il çəkər, otuz il çəkər, kim bilir. Yenə də qayıdıram bu söhbətə. Sərhədlər məsələsində bu gün Ermənistan reallığı dərk etməlidir. O, tezliklə bizim şərtlərimizə əməl edib, onları qəbul edib, bu məsələni həll etməlidir ki, artıq hər kəs bilsin, onun sərhədi harada yerləşir.

*– Problemlər də ortadan qalxsın. Kiçik toqquşmalar da olmasın.*

– Təbii. Əlbəttə.

*– Bəs, bu problemlərin bir daha müzakirə edilməsi, qərarın qəbul olunması üçün Sizin, cənab Putinin, Paşinyanın yaxın zamanda görüşməsi gündəmdədirmi?*

– Biz üçtərəfli görüşü bir dəfə keçirdik. Bu ilin əvvəlində, yanvar ayında Moskvada üçtərəfli görüş keçirildi. O görüşdə daha çox postmüharibə dövrü ilə bağlı məsələlər müzakirə olundu. Çünki müharibədən cəmi 2 ay keçmişdi. Ondan sonra prezidentlər səviyyəsində üçtərəfli görüş olmamışdır. Ancaq bir işçi qrup yaradıldı, Baş nazir müavinləri səviyyəsində. O qrup da, ilk növbədə, Zəngəzur dəhlizinin açılması ilə bağlı işlər görürdü. Ancaq iyunun əvvəlindən Ermənistan bu qrupda öz iştirakını bitmiş hesab etdi. Dedi, bu, seçkilərlə əlaqədardır. Seçkilər orada iyun ayında keçirildi. Ondan sonra avqustun ortasında ilk dəfə yenə də bu qrup yığışdı və yəqin ki, gələn ay yenə də yığışacaq.

Hesab edirəm ki, bu, önəmli formatdır. Çünki hələ ki, nəticə olmasa da, hər halda bir təmas var. İndiki şəraitdə təmas lazım olan vasitədir ki, bu müzakirələr əsnasında bir çox məsələlər həll oluna bilər. Biz Azərbaycanda indi Zəngəzur dəhlizinin yaradılması ilə bağlı genişmiqyaslı işlərə başlamışıq. Zəngilana həm dəmir yolu çəkilir, həm də avtomobil yolu. İndi hava limanları tikilir. Ona görə hesab edirəm ki, biz öz ərazimizdə bütün işləri iki il ərzində görəcəyik. Çünki burada işin həcmi çox böyükdür. Ermənistan ərazisində dəmir yolunun və avtomobil yolunun uzunluğu 40 kilometrdir. Bu, bir ilə, il yarıma çəkilə bilər. Yəni, biz bunu gözləyirik.

*– Layihələrdən bəhs etdiniz. Bir il ərzində, əslində, bir il başa çatmadan işğaldan azad edilən ərazilərdə çox böyük layihələr həyata keçirdiniz. Məsələn, Füzuli hava limanı bir il olmadan artıq təyyarələrin enib-qalxdığı bir layihə halına gəldi. Avtomobil yolları da həmçinin. Siz avtomobil yollarının Ermənistan sərhədinə qədər təməlini qoydunuz, o iş davam edir. Bu sahədə çox böyük layihələr reallaşdırırsınız. Həm bu layihələr, həm də o bölgədə yaşayan erməni vətəndaşlar var, onların, necə deyərlər, gələcəyi ilə bağlı nə deyə bilərsiniz? Onlar bu layihələrdən necə faydalanacaqlar? Onlarla bağlı fikirlərinizi almaq istəyirəm, cənab Prezident.*

– Siz tam haqlısınız. Biz müharibə bitər-bitməz vaxt itirmədən dərhal hərəkətə keçdik və bu, dövlətimizin gücünü göstərdi. Çünki bu işləri görmək üçün təkcə pul kifayət etməz. Çünki resurs olmalıdır, kadrlar olmalıdır, heyətlər olmalıdır, texniki imkanlar olmalıdır, səriştə olmalıdır. Biz bütün gücləri səfərbər etdik. Bu və digər məsələləri, məsələn, elektriklə bağlı olan məsələləri bu ilin sonuna qədər bitirəcəyik. Yəni, bütün bölgə elektriklə tam təmin ediləcək. Bildiyiniz kimi, yolların inşası da davam edir və sair.

Təbii, biz bunu, ilk növbədə, öz vətəndaşlarımız üçün edirik ki, bu bölgəni yenidən quraq və keçmiş məcburi köçkünlər tezliklə oraya qayıda bilsinlər. Artıq birinci belə pilot kənd layihəsi yəqin ki, bu ilin sonuna, ya gələn ilin əvvəlinə Zəngilan rayonunda hazır olacaqdır. Eyni zamanda, Ermənistan əhalisi də, Qarabağda yaşayan ermənilər də bunu görürlər. Çünki bizim televiziyalara baxırlar, bizim radioya qulaq asırlar və görürlər ki, burada nə kimi işlər görülür. Təsadüfi deyil ki, erməni xalqının nümayəndələri artıq bir neçə dəfə bizim Şuşadakı hərbi mövqelərimizə yaxınlaşıb rica

etmişdilər ki, onları da bu işlərə cəlb edək. Çünki onlar orada işsiz–gücsüz qalıblar, işsizlik, səfalət və ümidsiz bir vəziyyətdədirlər. Biz buna müsbət baxırıq, ancaq gərək bunun hüquqi tərəfi tam yerinə otursun. Çünki mən demişəm, bir daha demək istəyirəm ki, biz orada yaşayan erməniləri öz vətəndaşlarımız sayırıq. Onlar Azərbaycan torpağında yaşayırlar, Qarabağ hər zaman Azərbaycan olub - istər sovet dönəmində, istər ondan əvvəlki dönəmdə, işğal dönəmində də Azərbaycan olub. Onları biz Azərbaycan vətəndaşları hesab edirik, sadəcə olaraq, onlar bunu qəbul etməlidirlər, onlar öz yaxalarını erməni təbliğatından qurtarmalıdırlar, onlar öz gələcəyini, öz uşaqlarının gələcəyini təmin etməlidirlər. Biz hazır olarıq ki, onları işlərə cəlb edək. Niyə də etməyək?

Biz strateji nöqteyi–nəzərdən gələcəyə barış prizmasından yanaşırıq. Çünki mən istəyirəm ki, bir daha müharibə olmasın. Hər halda biz müharibə başlamayacağıq, əgər Ermənistan tərəfdə revanşist meyillər baş qaldırmasa. Əgər görsək ki, Ermənistanda bizə qarşı hər hansı bir təhdid yaranır, biz o təhdidi məhv etməliyik. Bu, bizim legitim hüququmuzdur. Ancaq bu təhdid olmasa, bizim başqa fikrimiz yoxdur. Qarabağda 25 min erməni yaşayır, onlar da bu işlərdə iştirak edə bilərlər - həm inşaat işlərində, həm də bərpa işlərində. Eyni zamanda, gələcəkdə biz onların yaşadıqları yerlərdə, kəndlərdə onlar üçün şərait yaradarıq. İndi baxın, bizim Qarabağ və Şərqi Zəngəzurla bağlı planlarımız göz önündədir. Ağdam şəhərinin baş planı təsdiq edildi. Yaxın gələcəkdə Cəbrayıl və Füzuli şəhərlərinin, bütövlükdə rayonların baş planları təsdiq ediləcək. Bu, bizim gücümüzü göstərir və biz ermənilərin indi Qarabağda yaşadıqları kəndlərdə də bunu edə bilərik.

Mən Zəfərdən sonra bölgələrə onlarla səfər etdim və orada bəzi kəndlərdə, ermənilərin yaşadıqları kəndlərdə gördüyüm mənzərə məni dəhşətə gətirdi. Yəni, insana yaraşmayan bir vəziyyət. Bəzi kəndlərin evləri indi analiz edilir, evlərin 95 faizi yararsızdır, yəni, orada heç kimsə yaşaya bilməz, onlar sökülməlidir. Yəni, 30 il belə rəzil durumda yaşayan bir toplum təbii ki, işıq üzü görmək istəyir və işıq yalnız Azərbaycandan gələcək. Anlamaq lazımdır ki, onlar üçün də bu, o qədər də asan məsələ deyil. Burada psixoloji durum da nəzərə alınmalıdır. Ancaq biz hər halda xoş niyyət göstəririk və ümid edirəm, onlar anlayacaq ki, xoşbəxt gələcəkləri, rifahla dolu gələcək ancaq Azərbaycan dövləti ilə bağlıdır.

*– Cənab Prezident, Türkiyə ilə Azərbaycan əlaqələrinə toxunmaq istəyirəm. Prezident Ərdoğan BMT-də Azərbaycanın haqlı mübarizəsini başa çatdırdığını ifadə etdi, hər platformada buna bənzər açıqlamalar verir. Prezident Ərdoğanın olmadığı yerlərdə Siz Türkiyənin haqlarını müdafiə edirsiniz. Yəni, əslində, tarixdə görünməyən bir dövr yaşayırıq. Soruşmaq istəyirəm ki, Türkiyə ilə Azərbaycanın münasibətlərinin gələcəyi ilə bağlı nə düşünürsünüz?*

– Deyə bilərəm ki, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan əvvəlki illərdə də yüksək platformalardan Azərbaycanın haqq işi haqqında çox geniş məlumatlar verirdi. Hər zaman bu məsələ onun xarici siyasət kursunda bir nömrəli məsələ olub. Bu dəfə artıq savaşdan, Zəfərdən sonra orada bu sözləri deməsi, əlbəttə, bizi çox sevindirir və bir daha onu göstərir ki, Rəcəb Tayyib Ərdoğan hər zaman Azərbaycanın yanındadır. Necə ki, savaşın ilk saatlarında o bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizə əlavə güc verdi və mənəvi güc verdi.

Savaşa qədər də, – siz burada uzun illər yaşayan bir insan kimi bilirsiniz, – Türkiyə Azərbaycan üçün nə qədər doğma, nə qədər əziz ölkədir və Azərbaycan da Türkiyə üçün. Bu son illər ərzində biz çox böyük yol keçdik və demək olar ki, münasibətlərimizi ən yüksək zirvəyə qədər qaldırdıq. Mən, – yəqin siz də bunu xatırlayırsınız, – nə qədər demişdim ki, dünya miqyasında buna oxşar əməkdaşlıq, dostluq, qardaşlıq yoxdur. Onu da demişdim, bir çox ölkələr var ki, onların da tarixi birdir, etnik kökləri birdir, dili birdir. Ancaq onların arasında, görün, nə qədər ixtilaf var, nə qədər inamsızlıq var, nə qədər problem var.

Yəni, etnik, dini, mədəni köklər hələ o demək deyil ki, bu ölkələr qardaş ölkələrdir. Belə hallar çoxdur, həm Yaxın Şərqdə, eyni zamanda, postsovet məkanında. Ona görə mən hesab edirəm ki, belə çox güclü bir tarixi, mədəni zəmin üzərində bu cür gözəl münasibətlər sarayını tikmək bizim xüsusi xidmətimizdir. Həm hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın, həm də mənim. Burada mən təvazökarlıqdan uzaq olmalıyam və bu, həqiqətdir. İkinci Qarabağ savaşı bunu bir daha göstərdi. Yəni, Türkiyə bizim yanımızda olmaqla, bütün dünyaya mesaj göndərdi ki, qarışmayın, müdaxilə etməyin. Azərbaycan haqq yolundadır və əgər qarışsanız, əgər müdaxilə etsəniz, qarşınızda Türkiyəni görəcəksiniz. Bu, əlbəttə, çox böyük bir üstünlük idi.

İkinci Qarabağ savaşından sonra bizim münasibətlərimiz daha da yüksək pilləyə qalxdı. Bilmirəm, siz bilirsiniz, yoxsa yox, Türkiyədə bunu bir çoxları bilir ki, mən savaş bitəndən sonra hörmətli Prezidenti Şuşaya dəvət etdim. O vaxt demişdim ki, O, Şuşaya gəlməyənə qədər oraya heç bir başqa ölkədən heç kim gəlməyəcək. Hətta Türkiyədən gələnlər olmuşdu, oraya getmək

istəyənlər olmuşdu. Mən onlara dedim ki, sağ olun, amma gözləyin, Qardaşım gəlsin getsin, ondan sonra yolunuz açıqdır. Şuşa Bəyannaməsinin imzalanması bizim münasibətlərimizi daha da yüksək səviyyəyə qaldırdı. Faktiki olaraq biz Şuşa Bəyannaməsinin imzalanması ilə de-fakto olan münasibətlərimizi de-yure səviyyəsinə qaldırdıq, yəni, müttəfiqlik səviyyəsinə. Onsuz da bu, hər sahədə müttəfiqlik əlaqələri idi. Ancaq biz bunu artıq rəsmiləşdirdik və bu, gələcək fəaliyyət üçün bir yol istiqamətidir. Biz bu yolla gedəcəyik. Gündən-günə möhkəmlənən münasibətlər, artan birgə layihələr və bizim həmrəyliyimiz, qardaşlığımız hesab edirəm ki, bu gün bütün qonşu ölkələr üçün bir örnəkdir.

Əgər bütün qonşular Türkiyə ilə Azərbaycan kimi münasibətlər qursaydılar, o zaman dünyada heç bir savaş, heç bir müharibə olmazdı.

*– Hörmətli cənab Prezident, çox mühüm məsələlərlə bağlı önəmli açıqlamalar verdiniz. Çox təşəkkür edirik. Son bir sual, çox qısa dəyərləndirmənizi almaq istərdim. İşğaldan azad edilən bölgələrə tez-tez gedirsiniz, görüntülər paylaşılır, biz xəbərləri alırıq. Görüntüləri çəkən və paylaşan da Sizinlə birlikdə bölgədə olan hörmətli Mehriban xanım Əliyevadır. Biz görüntüləri onun vasitəsilə, onun paylaşımları ilə alırıq. Həm Azərbaycanda, həm də Türkiyədə Sizin oradakı dialoqlarınız, hərəkətləriniz çox böyük rəğbətlə qarşılanır. Bununla bağlı nə deyə bilərsiniz?*

– Bu, bilirsiniz, elə öz-özünə yarandı, təbii yarandı. Biz bunu planlaşdırmırdıq. Biz, sadəcə olaraq, ilk dəfə Şuşaya gedəndə Bakıdan səhər çıxmışdıq, çünki o zaman yol çox uzaq idi. Biz Füzulidən Şuşaya Zəfər yolu ilə təqribən 3 saata getmişdik, özü də yollar qarlı idi, buz bağlamışdı. Ona görə səhər erkən çıxmışdıq, hələ qaranlıq idi və hava işıqlandıqca çox gözəl mənzərə yarandı. Mehriban xanım onu öz telefonu ilə çəkməyə başladı və məni də çəkdi. Mən də dedim ki, yolumuz Şuşayadır və bundan başladı. Ondan əvvəl təbii ki, Ağdam və digər rayonlar da var idi. Bu, xüsusi bir təşəbbüsdür. Çünki adətən mənim səfərlərimi rəsmi heyət işıqlandırır. Adətən orada çox rəsmi görüşlər, çıxışlar, mərasimlər və sair olur. Bu isə yeni bir yanaşma idi və bilirəm ki, bir çoxlarının xoşuna gəldi. Bizim də xoşumuza gəldi. Bilirsiniz, bu sözləri deyərkən, ilk növbədə, mənim gözlərimin önünə o bölgələrdə yaşamış insanlar gəlirdi. Mən, ilk növbədə, onlar üçün bunu deyirdim. Çünki onlar 30 il həsrət içində idilər və mən gəlmişəm oraya, mən bu evi görürəm, bu binanı görürəm, onlar görmürlər. Onlar bizim gözlərimizlə onu görməlidirlər. Hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm durdular. Budur Azərbaycan! Budur Azərbaycan xalqı! Mən sizi də duyğulandırdım.

*– Təşəkkür edirəm, cənab Prezident.*

– Sağ olun.

*– Allah o günləri bir daha heç kimə yaşatmasın.*

– Amin, sağ olun.

*– Təşəkkür edirəm.*

D Ö V L Ə T   İ D A R Ə Ç İ L İ Y İ
P U B L I C   A D M I N I S T R A T I O N

UOT 327; 930.22

**ELMAN NƏSİROV**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı,**
**Dövlət İdarəçilik Akademiyası Siyasi Araşdırmalar İnstitutunun direktoru,**
**siyasi elmlər doktoru, professor**
*e-mail: elmannasirov@yahoo.co.uk*

# İLHAM ƏLİYEV: ADINI ÖLKƏ VƏ DÜNYA HƏRB TARİXİNƏ HƏKK ETMİŞ MÜZƏFFƏR SƏRKƏRDƏ

2018-ci il 11 aprel tarixində keçirilən prezident seçkilərində cənab İlham Əliyev seçicilərin 86,03%-nin səsini qazanaraq növbəti dəfə Azərbaycan Respublikasının Prezident seçilmişdir. Azərbaycan xalqı həmişə olduğu kimi, bu dəfə də doğru və müdrik seçim etmişdir. Səsini ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiq qalaraq Azərbaycanı regionun liderinə və beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevirən dünya səviyyəli siyasətçi İlham Əliyevə vermişdir. Növbəti dəfə xalqdan etimad mandatı alan Prezident İlham Əliyevin rəhbərliyi altında son 3 ildə Azərbaycan öz inkişafının keyfiyyətcə yeni mərhələsinə daxil olmuşdur. Bu mərhələ bütün sahələri əhatə edən, genişmiqyaslı və davamlı islahatlar ilə xarakterizə olunur. Dövlətimizin başçısı tərəfindən "tərəqqi, təkamül və yeni şəraitə uyğunlaşma" kimi qiymətləndirilən dərinləşən islahatlar kursu sosial-iqtisadi, hüquq-məhkəmə, siyasi, struktur və kadr istiqamətlərini əhatə etməklə çoxşaxəli və dinamikdir. Bütün bunlar nəticə etibarilə ölkəmizin daxili siyasi uğurlarını şərtləndirir, səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyini möhkəmləndirir, siyasi sabitlik və təhlükəsizlik mühitinin dönməzliyini təmin edir. Bu xüsusda xalq-hakimiyyət birliyi istənilən dövlətdə siyasi sabitliyi və təhlükəsizlik mühitini şərtləndirən həlledici amildir. Bu birlik təsadüfən, öz-özünə formalaşmır. Onun üçün əsas şərt xalqını arxasınca aparmağı bacaran güclü və xarizmalı lider amilinin olmasıdır. Elə bir lider ki, müstəqil siyasət aparmaq iqtidarında olsun. Elə bir lider ki, xalqı və dövlətinin milli maraqlarını bütün mənafelərin fövqünə yüksəltsin. Elə bir lider ki, sözü və əməli üst-üstə düşsün. Belə liderləri tarixə bəxş edən xalqlar və dövlətlər böyük, əzəmətli və bəxtəvərdir. Öz əməlləri ilə xalqı və dövlətinin sonsuz sevgisini qazanmış liderlər isə xoşbəxtdir. Məsələyə bu kontekstdə yanaşdıqda böyük qürur və fəxarət hissi ilə deyə bilərik ki, möhtərəm Prezidentimiz İlham Əliyev xoşbəxt dövlət rəhbəridir. Xalqı ona görə cənab prezidenti sevir ki, o, son 18 il ərzində ölkəmizi uca zirvələrə yüksəltməkdədir. Xalqı ona görə prezidentini sevir ki, o, heç bir vaxt hər hansı böyük dövlət və ya beynəlxalq təşkilatın diqtəsi ilə deyil, məhz lideri olduğu çoxmillətli və çoxkonfessiyalı Azərbaycan dövlətinin milli maraqlarından irəli gələn müstəqil siyasətin müəllifidir. Həmin siyasətin təntənəsi Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, güclü ordusunda və uğurlu xarici siyasətində öz təsdiqini tapır. 2018-ci il 11 aprel prezident seçkilərindən sonra bəyan etdiyi və tətbiqinə başladığı genişmiqyaslı və hərtərəfli islahatlar kursu sayəsində Azərbaycanın siması büsbütün dəyişməkdədir. Müasir, sivil, demokratik inkişaf yolunu seçmiş Azərbaycanın səsi dünya meridianlarında daha ucadan eşidilməkdədir. Heç bir fors-major vəziyyət arxasında xalqının dayandığı Prezident İlham Əliyevin hadisə və proseslərə prinsipial və qətiyyətli yanaşma tərzinə, preventiv, profilaktik, ardıcıl

və sistemli qərar qəbuletmə məharətinə və sarsılmaz iradəsinə təsir edə bilməz. Bu həqiqət bütün dünya dövlətlərini öz əsarətinə almış COVİD-19 pandemiyası ilə qlobal mübarizə şəraitində tam çılpaqlığı ilə özünü büruzə verdi. Prezident İlham Əliyevin COVİD-19 pandemiyasına qarşı 3 istiqamətdə (əhalinin həyatı və sağlamlığının qorunması; əhalinin sosial müdafiəsinin təmin olunması; iqtisadi fəallığın inkişaf etdirilməsi) müəyyən etdiyi mübarizə strategiyası sayəsində Azərbaycan bu ümumi bəlanın doğurduğu itkiləri minimuma endirməyi bacaran dövlətlər sırasındadır. Bu həqiqət Ümumdünya Səhiyyə Təşkilatının rəhbərliyi səviyyəsində bir neçə dəfə etiraf olunmuş və Azərbaycan bu baxımdan nümunəvi dövlətlər sırasında qeyd edilmişdir. Azərbaycanın pandemiyaya qarşı mübarizə tədbirləri bir çox dövlətlər tərəfindən model olaraq seçilmiş və təkrar olunmaqdadır.

Prezident Ilham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin aprel ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, may ayında isə Qoşulmama Hərəkatına üzv dövlətlərin Təmas qrupunun videoformatda keçirilən Zirvə görüşləri məhz milli, regional və qlobal səviyyələrdə pandemiyaya qarşı səylərin birləşdirilməsi, bu sahədə təcrübə mübadiləsi məsələlərini özündə ehtiva etmişdir. Sonuncu tədbirdə dövlətimizin rəhbəri qlobal təhdid mənbəyinə-COVİD-19 pandemiyasına qarşı beynəlxalq səviyyədə səylərin birləşdirilməsi və gücləndirilməsi mənafeyinə xidmət edən unikal təşəbbüslə-BMT Baş Məclisinin xüsusi sessiyasının çağırılması təklifi ilə çıxış etdi [1]. Cənab prezidentin bu təşəbbüsü ötən ilin may ayında Nyu-Yorkda Qoşulmama Hərəkatının Koordinasiya Bürosunda müzakirə olunmuş, yekdilliklə dəstəklənmiş və Qoşulmama Hərəkatının adından BMT Baş katibinə müraciətin qəbul edilməsi qərara alınmışdır. Bunun ardınca möhtərəm Prezidentimiz İlham Əliyev mayın 13-də Qoşulmama Hərəkatının sədri olaraq BMT Baş katibinə müraciət etmişdir. Həmin müraciət əsasında BMT Baş katibi təşkilatın Nizamnaməsinin 20-ci maddəsindən çıxış edərək mayın 28-də BMT Baş Məclisinin xüsusi sessiyanın çağırılması məqsədilə üzv dövlətlərə müraciət etmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, BMT Nizamnaməsinin 20-ci maddəsinə əsasən 3 halda təşkilatın Baş Məclisinin xüsusi sessiyası çağırıla bilər. Birincisi, bunu BMT Təhlükəsizlik Şurası daimi üzvləri tələb etməlidir, ikincisi, BMT Baş Məclisinin mütləq əksəriyyət üzvləri bu tələbdə israrlı olmalıdır və nəhayət, BMT-nin üzvü olan istənilən dövlətin təşəbbüsü qurumun əksəriyyət dövlətləri tərəfindən müdafiə olunduqda haqqında bəhs olunan xüsusi sessiyanın çağırılması mümkün olur. Prosedur qaydalarına əsasən, bu müraciətin baxılma müddəti 30 gündür. Həmin müddət Azərbaycanın təşəbbüsü ilə bağlı məsələdə iyunun 27-də başa çatmışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu təşəbbüsünü BMT Baş Məclisinin 150-dan çox üzvü birmənalı olaraq dəstəkləmişdir. Həmin dövlətlər sırasında Qoşulmama Hərəkatının 120 üzvü ilə yanaşı, Avropa İttifaqının, Asiyanın, Afrikanın və Latın Amerikasının da aparıcı dövlətləri vardır. Bu unikal təşəbbüsə qarşı çıxış edən yeganə dövlət məhz işğalçı Ermənistan olmuşdur. Bununla da Ermənistan dövləti öz mahiyyətini ortaya qoymuş və dünya miqyasında özünü rüsvay etmişdir. Əslidə faşizmi və terrorizmi dövlət siyasəti səviyyəsinə qaldıran bir "psevdodövlət"in belə davranışı təəccüb doğurmur. Deməli, Ermənistan dünyanın yeganə ölkəsidir ki, COVİD-19-un yanında yer aldı. Onun müttəfiqi kimi çıxış etdi. Ermənistanın bu antibəşəri davranışına postpandemiya dövründə siyasi və hüquqi qiymət verilməsi məsələsi də olduqca vacibdir [2].

Burada bir məqamın da üzərində xüsusi olaraq dayanmağa dəyər. Prezident İlham Əliyevin beynəlxalq rezonansa səbəb olmuş təşəbbüsü bir daha təsdiqlədi ki, Azərbaycan dünya miqyasında elə də böyük dövlət olmasa da, lakin onun sözünün mənası və çəkisi böyükdür. Bu, bir həqiqətdir ki, Azərbaycan dövlətinin sözünün məna və çəkisinin dünya miqyasında böyüklüyünü şərtləndirən həlledici amil onun liderinin-Prezident İlham Əliyevin həm ölkə, həm də beynəlxalq aləmdə yüksək

nüfuza malik olması ilə bağlıdır. Dünyanın pandemiya tərəfindən hədəfə alındığı, təhdid olunduğu bir reallıqda hər bir dövlət və hər bir lider öz simasını nümayiş etdirir və bu çətin günlərdə Azərbaycan dövləti və onun lideri cənab İlham Əliyev sözün həqiqi mənasında bütün dövlətlər və onların liderləri üçün bir nümunədir. Milyonları ölümlə hədələyən və bunu icra edən qlobal pandemiya şəraitində mütləq əksəriyyət insanlar düşünürdülər ki, beynəlxalq təhlükəsizliyə xüsusi cavabdehliyi olan dövlətlər, yəni BMT TŞ-nın daimi üzvləri birlikdə, ya da əlahiddə olaraq bu ümumi bəlaya qarşı beynəlxalq səylərin birləşdirilməsi məsuliyyətini üzərilərinə götürəcək və BMT Baş Məclisini xüsusi sessiyasını çağıracaqlar.

Həqiqət isə budur ki, məlum təşəbbüslə BMT TŞ-nın heç bir daimi üzvü çıxış etmədi. Bu təşəbbüsü dünyanın müxtəlif qitələrinin heç bir aparıcı dövləti irəli sürmədi. Bu təşəbbüslə BMT TŞ-nın 2 il qeyri-daimi üzvü olmuş, 2 dəfə dünyanın ən böyük və universal təşkilatının TŞ-na sədrlik etmiş Azərbaycan Respublikası və onu rəhbəri cənab İlham Əliyev çıxış etmişdir. Əslində cənab Prezident bu unikal addımı ilə həm də BMT-nın nüfuzunun qaldırılması mənafeyinə xidmət edən bir davranış ortaya qoymuşdur.

Prezident İlham Əliyevin COVİD-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq səylərin birləşdirilməsi, bu məqsədlə dünya miqyasında birliyin, həmrəyliyin və məsuliyyətin gücləndirilməsinə hədəflənmiş təşəbbüsünün beynəlxalq ictimaiyyət tərəfindən birmənalı olaraq dəstəklənməsi bir daha göstərdi ki, Azərbaycan dövlətinin və onun lideri cənab İlham Əliyevin nüfuzu və reytinqi olduqca yüksəkdir. Azərbaycan prezidenti qlobal baxışlı lider kimi qəbul olunur.

«Əsrin müharibəsi» hesab edilən COVİD-19 pandemiyasına qarşı mübarizə məsələlərində dövlətlərin, xalqların və liderlərin hansı mövqedə dayandıqlarının geniş müzakirə məsələsinə çevriləcəyi və müvafiq qiymətləndirmələrin aparılacağı labüd görünür. Artıq bu istiqamətdə ilkin addımlar atılmaqdadır. İstisnasız söyləmək olar ki, həmin müzakirələrin nəticəsi olaraq bütün beynəlxalq ictimaiyyət etiraf edəcəkdir ki, pandemiyadan qlobal qurtuluşun əldə edilməsi naminə beynəlxalq səyləri bir yumruq kimi birləşdirən dövlət Azərbaycan Respublikası, lider isə Prezident İlham Əliyevdir. Həmin səylər sayəsində Pandemiyaya qarşı dünya dövlətlərini iqtisadi, sosial, humanitar və xüsusilə də tibbi sahələrdə əməkdaşlığının keyfiyyətcə yeni mərhələyə keçməsi və bunun nəticəsi olaraq bəşəriyyətin intizarla gözlədiyi COVİD-19 əleyhinə peyvəndin əldə edilməsi strateji əhəmiyyətli məsələyə çevrilmişdir. Eyni zamanda həmin peyvəndə hər bir dünya dövlətinin əlçatanlığının təmin olunması da kifayət qədər aktuallıq kəsb edən məsələdir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev sentyabrın 23-də BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri zamanı çıxışında bir daha bu məsələyə beynəlxalq ictimaiyyətin diqqətini cəlb edərək qeyd etmişdir ki, «Azərbaycan dəfələrlə açıq şəkildə peyvəndlərin zəngin ölkələr tərəfindən öz ehtiyaclarından daha artıq miqdarda alınması ilə bağlı öz narazılığını ifadə edib. Biz davam edən «peyvənd millətçiliyi» və peyvəndlərə çıxışla əlaqədar inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında dərinləşən qeyri-bərabərliklə bağlı narahatlığımızı bir daha vurğulayırıq. Belə hərəkətlər inkişaf etməkdə olan ölkələrin öz əhalisini qorumasını əngəlləyir. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 75 faizindən çoxu 10 zəngin ölkə tərəfindən alınıb, aşağı gəlirli ölkələrdə isə peyvəndlənmə 2 faizdən azdır» [3].

Onu da qeyd edək ki, bu məsələyə beynəlxalq diqqətin cəlb edilməsi məqsədilə Azərbaycan BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsinə dair qətnamə irəli sürmüş və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul edilmişdir.

Bu reallıqda dövlətlərin pandemiya dövründə belə bir birinə qarşı geosiyasi ambisiyalar-

dan əl çəkməməsi, sərhədlərin bağlanmasından belə iqtisadi təzyiq elementi kimi istifadə etməsi acınacaqlı haldır. Heç şübhəsiz, bütün bu və digər olduqca aktual məsələlər Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin 3 dekabr tarixində reallaşdırılan BMT Baş Məclisinin xüsusi sessiyasının gündəliyini müəyyən etmişdir.

Yuxarıda qeyd olunan istiqamətlər üzrə dövlət başçısının rəhbərliyi altında atılan irimiqyaslı addımlar xalqımız tərəfindən yüksək qiymətləndirilir və alqışlanır. Təsadüfi deyildir ki, hər gün minlərlə soydaşımız Prezident İlham Əliyevə ünvanlandığı minnətdarlıq məktublarında ümumi bəlaya çevrilmiş pandemiyaya qarşı mübarizədə dövlət başçısının qətiyyətinə, tələbkarlığına, peşəkarlığına, humanizminə, xeyirxahlığına, qayğısına və şəfqətinə heyran qaldıqlarına dilə gətirir, öz rəhbərləri ilə fəxr və qurur hissi keçirdiklərini vurğulayırlar. Bu məktubların leytmotivini təşkil edən əsas ideya odur ki, cənab İlham Əliyev öz güc mənbəyi olan xalqının hər bir nümayəndəsinin prezidenti olduğunu 18 ildir ki, hər gün, hər saat, hər saniyə konkret əməli addımları ilə sübut edir, xüsusilə pandemiya dövründə hər bir azərbaycanlının sağlamlığı və həyatını hifz etməyi, əhalinin sosial müdafiəsini təmin etməyi, paralel olaraq iqtisadi fəallığı həyata keçirməyi öz fəaliyyətinin bir nömrəli vəzifəsi kimi müəyyən edib və bu istiqamətdə mərhələli şəkildə kompleks tədbirlər həyata keçirir.

Eyni məntiqlə pandemiyadan ziyan çəkən sahibkarlıq subyektlərinə, mikro sahibkarlara, yəni təxminən 600 min nəfərə dövlət tərəfindən 644 milyon manata qədər ciddi maliyyə dəstəyi göstərilmişdir. 2021-ci ilin dövlət büdcəsində isə 261 milyon manat nəzərdə tutulmuşdur. Xüsusilə işsiz və iş yerini müvəqqəti itirmiş şəxslərə 4 dəfə 190 manat birdəfəlik ödəniş edilmişdir. Bu qəbildən xərclər 450 milyon manata bərabər olmuşdur. Bütövlükdə indiyədək COVID-19-un təsirinə məruz qalmış əhalinin və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün təqribən 2.7 milyard ABŞ dolları həcmində sosial-iqtisadi paket təqdim edilmişdir [4].

Təsadüfi deyildir ki, pandemiya ilə mübarizə sahəsində Azərbaycanın atdığı səmərəli addımlar beynəlxalq səviyyədə qəbul edilir. 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırmışdır. Onu da xüsusi olaraq qeyd edək ki, Azərbaycan bütün bu fəaliyyəti özünün maliyyə resursları hesabına həyata keçirmişdir. Ölkəmiz həmçinin Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə dəstəyi göstərmiş, 30-dan artıq ölkəyə koronavirusla mübarizənin dəstəklənməsi üçün humanitar və maliyyə yardımı etmişdir. Bundan əlavə, dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərmişdir.

Eyni zamanda Prezident İlham Əliyev BMT Baş Məclisinin 76-cı sessiyası çərçivəsində çıxışı zamanı növbəti unikal təşəbbüslə çıxış etmişdir: «Hesab edirik ki, COVID-19-dan sonra daha yaxşı bərpa üçün güclü, əlaqələndirilmiş və məqsədyönlü qlobal addımlara ehtiyac var. Bu mənada biz pandemiyadan sonrakı dövr üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlayacaq BMT-nin COVID-19-dan sonra qlobal bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını təklif edirik» [5].

Prezident İlham Əliyevin müəyyən etdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. Təsadüfi deyildir ki. 2020-ci ilin əvvəlində bütün pensiyalar ölkə üzrə 16,6 % indeksasiya olunaraq artırılmışdır. Orta pensiyanın məbləği 13% artaraq 300 manata, yaşa görə pensiyanın orta məbləği də 13% artaraq 330 manata çatmışdır. Bütövlükdə 2020-ci ildə pensiya ödənişləri 2019-cu illə müqayisədə 20% artmışdır. Ölkəmizdə ötən il ərzində Prezident təqaüdləri 25%, sosial müavinətlər isə 15% artmışdır. Ümumən, bu ödənişlər 2 milyondan çox vətəndaşı əhatə etmişdir. Həm minimum, həm də orta pensiyanın alıcılıq qabiliyyəti indeksinə görə Azərbaycan MDB məkanında öz liderliyini qorumuşdur.

Dövlət başçısının müəyyən etdiyi sosial-yönümlü siyasi kursa uyğun olaraq 2020-ci ildə 77 min ailəyə, yəni 322 min nəfərə ünvanlı sosial yardım göstərilmişdir. Bu göstərici

2019-cu il ilə müqayisədə 19 min nəfər çoxdur. Orta aylıq ödənişin məbləği 240 manat təşkil etmişdir.

Xüsusi həssas kateqoriyadan olan insanlar-şəhid ailələri, müharibə əlilləri və müharibə veteranları Prezident İlham Əliyev böyük diqqət və qayğısı ilə əhatə olunmuşdurlar. Belə ki, cənab Prezidentin 2020-ci il 31 dekabr tarixli sərəncamı ilə həmin tarixdən etibarən şəhid ailələrinin təqaüdü 500 manata çatdırılmışdır. Müharibə əlillərinə verilən təqaüdlərin məbləği də artırılmışdır. I qrup müharibə əlillərinə 400 manat, II qrup müharibə əlillərinə 350 manat, III qrup müharibə əlillərinə isə 300 manat məbləğində təqaüdlər müəyyən edilmişdir. Milli qəhrəmanların təqaüdü 1800 manata, Vətən müharibəsi qəhrəmanlarının təqaüdü isə 2000 manata yüksəldilmişdir. Beləliklə, təqaüdlərin artırılması 100 minədək insanı əhatə etmişdir [4].

2020-ci ildə 1500 şəhid ailəsi və müharibə əlili mənzil və evlərlə təmin olunmuşdur. İndiyədək bu kateqoriyadan olan insanlara 9200-ə yaxın mənzil və evlər verilmişdir. 2021-ci ildə isə bu göstəricinin əvvəlki illə müqayisədə 2 dəfə artırılaraq 3000 minə çatdırılması planlaşdırılır.

Müharibə əlillərinə 7200-ə yaxın minik avtomobili verilmişdir [4].

Şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsi istiqamətində növbəti addım olaraq "Yaşat fondu" yaradılmışdır. İndiyədək sözügedən fondda 62 milyon manatdan çox vəsait toplanmışdır.

Ötən il ərzində Prezident İlham Əliyevin tapşırıqlarına müvafiq olaraq məşğulluq proqramları çərçivəsində 100 min nəfər işlə təmin olunmuşdur. 12 min ailə isə özünüməşğulluq proqramlarına cəlb edilmişdir. 2021-ci il ərzində isə 16 min ailənin müvafiq proqramlara cəlb olunması planlaşdırılır.

İctimai işlər proqramına gəldikdə isə, ötən il 38 min daimi, 50 min ikiaylıq müvəqqəti iş yerləri yaradılmışdır. Cari ildən ictimai iş yerləri də DOST İŞ Mərkəzləri vasitəsilə təmin olunacaqdır.

Xalqının qürur mənbəyinə çevrilmiş Prezident İlham Əliyevin müəllifi olduğu dayanıqlı inkişaf siyasətinin təntənəsi təkcə Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində deyil, xüsusilə də tarix yazan güclü ordusunda öz təsdiqini tapır. Bu gün müzəffər Azərbaycan ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmişdir. Hələ 2016-cı ilin aprel ayında Lələtəpə və 2020-ci ilin iyul ayında Tovuz döyüşləri zamanı Azərbaycan bu işğal ilə barışmayacağını bütün dünyaya nümayiş etdirdi.

Eyni zamanda Prezident İlham Əliyev 2020-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-ci sessiyası çərçivəsindəki çıxışında ən mötəbər kürsüdən beynəlxalq ictimaiyyətə xəbərdarlıq etdi ki, «Ermənistan rəhbərliyinin düşmən, Azərbaycanofob bəyanatları və təxribatları Ermənistanın Azərbaycana qarşı yeni hərbi təcavüzə hazırlaşdığını nümayiş etdirir» [6].

Bu xəbərdarlıqdan 3 gün sonra, sentyabrın 27-də Ermənistan Azərbaycanın hərbi mövqelərinə və mülki şəxslərinə qarşı irimiqyaslı hücuma başladı. Nəticədə hərbi qulluqçularla yanaşı, 11 dinc sakin, o cümlədən 2 uşaq həlak oldu. Buna cavab olaraq, Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit edilmiş özünümüdafiə hüququndan istifadə edərək, öz ərazisində bütün cəbhə boyu Ermənistana qarşı əks-hücuma keçdi [4].

30 il ərzində Ermənistanın işğalı altında olan və vandalizm aktına məruz qalan ərazilərimiz azad olunmağa başladı. Noyabr ayının 8-də qədim Azərbaycan şəhəri, Qarabağın incisi Şuşanın müasir hərb elminin ən nadir və unikal əməliyyatlarından birinin həyata keçirilməsi nəticəsində azad olunması düşmənin müqavimət potensialını heçə endirdi. Nəticədə noyabr ayının 10-da Prezidentlər İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşinyanın imzaladığı üçtərəfli bəyanat regionda uzunmüddətli münaqişənin hərbi fazasını başa çatdırdı və faktiki olaraq işğalçı Ermənistan dövlətinin kapitulyasiya aktı oldu. Noyabr

ayının 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabr ayının 1-də isə Laçın rayonu bir güllə belə atılmadan, bir nəfər şəhid belə vermədən işğaldan azad olunmuşdur. Ordumuzun əldə etdiyi tarixi zəfər heç bir halda təsadüfi olmayıb, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən inkişaf doktrinasının, o cümlədən hərbi quruculuq siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir. Təsadüfi deyildir ki, bəzi Qərb mətbu orqanlarında, habelə ABŞ-ın Milli Müdafiə Kollecinin (National War College) və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq münasibətlər Məktəbinin analitik nəşrlərində Azərbaycan ordusunun hərbi taktikası çox yüksək qiymətləndirilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri Azərbaycan ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətini qeyd edirlər [4].

Bu tarixi zəfərin digər mühüm nəticələri də vardır. Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VII qurultayında yekun nitqində qeyd etdiyi kimi, «müharibənin nəticələrindən biri də əlbəttə ki, bu gün müzakirə mövzusu olan Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizi tarixi nailiyyətdir. Üçtərəfli Bəyanatda xüsusilə bu məsələnin əks olunması bizim, eyni zamanda, böyük siyasi qələbəmizdir. Hazırda Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində fəal işlər aparılır, bir çox təkliflər var, artıq bir çox nəqliyyat-kommunikasiya layihələri masa üzərindədir, müzakirə edilir və bu, bizim növbəti tarixi uğurumuz olacaqdır». «Zəngəzur dəhlizi» məsələsinə xüsusi əhəmiyyət verən Prezident İlham Əliyev cari ilin 31 mart tarixində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşündə bir daha vurğulamışdır ki, «Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq. Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün» [7].

«Müasir dünyada hüququn gücü deyil, gücün hüququ işləyir və güclüsənsə haqlısan məntiqi hökm sürür», – deyən Prezident İlham Əliyev böyük uzaqgörənlik nümayiş etdirərək ordu quruculuğu məsələlərini prioritet sahə kimi müəyyən etmiş və bu istiqamətdə möhtəşəm addımların atılmasını təmin etmişdir. Dövlətimizin başçısı hələ vaxtilə böyük uzaqgörənliklə vurğulamışdır: «Əminəm ki, Azərbaycan gücləndikcə ordumuz da güclənəcək və ordumuz istənilən vəzifəni həll etməyə hazırdır, buna qadirdir. Azərbaycan ordusu nəinki bölgədə, həm hərbi potensialına, həm döyüş qabiliyyətinə, həm də təchizatına görə dünya miqyasında güclü ordular sırasındadır. Düşmən bilməlidir ki, biz istənilən anda məsələni hərbi yolla həll edə bilərik» [7].

Təsadüfi deyildir ki, ölkəmizin büdcə zərfində müdafiə xərcləri hər zaman üstün mövqeyə malik olmuşdur. Əgər 2003-cü ildə Azərbaycanın hərbi büdcəsi 135 milyon dollara bərabər idisə, 2020-ci ildə bu göstərici 1,9 milyard dollar təşkil etmişdir. 2021-ci ildə isə müdafiə xərcləri artaraq 2.7 milyard dollara yüksəlmişdir. Stokholm Beynəlxalq Sülh Problemlərinin Tədqiqi İnstitutunun 2019-cu il hesabatına görə, Azərbaycan ÜDM-də hərbi xərcləri 4% və ondan çox olan 10 dövlət sırasında yer almışdır. 2019-cu ilin göstəricilərinə əsasən, dünyanın ən güclü orduları sırasında Azərbaycan 52-ci, Ermənistan isə 96-cı mövqedə olmuşdur. Hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yeri tutmuşdur. Dəniz gücü üzrə isə Azərbaycan 67-ci yerdə, Ermənistan isə dəniz ölkəsi olmadığından bu sahədə imkanları sıfıra bərabər hesab olunmuşdur. Tank gücü üzrə isə Azərbaycan 32-ci, Ermənistan isə 2 dəfədən də aşağı göstəriciyə (78) malik olmuşdur [4]. Fərq göz qabağındadır. Əlavə şərhə ehtiyac yoxdur.

Ölkəmizdə qısa zaman ərzində 20-dən artıq hərbi zavodun işə salınması və müasir hərbi-sənaye kompleksinin formalaşması tarixi nailiyyət hesab olunmalıdır. 5-ci nəsil silahların dünyanın aparıcı silah ixracatçılarından alınması və bu sahədə də uğurlu şaxələndirmə siyasətinin tətbiq edilməsi ölkəmizə təkcə hərbi deyil, həm də siyasi dividentlər gətirmişdir.

Ordumuzda döyüş ruhu və hərbi-vətənpərvərlik hissinin ən yüksək səviyyəsi təmin edilmişdir. Ordumuz Vətən qarşısında xilaskarlıq missiyasını həyata keçirdiyindən intəhasız motivasiyaya malik olduğu halda, düşmən ordusu öz işğalçı mahiyyəti səbəbindən bütün bunlardan məhrumdur. «Yenilməz» erməni ordusunun gücü isə yalnız əliyalın dinc insanlara çatır. Müharibə dövründə Ermənistan hakimiyyəti növbəti hərbi cinayətlərə imza atmışdır. Ali Baş Komandan İlham Əliyevin BMT-nin yuxarıda qeyd olunan sessiyasında çıxışında vurğuladığı kimi, «44 gün ərzində Ermənistan silahlı qüvvələri cəbhəboyu ərazilərdə yerləşən rayonlarımızı və şəhərlərimizi – Ağdam, Ağcabədi, Beyləqan, Daşkəsən, Füzuli, Goranboy, Tərtəri intensiv şəkildə atəşə tuturdu. Ermənistan, həmçinin cəbhə bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən, Xızı və digər şəhərləri də atəşə tuturdu. Raketlərdən biri Azərbaycanın hava hücumundan müdafiə qoşunları tərəfindən Bakının yaxınlığında yerləşən Xızı üzərində zərərsizləşdirilmişdir. Bu isə onu göstərir ki, paytaxt Bakı da Ermənistanın raket hücumlarının hədəfi idi. Ermənistan «Skad» və «İsgəndər–M» tipli ballistik raketlərdən, habelə qadağan olunmuş ağ fosforlu və kaset tipli sursatlardan istifadə edirdi. Ermənistanın bu hərbi cinayətləri nəticəsində 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilib, 450 nəfərdən çox insan yaralanıb. Azərbaycan ərazisində 12 min mülki infrastruktur obyekti, o cümlədən fərdi evlər dağıdılıb və ya onlara ciddi zərər dəyib» [4]. Bu zərərin qiymətləndirilməsi və gələcəkdə kompensasiya edilməsi məqsədilə Prezident İlham Əliyevin 6 noyabr 2020-ci il tarixli Sərəncamı ilə Dövlət komissiyası yaradılmışdır. 11 şəhər və rayonda 13 işçi qrupu yaradılmışdır. Bu işlərə 200-dək məsul şəxs cəlb olunmuşdur. 10300-dən çox obyektə baxış keçirilmiş və qiymətləndirmə aparılmışdır. İlkin hesablamalara görə vətəndaşların əmlakına dəyən ziyan 63,6 milyon manat təşkil etmişdir. Dövlət əmlakına (yol, elektrik, qaz, rabitə, su xətləri və digər infrastruktur obyektlər) vurulan ziyan isə 27,4 milyon manata bərabər olmuşdur. 9 mindən artıq evə ziyan dəymişdir. Beləliklə, Ermənistanın "yenilməz" ordusunun dinc əhaliyə və dövlətə məxsus əmlaka vurduğu ziyan hələ ki, 91 milyon manata bərabərdir [4].

İşğal zamanı mülki və təsərrüfat obyektləri ilə yanaşı, Azərbaycanın misilsiz mədəniyyət abidələri də məhv edilmişdir. Belə ki, 13 dünya əhəmiyyətli (6 memarlıq, 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq, 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunələri) tarix və mədəniyyət abidələri erməni vandalizminin qurbanı olmuşdur [4].

Ermənistan Azərbaycanın keçmiş işğal edilmiş ərazilərində ekosid-ətraf mühitə qarşı genosid törətmişdir. Meşələrimizin 60 min hektarı məhv edilmiş, torpaqlarımız və çaylarımız çirkləndirilmiş və zəhərlənmişdir.

Onu da qeyd edək ki, 2021-ci ilin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidənqurulması işlərinə 2,2 milyard manat vəsait ayrılmışdır. Həmin işlərin mərkəzləşmiş qaydada həlli üçün Prezident İlham Əliyevin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə Əlaqələndirmə Qərargahı (ƏQ) yaradılmışdır. ƏQ-nın tərkibində 55 dövlət qurumunu, təmsil edən 160 nəfərlik 16 işçi qrupu fəaliyyət göstərir. ƏQ artıq Strateji Fəaliyyət Planını (SFP) hazırlamışdır. SFP əsasında Tədbirlər Planı da hazırlanmışdır. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq işğaldan azad edilmiş ərazilərin bərpası və yenidənqurulması işlərinin konseptual əsasları da müəyyən edilmişdir. 4 mərhələdə fəaliyyət nəzərdə tutulmuşdur:

İdarəetmə və təhlükəsizlik; infrastruktur məsələlərinin həlli; sosial xidmətlər; iqtisadiyyatın yenidən qurulması və inkişafı [4].

Yeni reallıqda işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi bir nömrəli məsələyə çevrilmişdir. Düşmən tərəf son 30 il ərzində işğal altında saxladığı torpaqlarımızı kütləvi şəkildə minalamışdır. Bunun nəticəsində müharibə başa çatdıqdan sonra indiyədək 2 jurnalist daxil olmaqla, 30 Azərbaycan vətəndaşı həlak olmuş, 130 nəfər isə yaralanmışdır. Azərbaycan dünyada ərazilərinin ən çox minalandığı ölkələrdən biridir. Bu, azad olunmuş ərazilərdə bərpa prosesini və məcburi köçkünlərin evlərinə qayıdışını ləngidir. Ermənistan dəqiq mina xəritələrini Azərbaycana verməkdən imtina edir. Ermənistanın üç rayon üzrə təqdim etməyə məcbur olduğu mina xəritələrinin dəqiqliyi 25 faizdir.

Əslində 10 noyabr üçtərəfli bəyanatı ilə müharibəyə son qoyulsa da. Ermənistanın Azərbaycana qarşı "mina müharibəsi" davam etməkdədir. Bu isə beynəlxalq hüquq norma və prinsiplərinə qarşı Ermənistanın həqarətli davranışının növbəti bariz nümunəsidir. Birbaşa müharibə cinayətidir. Beynəlxalq ictimaiyyət Ermənistanı məcbur etməlidir ki, azad olunmuş ərazilərimiz üzrə dəqiq mina xəritələrini ölkəmizə təqdim etsin.

Beləliklə, Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı. Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur. Prezidentin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarını yaradılmışdır. Bu xüsusda Prezident İlham Əliyev BMT-yə üzv dövlətləri və BMT Katibliyini ərazilərimizə istinad edərkən hüquqi cəhətdən mövcud olmayan, siyasi baxımdan qərəzli və manipulyasiya xarakterli adların istifadəsinə yol verməməyə çağırış etmişdir.

Ali Baş Komandanın böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın Prezidentinə olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi, Türkiyə kimi güclü qardaş dövlətin Azərbaycanın yanında olması və onun atdığı istənilən addımı müdafiə etməsi, dost Pakistan dövlətinin ölkəmizə kömək etməyə hazır olduğunu bəyan etməsi və digər tərəfdaş dövlətlərin haqq işimizi müdafiə etməsi Vətən müharibəsində Azərbaycanın tam qələbəsini təmin edən həlledici amillərdir. O qələbə ki, şəhidlərimizin ruhunu şad etmişdir, o qələbə ki, Cəbrayılımızı, Füzulimizi, Zəngilanımızı, Qubadlımızı, Ağdamımızı, Kəlbəcərimizi, Laçınımızı, Hadrutumuzu, Suqovuşanımızı, Şuşamızı və bütövlükdə işğal altındakı bütün ərazilərimizi öz əbədi sahibinə – Azərbaycan xalqına qaytarmışdır.

Yaşasın Xilaskar Ali Baş Komandanımız! Yaşasın Müzəffər Ordumuz! Yaşasın Qalib Xalqımız!

Qarabağ bizimdir. Qarabağ Azərbaycandır!

**Ədəbiyyat:**


1. İlham Əliyevin Qoşulmama Hərəkatının Xarici işlər nazirlərinin aralıq konfransında videoformatda çıxışı təqdim olunub // https://president.az/az/articles/view/52430/print
2. Nəsirov E. İlham Əliyev: Adını ölkə və dünya hərb tarixinə həkk etmiş müzəffər sərkərdə // http://www.yap.org.az/az/view/news/54641/ilham-eliyev-adini-olke-ve-dunya-herb-tarixine-hekk-etmish-muzeffer-serkerde
3. İlham Əliyev: Adını dünya diplomatiya və hərb tarixinə həkk etmiş xoşbəxt Prezident // https://apa.az/az/blog/blog-single/ilham-eliyev-adini-dunya-diplomatiya-ve-herb-tarixine-hekk-etmis-xosbext-prezident-188
4. İlham Əliyev: Nüfuzlu siyasi lider, mahir diplomat, müzəffər Ali Baş Komandan – TƏHLİL//https://apa.az/az/siyasi/Ilham-liyev-Nufuzlu-siyasi-lider-mahir-diplomat-muzffr-Ali-Bas-Komandan-colorredTHLILcolor-637725
5. BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub // https://president.az/az/articles/view/53197
6. BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub // https://president.az/az/articles/view
7. Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirilib // https://president.az/az/articles/view/50798


***Açar sözlər:*** *Vətən müharibəsi, yeni tarixi reallıqlar, müzəffər sərkərdə, mahir diplomat, hərbi zəfər*

**Elman Nasirov**
*Deputy of the Milli Majlis of the Republic of Azerbaijan,*
*Director of the Institute of Political Studies*
*of the Academy of Public Administration,*
*Doctor of Political Sciences, Professor*

## ILHAM ALIYEV: A VICTORIOUS COMMANDER WHOSE NAME IS ENGRAVED IN THE MILITARY HISTORY OF THE COUNTRY AND THE WORLD

### ABSTRACT

The article identifies the factors that led to the historical success of Azerbaijan in both the pandemic and the Patriotic War under the leadership of the victorious Supreme Commander-in-Chief Ilham Aliyev, and a number of important results that were achieved in this direction.

Referring to specific facts and arguments, the author extensively analyzed the steps taken by the President of the Republic of Azerbaijan, Ilham Aliyev, against the COVID-19 pandemic at the national, regional and global levels.

The article examines the unparalleled service of President Ilham Aliyev in achieving a historic military victory as a skilled diplomat and victorious commander on the basis of rich factual materials.

***Keywords:*** *patriotic war, new historical realities, victorious commander, skilled diplomat, military victory*

**Эльман Насиров**
*Депутат Милли Меджлиса Азербайджанской Республики,*
*директор Института политических исследований*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор политических наук, профессор*

# ИЛЬХАМ АЛИЕВ: ПОБЕДОНОСНЫЙ ПОЛКОВОДЕЦ, ВПИСАВШИЙ СВОЁ ИМЯ В ВОЕННУЮ ИСТОРИЮ СТРАНЫ И МИРА

## РЕЗЮМЕ

В статье определены факторы, обуславливающие исторические успехи, достигнутые Азербайджаном под руководством Победоносного Верховного Главнокомандующего Ильхама Алиева одновременно в условиях пандемии и в Отечественной войне, а также показаны важнейшие достижения в данном направлении. Автор, ссылаясь на конкретные факты и аргументы, подробно анализирует предпринятые Азербайджаном успешные шаги под руководством Президента Азербайджанской Республики Ильхама Алиева против пандемии COVID-19 на национальном, региональном, а также глобальном уровнях. На основе богатого фактологического материала исследуются огромные заслуги в достижении исторической военной Победы Президента Ильхама Алиева, являющегося искусным дипломатом и Победоносным полководцем.

***Ключевые слова:*** *Отечественная война, новые исторические реалии, полководец-победитель, искусный дипломат, военная победа*

# DÖVLƏT İDARƏÇİLİYİ
# PUBLIC ADMINISTRATION

UOT 323

**HADİ RƏCƏBLİ**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının professoru, siyasi elmlər doktoru**

## SOSİAL MÜDAFİƏ SİSTEMİNİN İCRA ÖZƏLLİKLƏRİ

### Sosial müdafiə anlayışı: dünya təcrübəsi və əhatə dairəsi

Hər bir ölkədə əhalinin həyat səviyyəsini müəyyən edən əsas meyar kimi sosial müdafiə sistemi göstərilir. Əhalinin sosial müdafiəsi sistemi insanların mövcud sosial problemlərinin həllinə istiqamətlənən sosial və iqtisadi tədbir kimi əhalinin əmək qabiliyyətinin itirilməsi, eyni zamanda işsizlik və digər səbəblərdən özlərini və ailələrinin əmək qabiliyyəti olmayan üzvlərinin zəruri tələbatlarını ödəyə bilməyən insanlara şamil edilir. Sosial müdafiə anlayışı sisteminə sosial təminat, sosial yardım, sosial müavinət, sosial sığorta vəs. kimi geniş anlayışlar sistemi daxildir.

Tarixə nəzər yetirsək sosial müdafiə tədbirlərinin təşkili XVII əsrin sonlarından etibarən başlayıb. Sosial müdafiə anlayışı isə əsasən XIX əsrin sonlarında ABŞ-da və sonralar digər inkişaf etmiş ölkələrdə tətbiq olunmağa başlamışdır [5, s.11]. 1942-ci ildə "Beveric Planı"nın qəbulundan sonra sosial müdaafiə termini geniş işlənməyə başlamışdır. Nəticədə, sosial təminat yalnız muzdlu işçilərə deyil həm də ölkə əhalisinin hamısına şamil edilmişdir. Sosial müdafiə sahəsində qanunvericiliyin formalaşdırılmasında isə əsasən Qərbi Avropa ölkələri geniş təcrübəyə malikdir. Məsələn, 1681-ci ildə Fransada dənizçilər üşün ilk pensiya təminatı rejimi qəbul edilib və tam bir əsr sonra bu system dövlət qulluqçularına və 1831-ci ildən hərbi qulluqçulara da tətbiq edilməyə başlamışdır. İtaliyada isə 1779-cu ildə "Monte De Paski diSiena" bankı işçilərinə pensiya təminatı sistemi tətbiq edilir və həmin ildə muzdlu işçilərin istehsalat prosesində işçilərin bədbəxt hadisələrdən könüllü sığorta olunması barədə qərar və qanun qəbul edilib [6].

Sosial müdafiənin 3 təşkilati hüquqi forması müəyyən edilir. Sosial sığorta sistemi, dövlət və bələdiyyələr tərəfindən göstərilən sosial yardım və xüsusilə həssas əhali qruplarına yönələn sosial müdafiə və xüsusi sosial tədbirlər bura daxildir [5, s. 21].

Sosial müdafiənin dar və geniş anlamında təhlili onun əhatə dairəsinin müəyyən edilməsində mühüm əhəmiyyətə malikdir. Dar mənada sosial müdafiə termininin mənası odur ki, bu sahədə görülən işlər həyat səviyyəsinin və insan tələbatlarının ödənilməsinə yönəldilsin. Geniş mənada isə sosial müdafiə insanların zəif təbəqələrinə məcmu gəlirləri yaşayış minimumundan az olan hissəsinin daxil olmasıdır [3, s. 34]. Sosial siyasətdə əhalinin sosial müdafiəsinin əhatə dairəsi geniş xarakterə malikdir. Bir sıra mənbələr bu istiqamətləri aşağıdakı kimi xarakterizə edir [3, s. 77].

1. Əhalinin əmək qabiliyyəti olmayan və aztəminatlı təbəqələrinin sosial müdafiəsinin əsas istiqamətləri.

Bu istiqamətin özü belə bir neçə qruplara bölünür: pensiya təminatı, sosial yardım və sosial xidmət.

2. Əhalinin ayrı-ayrı qruplarının sosial müdafiəsi. Bura əsasən məcburi köçkünlər, qaçqınlar vəs. daxildir – bu istiqamətin də alt bəndləri bu formada qruplaşdırılır:miqrasiya siyasəti,məcburi miqrasiya, xaricdə həmvətən-

lərimizin maraqlarının və hüquqlarının müdafiəsi və orta sinifin formalaşdırılması siyasəti.

Ümumilikdə əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqələrinin ümumi xarakteristikası çox genişdir [5].

Belə ki:

1. Əlilliyi olan şəxslərin sosial müdafiəsi;
2. Qaçqın, məcburi köçkünlərin sosial müdafiəsi;
3. Şəhid və qazi ailələrinin sosial müdafiəsi;
4. Veteranların sosial müdafiəsi.

**Azərbaycanda sosial müdafiə sisteminin formalaşma tarixi və özəllikləri**

Azərbaycanda sosial təminat qanunvericiliyi XX əsrin əvvəllərində formalaşmağa başlamış, bu sahədə ilk hüquqi aktlar olaraq, 1903-cü ildə "İstehsalatda bədbəxt hadisələrə görə işəgötürənlərin məsuliyyəti haqqında" və 1912-ci ildə "Bədbəxt hadisələrdən və xəstəliklərdən fəhlələrin sığortası haqqında" qanunlar qəbul olunmuşdur.

Sosial müdafiənin tarixi müstəqil Azərbaycanda bir növ sosial siyasətin inkişafı ilə xarakterizə edilə bilər.

Belə ki, 1991–1993-ci illərdə ölkədə populist sosial müdafiə təklifləri və addımları mövcud idi. Sosial siyasətinin populizmdən uzaq inkişaf tarixi məhz 1993-cu ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra formalaşmağa başladı. Həmin dövrdə sosial siyasət və sosial müdafiənin 2 başlıca xarakterik özəlliyini təsdiq etdi [5, s.46].

1. Sosial siyasətin dayanıqlılığı və iqtisadi bazisə əsaslanması

2. Uğurla sınaqdan çıxmış normativ hüquqi bazaya uyğun olması

1993-cü ildə sosial müdafiə sahəsində pensiyaların hesablanması sistemində tətbiq edilən yeni qaydalarla 650 minə yaxın vətəndaşın pensiyası orta hesabla 21 dəfə artırıldı. Ümummilli lider Heydər Əliyev tərəfindən 2001-ci ildə "Azərbaycan Respublikasının Pensiya islahatının yeni konsepsiyası" təsdiq edildi.

Sosial müdafiə sahəsində mühüm irəliləyişlərdən biri də «Azərbaycan Respublikasında dövlət pensiya sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında» 2003-cü il tarixli fərmanla pensiyaların və onlara əlavə olunan müavinətlərin təyin olunması və bununla bağlı təşkilati məsələlər Dövlət Sosial Müdafiə Fondunun idarəedilməsinə verildi. Bunun əsasında sosial sığorta haqlarının yığılması, ödənməsi və eyni zamanda sosial sığorta ödənişlərinin, sosial pensiyaların maliyyələşdirilməsi, təyin olunması sahəsində vahid strukturun formalaşması təmin edildi [5, s. 50].

Sosial müdafiə sisteminin tarixində ikinci yeni mərhələ ölkə başçısı İlham Əliyev cənablarının sosial siyasət sahəsində yeni islahatları ilə birlikdə başladı. Bununla bağlı məsələlərə aydınlıq gətirmək üçün bir neçə istiqamət üzrə ümumiləşdirmə aparmaq olar.

3. Разработать и осуществить перманентные культурологические реформы в разных странах, обусловленные потребностями возрождения высокой духовной культуры и построения гуманистической цивилизации.
4. Разработать и реализовать во всем мире, под руководством ООН и ЮНЕСКО, международные культурологические программы и проекты перехода от человека типа «Homo sapiens» – к человеку типа «Homo culturalis», с использованием дополнительного культурологического образования и просвещения, культурологической методологии системного анализа и экспертизы.
5. Открыть широкий доступ народных масс во всех странах мира к изучению ценностей высокой духовной культуры, культурным благам и жемчужинам мудрости, которые содержит в себе наука о культуре – культурология.
6. Поднять роль национальных культурных элит и способствовать их продуктивному сотрудничеству с политическими элитами в разработке и осуществлении культурологических реформ, обеспечивающих рост благосостояния, жизнеспособности, культурного диалога и сотрудничества народов в целях устойчивого развития.
7. Принять решение о проведении в 2022-2031 гг. Всемирного десятилетия формирования и развития высококультурных людей, как основы жизнеспособности и устойчивого развития современного мира, рассматривая это как путь к эффективному диалогу, формированию международной культурной идентичности, сближению и гармонизации культур, сотрудничеству народов и государств.

**Литература:**


1. Азаде, Р. Низами Гянджеви /Р.Азаде. –Баку: Язычы, 1983. 51 с.
2. Алиев, Г. Темы и сюжеты Низами в литературах народов Востока /Г.Алиев. Москва: Наука, 1985. 332 с.
3. Алиев, Р. Низами Гянджеви /Рустам Алиев. Баку: Язычы, 1991.131 с.
4. Алиев, Р. Низами: [краткий библиографический справочник: к 840–летию Н.Гянджеви] /Р.Алиев. Баку: Язычы, 1982. 379 с.
5. Араслы, Г. Низами Гянджеви /Гамид Араслы. Баку: Азернешр, 1942.
6. Ахмедов, Г. Города Азербайджана эпохи Низами /Г.Ахмедов. Баку: Элм, 1991. 29 с.
7. Бертельс Е.Э. Великий азербайджанский поэт: [эпоха, жизнь, творчество]. Баку: Изд. АзФАН СССР, 1940. 146 с.
8. Бертельс, Е.Э. Избранные труды: Низами и Физули /Е.Бертельс. Москва: Издательство Восточной литературы, 1962. 554 с.
9. Бертельс, Э. Низами: Творческий путь поэта /Е.Э.Бертельс. Москва.: Изд–во АН СССР, 1956. 262 с.
10. Божественные слова. Фольклор и литературные памятники Азербайджана. Москва: художественная литература, 2010. 726с.
11. Буниядов З. Азербайджанское государство Атабеков (1136–1225). Баку: Элм, 1998. 280 с.
12. Выдающиеся русские ученые и писатели о Низами Гянджеви /сост., авт. предисл. и ред. Р.Алиев. Баку: Элм, 1981. 434 с.
13. Гаджиев, А. Ренессансный мир «Хамсе» Низами Гянджеви. Баку: Мутарджим, 2000. 296 с.
14. Гулизаде, М. Низами Гянджеви: [жизнь и творчество] /М. Гулизаде; АН Азерб.ССР Ин–т лит–ры и языка им. Низами. Баку, 1953. 84 с.
15. Гусейнов, Г. О социальных воззрениях Низами /Г.Гусейнов. Баку: Изд–во АН Азерб.ССР, 1946. 16 с.
16. Ибрагимов, С. Тюркство Низами /С.Ибрагимов; под рук. А.Сафарли; ред.: М. Велиев, Л. Алиева, С. Коджаева, Ж.Гусейнова.–Saarbrücken: Lambert Academic Publishing, 2015. 65 с.
17. Караев, Я. Низами Гянджеви /Я.Караев, А.Рустамова; под ред. Д.Джафарова; АН Азерб. Республики Институт Истории, сектор археологии и этнографии. Баку: Элм, 1991. 17 с.
18. Крымский, А. Низами и его современники /А.Крымский; вступит. статья Г.Алиева; АН Азерб.ССР Ин– т лит–ры им. Низами. Баку: Элм, 1981. 487 с.
19. Кули–заде, З. Теоретические проблемы истории культуры Востока и низамиведение /Зумруд Кулизаде. Баку: Элм, 1987. 228 с.
20. Кязимов, М. Последователи Низами: [к пробл. назире в персоязыч. лит. XIII–XVI вв.] /Мехти Кязимов. Баку: Азернешр, 1991. 229 с.
21. Мамедбейли Г.Д. Низами как передовой ученый своего времени. В сб. Низами: Баку, 1940.
22. Марр, Ю. Хагани, Низами и Руставели /Ю.Марр, К.Чайкин//. Тбилиси: Мецниереба, 1966. 210 с.
23. Мец А. Мусульманский ренессанс. Москва: Наука, 1973. 475 с.
24. Мирза-Шафи Вазех. Избранное. Перевод и предисловие Наума Гребнева. Баку, Азербайджанское государственное изд-во, 1977, 200 с.
25. Мурадханов, М. Педагогические высказывания Низами /М.Мурадханов. Баку: Азернешр, 1947. 104 с.
26. Мустафаев, Д. Мир идей Низами и современность /Д.Мустафаев. Баку, 1967. 156 с.
27. Низами Гянджеви и литература народов СССР: [тематический сборник научных трудов] /Азерб. гос. ун–т им. С.М.Кирова; редкол.: П.И.Халилов и др. Баку, 1986.75 с.
28. Низами Гянджеви. Волшебник слова. Nizami Ganjavi. The miracle–worker of

words /О. В. Васильева, О.М.Ястребова; Российская национальная библиотека Санкт–Петербург: РНБ, 2018. 133 с.
29. Низами Гянджеви. Собрание сочинений. В трех томах. Баку: Азернешр, 1991.
30. Низами Гянджеви: [краткий справочник] /АН Азерб.ССР. Комис. Низами; сост. Д.Каграманов; авт. очерка Р.Алиев. Баку: Элм, 1979. 92 с.
31. Низами Гянджеви: Собрание сочинений: В 5 т.: Пер. с фарси / Низами Гянджеви; Редкол.: Р. Алиев и др.; Сост., науч. подгот. текстов, коммент. и слов. Р. Алиева; Вступ. ст. М. Ибрагимова. Москва: Художественная литература, 1985.
32. Рафили, М. Низами: Эпоха, жизнь и творчество. Москва: Гослитиздат, 1941. 120 с.
33. Русские советские писатели о Низами Гянджеви. Сборник /сост. и вступит. статья С. Турабова. Баку: Язычы, 1981. 256 с.
34. Салахов, В. Творчество великих азербайджанских мыслителей поэтов Низами, Насими и Физули /Видади Салахов, Калимаш Бегалинова. Астана, 2012. 188 с.
35. Сухейль Фарах, Фуад Мамедов. Культура спасет мир. Нижний Новгород: Печатная мастерская «Радонеж», 2021. 500 с.
36. Теер, Е. Низами Гянджеви в польских исследованиях и переводах /Елена Теер; науч. ред. Н.Г.Араслы. Баку: Elm və təhsil, 2012. 104 с.
37. Фараджев, А. Эпоха и социально-экономические воззрения Низами Гянджеви Баку: Изд. АН Азербайджанской ССР, 1957. 46 с.
38. Фуад Мамедов. Культурология: ответы на вызовы XXI века. Казань: Центр инновационных технологий, 2019. 480 с.
39. Юсифли, Х. Ренессанс и Низами Гянджеви /Х.Юсифли; ред. А.Саферли, А.Юсифли; НАН Азербайджана, Гянджинское отделение, Центр Низами Гянджеви.–Баку: Elm və təhsil, 2016. 424 с.

***Ключевые слова:*** *творец культуры, культурные блага, нравственная и интеллектуальная культура, высококультурный человек, международные культурологические постулаты, культурологические реформы, культурологическое образование и просвещение, наука о культуре*

**Fuad Məmmədov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçılık Akademiyasının Tarix kafedrasının professoru, tarix elmləri doktoru, "Simurq" Azərbaycan mədəniyyət Assosiasiyasının prezidenti, Rusiyanın təbiyət elmləri akademiyasının xarıcı üzvü, Beynəlxalq qlobal tədqiqatlar akademiyasının həqiqi üzvü*

## NİZAMİ GƏNCƏVİ
## RUHİ MƏDƏNİYYƏTİN BÖYÜK YARADICISI KİMİ

### XÜLASƏ

Məqalədə dahi Azərbaycan mütəfəkkiri və humanisti Nizami Gəncəvi kulturoloji portreti təsvir olunur, onun mənəvi və intellektual mədəniyyətin böyük yaradıcısı kimi xidmətləri açıqlanır. Nizaminin yüksəkmədəniyyətli azərbaycanlıların inkişafında rolu göstərilir. Onun XII əsrin Azərbaycan cəmiyyətində mədəni rifah və həyat müdrikliklərinin istehsalı və yayılmasının əvəzolunmaz mənbəyi kimi, müasir dövrdə də öz əhəmiyyətini itirməmiş, orta əsrlər müsəlman Şərqinin bir çox mədəniyyət xadimləri üçün paradiqma kimi əhəmiyyəti qeyd olunur.

Nizaminin həyat fəaliyyətinin sistemli analizi əsasında, özündə əlavə kulturoloji təhsili, maarifi və kulturoloji islahatları əhatə edən, zamanın çağırışlarına cavab verən - müasir bəşəriyyətin təhlükəsiz inkişafının beynəlxalq kulturoloji postulatları təklif edilmiş və onların praktiki tətbiqinin mexanizmləri verilmişdir.

Böyük mütəfəkkir və «dünyanın vətəndaşı» Nizami Gəncəvinin xatirəsi naminə, sivilizasiya böhranı şəraitində, bəşəriyyətin dayanaqlı və təhlükəsiz inkişafını təmin edəcək BMT və YUNESKO-ya təqdim olunacaq kulturoloji təkliflər irəli sürülmüşdir.

***Açar sözlər:*** *mədəniyyətin yaradıcısı, mədəni rifah, mənəvi və intellektual mədəniyyət, yüksəkmədəniyyətli insan, beynəlxalq kulturoloji postulatlar, kulturoloji islahatlar, kulturoloji təhsil və maarif, mədəniyyət haqqında elm*

**Fuad Mammadov**
*The Academy of Administration under the President of Azerbaijan Republic,*
*President of Simurg Association of Azerbaijan Culture,*
*Foreign Member of the Russian Academy of Natural Sciences,*
*Member of the International Academy of Global Research,*
*Doctor of History, Professor*

# NIZAMI GANDJEVI AS A PRONOUNCED CREATOR OF SPIRITUAL CULTURE

## ABSTRACT

In this article, the author provides a culturological portrait of the genius Azerbaijani thinker and humanist Nizami Gandjevi, unveiling his achievements as a pronounced creator of spiritual culture. The author shows Nizami’s involvement in the formation of highly cultured Azerbaijanis; he highlights Nizami’s significance as an irreplaceable source of the production and distribution of cultural goods and life wisdom in Azerbaijani society of XII century, as a paradigm for many cultural figures of the Middle Age Muslim Middle East, which remains current today.

Based on the systematic analysis of Nizami's life, the author formulated international culturological postulates of a safe development of humanity. The author also provided the mechanisms of their practical application, including additional culturological education and schooling and culturological reforms that reflect the current period's needs.

On the day of remembrance of a great thinker and the “world citizen” Nizami Gandjevi, the author formulated a culturological proposal for the submission to the UN and UNESCO that contributes to the sustainable and safe development of humanity during the civilization's crisis.

***Keywords:*** *creator of culture, cultural goods, moral and intellectual culture, highly cultured individual, international culturological postulates, culturological reforms, culturological education and schooling, culture science*

## H Ü Q U Q
## L A W

UOT 347.61/.64

**İSAXAN VƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri,**
**hüquq elmləri doktoru, professor**
*e-mail: veliev.i@inbox.ru*

# ƏCNƏBİLƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN AİLƏ MÜNASİBƏTLƏRİNDƏ İŞTİRAKI: AİLƏ QANUNVERİCİLİYİNƏ EDİLMİŞ SON ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR KONTEKSTİNDƏ

Müasir şəraitdə cəmiyyətin sürətlə inkişafı, beynəlxalq əlaqələrin genişlənməsi, miqrasiya hallarına daha tez-tez rast gəlinməsi səbəbindən ailə-hüquq münasibətlərində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakına dair göstəricilərin artması müşahidə edilməkdədir. Azərbaycan Respublikasının vətəndaşları ilə əcnəbi dövlətlərin vətəndaşları arasında nikahın bağlanması hallarına daha tez-tez rast gəlinir ki, bu da belə nikahlardan doğulmuş uşaqların tərbiyə edilməsi, onların yaşayış yerinin müəyyən edilməsi, valideynlərlə münasibət saxlaması qaydaları, xaricdə yaşayan valideynlərdən aliment tutulması və sair məsələlərin tənzimlənməsinin yeni hüquqi bazasının yaradılması ilə nəticələnmişdir. Bu hər şeydən əvvəl əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirak etdiyi ailə-hüquq münasibətlərinin tənzimlənməsi zamanı digər dövlətlərin qanunvericiliyi ilə nəzərdə tutulmuş bir sıra müddəaların nəzərə alınmasının vacibliyi ilə şərtləndirilir. Əks təqdirdə müxtəlif hüquq sistemləri arasında olan fərqlər ailə münasibətlərinin beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsində keçilməz sədd yaratmış olardı.

Ailə hüquq nəzəriyyəsində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə yaranan ailə-hüquq münasibətlərinin yaranmasının 4 əsası qeyd edilir:

1) münasibətlərin subyektlərindən birinin əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olması (məsələn, nikah Azərbaycan Respublikası vətəndaşı ilə İtaliya vətəndaşı arasında bağlanır; xarici vətəndaş tərəfindən övladlığa götürmə və sair);

2) münasibətin obyektinin (əmlakın) əcnəbi dövlətin ərazisində yerləşməsi (məsələn, mülkiyyət hüququ əsasında ər-arvada məxsus əmlakın hər hansı bir xarici dövlətdə olması);

3) ailə-hüquq münasibətlərinin əmələ gəlməsi, dəyişdirilməsi və ya ona xitam verilməsinin ölkə sərhədlərindən kənarda baş verməsi (məsələn, nikaha ölkə hüdudlarından kənarda xitam verilməsi; alimentin xarici ölkədə tutulması və sair);

4) ailə münasibətlərinin subyektinin xarici dövlətin ərazisində yaşaması (məsələn, uşağın valideynlərinin Azərbaycan Respublikası ərazisindən kənarda yaşadığı hallar) [5].

Təcrübə göstərir ki, bir çox hallarda xarici elementin iştirakı ilə əmələ gələn ailə hüquq münasibətlərinin tənzimlənməsi zamanı hüquqi tətbiq problemləri meydana gəlir. Bu zaman məsələnin həlli kollizion normaların tətbiqi ilə tənzimlənir. Kollizion norma dedikdə, mövcud hüquq münasibətinə hansı dövlətin hüququnun tətbiqi məsələlərini tənzimləyən normalar başa düşülür. Bu baxımdan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin

iştirakı ilə əmələ gələn ailə münasibətlərinin hüquqi tənzimlənməsinin mənbələrini nəzərdən keçirmək məqsədəmüvafiq olardı. Xarici elementlərin iştirakı ilə yaranan ailə münasibətlərinin tənzimləmə mənbələrinin 2 səviyyəsini gündəmə gətirmək olar:

1. Beynəlxalq normalar;

2. Azərbaycan Respublikasının qanunvericiliyi.

Azərbaycan Respublikasının Konstitusiyasına görə beynəlxalq hüququn ümumqəbuledilmiş prinsip və normaları və beynəlxalq müqavilələr ölkə hüquq sisteminin tərkib hissəsi hesab olunur.

Beynəlxalq normalara aşağıdakı hüquqi aktları aid etmək olar:

• universal xarakterli beynəlxalq müqavilələr: 1948-ci il İnsan Hüquqları haqqında Ümumi Bəyannamə, "Mülki və siyası hüquqlar haqqında" 16.12.1966-cı il tarixli Beynəlxalq pakt, " İqtisadi, sosial və mədəni hüquqlar haqqında" 16.12.1966-cı il tarixli Beynəlxalq pakt, İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında 1950-cı il tarixli Avropa Konvensiyası, Uşaq hüquqları haqqında BMT Konvensiyası və s.

• müxtəlif dövlətlərin vətəndaşlarının iştirakçısı olduğu ailə münasibətlərini tənzimləyən xüsusi beynəlxalq müqavilələr.

Qeyd edilən müqavilələr ümumi xarakterlidir və mülki və ailə məsələləri üzrə yardım göstərmə qaydalarını müəyyənləşdirir. Bu qəbildən olan hüquq normaları çoxtərəfli xarakter daşıyır (məsələn, "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquq münasibətləri haqqında" 1994-cü ildə qəbul edilmiş MDB-nin Minsk konvensiyasının 3-cü hissəsi, "Nikaha daxilolma, nikah yaşı və nikahın qeydə alınması haqqında 10.12.1962-ci il tarixli Konvensiya, "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında 29.05.1993-cü il tarixli Konvensiya və s.).

Azərbaycan Respublikasının ölkələrarası övladlığa götürmə ilə bağlı qanunvericiliyi Azərbaycan Respublikası Konstitusiyasından, Azərbaycan Respublikasının Ailə Məcəlləsindən, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsindən və Azərbaycan Respublikasının xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin iştirakçısı olduğu ayrı-ayrı ailə münasibətlərini tənzimləyən qanunvericilik aktlarından ibarətdir.

Nikahın bağlanması şərtləri və qaydası nikahın bağlanma yerindən (Azərbaycan Respublikasının ərazisində və ya onun hüdudlarından kənarda), nikaha girmək istəyən şəxslərin vətəndaşlığından və onların yaşayış yerindən asılıdır. Əgər nikah Azərbaycan Respublikası ərazisində bağlanırsa, onda tətbiq edilməli olan hüququn müəyyən etdiyi aşağıdakı qaydalar fəaliyyət göstərir:

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 146.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasında nikahın bağlanmasının forma və qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir. Bu o deməkdir ki, nikah bağlanması zamanı AM-nin 9-cu maddəsinin (nikah müvafiq icra hakimiyyəti orqanı tərəfindən bağlanması, nikaha daxil olmaq istəyən şəxslərin iştirakı, tibbi müayinədən keçmələri barədə arayışın təqdim edilməsi və s.) tələblərinə əməl edilməlidir.

Azərbaycan Respublikasının ərazisində əcnəbi şəxs üçün nikahın bağlanma şərtləri onun ölkəsinin qanunvericiliyi ilə və Azərbaycan Respublikası Ailə Məcəlləsinin 12-ci maddəsindəki (nikahın bağlanmasına mane olan hallar) tələblərə əməl olunmaqla müəyyən edilir. Əgər şəxsin ikili vətəndaşlığı vardırsa (bunlardan biri Azərbaycan Respublikası vətəndaşlığıdırsa), bu zaman nikahın bağlanma şərtlərinə Azərbaycan Respublikası qanunvericiliyinin tələbləri tətbiq edilir. Nikah bağlayan şəxsin vətəndaşlığı yoxdursa, nikahın bağlanması şərtləri onun daimi yaşadığı ölkənin qanunvericiliyi ilə müəyyən edilir.

Azərbaycan Respublikasının qanunvericiliyi diplomatik nümayəndəliklərdə və konsulluq idarələrində nikahın bağlanması qaydalarını da müəyyənləşdirmişdir. Ailə Məcəlləsinin 147-ci

maddəsinə əsasən Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşları arasında nikah Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluq idarələrində Azərbaycan Respublikası Ailə Məcəlləsinin tələblərinə uyğun olaraq bağlanır. Xarici ölkələrin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində bağlanan nikah Azərbaycan Respublikasında etibarlı hesab edilir. Bu qəbildən olan nikahlar ölkə ərazisində o zaman qəbul edilir ki, a) nikah münasibətinə girən hər iki şəxs nikahın bağlanma anında xarici dövlətin vətəndaşları olsunlar; b) xarici ölkələrin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində bağlanmış olsun.

Ölkə qanunvericiliyi Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının vətəndaşları arasında, Azərbaycan Respublikasının vətəndaşları ilə əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər arasında nikahın bağlanmasına yol verir, lakin bağlanmış nikah Ailə Məcəlləsinin 12-ci maddəsinin tələblərinə cavab verməlidir. Azərbaycan Respublikasından kənarda əcnəbilər arasında onların ölkəsinin qanunvericiliyinə əməl edilməklə bağlanan nikah Azərbaycan Respublikasında tanınır.

Qanunvericilik Azərbaycan Respublikasından kənarda Azərbaycan Respublikası vətəndaşları ilə əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər arasında nikahın ölkə ərazisində pozulması məsələsinə də aydınlıq gətirmişdir. Ailə Məcəlləsinin 150-ci maddəsinə əsasən Azərbaycan Respublikasından kənarda Azərbaycan Respublikası vətəndaşları ilə əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər arasında, eləcə də Azərbaycan Respublikası vətəndaşları arasında bağlanan nikahın Azərbaycan Respublikasında pozulması Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir. Bu o deməkdir ki, ər-arvadın vətəndaşlığından asılı olmayaraq Azərbaycan Respublikası ərazisində nikahın pozulması zamanı (həm inzibati və ya həm də məhkəmə qaydasında pozulduğu hallarda) Azərbaycan Respublikası qanunvericiliyi tətbiq edilir.

Azərbaycan Respublikasından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşının Azərbaycan Respublikasından kənarda yaşayan əri (arvadı) ilə bağladığı nikahı onun vətəndaşlığından asılı olmayaraq Azərbaycan Respublikasının məhkəmələrində pozula bilər. Bu qəbildən olan nikahların müvafiq icra hakimiyyəti orqanında pozulmasına ölkə qanunvericiliyi ilə yol verilirsə, həmin nikah Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində pozula bilər.

Azərbaycan Respublikası ərazisində və Azərbaycan Respublikasından kənarda bağlanmış nikahın etibarsız sayılması Ailə Məcəlləsinin 149-cu maddəsi ilə tənzimlənir. Maddənin məzmunundan göründüyü kimi Azərbaycan Respublikasının ərazisində əcnəbi şəxs üçün nikahın bağlanma şərtləri onun ölkəsinin qanunvericiliyi ilə və nikahın bağlanmasına mane olan hallar nəzərə alınmaqla müəyyən edilir. Əgər nikahın bağlanmasına mane olan hallar nəzərə alınmamışdırsa, onda nikah etibarsız hesab edilməlidir. Eyni qayda Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının vətəndaşları arasında, Azərbaycan Respublikasının vətəndaşları ilə əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər arasında həmin xarici ölkənin qanunvericiliyinə əməl edilməklə bağlanan nikahlara da şamil edilir.

Ər-arvadın şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələri Ailə Məcəlləsinin 151-ci maddəsi ilə tənzimlənir. Qeyd edilən normanın tətbiqinin əsasında «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikasının Qanunu dayanır. Məcəllənin 151.1-ci maddəsində qeyd edildiyi kimi, ər-arvadın şəxsi qeyri-əmlak, əmlak hüquq və vəzifələri ərazisində birgə yaşadıqları ölkənin qanunvericiliyi ilə müəyyənləşir, həmin ölkədə onların birgə yaşayış yeri olmadıqda, ər-arvad

axırıncı dəfə hansı ölkənin ərazisində birgə yaşayıblarsa, həmin ölkənin qanunvericiliyi ilə müəyyən edilir. Birgə yaşayış yeri olmayan ər-arvadın şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələri Azərbaycan Respublikası ərazisində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Ölkənin ailə qanunvericiliyi baxımından ər-arvadın şəxsi qeyri-əmlak hüquqlarına onların peşə, ixtisas seçmək, yaşayış yeri seçmək, soyad seçmək hüquqları daxildir. Əmlak hüquqları dedikdə isə, bura ər-arvadın nikah dövründə qazandıqları birgə mülkiyyətin rejimi, ər-arvadın ümumi mülkiyyət üzərində sahiblik, istifadə və sərəncam hüquqları və ər-arvadın öhdəliklər üzrə məsuliyyət hüquqları başa düşülür.

Ailə Məcəlləsinin 151.2-ci maddəsində ər-arvadın əmlak münasibətlərinə tətbiq ediləbiləcək hüquq normalarının seçim hüququ nəzərdə tutulmuşdur: ər-arvadın ümumi vətəndaşlığı və birgə yaşayış yerləri olmazsa, onların aliment tutulması barədə sazişdəki və ya nikah müqaviləsindəki hüquq və vəzifələrinin müəyyənləşdirilməsi üçün tətbiq olunan qanunvericiliyi özləri seçə bilərlər. Ər-arvad belə razılıq əldə etməyiblərsə, aliment tutulması barədə saziş və nikah müqaviləsi ilə bağlı hüquq və vəzifələr onların ərazisində birgə yaşadıqları ölkənin qanunvericiliyi ilə müəyyənləşir, həmin ölkədə onların birgə yaşayış yerləri olmadıqda, ər-arvad axırıncı dəfə hansı ölkənin ərazisində birgə yaşayıblarsa, həmin ölkənin qanunvericiliyi ilə müəyyən edilir. Birgə yaşayış yeri olmayan ər-arvadın şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələri Azərbaycan Respublikası ərazisində Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilir.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 152-ci maddəsinə uyğun olaraq atalığın (analığın) müəyyənləşdirilməsi və buna dair mübahisə açılması üçün uşağın anadan olmağa görə və vətəndaşı sayıldığı ölkənin qanunvericiliyi tətbiq edilir. Azərbaycan Respublikasında atalığın (analığın) müəyyənləşdirilməsi və buna dair mübahisə açılması Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə atalığın (analığın) müvafiq icra hakimiyyəti orqanında müəyyənləşdirilməsinə yol verilirsə, uşağın valideynləri Azərbaycan Respublikasında yaşamırlarsa və onlardan heç olmazsa biri Azərbaycan Respublikasının vətəndaşıdırsa, onların atalığı (analığı) müəyyənləşdirmək üçün Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluq idarəsinə müraciət etmək hüququ vardır.

Valideynlərin və uşaqların hüquq və vəzifələri Ailə Məcəlləsinin 153-cu maddəsi ilə tənzimlənir. Bu maddənin müddəaları valideyn və uşaqların bütün əmlak və qeyri-əmlak hüquq və vəzifələrinə şamil edilir. 153-cu maddəyə uyğun olaraq valideynlərin və uşaqların hüquq və vəzifələri, o cümlədən valideynlərin uşağı saxlamaq vəzifəsi onların birgə yaşadıqları ölkənin qanunvericiliyinə uyğun müəyyənləşdirilir.

Əgər uşaqlarla ata-ananın birgə yaşayış yeri yoxdursa, uşaqların və ata-ananın hüquq və vəzifələri uşağın vətəndaşı olduğu ölkənin qanunvericiliyi ilə müəyyənləşdirilir.

Aliment öhdəliklərinə və valideynlərlə uşaqlar arasında digər münasibətlərə, iddiaçının tələbi ilə, ərazisində uşaq daimi yaşayan ölkənin qanunvericiliyi tətbiq edilə bilər.

Yetkinlik yaşına çatmış şəxslərin və başqa ailə üzvlərinin aliment vəzifələri ərazisində birgə yaşadıqları ölkənin qanunvericiliyi ilə müəyyənləşdirilir. Birgə yaşayış yeri olmayan ailədə iddiaçı yaşadığı ölkənin qanunvericiliyinə uyğun olaraq aliment alır.

Göründüyü kimi, 154-cü maddənin müddəaları ər-arvadın, keçmiş ər-arvadın və valideynlərin uşaqların xeyrinə olan aliment öhdəliklərinə şamil edilmir. Bəhs edilən məsələ ilə bağlı müddəalar Ailə Məcəlləsinin digər maddələrində (151 və 153-cü maddə) nəzərdə tutulmuşdur.

BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının 21-ci maddəsinə uyğun olaraq uşağın başqa bir ölkədə övladlığa götürülməsi ona baxmağın alternativ üsulu hesab oluna

bilər, bir şərtlə ki, uşağın doğulduğu ölkədə ona münasib qaydada baxılmasının təmin edilməsi mümkün olmasın və uşaq onun tərbiyə olunmasını və ya övladlığa götürülməsini təmin edə biləcək ailəyə tərbiyə edilməyə, yaxud saxlanmağa verilə bilməsin [4].

Başqa sözlə, uşaq imkan daxilində mənşə etibarı ilə doğulduğu ölkədə tərbiyə almaq hüququna malikdir. Bu müddəa Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 117.5–ci maddəsində də öz əksini tapmışdır: “Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən uşaqların, habelə Azərbaycan Respublikasının vətəndaşı olmayan, lakin ailə qanunvericiliyinə uyğun olaraq vahid uçota alınmış uşaqların, övladlığa götürülməsinə, həmin uşaqları Azərbaycan Respublikası ərazisində daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının ailələrinə tərbiyəyə vermək mümkün olmadıqda və ya vətəndaşlığından və yaşayış yerindən asılı olmayaraq qohumları (bacıları, qardaşları, nənələri, babaları, valideynlərinin bacıları, qardaşları, onların övladları) övladlığa götürmədikdə icazə verilir.”.

Məcəllənin 155-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisində əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının vətəndaşı olan uşağı övladlığa götürmə və ya övladlığa götürmənin ləğvi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir, lakin nəzərə alınmalıdır ki, bu zaman Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisnalıq təşkil edir.

Azərbaycan Respublikasının ərazisində əcnəbi və ya vətəndaşlığı olmayan şəxs tərəfindən Azərbaycan Respublikasının vətəndaşı olan uşaq, övladlığa götürənin ölkəsinin (daimi yaşadığı ölkənin) qanunvericiliyinə uyğun olaraq övladlığa götürüldükdə, həmin ölkənin qanunvericiliyi ilə yanaşı, Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə də əməl edilməlidir. Bununla bərabər, Azərbaycan Respublikasının ərazisində xarici vətəndaş olan uşaq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən övladlığa götürüldükdə, buna uşağın qanuni nümayəndəsinin və uşağın vətəndaşı olduğu dövlətin səlahiyyətli orqanının, eləcə də həmin dövlətin qanunvericiliyi ilə tələb olunduqda uşağın özünün razılığını nəzərə almaq zəruridir.

Uşağın Azərbaycan Respublikasının qanunvericiliyi və tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş hüquqları övladlığa götürmə nəticəsində pozula bilərsə, övladlığa götürmə, övladlığa götürənin vətəndaşlığından asılı olmayaraq, həyata keçirilə bilməz, həyata keçirilmiş övladlığa götürmə isə məhkəmə qaydasında ləğv olunmalıdır.

Övladlığa götürənin vətəndaşı olduğu dövlətin səlahiyyətli orqanı tərəfindən Azərbaycan Respublikasının xaricdə yaşayan uşağını övladlığa götürməsi o şərtlə Azərbaycan Respublikasında etibarlı hesab edilir ki, buna Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən əvvəlcədən müvafiq razılıq alınsın.

Ölkələrarası övladlığa götürmə zamanı bir sıra prosedur tələblərinə əməl edilməlidir.

Razılığa gələn bir dövlətdə daimi yaşayan şəxslər, razılığa gələn digər dövlətdə daimi yaşayan uşağı övladlığa götürmək istədikdə, öz daimi yaşadıqları dövlətdə mərkəzi orqana müraciət etməlidirlər. Mərkəzi orqan dedikdə, Haaqa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndinə uyğun olaraq mərkəzi orqan qismində təyin edilmiş orqan başa düşülür. Azərbaycan Respublikası üçün bu orqan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir [1].

Əgər qəbul edən dövlətin mərkəzi orqanı əmin olsa ki, müraciət edən şəxslər övladlığa götürmək hüququna və ixtiyarına malikdirlər, onda həmin mərkəzi orqan, bu şəxslərin şəxsiyyətini, övladlığa götürmək hüququnun və ixtiyarının olmasını, tərcümeyi-halını, ailə və tibbi tarixini, sosial mühitini, övladlığa götürmənin səbəblərini, ölkələrarası övladlığa götürməni həyata keçirmək imkanına malik olduğunu, habelə onların övladlığa götürmək istədikləri uşağın səciyyəvi xüsusiyyətlərini əks etdirən məruzəni hazırlamalıdır. 3 Razılığa

gələn bir dövlətdə daimi yaşayan şəxslər, razılığa gələn digər dövlətdə daimi yaşayan uşağı övladlığa götürmək istədikdə, öz daimi yaşadıqları dövlətdə mərkəzi orqanına müraciət etməlidirlər [2].

Mərkəzi orqan həmin məruzəni mənşə dövlətin mərkəzi orqanına ötürür.

Əgər mənşə dövlət mərkəzi orqanı əmin olsa ki, uşaq övladlığa götürülə bilər, onda həmin orqan:

a) uşağın şəxsiyyətini, övladlığa götürmək imkanını, tərcümeyi-halını, sosial mühitini, ailə tarixini, eyni zamanda uşağın ailəsini əks etdirən tibbi tarixini və uşağın hər hansı bir xüsusi tələbatını əks etdirən məruzəni hazırlamalı;

b) uşağın tərbiyəsinə və onun etnik, dini və mədəni mənsubiyyətinə lazımı diqqət yetirməli;

c) xüsusilə uşağa və övladlığa götürmək niyyətində olan valideynlərə dair məruzəyə əsaslanaraq, uşağın yerləşdirilməsinin onun ali maraqlarına uyğun edildiyinin nəzərdən keçirilib-keçirilməməsini müəyyən etməlidir.

Mənşə dövlətdə ananın və atanın şəxsiyyəti açıqlana bilməzsə, bunun açılmamasını təmin etməklə, zəruri razılığın verildiyini, yerləşdirilməyə dair öz mülahizələrinin əsaslandığı səbəbləri təsdiq edən, uşaq barəsində olan məruzəsini qəbul edən dövlətin mərkəzi orqanına göndərir.

Mənşə dövlətdə uşağın övladlığa götürmək niyyətində olan valideynlərə təhvil verilməsi haqqında qərar yalnız aşağıdakı hallarda verilə bilər:

a) həmin dövlətin mərkəzi orqanı övladlığa götürmək niyyətində olan valideynlərin razılığına əmin olduqda;

b) həmin dövlətin qanunu və ya mənşə dövlətin mərkəzi orqanı təsdiq olunmanı tələb edən hallarda, qəbul edən dövlətin mərkəzi orqanı bu cür qərarı təsdiq etdikdə;

c) hər iki dövlətin mərkəzi orqanı övladlığa götürülmənin davam edilə biləcəyinə öz razılığını bildirdikdə;

d) müəyyən edilsə ki, övladlığa götürmək niyyətində olan valideynlər övladlığa götürmək hüququna malikdirlər və buna münasibdirlər və uşağın qəbul edən dövlətə daxil olmaq və ərazisində daimi qalmaq hüququ vardır və ya belə hüquq veriləcəkdir.

Mərkəzi orqanlar övladlığa götürmə prosesi barədə və onun başa çatdırılması üçün görülmüş tədbirlər, habelə sınaq müddəti tələb olunduqda, yerləşdirmənin hansı mərhələdə olması barədə bir-birini məlumatlandırırlar.

Övladlığa götürmə uşağın qəbul edən dövlətə köçürülməsindən sonra baş verdikdə və həmin dövlətin mərkəzi orqanı uşağın övladlığa götürmək niyyətində olan valideynlərdə fasiləsiz qalmasının uşağın ali maraqlarına uyğun olmadığını aşkar etdikdə, mərkəzi orqan bu cür uşağın müdafiəsi, xüsusilə də aşağıdakıları təmin etmək üçün zəruri tədbirlər görür:

a) uşağı övladlığa götürmək niyyətində olan valideynlərdən geri götürməyə məcbur etmək və müvəqqəti qayğı göstərmək;

b) mənşə dövlətin mərkəzi orqanı ilə məsləhətləşmələr əsasında, övladlığa götürmək məqsədilə təxirə salmadan uşağın yenidən yerləşdirilməsini təmin etmək və ya, əgər bunu etmək mümkün deyilsə, buna alternativ uzunmüddətli qayğı göstərmək.

Mənşə dövlətin mərkəzi orqanı övladlığa götürmək niyyətində olan yeni valideynlər barəsində lazımi qaydada məlumatlandırılmayana qədər övladlığa götürmə həyata keçirilə bilməz;

c) son vasitə kimi, əgər uşağın maraqları bunu tələb edirsə, onun qaytarılmasını təşkil etmək.

Ölkələrarası övladlığa götürmə zamanı nəzərdə tutulan prosedur qaydalara düzgün əməl edilməsi üçün hüquqi yardım vacib şərtlərdən biridir. Hüquqi yardım göstərən orqanların hüquq və vəzifələri Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2008-ci il 22 iyul tarixli 166№-li qərarı ilə təsdiq edilmiş "Ölkələrarası övladlığa götürmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən orqanlarının akkreditasiya Qaydası"nda öz əksini tapmışdır (Akkreditasiya - Azərbaycan Respublikasının

vətəndaşı olan uşaqları övladlığa götürən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardımın göstərilməsi üçün hüquqi şəxslərə icazənin verilməsidir).

Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının ərazisində ölkələrarası övladlığa götürmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım mərkəzi orqanın akkreditə etdiyi orqanlar tərəfindən həyata keçirilə bilər. Akkreditə edilmiş orqanın fəaliyyəti qeyri-kommersiya xarakteri daşıyır. Akkreditə edilmiş orqan övladlığa götürmə ilə bağlı əsassız maliyyə qazancı və ya hər hansı başqa mənfəət əldə edə bilməz. Akkreditə edilmiş orqana yalnız övladlığa götürmə ilə bağlı xərclər, o cümlədən hüquqi yardımın göstərilməsi, işçilərin əməkhaqqı, sənədlərin tərtibatı, övladlığa götürülmüş uşaqların həyatı barədə məlumatların toplanılması üçün zəruri olan maliyyə vəsaitləri ödənilir. Akkreditə edilmiş orqanın övladlığa götürən şəxslərə göstərdiyi xidmətlərin dəyəri onlar arasında bağlanan müqavilə ilə müəyyən olunur. Akkreditasiya iki il müddətinə verilir.

Qərarda akkreditə edilmiş orqanın vəzifələri aşağıdakı kimi təsbit edilmişdir:

• Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ölkələrarası övladlığa götürmə məsələləri ilə bağlı Azərbaycan Respublikasının vətəndaşı olan uşağı övladlığa götürmək istəyən əcnəbi və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım və digər xidmətləri göstərmək;

• uşağı övladlığa götürmək istəyən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciəti əsasında onları övladlığa götürmə prosesində təmsil etmək, bununla bağlı qanunvericiliklə müəyyən edilmiş tədbirləri həyata keçirmək;

• övladlığa götürmə ilə bağlı təqdim edilən sənədlərin müəyyən olunmuş qaydada tərtib edilməsini təmin etmək;

• övladlığa götürən şəxslərin daxili qeydiyyatını aparmaq, onların sənədlərinin saxlanılmasını təmin etmək;

• mərkəzi orqan tərəfindən müəyyən edilmiş məhdudiyyətlər çərçivəsində uşaqların övladlığa götürülməsi ilə bağlı zəruri tədbirləri həyata keçirmək;

• övladlığa götürülmüş uşaqların gələcək həyatı barədə Azərbaycan Respublikasının mərkəzi orqanını öz səlahiyyətləri daxilində məlumatlandırmaq, mərkəzi orqanın müəyyən etdiyi müddət ərzində onların həyatına nəzarət edilməsini təmin etmək, övladlığa verilmiş uşağın sosial-psixoloji vəziyyəti, sağlamlıq durumu, inkişafı, təhsili, uşağı övladlığa götürmüş ailənin maddi və psixoloji vəziyyəti, uşaqla ailədə davranış və uşağın davranışı, ailəyə uyğunlaşması və s. barədə məlumatları toplamaq və mərkəzi orqana təqdim etmək;

• mərkəzi orqanın sorğusuna əsasən tələb olunan sənədləri müəyyən olunmuş müddətdə təqdim etmək;

• övladlığa götürən şəxslər barədə ətraflı məlumatları mərkəzi orqana təqdim etmək;

• ölkələrarası övladlığa götürmə üçün qanunla müəyyən edilmiş tələblərə uyğun gəlməyən şəxslər barədə məlumatları mərkəzi orqana təqdim etmək;

• ildə iki dəfə, altı aydan bir olmaqla, öz fəaliyyəti, maliyyə durumu və mərkəzi orqan tərəfindən tələb edilən digər məsələlər barədə ətraflı məlumatı mərkəzi orqana təqdim etmək (hesabatda işçilərin əməkhaqları, fəaliyyət dövründə xərcləri, gəlirləri və digər məlumatlar əks etdirilir);

• özü barədə zəruri məlumatları (ünvanı, əlaqə üçün məlumatları, təsisçiləri, işçi heyəti, strukturu, fəaliyyət dairəsi və s.) və xarici ölkədə nümayəndəliklərinin dəyişməsi və ya yenidən formalaşdırılması ilə əlaqədar məlumatları mərkəzi orqana təqdim etmək;

• ölkələrarası övladlığa götürmə ilə bağlı qarşılaşdığı çətinliklər və fəaliyyətinə mənfi təsir edən hallar barədə mərkəzi orqana məlumat vermək;

• öz fəaliyyətinin şəffaflığını təmin etmək;

• akkreditə edilməsi üçün müraciət etdikdə, təqdim etdiyi məlumatlardan hər hansı birinin dəyişməsi barədə mərkəzi orqana məlumat vermək;

• uşağın övladlığa verilməsi ilə bağlı digər vəzifələri həyata keçirmək.

Akkreditə edilmiş orqan öz fəaliyyəti, riayət edilən prosedur qaydaları, övladlığa götürmə ilə bağlı həyata keçirilən xidmətlər və onların dəyəri barədə mütəmadi olaraq mərkəzi orqanı məlumatlandırmalıdır.

Akkreditə edilmiş orqan aşağıda göstərilən qaydada müvafiq məlumatları Azərbaycan Respublikasının mərkəzi orqanına təqdim etməyə borcludur:

övladlığa götürülmüş uşaqların ölümü, onlarla qəddar rəftar, uşaqların övladlığa götürənin ailəsinə adaptasiya olunmaması, övladlığa götürmədən imtina və ya uşaqların başqa ailəyə yenidən verilməsi ilə əlaqədar təcili məlumatlar - 24 saat müddətində;

övladlığa götürməyə namizədlərin həyat şəraiti, övladlığa götürülmüş uşağın həyat şəraiti üzərində nəzarətin həyata keçirilməsi ilə bağlı hesabatlar və məlumatlar. Bu məlumatlarla bağlı qanunvericilik aşağıdakı müddətləri müəyyənləşdirmişdir:

a) Uşağın övladlığa götürülməsindən sonra birinci ildə uşağın həyat şəraiti və tərbiyəsi ilə əlaqədar vəziyyət məhkəmənin övladlığa götürmə haqqında qərarı qüvvəyə mindiyi tarixdən 5-ci ay bitənədək araşdırılmalı və hesabat məhkəmənin övladlığa götürmə haqqında qərarı qüvvəyə mindiyi tarixdən etibarən, 7-ci ay bitməmiş təqdim edilməlidir.

b) Uşağın həyat şəraiti və tərbiyəsi ilə bağlı ikinci araşdırma övladlığa götürmə haqqında məhkəmənin qərarı qüvvəyə mindiyi tarixdən 11-ci ay bitənədək aparılmalı və hesabat məhkəmənin övladlığa götürmə haqqında qərarı qüvvəyə mindiyi gündən etibarən, 13-cü ay bitməmiş təqdim edilməlidir.

c) Uşağın həyat şəraiti və tərbiyəsi ilə əlaqədar vəziyyətin üçüncü dəfə təhlil edilməsi övladlığa götürmə haqqında məhkəmənin qərarı qüvvəyə mindiyi tarixdən 18-ci ay bitənədək həyata keçirilməli və hesabat məhkəmənin övladlığa götürmə haqqında qərarı qüvvəyə mindiyi gündən etibarən, 19-cu ay bitməmiş təqdim edilməlidir.

d) Uşağın həyat şəraiti və tərbiyəsi ilə əlaqədar vəziyyətin dördüncü dəfə təhlil edilməsi övladlığa götürmə haqqında məhkəmənin qərarı qüvvəyə mindiyi tarixdən 23-cü ay bitənədək həyata keçirilməli və hesabat məhkəmənin övladlığa götürmə haqqında qərarı qüvvəyə mindiyi gündən etibarən, 25-ci ay bitməmiş təqdim edilməlidir.

e) Uşağın həyat şəraiti və tərbiyəsi ilə əlaqədar beşinci araşdırma övladlığa götürmə haqqında məhkəmənin qərarı qüvvəyə mindiyi tarixdən 35-ci ay bitənədək aparılmalı və hesabat məhkəmənin övladlığa götürmə haqqında qərarı qüvvəyə mindiyi gündən etibarən, 37-ci ay bitməmiş təqdim edilməlidir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin sözügedən qərarına əsasən, Akkreditə edilmiş orqan tərəfindən övladlığa götürmə ilə bağlı aşağıdakı xidmətlər göstərilə bilər:

• əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkələrarası övladlığa götürmə ilə bağlı hüquqi yardım göstərmək;

• ölkələrarası övladlığa götürməklə əlaqədar əlavə xidmətlər təklif etmək.

Qeyd etmək lazımdır ki, akkreditə edilmiş orqan ölkələrarası övladlığa götürmə ilə əlaqədar adı çəkilən Qaydada nəzərdə tutulmamış digər xidmətlərin göstərilməsi üçün mərkəzi orqanın razılığını almalıdır.

Hüquqi yardımın dairəsinə aşağıdakılar daxildir:

• Azərbaycan Respublikası vətəndaşı olan uşağı övladlığa götürən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin övladlığa götürmənin ölkədaxili və beynəlxalq hüquq qaydaları barədə məlumatlandırılması;

• övladlığa götürən şəxslərin hüquq və vəzifələri barədə məlumatlandırılması;

• övladlığa götürmə ilə bağlı sənədlərin toplanması və tərtib edilməsi;

• toplanmış sənədlərin qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq etdirilməsi;

• övladlığa götürmək istəyən şəxslərin adından məhkəməyə müraciət edilməsi və məhkəmədə təmsilçiliyin həyata keçirilməsi;

• övladlığa götürən şəxslərin ailə vəziyyəti, əmlak vəziyyəti, ailədaxili durum, ailədə münasibətlər, övladlığa götürənlərin tibbi müayinəsi, məsuliyyətə cəlb edilib-edilməməsi barədə və tələb olunan digər məlumatların mərkəzi orqan tərəfindən müəyyən edilən xüsusi anket formasına uyğun olaraq hazırlanması;

• övladlığa götürmək istəyən şəxslərin sənədlərinin mərkəzi orqana təqdim edilməsi;

• övladlığa verilən uşaq barədə məlumatların toplanılması və övladlığa götürmək istəyən şəxslərə təqdim edilməsi;

• övladlığa götürmək istəyən şəxslərə ölkəyə gəlmək üçün tələb olunan sənədlərin hazırlanmasında və onların Azərbaycan Respublikasına gəlişi və gedişi ilə bağlı məsələlərdə köməklik göstərilməsi;

• digər dövlətlərin akkreditə edilmiş orqanları ilə əməkdaşlıq.

Akkreditə edilmiş orqan övladlığa götürmənin, habelə övladlığa götürmə prosesində ona təqdim edilmiş məlumatların və sənədlərin konfidensiallığını (məxfiliyini) təmin etməlidir. Övladlığa götürmə ilə bağlı məlumat və sənədlər daim məxfi qaydada saxlanılır və onların mühafizəsi təşkil edilir. Akkreditə edilmiş orqanın fəaliyyətinə xitam verildikdə, saxlanılan konfidensial sənədlər və məlumatlar aidiyyəti üzrə dərhal mərkəzi orqana təhvil verilməlidir.

Qanunvericilik akkreditə edilmiş orqanın fəaliyyəti üzərində nəzarət mexanizmini də müəyyənləşdirmişdir. Nəzarət mərkəzi orqan tərəfindən həyata keçirilir. Akkreditə edilmiş orqanın fəaliyyəti ilə bağlı şikayətlərə mərkəzi orqan tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada baxılır. Bu orqanın fəaliyyəti üzərində nəzarətin həyata keçirilməsinin əsas forması həmin orqanın fəaliyyəti barədə məlumatların toplanması və toplanmış məlumatların qiymətləndirilməsidir.

Akkreditə edilmiş orqanın fəaliyyəti üzərində nəzarət həyata keçirilərkən aşağıdakılar nəzərə alınmalıdır:

• akkreditə edilmiş orqan və ya onun işçiləri tərəfindən qanunvericiliyin pozulması barədə Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarından, yerli özünüidarəetmə orqanlarından, xarici dövlətlərin mərkəzi orqanlarından və fiziki şəxslərdən alınmış məlumatlar;

• uşağın həyat şəraiti ilə bağlı nəzarətin həyata keçirilməsi, habelə övladlığa götürmə ilə bağlı hesabatların və digər məlumatların təqdim edilməsi öhdəliyinin yerinə yetirilməməsi halları;

• qanunvericiliyin pozulması ilə əlaqədar əvvəllər yol verilmiş pozuntuların akkreditə edilmiş orqan tərəfindən aradan qaldırılması.

İşçilərin əməkhaqları akkreditə edilmiş orqan tərəfindən müəyyən olunur və övladlığa götürülmüş uşaqların sayından asılı ola bilməz.

Akkreditə edilmiş orqan göstərdiyi xidmətlər üzrə qiymətlər barədə mərkəzi orqana məlumat verməli və həmin qiymətləri əsaslandırmalıdır. Müəyyən edilmiş qiymətlərdən kənar hər hansı ödəmələrin təyin edilməsi qadağandır. Akkreditə edilmiş orqanın fəaliyyətinin mənfəət əldə edilməsinə yönəlməsi akkreditasiyanın ləğv edilməsi üçün əsasdır.

Təqdim edilmiş məlumatların doğruluğu şübhə yaratdıqda və ya şəffaflıq baxımından qənaətbəxş olmadığı halda, mərkəzi orqan təqdim olunmuş məlumatları araşdırmaq, zəruri sənədləri və ya audit yoxlamasının aparılmasını tələb etmək səlahiyyətinə malikdir.

Göstərilən xidmətlərə görə müəyyən edilmiş qiymətlər barədə akkreditə edilmiş orqan tərəfindən məlumat tərtib edilməli və övladlığa götürmə ilə bağlı müraciət edən şəxslərə əvvəlcədən təqdim edilməlidir.

Aşağıdakı hallarda mərkəzi orqanın qərarı ilə akkreditasiyaya xitam verilir:

• akkreditə edilmiş orqan tərəfindən qanunvericiliklə müəyyən edilmiş tələblər pozulduqda;

• akkreditə edilmiş orqan tərəfindən akkreditasiya zamanı yanlış məlumatlar təqdim edildikdə;

• akkreditə edilmiş orqan öz vəzifələrini yerinə yetirmədikdə;

• akkreditə edilmiş orqan akkreditasiya qaydasında müəyyən olunmuş hüdudlardan kənar fəaliyyət göstərdikdə;

• xarici dövlət tərəfindən verilmiş akkreditasiyanın müddəti bitdikdə və ya bu akkreditasiyaya xitam verildikdə;

• akkreditə edilməsi üçün müraciət etmiş hüquqi şəxs ləğv edildikdə;

• akkreditə edilmiş hüquqi şəxs tərəfindən fəaliyyətində yol verdiyi nöqsanlar aradan qaldırılmadıqda.

Maraq doğuran məsələlərdən biri də övladlığa götürmə barədə müraciəti övladlığa götürmə üzrə xarici təşkilatın nümayəndəliyi etdikdə hüquqi yardımın kim tərəfindən həyata keçirilməsi ilə bağlıdır. "Övladlığa götürmə və övladlığa götürmənin ləğvi ilə əlaqədar mülki işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 29 oktyabr 2009-cu il tarixli qərarı bu məsələyə aydınlıq gətirmiş və qeyd edilmişdir ki, övladlığa götürmə barədə müraciəti övladlığa götürmə üzrə xarici təşkilatın nümayəndəliyi etmişsə, bu cür hüquqa yalnız Azərbaycan Respublikası ərazisində akkreditasiyası olan nümayəndəlik malikdir [2].

**Ədəbiyyat:**

1. «Ölkələrarası övladlığa götürmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən orqanların akkreditasiya Qaydası»nın təsdiq edilməsi haqqında NK-nin 22.07.2008-ci il tarixli 166 nömrəli Qərarı http://www.e-qanun.az/framework/15267#
2. Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında Konvensiya https://www.migration.gov.az/content/pdf/5acb48b0f259c_%C3%96lk%C9%99l%C9%99raras%C4%B1%20%C3%B6vladl%C4%B1%C4%9Fa%20g%C3%B6t%C3%BCrm%C9%99.pdf
3. "Övladlığa götürmə və övladlığa götürmənin ləğvi ilə əlaqədar mülki işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 29 oktyabr 2009 -cu il tarixli qərarı http://supremecourt.gov.az/post/view/167
4. Uşaq Hüquqları haqqında BMT-nin 20 noyabr 1989-cu il tarixli Konvensiyası https://migration.gov.az/content/pdf/5acb09f3100d0_U%C5%9Faq%20h%C3%BCquqlar%C4%B1%20haqq%C4%B1nda%20Konvensiya.pdf
5. Семейное право, учебник, ответственный редактор С.О.Лозовская, Москва, Проспект, 2014 с.334

***Açar sözlər:*** *əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, övladlığa götürmə, akkreditasiya, mərkəzi orqan*

**Isakhan Valiyev**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Head of Department of Law, Doctor of Law, professor*

# PARTICIPATION OF FOREIGNERS AND NON-CITIZENS IN FAMILY RELATIONS: IN THE CONTEXT OF RECENT AMENDMENTS TO FAMILY LAW

## ABSTRACT

The author raises the issue of participation of foreigners and stateless persons in family law relations, approaches the problem in the context of recent changes in family legislation, analyses the legislation on the adoption of children of Azerbaijani citizens by foreigners and stateless persons, talks about the rights and responsibilities of legal entities. The author rightly notes that in the case of adoption by foreigners and stateless persons, the requirements of international law on international adoption must be followed strictly, and the procedures established by national legislation must be observed.

***Keywords:*** *foreigners, stateless persons, adoption, accreditation, central agency*

**Исахан Велиев**
*Заведующий кафедрой Права*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор юридических наук, профессор*

# УЧАСТИЕ ИНОСТРАНЦЕВ И ЛИЦ БЕЗ ГРАЖДАНСТВА В СЕМЕЙНЫХ ОТНОШЕНИЯХ: В КОНТЕКСТЕ ПОСЛЕДНИХ ДОПОЛНЕНИЙ И ПОПРАВОК К СЕМЕЙНОМУ ЗАКОНОДАТЕЛЬСТВУ

## РЕЗЮМЕ

Автор поднимает вопрос об участии иностранцев и лиц без гражданства в семейно-правовых отношениях, подходит к проблеме в контексте последних изменений в семейном законодательстве, анализирует законодательство об усыновлении детей граждан Азербайджана иностранцами и лицами без гражданства. Автор справедливо отмечает, что усыновление иностранцев и лиц без гражданства должно строго соответствовать требованиям международного права о международном усыновлении, а также должны соблюдаться процедуры, установленные национальным законодательством.

***Ключевые слова:*** *иностранцы, лица без гражданства, усыновление, аккредитация, центральный орган*

**H Ü Q U Q**
**L A W**

UOT 347.965

**ŞAHMAR MƏMMƏDOV**
**Vəkillərin İntizam Komissiyasının sədri,**
**Hüquqi yardım və Tədris mərkəzinin direktoru**
*email: mshahmar@yahoo.com*

# VƏKİLLİYİN İNKİŞAFININ AZƏRBAYCAN MODELİ

Hər bir hüquqi dövlətdə olduğu kimi vətənimiz Azərbaycanda da insan hüquq və azadlıqları prioritet məsələlərdən biri sayılmaqla buna böyük önəm verilir. İnsan hüquq və azadlıqlarının qorunmasının dövlət qayğısı ilə əhatə olunması, həyata keçirilən məhkəmə hüquq islahatları və bunun tərkib hissəsi olan vəkillik fəaliyyətində həyata keçirilən islahatlar insan hüquq və azadlıqlarının qorunmasının inkişafına öz müsbət təsirini göstərmişdir. Ədalət mühakiməsində vəkillik fəaliyyətinin rolu və əhəmiyyəti hamıya məlumdur. Bu fəaliyyət inkişaf etdikcə, bu fəaliyyətə geniş imkanlar yarandıqca bundan da vəkillərlə bərabər vətəndaşlarımız bəhrələnir və insan hüquq və azadlıqlarının qorunması daha da təminatlı olur. Ulu Öndər, mərhum Heydər Əliyevin söylədiyi kimi, "İnsan hüquqlarının qorunması Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir." Bu prinsiplərə riayət edilməsi, Azərbaycanda vəkilliyin inkişafı və bu sahədə yüksək nailiyyətlərə nail olunmasına səbəb olmuşdur. Vəkillik fəaliyyətinin bugünkü inkişafı qət edilmiş uzaq bir məsafənin məntiqi nəticəsidir. Belə ki, vəkilliyin inkişafının təməlinin 1995-ci ildə qəbul edilmiş Konstitusiya ilə qoyulduğunu desək yanılmarıq. Belə ki, Ulu Öndər, Ümummilli Lider, mərhum Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Konstitusiya layihəsi ümumxalq səsverməsi ilə qəbul edilmiş və Konstitusiya aktında məhkəmə hüquq islahatlarının gələcək inkişafına rəvac verən, insan hüquq və azadlıqlarını əhatə edən və ədalət mühakiməsi ilə sıx bağlı olan bir çox müddəalar əksini tapmışdır. Ali hüquqi qüvvəyə malik olan Konstitusiya aktında hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilməsinin, hər kəsin işinə qərəzsiz yanaşılmaqla inzibati icraat və məhkəmə prosesində işinə ağlabatan müddətdə baxılmasının, hər kəsin dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilməsinin əksini tapması ilə bərabər hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ olmasının, qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardımın ödənişsiz, dövlət hesabına göstərilməsinin, hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ olmasını qeyd edə bilərik. O cümlədən təqsirsizlik prezumpsiyasına, bir cinayətə görə təkrarən məhkum etməyə yol verilməməsinə, məhkəməyə təkrar müraciət hüququnu, qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yolverilməməsinə, tutulan, həbsə alınan və cinayət törədilməsində təqsirləndirilən şəxslərin hüquqları və digər bir çox hüquq və azadlıqlara dair müddəaları misal göstərə bilərik.

Qeyd edilən və edilməyən digər bir çox müddəaların Konstitusiyada əksi insan hüquq və azadlığına Azərbaycanda verilən yüksək dəyər kimi qiymətləndirilməlidir. Bu, vəkilliyin gələcək inkişafına böyük təkan vermiş və məhkəmə hüquqi islahatları çərçivəsində Ulu öndər, mərhum Heydər Əliyev tərəfindən

imzalanmış 28 dekabr 1999-cu il tarixli Fərmana əsasən "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu qüvvəyə minmişdir. Həmin qanunla post-sovet məkanında ilk dəfə olaraq vətənimiz Azərbaycanda vəkilliyin müstəqilliyinə nail olan, vəkillik fəaliyyətinə geniş hüquqlar verilməklə onların öz peşə fəaliyyətini maneəsiz həyata keçirilməsinə zəmin yaradılmışdır. Bu qanunla, vəkillik fəaliyyəti tam müstəqilliyinə qovuşmuşdur. Bu qanunla vəkillik fəaliyyətinin müstəqilliyə nail olmasının mahiyyətinin tam aydın olması üçün əvvəllər qüvvədə olan "Azərbaycan SSR vəkilliyi haqqında" Əsasnamənin (bundan sonra Əsasnamə) müddəalarına nəzər yetirməyimiz kifayət edər. Belə ki, Əsasnaməyə əsasən Kollegiya üzvlərinin ümumi yığıncağı (konfransı) Vəkillər Kollegiyası Rəyasət Heyətinin təşəbbüsü, Azərbaycan SSR Ədliyyə Nazirliyinin təklifi, həmçinin Kollegiya üzvləri tərkibinin azı üçdə bir hissəsinin tələbi ilə çağırılırdı. Vəkillər Kollegiyasının say tərkibinin, ştatlarının, mədaxil və məxaric smetasının müəyyən edilməsi Azərbaycan SSR Nazirlər Sovetinin tərəfindən təsdiq edilirdi. SSRİ Ədliyyə Nazirliyi tərəfindən qoyulan qaydalara müvafiq surətdə vəkillərin əmək haqqının ödənilməsi qaydası müəyyən edilir və hüquq məsləhətxanalarının müdirlərinin vəzifəyə təyin edilməsi Azərbaycan SSR Ədliyyə Nazirliyi, Naxçıvan MSSR Ədliyyə Nazirliyi, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin ədliyyə şöbəsi ilə razılaşdıraraq vəzifəyə təyin və vəzifədən azad edirdi. Hüquq məsləhətxanasının yeri Vəkillər Kollegiyasının Rəyasət Heyəti müvafiq surətdə Azərbaycan SSR Ədliyyə Nazirliyi, Naxçıvan MSSR Ədliyyə Nazirliyi, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin ədliyyə şöbəsi, habelə rayon, şəhər, şəhərdə Rayon Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi ilə razılaşdırıb müəyyən edirdi. Əsasnamənin 26-cı maddəsinə əsasən Azərbaycan SSR Ədliyyə naziri vəkilin intizam məsuliyyətinə dair iş qaldırılmasını Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədrinə təklif etmək ixtiyarına malik olmuş, müvafiq surətdə Naxçıvan MSSR Ədliyyə naziri, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi ədliyyə şöbəsinin rəisi vəkilin intizam məsuliyyəti haqqında iş qaldırmaq barəsində məsələ qoymaq ixtiyarına malikdir olmuşdur. İntizam tənbehi tətbiq olunması haqqında Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarından intizam tənbehi tətbiq etmək haqqında qərarın surətinin təqdim olunduğu gündən bir ay müddətində Kollegiya üzvlərinin ümumi yığıncağına (konfransına), qüvvədə olan qanunvericiliyin pozulmasına yol verildiyi halda isə həmçinin Azərbaycan SSR Ədliyyə nazirinə şikayət verilə bilərdi. Əsasnaməyə əsasən Azərbaycan SSR Ali Soveti, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti və Azərbaycan SSR Nazirlər Soveti həm bilavasitə, həm də Azərbaycan SSR Ədliyyə Nazirliyi vasitəsilə Vəkillər Kollegiyasına ümumi rəhbərlik etmiş və Vəkillər Kollegiyası barəsində SSRİ Ədliyyə Nazirliyinin hüquqları və vəzifələri "SSRİ-də vəkillik haqqında" SSRİ Qanunu ilə və SSR İttifaqının digər qanunvericiliyi ilə tənzimlənirdi. Azərbaycan SSR Ədliyyə Nazirliyi öz səlahiyyəti daxilində vəkilliyin fəaliyyətini tənzim etmək barəsində SSR İttifaqının və Azərbaycan SSR-in digər qanunvericilik aktlarında nəzərdə tutulan tələblərə Vəkillər Kollegiyası tərəfindən əməl olunmasına nəzarət etmiş, vətəndaşlara və təşkilatlara vəkillər tərəfindən hüquqi yardım göstərilməsi qaydasını müəyyən etmiş, Vəkillər Kollegiyasının iş təcrübəsini ümumiləşdirmiş, Kollegiyanın Rəyasət Heyətinin, hüquq məsləhətxanalarının və ayrı-ayrı vəkillərin müsbət iş təcrübəsinin yayılmasını təşkil etmiş, vəkilliyin fəaliyyəti ilə əlaqədar məsələlər barəsində təlimatlar və metodik tövsiyələr vermiş, vəkilliyə ümumi rəhbərliklə əlaqədar başqa səlahiyyətlərini həyata keçirmişdir.

Sadalanan bu müddəaların mahiyyəti onu göstərir ki, əvvəlki mövcud qanunvericiliyə əsasən vəkillik fəaliyyətinə qanunverici və mərkəzi icra hakimiyyəti orqanlarının geniş müdaxilə imkanları olmuş və həmin qurumlar

vəkillik fəaliyyətində aktiv iştirak etmişdir. Lakin “Vəkil və vəkillik fəaliyyəti haqqında” qanunda biz bunun tamamilə əksini görmüş oluruq. Belə ki, qanunun qəbulu ilə vəkillərin onun müvafiq qurumlarının mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə hər hansı bir asılılığı tamamilə aradan qalxmış, qanunla hüquq mühafizə orqanlarının və digər dövlət orqanlarının müdaxiləsinə son qoyulmuşdur. Kollegiya üzvlərinin ümumi yığıncağının çağırılmasında, Vəkillər Kollegiyasının say tərkibinin, ştatlarının, mədaxil və məxaric smetasının müəyyən edilməsində, vəkillərin əmək haqqının ödənilməsi qaydasının müəyyən edilməsində, vəkil qurumlarının vəzifəyə seçilməsində, vəkillərin intizam məsuliyyətinə cəlb edilməsində və ümumiyyətlə vəkillik fəaliyyətində dövlət qurumlarının hər hansı bir müdaxiləsi, hər hansı bir təsiri nəzərdə tutulmamışdır. Əksinə olaraq bu qanunda açıq-aydın qeyd edilmişdir ki, Azərbaycan Respublikasında vəkillik hüquq müdafiə fəaliyyətini peşəkarcasına həyata keçirməli olan müstəqil hüquqi təsisatdır və vəkilliyin əsaslarını Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna, Azərbaycan Respublikasının prosessual qanunvericiliyinə və Azərbaycan Respublikasının digər qanunlarına əməl edilməsi, vəkillərin və onların birliyinin peşəkar fəaliyyətinə prokurorluq, məhkəmə, digər dövlət orqanları, ictimai birliklər, hər hansı müəssisə, idarə, təşkilat və vəzifəli şəxs tərəfindən müdaxiləyə, təzyiqə yol verilməməsi, vəkillərin hüquqlarının bərabərliyi və özünüidarəetməsi, vəkillər və vəkillik fəaliyyətinə dair məsələlər üzrə müstəqil qərar qəbul edilməsi təşkil edir. Eyni zamanda Azərbaycan Respublikasında qeyri-dövlət, müstəqil, özünü idarə edən və bütün vəkillərin daxil olduğu Vəkillər Kollegiyası fəaliyyət göstərməsini, vəkilin peşə borcunu həyata keçirməklə əlaqədar ona məlum olan hallar barədə dindirməsinin qadağan edilməsini, peşə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar vəkillər tərəfindən toplanılan sənədlərin və digər sübutların, vəkillik icraatlarının (dosyenin) istintaq və məhkəmə orqanları tərəfindən tələb edilməsinin və götürülməsinin qadağan edilməsini göstərmək olar. Qanunla Vəkilliyin maliyyə müstəqilliyi də təmin edilərək bunun Vəkillər Kollegiyasının vəsaitinin ona daxil olan üzvlük haqqından yaranmasının təsbit edilməsini göstərə bilərik. Vəkillər Kollegiyasının sədri, cənab Anar Bağırov bu günlərdə Moskva şəhərində işgüzar səfərdə olarkən keçirilən beynəlxalq konfransda çıxışı zamanı da Azərbaycanda vəkilliyin bəzi aspektlərinə toxunaraq bildirmişdir ki, ölkəmizdə vəkilliyin müstəqilliyinə 20 ildən artıqdır ki, tam nail olunmuş, vəkillərin sayının sürətlə artaraq gənc hüquqşünasların vəkilliyə güclü axını vardır. Eyni zamanda, çıxışında vurğulanmışdır ki, güclü təşkilat maliyyə cəhətdən də müstəqil olmalıdır.

Vəkillər Kollegiyasının müstəqil olaraq fəaliyyət göstərməsi və onun inkişafı insan hüquq və azadlıqlarının möhkəmləndirilməsinə birbaşa təsir edir. Möhtərəm, cənab Prezident İlham Əliyevin söylədiyi kimi “Güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyəti vardır”.

Digər ölkələrin təcrübəsinə müraciət etsək, görərik ki, bir çox ölkələrdə vəkillik fəaliyyəti müəyyən mənada mərkəzi icra hakimiyyəti orqanlarından asılılığı qalmışdır. Misal üçün, qonşu Rusiya Federasiyasında vəkillərin reyestri Ədliyyə Nazirliyi tərəfindən aparılır və vəkillərə vəsiqələr nazirlik tərəfindən verilir. Belarusiyada isə Vəkillər Kollegiyası Ədliyyə Nazirliyinin fəaliyyət göstərir. Qardaş Türkiyədə isə vəkil barəsində ciddi intizam tənbehi tətbiq edilərkən bu Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilməlidir. Avropa təcrübəsinə nəzər salsaq demək olar ki, eyni vəziyyətlə üzləşmiş oluruq. Misal üçün bir neçə il bundan qabaq təcrübə mübadiləsi çərçivəsində Vəkillərin İntizam Komissiyasının bir çox üzvləri Rəyasət Heyətinin rəhbərliyinin iştirakı ilə Almaniyada işgüzar səfərdə olmuşdur. Həmin səfər zamanı onun şahidi olduq ki, vəkil barəsində daha ciddi intizam araşdırmalarını Vəkillər Kollegiyasının müvafiq qurumları deyil, prokurorluq orqanları aparır və araşdırmanın nəticəsindən asılı olaraq qərar qəbul edilməsi üçün Vəkillər məhkəmə-

sinə göndərilir. Həmin məhkəmədə prokurorluğun nümayəndəsi dövlət ittihamçısı qismində iclasda iştirak edərək intizam icraatı üzrə ittihamı müdafiə edir. Vəkillər məhkəməsinin hakimləri vəkillər olsa da, Ədliyyə Nazirliyi tərəfindən təyin edilir. Bu müqayisə onu göstərir ki, həmin ölkələrin vəkillik fəaliyyəti ilə əlaqədar təcrübəsindən fərqli olaraq bizim qanunvericilikdə və təcrübədə mərkəzi icra hakimiyyəti orqanlarının vəkillik fəaliyyətinə müdaxiləsi ilə bağlı hər hansı hal mövcud deyildir. Bu qanunla vəkillərin müstəqil olaraq peşə fəaliyyəti ilə məşğul olmalarına zəmanət verilmişdir. Qanunda bir çox digər mütərəqqi müddəalar öz əksini tapmışdır. Qanuna qısaca olaraq ekskursiya etsək görərik ki, bu Qanun, Azərbaycan Respublikasının ərazisində hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsini həyata keçirmək üçün özünün seçdiyi vəkilə müraciət etmək, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüquqlarının təmin olunmasının və başqa məsələlər üzrə hüquqi yardım göstərən vəkillərin fəaliyyətinin tənzimlənməsi məqsədi ilə qəbul edilmişdir. Qanun, Azərbaycan Respublikasında fiziki və hüquqi şəxslərə yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsi üzrə vəkillik fəaliyyətinin əsas prinsiplərini, vəkillərin hüquqi statusunu və onların özünüidarəsinin əsaslarını müəyyən edir. Qanuna əsasən vəkilliyin əsas vəzifələri fiziki və hüquqi şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə edilməsindən və onlara yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsindən ibarətdir. Həmçinin qanunla vəkillik fəaliyyətinin müstəsna dairəsi ilə bərabər vəkillərin hüquqi yardımın göstərilməsi ilə əlaqədar iştirak etdiyi məsələlər müəyyən edilmişdir. Belə ki, cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi, məhkəmənin baxdığı inzibati xəta haqqında iş üzrə icraatda fiziki şəxsin müdafiəsi, mülki işlər və inzibati mübahisələrə dair işlər üzrə şəxsin Azərbaycan Respublikası Ali Məhkəməsində təmsil edilməsi, habelə hüquq və azadlıqlarının pozulması ilə bağlı şikayət vermiş şəxsin ərizəsinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində təmsil edilməsi vəkillik fəaliyyətinin müstəsna dairəsidir.

Həmçinin biz vəkillər üçün sevindirici hal həm də ondan ibarətdir ki, qanuna əsasən vəkilliyin rəmzləri vəkilliyin rəsmi emblemi ilə bərabər Azərbaycan Respublikasının Dövlət bayrağından, Dövlət gerbindən ibarətdir. Vəkillərin məhkəmə iclaslarında xüsusi geyimdə iştirak etməsinin, təşkilati formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların vəkillərə öz peşə borclarını yerinə yetirərkən yardım etməyə borclu olmasının, vəkilin peşə borcunu həyata keçirməklə əlaqədar ona məlum olan hallar barədə dindirilməsinin qadağan edilməsinin, vəkillər tərəfindən toplanılan sənədlərin və digər sübutların, vəkillik icraatlarının (dosye) istintaq və məhkəmə orqanları tərəfindən tələb edilməsinin və götürülməsinin qadağan edilməsinin əksini tapmışdır. Həmçinin qanunla ilk dəfə vəkillərin peşə yararlılığının müəyyən edilməsi məqsədi ilə yazılı testdən və şifahi müsahibədən ibarət olan ixtisas imtahanının təsbit edilməsi və xüsusilə gənc hüquqşünasların inkişafına xidmət edən vəkil köməkçiləri vəzifələrinin nəzərdə tutulması, Vəkillər Kollegiyasının qurumlarının, o cümlədən Rəyasət Heyətinin, İxtisas və İntizam Komissiyalarının fəaliyyət dairələrinin və səlahiyyətlərinin müəyyən edilməsi, vəkillin hüquqlarının dəqiq dairəsinin müəyyən edilməsi vəkilliyin inkişafı üçün önəmli olan məsələlərdən biridir.

Eyni zamanda qanunla vəkillərə bir çox hüquqlar verilmişdir. Bu sıraya xüsusilə peşə fəaliyyətini həyata keçirməsi ilə əlaqədar müstəqil araşdırmalar aparmasını, sənəd toplamasını, hüquqi yardım göstərməsi üçün zəruri olan arayışları və digər sənədləri idarə, təşkilat və müəssisələrdən tələb etməsini, onlarla tanış olmasını və həmin sənədlərin surətlərini çıxarmasını, xüsusi bilik tələb edən məsələlərin araşdırılması üçün mütəxəssislərdən rəy alınmasını qanunvericiliklə nəzərdə tutulmuş qaydada texniki vasitələrdən istifadə etməsini və digərlərini daxil etmək olar.

Həmçinin qanunda vəkillərin vəzifələrinin dairəsi müəyyən edilmişdir ki, bu sıraya da peşə fəaliyyətini həyata keçirərkən vəkilin vəkil sirrini qorumasına, vəkil andına və vəkil etikasına riayət etməsini, yalnız qanunun tələblərini rəhbər tutmasını, mənafeyi təmsil edilən və ya müdafiə edilən şəxsin icazəsi olmadan hüquqi yardımın göstərilməsi ilə əlaqədar vəkilə məlum olan faktları və sənədləri yaymamasını, vəkil sirrindən özünün şəxsi və ya başqasının mənafeyi üçün istifadə etməməsini, vəkil tərəfindən qəbul edilən müdafiə öhdəçiliyindən imtina etməməsini və digərlərini qeyd edə bilərik.

Qanunda vəkillərin peşə hazırlığına, ixtisasının artırılmasına, vəkilin peşə vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar əldə etdiyi məlumatların qorunmasına, vəkil etikasına müqavilə üzrə vəkil tərəfindən göstərilən hüquqi yardımın haqqının ödənilməsinə, dövlət hesabına hüquqi yardımın göstərilməsinə, vəkillərin intizam məsuliyyəti, vəkillik fəaliyyətinə xitam verilməsi əsasları və qaydası, və digər məsələlər öz əksini tapmışdır.

Qanunun mətnindən göründüyü kimi bu qanunla vəkillərə bir çox hüquqlar verilmiş və onlar tərəfindən keyfiyyətli hüquqi yardım göstərilməsi üçün kifayət qədər normativ hüquqi baza yaradılmışdır və vəkillik fəaliyyətinin ədalət mühakiməsində roluna xüsusi diqqət ayrılmışdır.

Yuxarıda qeyd edildiyi kimi “Vəkil və vəkillik fəaliyyəti haqqında” qanunun vəkillik fəaliyyətində əhəmiyyəti və çox saylı vəkil ordusunun istək və arzusu nəzərə alınaraq qanunun qüvvəyə minməsi ilə əlaqədar Ulu Öndər, Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanmış tarix, yəni, 28 dekabr Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2019-cu il tarixli Sərəncamına əsasən hər il Azərbaycan Respublikasında “Vəkil günü” peşə bayramı kimi qeyd edilməsi qərara alınmışdır. Bu məhkəmə hüquqi islahatları çərçivəsində vəkillik peşəsinə mötəbər səviyyədə verilən yüksək dəyər və yüksək qiymət olmaqla bərabər biz vəkilləri daha da ruhlandırmış və daha da əzmlə öz peşəmizlə məşğul olmağa ruhlandırmışdır.

2017-ci ilin dekabr ayında Vəkillərin növbəti konfransı keçirilmiş və konfransda vəkilliyin daha da inkişafına təkan verən bir çox qərarlar qəbul edilmişdir. Bu konfransda Vəkillər Kollegiyasının yeni rəhbərliyi, Rəyasət heyətinin və İntizam komissiyasının yeni üzvləri seçilmişdir. Həmçinin konfransda digər məsələlərə yanaşı, “Vəkillərin Davranışı haqqında” Əsasnamə qəbul edilmişdir. Həmin Əsasnamə bir çox beynəlxalq təcrübəyə istinad edilməklə, xüsusilə Avropa Vəkillər və hüquqşünaslar assosiasiyaları birliyi tərəfindən qəbul edilmiş Vəkillərin Etik Məcəlləsinə uyğun işlənib hazırlanmışdır. Əsasnamə bir çox beynəlxalq ekspertlər tərəfindən müsbət qarşılanmışdır.

Bir müddət sonra isə möhtərəm, cənab Prezident İlham Əliyev tərəfindən vəkillik tarixi üçün mühüm əhəmiyyət kəsb edən “Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” 22 fevral 2018-ci il tarixli Sərəncam verilmişdir. Sərəncamda qeyd edildiyi kimi vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun həyata keçirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli fəaliyyəti üçün güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyəti vardır.

Sərəncamda regionlarda apellyasiya məhkəmələrinin, ağır cinayətlər məhkəmələrinin və inzibati-iqtisadi məhkəmələrin yerləşdikləri Gəncə, Lənkəran, Sumqayıt, Şəki və Şirvan şəhərlərində Azərbaycan Respublikası Vəkillər Kollegiyasının vəkil qurumlarının fəaliyyətinin təmin edilməsi məqsədilə onların müvafiq binalarla (yerlərlə) təmin olunması üçün tədbirlər görülməsi, vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə dövlət hesabına göstərilən hüquqi yardıma görə müəyyən edilmiş məbləğin 3 dəfə artırılmasının təmin edilməsi, Vəkillər Kollegiyasının maddi-texniki təminatı ilə bağlı məsələlərin həlli üçün tədbirlər görülməsi, ixtisas imtahanlarının müntəzəm keçirilməsinin təşkil edilməsi, Vəkillər Kollegiyasına yeni üzvlərin, xüsusən gənc hüquqşünasların qəbul

edilməsi üçün şərait yaradılması, hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə vəkillərin peşə hazırlığının və ixtisasının artırılması ilə bağlı zəruri tədbirlər görülməsi, vəkillərin öz fəaliyyətində qanunçuluğa, ədalət mühakiməsinin prinsiplərinə və yüksək peşə standartlarına, o cümlədən əldə etdikləri məlumatların konfidensiallığı, hüquqi yardım üçün müraciət etmiş şəxslərə münasibətdə vicdanlı və nəzakətli davranış tələblərinə ciddi riayət etmələrinin təmin edilməsi, şəhər və rayonlarda vətəndaşların yüksək keyfiyyətli hüquqi yardıma tələbatını təmin etmək məqsədilə regionlarda vəkillərin fəaliyyətinin stimullaşdırılması üçün tədbirlər hazırlayıb həyata keçirilməsi, hüquqi məsləhətə ehtiyacı olan aztəminatlı şəxslər üçün Vəkillər Kollegiyası tərəfindən pulsuz hüquqi xidmətlər göstərilməsinin təşkil edilməsi və digər bir çox məsələlər nəzərdə tutulmuşdur.

Sərəncamdan irəli gələrək bu müddət ərzində Vəkillər Kollegiyası tərəfindən bir çox işlər görülmüş, ilk növbədə vəkilliyə qəbulun müntəzəmliyi təmin edilmiş, namizədlər tərəfindən sənədlərin rahat şəkildə, elektron qaydada təqdim etmələrinə şərait yaradılmış və bu istiqamətdə digər işlər görülmüşdür. Belə ki, 2018-ci ildən vəkilliyə qəbulla bağlı imtahanların müntəzəmliyi təmin edilmiş və bu müddət ərzində tam şəffaflıqla 8 test imtahanı keçirilmiş və vəkillərin sayı 938-dən 2016 nəfərə çatmışdır. 2018-ci il yanvar ayının 28-də keçirilən yazılı test imtahanında 1937 namizəd iştirak etmiş, onlardan 607-si müvəffəqiyyət qazanaraq şifahi müsahibəyə buraxılmışlar. 607 namizəddən 535-i uğur qazanaraq Vəkillər Kollegiyası üzvlüyünə qəbul olmuşlar. 23.12.2018-ci ildə keçirilən yazılı test imtahanında iştirak etmiş 150 namizəddən 106-sı yazılı test mərhələsini müvəffəqiyyətlə başa vurmuş, onlardan 85 namizəd şifahi müsahibədə uğur qazanaraq vəkilliyə qəbul olunmuşdurlar. 2019-cu ildə isə vəkilliyə qəbulla bağlı artıq 30 mart, 8 sentyabr və 31 oktyabr tarixlərində 3 test imtahanı keçirilmiş və nəticədə vəkillərin sayı 1803 nəfərə çatmışdır. 31.01.2020-ci il tarixdə keçirilən yazılı test imtahanında 133 nəfər uğur qazanaraq şifahi müsahibəyə buraxılmışdır. Keçirilən şifahi müsahibələr nəticəsində vəkillərin sayı 2016-ya çatmışdır. Bu yaxınlarda sayca 8-ci olan sonuncu test imtahanı keçirilmiş 273 namizəd imtahanda iştirak etmiş və namizədlər sırasından 130 namizəd yazılı test mərhələsini müvəffəqiyyətlə verərək növbəti mərhələyə buraxılmışdır. Görülmüş işlər nəticəsində vəkillərin sayı hal-hazırda ölkəmizdə 2016 nəfərə çatdırılmışdır. Onlardan 1673 nəfəri kişi, 343 nəfəri qadındır. Onlardan 1609 nəfəri Bakıda, 407 nəfəri isə rayonlarda fəaliyyət göstərir. Ən yaşlı vəkil – Rəcəbova Eleanora Viktorovna - 06.04.1933 – 88 yaş, ən gənc vəkil - Eldanə Mehdiyeva – 05.07.1995 – 27 yaş təşkil edir. Eyni zamanda ötən 3 ildə ölkəmizdə vəkil bürolarının sayı da təxmini olaraq 3 dəfə artmış və hazırda 103-vəkil bürosu vardır ki, onların 65-i Bakı şəhərində yerləşir. Bu müddət ərzində Bakı şəhərində və xüsusilə regionlarda 24000-dən artıq aztəminatlı şəxslərə ödənişsiz hüquqi yardım göstərilmiş və hal-hazırda da göstərilməkdə davam edir. Qanunçuluğa riayət edilməsi ilə əlaqədar olaraq vəkillərin ixtisasartırma təlimlərinə xüsusi diqqət yetirilmişdir. Nəhayət, bu uğurlu hüquqi islahatların məntiqi davamı olaraq Azərbaycan Respublikası Prezidenti, möhtərəm cənab İlham Əliyev tərəfindən 03 aprel 2019-cu il tarixdə “Məhkəmələrdə islahatların dərinləşdirilməsi” haqqında Fərman verilmişdir. Həmin Fərman da ədalət mühakiməsinin, o cümlədən vəkillik fəaliyyətinin daha da inkişafına xidmət edən kifayət qədər geniş məzmunlu bir normativ hüquqi aktdır. Həmin Fərman cəza siyasətinin humanistləşdirilməsini, cinayətlərin dekriminallaşdırılmasını, sahibkarlıq fəaliyyəti ilə əlaqədar ixtisaslaşdırılmış məhkəmələrin yaradılmasını, vahid məhkəmə təcrübəsinin formalaşdırılması mexanizminin müəyyən edilməsini, məhkəmələrin fəaliyyətinə müdaxilələrin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsini, hakimlərin sosial müdafiəsinin gücləndirilməsini, məhkəmə iclasının audio yazısının aparılmasını, tərəflərin ekspertiza təyin edilməsi ilə bağlı

hüquqlarının genişləndirilməsini, mülki prosessual qanunvericiliyinin təkmilləşdirilməsini, məhkəmə qərarlarının icrasının sürətləndirilməsi məqsədi ilə qanunvericiliyin təkmilləşdirilməsini, qeyri-prosessual münasibətlərin yolverilməzliyinin təmin edilməsini, dövlət hesabına göstərilən hüquqi yardıma görə vəsaitin birbaşa Azərbaycan Respublikası Vəkillər Kollegiyasına ayrılmasını və ədalət mühakiməsinin daha da inkişafına xidmət edən digər məsələləri əhatə edir. Həmin Fərmanla Vəkillər Kollegiyasının və onun müvafiq qurumlarının üzərinə böyük vəzifə və məsuliyyət qoyulmuşdur.

Qeyd edilən Fərmandan dərhal sonra Vəkillər Kollegiyasının Rəyasət Heyətinin iclası keçirilmiş və bununla əlaqədar tədbirlər planı hazırlanmış və bəyanat verilmişdir. Həmin bəyanatda qeyd olunmuşdur ki, möhtərəm Prezident cənab İlham Əliyevin imzaladığı bu Fərmandan irəli gələn, ölkəmizin davamlı tərəqqisinə, hüquq sisteminin sağlamlaşmasına, ölkə vətəndaşlarının hüquq və qanuni mənafelərinin müdafiəsinə yönəlmiş bütün məsələlərin həllində həm vətəndaş, həm də vəkil mövqeyimizi nümayiş etdirməkdə fəal şəkildə iştirak edəcək, üzərimizə düşən vəzifələri layiqincə icra edəcəyik. Fərmana əsasən mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının effektivliyinin artırılması, xüsusən sahibkarlıqla bağlı məsələlərin məhkəmələrdə daha sürətli və səmərəli həllinin təmin edilməsi məqsədilə və mülki prosessual qanunvericiliyi kompleks şəkildə birgə təhlil edib, bu sahədə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla onun təkmilləşdirilməsi barədə təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi Azərbaycan Respublikası Ali Məhkəməsinə, apellyasiya instansiyası məhkəmələrinə, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına, Azərbaycan Respublikasının Sahibkarlar (Işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına tövsiyə edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikası Vergilər Nazirliyinə tapşırılmışdır.

Sevindirici haldır ki, Fərmanda mülki prosessual qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə təkliflərin təqdim edilməsi ilə əlaqədar yuxarı instansiya məhkəmələri ilə bərabər Vəkillər Kollegiyasına tövsiyə edilməsi ədalət mühakiməsində vəkilin roluna ən ali səviyyədə verilən yüksək qiymətdir. Nəzərə alsaq ki, kifayət qədər nəzəri biliklərə malik olan vəkillər eyni zamanda mülki proseslərdə mütəmadi iştirak edərək hüquqi yardım həyata keçirirlər. Bu sahədə olan boşluqlar, ziddiyyətli və çatışmayan məqamlar onlara daha çox doğmadır. Buna görə də Vəkillər Kollegiyası tərəfindən yaradılmış işçi qrupları tərəfindən sahədə kifayət qədər səmərəli layihələr qısa müddət ərzində hazırlanaraq təqdim edilmişdir. Bundan başqa Fərmanda Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyə edilmişdir ki, vəkillərin hakimlərlə və cinayət təqibini həyata keçirən orqanların əməkdaşları ilə qeyri-prosessual münasibətlərə yol verməsinin qarşısının alınması üçün tədbirləri gücləndirsin.

Bununla əlaqədar qeyd etmək istərdim ki, vəkillər tərəfindən qanunvericiliyin, davranış qaydalarının pozulması və ümumiyyətlə neqativ hallarla əlaqədar Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən daima qanunla nəzərdə tutulmuş qaydada tədbirlər görülmüş və görülməkdə davam edir. Bu Fərman öz fəaliyyətini qanundan kənar olaraq həyata keçirən, təmsil etdiyi şəxsə hüquqi yardım həyata keçirmək adı ilə hüquqdan kənar fəaliyyət göstərərək qeyri-prosessual münasibətlərə yol verən şəxslərə qarşı daha da qətiyyətli olmağı tələb edir. Hər bir vəkil bilməlidir ki, o, öz fəaliyyətində qanunun aliliyi prinsipini daima rəhbər tutmalı, yalnız qanunun yol verdiyi həddə öz vəzifələrini həyata keçirərək hüquqi yardım göstərməlidir. Məhz bununla əlaqədar olaraq Vəkillər Kollegiyası tərəfindən bir çox tədbirlər görülmüşdür. Belə ki, ilk növbədə qonorar qismində vəkillərə ödənişlərin yalnız nağdsız qaydada ödənilməsinə dair Rəyasət Heyəti tərəfindən müvafiq qərar qəbul edilmişdir. Bu qərara əsasən vətəndaş vəkillə müqavilə bağlayarkən nağd qaydada deyil, yalnız

bank, ödəmə və post-terminallar vasitəsi ilə ödəmənin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar olaraq aparılan intizam araşdırmalarının keyfiyyətində dəyişikliklər edilmiş, Vəkillərin İntizam Komissiyasında aparılan araşdırmalar nəticəsində qəbul edilmiş rəylər nəticəsində bir çox vəkillər barəsində ciddi intizam tənbehləri tətbiq edilmişdir. Eyni zamanda Fərmandan irəli gələrək verilmiş tövsiyələrə uyğun olaraq Bakı şəhərində və regionlarda bir çox maarifləndirmə tədbirləri həyata keçirilmiş və xüsusilə vəkilliyə namizədlərin icbari təlimində bu mövzulara xüsusilə diqqət artırılmışdır.

Həmçinin Fərmana əsasən dövlət hesabına həyata keçirilən hüquqi yardım üçün tələb olunan vəsaitin dəqiq proqnozlaşdırılmasını və mərkəzləşdirilmiş uçotunu təmin etmək məqsədilə cari ilin və növbəti illərin dövlət büdcəsində dövlət hesabına göstərilən hüquqi yardıma görə vəsaitin birbaşa Azərbaycan Respublikası Vəkillər Kollegiyasına ayrılması barədə müvafiq normativ hüquqi aktların layihələrini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikası Prezidentinə təqdim edilməsi nəzərdə tutulmuşdur. Fərmanın bu müddəasından irəli gələrək 2020-ci ildən başlayaraq həmin vəsaitlər Vəkillər Kollegiyasına ayrılmış və hal-hazırda da onun icrası uğurla davam etdirilir.

Ümumiyyətlə, qanunvericiliyin tələblərinə əsasən vəkillər tərəfindən göstərilən hüquqi yardım müqavilə və ya dövlət hesabına həyata keçirilir. Müqavilə əsasında həyata keçirilən hüquqi yardım haqqı tərəflərin razılığı əsasında müəyyən edilir və bu yardımdan faydalanan şəxs tərəfindən ödənilir. Lakin dövlət hesabına hüquqi yardım vəkillə müqavilə əsasında deyil, qanunla nəzərdə tutulmuş hallarda həyata keçirilir və onun haqqı dövlət büdcəsi vəsaiti hesabına ödənilir. Lakin həmin məbləğlərin vaxtında ödənilməsində müəyyən problemlər mövcud idi. Belə ki, həmin məbləğlər yerli icra hakimiyyəti orqanlarına və oradan isə vəkil qurumlarına ödənilirdi. Lakin həmin məbləğlər bəzi hallarda vaxtında ödənilmir, aylarla və hətta daha uzun müddət ödəmələrdə gecikmələrə yol verilirdi. Bu da dövlət hesabına həyata keçirilən hüquqi yardımın keyfiyyətinə təsirsiz ötüşmürdü. Belə ki, bu hüquqi yardımı həyata keçirən vəkillər çəkdiyi zəhmətlərinin bəhrəsini vaxtında görməyəndə artıq bu hüquqi yardımı böyük həvəslə həyata keçirilməməsinə zəmin yaradırdı. Qeyd edilən Fərmanla artıq həmin məbləğlərin birbaşa Vəkillər Kollegiyasına ödənilməsi, həmin vəsaitlərin hüquqi yardım göstərən vəkillərə operativ qaydada çatmasına və nəticədə dövlət hesabına həyata keçirilən hüquqi yardımın keyfiyyətinə müsbət mənada birbaşa təsir edir.

Qeyd edilən sərəncam və Fərmandan irəli gələrək Rəyasət Heyətinin sədri, cənab Anar Bağırovun təşəbbüsü ilə Vəkillər Kollegiyası tərəfindən Bakı şəhəri Səməd Vurğun küçəsi 32 ünvanında Hüquqi Yardım və Tədris mərkəzi yaradılmış, dövlətin dəstəyi və qayğısı ilə əsaslı təmin edilərək 26 dekabr 2019-cu il tarixdən istifadəyə verilmişdir. Mərkəzin bir çox fəaliyyət istiqamətləri vardır. Buraya aztəminatlı şəxslərə ödənişsiz hüquqi yardımın göstərilməsi, dövlət hesabına hüquqi yardımın mərkəzi qaydada təşkil edilməsi, dövlət hesabına hüquqi yardımla əlaqədar vəsaitlərin ödənilməsi üzrə sənədləşdirmə işlərinin aparılması, vəkillərin peşəkarlığının və ixtisasının artırılması ilə əlaqədar təlimlərin təşkil edilməsi və gənc hüquqşünasların təcrübi biliklərinin artırılması daxildir. Mərkəz fəaliyyətə başladığı gündən qısa müddət keçdikdən sonra pandemiyanın başlamasına baxmayaraq bir çox uğurlu layihələr həyata keçirmiş və hal-hazırda da keçirməkdə davam edir. Belə ki, 2020-ci il ərzində Mərkəz tərəfindən aşağıdakı işlər görülmüşdür. 211 nəfər aztəminatlı şəxslərə ödənişsiz hüquqi yardım göstərilmiş, həmin yardımların 182 müraciət üzrə şifahi məsləhət verilmiş, 29 müraciət üzrə isə şikayət, ərizə və digər prosessual sənədlər tərtib edilmişdir. Bu işlər sırasında mülki işlər çoxluq təşkil edərək 141 vətəndaşa hüquqi yardım göstərilmiş, 14 cinayət işləri üzrə, 7 inzibati iş üzrə və digər 49 iş üzrə hüquqi

yardım göstərilmişdir. Rəyasət Heyətinin 09 dekabr 2020-ci il tarixli qərarı ilə vətən müharibəsi şəhidlərinin ailələrinə və qazilərimizə ödənişsiz hüquqi yardımın həyata keçirilməsi qərara alınmış və qərarın özəlliyi ondan ibarətdir ki, burada ödənişsiz hüquqi yardım yalnız məsləhətlərin verilməsi, sənədlərin tərtib edilməsindən ibarət deyil, eyni zamanda bu hüquqi yardımın həyata keçirilməsi ilə bərabər lazım olduqda ödənişsiz qaydada məhkəmələrdə və digər təşkilatlarda təmsil olunmaqla hüquqi yardımın həyata keçirilməsi və şəhid ailələrinin və qazilərin vəkil qurumlarına deyil, lazım olduqda vəkillərin müraciət edən şəxslərin ünvanına gedərək hüquqi yardımın həyata keçirilməsindən ibarətdir. Bununla əlaqədar olaraq daxil olmuş müraciətlər vətəndaşların yaşayış yerinə uyğun olaraq vəkil qurumları arasında Mərkəz tərəfindən bölüşdürülür. Bundan başqa dövlət hesabına hüquqi yardımla əlaqədar olaraq pandemiya dövrü ilə əlaqədar olaraq 2020-ci ildə keçirilmiş təlimlərin sayı ürək açan olmasa da, bu müddət ərzində bir çox təlimlər, dəyirmi masalar keçirilmişdir. Təlimlərdə əsasən aktual olan mövzulara üstünlük verilmiş və hal-hazırda belə təlimlər davam etdirilərək vəkillər böyük həvəslə iştirak edirlər. Dəyirmi masalar əsasən cəmiyyəti narahat edən mövzuları əhatə etmiş və bu tədbirlərdə dövlət və ictimai qurumlarının nümayəndələrinin və vətəndaşların iştirakı təmin edilmişdir.

Dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi ilə əlaqədar olaraq 2020-ci il üzrə dövlət büdcəsindən 5 519 250,00 manat vəsait ayrılmışdır. Ayrılmış vəsait təyinatına uyğun 48 %, yəni 2 664, 167,00 manatı istifadə edilmiş, qalan 2 855 083,00 manatı isə yəni 52 % Vəkillər Kollegiyası tərəfindən dövlət büdcəsinə geri qaytarılmışdır. 21 913 qərar üzrə 2 664 167,00 manatın ödənilməsinə dair sənədləşdirmə işləri aparılmışdır. 11 581 qərar üzrə 1 523 074,47 manatın ödənilməsi Bakı şəhəri üzrə, regionlar üzrə isə 10 332 qərar üzrə 1 131 800, 156 manatın icra edilmişdir.

Keçən ilin sonunda yəni 30 dekabr 2020-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vəkil günü” peşə bayramı münasibətilə və Azərbaycanda hüquq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə bir qrup vəkil “Tərəqqi” medalı ilə təltif edilmişdir. Bu da yalnız təltif edilən vəkillərə deyil, ümumiyyətlə vəkillik fəaliyyətinə verilən böyük dəyərdir.

Qeyd edilənlər onu deməyə əsas verir ki, Azərbaycanda vəkillik düzgün yoldadır və iri addımlarla günü-gündən inkişaf edir və hər bir vəkil fəxarətlə deyə bilər ki, mən Azərbaycan vəkiliyəm.

**Ədəbiyyat:**


1. “Azərbaycan SSR vəkilliyi haqqında” Əsasnamə.
2. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu.
3. “Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2018-ci il tarixli Sərəncamı.
4. “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 03 aprel 2019-cu il tarixli Fərmanı.


***Açar sözlər:*** *vəkil, Vəkillər Kollegiyası, qanunvericilik, inkişaf, imtahan, konfrans*

**Shahmar Mammadov**
*Chairman of the Bar Disciplinary Commission,*
*Director of the Legal Aid and Training Center*

## AZERBAIJANI MODEL OF DEVELOPMENT OF ADVOCACY

### ABSTRACT

The author analyzes the history of the development of advocacy in the Republic of Azerbaijan. The article emphasizes the importance of advocacy and explores the stage of formation of an independent advocacy institution. The author holds comparative analysis of the situation in the Republic of Azerbaijan and the foreign countries. The article also highlights important aspects of advocacy under the Law on "Advocates and Advocacy".

***Keywords:*** *advocate, Bar Association, legislation, development, examination, conference*

**Шахмар Мамедов**
*Председатель дисциплинарной комиссии адвокатуры,*
*директор Центра правовой помощи и обучения*

## АЗЕРБАЙДЖАНСКАЯ МОДЕЛЬ РАЗВИТИЯ АДВОКАЦИИ

### РЕЗЮМЕ

В статье автор анализирует историю развития адвокации в Азербайджанской Республике. Подчеркивается важность адвокации, формирования института независимой адвокации. Сравниваются ситуации в Азербайджанской Республике и зарубежных странах. В статье также показываются существенные аспекты адвокации, предусмотренные в Законе «О адвокатах и адвокации». Указывается, что осуществляемые в стране недавние реформы приведут к важным результатам для адвокации.

***Ключевые слова:*** *адвокат, адвокация, Коллегия Адвокатов, законодательство, развитие, экзамен, конференция*

# H Ü Q U Q
# L A W

UOT 342

**ASİF QƏDİROV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquq" kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru**
*e-mail: asif.qadirov.71@mail.ru*

## CİNAYƏT-PROSESSUAL QANUNVERİCİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikasının Ali Soveti tərəfindən "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktının qəbul edilməsi ilə Azərbaycan xalqı qədimlərdən bəri formalaşıb gələn dövlətçilik ənənələrini bərpa etdi. Müstəqillik elan edildikdən sonra isə artıq Azərbaycan Respublikası öz müstəqil siyasətini həyata keçirməyə başladı. Bu siyasət bütün sahələri əhatə etsə də, hüquq siyasətinin həyata keçirilməsi xüsusilə böyük əhəmiyyətli hesab edilirdi. Beynəlxalq təşkilatların da üzvünə çevrilməyi bacaran Azərbaycan Respublikası hüquq siyasətinin müəyyənləşdirilməsi zamanı bəzi beynəlxalq sənədlərin də normalarına əməl etməklə demokratik dövlət quruculuğunun həyata keçirilməsinə necə böyük diqqət yetirməsini sübut etdi. Bu cür tədbirlərin məntiqi nəticəsi kimi Konstitusiyanın qəbul edilməsi artıq bir zərurətə çevrilmişdi.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Ulu öndər Heydər Əliyevin Konstitusiyanın hazırlanmasında, qəbul edilməsində gərgin liderlik əməyi və töhfəsi danılmazdır. Konstitusiyanın qəbulu dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın dünya birliyində nüfuzunun daha da artması baxımından çox mühüm ictimai-siyasi hadisə kimi qiymətləndirilməlidir. Konstitusiyanın qəbulu yalnız yeni ictimai sistemin hüquqi tanınmasını təsdiq edən fakt deyil, ölkəmizin inkişafının prinsipcə yeni mərhələyə qədəm qoymasının göstəricisi idi. Bu mərhələ isə ilk növbədə siyasi sistemin mərkəzində insanın və vətəndaşın, onun hüquq və azadlıqlarının, demokratik və hüquqi dövlət ideallarının durması ilə səciyyələnir [13].

Azərbaycan Respublikasının 1995-ci il noyabr ayının 12-də Konstitusiyasının qəbul edilməsi onun hüquqi dövlətə çevrilməsi yolunda atılmış ən vacib addım idi. Məhz Konstitusiyanın 7-ci maddəsinə əsasən, Azərbaycan dövlətinin hüquqi dövlət olduğu təsbit edilir [1]. Hüquqi dövlət isə demokratik cəmiyyətə xas olan hüquqi prinsipləri tanıyan, həmin prinsipləri təmin və müdafiə edən, habelə öz fəaliyyətində hüququ rəhbər tutan və insan hüquqlarını və azadlıqlarını təmin etməyi özünün başlıca məqsədi hesab edən dövlətdir [9; s.48]. Hüquqi dövlətin qurulması prosesində əsas yer tutan elementlərdən biri isə qanunçuluq prinsipidir. Qanunçuluq özündə hər kəs tərəfindən normativ hüquqi aktlara dəqiq və dönmədən əməl olunmasını və realizə edilməsini ehtiva edən bir hüquqi rejimdir.

Hüquqi dövlətlə bağlı müddəanın reallığını təmin etmək üçün hüquqi islahatların yeni dalğası həyata keçirilməli idi və Azərbaycan Respublikasının Konstitusiyası ölkədə demokratik dövlət və iqtisadiyyat, vətəndaş cəmiyyəti quruculuğuna hüquqi əsas yaratdı.

1996-cı ilin aprelində Azərbaycan Respublikası ilə Avropa Şurası (AŞ) və onun üzvü olan dövlətlər arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalandıqdan sonra həmin ilin iyununda Azərbaycan Respublikası AŞ Parlament Assambleyasında “xüsusi dəvət olunmuş qonaq” statusu aldı. Bundan sonra, Ümummilli lider Heydər Əliyevin 1996-cı ilin iyunu və 1998-ci ilin yanvarında Azərbaycan Respublikası ilə AŞ arasında əməkdaşlığın dərinləşdirilməsi tədbirləri haqqında sərəncamları mövcud əlaqələri xeyli intensivləşdirdi. Həmin dövrdə Azərbaycan parlamenti dünyanın qabaqcıl ölkələrinin qanunverici orqanlarının təcrübəsini öyrənməyə başladı. Parlamentin nümayəndələri Avropa Şurası sessiyalarında bir neçə dəfə iştirak etdilər. Bütün bunlar respublikada demokratik qanunvericiliyin formalaşmasına və inkişaf etməsinə münasib imkanlar açırdı. Demokratik qanunvericiliyin formalaşması isə öz növbəsində hüquqi dövlət ideyasının realizə edilməsində başlıca faktor idi.

Azərbaycan Respublikasının yeni Cinayət-Prosessual Məcəlləsinin qəbul edilməsinin siyasi səbəblərindən biri isə yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasının 1991-ci il 18 oktyabr tarixindən etibarən beynəlxalq hüququn müstəqil subyekti kimi tanınması olmuşdur. Beynəlxalq hüququn subyekti kimi Azərbaycan Respublikası da müəyyən hüquqlara malik olmaqla yanaşı, bir sıra öhdəlikləri də öz üzərinə götürmüşdür. Bunlar elə öhdəliklərdir ki, yerinə yetirilməməsinə görə beynəlxalq hüquqda nəzərdə tutulmuş sanksiyalar tətbiq edilir və bu sanksiyalar milli qanunvericiliklə müəyyən edilmiş sanksiyalardan fərqlənir.

Ümumiyyətlə, beynəlxalq hüquq qaydaların dövlətlər tərəfindən pozulması halında əvvəlcədən müəyyən etdiyi sanksiyalarının icra etmə mexanizmi o qədər də güclü olmayan bir hüquq sahəsi kimi çıxış edir. Buna görə də bəzi alimlər hesab edir ki, beynəlxalq hüquq müstəqil bir hüquq sahəsi deyildir. Bütün hüquq sahələri kimi beynəlxalq hüquq da müəyyən etdiyi hüquq qaydalarını pozan subyektlərin məsuliyyəti prinsipini mənimsəmişdir. Hətta dövlətlərin məsuliyyəti prinsipi dövlətlərin bərabərliyi prinsipi qədər qədim bir prinsipdir [12, s.848].

Ümumiyyətlə, insan hüquqlarının beynəlxalq səviyyədə müəyyən olunmasının bir xüsusiyyətini mütləq vurğulamaq lazımdır. Belə ki, insan hüquqları sahəsindəki müqavilələrdə işlədilən “hər kəsin ... hüququ vardır” konstruksiyası birbaşa fərdlərə deyil, dövlətlərə ünvanlanmışdır.

Azərbaycan Respublikasının 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatının üzvlüyünə qəbul edilməsi müstəqillik dövründə beynəlxalq əlaqələrin genişləndirilməsi üçün atılmış ən böyük addımlardan biri olmuşdur. Beləliklə, Azərbaycan Respublikası həm də BMT Nizamnaməsinə tərəfdar çıxmış oldu. BMT Nizamnaməsi isə insan hüquqları hüququnun tarixi inkişafının başlanğıcı kimi xarakterizə edilir [10, s.158]. Nizamnamənin 1-ci maddəsinə əsasən, irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsi və həvəsləndirilməsi BMT-nin əsas məqsədlərindən biri kimi bəyan edilir [2]. Qeyd edilən məqsəddən irəli gələrək Nizamnamənin 55 və 56-cı maddələrində nəzərdə tutulmuş vəzifələr dəqiq və birmənalı şəkildə açıqlanmır. Bu öhdəliklərin yerinə yetirilməsi üçün isə daxili qanunvericilikdə bir sıra normaların müəyyən edilməsi zəruri idi. Qəbul ediləcək normativ hüquqi aktlar isə məhz BMT Nizamnaməsi ilə nəzərdə tutulmuş məqsədlərə və istiqamətlərə yönəlməli, dövlətin beynəlxalq arenada üzərinə götürdüyü öhdəliklərin tələblərinə uyğun olmalı idi.

Odur ki, Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsi ilə müəyyən edilmiş ümumi qaydalar çərçivəsində Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar əsasında Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirildi. Qanunların sivil dünya dövlətlərinin hüquqi dövlət quruculuğu ənənələrinə, beynəlxalq hüquq normalarına, Avropa Şurası və dünyanın demokratik qanunvericilik təsisat-

larının tələblərinə uyğun hazırlanması üçün Azərbaycan Respublikası Prezidenti yanında 1996-cı ilin fevral ayında xüsusi "Hüquqi İslahatlar Komissiyası" yaradılmışdı. Aparılan böyük təşkilatçılıq işi, respublikada həyata keçirilən demokratik ruhlu siyasi və iqtisadi islahatların səmərəli nəticələri Azərbaycanı Avropa Şurasına daha da yaxınlaşdırırdı. Bütün bunların məntiqi yekunu kimi Azərbaycan Respublikası 2001-ci il yanvar ayının 25-də Avropa Şurasına tam hüquqlu üzv qəbul olundu [11, s.276-288].

Avropa Şurasına qoşulmaqla yanaşı, Azərbaycan Respublikası "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına da qoşulmuşdur. Belə ki, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanın və onun 1, 4, 6 və 7 saylı Protokollarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixli Qanunu qəbul edilmişdir [4]. Heydər Əliyevin gərgin səyləri nəticəsində Azərbaycan Respublikasının bu Konvensiyaya qoşulması demokratik ənənələrə, ədalətə, yurisdiksiyası altında olan insanlar üçün fundamental hüquq və əsas azadlıqların təmininə sadiqliyin ifadəsidir.

Ulu öndərin siyasi irsini hər bir sahədə uğurla davam etdirən cənab İlham Əliyev bu sahədə də varislik prinsipini qorumuş, bunu bir sıra fərmanlarında da nümayiş etdirmişdir. Təsadüfi deyildir ki, "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə tövsiyə edilmişdir ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi presedent hüququnun öyrənilməsi işini təşkil etsinlər və onu məhkəmə təcrübəsində nəzərə alsınlar [5]. Bu Fərman da məhz insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin təmininə, məhkəmə sisteminin müasirləşdirilməsinə, məhkəmə hakimiyyətinin möhkəmlənməsinə yönəlmişdir.

Qeyd edilən Fərmanın qəbulundan sonra Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" 30 mart 2006-cı il tarixli Qərarı qəbul edilmişdir. Həmin qərarda qeyd edilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə bağlı məhkəmələr milli qanunvericilik ilə yanaşı Konvensiya müddəalarını da rəhbər tutmalı və bu zaman İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinə istinad etməlidirlər [8].

Beləliklə, göründüyü kimi, Avropa Şurasına qəbul olunma ərəfəsində həyata keçirilən hüquqi islahatlar özündə əsas etibarilə insan hüquqlarının müdafiə və təmin olunma mexanizmlərini əks etdirirdi. Bunun da əsas səbəbi Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsi ilə müəyyən edilmiş dövlətin ali məqsədinin yerinə yetirilməli olması idi.

XX əsrin sonlarında hüquqi dövlət ideyasının realizəsi məqsədilə ardıcıl surətdə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yeni məcəllələr və digər normativ hüquqi aktlar qəbul edilməyə başlandı. Azərbaycan Respublikasının yeni Cinayət-Prosessual Məcəlləsi də məhz bu dövrün "məhsulu" oldu. Onun qəbul edilməsinə qədər "Azərbaycan SSR Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi haqqında" 1960-cı il dekabrın 8-də Azərbaycan SSR Qanunu ilə təsdiq edilmiş Cinayət-Prosessual Məcəllə qüvvədə idi. Həmin məcəllə isə 2000-ci il sentyabr ayının 1-dən qüvvədən düşmüş hesab edildi.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin, habelə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində qanunvericiliyin inkişafında 14 iyul 2000-ci ildə təsdiq edilmiş və 1 sentyabr 2000-ci ildə qüvvəyə minmiş yeni Cinayət-Prosessual

Məcəllə böyük bir tarixi hadisəyə çevrilmişdir [3]. Belə ki, həmin tarixədək qüvvədə olmuş Cinayət-Prosessual Məcəllə tətbiq olunduğu 40 ilə yaxın dövrdə xeyli əlavə və dəyişikliklərə məruz qalsa da, cəmiyyətdə baş verən kəskin yeniləşmənin tələblərinə cavab verə bilmirdi. Çünki sovet dövrü ilə müstəqillik dövrünün hüquqi əsasları arasında kəskin fərqlər mövcud idi. Sovet hüquq ideologiyasının bütün əlamətlərini özündə əks etdirən əvvəlki CPM insan hüquq və azadlıqlarının müasir konsepsiyasına tam cavab verə bilmədiyi üçün ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının hüquqi bazisini təşkil edə bilməzdi.

Yeni Cinayət-Prosessual Məcəllənin qəbulunu şərtləndirən digər hüquqi amil isə Konstitusiya ilə müəyyən edilmiş insan hüquq və azadlıqlarının müdafiə mexanizmlərinin daha da təkmilləşdirilməli olması zərurəti idi. Həmin dövrdə qəbul edilmiş digər normativ-hüquqi aktlardan (xüsusilə “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanunundan) da aydın olur ki, müdafiə mexanizmlərinin təkmilləşdirilməsi bir tendensiya halını almışdır. Məhz Azərbaycan Respublikasının yeni Cinayət-Prosessual Məcəlləsinin qəbulu zamanı da bu fakt özünü göstərmiş və yeni cinayət-prosessual qanunvericilikdə təsbit edilən müddəalarla cinayət prosesinin gedişində insan hüquq və azadlıqlarının müdafiə mexanizmlərinin genişləndirilərək onların təmin edilməsi məqsədi güdülmüşdür.

Армения своими действиями пыталась стереть следы азербайджанского народа, веками проживающего на данных территориях. Вопреки трем международным Конвенциям «Об охране памятников культуры во время вооружённых конфликтов» (Гаага, 1954), «Об охране всемирного и культурного наследия» (Париж, 1970), «О мирах, направленных на запрещение и предупреждение незаконного ввоза, вывоза и передачи права собственности на культурные ценности» (Париж, 1970), которые ратифицировала и Армения, в Карабахе – колыбели отечественной культуры, а также в прилегающих районах, захваченных армянскими вандалами, десятки и сотни тысяч материально-культурных памятников, отражающих прошлое и настоящее нашего народа, планомерно уничтожены, вывезены, либо «арменизированы» за время оккупации. Неуважение армянских фашистов к культурным ценностям Азербайджана – результат их тщательно продуманной и осуществлённой стратегии- создания своего государства на исконных землях азербайджанцев, а затем постепенного и постоянного расширения его территории (опять же за счет наших земель), формирование моноэтнической общности и уничтожения всего духовно-материального проявления азербайджанской самобытности. Таким образом, за время армянской оккупации мы потеряли не только десятки тысяч человеческих жизней, наиболее красивые и плодородные земли, сотни гектаров лесов, но и огромное количество движимых и недвижимых памятников культуры, воплощающих в себе национальный дух азербайджанцев.

Так, в частности разграблена Азыхская пещера, относящаяся к древнейшей Куручайской культуре, которая возникла 1 200 000 лет назад, присвоен («арменизирован»), созданный в XIII веке Гандзасарский монастырь, являющийся жемчужиной средневековой азербайджанской (албанской) культуры, испорчены древние наскальные рисунки и надписи в Кяльбаджаре близ озер Зали и Залха. В целом на священной для нас земле за время оккупации армянами разграблены и частично, либо полностью уничтожены более 500 историко – архитектурных и более 100 археологических памятников, 22 музея с фондом, насчитывающим свыше 100 000 экспонатов, 4 картинные галереи с произведениями Саттара Бахлулзаде, Таира Салахова, Микаила Абдуллаева, Тогрула Нариманбекова, Салама Саламзаде, Беюкаги Мирзоева, Марал Рахманзаде и других выдающихся азербайджанских художников, 927 библиотек, в которых хранились 4,6 миллиона книг и рукописей, 10 парков, здания и инвентарь 808 клубов, 85 музыкальных и художественных школ, 20 Дворцов культуры, 4 государственных театров и 2 концертных организаций.

В объявленном ещё в 1977 году правительством советского Азербайджана историко-архитектурным заповедником городе Шуша, который даровал миру выдающихся личностей азербайджанской музыкальной и художественной культуры и был известен далеко за пределами страны как «Кавказская консерватория», агрессоры сравняли с землёй Музей истории Шуши, древнее кладбище, мавзолей известного азербайджанского поэта, визиря карабахского хана Молла Панаха Вагифа. Единственный в

бывшем СССР Музей хлеба в Агдаме, Дворцы Солтана Ахмеда и Хамзы Султана, пещеры-стоянки эпохи палеолита и неолита, древние каменные изваяния, курганы, построения, являющиеся памятниками архитектуры местного и мирового значения в Лачине разрушены, караван-сараи XVII-XVIII веков в Физули превращены в пепелище. Весь город Агдам вместе с памятниками культуры подвергся такому разрушению, что его называют «Хиросимой Кавказа». Знаменитая Тагларская пещера, исторические памятники Агуэна, Каракепек, Узерликтепе использовались армянами в военных целях, от древних курганов в Ходжалы, Агдаме, Агдере, Физули и Джабраиле не осталось и следа. 65 из 67 мечетей разрушены до основания, остальные 2 серьезно пострадали и были осквернены, поскольку их использовали как хлев для содержания скота. Перечислять наши потери можно еще очень долго. Самое главное, что благодаря Президенту Ильхаму Алиеву удалось вернуть земли, на которых располагались эти бесценные творения, некоторые частично уцелевшие шедевры национальной культуры как части мирового наследия человечества, и получить возможность их реставрации. Безусловно, восстановление культурной среды, что является важной гуманитарной и духовной составляющей движения Азербайджана вперед, также способствует упрочению положительного имиджа Президента.

Кроме того, на новый имидж Президента работают его усилия по восстановлению экологического баланса в Карабахе и Восточном Зангезуре. Следует особо подчеркнуть, что к числу преступлений, совершенных армянскими фашистами на оккупированных территориях относятся также экологические преступления, в результате которых, фактически экоцида (геноцида против природы) тотально уничтожены памятники природы, в том числе 288 гектаров лесов, где росли уникальные платаны, и популяция золотой форели. Разграблены 52 месторождения золота, серебра, меди, ртути, различных строительных материалов, подземных вод и термальных источников. 4 основные трансграничные реки между Азербайджаном и Арменией – Араз, Баситчай, Баргюшадчай и Охчучай чрезмерно загрязнены производственными отходами. Русло реки Охчучай фактически превращено в зону экологической катастрофы. Все это нанесло колоссальный ущерб экосистеме и природному ландшафту Восточного Зангезура и Карабаха.

Поэтому вполне логично, что восстановление памятников природы, являющихся частью национального достояния, входит в число важных имиджевых факторов.

Таким образом, все реальные факты подтверждают, что на военном этапе упрочивается имидж Сильного Президента, создавшего новую геополитическую реальность в регионе Южного Кавказа, вынудившего Армению капитулировать и фактически силами самого Азербайджана обеспечившего выполнение документов Совбеза ООН и других международных организаций по карабахскому конфликту. Мы явственно видим новый имидж мудрого государственного деятеля, подкрепившего грандиозную военную Победу политическими успехами. Трёхстороннее Заявление, подписанное президентами Азербайджана, России и премьер-министром Армении 10 ноября 2020 г. положило конец более чем 30-летнему конфликту и определило новый формат действий, направленных на будущее развитие Южного Кавказа. Согласно положениям заявления Кяльбаджарский, Агдамский и Лачинский районы были мирным путём возвращены Азербайджану.

Итак, именно неустанная целенаправленная деятельность Президента и Верховного Главнокомандующего Ильхама Алиева на военном этапе сформировала новый имидж сильного лидера, приведшего к великолепной победе, которая подтвердила

большую политическую значимость и военно-экономическую мощь нашей страны и создала в регионе совершенно новые геополитические и геоэкономические реалии. Как правильно отметил известный российский военный эксперт, главный редактор журнала «Национальная оборона» И. Коротченко «победа во Второй Карабахской войне объективно выдвинула Азербайджан в число тех стран, на которые смотрят очень многие», а Президент Ильхам Алиев «как руководитель Азербайджана – сегодня политик международного масштаба, звезда на политическом небосклоне». Это абсолютно объективная оценка роли и значимости лидера нашего государства и его политического имиджа.

### Имидж Президента на поствоенном этапе деятельности

На третьем – поствоенном этапе доминантной составляющей имиджа Президента Ильхама Алиева становится качество эффективного созидателя, нацеленного на быстрое, успешное и результативное восстановление освобожденных земель. Под руководством главы государства осуществляется процесс широкомасштабного возрождения, возвращение к жизни отвоеванных территорий. Терзающий душу пейзаж пустырей, голой обожженной земли, развалин, бездорожья быстрыми темпами преобразуется, заменяется совершенно противоположным – восхищающим.

Интенсивно ведётся работа по разминированию огромных полей, по электрофикации (до конца текущего года планируется обеспечить электроэнергией все освобождённые территории), строительству высококачественных тоннелей и автодорог, которые обеспечат связь между городами Карабаха и Восточного Зангезура. Создаются инновационные “smart village” (умные села), прокладываются линии водоснабжения, возводятся ультрасовременные аэропорты, мосты. Открываются новые объекты социальной инфраструктуры, закладывается фундамент будущих стратегических объектов, являющихся частью большого плана развития Карабаха. Появляются промышленные парки, в том числе «Экономическая зона Аразская долина» в Джабраильском районе, различные сервисные центры и многое другое. Реализация данных проектов придает большой импульс реинтеграции мощного потенциала региона в экономику страны и развития местного производства, создает условия для скорейшего возвращения вынужденных переселенцев на родную землю.

Одновременно вовсю идёт работа по разработке бренда города Шуша с точки зрения его привлекательности для жизни, инвестирования и туризма. На основе интегрированной бренд-платформы начинает создаваться коммуникационная стратегия и план ее реализации. При этом основными коммуникациоными каналами бренда Шуши удачно выбраны традиционно характерные для данного города культура и историческое наследие и новый-туризм. Таким образом, реализуется проект возвращения Шуше статуса культурной столицы в инновационном преломлении.

Следует подчеркнуть, что процесс градостроительства ускоренными темпами запущен не только в Шуше, но и на всех освобожденных территориях Карабаха и Восточного Зангезура. Указом Президента Азербайджана «О вопросах градостроительства на освобождённых от оккупации территориях» от 12 августа 2021 г. создано Карабахское главное региональное управление архитектуры и градостроительства при Государственном комитете по градостроительству и архитектуре, которое осуществляет строгий контроль над градостроительством на всей этой территории. Примечательно, что весь объем работ выполняется за счёт средств самого Азербайджана. На программу восстановления государством выделено 1,3 миллиарда долларов.

Таким образом, интенсивная деятельность Президента в послевоенный период, воплощение им в жизнь концепции перспективной динамичной модернизации, ориентированной на социальное, экономическое и культурное процветание как Карабаха и Восточного Зангезура, так и всей страны в целом, имеет отчётливо выраженный имиджевый посыл.

Итак, три этапа формирования, неуклонного упрочения и возвышения блистательного имиджа Президента Ильхама Алиева, рассмотренные в свете Великой Победы в Освободительной Отечественной войне 2020 года, убедительно доказывают, что данный феномен очень сильно отличается от искусственных имиджей многих современных политиков, своего рода имиджевых артефактов, конструируемых благодаря манипулятивным ухищрениям высококвалифицированных профессионалов-имиджмейкеров. Это лучший образец эффективного естественного имиджа, постоянно и напрямую связанного с целенаправленной практической деятельностью. Это очень яркий позитивный имидж прагматично мыслящего политика, талантливого государственного деятеля, истинного патриота своей страны, гениального военного стратега и тактика, золотыми буквами вписавшего свое имя в историю отчизны и всего человечества. Это имидж харизматичного Президента новой формации, отвечающего всем требованиям стремительно меняющегося мира.

**Литература:**


1. Prezident İlham Əliyevin VIII Qlobal Bakı Forumunun açılış mərasimində çıxışı/Xalq qəzeti, 5 noyabr 2021
2. Ələkbərova Nigar. Azərbaycanın tarix və mədəniyyət abidələri XXI əsrin astanasında / Nigar Ələkbərova. Mədəniyyət və siyasət. Bakı: "Azərbaycan" nəşriyyatı, 2000. S.55-65
3. Ələkbərova Nigar. Siyasi imicmeykinq. Bakı: Elm və təhsil,2019
4. Выступление Президента Азербайджана Ильхама Алиева на 76-й сессии Генассамблеи ООН/ Бакинский рабочий, 25 сентября 2021
5. Гаджиев Айдын. Великая Победа, порождающая Великие Результаты/ Бакинский рабочий, 11 ноября 2021
6. Эксклюзивное интервью Президента Азербайджана Ильхама Алиева журналу «Национальная оборона/ Бакинский рабочий, 25 сентября 2021


***Ключевые слова:*** *имидж президента, реальная политика, целенаправленная практическая деятельность, довоенный этап деятельности , военный этап деятельности , поствоенный этап деятельности*

**Nigar Ələkbərova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının müdiri,*
*fəlsəfə elmləri doktoru, professor*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN PARLAQ İMİCİ İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ QAZANILAN BÖYÜK QƏLƏBƏ KONTEKSTİNDƏ

## XÜLASƏ

Məqalədə müasir siyasətdə total virtuallaşma və digitallaşma şəraitində lider imicinin spesifikası, rolu, əhəmiyyəti və yaradılması xüsusiyyətləri açıqlanır. Prezident İlham Əliyevin müsbət imicinin formalaşması və daim möhkəmlənməsi prosesi təhlil edilir. Bu proses üç mərhələyə: müharibə öncəsi, müharibə və postmüharibə mərhələlərinə bölünərək, imicin hər mərhələyə xas olan səciyyəvi və dominant cəhətləri həqiqi çoxsaylı faktlar əsasında üzə çıxarılır. Belə nəticəyə gəlinir ki, Prezidentin real fəaliyyətini əks etdirən imici praqmatik təfəkkürə malik böyük siyasətçi, istedadlı dövlət xadimi, əsl vətənpərvər,dahi hərbi strateq və taktik, görkəmli diplomat, sürətlə dəyişən dünyanın bütün tələblərinə cavab verən çox güclü, xarizmatik, müzəffər Prezident imicidir.

***Açar sözlər:*** *prezidentin imici, real siyasət, məqsədyönlü praktiki fəaliyyət,müharibədən əvvəlki mərhələdə fəaliyyət, müharibə mərhələsində fəaliyyət, postmüharibə mərhələsində fəaliyyət*

**Nigar Alakbarova**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Head of the Department of Political Science and Political Administration*
*Doctor of Philosophy, Professor*

# BRIGHT IMAGE OF THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN ILHAM ALIYEV IN THE CONTEXT OF VICTORY IN KARABAKH WAR II

## ABSTRACT

The article examines the specifics, the role, the significance, and the features of forming of the image of a leader in the context of total virtualization and digitalization in the modern politics. The author analysis the process of formation and constant strengthening of positive image of the President Ilham Aliyev, during his presidential activity. The said process is devided into three stages: pre-war, war, and post-war. The President's outstanding characteristics and dominant constituents on each of these stages are revealed based on the reliable facts of his intensive purposeful and practical activity. It is concluded that the image of the President reflects the real activities of a great politician with a pragmatic mind, a talented statesman, a true patriot, a great military strategist and tactician, a prominent diplomat, a very strong, charismatic man who meets all the requirements of a rapidly changing world.

***Keywords:*** *image of the President, real politics, purposeful, practical activity, prewar stage activity, military stage activity, postwar stage activity*

SİYASƏT
POLITICS

UOT 323; UOT 321:330.342.22; 321(1-773)

**YUSİF AĞAYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dillər kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru**
*e-mail: yusif_agayev@rambler.ru*

# MƏDƏNİYYƏTLƏRARASI DİALOQ PROSESİNİN TƏMİN OLUNMASINDA AZƏRBAYCAN RESPUBLİKASININ ROLU

Azərbaycan tarix boyu müxtəlif din və mədəniyyətlərin qovuşduğu bir məkan olmuşdur. Mövcud şəraitin formalaşmasında Azərbaycanın tarixi inkişafı, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi və digər amillər böyük rol oynamışdır. Min illərlə mövcud olmuş tarixi şərait müxtəlif dinlərin birgə mövcudluğuna hər cür imkan yaratmışdır. Ayrı-ayrı dövrlərdə Azərbaycan ərazisində bütpərəstlik, zərdüştilik, yəhudilik, xristianlıq, islam və bir çox başqa dini inanclar bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmiş və bütövlükdə mənəvi həyatın özəlliyini səciyyələndirmişdir. «Azərbaycan mədəniyyəti müxtəlif dövrlərdə müxtəlif sivilizasiyaların nailiyyətlərindən bəhrələnmiş və eyni zamanda onların bəzilərinin beşiyi başında dayanmış elə mürəkkəb və zəngin bir fenomendir ki, onu bəsit, standart təfəkkürlə dərk etmək, mənimsəmək mümkün deyil» [12].

Sosialist düşərgəsinin süqutu nəticəsində, dünyanın mövcud siyasi xəritəsi dəyişmiş, bir sıra yeni problemlər meydana çıxmışdır. İqtisadi, ekoloji və demoqrafik problemlərlə yanaşı, mənəvi dəyərlər sisteminin çevik formalaşmaması və ya formalaşmaqda olan dəyərlər sisteminə məqsədyönlü kənar müdaxilələr nəticəsində mənəviyyat problemləri də kəskinləşmişdir.

Belə bir dövrdə dünya dinləri arasında mövcud fərqlərə əsaslanan «sivilizasiyaların toqquşması» nəzəriyyəsi meydana çıxmış və öz tərəfdarlarını tapmışdır. Bəzi «qüvvələr» bir çox hallarda öz fəaliyyətlərinə bəraət qazandırmaq məqsədi ilə dini amildən də istifadə etmək niyyətində olmuşlar. Harvard Universitetinin professoru Samuel Hantinqton 1993-cü ildə «The Clash of Civilizations?» «Sivilizasiyaların toqquşması?» adlı məqaləsini «Foreign Affairs»də dərc etdirmişdir. Bu məqalədə o, «sivilizasiyaların toqquşması» adlı nəzəriyyəsini cəmiyyətə təqdim etdi. Sonralar həmin məqalə kitab şəklində nəşr olunmuşdur [14, s.16]. Hantinqtonun fikirlərinə görə, yeni əsr sivilizasiyaların toqquşması əsri olacaqdır.

Nəzəriyyə ictimaiyyət, nəzəriyyəçi və praktik siyasətçilərin geniş marağına səbəb oldu. Hazırda nəzəriyyə müxtəlif cür qiymətləndirilir. Bəziləri Hantinqtonun konsepsiyasını reallığa uyğun nəzəriyyə kimi qiymətləndirirsə, digərləri onun yararsız olduğunu vurğulayır. S.Hantinqtonun tezislərinə əsasən, bəşəriyyətin gələcəyi bir-birindən tarixi keçmişi, mədəni ənənələri, xüsusən də konfessional mənsubluğuna görə fərqlənən «sivilizasiyaların toqquşması» ilə xarakterizə olunacaqdır. Amerika aliminin fikrinə görə, demokratik Qərblə kommunist Şərqin siyasi qarşıdurması ilə səciyyələnən «soyuq müharibə»dən sonrakı dövrdə münaqişə və qarşıdurmaların əsas mənbəyini ideologiya və siyasi baxışlar deyil, din və mədəniyyətdəki fərqlər təşkil edəcəkdir. Özü

də «gələcəkdə ən qanlı münaqişələr sivilizasiyaları bir-birindən ayıran sərhədlər boyunca baş verəcəkdir» [6].

Elmi təhlillər göstərir ki, bu kimi ciddi risklərin idarəedilməsi və gələcəyə yönələn cəmiyyətin inkişafını təmin etmək üçün multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Digər mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini, tarix və nailiyyətlərini öyrənmədən, onlara qarşı tolerant münasibət, onların nümayəndələrinə hörmət, qarşılıqlı anlaşma, sivilizasiyaların dialoqunu qurmaq mümkün deyildir. Bu gün dünyada baş verən hadisələrin təhlili göstərir ki, sivilizasiyalar arasında dialoqun qurulması və inkişafı həyati zərurətə çevrilməkdədir. Bu mənada ideologiyaların qarşılaşdırılması, müxtəlif mədəniyyətlərin assimilyasiyası, milli-mədəni dəyərlərin qorunması, virtual aləmin mənəvi təsir imkanları daha çox insan faktoru ilə bağlıdır. Biliyə əsaslanan tərəqqi, bilik cəmiyyətinin qurulmasına xidmət edən strategiyanın hədəfində də bu kimi təsirlərə qarşı immunitetin yaradılması öz əhəmiyyətini saxlamaqdadır.

Belə bir şəraitdə bəşər sivilizasiyanın müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması böyük əhəmiyyət kəsb edir. Bu baxımdan tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsi nümunə ola bilər. Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir. Azərbaycan ərazisində yaşayan çoxsaylı etnik və dini qruplar arasında möhkəm əlaqələrin formalaşmasında onların eyni həyat taleyini yaşamaları amili də böyük rol oynamışdır.

Tarix boyu Azərbaycanda yaşayan xalqlar dəfələrlə qüdrətli dövlətlərdən asılı vəziyyətə düşmüş və yaranmış şərait onları, dünyagörüşlərindəki fərqlərə baxmayaraq, yaxınlaşmağa vadar etmişdir. Sovet İttifaqının dağılması regionda dini dözümlülük ənənələri üçün əsl sınağa çevrildi. Bu proseslərin nəticəsində keçmiş müttəfiq respublikaların xalqları müstəqilliklə yanaşı dini etiqad azadlığı da əldə etdilər. Azərbaycandakı mövcud tolerantlığın əsasları üçün ən böyük təhlükəni minlərlə dinc sakinin ölümünə və bir milyondan çox soydaşımızın doğma yurdlarından didərgin düşməsinə səbəb olan erməni təcavüzü yaradırdı.

Lakin bu hadisələr respublikadakı dini konfessiyalar arasında olan münasibətlərə həlledici mənfi təsir göstərə bilmədi. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu münasibətlər ciddi formada yaxşılaşdı. Müasir Azərbaycanda dövlət-din münasibətləri qanunlarla tənzimlənir. Bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir. Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən hər bir şəxs vicdan azadlığı hüququna malikdir [1, s.16]. Konstitusiyanın 18-ci maddəsinin 1-3 bəndlərində göstərilir ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır, bütün dini etiqadlar qanun qarşısında bərabərdir, insan şəxsiyyətini alçaldan, insanlıq prinsiplərinə zidd olan dinləri yaymaq və təbliğ etmək qadağandır. «Dini etiqad azadlığı haqqında» Azərbaycan Respublikasının Qanunu hər bir şəxsin dinə münasibətini müəyyənləşdirmək və ifadə etmək hüququna və həmin hüququ həyata keçirməyə təminat yaradır [7].

Müasir dövrün yeni çağırışlarının həyatımıza və təfəkkürümüzə gətirdiyi yeniliklər həyatın müxtəlif sahələrini əhatə etdiyi kimi, düşüncə tərzini, yeni ideologiyaların yaranmasını gündəmə gətirməyə, onları yeni dövrün dəyərləri baxımından müzakirə etməyə zəmin yaradır. «Din bəşər mədəniyyətinin yalnız əvəzsiz mənəvi irsi deyil, həm də hər yeni gələn nəslin yaşadığı, öyrəndiyi və münasibət bildirdiyi gerçək reallıqdır» [13, s.197].

Müstəqillik əldə etdikdən sonra ölkəmizdə keçid dövrü adlandırılan mürəkkəb bir zamanda mənəvi dəyərlərin varisliyinin təmin edilməsi son dərəcə çətin idi. 70 il müddətində

mövcud olan milli-mənəvi köklərdən uzaqlaşma proseslərinin nəticələrinin aradan qaldırılması bu sahədə ciddi dövlət siyasətinin müəyyən edilməsini tələb edirdi. Ən mühüm məsələ, ideoloji vakuumu müəyyən edərək, yeni mərhələnin vəzifələrini reallaşdırmaq idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycanda başlanan yeni tarixi dövrün milli-mənəvi inkişafın bütün istiqamətlərini əhatə edən strateji kursu həyata keçirməklə, bu sahəni dövlətçiliyin mənəvi dayaqlarından birinə çevirdi. «Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir... O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir» [3].

Dünyada baş verən təhdid və çağırışların fonunda Azərbaycanda həyata keçirilən siyasət tarixi ənənəyə, insan potensialına və yaxşı idarəetməyə əsaslanır. Bu baxımdan dünyaya multikultural həyat tərzinin təbliği, multikulturalizm ilinin elan olunması ilə mesaj verilir. Yuxarıda qeyd edilən üç amilin tədqiqi onu deməyə əsas verir ki, Azərbaycan həmişə müxtəlif etnosların nümayəndələrinin mədəniyyətləri və dinlərinin inteqrasiya məkanına çevrilib. Müsəlman, xristian və yəhudi əhalisinin nümayəndələri arasındakı tolerant və dostluq münasibətləri Azərbaycan xalqının humanist mədəniyyəti üçün hər zaman xarakterik olub [8, s.102].

Azərbaycanda dini abidələrə münasibət din və dövlət arasında münasibətlərin təzahürüdür: «Azərbaycanda dövlət yalnız məscidləri və islam dininə aid olan digər abidələri tikib bərpa etmir. Eyni zamanda digər dinlərə aid məbədlər də təmir və inşa edilir. Təbii ki, burada dövlət siyasəti də, bu siyasətin əsasları da düzgün qurulub. Bu, bizim həyat tərzimizdir. Bu bizim dünyaya baxışımızdır. Biz belə yaşayır və belə yaşayaraq özümüzə, regiona və dünyaya sübut edirik ki, multikulturalizm mövcuddur. Multikulturalizm nisbətən yeni anlayışdır. Mahiyyət etibarı ilə isə müxtəlif mədəniyyət və dinlərə mənsub olan şəxslərin birlikdə yaşamaları deməkdir. Yəni bu anlayış Azərbaycanda əsrlər boyu mövcud olub, bu gün də mövcuddur və möhkəmlənməkdədir. Azərbaycan xalqı müxtəlif dövrlərdə müxtəlif ictimai-siyasi quruluşlarda yaşayıb. Buna baxmayaraq, sevindirici haldır ki, müstəqillik dövründə bu müsbət tendensiyalar daima güclənib və güclənməkdədir. Bizim uğurlu inkişafımızı gücləndirən amillər bunlardır» [10].

Təhlillər onu deməyə əsas verir ki, ölkədə bu sahədə həyata keçirilən fəaliyyətin əsasında üç amil, tarixi ənənə, yaxşı idarəetmə və insan potensialı dayanır. Qeyd edilən bu üç amil tarix boyu formalaşmışdır. Azərbaycan müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qarşılıqlı anlaşma şəraitində bir araya gəldiyi, multikultural dəyərləri həyat tərzinə çevirən nadir ölkələrdəndir. Multikulturalizm eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan siyasətdir. «Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir» [2].

Qəbul edilən həqiqət bundan ibarətdir ki, multikulturalizm Azərbaycan cəmiyyətini səciyyələndirən dəyərə çevrilib və ölkəmizdə əsrlər boyu müxtəlif xalqların və konfessiyaların nümayəndələrinə hörmətlə yanaşılması ənənəsi mövcud olub. Azərbaycan Respublikası ikinci dəfə müstəqilliyini bərpa etdikdən sonra məhz Heydər Əliyevin idarəçilik məharəti, onun siyasi müdrikliyi və uzaqgörənliyi nəticəsində bu ənənə prinsiplər səviyyəsinə yüksəlmiş, dövlət siyasətinin vacib istiqaməti kimi öz təsdiqini tapmışdır. Ulu Öndər qeyd edirdi ki, «Avropa ilə Asiyanın qovuşuğunda, Böyük İpək Yolunun üstündə yerləşən Azərbaycanda zərdüştilik, atəşpərəstlik kimi qədim dini inanclar öz izlərini qoymuş, islam, xristianlıq və yəhudi dinləri əsrlər boyu dialoq və qarşılıqlı anlaşma mühitində dinc yanaşı yaşamış və hələ də yaşamaqdadır. Azərbaycan Şərqlə Qərbin qovuşmasında mühüm rol oynayır» [4].

Azərbaycan Respublikasında bu sahədə indiyədək vaxtaşırı həyata keçirilən fəaliyyəti layiqincə davam etdirən Prezident İlham Əliyev ənənəvi olaraq ölkəmizdə yaşayan xalqların, dini icmaların nümayəndələri ilə vaxtaşırı görüşür, onları dini bayramları münasibəti ilə təbrik edir. Prezidentin sərəncamı ilə Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyinin təsis edilməsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu sahəyə göstərilən diqqətin əyani göstəricisidir. Eyni zamanda, Prezident İlham Əliyevin «2016-cı ilin Azərbaycan Respublikasında «Multikulturalizm ili» elan edilməsi haqqında» Sərəncamı da göstərir ki, multikulturalizm ənənələrinin qorunub saxlanması, inkişaf etdirilməsi, təbliğ olunması ölkə rəhbərliyinin diqqət mərkəzindədir [5].

Cəsarətlə deyə bilərik ki, Azərbaycan artıq dünyada multikulturalizm və sivilizasiyalar arasında dialoq məkanı kimi qəbul edilir. Xalqımızın sahib olduğu multikultural dəyərlərin dünyaya təqdim edilməsində, ölkələr və beynəlxalq qurumlar arasında sivilizasiyalararası dialoqun təşviq edilməsində, multikulturalizmin Azərbaycan modelinin təbliği sahəsində Heydər Əliyev Fondunun da əvəzsiz xidmətləri vardır. Bu məqamda onu da deyək ki, Azərbaycan multikulturalizm prinsiplərini dünyada təbliğ edən nadir ölkələrdəndir. Ölkəmizdə bu sahədə fasiləsiz həyata keçirilən fəaliyyət proqramı multikulturalizm xalqımızın tarix boyu formalaşan milli keyfiyyətidir və bütün dövrlərdə cəmiyyətin yaşam tərzi olub. Bu gün isə reallıq odur ki, artıq multikulturalizmin Azərbaycan modeli mükəmməl şəkildə formalaşıbdır.

Təəssüf ki, dünyanın əksər yerlərində toqquşmalar, humanitar problemlər ayrı-ayrı ölkələrin faciəsinə çevrilib. Eyni zamanda bunlar milli və dini zəmində baş verir. Qərb dünyasında islamofobiya meyilləri artdığı bir zamanda Şərq dünyasında ideologiyalar, inanclar, məzhəblər arasında olan qarşıdurmalar artır və daha da dərinləşir. Bu isə sonda mədəniyyətlər və sivilizasiyalararası ziddiyyətləri dərinləşdirir.

Bəzi Qərb dövlətləri multikulturalizmi idarə etməyin kifayət qədər mürəkkəb vəzifə olması ilə əlaqədar açıq bəyanatla ondan imtina edir, onun bir dəyər kimi iflasa uğradığını bildirirlər.

Son illər dünyada baş verən toqquşmalar, qarşıdurmalar, xüsusilə, bəzi liderlərin sivilizasiyalar və mədəniyyətlərarası gərginliyə gətirib çıxaran siyasi bəyanatlar, gündən-günə gərginləşən münasibətlərin düşmənçilik həddinə çatdığından ciddi xəbər verir. Buna görə də dünyada mədəniyyətlərarası dialoqun rolunun dominantlıq təşkil etməsi və qlobal problemlərin intellektual, mədəni, tolerant müstəvidə həlli olduqca önəmlidir. Bu sahədə potensialı güclü olan ölkələrin dialoq məsələlərində təşəbbüslərinin və rolunun artırılması da vacib amillərdəndir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı ili ölkəmizdə «Multikulturalizm ili» elan etməklə dünyaya daha bir sülh mesajı vermişdir. Bu addımla bir daha təsdiq olunur ki, Azərbaycan dövləti öz ərazisində məskunlaşan bütün xalqların mehriban və dostluq şəraitində birgəyaşayışının, onların mədəni inkişafının, adət və ənənələrinin qorunmasının təminatçısıdır. Azərbaycanın sivilizasiyalararası dialoqun mərkəzinə çevrildiyini diqqətə çatdıran Prezident İlham Əliyev dünyada sülhün təmin olunmasında dialoqlara böyük ehtiyac olduğunu bildirir. Həqiqətən də, bu gün Azərbaycan təkcə Şərqdən Qərbə və Qərbdən Şərqə gedən yolların körpüsü deyil, həm də siyasi və iqtisadi maraqların, dinlərin, mədəniyyətlərin, sivilizasiyaların da qovuşduğu və bir-birini qarşılıqlı surətdə tamamladığı siyasi-iqtisadi və mədəni-mənəvi mərkəzə çevrilmişdir. III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılış mərasimində Prezident İlham Əliyev çıxışında demişdir: «Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir. Biz Avropa və Asiya arasında yerləşirik. Əlbəttə ki, bu coğrafi yerləşmə Azərbaycanın mədəni

müxtəlifliyində öz rolunu oynamışdır. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar. Biz fəxr edirik ki, bu müsbət meyillər müstəqillik illərində daha da güclənmişdir. Bizim tarixi abidələrə nəzər salmaq yetər ki, Azərbaycanın mədəni müxtəlifliyi aydın görünsün. Biz tarixi və mədəni irsimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən olan, 743-cü ildə inşa edilmiş məscid Azərbaycanın qədim Şamaxı şəhərində yerləşir. Dünyanın ən qədim kilsələrindən biri – Qafqaz albanlarının kilsəsi Azərbaycanın digər Qədim Şəki şəhəri yaxınlığındadır. Pravoslav və katolik kilsələri, sinaqoqlar, atəşpərəstlər məbədi bizim mədəni irsimizin tərkib hissəsidir və biz bununla fəxr edirik. Bu gün Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər. Düşünürəm ki, bu, bizim ən böyük sərvətlərimizdəndir. Biz bundan qürur duyuruq və multikulturalizm dəyərlərinin, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təşviqi üçün müxtəlif beynəlxalq tədbirlər keçiririk. Hesab edirəm ki, müsbət meyillərin güclənməsi üçün dünyada belə tədbirlərə, açıq müzakirələrə və fikir mübadiləsinə ehtiyac var» [9]. Azərbaycanın həyata keçirdiyi uğurlu siyasi strategiya nəticəsində fəxrlə deyə bilərik ki, "sivilzasiyalararası dialoqun Azərbaycan modeli" üzərində beynəlxalq elmi ictimaiyyət bu gün diskussiyalar aparır, bu məsələdə xalqımızın adət-ənənələrindən irəli gələn yüksək dəyərlərin öyrənilməsi və onun tətbiq olunmasının elmi şəkildə araşdırılmasının əhəmiyyəti vurğulanır.

Təsadüfi deyil ki, bu gün Azərbaycan sivilizasiyalararası qarşıdurmanın təzahürləri kimi meydana çıxan qlobal problemlərin həllində qarşılıqlı əməkdaşlıq çağırışları edən elm, din və siyasət xadimlərinin görüşdüyü bir məkana çevrilmişdir. Azərbaycan mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu məkan kimi bütün dünyada qəbul olunmaqdadır. Bu mənada sivilizasiyalararası dialoqun, multikulturalizmin Azərbaycan modeli bütün dünyanın diqqətini cəlb etməkdədir.

Sivilizasiyalar və mədəniyyətlərarası dialoq prosesinin davamlılığını təmin edən Azərbaycan Şərq ilə Qərb arasında körpüdür. Azərbaycanın iqtisadiyyatı, elmi-mədəni potensialı elə bir səviyyəyə çatmışdır ki, sadəcə olaraq iki sivilizasiya arasında körpü rolunu oynamır, sivilizasiyaların hər ikisinin daşıyıcısı olmaqla onların vəhdətini təcəssüm etdirir. Son illərdə qazanılmış böyük iqtisadi nailiyyətlər Azərbaycana özünün beynəlxalq mövqeyini möhkəmləndirmək, Şərq ilə Qərb arasında tutduğu əlverişli coğrafi vəziyyətdən daha optimal surətdə istifadə etmək imkanı vermişdir. Ölkə prezidenti qeyd edir ki «Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir» [9]. Multikulturalizmin Azərbaycan modelinin formalaşmasında və uğur qazanmasında üç amil xüsusi rol oynamışdır:

1. Tarixi ənənə;
2. Yaxşı idarəetmə;
3. İnsan potensialı.

Şübhəsiz ki, yuxarıda qeyd olunanlara əsasən deyə bilərik ki, ölkədə insan inkişafı baxımından kompleks tədbirlərin görülməsinə, gənclərin multikultural dəyərlərlə formalaşmasına daim xüsusi önəm verilmişdir. İnsan inkişafına, güclənməsinə və idarəedilməsinə yönəldilmiş siyasətin mərkəzində şübhəsiz ki, Azərbaycan vətəndaşı, xüsusən Azərbaycan gəncliyi dayanır. «Qara qızıl»ın «insan qızıl»ına çevrilməsinə yönəldilmiş strategiyada bilik və bacarıq əsas rol oynayır. «....neft faktorunun insan kapitalına çevrilməsi insan potensialının inkişafına səbəb olur. Strateji önəm daşıyan, tükənməyən və daim təkmilləşən təbii sərvətlər arasında ən böyük əhəmiyyətə malik olan insan potensialı

isə hər zaman inkişafın həlledici amili kimi çıxış edib və etməkdədir. Son zamanlar ölkələrin inkişafının, əhalinin həyat səviyyəsi və rifahının bilik və bacarıqlardan asılı olması insan amilinin vacibliyini bir daha ön sıraya çıxarıb» [11].

Bu yanaşma yuxarıda qeyd etdiyimiz üçbucağın müddəalarından irəli gəlir. Elmsiz, təhsilsiz nə dialoq, nə sülh, nə də tolerantlıq təmin edilə bilməz. Təsadüfü deyildir ki, 2016-cı ilin 25-27 aprel tarixində paytaxtımızda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçiriləcəkdir. Bu Azərbaycanda mövcud olan mötəbər beynəlxalq tədbirin ölkəmizdə keçirilməsi multikultural dəyərlərə dünya birliyi tərəfindən. Bu sahədə apardığı xətt belə deməyə əsas verir ki, Azərbaycan xalqı təkcə Azərbaycan Respublikasının maddi sərvətləri ilə deyil, həm də mənəvi sərvətləri, o cümlədən yüksək mənəviyyatı, tolerantlığı, multikultural həyat tərzi və birgəyaşayışa, sülhə meylli olması ilə digər dövlətlərə nümunə göstərilə bilər.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində qorunub saxlanılmış və inkişaf etdirilmiş tolerantlıq mühiti dövlətimizin dünya mədəniyyətinə böyük töhfəsidir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Qanun, – 2011. – səh. 16.
2. Azərbaycan multikulturalizmin əsas məkanlarından biridir. http://www.interaztv.com/society/1838.
3. Azərbaycan-tolerantlığa nümunə ölkə // http://xalqqazeti.com/az/news/politics/56945
4. Azərbaycanda tolerantlıq. http://www.azerbaijan.az/_GeneralInfo/_TraditionReligion/traditionReligion_03_a.html#to
5. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 11.01.2016. http://www.president.az/articles/17437
6. Darabadi, P. «Sivilizasiyaların toqquşması» və ya Samuel Hantinqtonun neoatlantizmi. http://newtimes.az/az/politics/3026
7. Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 20 avqust 1992-ci il. № 281
8. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. – Bakı: Azərnəşr, – 1997-2004. – s. 102
9. İlham Əliyev. Bakıda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu. http://www.president.az/articles/15172
10. İlham Əliyev. Üçüncü Bakı Beynəlxalq Humanitar Forumda çıxış. http://www.president.az/articles/9894
11. Ələkbərov, U.K. Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafin harmoniyası. I Virtual Dəyirmi masa, –2014.
12. Xəlilov, S. Şərqdə və qərbdə milli-mənəvi dəyərlər http://psychology.az/salahaddin_halilov.php
13. Мец, А. Мусульманский Ренессанс. –М., Наука, – 1973, – с. 197
14. The Clash of Civilizations and the Remaking of World Order. New York: Simon & Schuster, 1996, st. 16


***Açar sözlər:*** *sivilizasiyalararası dialoq, Azərbaycanın multikulturalizm modeli, tolerantlıq, tarixi ənənə, idarəetmə, insan potensialı, gənclik*

**Yusif Aghayev**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Department of Languages,*
*Associate Professor, PhD in Philology*

# THE ROLE OF THE REPUBLIC OF AZERBAIJAN IN THE PROCESS OF INTERCULTURAL DIALOGUE

## ABSTRACT

Multiculturalism is the crucial tool of intercultural dialogues and civilizations to manage risks and ensure the sustainable development of society. It is impossible to be tolerant, respect representatives of other cultures, and create mutual understanding and civilizations' dialogues without learning about those cultures, history, and achievements. The analysis of the events that occur today indicates that the establishment and development of dialogue among civilizations have become a necessity of life. However, from which point of view is the problem assessed? The issue continues to be important. The basis of the problem is reflected in a triangle of dialogue between civilizations: historical traditions, good governance and human resources. Indeed, as the result of the policy founded by national leader Heydar Aliyev and successfully continued by President Ilham Aliyev, preserved and developed tolerance of our country is an excellent contribution to the culture of tolerance in the world and priceless value for the future generations.

***Keywords:*** *dialogues among civilizations, multiculturalism model of Azerbaijan, tolerance, historical tradition, governance, human resource, youth*

**Юсиф Агаев**
*Доцент кафедры Языков*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по филологии*

## РОЛЬ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В ОБЕСПЕЧЕНИИ ПРОЦЕССА МЕЖКУЛЬТУРНОГО ДИАЛОГА

### РЕЗЮМЕ

Для управления рисками и обеспечения развития общества, направленного в будущее, мультикультурализм является важным звеном в культурном и цивилизационном диалоге. Невозможно построить межцивилизационный диалог, толерантное отношение, уважение, обоюдное согласие, не изучив сущность, особенности, историю и достижения других культур. Анализ событий, происходящих в мире в наши дни, показывает, что построение и развитие межцивилизационного диалога становится жизненно важным явлением. Однако с какого аспекта оценивается взгляд на проблему? Этот вопрос сохраняет свою актуальность. Основу проблемы отражает треугольник в межцивилизационном диалоге: историческая традиция, хорошее управление, человеческий потенциал. Это – отражение различных углов. Вне всяких сомнений сохраненная и развитая среда толерантности в результате политики, основанной общенациональным лидером Гейдаром Алиевым и успешно продолжаемой Президентом Азербайджана Ильхамом Алиевым, является незаменимой ценностью для будущих поколений, большим вкладом нашего государства в мировую культуру.

***Ключевые слова:*** *межцивилизационный диалог, модель мультикультурализма в Азербайджане, толерантность, историческая традиция, хорошее управление, человеческий потенциал, молодежь*

D A V A M L I  İ N K İ Ş A F I N  İ D A R Ə  E D İ L M Ə S İ
S U S T A I N A B L E  D E V E L O P M E N T  M A N A G E M E N T

UOT 351.78:504.4/8:614.8; UOT 327(4/9):930.22(4/9)

**FUAD HÜMBƏTOV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi" kafedrasının dosenti, Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun siyasi elmlər doktoru proqramı üzrə doktorantı**
*e-mail: fuad.humbatov@mail.ru*

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR KONTEKSTİNDƏ EKOLOJİ TƏHLÜKƏSİZLİK SİSTEMİNƏ REAL TƏHDİD KİMİ QLOBAL İQLİM DƏYİŞMƏLƏRİ İLƏ MÜBARİZƏ MƏSƏLƏLƏRİ

Günümüzdə qlobal ekoloji təhlükəsizlik sisteminə real təhdid qismində iqlim dəyişmələri problemi bəşəriyyəti ən çox narahat edən məsələlərdəndir. Son onilliklərdə dünyanın müxtəlif bölgələrində qeyri-sabit hava şəraiti ölkələrin iqtisadiyyatı və əhalisi üçün ciddi problemlər, ağır məhrumiyyətlər yaratmaqdadır. Təsadüfi deyildir ki, İqlim Dəyişmələri üzrə Hökümətlərarası Panelin (İPCC) Ekspertlər Qrupunun hesabatına əsasən son 100 ildə yer kürəsində orta temperatur ən azı 0,8°C artmışdır. Bu mənada, ötən onilliklərdə qlobal iqlim dəyişmələri ilə mübarizə problematikası dayanıqlı inkişaf, ekoloji təhlükəsizlik və digər kontekstlərdə bir çox yerli və əcnəbi alimlərin elmi əsərlərində araşdırılmışdır [1, 2, 3, 5, 16].

Hazırki məqalədə beynəlxalq münasibətlər kontekstində qlobal iqlim dəyişmələrinin ekoloji təhlükəsizlik sisteminə, o cümlədən qida təhlükəsiziyi, regional təhlükəsizlık sistemlərinə real təhdid kimi təsirləri araşdırılır, bu fenomenin yaxın perspektivdə törədə biləcəyi mümkün ssenarilər barədə bəhs edilir, ona qarşı mübarizə üzrə beynəlxalq əməkdaşlıq institutları, formatları xronoloji qaydada təhlil edilir, eyni zamanda ayrı-ayrı ölkələrin, o cümlədən AR-in iqlim dəyişmələrinə qarşı mübarizə üzrə siyasət və hədəfləri metodoloji yaxınlaşma baxımdan müqayisəli təhlil edilir.

Məlum faktdır ki, orta temperaturun ardıcıl yüksəlməsi ilk növbədə antropogen amillərlə bağlıdır. Belə ki, bu amillərin əsasını İstilik Effekti Yaradan Qazların, yəni istixana qazlarının (gələcəkdə, İEYQ) atmosferə emissiyaları təşkil edir. Bu qazlar əsasən karbon dioksid ($CO_2$), metan qazı ($CH_4$), azot oksidi ($N_2O$), ftorlaşmış qazlar (HFCs, PFCs, $NF_3$, $SF_6$) təşkil edir. Antropogen fəaliyyətlər nəticəsində sənaye dövründən etibarən karbon qazı, metan qazı, azot oksidi və yüksək istilik törətmə potensialı olan ftorlaşmış qazların həcmi artmaqda davam etmişdir. Bu qazlarının həcminin hesablanması, yəni inventarlaşdırılması üçün ölçü vahidi olaraq, onların karbon qazı ekvivalentindən istifadə edilir [21]. Qeyd edək ki, bu qazların istilik effekti yaratma mexanizmini ilk dəfə 1827-ci ildə görkəmli fizik-riyazıyyatçı Josef Furye öz elmi araşdırmalar zamanı təsvir etmişdir.

Ümumiyyətlə, qlobal ekoloji təhlükəsizlik baxımından İEYQ-nin iqlim dəyişmələrinə təsiri məsələləri ilk dəfə XX əsrin 50-ci illərindən başlayaraq dünyanın aparıcı alimlərinin diqqətini cəlb etməyə başlamışdır. Həmin dövrdə elmi araşdırmalar və hidrometeoroloji instrumental ölçmələr göstərmişdir ki, atmosferdə orta illik temperatur göstəricisi artım trendinə keçmişdir, yağıntılarda müəyyən disbalans yaranmışdır və bu hadisələr bütünlükdə

iqtisadiyyata tədricən neqativ təsir etməyə başlamışdır. Məsələn, orta illik temperaturun artımının dünya iqtisadiyyatına təsirini aydın dərk etmək üçün belə bir fakta müraciət edək. Belə ki, hesablamalar göstərmişdir ki, temperaturun hər 1 °C artması dünyada taxıl istehsalı məhsuldarlığının təxminən 5 faiz azalmasına səbəb olur. Belə ki, məhz 1981-2002-ci illər ərzində isti iqlim şəraiti səbəbindən qarğıdalı, buğda və bir sıra digər dənli bitkilərin məhsuldarlığında qlobal səviyyədə hər il 40 milyon tonadək azalma müşahidə olunmuşdur. Qeyd olunan amillər qlobal ekoloji təhlükəsizlik sisteminə real risk kimi iqlim dəyişmələrini meydana gətirən səbəblərin elmi əsasda öyrənilməsi və onun təsirlərinin yumşaldılması (mitigation) yollarının işlənib hazırlanması problemini gündəmə gətirmişdir. Faktiki olaraq, iqlim dəyişmələri, nəticə etibarilə həm də qlobal qida təhlükəsizliyi sisteminə də real risk formalaşdırmışdır. Nəzərə alsaq ki, qlobal qida təhlükəsizliyi problematikası müvafiq resurs çatışmazlığı və digər siyasi-iqtisadi amillərlərlə formalaşan çağırışlarla bağlı yaxın perspektivdə özünü daha kəskin formada büruzə verəcəkdir, o zaman iqlim dəyişmələrinin bu problemi kəskinləşdirən amil kimi diqqətdən kənar qalmaması çox önəmlidir.

Lakin iqlim dəyişmələri təkcə ölkələrin iqtisadiyyatına, xüsusən, kənd təsərrüfatına, habelə əhaliyə, ətraf mühitə, biomüxtəlifliyə, qlobal qida təhlükəsizliyinə və digər sahələrə zərərlər yetirmir, eləcə də regional təhlükəsizlik sisteminə də öz neqativ təsirlərini göstərə bilir. Belə ki, getdikcə intensivliyi artan fırtına və sellər, burulğanlar yerli infrastrukturu, evləri məhv edir, dəniz səviyyəsinin yüksəlməsi isə nəticədə tamamilə su altında qala biləcək kiçik ada dövlətlərinin, bir sıra sahilboyu ölkələrin həyatını təhlükəyə məruz qoyur. Bütün bunlar iqlim dəyişmələrinin qlobal təhlükəsizlik sisteminə, insan haqlarına, beynəlxalq hüquq sisteminə aid olan məsələlərə də öz təsirini göstərmiş olması anlamına gəlir. Belə ki, gələcək nəsillərin iqlim dəyişmələrinin neqativ təsirlərindən əziyyət çəkməmək hüququ ilə bağlı ekoloji təhlükəsizlik sisteminin təmini üzrə istər siyasi, istərsə də beynəlxalq hüquq baxımdan yeni vəzifələr meydana gəlir. Eyni zamanda, iqlim dəyişmələrinin neqativ nəticələri regional təhlükəsizlik məsələlərinə mənfi təsir etməsi, ölkələrarası münasibətlərin gərginləşməsi, münaqişələrin meydana gəlməsi ilə də müşayiət oluna bilər. Belə ki, qonşu ölkələrdə həmsərhəd su, meşə, qida, balıq və ehtiyatlarının müştərək istifadəsi və digər məsələlərdə gərginlik meydana gələ bilər. Bütün bunlar iqlim dəyişmələrinin nəinki qlobal ekoloji təhlükəsizlik, qida təhlükəsizliyi, eləcə də ümumi siyasi təhlükəsizlik sisteminə neqativ təsiri riskləri qabaqcadan araşdırılmalı, proqnozlaşdırılmalı, bu təhlükələrin qarşısı alınmalı və onunla mübarizədə beynəlxalq ictimaiyyət səfərbər olmalıdır.

Qeyd edək ki, antropogen təsirlərin ətraf mühitə, iqlim dəyişmələrinə təsiri ilə bağlı, ilk dəfə məhz 1985-ci il Vyana Konvensiyası, ozon təbəqəsinə mənfi təsir edən insan fəaliyyətlərindən qaynaqlanan və ya ehtimal olunan mənfi təsirlərdən insan sağlamlığının və ətraf mühitin qorunması istiqamətində öhdəlikləri ehtiva edən ilk beynəlxalq müqavilə kimi ölkələr tərəfindən qəbul edilmişdir. Məlum olduğu kimi, ozon örtüyü günəşdən daxil olan ultrabənövşəyi radiasiyaya qarşı qalxan rolunu oynayan, $O_3$ molekullarının Yerin ekvatorundan 25 kilometr yüksəklikdə və qütblərindən isə 15 kilometr yüksəkliklərdə əmələ gətirdiyi təbəqədir və onun qlobal istiləşmə, günəş radiasiyasının zərərli təsirlərindən bəşəriyyətin qorunması məsələsində böyük əhəmiyyəti vardır.

Beləliklə, iqlim dəyişmələrinə qarşı effektiv beynəlxalq əməkdaşlıq formatının yaradılması, habelə bu problemlə mübarizənin elmi əsaslarının öyrənilməsi və hökumətlərə bütün səviyyələrdə elmi cəhətdən əsaslandırılmış məlumatların təqdim edilməsi məqsədilə, BMT-nin Ətraf Mühit Proqramı (UNEP) və Ümumdünya Meteorologiya Təşkilatı (WMO) tərəfindən 1988-ci ildə İqlim dəyişmələri üzrə Hökumətlərarası Panel (İPCC) adlı beynəlxalq təşkilat yaradılmışdır ([22]). İPCC iqlim dəyişmələrinin elmi proqnozlaşdırılması üzrə ixtisaslaşmış əsas beynəlxalq qurumdur və

indiyədək iqlim dəyişmələrinin mümkün inkişaf ssenariləri və onların yumşaldılması yolları və s. barədə beş Qiymətləndirmə Hesabatını (AR – Assessment Report) ictmaiyyətə təqdim etmişdir və 2022-ci ildə 6-cı AR-in yekunlaşması nəzərdə tutulur.

Qeyd edildiyi kimi, son onilliklərin müşahidələri göstərmişdir ki, qlobal iqlim dəyişmələri nəticəsində dünyanın müxtəlif bölgələrində kəskin hava şəraiti halları kimi tufanların, sellərin, çovğunların, daşqınların, habelə isti küləklərin, qasırğaların, yağıntıların həm miqyası, həm də intensivliyinin artımı hazırda müşahidə edilməkdədir. Bunu 2021-ci ildə Türkiyə, Yunanıstan, İspaniya və digər ölkələrdə baş vermiş genişmiqyaslı meşə yanğınları, xüsusən Türkiyənin şərqində, Avropa ölkələrindəki intensiv yağıntı və sellər də bir daha sübut etmişdir. Təsadüfi deyildir ki, İqlim Dəyişmələri üzrə Hökumətlərarası Paneli (İPCC) tərəfindən 6-cı Qiymətləndirmə Hesabatının (AR6) hazırlanması istiqamətində aparılan işlər çərçivəsində 2021-ci ilin avqust ayının 9-da açıqlanmış və İPCC-nin nüfuzlu fizik alimlərin iştirak etdikləri Birinci İşçi Qrupu tərəfindən hazırlanmış olan ilkin hesabatda emissiyaların azaldılması üzrə dövlətlər tərəfindən əlaqəli şəkildə heç bir tədbirlər görülmədiyi təqdirdə, XXI əsrdə dünyanın orta illik temperaturunun ən azı 3°C qədər yüksələ biləcəyi qeyd edilmişdir. Bundan əlavə, hesabatdan bəlli olur ki, beynəlxalq ictimaiyyət istixana qazlarının səviyyəsinin azaldılması üzrə ciddi effektiv tədbirlər həyata keçirmədiyi halda, bəşəriyyət hətta apokalipsislə nəticələ biləcək 4°C-dən 5°C-ə qədər temperatur artımına keçəcəkdir [23]. Konret olaraq, həmin hesabatda Mümkün İqlim Perspektivləri bəndindən müəyyən hissələri qeyd edək:

– Yerin qlobal səth temperaturu, bütün emissiya ssenariləri nəzərə alınmaqla ən azı XXI əsrin ortalarına qədər artmaqda davam edəcəkdir. Önümüzdəki onilliklərdə karbon qazı ($CO_2$) və digər istixana qazları emissiyalarında əhəmətiyyətli azalmalar olmadığı təqdirdə, XXI əsrdə qlobal istiləşmə 1,5°C və hətta 2 °C -ni keçəcəkdir;

– İqlim sistemindəki bir çox dəyişikliklər hazırda qlobal istiləşmənin artması ilə birbaşa əlaqədə daha da intensivləşir. Bu dəyişikliklərə ekstremal isti temperaturlu günlərin tezliyi və intensivliyinin artması, dəniz istiliyi və şiddətli yağışlar, bəzi bölgələrdə əkinçilik üçün problemlər, ekoloji quraqlıqlar və güclü tropik siklonların artımı, Arktik dənizlərin buzunun, qar örtüyünün və permafrostun (buzlaşmış torpaqlar) azalması daxildir.

– Davam edən qlobal istiləşmənin dəyişkənliyi, qlobal musson yağışları, sel və quraqlıq hadisələrinin intensivliyi də daxil olmaqla, qlobal su dövriyyəsini daha da intensivləşdirəcəyi proqnozlaşdırılır.

Bununla yanaşı, qeyd olunan İPCC hesabatına əsasən, dünyada ötən əsrin 80-ci illərindən başlayaraq yağıntıların miqdarı xeyli artmış, buzların əriməsinin sürətlənməsi isə okeanlara trilyonla ton su gəlməsinə, nəticədə orada oksigen səviyyəsinin azalmasına, yəni faktiki olaraq, dənizlərin "boğulmasına", yəni turşuluğunun atrmasına səbəb olmuşdur. Hazırda dünyada dəniz səviyyəsi artıq 20 sm qədər yüksəlmişdir və indi bu proses intensiv davam edə bilər. Əsrin sonuna qədər dəniz səviyyəsinin ehtimal olunan bu artım diapazonu 28 sm ilə 100 sm arasında dəyişəcəyi proqnozlaşdırılır. Lakin o vaxta qədər, hesabatda təsvir olunan daha ağır ssenarilərə görə, bu 200 sm, 2150-ci ildə isə 500 sm də ola bilər. Bu mənada, yaxın keçmişimizdə bir əsrdə cəmi bir dəfə baş vermiş sahil daşqınlarının 2100-cü ilə qədər, mümkün bütün baş vermə yerlərinin 60% -də ildə ən azı bir dəfə baş verəcəyi proqnozlaşdırılır.

Məruzədə həm də göstərilir ki, faydalı qazıntı (fossil) yanacağının yandırılması, meşələrin məhv edilməsi və insanın başqa fəaliyyəti nəticəsində istixana qazlarının emissiyaları sivilizasiyamızın yaranıb inkişaf etdiyi ümumi iqlim sabitliyini tamamilə poza bilər, belə ki, hazırda havada karbon dioksid səviyyəsi ən azı son 2 milyon ilin ən yüksək səviyyəsindədir.

Beləliklə, sözügedən hesabatda Yer Kürəsi sistemində çox ağır nəticələrə səbəb ola biləcək və elm adamlarını daha çox narahat edən

ən əhəmiyyətli kəskin və geri dönməz dəyişikliklər proqnozlaşdırılır. Sənəddə fiziki araşdırmalar baxımından, antropogen təsirlər nəticəsində yaranan qlobal istiləşməni müəyyən bir səviyyədə dayandırmaq üçün $CO_2$ emissiyalarını və digər istixana qazları emissiyalarını effektiv surətdə azaltmaqla, yaxın perspektivdə onları tamamilə sıfıra endirmək tövsiyə olunur.

Belə bir bir mürəkkəb və ekponensial sürətlə dərinləşən problem qarşısında dünya ictimaiyyəti öz qlobal ekoloji, qida və faktiki olaraq, ümumən siyasi təhlükəsizliyini təmin etmək üçün istər lokal, istərsə də beynəlxalq səviyyədə hansı prioritet tədbirləri həyata keçirməlidir?

Yenə də IPPC-nin bəhs edilən son hesabatına nəzər yetirək. Belə ki, alimlərin hesablamaları göstərir ki, 1850-ci ildən indiyədək antropogen fəaliyyətlər nəticəsində dünyada 2,400 milyard ton $CO_2$ ekvivalentində isitxana qazlarının emissiyası baş vermişdir və onlar atmosferdə yüzilliklərlə toplanaraq, stoklanaraq hazırda kumulyativ istiləşmə effektini yaradırlar. Belə bir vəziyyətdə alimlər tərəfindən hesablanıib ki, yalnız əlavə 400 milyard ton $CO_2$ ekvivalentində isitxana qazları atmosferə buraxılarsa, onda orta illik temperaturun artımını 1,5°C səviyyəsində saxlamaq ehtimalı cəmi 66% olacaqdır [23]. Nəzərə alsaq ki, dünyada ildə təxminən 50 milyard ton ton $CO_2$ ekvivalentində isitxana qazları atmosferə buraxılır [24], o zaman qeyd olunan hədəfə çatmağın necə də ağır olduğu və bəşəriyyətin qlobal istiləşmə ilə mübarizə üçün təcili səfərbər olunmasının vacibliyi tam aydın olur. Qeyd edək ki, illik emissiyaların səviyyəsi 1990-cı ildə təxminən 35 milyard ton $CO_2$ ekvivalentində olmuş, lakin indiyədək stabil yüksələn xətlə ilbəil artmışdır.

Ölkələrarası əməkdaşlıq əlaqələrini vacib edən ümumi ekoloji təhlükəsizlik problemi kimi iqlim dəyişmələrinin yuxarıda qeyd olunan qeyri-qənaətbəxş ssenarilərinin ölkələrin dayanıqlı inkişafı, xüsusən insan kapitalı inkişafını ləngidən 4 aspektinə bir daha qısa nəzər salaq:

**- Kənd təsərrüfatında məhsuldarlığın aşağı düşməsi.** Məlum olduğu kimi, pandemiyaya qədərki dövrdə gündəlik gəliri 1 ABŞ dollarından aşağı olan dünya əhalisinin ¾-nün (təxminən 900 milyon nəfər) əsas birbaşa gəlir mənbəyi kənd təsərrüfatı sektoru olmuşdur, hazırda bu rəqəmin daha da artması proqnozlaşdırılır. İqlim dəyişmələri ssenariləri üzrə quraqlıq və yağıntıların paylanması sxemində dəyişikliklər Sahara və cənub-şərqi Asiyada məhsul istehsalına ciddi mənfi təsir göstərə bilər. Alimlərin hesablamalarına görə, əgər lazımi qabaqlayıcı tədbirlər görülməzsə, iqlim dəyişmələri tərəfindən kənd təsərrüfatı və ərzaq təhlükəsizliyinə təzyiqin nəticəsi olaraq 2080-ci illədək əlavə 600 milyon insan kəskin qida çatışmazlığından əziyyət çəkəcəkdir [25].

**- Su qıtlığı təhlükəsinin artması.** Qlobal orta temperaturun cəmi 2°C artması dünyada su resurslarının paylanmasında fundamental dəyişikliklərə səbəb olacaqdır. Məsələn, Himalay dağlarında buzlaqların əriməsi Şimali Çin, Hindistan və Pakistanda artıq kəskinləşməkdə olan ekoloji problemləri daha şiddətləndirəcəkdir. Buzlaqların əriməsi bu zonada ilkin dövrdə sel və daşqınların sayının artması, daha sonra isə suvarma əhəmiyyətli çaylarda su ehtiyatlarının azalması ilə nəticələnə bilər. Latın Amerikasında buzlaqların əriməsi xüsusilə And dağları zonasında şəhər əhalisinin içməli su ilə təminatı, kənd təsərrüfatı və hidro-energetika ehtiyaclarının qarşılanmasında problemlərə səbəb ola bilər. İqlim dəyişmələrinin təsiri nəticəsində 2080-ci ilədək su qıtlığından əziyyət çəkən dünya əhalisinin sayı 1,8 milyard nəfər arta bilər. Bu isə kifayət qədər ciddi rəqəmdir.

**– Eko-sistemlərin məhv edilməsi.** Qlobal orta temperaturun 2°C artması fauna və floranın növlərinin məhvolma təhlükəsini artıracaqdır. Alimlərin hesablamalarına əsasən, qlobal orta temperaturun artım həddi 3°C-ni keçdikdə mövcud canlıların təqribən 20-30%-nin nəslinin kəsilməsi təhlükəsi yaranacaqdır. Hazırda iqlim dəyişmələri öz mənfi təsirini daha çox dəniz və okean eko-sistemlərində göstərir. Bu da sahilyanı ərazilərdə bio-

müxtəliflik və eko-sistemlərin tələfatı ilə nəticələnir. Nəticədə əsas gəlir mənbəyi balıqçılıq olan 100 milyonlarla insan qida çatışmazlığı və maliyyə itkisinə məruz qalır.

– **İnsan sağlamlığına risklərin artması.** İqlim dəyişmələri müxtəlif səviyyələrdə insan sağlamlığına mənfi təsir göstərəcəkdir. Temperaturun istiləşməsi nəticəsində malyariya zonasının əhatə zonası genişlənərək əlavə 400 milyonadək insanı bu xəstəliyə yoluxma riski ilə üz-üzə qoya bilər. Malyariya xəstəliyindən ən çox ölüm hallarının təsadüf etdiyi (təqribən 90%) Sahara bölgəsində xəstəliyə yoluxmanın 16-28% artması ehtimal olunur.

Qeyd olunan iqlim dəyişmələri ssenariləri və onların neqativ təsirləri ilə əlaqədar Böyük Britaniyanın Edinburq Universitetinin professoru Dave Rei (Prof Dave Reay) öz çıxışlarının birində qeyd etmişdir ki, «Dönüş nöqtələrinə gəldikdə, aydındır ki, bu gün $CO_2$ emissiyalarının hər əlavə bir tonu bizi sabah qarşıalınmaz effektlərin minalanmış sahəsinə itələyir» [26].

Ətraf mühitinin mühafizəsi üzrə nüfuzlu qlobal təşkilatlardan olan «The Nature Conservancy» qurumunun baş elmi işçisi, ətraf mühitin tədqiqi üzrə tanınmış alim professor Katerin Heihonun (Catherine Heiho) İPCC-nin son hesabatı haqqında fikirləri xüsusi maraq doğurur. Belə ki, o bildirmişdir ki, biz daha əmin deyilik ki, Kanada, Almaniya, Yaponiya və Amerika Birləşmiş Ştatları kimi daha zəngin və təhlükəsiz ölkələrin vətəndaşları gələcəkdə sürətlə pisləşən iqlim şəraitinin ekstremal nəticələri ilə mübarizə apara biləcək imkanda olacaqlar. Professor K.Heihon Nuh peyğəmbərlə bağlı tarixçəyə işarə edərək, «hamımızın eyni gəmidə olduğumuz aydındır – həyatımız boyunca hər birimizə təsir edəcək bir problemlə üz-üzəyik» deyə bildirmişdir. Alim hər bir yerdə alternativ və bərpa olunan enerjiyə keçidin sürətləndirilməsi, ən çox ətraf mühitə təsir edən fəaliyyətlərdən imtina edilməsinin və yaşıl iqtisadiyyata keçidi təmin etmək üçün maliyyə axınlarının səfərbər edilməsinin vacibliyini vurğulamışdır [27]. Maraqlıdır ki, bu məsələlər iqlim dəyişmələri probleminin qarşısının alınması məqsədini daşıyan önəmli platforma kimi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Böyük Britaniyanın Qlazqo şəhərində keçirilmiş Tərəflər Konfransının 26-cı sessiyasının, xüsusən də 1-2 noyabr tarixlərində baş tutmuş Dünya Liderləri Sammitinin də müzakirə mövzuları olmuşdur. Bu mötəbər tədbirin əsas hədəfləri istixana qazlarının emissiyalarının azaldılması, iqlim dəyişmələrinə uyğunlaşma, iqlim məqsədli maliyyələşmənin səfərbər edilməsi və digər məsələlərdən ibarət olmuşdur.

Bütün qeyd olunanların fövqündə IPPC Baş katibi Abdalah Mokssit qurumun hesabatı ilə bağlı bildirmişdir ki, istixana qazları emissiyalarında dərhal, sürətli və geniş miqyaslı bir azaltma tədbirləri (mitiqasiya) həyata keçirilməzsə, qlobal istiləşməni 1,5°C ilə artımla məhdudlaşdırmaq mümkün olmayacaqdır. O, xüsusən vurğulamışdır: «Biz heç bir ölkəyə heç bir siyasəti diktə etmirik – qərarlar hökumətlər tərəfindən verilməlidir». Bu mənada İPCC-nin son hesabatının timsalında elm adamları indi əvvəlkindən daha yüksək səslə bu problemi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırırlar, lakin təbii ki, hər şey siyasətçilərdən asılıdır.

Göründüyü kimi, beynəlxalq elmi ictimaiyyət bu problemin aktuallığını, ağırlıq dərəcəsini dünyanın bütün siyasi qərarvericilərinin diqqətinə təqdim etmiş və beynəlxalq ictimaiyyəti bu istiqamətdə sıx əməkdaşlığa dəvət etmişdir. Beləliklə, bütün ölkələr, öz inkişaf səviyyəsindən asılı olmayaraq, təcili surətdə effektiv və genişmiqyaslı mitiqasiya və adaptasiya tədbirlərini həyata keçirməli, bu məqsədlə beynəlxalq əməkdaşlıq və dəstək mexanizmlərini genişləndirməklə istixana qazlarının emissiyalarını məhdudlaşdırmalıdırlar.

Yuxarıda təsvir olunan neqativ inkişaf ssenariləri və meydana gəlmə ehtimalı yüksək olan problemlərlə ölkələrin təcrid olunmuş şəkildə mübarizə aparması metodoloji cəhətdən, şübhəsiz ki, səhvdir və mümkün deyildir. Belə ki, iqlim dəyişmələri qlobal səviyyədə insan kapitalının inkişafını əngəlləyən mövcud

problemləri daha da dərinləşdirir, bir növ katalizator rolunu oynayır. Ölkələr, beynəlxalq təşkilatlar beynəxlalq münasibətlər sistemində bu problematilkanı daim gündəmdə saxlamaq məcburiyyətindədirlər.

Qeyd olunduğu kimi, ümumbəşəri problem kimi iqlim dəyişmələrinin təsirlərinin azaldılmasının yüksək səviyyədə müzakirəsi məqsədilə 1-2 noyabr 2021-ci il tarixlərində Britaniyanın Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 26-cı sessiyasında, habelə tədbir çərçivəsində Dünya Liderləri Sammitində mühüm qərarlar qəbul edilmişdir. Qlobal iqlim dəyişmələri problemi ilə əlaqədar, dünya ictimaiyyətinin indiyədək səylərinin effektivliyini qiymətləndirmək üçün bu sahədə atılmış addımlar və qəbul edilmiş sənədlərə beynəlxalq münasibətlər rakursundan bir daha nəzər salaq:

Beləliklə, iqlim dəyişmələri üzrə qlobal danışıqların və beynəlxalq hüquqi bazanın formalaşmasının xronologiyası aşağıdakı kimidir:

- 1979: Cenevrə şəhərində 12–23 fevral 1979-cu ildə Dünya Meteorologiya Təşkilatının (WMO) təşəbbüsü və maliyyə dəstəyilə ilə İlk dəfə Dünya İqlim Konfransı keçirilmişdir. Dünyanın mötəbər alimlərinin, ekspert və siyasətçilərinin qatıldığı tədbir Dünya İqlim Proqramı və Dünya İqlim Araşdırmaları kimi beynəlxalq platformanın yaradılması ilə nəticələnmişdir və o, beynəlxalq ictimaiyyətin diqqətinin bu problemin həllinə yönəldilməsində əhəmiyyətli rol oynamışlar. Təsadüfi deyildir ki, məhz Dünya İqlim Konfransı 1988-ci ildə Dünya Meteorologiya Təşkilatının (WMO) və UNEP (BMT Ətraf Mühit Proqramı) tərəfindən İqlim Dəyişmələri üzrə Hökümətlərarası Panelin (İPCC) yaradılmasına şərait yaratmışdır [22].
- 1990 : 2-ci Dünya İqlim Konfransı keçirilmiş, İPCC ilk Qiymətləndimə Hesabatını dərc etmişdir, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) mətninin hazırlanmasına başlanılmışdır.
- 1992: BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) 154 ölkə tərəfindən imzalanmışdır.
- 1994: UNFCCC qüvvəyə minmişdir.
- 1995: Azərbaycan UNFCCC-yə qoşulmuşdur.
- 1997: UNFCCC-yə Kioto Protokolu qəbul olunmuşdur.
- 2000: Azərbaycan Kioto Protokolunu ratifikasiya etmişdir.
- 2005: Kioto protokolu qüvvəyə minmişdir.
- 2015: UNFCCC tərəflərinin 21-ci Konransında (COP21) tarixi Paris Sazişi imzalanmışdır.
- 2016: Paris Sazişi qüvvəyə minmişdir.
- 2016: Azərbaycan Paris Sazişini ratifikasiya etmişdir.

Şübhəsiz ki, qlobal iqlim dəyişmələri ilə mübarizə sahəsində 1994-cü ildə qüvvəyə minmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) və 2015-ci ildə imzalanmış önəmli beynəlxalq müqavilə kimi Paris Sazişi mühüm rol oynayır. Məhz Paris Sazişinin 4-cü maddəsinə əsasən təkcə inkişaf etmiş ölkələr deyil (belə ki, atmosferdə yuxarıda bəhs edilən istixana qazları emissiyalarının geniş miqyasda akkumulyasiya olmasında bir növ tarixi məsuliyyət daşıyan ölkələr kimi), bütün ölkələr bu emissiyaların azaldılması üzrə milli hədəfləri özündə əks etdirən Milli Səviyyədə Müəyyən edilmiş Töhfələr (Nationally Determined Contributions – NDC) sənədlərini UNFCCC Katibliyinə təqdim etməlidirlər. Qeyd olunan sənədlər hər bir ölkənin spesifik xüsusiyyətləri (sosial-iqtisadi inkişaf səviyyəsi və s.) nəzərə alınmaqla hazırlanır və hədəf ili kimi bir qayda olaraq, 2030-cu ilədək istilik effekti yaradan qazlarının səviyyəsinin bir qayda olaraq, baza ilə (bir çox hallarda baza ili olaraq, 1990-cı il götürülür) müqayisədə emissiyaların azalma hədəflərini ehtiva edir [28]. Belə ki, bir qayda olaraq, hər beş ildən bir daha ambisiyalı hədəfləri ehtiva edən NDC sənədlərinin UNFCCC Katibliyinə təqdim edilməsi beynəlxalq ictimaiyyət tərəfindən gözlənilən məsələlərdəndir.

Məsələn, Azərbaycan Respublikası Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) sənədində ölkənin milli şəraitini, gələcək inkişaf perspektivlərini və milli maraqlarını nəzərə alaraq, qlobal iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması təşəbbüslərinə özünün töhfəsi olaraq baza ili (1990) ilə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların (İEYQ) netto emissiyalarının səviyyəsində 35% azalmanı hədəf kimi götürmüşdür.

Bundan əlavə, 2015-ci ilin sentyabr ayında keçirilmiş BMT-nin tarixi Sammitində isə dünya liderləri tərəfindən qəbul edilmiş «2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəlik»də [29] qarşıdakı on beş il ərzində ölkələr «heç kəsi kənarda qoymamaq» prinsipini rəhbər tutaraq, sosial-iqtisadi məsələlər ilə yanaşı, məhz iqlim dəyişmələrinə qarşı mübarizənin vacibliyi və dünya ictimaiyyətinin səfərbər olmasının önəmi vurğulanmışdır. Belə ki, məhz 13-cü Dayanıqlı İnkoşaf Məqsədi bilavasitə iqlim dəyişmələri və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təxirəsalınmaz tədbirlərin görülməsi barədədir və bu istiqamətdə orada konkret hədəflər, göstəricilər müəyyən edilmişdir.

Eyni zamanda, ölkələrin iqlim dəyişmələrinə qarşı mübarizə, o cümlədən NDC sənədlərindəki hədəflərə nail olunması üzrə ayrı-ayrı ölkələrin həyata keçirdiyi iqlim siyasətlərinin və onların təcrübələrinin, o cümlədən bu istiqamətdə atılan hüquqi-institusional islahatların təhlili onu göstərir ki, ölkələrin böyük əksəriyyəti müvafiq iqlim dəyişmələri və ətrah mühit məsələləri üzrə ixtisalaşmış beynəlxalq donor təşkilatlarla (Yaşıl İqlim Fondu (GCF), Qlobal Ətraf Mühit Xidmətləri (GEF) və digərləri), habelə BMT qurumları (UNDP, UNEP və s.) əməkdaşlıq şəraitində institusional və qanunvericilik sahəsində bir sıra islahatları həyata keçirmişlər. Belə ki, bu ölkələr ilk addımda müvafiq məzmunlu strateji xarakterli sənədləri (strategiya, konsepsiya, strateji yol xəritəsi və s) qəbul etmiş, daha sonra bu strateji sənədlərə uyğun olan iqlim qanunvericiliyini formalaşdıran normativ aktların (məcəllə, qanunlar) işlənib hazırlanmasını həyata keçirmişlər. Üçüncü mərhələdə, qeyd olun normativ aktların icra mexanizmini təşkil edən qanunqüvvəli aktlar, qərarlar, konkret fəaliyyət planları (action plan) qəbul edilmişdir.

Bu mənada müxtəlif dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının bu sahədə təcrübəsi ilə tanışlıq iqlim dəyişmələrinə qarşı mübarizənin beynəlxalq münasibətlər kontekstində təhlili baxımdan xüsusi maraq doğurur.

Avropa Birliyinin iqlim dəyişmələrinı qarşı mübarizə sahəsində təcrübəsinə nəzər salsaq, görərik ki, AB 19.12.2020 tarixdə öz yenilənmiş Milli Səviyyədə Müəyyən edilmiş Töhfələr (NDC) sənədini UNFCCC katibliyinə rəsmi təqdim etmişdir. Burada 2030-cu ilədək emissiyaların 1990-cı il səviyyəsi ilə müqayisədə 40%-dən 55%-dək azaldılması nəzərdə tutulur. Eyni zamanda, 2050-ci ilədək isə AB tamamilə dekarbonizasiyaya nail olmağı, yəni sıfır netto emissiya hədəfinə çatmağı hədəfləyir. Paris Sazişinin və qəbul edilmiş yeni öhdəliyin icrası üzrə qanunvericilk bazası aşağıdakı qanun qüvvəli aktlardan ibarətdir: 2018-ci il tarixli «Emissiyaların mübadiləsi sistemi», «İqlim və enerji» paketi, «Enerji səmərəliliyi» və «Bərpa olunan enerji mənbələri» haqqında direktivlər. Eyni zamanda 2030-cu il üçün «İqlim və enerji» paketində 55% azalma məsələsi ilə bağlı dəyişikliklər nəzərdən keçirilmişdir. Bundan əlavə, «Milli səviyyədə emissiyaların azaldılması» direktivi, «Avropa üçün təmiz hava» direktivi və «Təsirin qiymətləndirilməsi» direktivi, habelə Vyana Konvensiyası üzrə öhdəliklərin icrası ilə əlaqədar «Ozon qatını dağıdan maddələr haqqında», «Ftorlu qazlar haqqında» iki təlimatlar iqlim dəyişmələri üzrə önəmli hüquqi bazanı təşkil edir.

İndi isə, Avropa Birliyinə daxil olmamasına baxmayaraq, Avropa İqtisadi Məkanının üzvü kimi önəmli karbohidrogen istehsalçısı ölkələrdən biri olan Norveçin, ölkəmizlə müqayisəli təhlil baxımdan, iqlim dəyişmələrinə qarşı mübarizə sahəsində fəaliyyətinə qısa nəzər salaq. Norveç öz yenilənmiş NDC sənədində 2030-cu ildə baza ili ilə (1990)

müqayisədə ən azı 40% azalma hədəfini götürmüşdür. Bu ayrıca «İqlim Dəyişmələri» adlı qanununda da təsbit edilmişdir. Sənədin ali məqsədi, Norveçin 2050-ci ilə qədər az emissiyalı cəmiyyətə çevrilmə prosesinin bir hissəsi kimi ölkənin iqlim hədəflərinə nail olunmasını təşviq etməkdən, özəl sektor və bütün maraqlı tərəfləri bu prosesə cəlb etməkdən ibarətdir.

Digər önəmli karbohidrogen məhsulları istehsalçısı kimi İngiltərə ilə bağlı isə, bu ölkənin Baş Naziri 2020-ci ilin noyabrında yaşıl sənaye inqilabı üçün özünün iddialı «10 Bənd Planını» açıqlamışdır. Bu plan təmiz enerji, binalar, nəqliyyat, təbiət və innovativ texnologiyaları əhatə etməklə, İngiltərədə 250 000-ə qədər yüksək ixtisaslı «yaşıl» iş yerlərinin yaradılması və dəstəklənməsi məqsədilə 12 milyard funt sterlinq dövlət investisiyasının yatırılmasını nəzərdə tutur. Eyni zamanda, 2030-cu ilə qədər özəl sektor investisiyalarının da üç qatına çatdırılması proqnozlaşdırılır. «Təmiz Artım Strategiyası» sənədi Birləşmiş Krallıq hökumətinin 2020-ci ill və sonrakı illər üçün İngiltərə iqtisadiyyatının bütün sektorlarını karbonsuzlaşdırmaq məqsədilə hazırkı siyasətini və tədbirlərini daha geniş şəkildə açıqlayır. COP26-dan əvvəl, İngiltərə yeni inkişaf və məşğulluq imkanlarından ən yaxşı şəkildə istifadə edərək, hökumətin 2050-ci ilə qədər xalis sıfır karbon iqtisadiyyatına keçmə fikrini irəli sürərək, hərtərəfli «Sıfır Karbon Strategiyası»nı həyata keçirmək niyyətindədir. «Sıfır Karbon Strategiyası» ölkənin Uzunmüddətli Aşağı Emissiyalı İnkişaf Strategiyasını (Low Emission Development Strategy) təşkil edəcəkdir. İngiltərə ayrıca enerji üzrə texniki sənədi, Nəqliyyat da daxil olmaqla iqtisadiyyatın əsas sahələri üzrə iddialı fərdi planlarını açıqlamaq və icra etmək niyyətindədir.

Qardaş Türkiyənin iqlim dəyişmələrinə qarşı mübarizə təcrübəsi də diqqətəlayiqdir. Belə ki, ölkə 2030-cu ilədək istixana qazları emissiyalarını, baza ili kimi qəbul etdiyi 2010-cu il səviyyəsi ilə müqayisədə 45%-dək azaltmağı, 2070-ci ilə qədər isə tamamilə sıfıra endirməyi hədəfləyir. Maraqlıdır ki, Türkiyə Paris Sazişini ratifikasiya etməyən və yalnız NDC sənədini təqdim etmiş nadir ölkələrdəndir. Qeyd olunan istiqamətdə qanunvericilik bazasını Milli İqlim Dəyişikliyi Strategiyası (2010-2023), Milli İqlim Dəyişikliyi Fəaliyyət Planı (2011-2023) və 10-cu İnkişaf Planı (2014-2018) kimi sənədlər təşkil edir. 11-ci İnkişaf Planı 2019-cu ilin iyul ayında nəşr olunmuşdur və dekarbonlaşmadan daha çox enerji təhlükəsizliyi məsələlərinə yönəlmişdir

İqlim dəyişmələrinə qarşı mübarizə sahəsində bəzi MDB ölkələrinin də təcrübəsi ölkəmizin təcrübəsi ilə müqayisəli təhlil baxımdan maraq doğurur.

Məsələn, Paris Sazişınə qoşulduqdan sonra RF tərəfindən milli səviyyədə götürülmüş öhdəliklərin (NDC sənədi) icrası istiqamətində önəmli strateji sənəd qismində «RF-də istixana qazlarının tullantılarının həcminin monitorinqi, uçotu və yoxlanılması sisteminin formalaşması Konsepsiyası» elə həmin 2015-ci ildə qəbul edilmişdir (RF Hökumətinin №716, 22.04.2015 tarixli qərarı ilə). Bilavasitə, RF-nin NDC sənədinin icrası mexanizminin işlənilməsi ilə bağlı, RF Prezidenti tərəfindən 04.11.2020 tarixdə 666 saylı «İstixana qazlarının azaldılması» barədə Fərman qəbul edilmişdir. Fərmanda 2030-cu ilədək emissiyaların həcminin 1990-ci il səviyyəsi ilə müqayisədə 70 faiz azaldılmasının (ölkənin dayanıqlı sosial-iqtisadi inkişafı nəzərə alınmaqla) təmin edilməsi qeyd olunmuş, eyni zamanda 2050-ci ilədək az karbonlu sosial-iqtisadi inkişaf Strategiyasının hazırlanması vurğulanmışdır. Qeyd edək ki, ən son 02.07.21 tarixdə isə RF-də «İstixana qazlarının məhdudlaşdırılması barədə» Federal Qanun qəbul edilmişdir. Qanunda diqqəti cəlb edən məqamlardan biri, istixana qazlarının uçotu və onunla əməliyyatlar sisteminin, habelə iqlim layihələrinin qeydiyyatı üzrə vahid informasiya portalının yaradılmasından ibarətdir. Eyni zamanda, ilkin mərhələdə 150 min ton, 2024-ci ildən sonra isə illik emissiyalarının həcmi 50 min ton $CO_2$ ekvivalentindən az olmayan müəssisələrinin bu barədə illik hesabat verməsi öhdəliyi,

emissiyaların ölçmə, hesabatlılıq və yoxlama (MRV- Measurement, Reporting, Verification) sisteminin funksional fəaliyyət alqıritmi sənəddə əks olunmuşdur.

MDB ölkələri arasında Qazaxıstan Respublikasının iqlim siyasəti və müvafiq qanunvericilik bazası da xüsusi maraq doğurur. Belə ki, 2015-ci ildə təqdim etdiyi Milli Müəyyən edilmiş Töhfələr sənədinə əsasən, bu ölkə 2030-cu ilədək istixana qazları emissiyalarını 1990-cı il baza ili ilə müqayisədə cəmi 15% azaltmağı hədəfləyirdi. Bu qardaş ölkə MDB məkanında Emissiya Ticarət Sxemi (ETS) barədə qanunvericilik aktını qəbul etmiş ilk ölkələrdəndir. Belə ki, ETS mexanizmi Qazaxıstanda 2013-cü ildən fəaliyyətə başlamışdır (2016-2017-ci illərdə fasilə ilə) və hazırda ölkənin daxili $CO_2$ emissiyalarının təxminən 40%-ni tənzimləyir. Xüsusilə də ETS, emissiyaları illik 20 min ton $CO_2$-dən çox emissiyaları olan enerji, mərkəzləşdirilmiş isitmə, hasilat sənayesi və istehsal sahələri ilə əlaqəli 225 iri müəssisəyə şamil edilir. Lakin bu tədbirlərə baxmayaraq, Qazaxıstanın $CO_2$ tullantıları 2000-ci il ilə müqayisədə iki dəfədən çox artmışdır. Bununla əlaqədar, Qazaxıstan qısa və orta müddətli siyasət tövsiyələrini verən və ölkənin 2060-cı ildə karbon neytrallığı üçün potensial yaradan “Bazar hazırlığının təmin edilməsi üzrə tərəfdaşlıq proqramı” (PMR) üzrə Dünya Bankı ilə əməkdaşlığa başlamışdır. 2021-ci ilin noyabr ayında Qlazqodakı COP26-ya hazırlıq çərçivəsində PMR üzrə fəaliyyət çərçivəsində Qazaxıstanın NDC sənədinin yenilənməsi üçün qarşıda duran on ildə lazım olan texniki tədbirlər və investisiyaların yol xəritəsi hazırlanmışdır. Yol xəritəsinə görə, Qazaxıstan 2023-2030-cu illər arasında iqtisadiyyatın yeddi sektoru: enerji, kənd təsərrüfatı və meşə təsərrüfatı, sənaye, kommunal xidmətlər, kömür sənayesi, tullantıların idarə olunması və nəqliyyat sahələrində hədəflənmiş karbonsuzlaşdırma tədbirlərini həyata keçirməlidir. Bunlar arasında elektrik enerjisi bazarı, istilik enerjisi bazarı, mədən və metal sənayesi ölkənin enerji intensivliyinin əhəmiyyətli dərəcədə azaldılması baxımından ən əsas sektorlar olacaqdır. Yol xəritəsi, digər tədbirlər qismində, bərpa olunan enerji, enerji səmərəliliyi və tullantıların azaldılması idarəçiliyinə investisiyaların artırılmasını da tövsiyə edir. Bu tövsiyələrin yerinə yetirilməsi Qazaxıstan üçün 2060-cı ilədək karbon neytrallığı hədəfinə çatmağa real şərait yaradacaqdır.

Maraqlıdır ki, hazırda Qazaxıstanın uzunmüddətli hədəfi 2050-ci ilədək dünyanın ən inkişaf etmiş 30 ölkəsindən biri olmaqdır. Bu istiqamətdə aşağı karbonlu iqtisadi artımın dəstəklənməsi üzrə ölkədə çox önəmli «Enerjiyə qənaəti və enerji səmərəliliyi haqqında» və «Bərpa olunan enerji mənbələrindən istifadəyə dəstək haqqında» qanunlar da artıq qəbul edilmişdir.

Bundan əlavə, aşağı karbonlı inkişafa nail olmaq üçün Qazaxıstan ««Yaşıl» iqtisadiyyata keçid haqqında Konsepsiya» sənədini də qəbul etmişdir. Konsepsiyanın həyata keçirilməsi üçün məişət tullantılarının idarə olunması, mənzil və kommunal xidmətlərin modernləşdirilməsi, davamlı nəqliyyatın inkişafı, ekosistemlərin qorunması və meşə örtüyünün artırılması ilə bağlı dövlət proqramlarını əhatə edən layihə hazırlanmışdır. Eyni zamanda, sahibkarların məsuliyyəti və nəqliyyat vasitələrinin yaşıllaşdırılması haqqında qanunların qəbulu gözlənilir. «Yaşıl» İqtisadiyyata keçid Konsepsiyasının icrası və əlaqədar qanunvericilik aktlarının qəbulu, enerji səmərəli texnologiyalara əsaslanan əsas infrastrukturun və istehsal texnologiyalarının modernləşdirilməsinə səbəb olacaq və istixana qazları tullantılarının azaldılmasına əhəmiyyətli töhfə verəcəkdir.

Məlumat üçün qeyd edək ki, müxtəlif ölkələrə aid Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) sənədlərində istixana qazlarının emissiyalarının azaldılması barədə qəbul edilmiş hədəflərin təhlil göstərmişdir ki, AR-in müvafiq NDC sənədindəki hədəfi hətta bir çox inkişaf etmiş ölkələrin NDC sənədlərindəki hədəflərdən daha məsuliyyətli və ağırdır. Belə ki, məsələn, qlobal istixana qazlarının emissiyalarının 15%-ə sahib olan ABŞ-da bu

hədəf cəmi 28%- dir (2005-ci il səviyyəsi ilə müqayisədə), qlobal emissiyaların 4%-ə sahib olan Yaponiyada isə 26%-dir (hətta 2013-cü illə müqayisədə). Bundan əlavə, aparıcı neft istehsalçısı olan ölkələrdən Meksikada bu hədəf 22%-dir, Qazaxıstanda isə 15%-dir (hər iki ölkə 1990-cı illə müqayisədə), digər MDB üzvü olan Belorusda 28%-dir (1990-cı il ilə müqayisədə), UNFCCC Əlavə1 qrupuna aid olan qardaş Türkiyədə isə cəmi 21%-dir (2010-cu il ilə müqayisədə) [30].

Yuxarıda bəhs edilən beynəlxalq təcrübə fövqündə, Azərbaycan Respublikasının qlobaı iqlim dəyişmələrinə qarşı mübarizə sahəsində ardıcıl fəaliyyəti də diqqətəlayiqdir. Belə ki, 1995-ci ildə ölkəmiz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) qoşulmuşdur. 2000-ci ildə Kioto protokolunu ratifikasiya edən və 2015-ci ildə Paris Razılaşmasını imzalayan Azərbaycan Respublikası Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) sənədində baza ili (1990) ilə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların (İEYQ) netto emissiyalarının səviyyəsində 35% azalmanı hədəf kimi götürmüşdür.

Qeyd edək ki, hələ 1997-ci ildə Ulu Öndər Heydər Əliyev iqlim dəyişmələri ilə bağlı problemin aktuallığını nəzərə alaraq, MDB məkanında ilk ölkələrdən biri kimi Azərbaycan Respublikasında İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının yaradılması barədə 30.04.1997 tarixli 560 nömrəli Sərəncam vermişdi [31]. Eyni zamanda, AR Prezidenti İlham Əliyevin 11.03.2020 tarixli sərəncamı ilə Dövlət Komissiyasının yeni tərkibi müəyyən edilmişdir. AR Baş nazirinin müavini Ə.Əhmədovun sədri olduğu bu Dövlət Komissiyasının yeni tərkibdə formalaşması ölkədə iqlim dəyişmələri ilə mübarizə sahəsində ölkədə ardıcıl institusional və qanunvericilik fəaliyyətinin güclənməsinə səbəb olmuşdur. Belə ki, komissiyanın fəaliyyətinin təşkili məqsədilə dövlət qurumlarının mütəxəssislərindən, ekspertlərdən ibarət effektiv İşçi Qrup formalaşdırılmışdır. Belə ki, bu İşçi Qrupuna Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) ilə yanaşı, İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, AR Dövlət Statistika Komitəsi və digər dövlət qurumlarının müvafiq mütəxəssisləri cəlb olunmuş və İşçi Qrup tərəfindən müvafiq Fəaliyyət Planı hazırlanaraq AR Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş və aidiyyatı dövlət qurumlarına icraya yönəldilmişdir. Sözügedən Dövlət Komitəsinin 23.07.2020 tarixdə ilk iclası keçirilmiş və iclas zamanı bir sıra mühüm qərarlar qəbul edilmiş, qeyd olunan istiqamətdə görülmüş işlər barədə Komissiyanın mütəmadi məlumatlandırılmasına cavabdeh və əlaqələndirici qurumu kimi AR ETSN Dövlət Komissiyası tərəfindən müəyyən edilmişdir.

Ötən dövrdə Azərbaycan Respublikası özünün Birinci Milli Məlumatını (2000), İkinci Milli Məlumatını (2010) və Üçüncü Milli Məlumatını (2015), eləcə də Birinci İkiillik Yenilənmiş Hesabatını (2014), İkinci İkiillik Yenilənmiş Hesabatını (2018) hazırlayaraq Konvensiyanın Katibliyinə təqdim etmişdir. Dördüncü Milli Məlumat 23.06.21 tarixində Katibliyə rəsmi təqdim edilmişdir [32]. Bu hesabatların hazırlanmasında məqsəd milli və sektoral inkişaf istiqamətlərini iqlim dəyişmələri ilə mübarizə ilə uyğunlaşdırmaq və eyni zamanda institusional və texniki potensialı gücləndirmək prosesi üçün davamlılığı təmin etməyə yardımdan ibarətdir.

Bu sənədlərdə ölkəmizdə bu günə qədər İEYQ üzrə aparılmış nəticələri təhlil edilmiş, emissiya əmsalları və və s. yenidən qiymətləndirilimiş, iqlim dəyişmələrinə təsirlərinin yumşaldılması, adaptasiya istiqamətində görülmüş işlər təhlil edilmiş, növbəti illər üzrə proqnozlar verilmiş, maliyyə, texniki və bacarıqların artırılması istiqamətində ehtiyaclar təhlil edilmişdir.

Qeyd edək ki, İPCC-nin 2006-cı il metodologiyası əsasında 2016-ci ildə həyata keçirilmiş İEYQ-ın son inventarlaşdırılması nəticələrinə görə, ölkəmizdə İEYQ-nin emissiyalarının miqdarı 61.257 milyon ton $CO_2$ ekvivalenti olmuş, udulmalar nəzərə alınmaqla isə netto emissiyalar 54.033 milyon ton kimi qiymətlən-

dirilmişdir. Məlumat üçün 2016-ci ildə dünya üzrə orta hesabla adambaşına netto emissiyalar 6 ton $CO_2$ ekvivalenti olmuşdur. Bu nəticə dünya uzrə 2016-ci ildə hesablanmış emissiyaların cəmi 0.15 faizini təşkil etmişdir. Eyni zamanda, bu inventarlaşma nəticələri 2016-ci ildə Azərbaycanda baza illi (1990) ilə müqayisədə (udulmalarla) emissiyaların 31.6% azalmasına nail olunduğunu göstərmişdir. Belə ki, 1990-cı ildə İEYQ-nın emissiyası səviyyəsi 78,959 milyon ton $CO_2$ ekv-nə bərabər olmuşdur.

Bununla yanaşı, AR hökuməti tərəfindən UNFCCC-ə təqdim edilmiş 4-cü Milli Məlumatda (4th National Communication) ilk dəfə olaraq bütün sektorlar üzrə mövcud yumşaltma (mitiqasiya) tədbirlərinin təsirlərinin proyeksiyası xüsusi tətbiqi proqram təminatı olan (LEAP proqramı) üzrə riyazi modelləşdirmə əsasında hesablanmışdır. Bu hesablamalar nəticəsində müəyyən edilmişdir ki, hazırda bütün sektorlar üzrə hazırki yumşaltma (mitiqasiya) tədbirlərinin yerinə yetirilməsinə baxmayaraq, 2030-cu ilədək İEYQ-ın emissiyalarının səviyyəsində nəzərəçarpacaq yüksəliş müşahidə olunacaqdır və NDC sənədindəki hədəfə nail olmaq üçün 2030-cu ilə qədər ölkəmiz ən azı 25-26 milyon ton $CO_2$ ekvivalenti qədər istixana qazları emissiyasını azaltmalıdır. Bu isə istixana qazlarının əsas emitoru olan sektorlarda, xüsusən energetika, sənaye, tullantı, kənd təsərrüfatı əlavə geniş miqyaslı yumşaltma (mitiqasiya) tədbirlərinin həyata keçirilməsini, xüsusən alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi məsələlərini zəruri edir.

Müqayisə üçün, məsələn, 2016-cı ildə Almaniya və Avstriya kimi inkişaf etmiş ölkələrdə adambaşına cəmi və netto emissiyalar müvafiq olaraq 9.79 ton və 7.74 ton $CO_2$ ekvivalent təşkil etmişdir.

AR-də İEYQ-ın inventarlaşmasına aid son hesablamalar aşağıdakı cədvəldə verilmişdir.

4-cü Milli Məlumatın hazırlanması prosesində tərəfimizdən müasir metodologiyalar əsasında (LEAP proqramı, yəni Low Emissions Analyis Platform - Aşağı Emissiyaların təhlili platformu) [33] aparılmış tədqiqatlar və riyazi

**Cədvəl.** Sektorlar üzrə İEYQ emissiyaları və udulmaları

| Sektor | İEYQ tullantıları və udulmaları (Gq $CO_2$ ekv.) | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
| | | | | | | | | | | | |
| Enerji | 74134 | 47222 | 40360 | 40915 | 41000 | 43196 | 44622 | 45817 | 46788 | 47650 | 48128 |
| SMPİ | 1505 | 481 | 452 | 1868 | 1977 | 2212 | 3277 | 3192 | 3265 | 3676 | 3137 |
| KTMTDİ | 6264 | 3799 | 5370 | 6469 | 7243 | 8237 | 8375 | 8449 | 8582 | 8647 | 8666 |
| Tullantı (RH) | 772 | 846 | 917 | 1004 | 1155 | 1180 | 1228 | 1287 | 1315 | 1332 | 1326 |
| Cəmi emissiya | 82675 | 52348 | 47099 | 50256 | 51375 | 54825 | 57502 | 58746 | 59949 | 61306 | 61257 |
| | | | | | | | | | | | |
| Udulmalar | -3690 | -2456 | -4870 | -5349 | -5410 | -5773 | -6082 | -6335 | -7044 | -7119 | -7224 |
| Netto emissiya | 78985 | 49892 | 42229 | 44907 | 45965 | 49052 | 51420 | 52411 | 52905 | 54187 | 54033 |




**Diaqram.** Bütün sektorlar üzrı mövcud bütün yumşaltma tədbirləri (MİT-Overall) nəticəsində Baza Xətti Ssenarisi ilə müqayisədə İEYQ-ın emissiyalarında illər üzrə azalma dinamikası (LEAP)

modelləşdirmə göstərmişdir ki, mövcud vəziyyətdə bütün sektorlar üzrə yumşaltma tədbirlərinin yerinə yetirilməsi 2030-cu ilədək İEYQ-ın emissiyalarını yalnız 76,8 milyon ton $CO_2$ ekvivalenti səviyyəsinə (udulmalar nəzərə alınmaqla) endirə bilər. Halbuki Azərbaycan Respublikasının Paris Sazişinə uyğun olaraq Milli Səviyyədə Müəyyən Olunmuş Töhfələrin yerinə yetirilməsi istiqamətində götürdüyü öhdəliyə uyğun olaraq bu qazların emissiyaları 2030-cu ilədək 1990-cı il səviyyəsindən, yəni 78,959 milyon ton $CO_2$ ekv. səviyyəsindən 35% az olmalıdır, yəni təxminən 51,323 milyon ton $CO_2$ ekv. səviyyəsində olmalıdır. Bu isə, qarşıdakı illərdə daha əhəmiyyətli yumşaltma tədbirlərinin sayının artırılması ilə 2030-cu ilədək İEYQ-ın emissiyalarının həcmini təxminən daha 25,47665 milyon ton $CO_2$ ekv qədər azaltmağı vacib edir.

Bununla yanaşı, hesablamalar göstərmişdir ki, yumşaltma tədbirləri nəticəsində 2016-cı ildən etibarən İEYQ-ın həcmində Baza Xətti Ssenarisinə nəzərən azalmalar etibarən baş verir və bu azalmaların həcmi 2016-cı ildən 2030-cu ilədək 3 dəfəyə yaxın artaraq 28,2 milyon ton $CO_2$ ekvivalentinə (udulmalar nəzərə alınmaqla) bərabər olur.

Qeyd olunan diaqrama uyğun olan cədvəl aşağıda təsvir edilmişdir:

| | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** | **2024** | **2025** | **2026** | **2027** | **2028** | **2029** | **2030** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| $CO_2$ | 4,7 | 4,9 | 7,0 | 6,9 | 7,4 | 7,8 | 8,0 | 8,4 | 8,5 | 9,2 | 9,4 | 10,0 | 10,7 | 11,4 | 12,2 |
| $CH_4$ | 5,6 | 7,1 | 9,6 | 10,7 | 11,3 | 11,7 | 11,9 | 12,4 | 12,5 | 13,2 | 13,6 | 14,2 | 14,9 | 15,6 | 15,9 |
| $N_2O$ | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,1 |
| Digər | | | | | | | | | | | | | | | |
| İEYQ qazlar | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| **TOTAL** | **10,3** | **12,0** | **16,6** | **17,6** | **18,7** | **19,5** | **19,9** | **20,7** | **21,0** | **22,4** | **23,0** | **24,2** | **25,6** | **27,1** | **28,2** |

**(milyon ton $CO_2$ ekvivalenti)**

Eyni zamanda, İEYQ-nin emissiyalarının azaldılması siyasət və tədbirlərinin total effekti və 2030-cu ilə olan proyeksiyaların təhlili onu göstərmişdir ki, AR-də energetika sektoru, kənd təsərrüfatı, tullantıların utilizasiyası kimi sahələr İEYQ-nin inventarlaşdırılması nöqteyi-nəzərindən əsas sektorlardır. Bu mənada energetika İEYQ-nin emissiyalarının azaldılması siyasət və tədbirləri üzrə də ən əsas sektor olaraq qalır. Belə ki, bu sektorda həyata keçirilmiş, mövcud yumşaltma tədbirlərinin total effekti bütün sektorlar üzrə yumşaltma tədbirlərinin ümumi effektinin təxminən 98 faizini təşkil etməklə, 2030-cu ildə təxminən 27,8 milyon ton $CO_2$ ekvivalentinə bərabər olur.

Eyni zamanda, energetika sektorunda, xüsusən karbohidrogen hasilatı və nəqli zamanı itkilərin azaldılması üzrə tədbirlərin effektinin İEYQ emissiyalarının ümumi azaldılmasındakı payı təxminən 30 faiz təşkil edir. Bu sektorda perspektiv yumşaltma tədbirlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

- İlk növbədə bütün sahələrdə enerji səmərəliliyinin təmin olunması və itkilərin qarşısının alınması;
- müasir texnologiyaların tətbiqi ilə neft-qaz hasilatı zamanı atmosferə atılan qazların azaldılması;
- paylayıcı sistemlərin modernləşdirilməsi;
- müvafiq standartlara uyğun yanacağın istehsalı;
- elektrik və istilik enerjisi, təbii qaz sistemlərində nəzarət-ölçü cihazlarından istifadənin genişləndirilməsi;
- elektrik enerjisi istehsalı zamanı ekoloji təmiz enerji mənbələrinə keçidin genişləndirilməsi və enerji effektivliyinin artırılması;
- alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi;
- ekoloji təmiz nəqliyyat növlərinin tətbiqi, nəqliyyatın intellektual idarəetmə sisteminin təkmilləşdirilməsi, ictimai nəqliyyatdan istifadənin artırılması;
- qeyd olunan sektorun İEYQ-ın azaldılmasında rolunu nəzərə alaraq, burada emissiyaların ölçülməsi, hesabatlılığı və monitorinqi sisteminin beynəlxalq tələblərə çatdırılması və beynəlxalq karbon mexanizmlərinin tətbiqi;
- yaşıl iqtisadiyyatın və həyat tərzinin formalaşdırılması, enerji səmərəliliyi barədə maarifləndirici tədbirlərin həyata keçirilməsi.

Eyni zamanda, tərəfimizdən aparılmış hesablamalar göstərmişdir ki, energetika sektorunda 2030-cu ildə İEYQ-ın səviyyəsində proqnozlaşdırılan 27,8 milyon ton $CO_2$ ekvivalenti azalmanın 63,3 faizi ölkədə alternativ və bərpa olunan enerjidən istifadə hesabına baş verəcəkdir. Bu isə ölkədə alternativ enerjiyə keçidin inkişaf etdirilməsinin bir daha vacibliyini sübut edir. Bu məsələ AR Prezidentinin 02.02.21 tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» sənədində bəhs edilən 5-ci Milli Prioritetdə (Təmiz ətraf mühit və «yaşıl artım» ölkəsi) öz əksini tapmışdır. Belə ki, bu prioritetin reallaşdırılması üzrə yüksək keyfiyyətli ekoloji mühit və yaşıl enerji məkanının formalaşdırılması istiqamətində fəaliyyətlər çərçivəsində resurslardan, o cümlədən enerjidən səmərəli istifadə ilə yanaşı, alternativ və bərpa olunan enerji mənbələrindən, yaşıl texnologiyalardan istifadənin genişləndirilməsi, yeni dayanıqlı enerji mənbələrinə üstünlük verilməsi xüsusi vurğulanmışdır [34].

Qeyd edildiyi kimi, son inventarlaşma nəticələrinə görə, istixana qazlarının emissiyaların ən böyük payı, yəni təxminən 78 faizi energetika və nəqliyyat sektorunun (İPCC 2006-cı il inventarlaşma metodologiyasına əsasən bu iki sahə vahid Enerji sektorunda nəzərdən keçirilir) payına düşür. Digər tərəfdən gələcək illərdə kənd təsərrüfatı və tullantı sektorları üzrə emissiyaların xüsusi çəkisinin artması gözlənilir. Bu mənada, Qarabağ bölgəsində və digər regionlarda yaşıl enerji zonasının, yaşıl dayanıqlı artım zonalarının yaradılması NDC sənədindən hədəfə nail olmaqda önəmli töhfə verə bilər. Eyni zamanda müxtəlif sektorlarda emissiyaların azaldılması üzrə perspektiv yumşaltma tədbirlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

- energetika və nəqliyyat sektorunda, habelə digər iqtisadi fəaliyyət sahələrində alternativ və bərpa olunan enerji mənbə-

lərindən istifadənin genişləndirilməsi, yaşıl hidrogen istehsalına başlanılması;

- müasir texnologiyaların tətbiqi ilə enerji səmərəliliyinin təmin olunması, xüsusən neft-qaz istehsalı və nəqli sahələrində itkilərin qarşısının alınması, müvafiq ekoloji standartlara uyğun yanacağın istehsalı;
- energetik, sənaye və digər sektorlarda potensial emissiyaların ölçülməsi üzrə nəzarət-ölçü cihazlarından istifadənin genişləndirilməsi;
- ekoloji təmiz nəqliyyat növlərinin genişləndirilməsi, nəqliyyatın intellektual idarəetmə sisteminin təkmilləşdirilməsi, ictimai nəqliyyatdan istifadənin stimullaşdırılması, dəmir-yolu şəbəkəsinin tam elektrikləşdirilməsi;
- İqlim baxımdan «Ağıllı kənd təsərrüfatı» texnologiyalarının geniş istifadəsi;
- Bərk məişət tulllantıları və çirkab suların idarə edilməsini təkmilləşdirilməsi;
- yaşıl iqtisadiyyatın, həyat tərzinin, «yaşıl təfəkkürün» formalaşdırılması, maarifləndirici tədbirlərin artırılması.

Bundan əlavə, qeyd edilməlidir ki, ölkəmiz iqlim dəyişmələri təsirlərinə həssas ölkələr sırasındadır. Bu baxımdan iqlim dəyişmələrinə olan həssaslığının azaldılması üçün sektorlar üzrə milli, regional, lokal və icma səviyyələrində baş verə biləcək itkilərin azaldılması və ya minimuma endirilməsi məqsədilə müvafiq adaptasiya tədbirlərinin həyata keçirilməsi vacib məsələlərdəndir. Məlumat üçün qeyd edək ki, hazırda iqlim dəyişmələrinə ən həssas sektorlar su resursları, kənd təsərrüfatı, sahilyanı ərazilər, səhiyyə və turizmdir.

Qeyd etmək lazımdır ki, hal-hazırda iqlim dəyişmələri ilə mübarizə istiqamətində həm institusional, həm də qanunvericilik sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. Bundan əlavə, AR Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşəbbüsü və Nazirlər Kabinetinin göstərişi ilə «Az karbonlu inkişaf üzrə Milli Strategiya», Milli Adaptasiya Strategiyası və digər sənədlərin hazırlanmasına başlanılmışdır. Məhz 2050-ci ilədək İEYQ-ın həcminin inkişaf trendi haqqında əvvəlcədən təsəvvür əldə edilməsi baxımdan Avropa Komissiyası tərəfindən maliyyələşdirilən və BMT İnkişaf Proqramı (UNDP) tərəfindən həyata keçirilən Aşağı Emissiyalı İnkişaf Strategiyası sənədinin hazırlanmasının böyük əhəmiyyəti vardır. Eyni zamanda ölkədə istixana qazlarının emissiyaların səviyyəsini və yumşaltma tədbirlərinin təsirlərini daha dəqiq müəyyən etmək üçün Ölçmə, Hesabatlılıq və Yoxlama (ingiliscə – MRV, Mesurement, Reporting and Verification) sisteminin effektiv qurulması vacib məsələdir.

Bundan əlavə qeyd edək ki, Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədindəki hədəfə nail olmaq istiqamətində əsas maneələrdən biri enerji bazarında dalğalanmalar və s. ilə yanaşı 30 ilə yaxın dövrdə AR-in 20 faiz ərazilərinin erməni işğalı altında olması ilə bağlı olmuşdur. Məsələn, hesablamalar göstərmişdir ki, erməni işğalçı rejimi tərəfindən ötən illər ərzində 6268,1 hektar meşə ərazilərinin məhv edilməsi nəticəsində hər il təqribən 54,44 min ton $CO_2$ emissiyanın udulması baş verməmiş və əvəzində isə havaya 300 min ton $CO_2$ emissiyası buraxılmışdır.

Məlum olduğu kimi, Azərbaycanın 1988-1993-cü illər ərzində işğal olunmuş 20 faiz (1,7 milyon hektar) ərazisində ermənilər tərəfindən təbiətə, bioloji müxtəlifliyə, bütövlükdə, regionun ekoloji durumuna ciddi ziyan vurulmuşdur. İşğaldan azad olunmuş ərazilərdə törədilmiş ekoloji terror su mənbələrinin korlanması, meşələrin qırılması, regionun ekoloji tarazlığının pozulmasına ciddi təsir göstərmişdir.

Məhz Azərbaycan Respublikasının Ali Baş Komandanı AR Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz tərəfindən 2020-ci ildə 44-günlük müharibənin qələbə ilə başa çatması müasir tariximizdə yeni şanlı səhifə açmaqla yanaşı, Ermənistan tərəfindən ölkəmizə qarşı siyasi, ekoloji terrora son qoymuş, bölgənin müasir, innovativ inkişafının başlanğıc nöqtəsi olmuşdur. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə ekoloji fəlakətin qarşısının alınması istiqamətində kompleks işlərə başlanılmışdır. Belə ki, Füzuli, Zəngilan, Ağdam, Cəbrayıl və digər rayonların

ərazilərində, əsasən, Şərq çinarı olmaqla, ümumilikdə, 2000-ə qədər müxtəlif növ ağac əkilib, 100 kiloqramdan artıq palıd və digər meşə ağaclarının toxumları səpilib. İşğaldan azad olunmuş bütün ərazilər minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirildikcə ağacəkmə tədbirləri davam etdiriləcəkdir.

Ermənilər tərəfindən tamamilə məhv edilmiş ərazilərdə hazırda «netto sıfır emissiya» zonasının yaradılması hal-hazırda aktual məsələlərdən biridir. Təsadüfi deyildir ki, AR Prezidenti cənab İlham Əliyev tərəfindən mətbuat konfransların birində regionun gələcəyi ilə bağlı bu sözlər qeyd edilmişdir: «Hər bir rayonun coğrafi mövqeyinə uyğun işlərin görülməsi nəzərdə tutulmuşdur. İlkin olaraq layihələrin icrası üçün təyin olunan investisiyalara uyğun artıq bir çox beynəlxalq şirkətlərlə müqavilələrin bağlanması bölgəyə və bu bölgədə görüləcək işlərə olan marağın böyüklüyündən irəli gəlir. Beynəlxalq təcrübədən istifadə edilərək bölgədə ilk dəfə olaraq eksperimental layihələrin icrası həyata keçiriləcək. «Yaşıl enerji» zonası, «Ağıllı kənd» pilot layihəsi bu layihələr sırasındadır» [35].

Həmçinin öz çıxışında cənab Prezident işğaldan azad edilmiş əraziləri «Yaşıl enerji» zonası kimi elan etdiyini, azad edilmiş zonalarda bərpa olunan enerji mənbələri baxımından böyük potensial olduğundan həmin ərazilərdə bu resurslardan istifadə ediləcəyini bildirib. Qeyd edək ki, artıq Zəngilan rayonunda Ağıllı Kənd Layihəsinə start verilmiş, yaşıllıqların salınması, yeni əkin sahələri salınmışdır. Ağıllı Kənd Layihəsinin 5 komponenti – yaşayış, istehsal, sosial xidmətlər, «ağıllı kənd təsərrüfatı», alternativ enerji – bu ərazilərdə «netto sıfır emissiya» zonası kimi elan olunmasına şərait yaradacaqdır.

Bununla yanaşı, «Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» sənədində «Prioritet olan İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış» adlı 4-cü Prioritetin və «Təmiz ətraf mühit və «yaşıl artım» ölkəsi» adlı 5-ci Prioriterlərin reallaşdırılması çərçivəsində hazırda 30 illik işğaldan azad edilmiş ərazilərimizdə infrastrukturun bərpası və SMART infrastrukturun formalaşması istiqamətində mühüm işlər həyata keçirilir. Ölkə prezidenti hökumət qarşısında erməni təcavüzünün nəticələrini qısa müddət ərzində aradan qaldırmaq və Qarabağı «yaşıl enerji» zonasına, «ağıllı şəhər və kənd» regionuna çevirmək vəzifəsini qoyaraq xüsusi əhəmiyyət verir. Belə ki, artıq 30 illik işğaldan azad edilmiş ərazilərimizdə «yaşıl enerji» zonasının yaradılması, «ağıllı şəhər və ağıllı kənd» layihələri artıq işlənib hazırlanmışdır.

Qeyd edək ki, «ağıllı şəhər» konsepsiyasında aşağıdakı innovativ həllərin və mexanizmlərin tətbiqi nəzərdə tutulmuşdur:

- Ağıllı Şəbəkələrin İdarəetmə Mərkəzləri;
- 3D-mobil xəritə sistemi;
- 199 Çağrı Mərkəzinin faəliyyət spektri genişləndirilib, Vahid Çağrı Mərkəzinin hazırda digər struktur bölmələrlə koordinasiyası təmin edilir;
- Ağıllı Uçot cihazları (Smart sayğaclar) və Avtomatik İdarəetmə (AMR cihazları) bazasında Ağıllı Enerji Balansı Sistemi qurulur;
- Elektrik enerjisi Uçotunun məsafədən idarə edilməsi istiqamətində məsafədən sayğac oxuma texnologiyası tətbiq edilir, Elektron Bildiriş platforması yaradılır;
Qeyd etmək lazımdır ki, dünyanın müasir inkişaf etmiş dövlətləri ümumiyyətlə «iqtisadiyyatın servisləşdirilməsi» sayəsində hərtərəfli rifaha nail ola bilmişlər. Məsələn, bu mənada Yaponiyanı xüsusi qeyd etmək lazımdır. Belə ki, ötən əsrin 80-ci illərində Yaponiyada müşahidə olunan «iqtisadi inqilabın» kökündə duran amillərdən biri də məhz xidmət sahələrinin inkişafı və dövlətin bu sahəni daha ciddi tənzimləməsi olmuşdur [10]. Bu, sübut edir ki, istənilən dövlətdə xidmət sektorunun vəziyyəti ümumilikdə onun iqtisadiyyatının keyfiyyət göstəricisi rolunda çıxış edir. Məhsul istehsalı bildiyimiz kimi, iqtisadiyyatın başlıca sahəsidir. Lakin, hazırkı reallıqlar artıq fərqlidir. Belə ki, bu gün xidmət sektorunun iqtisadiyyatın əsas hərəkətverici elementi olduğunu qeyd etmək mümkündür. Hətta, müasir dünyamızda iqtisadiyyatın ən gəlirli sahəsi məhz xidmət sektorudur. Xidmət sektorunun daha böyük gəlir gətirmək perspektivləri onu kifayət qədər cəlbedici etməkdədir. Xüsusilə də dövlət xidmətlərinin göstərilməsi informasiya-kommunikasiya texnologiyaları əsasında həyata keçirilməsi ciddi keyfiyyət dəyişikliyini şərtləndirmişdir. Belə ki, xidmət sektorunda müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi daha sürətli və təhlükəsiz informasiya dövriyyəsini təmin edir. Bundan başqa, əvvəlki hissələrdə əsaslandırıldığı kimi, zaman və resurs itkisinin qarşısını alır. Bu zaman nəzərə almaq lazımdır ki, üstün texnologiyaların tətbiq olunması təkcə dövlət xidmət

sektorunda deyil, özəl xidmət sahəsində əhəmiyyətli inkişafı təmin etmişdir. Məsələn, bu gün ABŞ iqtisadiyyatı Çin iqtisadiyyatı ilə məhz xidmət sektorunun inkişafı sayəsində rəqabət apara bilir. Belə ki, iqtisadiyyatın klassik sahəsi olan məhsul istehsalına görə Çin ABŞ-dan artıq xeyli irəlidədir. Lakin, ABŞ-da ən müasir texnologiyaların tətbiq olunduğu xidmət bazarının inkişafı ona ümumi iqtisadi inkişafda Çinlə ən azından balans saxlamağa imkan verir. Müvafiq olaraq, Çin xidmət sektorunun inkişafına görə ABŞ-dan geri qaldığına görə, ümumi iqtisadi inkişafına görə dünyada birinci ola bilmir. Bunu nəzərə alaraq, Çin həm özəl sektorda, həm də dövlət xidmət sektorunda sürətli inkişafın təmin olunması üçün xüsusi proqram da həyata keçirmişdir. 2011-2015-ci illəri əhatə edən 12-ci beşillik çərçivəsində Çin hökuməti xidmət sektorunun inkişaf etdirilməsinin fəaliyyətin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir [12]. Qarşıya qoyulmuş başlıca məqsəd xidmət sektorunun maliyyə, logistika, təhsil, səhiyyə kimi ən vacib istiqamətlərinin inkişaf etdirilməsi üçün daha səmərəli strategiyanın həyata keçirilməsindən ibarətdir. Çin hökuməti qeyd olunan sahələrdə xidmətlərin göstərilməsi üzrə dünyada liderliyini təmin etməyə çalışır. Xüsusi proqramın həyata keçirilməsi nəticəsində Çinin dövlət və özəl xidmət sektorlarında həqiqətən də, ciddi irəliləyiş müşahidə olunmuşdur. Lakin, bu irəliləyiş gözlənildiyindən zəif idi və hələlik Çinin xidmət sektorunda dünya liderliyini təmin edə bilmir [11, s.95]. Xidmət sektorunda ən yüksək keyfiyyət nəticələrini təmin etmək üçün digər addımlarla yanaşı, qabaqcıl idarəetmə metodlarının tətbiq olunması və ümumi iqtisadi səmərəliliyi təmin etmək vacibdir. Çinin timsalında qısaca nəzərdən keçirdiyimiz məqamlardan aydın olur ki, müasir mərhələdə ümumi iqtisadi inkişafın əsas göstəricisi rolunda məhz xidmət sektoru çıxış edir. Həmçinin, Azərbaycan Respublikasının iqtisadi sistemində xidmət sektorunun xüsusi çəkisi davamlı olaraq, artmaqdadır. Ölkəmizdə xidmət sektorunun dövlət müstəqilliyinə qovuşduqdan sonra meydana gəlməsinə baxmayaraq, qısa zaman ərzində əhəmiyyətli inkişaf yolunu keçmişdir. Bu, hər şeydən öncə dövlətin iqtisadi siyasətinin düzgün qurulmasından və dəqiqliklə həyata keçirilməsindən xəbər verir. Belə ki, xidmətlərdən vətəndaşların geniş istifadə etmələri üçün resurslara malik olmaları şərtdir. Yəni, vətəndaşın maddi resursları nə qədər geniş olarsa, onun xidmətlərdən istifadə etmək imkanları da bir o qədər geniş olmalıdır. Nəticədə xidmət sektorunun inkişaf etdirilməsi üçün zəmin və tələbat yaranacaqdır. Bu baxımdan, Azərbaycan Respublikasında ümumi iqtisadi tərəqqi fonunda xidmət sektorunun da əhəmiyyətli inkişafı baş vermişdir. Bundan başqa, nəzərə almaq lazımdır ki, ümumilikdə dünya üzrə xidmət sektorunun inkişafına təkan verən mühüm amillərdən biri rolunda həmçinin, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı olmuşdur. Deməli, xidmət sektorunun inkişafının əsasında əsasən iki amil dayanır:

– ümumi iqtisadi inkişaf fonunda əhalinin gəlirlərinin yüksəlməsi;

– informasiya-kommunikasiya texnologiyalarının yüksək inkişaf tempi.

Yenə də dünya təcrübəsinə nəzər salsaq, XX əsrin ikinci yarısından sonra məhz bu iki amilin təsiri sayəsində yüksək iqtisadi inkişaf tempinə malik olan ölkələrdə xidmət sektoru iqtisadiyyatın klassik sahəsini (istehsal sahəsini) əhəmiyyətli dərəcədə geridə qoymuşdur. Ötən əsrin 80-ci illərindən başlayaraq, dünyanın inkişaf etməkdə olan ölkələrinin dövlət idarəçiliyində müşahidə olunmuş dəyişikliklər xidmət sektorunun ümumi iqtisadi sistemində xüsusi çəkisini nəzərə çarpacaq dərəcədə artırmışdır [9]. Dövlət xidmət sektorunun hazırkı vəziyyəti inkişaf mərhələsi kimi səciyyələndirilə bilər. Azərbaycan Respublikasında xidmət sektorunun ən yüksək səviyyədə inkişaf etdirilməsi ölkədə həm də qeyri-neft sektorunun inkişaf etdirilməsi strategiyasının mühüm istiqaməti kimi nəzərdən keçirilə bilər. Çünki, artıq dünya dövlətlərinin əksəriyyətində xidmət sektorundan əldə olunan gəlirlər əmtəə sahəsinin gəlirlərini əhəmiyyətli dərəcədə üstələyir. Məsələn, bəzi faktlara nəzər

salmaqla, buna əmin olmaq mümkündür. Belə ki, Beynəlxalq Valyuta Fondunun hesabatına əsasən Estoniyanın və İsrailin ümumi gəlirlərinin 45%-ə qədəri məhz xidmət sektorunun payına düşür. Xidmət sahəsindən ən böyük gəlir isə ABŞ-da əldə edilir [13]. Bununla yanaşı, xüsusi vurğulamaq lazımdır ki, inkişaf etmiş ölkələrdə müvafiq olaraq, məşğulluğun 70%-ə qədəri xidmət sektorunun hesabına təmin olunur. Nəzərdən keçirdiyimiz məqamlar və ümumi tədqiqatlar belə bir nəticəyə gəlməyə imkan verir ki, müasir dünyada inkişaf etmiş ölkələrin ümumi iqtisadi inkişaflarının əsas hərəkətverici qüvvəsi rolunda məhz xidmət sektoru çıxış etməkdədir.

## Azərbaycanda xidmət sektorunun ümumi mənzərəsi

Bu reallıq Azərbaycan Respublikasının timsalında öz təsdiqini tapmaqdadır. Belə ki, xidmət sektorunun hazırkı vəziyyəti tam gözləntilərə cavab verməsə də, ümumilikdə bu istiqamətdə müşahidə olunan ciddi keyfiyyət dəyişikliyi yaxşı perspektivlərdən xəbər verir. Məlumat üçün qeyd edək ki, 2017-ci ildə Azərbaycan Respublikasında xidmət sektorundan əldə olunan gəlirlər 25% təşkil etmişdir [3]. Xidmət sektorunun bir sıra sahələrinin dövlət tərəfindən tənzimlənməsi daha səmərəli nəticələrin əldə olunmasına imkan vermişdir. Belə ki, məsələn, konkret olaraq, turizm sahəsində dövlət siyasətinin ayrıca xətt kimi həyata keçirilməsi bu sahənin inkişafının əsas şərtlərindən biridir. Bu, hər şeydən öncə Azərbaycanın xidmət sektorunun beynəlxalq ixrac imkanlarını genişləndirir. Hər şeydən öncə, qeyd etmək lazımdır ki, turizm müasir dünya xidmət bazarında səmərəli iştirak etmək üçün ən perspektivli sahələrdən sayıla bilər. Bu baxımdan, turizm sahəsi ilə birbaşa əlaqəsi olan dövlət xidmət sektorunun inkişaf etdirilməsi milli iqtisadiyyatın resurs təminatında təsirli rol oynaya bilər. Belə ki, hər şeydən öncə nəzərə almaq lazımdır ki, turizm fəaliyyəti ilə məşğul olan zaman burada dövlətin də müəyyən xidmətlərindən istifadə etmək lazım gəlir. Məsələn, Dövlət Sığorta Şirkəti səyahət sığortası kimi vacib xidmət təqdim edir. Bununla yanaşı, əhəmiyyətli sosial xidmət sahələrindən biri kimi turizm sektorunun inkişaf etdirilməsi istiqamətində xüsusi dövlət strategiyasının həyata keçirilməsi ölkədə ümumilikdə xidmət sektorunun dövlət tərəfindən yaxından dəstəklənməsinə bariz nümunədir [5]. Turizm sosial-mədəni xidmət sahəsi kimi, digər xidmət sahələrinin də təkmilləşdirilməsinə xidmət edir. Yəni, turistlərə səhiyyə xidmətlərinin göstərilməsindən tutmuş onların nəqlinin təşkilinə qədər genişaspektrli xidmət sahələri mövcuddur. Bu xidmətlərinin sahələrinin əksəriyyəti dövlət xidmət sektoruna aiddir. Bu baxımdan, dövlət tərəfindən turizm sektorunun inkişaf etdirilməsi məsələsi daim diqqət mərkəzində saxlanılır. Bu gün artıq qeyd etmək olar ki, Azərbaycan Respublikasında turizm xidməti ölkə iqtisadiyyatının əməyin səciyyəvi tərəflərini və xüsusi məzmununu müəyyən edən sərbəst bir sahələrdən biridir. Turizm sektorunun inkişaf səviyyəsinin dünya standartlarına çatdırılması üçün hər şeydən öncə, xidmət keyfiyyətinin yüksəldilməsi vacibdir. Bu zaman, təkcə vətəndaşlara birbaşa asudə vaxtlarını səmərəli keçirməyə imkan verən xidmət növlərinin deyil, həmçinin, digər xidmətlər kompleksinin də keyfiyyətli təqdim olunması vacibdir. Məsələn, dövlət tərəfindən turistlərə etibarlı sığorta xidmətlərinin göstərilməsini nümunə gətirə bilərik. Artıq qeyd olunduğu kimi, bu sahə Azərbaycan Respublikasında xüsusi diqqət yetirilən sahələrdən biridir. Ölkədə keyfiyyətli turizm xidmətlərinin göstərilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə 2006-cı ildə Azərbaycan Turizm İnstitutu (hazırda Azərbaycan Turizm və Menecment Universiteti) yaradılmışdır. Qeyd etmək lazımdır ki, müvafiq xidmət sahəsinin inkişafı istiqamətində atılmış mühüm addımlardan biri də 2010-cu il aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın təsdiq olunması olmuşdur [4]. Bu və həyata

keçirilmiş digər addımların müsbət nəticələri tez bir zamanda müşahidə olunmağa başlamışdır. Məsələn, 2015-ci ildə Azərbaycan Respublikasında ümumdaxili məhsulun 4,5%-i turizm sahəsinin payına düşmüşdür. Müvafiq olaraq, ölkədə yatırılmış sərmayələrin 5,3%-i də bu sahəyə yönəldilmişdir [7, s.7]. Nəzərə almaq lazımdır ki, turizm sektorunda bir sıra xidmətlərin inteqrasiyası müşahidə olunur. Bu da, öz növbəsində dövlət və özəl xidmət sektorlarının qarşılıqlı əlaqəli şəkildə təqdim olunmasını şərtləndirir. Bununla yanaşı, dövlət tərəfindən təqdim olunan və tənzimlənən digər xidmətlərini də qeyd etmək olar. Məsələn, ayrıca olaraq, nəqliyyat sahəsində dövlət xidmətlərinin və tənzimləməsinin yüksək nəticələrindən və perspektivlərindən danışmaq olar. Nəqliyyat sahəsində xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində dövlət tərəfindən atılan ardıcıl addımlar bu sahənin beynəlxalq rəqabətə davamlılığını əhəmiyyətli dərəcədə artırmışdır. Demək olar ki, nəqliyyat bütün növlərinin inkişaf etdirilməsi istiqamətində dövlət proqramları həyata keçirilməkdədir. Vətəndaşlara müvafiq sahələr üzrə keyfiyyətli xidmətlərin göstərilməsi üçün bütün texniki və infrastruktur təminatı həyata keçirilmişdir və bu istiqamətdə fəaliyyət davam etdirilir. Məsələn, sərnişinlərin daha rahat və təhlükəsiz daşınmasını təmin etmək üçün dövlət tərəfindən müasir təyyarələrin alınmasını, demək olar ki, Azərbaycanın bütün şəhərlərində müasir tələblərə cavab verən hava limanlarının inşasını, hava hərəkətlərinin tənzimlənməsi və ya idarə olunması üçün ən müasir texnologiyalardan istifadə olunmasını və s. qeyd etmək olar [8, s.3]. Təbii ki, bütün bu addımlar xidmət sektorunun inkişaf etdirilməsi və rəqabətə davamlılığının artırılması baxımından olduqca əhəmiyyətlidir. Həmçinin, xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında qeyd olunan və digər sahələrdə inkişafın təmin olunmasının mühüm strategiyasını həm də təqdim olunan xidmətlərin elektronlaşdırılması təşkil edir. Məsələn, nəqliyyat sahəsində təqdim olunan xidmətlərin elektronlaşdırılması istiqamətində artıq 2014-cü ildən başlayaraq intensiv işlər həyata keçirilməkdədir. Belə ki, Azərbaycanda «Elektron xidmət növlərinin Siyahısı»na müvafiq olaraq yeni bəndlər daxil edilmişdir [1]. Bu gün Azərbaycan Respublikasında demək olar ki, bütün dövlət idarəetmə orqanlarında vətəndaşlara xidmətlərin göstərilməsi elektronlaşdırılmışdır. Bu sahədə həyata keçirilən addımların daha da səmərəli olması üçün Azərbaycan Respublikasında «elektron hökumətin» yaradılması probleminə həssas yanaşılmışdır. Bu zaman başlıca məqsəd dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsindən, bürokratik əngəllərin aradan qaldırılmasından və nəticədə vətəndaş məmnunluğunun təmin olunmasından ibarət olmuşdur. Qeyd etmək lazımdır ki, «Elektron hökumət» layihəsi həm də Azərbaycanın beynəlxalq pozitiv imicinin formalaşdırılması baxımından əhəmiyyətli olmuşdur. Belə ki, dövlət idarəetməsi orqanlarında elektron xidmətlər təbii ki, Azərbaycan vətəndaşları ilə yanaşı, həm xarici vətəndaşlara təqdim olunur. Həmçinin, «Elektron hökumət» dövlət idarəetməsində şəffaflığın təmin olunmasının kifayət qədər təsirli mexanizmidir. Bu zaman Azərbaycan qabaqcıl beynəlxalq təcrübədən geniş faydalanmışdır. Belə ki, dövlət xidmətlərinin göstərilməsi zamanı bir pəncərə prinsipinin tətbiq olunması «Elektron hökumət» layihəsinin əsas elementini təşkil edir. «Elektron hökumət» məhz bir pəncərə prinsipi əsasında təqdim olunan elektron xidmətlərin cəmləşdiyi portaldır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında «Elektron hökumətin» yaradılması zamanı mövcud beynəlxalq təcrübəyə istinad olunmaqla yanaşı, bu layihənin əsaslı şəkildə həyata keçirilməsi üçün onun ciddi normativ-hüquqi bazası da təmin olunmuşdur. Belə ki, Azərbaycan Respublikasında «Elektron hökumətin» formalaşdırılmasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)» təsdiq edilməsi haqqında Sərəncamı əhəmiyyətli rol oynamışdır [2]. Bu sərəncam hər

şeydən öncə dövlət xidmətlərinin göstərilməsi sahəsində yeni bir mərhələnin başlanğıcından xəbər vermişdir. Təbii ki, informasiya cəmiyyətinə keçid eyni zamanda vətəndaşlar üçün dövlət xidmətlərinin daha əlçatan olmasını şərtləndirir. Deməli, ümumilikdə Elektron hökumətin formalaşdırılması mahiyyət etibarilə vətəndaşların dövlət xidmətlərinə olan tələbatının ən yüksək səviyyədə ödənilməsinə zəmin yaradır. Bu istiqamətdə addımın davamı olaraq, 2011-ci il mayın 23-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» Sərəncam imzalamışdır [6]. Sərəncamdan irəli gələn addımlar Azərbaycan Respublikasında dövlət idarəetmə orqanlarının vətəndaşlara təqdim etdikləri xidmətlərin dünya standartlarına uyğunlaşdırılmasını təmin etdi. Dövlət xidmətlərinin göstərilməsi sahəsində müasir idarəetmənin tətbiq edilməsi, ən müasir texnologiyalara istinad olunması müvafiq keyfiyyət dəyişikliyini şərtləndirə bildi. Bu istiqamətdə ən təsirli addım, artıq qeyd edildiyi kimi, vətəndaşlara göstərilən xidmətlərin geniş miqyasda elektronlaşdırılmasından ibarət idi. Çünki, yalnız bu halda korrupsiya hallarının qarşısını almaq və şəffaflığı təmin etmək mümkündür. Yuxarıda qeyd olunan sərəncamın icrasında müvafiq olaraq, Azərbaycan Respublikasında dövlət idarəetməsi orqanlarında «elektron xidmətlər» bölümünün yaradılmasına başlanılmışdır. Bunun ardınca «elektron hökumət» portalı da yaradılmışdır. «Elektron hökumət» portalının yaradılması ilə Azərbaycan Respublikasında dövlət xidmətlərinin göstərilməsi sahəsində böyük çevriliş baş vermişdir. Belə ki, bütün dövlət idarəetmə strukturları bu portaldan istifadə edərək elektron xidmətlərini təqdim edirlər. «Elektron hökumət» dövlət orqanları tərəfindən vətəndaşlara təqdim olunan dövlət xidmətlərin göstərilməsinin keyfiyyətcə tamam yeni forma almasını şərtləndirmişdir. Bununla bağlı daha dolğun təsəvvürlərin yaranması üçün «Elektron hökumətin» üstünlüklərinə daha dəqiq diqqət yetirmək məqsədə uyğundur. Beləliklə, «Elektron hökumət»in üstün cəhətlərini aşağıdakı kimi təqdim olunur:

– dövlət idarəçiliyində ən müasir texnologiyaların tətbiqinə xüsusi üstünlük verilir. Bu ümumilikdə dövlət idarəetməsində ciddi keyfiyyət dəyişikliklərinə nail olunmasını şərtləndirir;

– dövlət idarəetmə orqanlarının təqdim etdikləri xidmətlərin keyfiyyətində əhəmiyyətli dəyişiklik baş verir. Zaman və resurs itkilərinin qarşısı ciddi şəkildə alınır. Bununla həm də vətəndaş məmnunluğu təmin edilmiş olur;

– dövlət xidmətlərinin istehlakçılarının dövlət məmurları ilə birbaşa təmaslarına əksər hallarda ehtiyac qalmır. Vətəndaş istədiyi yerdən elektron xidmətlərdən yararlana bilir;

– dövlət xidmətlərinin göstərilməsi prosedurunu əhəmiyyətli dərəcədə sadələşdirir və s.

## Nəticə

Göründüyü kimi, Azərbaycan Respublikasında hazırda dövlət xidmətlərinin göstərilməsi sahəsində optimallaşmanın təmin olunması istiqamətində kompleks addımlar müvəffəqiyyətlə həyata keçirilməkdədir. Dövlət idarəetməsində xidmət sektorunun davamlı inkişafı onun həlledici təsir gücünü daha da artırmaqdadır. Belə ki, dövlət xidmət sektorunu təkmilləşdirərək, onun vətəndaşların gözləntilərinə uyğun şəkildə təqdim olunması həmçinin, vətəndaş-dövlət münasibətlərinin yeni xarakterini müəyyənləşdirir. Dövlət xidmət sektorunun dünya standartlarına uyğunlaşdırılması Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artırır. Belə ki, bu həm də yeni təsərrüfat münasibətlərinin formalaşmasını şərtləndirir. Bütün bu məqamlardan çıxış edərək, qeyd etmək olar ki, Azərbaycan Respublikasında dövlət idarəçiliyində ümumilikdə dövlət xidmət sektorunun hazırkı funksional vəziyyəti ciddi perspektivlərdən xəbər verir.

**Ədəbiyyat:**


1. Azərbaycanda nəqliyyat sahəsi üzrə bəzi xidmətlər elektronlaşdırılacaq// https://az.trend.az/azerbaijan/society/2332823.html, 25\03/2019
2. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncam., avqust 2010, https://president.az/articles/564, 25/03/2019
3. Azərbaycanın beynəlxalq xidmətlər bazarında iştirak imkanları, mövcud vəziyyətin analizi, https://bakuresearchinstitute.org/az/azerbaijans-participation-opportunities-in-the-global-services-market/#_edn2, 25/03/2019
4. "Azərbaycan Respublikasinda 2010-2014-cü illərdə turizmin inkişafina dair dövlət proqrami"nin təsdiq edilməsi haqqinda Azərbaycan Respublikasi Prezidentinin sərəncami. 6 aprel 2010-cu il, http://www.e-qanun.az/framework/19342, 25/03/2019
5. Azərbaycan Respublikasının Dövlət Sığorta Şirkəti, http://www.azersigorta-az.com/az/elaqe.htm, 25/03/2019
6. "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Sərəncam, http://e-qanun.gov.az/framework/21716, 25/03/2019
7. Hacıyev F.Ş. Azərbaycanin sosial-iqtisadi inkişafinda turizmin fəaliyyətinin təhlili və audit qiymətləndirilməsi/iqtisadiyyat, 2-8 mart 2018, s.7
8. Mirzəbəyli İ. Azərbaycanda nəqliyyat sahələri və infrastrukturunun inkişafı region ölkələri üçün əlçatmaz səviyyədədir./ Xalq qəzeti. 2009, 12 avqust, s. 3
9. Xidmət sektoru dayanıqlı inkişafın göstəricisidir, mart 2019, http://www.serqqapisi.az/index.php/iqtisadiyyat/12623-khidmaet-sektoru-dayan-gl-inkishaf-n-zhoestaeridzisidir, 25/03/2019.
10. Xidmət sahələrinin iqtisadiyyatı, http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=46, 25/03/2029
11. Бирюкова О.В., Матюхина А.И. Китай на мировом рынке услуг//Торговая политика. Trade policy / 2016. № 2/6, s. 94-107(95)
12. China Services Sector Analysis, http://www.intracen.org/uploadedFiles/intracenorg/Content/Exporters/Sectors/Service_exports/Trade_in_services/China_ServicesBrief.pdf, 25/03/2019
13. Estonia: Balance of Payments Analytic Presentation by Country, https://www.imf.org/en/News/Articles/2018/05/24/pr18192-republic-of-estonia-imf-executive-board-concludes-2018-article-iv-consultation, 25/03/2019


***Açar sözlər:*** *Azərbaycan Respublikası, dövlət xidmətləri sahəsi, dövlət idarəçiliyi, inkişaf, perspektivlər*

**Khayyam Mammadov**
*PhD student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

# THE PROSPECTS FOR THE DEVELOPMENT OF PUBLIC SERVICE IN AZERBAIJAN

## ABSTRACT

The research paper discusses the public service sector. The author explains the role of the public service sector in public administration and examines the situation in the Republic of Azerbaijan. The research concludes that Azerbaijan has improved the public administration sector. It is noted that the public service sector provisions in any modern state are defined by the nature of the relations between the state and the citizen. Respectively, in the Republic of Azerbaijan, the public service sector makes the most important public administration segment. The quality of public sector services reflects the general social development level. Respectively, it is considered as the mechanism of social development. Generally, the paper comprehensively examines the prospects of developing public sector services in the Republic of Azerbaijan.

***Keywords:*** *Azerbaijan Republic, sector of public services, public administration, development, prospects*

**Хайям Мамедов**
*Диссертант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

# ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ СФЕРЫ ГОСУДАРСТВЕННЫХ УСЛУГ В АЗЕРБАЙДЖАНЕ

## РЕЗЮМЕ

В статье рассматривается общая сущность сектора услуг. При этом объясняется роль сектора услуг в государственном управлении. В основном изучается ситуация в Азербайджанской Республике. Обосновывается, что в Азербайджане ведутся интенсивные работы по усовершенствованию государственного управления. Отмечается, что положение сектора услуг в любом современном государстве определяет характер отношений между государством и гражданином. Соответственно, в Азербайджанской Республике сфера услуг составляет важнейший сегмент государственного управления. Качество сектора государственных услуг отражает уровень общего социального развития, соответственно, это рассматривается как механизм социального развития. В целом, в представленной научной статье всесторонне рассматриваются и анализируются перспективы развития сектора государственных услуг в Азербайджанской Республике.

***Ключевые слова:*** *Азербайджанская Республика, сектор государственных услуг, государственное управление, развитие, перспективы*

## GƏNC TƏDQİQATÇILAR
## YOUNG RESEARCHERS

## DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
## SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

UOT 328; 342.5; 351/354;
UOT 502.174: 34; 502.14.502.104

**SƏBUHİ MEHDİZADƏ**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının dissertantı**
*e-mail:sabuhimehdizade@gmail.com*

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA BƏRK MƏİŞƏT VƏ TİKİNTİ TULLANTILARININ İDARƏ EDİLMƏSİ POTENSİALI

2020-ci ilin payızında 44 gün davam edən Vətən müharibəsinin nəticəsi olaraq, Azərbaycan Respublikası Ermənistan tərəfindən 30 ilə yaxındır davam edən işğal siyasətinə son qoyaraq torpaqlarımızı düşmən tapdağından azad etdi. Bu qələbənin əldə olunmasında Azərbaycan Respublikasının iqtisadi və hərbi gücü ilə yanaşı dövlət başçısı İlham Əliyevin uzaqgörən diplomatiyasının da rolu böyükdür. Məhz vaxtında və düşünülərək atılmış addımlar nəticəsində Azərbaycan Ordusu Ali baş komandanın rəhbərliyi altında uğurlu döyüş əməliyyatları ilə bir-birinin ardınca şəhər və kəndlərimizi işğaldan azad edərək geri qaytarmağa başladı. Noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan tərəfindən imzalanmış və Ermənistanın faktiki məğlubiyyətinin təsdiqi olan birgə bəyannamə müharibənin Azərbaycanın inamlı qələbəsi ilə başa çatdığını sübut etdi.

Əlbəttə ki, Prezident İlham Əliyevin Qarabağın azad olunması ilə bağlı planları bununla bitmirdi. Ermənistan tərəfindən genosidə, ekosidə, urbisidə məruz qalmış Qarabağın yenidən Azərbaycanın inkişaf etmiş, çiçəklənən bölgələrindən birinə çevrilməsi qarşıya qoyulmuş hədəflərdən ilki idi. Şuşa şəhərinə asfalt örtüklü Zəfər yolunun [6] və digər şəhərlərə asfalt yolların çəkilməsi, kənd və şəhərlərin elektrik enerjisi ilə təmin olunması, Qarabağın enerji təminatında xüsusilə alternativ [5] və bərpa olunan “yaşıl enerji” mənbələrinə üstünlük verilməsi, yaşayış məskənlərinin müasir tələblərə uyğun olaraq “Ağıllı kənd” (smart village) modeli ilə yenidən bərpa edilməsi [13] bu istiqamətdə atılan addımların nə qədər ciddi və planlanmış olduğundan xəbər verir.

2021-ci ilin əvvəllərindən etibarən işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir. Buna görə də, Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarından ibarət Şərqi Zəngəzur iqtisadi rayonu yaradılmışdır.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonu yaradılmışdır [3].

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində yerləşən yaşayış məntəqələrini birləşdirəcək yol infrastruktunun tikilməsində, xüsusən də yol yatağının bərkidilməsində mövcud olan tikinti tullantılarından səmərəli istifadə edilmişdir və gələcəkdə də bu işlərin davam etdirilməsi mümkündür. Belə ki, işin miqyasını təsəvvür etmək üçün aşağıda göstərilmiş məlumatlara diqqət yetirmək yetərlidir:

**Əhmədbəyli – Füzuli – Şuşa avtomobil yolu**

– texniki göstəriciləri: 81,6 kilometr, I texniki dərəcəli, 4 hərəkət zolaqlı.

- görülmüş işlər: 0-17, 26-44, 51-52, 58-64, 71-72, 75-80-ci kilometr hissələrində torpaq yatağının tikintisi, 1, 27,34, 37, 50, 62, 79-cu kilometrdə körpülərin, 80-ci kilometrdə tunellərin və 60-cı kilometrdə alt keçidlərin tikintisi aparılır.

**Toğanalı – Kəlbəcər – İstisu avtomobil yolu**

– texniki göstəriciləri: yol – 80,7 kilometr, I-II texniki dərəcəli, 2–3 hərəkət zolaqlı, tunel – 11,6 kilometr.

– görülmüş işlər: yolun 12–13-cü kilometr hissəsində torpaq yatağının qazılması, 12,8 və 13,3-cü kilometr hissələrdə suötürücü boruların inşası və mövcud kanalların köçürülməsi işləri davam edir. Murovdağ tunelinin giriş və çıxış hissəsində ümumilikdə 750 metr üst yarı qazma işləri aparılıb. Yolların qış baxımı ilə əlaqədar layihə boyunca qarın təmizlənməsi və duz-qum qarışığının səpilməsi təmin edilir.

**Kəlbəcər – Laçın avtomobil yolu**

– texniki göstəriciləri: yol – 72,3 kilometr, I-II texniki dərəcəli, 2-3 hərəkət zolaqlı, tunel – 9,8 kilometr

– görülmüş işlər: yolun torpaq yatağının tikintisi işləri 40 faiz icra olunub. Mobilizasiya işləri davam etdirilir.

**Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi**

– texniki göstəriciləri: 30 kilometr, IV texniki dərəcəli, 2 hərəkət zolaqlı.

– görülmüş işlər: yolların torpaq yatağının və yol geyimi tikintisi işləri aparılır, boruların tikintisi 95 faiz icra olunub, yol nişanları 85 faiz quraşdırılıb.

**Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd avtomobil yolu**

– texniki göstəriciləri: 123,8 kilometr, I texniki dərəcəli, 4-6 hərəkət zolaqlı.

– görülmüş işlər: 0-23 və 42-76-cı kilometr hissələrdə torpaq yatağının tikintisi aparılır. Torpaq işləri 25 faiz, boru və keçidlərin tikintisi 29 faiz, körpülərin tikintisi 25 faiz icra olunub.

**Xudafərin – Qubadlı – Laçın avtomobil yolu**

– texniki göstəriciləri: 70,4 kilometr, I texniki dərəcəli, 4 hərəkət zolaqlı.

– görülmüş işlər: Qubadlı – Laçın istiqamətində 0–37 kilometr, Xanlıq istiqamətində 0–1 və 5–14 kilometr hissələrdə torpaq yatağı tikilib, 1, 11, 23, 33 və 39-cu kilometrdə körpü tikintisi işləri aparılır. Torpaq işləri 37 faiz, yol geyimi – 4 faiz, boru və keçidlərin tikintisi 37 faiz, körpülərin tikintisi 29 faiz icra olunub.

**Qubadlı – Eyvazlı avtomobil yolu**

– texniki göstəriciləri: 26 kilometr, IV texniki dərəcəli, 2 hərəkət zolaqlı.

– görülmüş işlər: Qubadlı rayonu ərazisində Eyvazlı kəndinə gedən yolda qaya qruntları dağıdılmaqla torpaq yatağının tikintisi işləri aparılır. Ümumi yolun 8-ci kilometrində torpaq yatağının genişləndirilərək normativ enə çatdırılması işləri başa çatıb.

**Şükürbəyli – Cəbrayıl – Hadrut avtomobil yolu**

– texniki göstəriciləri: 43 kilometr, I texniki dərəcəli, 4 hərəkət zolaqlı.

– görülmüş işlər: torpaq işləri 53 faiz, yol geyimi 10 faiz, boru və keçidlərin tikintisi 55 faiz, körpülərin tikintisi 51 faiz icra olunub.

**Füzuli–Hadrut avtomobil yolu**

– texniki göstəriciləri: 13 kilometr, I texniki dərəcəli, 4 hərəkət zolaqlı.

– görülmüş işlər: yolun torpaq yatağının tikintisi işləri aparılır. İlk 8 kilometr hissədə torpaq işləri və yol yatağının tikintisi 50 faiz icra olunub.

**Bərdə – Ağdam avtomobil yolu**

- texniki göstəriciləri: 45 kilometr, I texniki dərəcəli, 4 hərəkət zolaqlı.

- görülmüş işlər: torpaq işləri 45,9 faiz, yol geyimi 9,8 faiz, boru və keçidlərin tikintisi işləri 33,5 faiz, körpülərin tikintisi 84,9 faiz icra olunub.

**Talış – Tapqaraqoyunlu – Qaşaltı – Naftalan avtomobil yolu**

– texniki göstəriciləri: 22 kilometr, II-IV texniki dərəcəli, 2 hərəkət zolaqlı.

– görülmüş işlər: yolun ilk 1,8 kilometrlik hissəsində asfalt-beton örtüyün alt qatı tikilib, 1,8-6 kilometr və 12-22 kilometr hissələrində boruların quraşdırılması və əsaslı tikinti işləri aparılır [8].

Azərbaycan Respublikasında tullantıların idarə olunması və təkrar emalı sahəsində böyük təcrübə formalaşmışdır. Düzdür bu təcrübənin ən böyük hissəsini bərk məişət tullantılarının idarə olunması təşkil etsə də, digər növlü tullantıların idarə olunması istiqamətində də işlər aparılmaqdadır. Xüsusən də tikinti tullantılarının idarə olunması ilə bağlı ciddi layihələrin reallaşdırılmasına start verilir. Buna misal olaraq, demək olar ki, işağldan azad olunmuş ərazilərdə erməni işğalçıları tərəfindən dağıdılmış binalardan yalnız evlərin sayı 150000-dən çoxdur. Bu isə öz növbəsində 2.6 milyon $m^3$ tikinti tullantısı deməkdir. Bu tullantıların düzgün idarə olunması və lazımi məqsədlər üçün istifadə edilməsi ekoloji çirklənməyə məruz qalmış Qarabağın bərpa olunması və bu çirklənmənin miqyasının daha da böyüməsinin qarşısının alınması ilə bağlı həyata keçirilən tədbirlərin tərkib hissələrindən biridir. Evlərdən başqa digər obyektlərin də tikinti tullantılarının həcminin olduqca böyük olması ekoloji çirklənmənin miqyasının genişlənməsinə yol açır.

Məhz sadalanan halların qarşısının alınması və tullantıların emalı sahəsində düzgün idarəçiliyin həyata keçirilməsi baxımından onların qəbulu, çeşidlənməsi və ərazilərin bərpa olunmasında təyinatı üzrə istifadə edilməsi zəruridir. İşğaldan azad olunmuş ərazilərin tikinti tullantılarının idarə olunması potensialı haqqında tam təsəvvürə malik olmaq üçün aşağıdakı şəkilə nəzər salmaq yetərlidir (şəkil1).

İşğaldan azad olunmuş ərazilərdə tikinti tullantılarının qəbulu, materialların ayrılması (çeşidlənməsi) və alınan məhsulların həmin ərazilərin bərpası zamanı yenidən istifadə edilməsi (yol tikintisi, torpaq möhkəmləndirilməsi və s.) məqsədəuyğundur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində müəyyən olunmuş yerlərdə (Laçın qəbul mərkəzi – Kəlbəcər, Laçın; Ağdam qəbul mərkəzi; Füzuli qəbul mərkəzi – Füzuli, Cəbrayıl, Xocavənd; Qubadlı qəbul mərkəzi – Qubadlı, Zəngilan) tikinti tullantılarının qəbulu mərkəzinin yaradılması mümkündür. Bu mərkəzlərdə qəbul edilən tullantıların xüsusi crasher-lər vasitəsilə xırdalamaq, çeşidləmək və xüsusi avadanlıqlar vasitəsilə fraksiyalara ayırmaq olar. Nəticədə ərazilərin bərpası zamanı istifadəsi mümkün olan materiallar alınacaqdır ki, bu da yolların tikintisində və torpaqbərkitmə işlərində istifadə olunacaq. Bütün proseslərə karxana fəaliyyəti ilə məşğul olan sahibkarların cəlb olunması ölkədə bu sahədə sahibkarlığın ikişafına da dəstək ola bilər.

Nəzərə alsaq ki, işğaldan azad edilmiş ərazilərdə daha çox mişar və çay daşlarından ibarət 4 milyon $m^3$ yaxın sököntü evlər mövcuddur və bu söküntü tullantılarının düzgün idarə olunmaması ciddi ekoloji problemlərin yaranmasına yol aça bilər. Yuxarıda qeyd olunduğu kimi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində 4 nöqtədə tullantı qəbulu məntəqələrinin yaradılması, aparılacaq sökünlütlərin və orada yaranmış tullantıların əvvəlcədən müəyyən olunmuş və təsdiqlənmiş plan və smeta üzrə idarə olunması, söküntünü və tullantıların daşınmasını həyata keçirəcək şirkətlərə vergi güzəştlərinin tətbiq olunması, yarana biləcək problemlərin vaxtında və düzgün qarşısının alınması, həmçinin, bu




**Şəkil 1.** İşğaldan azad olunmuş ərazilərdə tikinti tullantılarının idarə olunması potensialı

sahədə səmərəli idarəçiliyin həyata keçirilməsi üçün qanunvericilikdə cərimələr sisteminin tətbiq olunması məqsədəuyğun olardı.

İqtisadi rayonlarda informasiya texnologiyalarının köməyi ilə enerji paylanmasını yaxşılaşdırmaq, tullantıların yığımını asanlaşdırmaq, nəqliyyat sıxlığını azaltmaq və hətta hava keyfiyyətini yaxşılaşdırmaq olar. Həmin ərazilərdə avtomatik olaraq tullantıların idarə olunması şirkətlərinə məlumat göndərən və lazım olduqda götürülməsini əvvəlcədən planlaşdırılan qrafikə malik ağıllı zibil qutularının qoyulması həmin regionu Azərbaycanın tullantısız, təkrar emal mərkəzinə çevirə bilər.

**Ədəbiyyat:**


1. “Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 19 aprel 2021-ci il. https://president.az/articles/51179.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı şəhəri, 2 fevral 2021-ci il. https://president.az/articles/50474
3. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il. https://president.az/articles/52389
4. Azərbaycan və BP işğaldan azad edilmiş ərazilərdə günəş enerjisi layihəsi üzrə əməkdaşlığa başlayır. 3 iyun 2021. https://apa.az/az/xeber/senaye-ve-energetika/azerbaycan-ve-bp-isgaldan-azad-edilmis-erazilerde-gunes-enerjisi-layihesi-uzre-emekdasliga-baslayir-646209
5. Dağlıq Qarabağ və ətraf ərazilərin enerji potensialı.

https://minenergy.gov.az/az/xeberler-arxivi/dagliq-qarabag-ve-etraf-regionlarin-enerji-potensiali
6. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://president.az/articles/46989
7. https://azertag.az/xeber/Qarabag_yaxin_gelecekde_yasil_enerji_zonasi_kimi_taninacaq-1725321
8. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında icra olunan yol layihələri barədə məlumat açıqlanıb. https://azertag.az/xeber/Qarabag_ve_Serqi_Zengezur_iqtisadi_rayonlarinda_icra_olunan_yol_layiheleri_barede_melumat_achiqlanib_VIDEO-1950176
9. “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 4 yanvar 2021-ci il. https://president.az/articles/49876
10. Məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin sərəncamı. Bakı şəhəri, 6 avqust 2008-ci il № 2983. http://www.e-qanun.az/framework/15230
11. Məişət tullantıları ilə bağlı idarəetmə sahəsində bəzi məsələlərin tənzimlənməsi və “Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli 2983 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 22 iyun 2021-ci il. https://president.az/articles/52215.
12. Prezident Qubadlı şəhərinin Baş planının hazırlanması ilə bağlı Sərəncam imzalayıb. Bakı, 25 oktyabr, 2021. AZƏRTAC. https://azertag.az/xeber/Prezident_Qubadli_seherinin_Bas_planinin_hazirlanmasi_ile_bagli_Serencam_imzalayib-1908158.
13. Smart Villages in Azerbaijan: A Framework for Analysis and Roadmap. © World Bank. 2021. https://openknowledge.worldbank.org/bitstream/handle/10986/35468/Smart-Villages-in-Azerbaijan-A-Framework-for-Analysis-and-Roadmap.pdf?sequence=1&isAllowed=y
14. “Smart Village” - Dünyanın ən “ağıllı” layihəsi Qarabağda. 28 Aprel 2021. https://azvision.az/news/258574/--smart-village--dunyanin-en-agilli-layihesi-qarabagda-.html.
15. Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 25 oktyabr 2021-ci il. https://president.az/articles/53707
16. “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi, “Məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli 2983 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 22 sentyabr 2021-ci il. https://president.az/articles/53171.

***Açar sözlər:*** *bərk məişət tullantısı, tikinti tullantısı, tullantıların idarə olunması, ağıllı şəhər, ağıllı kənd, yaşıl enerji*

**Sabuhi Mehdizade**
*The Academy of Public Administration under the President of Azerbaijan, PhD Candidate*

# THE POTENTIAL OF HARDWARE AND CONSTRUCTION WASTE MANAGEMENT IN ECONOMIC REGIONS OF KARABAKH AND EASTERN ZANGAZUR

## ABSTRACT

The article examines the prospects of reconstruction of infrastructure and settlements destroyed by Armenian occupiers in Karabakh and Eastern Zangazur economic regions of the liberated territories of the Republic of Azerbaijan. The author analyses the opportunities and the potential of using construction waste generated in the result of the destruction.

***Keywords:*** *solid waste, construction waste, waste management, smart city, smart village, green energy*

**Сабухи Мехтизаде**
*Диссертант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

# ПОТЕНЦИАЛ УПРАВЛЕНИЯ ТВЕРДЫМИ БЫТОВЫМИ И СТРОИТЕЛЬНЫМИ ОТХОДАМИ В КАРАБАХСКОМ И ВОСТОЧНО-ЗАНГЕЗУРСКОМ ЭКОНОМИЧЕСКИХ РАЙОНАХ

## РЕЗЮМЕ

В статье анализируются перспективы восстановления инфраструктуры Карабахского и Восточно-Зангезурского экономических районов, образовавшихся на освобожденных от оккупации территориях Азербайджанской Республики и населенных пунктов, полностью разрушенных армянскими оккупантами, а также возможности и потенциал использования образовавшихся в результате этих разрушений строительных отходов.

***Ключевые слова:*** *твердые бытовые отходы, строительные отходы, управление отходами, умный город, умное село, зеленая энергия*

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

D A V A M L I İ N K İ Ş A F I N İ D A R Ə E D İ L M Ə S İ
S U S T A I N A B L E D E V E L O P M E N T M A N A G E M E N T

UOT 327: 140.8
UOT 327: 930.22
UOT 32:93/94

**AYAZ HACIYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının dissertantı**
*e-mail: ayazhaciyev@yahoo.com*

# DAVAMLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNƏ QLOBAL RİSKLƏRİN TƏSİRİ

## Giriş

Müasir dövrdə bəşəriyyətin gələcəyi ilə bağlı bir sıra narahatlıqlar vardır. Bu narahatlıqlar hazırda mövcud olan qlobal miqyas almış problemlərdir. Sözügedən problemlər və onların həllinə nail olunması istiqamətində səylərin birləşdirilə bilməməsi həmin problemlərin qlobal risk mahiyyəti kəsb etməsini şərtləndirir [2].

2007-ci il dünya iqtisadi böhranından bəri Davos İqtisadi Forumu tərəfindən illik hazırlanan təhlil hesabatları, ehtimal olunan yeni bir «dağıdıcı böhran» qarşısında tədbir almaq üçün qlobal iqtisadiyyata birbaşa və ya dolayı mənfi təsir göstərə biləcək bütün risk ehtimallarını araşdırmağa çalışır. İqtisadi risklər qlobal risklərin ən aktual və «hiss olunanı» olaraq görülsə də, dünyanı təhdid edən qlobal risklər bununla məhdudlaşmır. Bir çox ekoloji, geosiyasi, sosial və texnoloji risklər vardır. Təsirlərini dərhal hiss etmədiyimiz risklər – məsələn, iqlim dəyişikliyi – beynəlxalq konfranslarda müzakirə olunur, lakin gündəlik həyatı kifayət qədər təsir etmədikləri üçün «elmi fantastika» ssenarisi kimi qəbul edilir. Böyük bir araşdırma nəticəsində hazırlanan «Qlobal Risklər» hesabatı ilə Dünya İqtisadi Forumu (Dünya İqtisadi Forumu, WEF) qlobal iqtisadiyyatda əhəmiyyətli risk faktorlarını müəyyənləşdirir, sistematik olaraq təsnif edir və əlaqələndirir. Əvvəla, «qlobal risk» nədir? WEF-ə görə, «on ilə qədər bir müddətdə ən azı bir neçə ölkəyə və sektora əhəmiyyətli dərəcədə təsir edən hadisələr» qlobal risk hesab edilir [4] .

Qlobal risklərin ən vacib xüsusiyyətləri onun «sistemli» olmasıdır, yəni bütöv bir sistemin məhdud sayda hissəsini deyil, bütününü əhatə etməsidir.

Risklər təkbaşına yaranmır və kompleks bir «qarşılıqlı əlaqə» şəbəkəsində hərəkət edirlər. (Ən mərkəzi qlobal risk «qlobal əməkdaşlıq sisteminin iflası» hesab oluna bilər).

Məsələn, maliyyə böhranı riski, iqtisadi risklər arasında yer alan maliyyə institutu riski, likvidlik böhranı, işsizlik və neft qiymətləri şoku kimi digər risk faktorları ilə sıx qarşılıqlı əlaqədədir. Qlobal iqlim dəyişikliyi də qida böhranı, içməli su böhranı və meteoroloji fəlakət kimi risklərin mərkəzindədir. Digər tərəfdən qida böhranı, içməli su böhranı kimi risk faktorları, ölkələr arasında siyasi və sosial qeyri-sabitlik və qarşıdurma kimi risk faktorlarını meydana çıxara bilər [6].

Beləliklə, qlobal birliyi narahat edən təhlükələr, «domino effekti» xarakteri kəsb edirlər. Mərkəzdəki risk faktorlarının qarşısının alınmaması, digər risklərin həyata keçməsinə səbəb ola bilər. WEF-in qlobal risklər araşdırması «bilinən» risk faktorlarını xatırladır və bu risk elementlərinin əhəmiyyət sırası, bir-biri ilə qarşılıqlı əlaqələri və həll yanaşması barədə rasional təkliflər verir [11].

Qlobal risklər birbaşa bəşəriyyətə, canlı orqanizmlərin həyatına təhlükə yaratmaqla davamlı inkişafın təmin edilməsinə təsir göstərmək iqtidarındadır. Qlobal risklərdən bəhs edərkən qlobal iqlim dəyişiklikləri, bioloji müxtəlifliyin qorunması kimi problemlərlə yanaşı, epidemiya və pandemiyalar, qazanılmış immun çatışmazlığı sindromu (QİÇS), vərəm, digər geniş yayılmış təhlükəli xəstəliklər qlobal risklər kimi önə çəkilir. Bundan başqa, qaçqın və məcburi köçkünlərin problemləri, geniş miqyaslı hərbi münaqişələr, sürətli silahlanma yarışları, ekoloji problemlərdən olan ətraf mühitin çirklənməsi və dağılması, demoqrafik problemlər və s. qlobal risklərə aid edilə bilər.

**Davamlı inkişaf və qlobal risklər:**

Məlum olduğu kimi, davamlı inkişaf bəşəriyyətin bugünkü ehtiyaclarını onun gələcəyini də nəzərə almaqla təmin etməyi qarşısına məqsəd qoyan inkişaf prosesidir. Göründüyü kimi, davamlı inkişaf məhz bəşəriyyətin, insanlığın rifahına yönəlib. Bu mənada davamlı inkişafda ilk növbədə bəşəriyyətin gələcək mövcudluğunun özü önə çəkilməlidir. Bu isə demoqrafik problemlərin davamlı inkişaf prizmasından nə qədər önəmli olduğunu ortaya qoyur. Artıq bir neçə onillikdir ki, demoqrafik inkişafla bağlı qlobal miqyasda bir sıra narahatlıqlar ortaya çıxmışdır.

Bu gün dünyada əhali artımı yüksək olsa da, burada qeyri-mütənasiblik hökm sürür. Belə ki, bəzi regionlarda, əhali çox sürətlə artırsa, digər regionlarda əks proseslər baş verməkdədir. Bu isə özlüyündə dünyada regionlar arasında əhali strukturunun da fərqli şəkil alması ilə müşayiət olunur.

Məşhur statistik və demoqraf Sandberq əhalinin yaş strukturuna görə üç tipə ayırmağı təklif etmişdi: proqressiv, reqressiv və stasionar. Əhalinin proqressiv yaş strukturu (sinonim: əhalinin proqressiv tipi) – əhalinin yaş strukturunda 0 – 14 yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisi (faizlə) 50 və yuxarı yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisindən (faizlə) böyükdürsə, bu zaman əhalinin sayca artması təmin edilmişdir. Əhalinin reqressiv yaş strukturu (sinonim: əhalinin reqressiv (geriləyən) tipi) – əhalinin yaş strukturunda 50 və yuxarı yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisi 0 – 14 yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisindən böyükdürsə, o zaman gələcəkdə əhalinin sayının ixtisarı təhlükəsini gözləmək lazımdır. Əhalinin stasionar yaş strukturu (sinonim: əhalinin stasionar tipi) – əhalinin yaş strukturunda 0-14 yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisi 50 və yuxarı yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisinə bərabərdirsə, bu əhali sayının sabitləşməsinə şərait yaradır [7].

Bu gün dünyada ölkələr əhalinin yaş strukturuna görə bir-birindən fərqlənir, əsasən inkişaf etmiş ölkələr əhalinin reqressiv tip yaş strukturu ilə seçilirlər. Bu isə həmin ölkələr üçün çağırış olmaqla ümumilikdə qlobal risk mahiyyəti də daşıyır.

Əhalinin dinamikası onun təbii artımını, doğum və ölüm göstəricilərinin fərqini müəyyən edir. Cəmiyyətin uzunmüddətli tarixi inkişafı əhalinin çox zəif artımı ilə xarakterizə olunur ki, bu da məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə izah olunur. Əhalinin artım templərinin dəyişməsini 4 mərhələyə ayırmaq olar.

Birinci mərhələ üçün yüksək doğum və nisbətən aşağı ölüm səciyyəvidir. Təbii artım bu mərhələdə kifayət qədər yüksəkdir. Bəzən bu mərhələni demoqrafik inqilab adlandırırlar. İnkişafda olan ölkələrin çoxunda vəziyyət demoqrafik keçidin bu mərhələsinə uyğun gəlir. Məhz bu demoqrafik partlayış adlanır. Bu ölkələrdə hər qadına 3-4 uşaq düşür.

İkinci mərhələ çoxuşaqlı ailələrdən az uşaqlı ailələrə keçid kimi səciyyələndirilir. Burada ölüm göstəriciləri də azalır. Ancaq doğumun sürətlə azalması təbii artımın aşağı

düşməsinə gətirib çıxarır. Son dövrlər bir çox Şərqi Avropa və MDB dövlətlərində əhalinin artım tempi aşağı düşmüş və hətta əhali sayının azalması müşahidə olunmaqdadır.

Üçüncü mərhələ üçün ölümün yüksəlməsi və doğumun tempinin azalması səciyyəvidir. Bu mərhələdə təbii artımın zəifləməsi nəzərə çarpacaq dərəcədədir. Bu mərhələdə bəzi ölkələr demoqrafik siyasət həyata keçiriblər. Ancaq bəzi ölkələrdə bu siyasət hələ də öz nəticəsini verməyib.

Dördüncü mərhələdə doğum və ölüm göstəriciləri bir-birinə yaxınlaşır, əhalinin yüksək artım tempi aşağı düşür. Bu dövrü dünyanın ayrı-ayrı regionları müxtəlif cür keçirirlər. Qeyd etmək lazımdır ki, təbii artımla yanaşı, mexaniki artım anlayışı da vardır. Bu cür artım miqrasiya proseslərini yaradır. Belə ki, immiqrantlar əhalinin sayını artırmış olur. Emiqrantlar isə əhali sayının azalmasına səbəb olur.

Ümumiyyətlə əhalinin artımına bir çox amillər təsir edir. Bunlardan ən va-cibləri – məhsuldar qüvvələrin inkişaf səviyyəsi, əhalinin etnik, dini və regional mənsubiyyəti, qadınların ictimai əməyə cəlb olunması və cəmiyyətdə rolu, dövlətin doğumu stimullaşdırılması və ya əksinə, müharibələr, epidemiyalar nəticəsində uşaq ölümü səviyyəsinin dəyişməsi və sairdir.

Bunu da qeyd etmək lazımdır ki, bəzi ölkələrin milli strukturunun formalaşmasında miqrasiya başlıca rol oynamışdır. Məsələn: ABŞ, Kanada, Latın Amerikasının ölkələri, Avstraliya ittifaqı, Yeni Zelandiya, İsrail və s. bu kimi ölkələr bəzi ədəbiyyatlarda «köçürmə ölkələri» də adlanır. Hal-hazırda miqrasiya əsasən İOÖ-dən İEÖ-dir. Bunun əsas səbəbi İOÖ-də işsizlik və sosial-iqtisadi vəziyyətin ağırlığıdır. Göründüyü kimi, demoqrafik proseslər heç də bütün dünya miqyasında eyni səviyyədə və müsbət məcrada baş vermir. Təbii artım və əhalinin yaş strukturu bir bölgədə müsbət tendensiyalarla müşahidə olunursa, digər bölgələrdə bunun əksi baş verir. Mexaniki artım prosesləri də özündə problemli məqamları əks elətdirir. Dünyanın bir sıra ölkələrindən, xüsusilə inkişaf etməkdə olan ölkələrdən miqrantların axını baş verməkdədir. Xüsusilə son illərdə «ərəb baharı» ölkələrindən Avropaya yönələn bu proses özündə ciddi qlobal risk faktoru daşıyır.

Qlobal risklərdən bəhs edərkən, müharibələri qeyd etmək zəruridir. Düzdür, hərbi münaqişələr, müharibələr bu gün Dünya müharibəsi səviyyəsinə gəlib çatmasa da, ayrı-ayrı regionlarda baş verən qarşıdurmalarda dünya dövlətləri bir növ, qütbləşirlər. Məsələn, Suriya və İraqda, Liviyada və s. ərazilərdə olan müharibələrdə dünyanın nüvə gücləri olan ABŞ, İngiltərə, Fransa bir mövqedə, Rusiya və İran isə digər mövqedə dayanırdı. Eyni situasiya bu gün Liviyada da özünün göstərir. Dünyanın bir sıra aparıcı dövlətlərinin mövqeləri bu regionda da kəsişməkdədir [10].

Bu isə geniş miqyaslı hərbi münaqişələrin meydana çıxmasına, hətta dünya müharibələri risklərinin yaranması təhlükəsinə səbəb ola bilər. Hazırkı hərbi münaqişələrin qlobal risk xarakteri kəsb etməsində bəzi qlobal güclərin yalnız öz imperialist maraqlarından çıxış etmələri mühüm rol oynayır. Belə ki, bir sıra hallarda həmin dövlətlər qanuni, legitim hakimiyyət orqanlarını deyil, onlara qarşı yaradılmış silahlı müxalifəti dəstəkləyirlər. Suriya və Liviyada bunu açıq şəkildə görmək mümkündür. Həmçinin separatizmi dəstəkləmə meyilləri də özünün qabarıq şəkildə göstərir. Bu isə dünya nizamının, beynəlxalq hüquq normalarının pozulmasına gətirib çıxarmaqla, dünyada təhlükəli tendensiyalara səbəb ola bilər. Belə ki, qlobal oyunçuların fəaliyyətinin nəticəsidir ki, bu gün dünyada beynəlxalq hüquq normaları deyil, güc amili əsas rol oynayır. Bu gün artıq dəyişən dünyada güc amili təəssüf ki, ön plandadır. Əlbəttə ki, bu da özlüyündə dünyada silahlanma yarışına gətirib çıxarır.

Birləşmiş Millətlər Təşkilatının Tərksilah Komissiyasının (UNODA) 2019-cu ildə yayımlanmış hesabatı göstərir ki, silahlanma üzərində nəzarət sistemi çökür. Bunun məntiqi nəticəsi isə dünya üçün fəlakətli olacaq. Bu hesabat, indiyə qədər silahlanma ilə bağlı ən konkret sənəd hesab edilir. Sənəddə açıq

şəkildə göstərilir ki, konkret olaraq, ABŞ, Rusiya və Çin arasında güzəştsiz silahlanma yarışı gedir. Onlar sürətlə yeni silahlar yaratmağa və öz üstünlüklərini sübut etməyə çalışırlar. Nəticədə, bəşəriyyət üçün olduqca təhlükəli bir vəziyyət – hətta kiçik təsadüfdən belə qlobal savaşın meydana çıxma ehtimalı yaranır [14].

Hesabatda vurğulanır ki, silahlanma üzərində nəzarət sisteminin çökməsi bütün dünya, ilk növbədə, ABŞ, Rusiya və Çin üçün fəlakətlə nəticələnəcək. Bu böyük dövlətlər ciddi maliyyə problemləri ilə üzləşə bilərlər. Bəs niyə məhz bu üç dövlət? Çünki məhz bu dövlətlər silahlanma və tərksilah üzrə nəzarət sisteminin tələblərinə əməl etmir, bununla da qlobal geosiyasi proseslərə dağıdıcı təsir edirlər.

Müasir müharibələrin miqyası, istifadə edilən silahların dağıdıcılıq qabiliyyəti o qədər güclüdür ki, bəzən bu müharibələr nəticəsində bütöv bir mədəniyyəti məhv edə bilər. Məsələn, Suriyada ağır bombardmanlar nəticəsində özündə dünya sivilizasiyasının incilərini daşıyan böyük şəhərlər tamamilə dağıdılmışdır. Bundan başqa, müharibələr qadınlar, qocalar və uşaqlar da daxil olmaqla yüz minlərlə insanın həlak olmasına, milyonlarla insanın qaçqın və məcburi köçkünə çevrilməsinə gətirib çıxarır. 2018-ci ilin statistikasına görə, hazırda qaçqın və məcburi köçkünlərin sayı 70 milyondan çoxdur. Bütün bunlar isə iqtisadi və humanitar fəlakətlərə səbəb olmaqla, müasir dünya sivilizasiya üçün ciddi çağırışdır [2].

Qlobal risklərdən terrorizm də bəşəriyyət üçün öz təhlükəliliyi ilə seçilir. Hazırda beynəlxalq terrorizm bəşəriyyətin üzləşdiyi çox ciddi çağırışlardandır. Terror dünyada istifadə edilən ən populyar və eyni zamanda, təhlükəli mübarizə üsullarından biridir. Bu gün terrorizm özünün müxtəlif növlərini, xarakterlərini nümayiş etdirir. Əgər bu gün terrorizm əsasən yaxın Şərq və müsəlman dünyasında geniş yayılmış mübarizə vasitəsidirsə, ötən əsrdə Qərbdə də çoxsaylı terror təşkilatları fəaliyyət göstərmişdir. Bunlardan, İtaliyada «qırmızı briqada», İspaniyada ETA, Böyük Britaniyada İrlandiya Respublika ordusu və s. separatçı təşkilatlar fəaliyyət göstərirdi. Lakin XXI əsrin əvvəllərindən başlayaraq Avropadakı terror təşkilatları hərbi-terror fəaliyyətindən imtina edərək siyasi fəaliyyətə başladılar.

Terrorizm – latın sözü olub, qorxu, dəhşət deməkdir. Terroru ilk dəfə siyasi mübarizə forması olaraq Böyük Fransa İnqilabı zamanı istifadə edilmişdir. Belə ki, siyasi rəqiblər bir-birinə qarşı terror aktları, qanlı aksiyalar təşkil etməklə mübarizə aparırdılar. Terrorizm digər cinayətlərdən siyasi motivləri ilə fərqlənir.

Terrorizm – bu, ictimai şəkildə həyata keçirilən və ya həyata keçirilməsi ilə hədələnən, əhaliyə və sosial qruplara qarşı yönəlmiş və hər hansı bir qərarın qəbul olunmasına və ya olmamasına birbaşa və ya dolayısı yolla terroristlərin maraqlarından irəli gələn qeyri-qanuni yollarla təsir formasıdır.

Beynəlxalq terrorizmin aşağıdakı xüsusiyyətlərini sadalamaq olar:

– terrorizm dövlətin, cəmiyyətin və şəxsiyyətin həyati əhəmiyyətli maraqları dairəsinə dağıdıcı təsir göstərir;

– terror hücumlarının əsas obyekti siyasi və sosial təhlükəsizlik, siyasi münasibətlər və institutlar sistemi, cəmiyyətin dini-mənəvi dəyərləri və insan hüquqlarıdır;

– terrorizm günahsız əhalinin qurbanına çevrildiyi zorun aşağıdakı formalarından istifadə edir: qətl, insan kütləsinin daha sıx toplaşdığı ərazilərdə, nəqliyyat vasitələrində, yaşayış binalarında – partlayış, girov götürmə, hava və dəniz gəmilərinin, yerüstü nəqliyyat vasitələrinin ələ keçirilməsi və s;

– müasir terrorizm üçün həddən artıq yüksək səviyyədə planlaşdırma xarakterikdir və s.

Beynəlxalq terrorizmin xüsusiyyətləri Vahid Konvensiya layihəsinin 1-ci maddəsində geniş əksini tapmışdır. Burada qeyd olunur ki, ictimaiyyəti qorxutmaq və ya ziyan yetirmək, yaxud girov götürülmüş şəxslərin və ya ictimaiyyət nümayəndələrinin öldürülməsi məqsədi ilə beynəlxalq müdafiə altında olan nəqliyyat və ya rabitə sisteminə qarşı yönələn, dövlətlər arasında və ya ayrı-ayrı dövlətlərin vətəndaşları arasında dostluq əlaqələrinin

pozulması məqsədilə beynəlxalq müdafiə altında olan mülkiyyətə və yerlərə zərər yetirilməsinə səbəb olan, adından asılı olmayaraq, fərdin və ya fərdlər qrupunun hər hansı hərəkəti beynəlxalq terrorizm cinayəti hesab ediləcəkdir.

Beynəlxalq terrorizmin aşağıdakı növləri vardır ki, bütün bunlar davamlı inkişaf prosesləri prizmasından ciddi risk təşkil edir:

Siyasi terrorizm, iqtisadi terrorizm, ideoloji terrorizm, siyasi-ideoloji terrorizm, dini-ideoloji, irqi terrorizm, kiberterrorizm, kimyəvi terrorizm (iki hissəyə ayrılır: 1) kütləvi qırğın məqsədilə həyata keçirilən terror aktı; 2) iqtisadi cəhətdən ziyan vurmaq üçün edilən hücumlar), bioloji terrorizm və s. Çox təəssüf ki, müasir dövrdə terrora dəstək verən dövlətlər də vardır. Həmçinin terroru dövlət siyasəti səviyyəsinə qaldırma meyilləri və praktikası diqqəti cəlb edir [5].

Dövlət terrorizmi bir dövlət tərəfindən düşünülmüş və məqsədyönlü şəkildə digər dövlətin ərazisində həyata keçirilən zorakılıq metodudur. Əsas məqsəd reallıqda təsir göstərə bilmədiyi və ya geosiyasi, siyasi, iqtisadi, ideoloji maraqlar naminə həmin dövləti öz təsiri altına salmaq və ya ümumilikdə məhv etməkdir. Ümumiyyətlə, dövlət terrorizmi dövlətlər tərəfindən strategiya formasında işlənib hazırlanır və həyata keçirilir. Məsələn, Ermənistan Respublikası 1988-ci ildən başlayaraq Azərbaycana qarşı dövlət terrorizmi siyasəti həyata keçirir.

Beləliklə, göründüyü kimi, beynəlxalq terrorizm bəşəriyyətin həm bu gününə, həm də gələcək inkişafına ciddi təhdid təşkil edir. Bu isə davamlı inkişaf prosesləri prizmasından ciddi qlobal risk mahiyyəti kəsb edir [4].

Ekoloji problemlər hazırda bəşəriyyətin gələcək inkişafı üçün ən çox təhdid doğuran risklərdən hesab edilir. Dünya əhalisinin sürətlə çoxalması insanların təbiətə və ekologiyaya artan təsiri ilə müşayiət olunur. Hazırda ekoloji tarazlığın qorunub saxlanması, təbii ehtiyatlardan rasional istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi bəşəriyyətin mütərəqqi hissəsini ciddi şəkildə narahat etməkdədir. Həmçinin qlobal istiləşmə, ozon qatının zədələnməsi, təbii ehtiyatların tükənməsi kimi problemlər də ciddi şəkildə aktuallıq qazanmışdır [8].

Qlobal ekoloji böhran şəraitində iqtisadiyyat, cəmiyyət və ətraf mühit arasında zəruri balansın saxlanması yalnız inkişafın yeni ekoloji təhlükəsiz və iqtisadi baxımdan optimal modelinin-davamlı inkişafın formalaşdırılması hesabına ola bilər. Bu kontekstdə hal-hazırda əsas prioritet davamlı inkişafın məqsədlərinin reallaşdırılması üzrə qlobal, regional və milli alətlərin əlaqələndirilməsidir. Qlobal miqyasda ekoloji tarazlığın qorunması, əsas problemlərin öhdəsindən gəlmək məqsədilə müxtəlif addımlar atılmaqdadır.

Məsələn, Dünya Səhiyyə Assambleyasının hava çirkliliyinin sağlamlığa mənfi təsirlərinə qlobal reaksiyanı gücləndirmək üçün yol xəritəsi mühüm əhəmiyyət kəsb edir. Həmin yol xəritəsinə atmosfer havasının çirklənməsinin sağlamlığa təsirləri haqqında məlumat bazasının genişləndirilməsi, Dayanıqlı İnkişaf Məqsədlərinin havanın çirklənməsinə dair hədəflərinə istiqamətlənən monitorinqlərin aparılması və hesabatların hazırlanması, bütün səviyyələrdə – yerli, milli, regional və qlobal səviyyədə əməkdaşlıq imkanlarının artırılması kimi fəaliyyətlər daxildir.

Məlum olduğu kimi, atmosferin çirkləndirilməsində əsas rollardan birini nəqliyyat vasitələri oynayır. Bu istiqamətdə problemlərin qarşısını almaq məqsədilə inkişaf etmiş ölkələrdə Avro standartlarına keçilmişdir. Həmçinin atmosfer havasının çirklənməsinin qarşısının alınması məqsədi ilə davamlı enerji mənbələri qismində alternativ enerjidən (külək, günəş, bioqaz, biokütlə, geotermal, hidroelektrik) istifadə edilməyə başlanmışdır.

Su ehtiyatları tükənən sərvət olduğundan onun inteqrasiyalı və səmərəli idarə olunması çox vacib aspektdir. Belə ki, su ehtiyatlarının səmərəli idarə edilməsi BMT-nin 2030 Dayanıqlı İnkişaf Məqsədlərinin, təbii fəlakət risklərinin azaldılmasına dair Sendai Çərçivə Proqramında və Paris Sazişi kimi beynəlxalq müqavilələrə daxil edilmişdir. Davos Forumu

ardıcıl olaraq üç il su böhranını ilk üç vacib qlobal risklər siyahısına daxil etmişdir. Bu məqsədlə suların çirklənməsinin qarşısının alınması məqsədi ilə tədbirlər görülür, suların transsərhəd çirklənməsinin qarşısının alınması məqsədi ilə transsərhəd diaqnostik analizlər aparılır, milli, regional və qlobal səviyyədə müxtəlif layihələr həyata keçirilir.

Bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsini təmin etmək də bəşəriyyətin qarşısında duran vacib problemlərdəndir. Bioloji müxtəlifliyin qorunması, o cümlədən, nadir və nəsli kəsilməkdə olan flora və fauna növlərinin mühafizəsi, qanunsuz ovun aradan qaldırılması məqsədilə bir sıra beynəlxalq razılaşmalar, konvensiyalar qəbul edilmişdir. Bioloji müxtəlifliyin mühafizəsi məqsədi ilə qorunan ərazilərin sahəsi genişləndirilir. Dünya ölkələrində bioloji müxtəlifliyin qorunması ilə məşğul olan aidiyyəti qurumlar çoxsaylı təbiəti mühafizə layihələri və ictimaiyyətin məlumatlılığını, o cümlədən cəmiyyətdə ekoloji dəyərləri inkişaf etdirmək üçün müxtəlif maarifləndirmə və təhsil proqramları həyata keçirilir. Həmçinin bioloji müxtəlifliyin qorunması məqsədi ilə monitorinqlər və qiymətləndirmələr aparılır.

BMT-nin ətraf mühit üzrə agentliyi YUNEP də dünyada ətraf mühit və bioloji müxtəlifliyin qorunmasına yönəlik müxtəlif layihələr gerçəkləşdirən ixtisaslaşmış beynəlxalq qurumlardandır. Biomüxtəlifliyin qorunması istiqamətində fəaliyyət vətəndaş cəmiyyəti, bu sahədə ixtisaslaşmış ictimai təşkilatların fəal dəstəyi olmadan səmərə verə bilməz. Azərbaycan Respublikasında bu istiqamətdə İDEA, ətraf mühitin mühafizəsi naminə Beynəlxalq Ekoloji Hərəkat olduqca səmərəli fəaliyyət gerçəkləşdirir [9].

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) biomüxtəlifliyin qorunması məqsədilə «Dünya kənd təsərrüfatı məlumat şəbəkəsi», «Planetin genetik resurslarına dair erkən xəbərdarlıq sistemi», «Meşə genetik resursları» kimi müxtəlif mövzulara əsaslanan informasiya bazası yaratmışdır. İqlim dəyişmələri də qlobal risk olaraq dünya ictimaiyyətinin diqqət mərkəzindədir. İstixana qazlarının emissiyalarının artması ilə təbii istixanaların təsirinin güclənməsi, yer səthi və atmosferin əlavə olaraq istiləşməsi ilə nəticələnir.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) əsas məqsədi iqlim sistemində təhlükəli antropogen müdaxilənin qarşısını ala biləcək səviyyədə istixana qazlarının atmosferdə konsentrasiyalarının stabilləşməsinə nail olmaqdır. Bu səviyyə, ekosistemlərin iqlim dəyişikliyinə təbii olaraq uyğunlaşmasına imkan vermək, qida istehsalının təhlükəyə məruz qalmamasını təmin etmək və iqtisadi inkişafın dayanıqlı şəkildə davam etməsinə imkan yaratmaq üçün kifayət edə bilən zaman çərçivəsində əldə edilməlidir.

Ətraf mühitə mənfi təsir göstərən səbəblərdən biri də plastik tullantıların düzgün idarə olunmaması ilə bağlı yaranan problemlərdir. Avropa İttifaqına üzv dövlətlər tərəfindən qablaşdırma tullantılarının əmələ gəlməsinin qarşısını almaq və bu tullantıların ətraf mühitə təsirini azaltmaq məqsədilə qablaşdırma tullantılarının təkrar istifadəsi sisteminin formalaşdırılması ilə bağlı tədbirlər görülür. Bir sıra Avropa ölkələrində qablaşdırma materiallarının toplanması, utilizasiyası, təkrar emalının maliyyələşdirilməsi qeyri-kommersiya təşkilatları (fondlar) tərəfindən həyata keçirilir.

Artıq bir çox ölkələr plastik torbalara alternativ olaraq təkrar istifadəsi və emalı mümkün olan, bioloji parçalanan materiallardan hazırlanan torbalardan istifadə edir, plastik torba istehsalının azaldılması məqsədi ilə qadağaları, ödənişli istifadəni və ya vergi sistemini özündə cəmləşdirən qanunvericilik sənədlərini qəbul edir. Göründüyü kimi, ekoloji tarazlığın qorunub saxlanması bəşəriyyətin davamlı inkişafı üçün vacib əhəmiyyət kəsb edir. Demoqrafik inkişaf və buna uyğun olaraq da istehlakın artması ekoloji risklərin daha da real xarakter kəsb etməsi ilə nəticələnir. Lakin əlbəttə ki, mütərəqqi bəşəriyyət tərəfindən bu cür risklərin qarşısının alınması istiqamətində ardıcıl fəaliyyət göstərilməkdədir. Lakin bir sıra hallarda bəzi aparıcı dünya dövlətləri bu səylərə

lazımı dəstəyi vermir Məsələn, ABŞ Qlobal istiləşməyə dair 2015-ci il Paris iqlim sazişindən 2017-ci ildə çıxmışdır. Bunun səbəbini prezident D.Tramp Sazişin ABŞ müəssisə və işçilərini əlverişsiz vəziyyətdə qoyması ilə əlaqələndirmişdir. Səbəbi nə olursa olsun, ABŞ kimi bir dövlətin Paris sazişindən çıxması, bəşəriyyətin gələcəyi üçün mühüm təhdid doğurur [15].

Müasir dövrdə qlobal risklərə qarşı bir sıra qərarlar qəbul edilsə də, konvensiyalar, sazişlər imzalansa da, ciddi nəticələrin əldə edilməməsi, əksinə təhdidlərin artdığı müşahidə edilməkdədir. Burada əsas səbəb dünyanın aparıcı dövlətləri, transmilli korporasiyaları, güc mərkəzlərinin ümumilikdə bəşəriyyətin maraqlarından deyil, məhz milli və korporativ maraqlardan, çıxış etmələridir [2].

Davos Forumundakı çıxışı zamanı Hindistanın keçmiş sənaye və ticarət naziri Kamal Nat belə bir tezis səsləndirib: «Yeni dünya nizamı qlobal nizamsızlıqdır və bu, heç də yalnız ticarətdə deyil». Bu isə o deməkdir ki, müasir dünyada qloballaşma ilə deqloballaşma (yəni antiqloballaşma) arasında nisbət kəskin surətdə dəyişməkdədir. Yəni dünya birləşməkdən çox parçalanmağa meyillənib, qütbləşmə artıb. Bu tendensiya iqtisadi-ticari, siyasi, geosiyasi, mədəni, ideoloji sferaları əhatə edir. Bu da onu göstərir ki, yeni dünya nizamında bəşəriyyət onu təhdid edən risklərə qarşı mübarizədə birləşmiş şəkildə yox, parçalanmış və pərakəndə şəkildə mübarizə aparmaq məcburiyyətindədir [8].

2019-cu ildə keçirilmiş Davos Forumunun əsas tezisi dördüncü sənaye inqilabı olmuşdur. Bu isə bir sıra ekspertlərə Yaponiya və Almaniyanın Çinlə rəqabəti kontekstində baş verdiyini iddia etməyə imkan verib. Bu amil və eyni zamanda, ABŞ prezidentinin Forumda iştirak etməməsi isə dünya dövlətlərinin qlobal problemlər ətrafında ortaq fikrə gəlmək niyyətindən uzaq olduğunu ortaya qoymuş olub.

Dünyanın güc mərkəzlərinin öz maraqlarını diktə etməyə çalışması, bəşəriyyəti, bir növ məhvə sürükləyir. Bu isə onu deməyə əsas verir ki, hazırda dünya risklər zonasındadır. Böyük güclər arasında rəqabət gücləndikcə isə, bu proses daha da dərinləşir.

Əvvəldə qeyd etdiyimiz kimi, Davos İqtisadi Forumu hər il üçün qlobal riskləri elan edir. 2020-ci ildə keçirilmiş Forumda da eyni ənənə davam etmişdir. Forumun elan etdiyinə görə, əsas qlobal risklər iqtisadiyyatda artan durğunluq, gözləniləndən daha sərt və daha sürətli bir şəkildə baş verən iqlim dəyişikliyi, kiber məkanda baş verən problemlər, yeni nəsil texnologiyaların yaratdığı problemlər, dünyanın bir sıra regionlarında insanların mövcud siyasi və iqtisadi şərtlərə etirazından ibarətdir. Forumun hesabatında göstərilir ki, qarşımızda duran çətinliklər dərhal kollektiv tədbirlər görülməsini tələb edir, lakin qlobal birliyin daxilindəki fikir ayılıqları vardır ki, bunlar aradan qaldırılmalı, tərəflər həll olunmamış qlobal problemlərlə bağlı sürətli və məqsədyönlü fəaliyyət göstərməlidirlər.

Məlum olduğu kimi, qlobal risklər sırasında yoluxucu xəstəliklər, epidemiya və pandemiyalar da mühüm yer tutur. 2019-cu ilin sonunda Çində aşkarlanmış COVİD-19 virusu qısa müddətdə bütün dünyaya yayılaraq pandemiya xarakteri kəsb etmişdir. Hazırda dünyada milyonlarla insan bu virusa yoluxmuş, on minlərlə insan dünyasını dəyişmişdir. Virus sağlamlıq problemləri ilə yanaşı, ciddi iqtisadi-humanitar böhranlara da səbəb olmuşdur. Pandemiya dünya iqtisadiyyatında görünməmiş təlatümlər yaratmışdır. Pandemiya iqtisadiyyatda zəncirvarı olaraq müxtəlif sferalarda problemlərin meydana gəlməsinə gətirib çıxarmışdır.

Beynəlxalq Valyuta Fondunun (BVF) prezidenti Kristalina Georgieva, COVİD-19 pandemiyası səbəbilə dünya iqtisadiyyatının 1930-cu il dünya iqtisadi böhranından daha pis bir mənzərə ilə qarşılaşacağını açıqlayıb. Qlobal iqtisadiyyata epidemiyanın vurduğu zərərlə bağlı bir çox rəqəm dilə gətirilir. Məsələn, Asiya İnkişaf Bankı (AİB) epidemiyanın iqtisadi xərclərini 2 ilə 4.1 trilyon ABŞ dolları arasında qiymətləndirir. Bu rəqəm qlobal məhsulun 2,3 ilə 4,8%-i arasındadır. Digər tərəfdən, epidemiyanın iqtisadi dəyəri ilə əlaqədar

1 trilyon dollarlıq ilk qiymətləndirməsini bildirən Birləşmiş Millətlər Ticarət və İnkişaf Təşkilatı (UNCTAD), qısa müddətdə bu qiymətləndirməni 2 trilyon dollara çatdırdı. Bu iki təxmindəki fərqlər, uyğunsuzluqlar belə bir xərc smetası hazırlamağın hələ tez olduğunu göstərmiş oldu. Bununla birlikdə, Ümumdünya Ticarət Təşkilatı (ÜTT) da Kovid-19 epidemiyasının qlobal ticarətdə 13 ilə 32% arasında azalmaya səbəb olduğunu proqnozlaşdırdığını açıqladı. Təşkilat, təxminlər arasındakı bu fərqin epidemiyanın yaratdığı qeyri-müəyyənlikdən qaynaqlandığını bildirir.

Kovid-19 pandemiyasının iqtisadiyyatın müxtəlif sahələrinə göstərdiyi və göstərəcəyi təsir ətrafında ciddi müzakirələr çərçivəsində ən vacib yan təsirlərdən birinin məşğulluqla əlaqəli olduğunu təxmin etmək çətin deyil. Beynəlxalq Əmək Təşkilatının (BƏT) məlumatlarına görə, tam və ya qismən təcrid dünya işçi qüvvəsinin 81%-ə bərabər olan 2.7 milyard işçiyə təsir edir.

BƏT tərəfindən müxtəlif sektorlarda çalışan işçi qüvvəsinə pandemiyanın təsirlərini aşağıdakı kimi ümumiləşdirilmişdir:

– Nəqliyyat və turizm sektorunun ümumi itkisinin ayda 1 milyard avro cuvarında olması gözlənilir. Bu kontekstdə gəmiçilik sektorunda çalışan təxminən 2 milyon dənizçinin bu vəziyyətdən təsirlənəcəyi aydındır. Səyahət qadağaları və digər bu kimi məhdudiyyətlər birbaşa gəmiçilikdə çalışan 250.000 insana mənfi təsir göstərmişdir.

– Epidemiyadan ciddi şəkildə təsirlənən digər bir sahə də avtomobil sənayesidir. 2017-ci il hesablamalarına görə, sektorda çalışan işçilərin sayı 14 milyon cuvarındadır. Avtomobil zavodlarının bağlandığı və tədarük zəncirinin dayandırıldığı bu dövrdə, sektordakı bütün işçilərin tələbin azalmasından təsirlənəcəyi düşünülür.

– Tətbiq olunan səyahət məhdudiyyətlərindən ən çox təsirlənən sektorlardan biri hava nəqliyyatı sektorudur. Beynəlxalq Hava Nəqliyyat Birliyinin (IATA) hesablamalarına görə, sektordakı gəlir itkisi 252 milyard dollar cuvarındadır. Bu rəqəm 2019-cu ildəki ümumi gəlirlərin 44 faizinə bərabərdir.

– Aviasiya sektorunda birbaşa işləyən işçilərin sayı 10,2 milyon civarındadır. Bunun 2.7 milyonu aviaşirkətlərin işçiləridir.

– Tekstil, geyim, dəri və ayaqqabı sektorundan təsirlənən işçi sayının yalnız Banqladeşdə 2,1 milyon cuvarında olduğu və ümumi gəlir itkisinin 3 milyard dollar olacağı təxmin edilir.

**Nəticə**

Yuxarıdakı təxminlər kifayət qədər ciddi rəqəmlər hesab olunur. İşsizliyin artması və nəticədə gəlir itkisi də ölkə iqtisadiyyatında tələbin azalması deməkdir. Başqa sözlə, epidemiyaya qarşı mübarizə çərçivəsində iş yerlərinin bağlanması, istehsalın müvəqqəti dayandırılması təklifin azalmasına səbəb olacaq və gəlir itkisi olan şəxslərin tələbləri azalacaq, bu səbəbdən hökumətlərin prosesi ənənəvi iqtisadi siyasətlə idarə etməsi mümkün görünmür. Hökumətlərin iqtisadi durğunluq vəziyyətində qalacaqları vergi itkiləri nəzərə alınmaqla, q lobal borc dövrünün də risk altında olduğu açıqdır.

**Ədəbiyyat:**


1. Ələkbərov, U.K. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. – Bakı: Təhsil, – 2013. – 224 s.
2. Məmmədova, S.İ. Müasir şəraitdə dövlətin ekoloji siyasəti: formalaşması və həyata keçirilməsi mexanizmləri: Azərbaycan Respublikası timsalında: siyasi elmlər üzrə elmlər dok. ... dis. avtoreferatı: 5904.01 / S.İ.Məmmədova; Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. – Bakı, – 2018. – 57s (s.28).
3. Adams, W.M. (2001). Green Development: Environment and sustainability in the third world (2.Baskı). London: Routledge.
4. Backhouse, R. (1991). A History of Modern Economic Analysis. Basil Blackwell, Oxford, UK.
5. Bourdeau, L. (1999). National Report: Sustainable development and future of construction in France. France: Centre Scıentıfıque Et Technıque Du Bâtıment.
6. Harris J.M. (2000). Basic Principles of Sustainable Development. Global Development and Environment Institute Working Paper: 00-04, Tufts University, USA.
7. Holmberg, J. ve Sandbrook, R. (1992). Sustainable Development: What Is to Be Done? Making Development Sustainable: Redefining Institutions, Policy, and Economics. (Ed. J. Holmberg). International Institute for Environment and Development, p. 19-38, Island Press, Washington, D. C.
8. Rostow, W.W. (1960). The Stages of Economic Growth: A Non-Communist Manifesto. Cambridge University Press, Cambridge.
9. United Nations. (1992). Rio Declaration. Rio: UN.
10. World Commission on Environment and Development, 1987.
11. World Summit on Sustainable Development WSSD. (2002). World Summit on Sustainable Development implementation report. Johannesburg: WSSD.
12. Torunoglu, E. (2003). Tübitak Vizyon 2023: Panel için notlar: Sürdürülebilir kalkınma paradigması üzerine ön notlar. Ankara: Tübitak.
13. Dünyada ve Türkiye sürdürülebilir kalkınma yaklaşımları. Dr. Ecehan OZMEHMET // [08.06.2008] http://dergipark.ulakbim.gov.tr/jyasar/article/view/5000066037/5000061543
14. Что такое Рио+20? // http://www.un.org/ru/sustainablefuture/about.shtml [23.06.2012]
15. https://sustainabledevelopment.un.org/post2015/summit, 08 oktyabr, 2015.


***Acar sözlər:*** *Qlobal risk, sistematik, Dünya iqtisadi forumu, meteoroloji, ekoloji, elmi fantastika, faktor, domino effekti*

**Ayaz Hajiyev**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan, PhD Candidate*

## IMPACT OF GLOBAL RISKS ON SUSTAINABLE DEVELOPMENT

## ABSTRACT

The above mentioned estimates are pretty serious. The rise in unemployment and the associated loss of income also mean a decrease in demand in the country's economy. In other words, as part of the fight against the epidemic, the closure of jobs and the suspension of production will reduce supply and demand from those who are losing income, so it is impossible for governments to manage the process through traditional politics of economic methods. Obviously, the global debt period is also in jeopardy, given the tax losses that governments will face in a state of economic stagnation.

***Keywords:*** *global risk, taxonomy, World Economic Forum, meteorology, ecology, science fiction, factor, domino effect*

**Аяз Гаджиев**
*Диссертант Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

## ВЛИЯНИЕ ГЛОБАЛЬНЫХ РИСКОВ НА ОБЕСПЕЧЕНИЕ УСТОЙЧИВОГО РАЗВИТИЯ

## РЕЗЮМЕ

В статье приводятся довольно серьезные цифры. Рост безработицы и связанная с этим потеря доходов также означает снижение спроса в экономике. Другими словами, в рамках борьбы с эпидемией закрытие рабочих мест, приостановка производств приведет к сокращению предложения и уменьшению спроса со стороны тех, кто теряет доход. Поэтому для правительств не представляется возможным управлять процессом с помощью традиционных экономических методов, политики. Очевидно, что период глобального долга также находится под угрозой, учитывая налоговые убытки, с которыми правительства столкнутся в состоянии экономического застоя.

***Ключевые слова:*** *глобальный риск, систематика, Всемирный экономический форум, метеорология, экология, научная фантастика, фактор, эффект домино*

# GƏNC TƏDQİQATÇILAR
# YOUNG RESEARCHERS

## HÜQUQ
## LAW

UOT 343.985.7

**ФАРИДА МОВСУМОВА**
**Преподаватель кафедры «Право» Академии Государственного Управления при Президенте Азербайджанской Республики,**
**докторант по специальности «Уголовный процесс, криминалистика и судебная экспертиза, оперативно-розыскная деятельность» Центра Судебной Экспертизы При Министерстве Юстиции Азербайджанской Республики**
*e-mail: movsumova.farida94@gmail.com*

# ПРОБЛЕМА БЫТОВОГО НАСИЛИЯ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНЕ

В современном Азербайджане проблема бытового насилия и его предотвращения приобретают все большую популярность. Существующие экономическая и социальная ситуации также оказывают на это влияние. Безусловно, бытовое насилие – это дестабилизирующий процесс, который оказывает негативное влияние на различные сферы общества и государства, в частности на сферу семейного права.

Согласно данным Государственного Комитета по Статистике на декабрь 2020 года на каждые три брака приходится один развод. В 2019-2018 годах данный показатель составлял четыре брака и один развод. По информации на июль 2021 года, по сравнению с аналогичным периодом 2020 года количество разводов еще больше выросло с 1,4 до 1,6 на каждые 1 000 человек [5]. Эти показатели свидетельствуют о цепочке отрицательных явлений в сфере внутрисемейных отношений. Если раньше развод был исключительным фактом, то сейчас он приобретает характер обыденности. Зачастую также отношения, складывающиеся между женщиной и мужчиной, не оформляются в установленном законом порядке. Многие предпочитают заключать только религиозный брак, который согласно статье 1.5. Семейного Кодекса АР не имеет юридической силы [1].

Одним из способов выяснения конфликтов внутри семьи стало применение различных действий насильственного характера, начиная периодическими побоями и заканчивая убийствами, о чем свидетельствуют статистические данные. За последние 10 лет изменился как характер, так и степень общественной опасности преступлений, совершенных на бытовой почве, что позволяет сделать вывод о том, что разрушается привычный уклад взаимоотношений, складывающихся между мужем и женой. [5]

На первый взгляд может показаться, что удельный вес преступлений, которые связаны с бытовым насилием, невелик. Согласно данным Государственного комитета по статистике за первое полугодие 2021 года количество преступлений, совершенных на почве бытового насилия, составляет 5.4 % от общего числа зарегистрированных преступлений (803 преступления из 14928). За 2020 год количество преступлений, совершенных на почве бытового насилия, состав-

ляет 4.8 % от общего числа зарегистрированных преступлений (1260 преступлений из 26004), за 2019 год – 4.9 %, за 2018 год – 6.9%, за 2017 год – 6.5%, за 2016 год-5% [5]. Удельный вес действительно невелик. Только статистика последних 2 лет показывает тенденцию к повышению. Но, тем не менее, характер совершенных преступлений с годами меняется. Об этом свидетельствует тот факт, что в первой половине 2021 года уже совершено на 25% больше преступлений на почве бытового насилия, чем в предыдущие годы, и что наиболее важно, преступления последних лет характеризуются наибольшей степенью общественной опасности [5].

Впервые термин «бытовое насилие» стали применять в 70-е годы XX века. Его использовали при констатации факта насилия со стороны лиц мужского пола, а также оскорблений в отношении лиц женского пола [25, с.17]. В настоящее время круг лиц, в отношении которых может применяться термин «бытовое насилие» достаточно широк, куда относят всех членов семьи и иных лиц, нашедших отражение в ст.1 Закона «О предотвращении бытового насилия» [12]. Данное положение, безусловно, распространяется и на ситуации, где женщина – субъект преступления, а мужчина – жертва. Тем не менее, статистика Азербайджана подтверждает тот факт, что в 76% случаях жертвой бытового насилия является женщина, в 22% –мужчина, в 2 % – несовершеннолетние дети [5]. Практика различных стран показывает: даже если женщина совершила преступление именно на почве бытового насилия, она все равно в большинстве случаев выступает также и в роли жертвы такого насилия, потому что ее преступное деяния является результатом неправомерного поведения мужчины, которое предшествовало деянию [21, с.29].

Семейные, а также складывающиеся на их почве бытовые отношения, испокон веков занимали особое место в системе ценностей любого человека. Развитие семейных правоотношений в Азербайджане имеет древнюю историю. Еще в 3 веке н.э. несмотря на обладание женщинами широким спектром прав, наравне с мужчинами, она все равно находилась в подчинении мужа. Однако даже в тот период в Авесте женщине предоставлялось право на подачу жалобы в случае, если она подвергнется насилию со стороны мужа [7, с. 24].

В период раннего средневековья муж считался опекуном жены, должен был обращаться с ней как с хозяйкой дома, жена же в свою очередь должна подчиняться своему мужу и выполнять свои обязанности перед членами семьи без каких-либо условий. У жены все также сохранились почти равные права наряду с мужчиной, но в некоторых случаях она считалась не субъектом, а объектом права [7, с.38].

После нашествия арабов в Азербайджан огромное влияние на развитие семейного уклада повлиял ислам. Шариатские нормы сохранили свое влияние вплоть до установления советской власти. В исламе женщине отводится весьма почетное место и уважительное отношение, однако роль мужа и жены по шариату значительно различается, особенно в вопросах их прав и обязанностей касательно брачно-семейных отношений. По шариату муж продолжает, как и ранее оставаться попечителем жены. Жена полностью обязана подчиняться своему мужу, воспроизводить для него потомство и ухаживать за детьми. Мужу разрешалось бить свою жену, если она без уважительной причины не повинуется ему или ослушалась [7, с.52]. В качестве примеров можно также привести толкования известных мусульманских ученых-мухаддисов (знатоков хадисов), где это упоминается:

- Имам ан-Навави: «Нет необходимости узнавать у мужчины о том, зачем он побил или ударил свою жену» [31];
- Аль-Мустадрак: «Худшие из мужчин бьют женщин». [26, с.219];
- Ибн Хузайма «Сахих»: «Аллах доверил вам женщин. Вашей обязанностью

является кормить их хорошо, одевать их, обеспечивать достойный уровень житья. Придерживайтесь богобоязненности в отношении жен. Если и бьете, то не бейте жестоко» [26 с. 134];

- Аль-Бухари «Сахих аль-джами»: «Никто не должен бить свою жену, как бьют рабов, а потом в завершении дня делить с ней одно ложе» [19, с.482].

В период советской власти женщин формально уравняли в правах с мужчинами, как в обществе, так и в семье. Но в реальности все выглядело иначе: женщины стали «заняты» вдвойне – и на работе, и дома. Государство со своей стороны контролировало институт семьи. На плечах женщины по-прежнему лежал быт, уход за членами семьи и эмоциональная обстановка в семье. Наряду с этим, женщины привлекались к труду и обязаны были работать на благо общества. После родов предоставлялся отпуск, но он был коротким и в зависимости от политики занятости, проводимой в государстве, мог иногда оплачиваться не в полной мере [7, с.464].

В период перестройки и трансформации нашего общества, измененные жизненные условия в первую очередь отразились на женщинах, так как они одни из первых почувствовали на себе изменения на трудовом рынке и безработицу.

Общенациональный лидер Гейдар Алиев всегда уделял особое внимание проблемам женщин и считал усиление политики в отношении женщин одной из основных задач государства. Он считал очень важным возвращение женщин в общественно-политическую жизнь, их участие в государственном управлении, предоставление женщинам всех прав наряду с мужчинами [9, с.197]. Потому создание национального механизма по обеспечению гендерного равенства, его совершенствование и развитие прошло несколько этапов и началось после обретения независимости Азербайджанской Республикой 18 октября 1991 г. и возвращения к руководству страной 15 июня 1993 г. Гейдара Алиева. Благодаря его заслугам была усовершенствована законодательная база, обеспечивающая защиту прав женщин, было сформировано национальное движение женщин [6, с.14].

Разработанная Гейдаром Алиевым политика, продолжила свое развитие благодаря Президенту Ильхаму Алиеву. В октябре 2006 г., он выступил инициатором принятия Закона «Об обеспечении гендерного равенства» [8]. В своем обращении к участникам 7-й министерской конференции Совета Европы он отметил: «Гендерное равенство является одним из приоритетов демократического общества. Целью азербайджанского законодательства является предотвращение любой формы дискриминации в отношении женщин, а также важно бороться и устранять причины, приводящие к преступлениям на почве бытового насилия, жертвой которых зачастую являются женщины» [11, с. 9]. Среди актуальных мер последних лет можно выделить распоряжение Президента 2020 г. об утверждении «Национального плана действий по борьбе с бытовым насилием в Азербайджанской Республике на 2020-2023 годы» [4].

Первый вице-президент Азербайджанской Республики, Первая леди Азербайджана, президент Фонда Гейдара Алиева, Посол доброй воли ЮНЕСКО и ИСЕСКО Мехрибан ханум Алиева всегда уделяет особое внимание вопросам обеспечения прав женщин в нашей стране. Она активно участвует в политической жизни страны и всегда отмечает, что одной из наиболее важных проблем является проблема насилия в семье. Сюда относятся также проблемы ранних браков, проблемы недопущения девочек к продолжению получения образования, различные бытовые и семейные проблемы. Зачастую данные проблемы связаны со слабой информированностью женщин о своих правах, но во многих случаях в создании ложных стереотипов о роли женщин в обществе виноваты также и

сами женщины [13, с.367]. По инициативе и активной поддержке Мехрибан ханум Алиевой 22 июня 2010 г. Милли Меджлисом был принят Закон «О предотвращении бытового насилия», направленный на обеспечение адекватной и эффективной защиты от насилия в семье и уважение чести и достоинства всех членов семьи [10, с.12]. Он содержит широкий спектр положений, направленных на преодоление насилия в семье, и включает защитные меры, включая создание приютов, консультирования, реабилитации и поддержки для женщин – жертв насилия, наказания виновных и др. [12].

Безусловно, важным для преодоления насилия в семье является выявление его причин. Изучение данного вопроса показало, что в качестве таковых в семье можно указать низкий уровень образования и культуры, вмешательство родственников в жизнь семьи, плохие человеческие отношения между мужем и женой, вытекающие из того, что некоторые создают семье в еще в незрелом возрасте, традиции семейного насилия в детстве и т.д. Некоторые из причин подаются прямому урегулированию со стороны государства. Примером служит изменение в Семейном Кодексе АР, внесенное в 2011 г., когда возрастной ценз для вступления в брак женщин был уравнен с возрастным цензом мужчин, т.е. был увеличен с 17 до 18 лет. Также были приняты изменения в Уголовный Кодекс, предусматривающие введение уголовной ответственности за принуждение женщин к вступлению в брак [2]. На некоторые же государство может влиять лишь косвенно, так как они подпадают под сферу личных неимущественных взаимоотношений внутри семьи и ее быта.

Ефремова Т.Ф. определяет семью как группу близких родственников (муж, жена, родители, дети и т. п.), живущих вместе [18, с.730]. А повседневная жизнь человека, совокупность условий, в которых она проходит; общий уклад жизни, совокупность обычаев, нравов, присущих какой-либо определенной социальной среде (в данном случае – семье) определяется как быт [18, с.107]. Толковый словарь Ожегова С.И. также определяет быт как жизненный уклад, повседневную жизнь [24, с.58]. Семья, т.е. люди, которые живут вместе, имеют общее хозяйство, дом, квартиру, что является бытом [24, с.393]. Таким образом, бытовым считается все, что относится к частному хозяйству, семье и дому.

По нашему мнению, бытовое насилие – это продукт личных семейных споров и конфликтов. При подробном рассмотрении бытового насилия важно выяснить факт того, что это не однократное избиение или же случайно получившийся инцидент (хотя такое тоже может случиться и, конечно, тоже будет рассматриваться как преступление). Бытовое насилие же подразумевает под собой систематическое насилие и оскорбления. Здесь жертва живет с агрессором в одном доме, находится в какой-то степени зависимости от него, постоянно уязвлена, при этом может испытывать теплые чувства и любовь к нему.

В различных источниках литературы можно встретить различные определения «бытового насилия». Так, Декларация ООН «Об искоренении насилия в отношении женщин», принятая 20 декабря 1994 года в статье 2 определяет бытовое насилие как «физическое, половое и психологическое насилие, которое имеет место в семье, включая нанесение побоев, половое принуждение в отношении девочек в семье, насилие, связанное с приданым, изнасилование жены мужем, повреждение женских половых органов и другие традиционные виды практики, наносящие ущерб женщинам, внебрачное насилие и насилие, связанное с эксплуатацией» [16].

Центр Миннесоты против насилия и жестокого обращения (Minnesota Center Against Violence and Abuse) указывает, что бытовое насилие – это взаимоотношения, складывающиеся в семье, в результате

которых наблюдается подавление личной свободы человека, жестокость и агрессия в отношении членов семьи [33].

Согласно определению из словаря Уэбстера (Merriam-Webster) под бытовым насилием понимается нанесение физического вреда одним членом семьи или членом домашнего хозяйства другому; а также повторяющаяся или обычная модель такого поведения [32, с.163].

Уолкер Л. определяет бытовое насилие как систему поведения одного индивидуума, применение угроз или силы для сохранения и осуществления власти, и контроля над другим индивидуумом. К различным формам жестокого обращения в семье относятся физическое, половое, эмоциональное и экономическое насилие, а также угрозы или устрашение. Сохранить власть и контроль в семейных отношениях – основная цель лица, совершающего такое насилие [34, с. 34].

Любые случаи угрожающего поведения, жестокого обращения и любого вида насилия между лицами, достигшими совершеннолетия, которые независимо от пола, являются или в прошлом являлись членами семьи или партнерами, подпадают под критерий определения бытового насилия. Это определение является широким, потому что включает в себя:

– отношения, складывающиеся между партнерами или бывшими партнерами, в независимости от их семейного положения, женаты ли они или нет;

– жертвы, куда входят не только жертвы женского пола, но и жертвы мужского пола, жертвы, подвергшиеся жестокому обращению со стороны членов семьи (родителей, братьев, сестер, иных родственников), жертвы в отношениях между представителями лиц одного пола;

– различные формы насилия или сдерживающего поведения. Сюда можно отнести нападения, угрозы или причинение дискомфорта и беспокойства. [21, с. 39].

Закон Азербайджанской Республики «О предотвращении бытового насилия» дает в статье 1 такое определение бытового насилия: «бытовое насилие – это умышленное причинение физического либо морального вреда друг другу лицами, на которых распространяется настоящий Закон, путем злоупотребления близкими родственными отношениями, нынешним либо прежним совместным проживанием» [12]. В статье 4 же приведен список лиц, на которых распространяется данный закон:

– члены семьи, являющиеся близкими родственниками (муж, жена, родители, дети, бабушки, дедушки, внуки, родные и сводные братья и сестры, усыновленные и усыновители), а также другие родственники, в случаях совместного проживания;

– бывшие супруги, живущие вместе или порознь послед расторжения брака;

– физические лица, назначенные опекунами или попечителями, а также лица, которым назначен опекун или попечитель;

– мужчина и женщины, живущие совместно без заключения законного брака, а также близкие родственники, в случаях совместного проживания с ними [12].

Данное определение четко и обоснованно отражает сущность исследуемого явления, охватывая широкий круг лиц, подпадающих под юрисдикцию данного закона. Однако, бытовое насилие – наказуемое деяние, а это обуславливает необходимость введения в уголовное законодательство Азербайджанской Республики определения термина «бытовое насилие» именно в уголовно-правовом аспекте. Это поможет эффективно расследовать и раскрывать, связанные с бытовым насилием преступления, разрабатывать предупредительные меры, проводить индивидуальную профилактику при проведении аналитической работы.

Многие авторы при определении преступлений, связанных с бытовым насилием, используют такие термины как «бытовые преступления» [22] или же «преступления в сфере семейно-бытовых отношений» [20]. Но к таким преступлениям можно отнести и умышленное уничтожение или поврежде-

ние имущества (ст. 186 УК АР), небрежное хранение огнестрельного оружия (ст. 230 УК АР), неисполнение приговора, постановления суда или иного судебного акта (ст. 306 УК АР, например, неисполнение постановления об уплате алиментов), и иные преступления, которые могут быть совершены как по личным мотивам, так и в бытовой сфере деятельности людей [23, с.84].

Представляется, что бытовое насилие – это более узкое понятие, хотя и охватывает такие виды как психологическое, экономическое и др. виды насилия, но, тем не менее, направлено всегда именно против личности.

Некоторые авторы предлагают такое определение как «внутрисемейные насильственные преступления». К данному понятию они относят преступления, посягающие на жизнь и здоровье, свободу и половую неприкосновенность, честь и достоинство, которые совершает один член семьи против другого члена семьи [30,с.20]. Однако в таком случае из изучения исключаются такие категории преступления как вовлечение несовершеннолетнего в совершение преступления (ст. 170 УК АР), принуждение женщины к вступлению в брак (ст.176-1 УК АР) и др., которые напрямую связаны с действиями членов одной семьи в отношении других членов семьи. Потому, считается необходимым дать определению понятию «бытового насилия» в рамках, именно уголовного законодательства. Это создаст благоприятные условия для более точного и правильного выделения преступлений, связанных с бытовым насилием; от этого в будущем будет зависеть достоверная квалификация насильственных деяний, и, в конце концов, это повысит эффективность правоохранительной деятельности. Для этого, в первую очередь, необходимо исследовать понятие «насилие» и его сущность, с которым связано все вышеуказанное.

Уголовный Кодекс Азербайджанской ССР 1923 г. к признакам, характеризующим насилие, относил причинение физической боли, также причинение такой боли, которая не делала потерпевшего больным либо калекой (побои, удары) или которая не расстраивала бы человека (таскание за волосы, за уши) [27].

Профессор Джавадов Ф.М. дает следующее определение насилия: «Насилие – это общественно опасное противоправное умышленное воздействие на организм человека, совершенное против его воли и направленное на причинение вреда жизни и здоровью» [17, с.11].

Федченко В.В. исследует насилие как социальное насилие и выделяет следующие его признаки:

– насилие существует и проявляется как отношение социальных субъектов, как их взаимодействие. Государства, социальные классы и группы могут быть объектами и субъектами насилия;

– насилие как социальное явление характеризуется определенными качественными, сущностными характеристиками, и количественными, чисто внешними проявлениями;

– внешне это выглядит как воздействие одних субъектов на других. Несмотря на то, что насилие не сводится только лишь к таким действиям как применение силы или угрозы ее применения, тем не менее, его можно считать актом применение силы, если один субъект воздействует на другой субъект вопреки его желанию и воли, либо желание и воля объекта, подвергающегося насилию, вообще отрицается и игнорируется. В таком случае, выгода и интересы одного субъекта удовлетворяется за счет желаний и интересов другого;

– сила в результате насилия применяется не только вопреки желания и воли, но также и вопреки закону;

– насилие является формой принуждения, оно представляет собой высочайшую степень применения телесной силы и иных принудительных мер. Помимо этого, насилие может выполнять также функции уничтожения и прямого подавления объекта насилия [28, с.25].

Давая определение термину «насилие», Гаухман Л.Д. выделил его правовые и фактические особенности. К правовым он отнес противозаконность и общественную опасность деяния. В качестве фактических он выделяет объективные признаки (способ совершения, время, место и т.д.) и субъективные признаки (характеризующие отношение к совершенному деянию) [15, с.4].

Цебоев А.П. определяет насилие как умышленное применение физической силы одним человеком другому, которое направлено на причинение вреда жизни или здоровью, нарушение физической неприкосновенности личности. Физическая сила может выражать не только в мускульной силе, но и с помощью психически нездоровых лиц, малолетних детей, животных, с помощью оружия или иных предметов и веществ [29, с.8].

При таком большом количестве определений, можно заметить, что все ученые сходятся в том, что сущностью любого насилия является применение силы против личности. Употребление силы по отношению к животным или же к неодушевленным предметам не подпадает под критерий насилия. Также можно заметить, что многие авторы сошлись в том, что насилие всегда направляется вопреки воле лица, к которому оно применяется.

Исходя из вышеизложенного, можно дать такое определение бытовому насилию: «Бытовое насилие – это противоправное, виновное, систематическое физическое либо психическое воздействие на членов семьи, которое осуществляется против их волеизъявления путем причинения боли, нанесения обиды, физического ограничения как угрозы или наказания с целью вынудить совершать нежелательные для них действия».

Бытовое насилие считается противоправным потому, что при его применении нарушаются положения Конституции Азербайджанской Республики и ряда международно-правовых актов. Конституция Азербайджанской Республики наделяет правом каждого гражданина на жизнь без насилия:

Статья 25.2 «Мужчины и женщины имеют равные права и свободы».

Статья 46.3 ««Никто не может быть подвергнут пыткам и истязаниям. Никто не может быть подвергнут обращению или наказанию, унижающему человеческое достоинство. Ни над кем без его добровольного согласия не могут проводиться медицинские, научные и другие опыты» [3].

Это соответствует нормам Всеобщей Декларации прав человека, принятой Организацией Объединенных Наций 10 декабря 1948 года:

Статья 1 «Все люди рождаются свободными и равными в своем достоинстве и правах».

Статья 5 «Никто не должен подвергаться пыткам или жестоким, бесчеловечным или унижающим его достоинство обращению и наказанию» [14].

В Законе «Об обеспечении гендерного равенства» также можно встретить актуальные нормы, касательно равенства:

Статья 2.2 «Гендерное равенство – равенство прав мужчин и женщин и равные возможности в осуществлении этих прав и их равное социальное положение в обществе».

Статья 3.1 «Запрещены все формы дискриминации по половой принадлежности» [8].

Важное значение имеет коммуникация правоохранительных органов с государственными и общественными организациями, которые прямо или косвенно занимаются проблемами бытового насилия. Среди таковых можно выделить: Государственный Комитет по проблемам семьи, женщин и детей, Министерство Труда и Социальной защиты населения, Министерство Образования, Министерство Здравоохранения, Уполномоченный по правам человека (Омбудсмен), местные органы исполнительной власти, центры помощи, приюты, как

государственные, так и такие негосударственные общественные организации как «Женщины XXI века», «Тямас», «Тямиз дунья», «Гяляджяйа аддым», «Исследование проблем женщин и детей» и другие.

В случае, если преступником является женщина, информацию о ней, об обстоятельствах и мотивах, подтолкнувших ее к совершению преступления могут предоставить региональные центры Государственного Комитета по проблемам семьи, женщин и детей, Министерства Труда и Социальной защиты, а также общественные организации семейной направленности. Данные органы организуют специальные центры поддержки (социальной, психологической и т.д.). Например, в подчинении одного только Государственного Комитета по проблемам семьи, женщин и детей находится 11 Центров Поддержки (Шувелан, Горанбой, Загатала, Гябяля, Исмаиллы, Гейгель, Агдам, Хаджигабул. Саатлы, Сабирабад, Зардаб). В такого рода учреждениях может фиксироваться важная для следствия информация, которая характеризует преступницу. Например, об ее обращениях и причинах такого обращения, о помощи, которая была ей оказана, о ее физическом здоровье, эмоциональном состоянии, в котором она пребывала во время обращения, какие намерения, мысли и причины высказывала. Данные органы также могут осуществить проверку жилищно-бытовых условий лица, изучить эмоциональную обстановку пребывания, отношений, преобладающих в семье и др.

Также такие организации могут оказать помощь путем обеспечения безопасности жертв бытового насилия. Женщина, которая сообщила о факте совершения преступления, связанного с бытовым насилием, в правоохранительные органы чаще всего испытывает сильное физическое и моральное давление со стороны преступника. Преступник пытается мстить жертве за то, что та подала заявление, использует свои рычаги давления, чтоб жертва изменила показания, забрала свое заявление или сказала, что они помирились. Такая ситуация вынуждает женщину искать защиту. По вышеназванной причине многие женщины бояться даже заявлять о применении бытового насилия по отношению к себе. Многие опасаются мести преступника либо неоднократно прощают преступника.

К сожалению, сотрудники правоохранительных органов не в состоянии удовлетворить потребности женщин и детей в финансовой помощи, безопасном размещении, лечении, оказание психологической помощи, юридических консультаций и других форм поддержки, которые являются необходимыми. В ходе расследования преступлений, связанных с бытовым насилием, мера пресечения в виде ареста применяется очень редко, в частности тогда, когда жертве преступления защита уже не нужна. В связи с этим жертва вынуждена продолжать жить с преступником в одном доме, где все еще царит нездоровая обстановка, где условия продолжающегося бытового насилия приобретают еще более жесткую форму, потому что уже есть факт возбуждения уголовного дела. В итоге, женщина «опускает руки», она деморализована и опустошена, и будет стараться впоследствии изменить ранее данные показания.

В итоге, в случаях совершения бытового насилия, где жертвой является женщина, очень важно установить связь с общественными организациями, занимающимися проблемами женщин и давшие толчок к видоизменениям в данной сфере. Они обладают теми знаниями и опытом, которые пригодятся следователю в ходе расследования. Они могут оказать правовую помощь и моральную поддержку женщинам и детям, чтоб те почувствовали себя безопасно. К ним относятся центры помощи, приюты и убежища, группы помощи жертвам изнасилования, группы, ведущую борьбу с торговлей людьми, социальные проекты и центры по защите прав женщин.

Центры помощи – государственные или неправительственные организации, кото-

рые принимают активное участие в решении проблем бытового насилия по отношению к детям и женщинам, включая физическое, половое, психо-эмоциональное, экономическое виды насилия. Такие центры сотрудничают с международными организациями и иными государственными структурами.

При некоторых центрах помощи функционируют приюты – места-убежища, где разрешается временное проживание женщин с детьми, которые стали жертвами бытового насилия. Во время своего пребывания в таком убежище жертвы:

- могут пройти психологическую реабилитацию, которая поможет им стоять на своем, отстаивать свои интересы, избавиться от сознания жертвы в ходе предварительного расследования и на судебном разбирательстве;
- могут получить правовую помощь со стороны приглашенных квалифицированных юристов, которые будут представлять их интересы не только на этапе предварительного расследования, но и помогают с процессом расторжения брака, раздела имущества, приобретением отдельного жилью и т.п. основные проблемы для потерпевшей в сложившейся ситуации.

Неправительственных организаций, которые готовы предоставить убежище женщинам, всего 3. Однако благодаря «Национальному плану действий по борьбе с бытовым насилием на 2020-2021 годы» [4], утвержденному распоряжением Президента Ильхама Алиева от 27 ноября 2020 года планируется создание еще большего количества временных приютов в различных городах Азербайджана, которые будут соответствовать международным стандартам и смогут удовлетворить должным образом потребности пострадавших лиц.

Необходимо также больше информировать население о существовании и функционировании таких центров и приютов. Жертвы зачастую даже не знают, куда им обращаться, где им могут помочь. Среди мер, которые могут быть наиболее эффективными для профилактики бытового насилия в семье можно выделить ужесточение законодательства, специальные образовательные программы в учебных заведениях, работа телефонов доверия, профилактические беседы в семьях, создание приютов для пострадавших, пропаганда в СМИ и т.д.

**Литература:**


1. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. http://e-qanun.az/framework/46946
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. http://e-qanun.az/framework/46947
3. Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995 il (24.08.2002, 18.03.2009, 26.09.2016 tarixli əlavə və dəyişikliklərlə). Bakı, «Qanun» 2016, 76 s.
4. "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 27.11.2020 tarixli 2307 nömrəli Sərəncamı. https://president.az/articles/47973
5. Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi məlumatları. https://www.stat.gov.az/source/crimes/
6. Azərbaycanda gender bərabərliyinin qanunverici əsasları: toplu. – Bakı: Səda, – 2007. – 168s.
7. Əkbərov, R., Səlimov, S. Azərbaycanın dövlət və hüquq tarixi. – Bakı, 2003. – 532 s.
8. "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının 10.10.2006 tarixli 150-IIIQ nömrəli Qanunu. http://www.e-qanun.az/framework/12424

9. Haqverdiyeva, K.K. Azərbaycanda gender bərabərliyinin təmin edilməsi və qadın hərəkatı // Tarix və onun problemləri, –№4. – Bakı, – 2009. – s.196-206.
10. Həsənzadə, S.B. İnsan və qadın hüquqlarının mahiyyəti // Qanun, №10, – Bakı, – 2014. – s. 10-18.
11. Qasımova, Y. Gender meynstriminqi: vətəndaş cəmiyyətinin rolu. Milli Gender mexanizminin monitorinqinin nəticələri. –Bakı, – 2010, – 48 s.
12. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının 22.06.2010 tarixli 1058-IIIQ nömrəli Qanunu. http://www.e-qanun.az/framework/20131
13. Алиева, Ф.Р. Процесс развития гендерного равенства в Азербайджанской Республике // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri, №65, – Bakı, 2017, s.365-372.
14. Всеобщая декларация прав человека, 10.12.1948. http://www.un.org/ru/documents/decl_conv/declarations/declhr.shtml
15. Гаухман, Л.Д. Борьба с насильственными посягательствами. – М.: Юридическая литература, – 1969. – 120 с.
16. Декларация об искоренении насилия в отношении женщин, 20.12.1993. https://www.un.org/ru/documents/decl_conv/declarations/violence.shtml
17. Джавадов Ф. М. Квалификация насильственных преступлений, совершенных с применением оружия: Дис. … канд. юрид. наук. – М., 1985, 172 с.
18. Ефремова, Т.Ф. Современный толковый словарь русского языка. Том 1. М., «АСТ», 2015, 1104 с.
19. Кардави Ш.Ю. Дозволенное и запретное в исламе. – М.: Умма, 2007, 960 с.
20. Ким Е. П. Преступность в сфере бытовых отношений и ее предупреждение: проблемы теории и практики: дис. … д-ра юрид. наук. – М., 2002, 354 с.
21. Колпакова, Л. А. Насилие в семье: виктимологический аспект, дифференциация ответственности и вопросы законодательной техники: дис. … канд. юрид. наук. Ярославль, 2007, 232 с.
22. Корецкий, Д.А. Семейное насилие как элемент бытовой преступности // Вестник Юридического факультета Южного федерального университета, №2, Ростов-на-Дону, 2020, с.72-75.
23. Машинская, Н.В. Насилие в семье: Криминологические и уголовно-правовые аспекты: Дисс....канд. юрид. наук. –М., 2001, 160 с.
24. Ожегов, С.И., Шведова, Н.Ю. Толковый словарь русского языка. – М.: «Азбуковник», 2004, 928 с.
25. Пащенко, А.С. Особенности расследования преступлений, связанных с домашним насилием : дис. ... кандидата юридических наук. Волгогр. акад. МВД России, Волгоград, 2005, 183 с.
26. Саяхов, Р.Л. Современный взгляд на классическое корановедение. – Уфа: Изд-во БГПУ, 2017, 302 с.
27. Уголовный Кодекс Азербайджанской ССР, 1 февраля 1923 г. Библиотека нормативно-правовых актов СССР. http://www.libussr.ru/
28. Федченко, В.В. Криминологическая характеристика тяжкой насильственной преступности против личности и особенности ее профилактики: Дисс....канд. юрид. наук. – Ростов-на-Дону., 2006, –189 с.
29. Цебоев, А.П. Основные характеристики насилия как уголовно-правовой категории и ее законодательное закрепление // Гуманитарные, социально-экономические и общественные науки, №11, 2015, с. 6-12.
30. Шестаков, Д. А. Семейная криминология: Криминофамилистика. Санкт-Петербург, Юрид. центр Пресс, 2003, 384 с.
31. Энциклопедия Хадисов. «Сады праведных» имама ан-Навави. Хадис № 68. https://hadis.uk/sady-pravednyx-imama-an-navavi-xadis-68/29162/

32. Merriam-Webster's Collegiate Dictionary. 11th Edition. Publishers Springfield, Massachusetts, 2020, 720 p.
33. Minnesota Center Against Violence and Abuse. Research on family violence and information on violence prevention. https://www.cehd.umn.edu/ssw/centers/mincava/
34. Walker L. Psychology and Domestic Violence around the World // American psychologist. APA, 1999, January, 27-44p.

***Ключевые слова:*** *бытовое насилие, семейные отношения, члены семьи, центры помощи, места-убежища*

**Fəridə Mövsümova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının "Hüquq" kafedrasının müəllimi*
*Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin*
*Məhkəmə Ekspertiza Mərkəzinin*
*"Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası,*
*əməliyyat-axtarış fəaliyyəti" ixtisası üzrə doktorant*

## MÜASİR AZƏRBAYCANDA MƏİŞƏT ZORAKILIĞI PROBLEMİ

## XÜLASƏ

Məişət zorakılığı təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində mövcud olan bir problemdir. Zorakılıq cəmiyyətin ən kiçik ünsürü olan ailəyə əhəmiyyətli təsir göstərir. Ailə cəmiyyətin əsas özəyi kimi mümkün olan bütün vasitələrlə qorunmalıdır. Ulu öndər Heydər Əliyev hər zaman qadınların problemlərinə xüsusi diqqət göstərmiş və həmin sahədə siyasətin gücləndirilməsini dövlətin əsas vəzifələrindən biri hesab etmişdir. Bu gün ümummilli lider Heydər Əliyevin siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyev məişət zorakılığı ilə üzləşən qadınların problemlərinə xüsusi diqqət yetirir. Hüquq-mühafizə orqanlarının məişət zorakılığı problemləri ilə məşğul olan dövlət və ictimai təşkilatlarla əlaqəli şəkildə fəaliyyət göstərməsi böyük əhəmiyyət kəsb edir. Onların nəzdində fəaliyyət göstərən yardım mərkəzləri və sığınacaq yerləri fiziki, cinsi, psixo-emosional və iqtisadi şiddət formaları da daxil olmaqla uşaqlara və qadınlara qarşı məişət zorakılığı problemlərinin həllində fəal iştirak edir.

***Açar sözlər:*** *məişət zorakılığı, ailə münasibətləri, ailə üzvləri, yardım mərkəzləri, sığınacaq evləri*

**Farida Movsumova**
*The Academy of Public Administration*
*under the President of the Azerbaijan Republic, Lecturer,*
*Doctoral student in the specialty «Criminal Procedure, Forensic Science and*
*Forensic Science, Operational Investigative Activity»*
*at the Forensic Center Under the Ministry of Justice of the Republic of Azerbaijan*

## THE PROBLEM OF DOMESTIC VIOLENCE IN MODERN AZERBAIJAN

### ABSTRACT

Domestic violence is a pressing challenge for a number of countries around the world, including Azerbaijan Violence has a significant impact on the smallest unit of society - the family. The family is the fundamental and natural unit of society; it must be protected in every possible way. Women's rights issues had always been in the focus of the great leader Heydar Aliyev, who considered strengthening the policy towards women as one of the main tasks of the state. Today, President Ilham Aliyev, proudly continuing the policy of national leader Heydar Aliyev, pays great attention to the problems of victims of domestic violence. Communication of law enforcement agencies with state and public organizations that deal with problems of domestic violence is of great importance. Help centers and shelters are of great value in helping children and women facing all forms of violence, like physical, sexual, psycho-emotional, and economic.

***Keywords:*** *domestic violence, family relations, family members, help centers, shelters*

G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G  R E S E A R C H E R S

B E Y N Ə L X A L Q  M Ü N A S İ B Ə T L Ə R
I N T E R N A T I O N A L  R E L A T I O N S

UOT 327; 339.9; UOT 327-027.21

**ŞƏBNƏM ZEYNALOVA**
**«Xəzər» Universitetinin doktorantı**
*email: shabnamzeynalova@yahoo.com*

# AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA İTTİFAQI İLƏ MÜNASİBƏTLƏRİN İNKİŞAFI PERSPEKTİVLƏRİ (NƏZƏRİ ASPEKTLƏR)

Müasir dünyada qloballaşma tendensiyaları və müxtəlif ölkələrin milli təsərrüfat komplekslərinin obyektiv surətdə artan qarşılıqlı əlaqəsi və asılılığının konkret ifadəsi olaraq inteqrasiya prosesləri praktiki olaraq bütün qitələri əhatə edir. Dünyada ümumi sülhün və təhlükəsizliyin qorunması, dövlətlər arasında iqtisadi və siyasi əməkdaşlığın inkişafı və həmçinin terrorizm, ekstremizm, separatçılıq kimi çağırışlarla mübarizə, ekoloji, sosial, iqtisadi məsələlərin tənzimlənməsi və s. problemlərin həll olunması zərurəti ölkələr arasında əməkdaşlığın ən yüksək pilləsi hesab edilən müxtəlif inteqrasiya modellərinin yaranmasına səbəb olur. İnteqrasiya prosesləri bütövlükdə dünya inkişafının və xüsusən də dünya siyasətinin əhəmiyyətli amillərinə çevrilir. Dünyada müasir durum beynəlxalq və regional inteqrasiyasının inkişafı və dərinləşməsi ilə xarakterizə edilir. İnteqrasiya xarakterli dövlət birliklərinin yaranmasına səbəb olan proseslərinin inkişaf səviyyəsi həm də vahid siyasi, iqtisadi və hüquqi məkanın formalaşmasına gətirib çıxarır. Bu prosesin ən yüksək səviyyəsi Avropada əldə edilmişdir. Öz mövcudluğu illərində Avropa İttifaqı (Aİ) bütün Avropa məkanında ən güclü iqtisadi ittifaqa çevrilmişdir və hal-hazırda 27 Avropa ölkəsinin (Böyük Britaniya bu qurumdan 31 yanvar 2020-ci ildə çıxdıqdan sonra) siyasi və iqtisadi birliyini təşkil edir. Beynəlxalq Valyuta Fondunun məlumatına görə 2012-ci il üzrə (dünyada sonuncu iqtisadi böhrandan əvvəlki ildə) dünya ümumi daxili məhsulunda (ÜDM), bir vahid qurum kimi Aİ-nin payı nominal əhəmiyyətinə görə 23 % (16,6 trln. $) təşkil etmişdir [7] və bu göstəriciyə görə o dünyada 1-ci yer tutmuş, alıcılıq qabiliyyəti pariteti (AQP) isə təqribən 19 % (16,1 trln. $) təşkil etmişdir [7] və bu göstəriciyə görə o dünyada 2-ci yer tutur. Böyük Britaniya bu qurumdan çıxdıqdan sonra bu rəqəmlər təbii ki, bir qədər azalmışdır. Bununla belə, Beynəlxalq Valyuta Fondunun məlumatına görə, 2019-cu il üzrə dünya ümumi daxili məhsulunda, bir vahid qurum kimi Aİ-nin payı nominal əhəmiyyətinə görə təxminən 18% (15,5 trln. $) təşkil etmişdir [8] və bu göstəriciyə görə o dünyada aparıcı yerlərdən birini tutmuşdur. Bundan əlavə, bütün Aİ ölkələrində BMT-nin İnkişaf Proqramına görə çox yüksək İnsan İnkişafı İndeksi mövcuddur.

Azərbaycan Respublikasının Aİ ilə əməkdaşlığının optimal modelinin hazırlanması nəzəri cəhətdən böyük maraq kəsb edir. Belə ki, öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının inkişafının strateji istiqamətlərindən biri Aİ məkanına inteqra-

siya olunmasına yönəlib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, Aİ öz üzvlərini dəstəkləyən ən yaxşı dünya təşkil olunması praktikasını özündə əks etdirir. Hər bir ölkə, o cümlədən Azərbaycan Aİ standartlarına uyğun olaraq, həmrəyliyin yüksək səviyyəsinə çatmağa çalışmalıdır [11]. Özünün digər bir çıxışında ölkə prezidenti cənab İlham Əliyevin həmçinin Brüsseldə keçmiş Şərq Tərəfdaşlığı sammitində vurğulamışdır: «İlk növbədə demək istəyirəm ki, Avropa İttifaqı ilə tərəfdaşlıq Azərbaycanın əsas xarici siyasət prioritetlərdən birini təşkil edir». Bununla yanaşı, cənab İlham Əliyevin qeyd etmişdir ki, Azərbaycan Aİ-yə üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında bəyannamə və sazişlər qəbul etmiş və imzalamışlar. Bu isə deməkdir ki, Aİ-yə üzv olan ölkələrin 1/3 Azərbaycanı özünə strateji tərəfdaş hesab edir [14]. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Rumıniyanın xarici işlər naziri Boqdan Aureskunu, Avstriyanın xarici işlər naziri Alexander Şellenberqisi, Litvanın xarici işlər naziri Gabriyelus Landsbergisi və Azərbaycana səfərə gələn Aİ-nin nümayəndə heyətini qəbul edərkən bir daha qeyd etmişdir ki, Aİ ilə əməkdaşlığımız çox uğurludur. Azərbaycan bu quruma üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər və sazişlər imzalayıb. Bunu isə, əməkdaşlıq çərçivəsinin həqiqətən çox geniş olduğundan, qarşılıqlı maraq və qarşılıqlı əhəmiyyət kəsb edən bir çox sahələri əhatə etdiyindən, ölkəmiz üçün çox böyük uğur hesab etmək olar [24].

Onu da qeyd etmək lazımdır ki, Aİ Azərbaycanın ticarət-iqtisadi əlaqələri sistemində aparıcı yer tutur. Demək olar ki Azərbaycanın ticarət dövriyyəsinin təxminən 50% bu quruma daxil olan ölkələrin üzərinə düşür. Azərbaycandan Aİ-yə ixracat 6,8 mlrd. dollar, idxalat isə 2,5 mlrd. dollar təşkil edir. Bu səbəbdən müasir dövrdə Azərbaycan və Aİ öz qarşılıqlı münasibətlərinin dərinləşdirilməsi və sonrakı inkişafı məqsədilə öz aralarında olan əməkdaşlıq və inteqrasiya prosesləri mexanizminin yeniləşdirilməsində maraqlıdırlar. Bu sahədə problemlərin tədqiqi və həmçinin Azərbaycan Respublikası və Aİ arasında münasibətlərin daha da dərinləşdirilməsi və təkmilləşdirilməsinin araşdırılması hazırki məqalənin aktuallığını müəyyənləşdirir. Bununla yanaşı, həmçinin qeyd etmək lazımdır ki, bizim ölkənin siyasi elmində Azərbaycan Respublikası və Aİ arasında əməkdaşlığın inkişafı və daha da dərinləşdirilməsi perspektivləri ilə bağlı probleminin tədqiq edilməsinə həsr edilmiş tədqiqat işləri demək olar ki, mövcud deyil. Hazırki araşdırma müəyyən dərəcədə bu boşluğun aradan qaldırılmasına yönəlib.

Azərbaycan Respublikası və Aİ arasında əməkdaşlığın, nəzəri cəhətdən, inkişafı və dərinləşdirilməsi müxtəlif yollarla və üsullarla mümkündür.

Birinci istiqamət Azərbaycan Respublikası və Aİ arasında assosiativ müqaviləsinin imzalanması və gələcəkdə tərəflər arasında azad və hərtərəfli ticarət zonasının yaradılması ilə bağlıdır.

İkinci istiqamət Azərbaycan Respublikası və Aİ arasında qarşılıqlı münasibətlərin əsasını təzələməkdən ibarətdir. Buna mahiyyəti müxtəlif olan yeni tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin bağlanması və ya tərəflər arasında mövcud olan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə (TƏS) əlavə protokolun imzalanması ilə bu sənədin müddətinin artırılması və qüvvədə saxlanılması və ya modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında yeni sazişin imzalanması vasitəsilə nail olmaq olar. Bu halda bu sənədin əsas məqsədi müasir tələblər və baş vermiş dəyişikliklər nəzərə alınmaqla Azərbaycan Respublikası və Aİ arasında mövcud olan TƏS müddəalarının təzələnməsidir. Bununla yanaşı, Azərbaycan Respublikası və Aİ arasında qarşılıqlı fəaliyyətin məqsədləri və vəzifələri, onun əsas parametrləri əhəmiyyətli, köklü şəkildə dəyişmir. Elmi ədəbiyyatda qeyd edilir ki, Aİ-nin üçüncü dövlətlərlə belə növ sazişləri, «assosiasiya», «əməkdaşlıq», «sabit-

ləşdirmə» və «inkişaf» sazişləri ilə yanaşı ayrıca olan sazişlər qrupunu təşkil edir və bütövlükdə «başlanğıc səviyyəsi» sazişləri kimi tövsif edilə bilər. Onlar bu və ya digər ölkənin Aİ-yə gələcək üzvlüyünü birbaşa nəzərdə tutmur, bununla belə tərəflər arasında yanlız qarşılıqlı əməkdaşlığın sonrakı inkişafını nəzərdə tutur. [6, s. 177]

Qeyd etmək lazımdır ki, Avropa İttifaqı Məhkəməsi 12 aprel 2005-ci il tarixli «Simutenkov» işində assosiasiya sazişlərinin digər beynəlxalq müqavilələrdən və ilk növbədə tərəfdaşlıq və əməkdaşlıq sazişlərindən fərqləndirməyin nisbi olmasını vurğulamışdır. [20, s. 46] Bu işdə Məhkəmə Aİ və Rusiya Federasiyası arasında TƏS və Aİ və Slovakiya arasında assosiasiya sazişinin məzmununu müqayisə etmişdir. Özünün qərarında (b. 35) Aİ və Rusiya Federasiyası arasında TƏS-in Aİ və Slovakiya arasında assosiasiya sazişindən fərqli olaraq Avropa Birliklərinə tədricən inteqrasiya olunması üçün assosiasiyanın yaradılması məqsədini qarşısına qoymadığını və Aİ və Rusiya arasında tədricən inteqrasiya olunmasına və Avropada daha geniş əməkdaşlıq zonasının əldə edilməsinə yönəlməsini qeyd edərək, Məhkəmə belə bir nəticəyə gəldi ki, tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişlər həmçinin assosiasiya haqqında sazişlərlə müəyyən edimiş məqsədlərin nail olunmasına yönələ bilər və həm də birbaşa təsir gücünə malikdır, yəni fərdlər üçün hüquqlar yarada bilər [4; 15, s. 62-69]. Lakin bununla belə, bir çox oxşar əlamətlərə malik olmalarına baxmayaraq, tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişlər və Aİ-nin üçüncü ölkələrlə assosiasiya haqqında sazişləri müxtəlif tipli beynəlxalq sazişlərə aiddirlər və bir-birindən fərqli olan məqsədlərin və vəzifələrin əldə edilməsinə yönəliblər.

Aİ və Azərbaycan Respublikası arasında müxtəlif gələcək qarşılıqlı fəaliyyət modellərin perspektivləri üzərində daha ətraflı dayanmaq zəruridir.

Birinci model Avropa İttifaqı və Azərbaycan Respublikası arasında münasibətləri assosiasiya haqqında müqavilə əsasında nizamlayan yeni baza sazişinin bağlanması perspektivindən ibarətdir.

Artıq yuxarıda qeyd edildiyi kimi, Aİ-nin qonşu postsovet ölkələrlə münasibətlərində inteqrasiya proseslərinin strateji inkişafı yollarının biri bu ölkələrlə «Şərq Tərəfdaşlığı» proqramı çərçivəsində əməkdaşlığın həyata keçirilməsindən ibarətdir. Bu proqramın əsas məqsədini Aİ-nin 6 postsovet ölkələri ilə yaxınlaşması təşkil edir. «Şərq Tərəfdaşlığı» proqramı Aİ-nin bu ölkələrlə ikitərəfli əsasda əməkdaşlığının genişləndirilməsini nəzərdə tutur. Bu layihə çərçivəsində əməkdaşlığın əsas istiqamətləri azad ticarət zonasının yaradılması və bu ölkələrin vətəndaşlarına aid viza rejiminin tədricən liberallaşdırılması və həmçinin energetika sahəsində qarşılıqlı fəaliyyət göstərilməsindən ibarətdir. Onu da nəzərə almaq lazımdır ki, Aİ bir sıra postsovet ölkələri, məsələn Gürcüstan, Ukrayna və Moldova ilə tərəfdaşlıq və əməkdaşlıq sazişlərini əvəzləyən assosiasiya haqqında sazişlər imzalamışdır. Əgər tərəfdaş dövlət həmçinin ÜTT üzvüdürsə, Aİ onunla azad ticarət zonasını yaradır. Nəzərə alsaq ki, Gürcüstan, Ukrayna və Moldova ÜTT üzvüdürlər, Aİ ilə hərtərəfli və dərin azad ticarət zonasının yaradılması həm bu dövlətlərin özləri, həm də Aİ üçün əsas məqsədlərdən biridir. Aİ tərəfindən tərtib və qəbul edilən «Şərq Tərəfdaşlığı» proqramı ilk olaraq assosiativ münasibətlərin qurulması və assosiasiya haqqında müvafiq sazişin bağlanması əsasında Aİ və Azərbaycan arasında tədricən inteqrasiyanı son məqsəd kimi nəzərdə tuturdu. Aİ Azərbaycanla assosiasiya haqqında sazişin bağlanmasına dair rəsmi danışıqları 16 iyul 2010-cu ildə başladı. Qeyd etmək lazımdır ki, Azərbaycan öz iqtisadiyyatının əsas inkişaf istiqamətlərinin birini öz təsərrüfat bazasının diversifikasiya edilməsi zərurətində görür və bu səbəbdən bu istiqamətdə müəyyən addımların atılmasına can atır. Digər tərəfdən Aİ Azərbaycana tərəflər arasında azad ticarət zonasının yaradılmasını təklif edirdi. Bu halda

Azərbaycanda Aİ-nin standartlarına uyğun olan və ya onlara yaxın olan standartların qəbulu ticarət sahəsində mövcud olan maneələrin aradan qaldırılmasına imkan yarada bilər. Bu isə öz növbəsində Azərbaycan iqtisadiyyatının Aİ-nin nəhəng, praktiki olaraq qeyri-məhdud daxili bazarı ilə əlaqələrinin genişlənməsinə aparacaq. Lakin Aİ ilə belə azad zonanın yaradılması üçün ölkənin mütləq ÜTT üzv olunması tələb olunur. Qeyd etmək zəruridir ki, Aİ ilə assosiasiya münasibətləri öz xüsusiyyətlərinə malikdir. Öz məzmununa görə belə assosiasiya münasibətləri 4 hissədən ibarətdir. Bunlar: 1) siyasi dialoq və xarici siyasət və həmçinin təhlükəsizlik siyasəti; 2) ədalət mühakiməsi, azadlıq və təhlükəsizlik; 3) iqtisadi və sahələr üzrə əməkdaşlıq; 4) hərtərəfli və dərin azad ticarət zonasının yaradılmasıdır.

Onu da nəzərə almaq lazımdır ki, hərtərəfli və dərin azad ticarət zonası (ingiliscə DCFTA) sadə azad ticarət zonasından fərqlənir. DCFTA təkcə gömrük maneələrin və ticarət kvotaların aradan qaldırılması vasitəsilə ticarətin liberallaşdırılması demək deyil. DCFTA həmçinin tərəfdaş ölkələrin qanunvericiliyinin Aİ standartları və normaları ilə uyğunlaşdırılmasını da nəzərdə tutur. Aİ ilə assosiasiya haqqında saziş tərəflər arasında kooperasiya üçün çərçivələr yaradan Aİ-nin üzvü olmayan dövlətin Aİ və ona üzv ölkələrlə imzaladığı sazişdir. Əməkdaşlıq və qarşılıqlı fəaliyyət sahələri həm də tərəflər arasında ticari və iqtisadi əlaqələrin inkişafını da əhatə edir [27, s. 187]. Aİ ÜTT üzv dövlətlərlə assosiasiya haqqında saziş çərçivəsində azad ticarət zonalar yarada bilər. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın daxili bazarı nisbətən böyük deyil. Bu səbəbdən bizim ölkə dünya bazarına özünün çıxışının genişləndirilməsi və dünya ticarət sisteminə inteqrasiya olunması üçün yeni imkanlar axtarır. Bu isə o cümlədən Azərbaycanın ÜTT qoşulması yolu ilə də mümkündür. Azərbaycan alimi A.İ. Sadıqov vurğulayır ki, ÜTT qlobal iqtisadiyyatın hüquq sisteminin institusional əsasına çevrilir. [2, s. 181] O.F. Əfəndiyev də belə bir fikirdədir ki, ÜTT kimi beynəlxalq təşkilatlarla əlaqələrin yaradılması, genişləndirilməsi və möhkəmləndirilməsi postsovet məkanında digər müstəqil dövlətlər kimi Azərbaycanın milli maraqları üçün də vacib və zəruridir və bu əsas məsələnin həlli edilməsinə – ÜTT daxil olmasına kömək edəcəkdir [31, s. 48]. Öz növbəsində E. Əmir-İlyasova qeyd edir ki, Azərbaycanın ÜTT və Xidmətlərlə Ticarət üzrə Baş Sazişə (XTBS, ingiliscə, General Agreement on Trade in Services, GATS) qoşulması onun beynəlxalq iqtisadiyyata inteqrasiya proseslərini sürətləndirəcək və onun xarici ticarət dövriyyəsi strukturunun genişləndirilməsi və yaxşılaşdırılması üçün bir sıra həvəsləndirici tədbirləri təmin edəcək. Bu prosesdə aparıcı rolu qeyd-şərtsiz məhsulları dünya bazarlarına ixrac edən milli istehsalçıların səmərəli inteqrasiyasına kömək etməli olan dövlət oynayacaq [28, s. 262]. Təbii ki, ÜTT-də üzvolma bizim ölkəyə, müəyyən mənada bu məqsədə nail olmaqda kömək edə bilər. A.İ.Sadıqov üzvlük ilə bağlı olan mürəkkəb siyasi-hüquqi amillər arasında Azərbaycan Respublikasının ÜTT iştirakının heç bir şübhə yaratmayan və mübahisəsiz üstünlüklərini də qeyd edir [1, s. 177]. D. Karro və P. Jüyar ÜTT-nın təsis edilməsi haqqında müqavilənin III maddəsinin 1-ci bəndinə istinad edərək qeyd edirlər ki, ÜTT qarşısında əsas məsələ kimi sazişlərlə müəyyən edilmiş yeni çoxtərəfli ticarət sisteminin yerinə yetirilməsinə, tətbiq edilməsinə və fəaliyyət göstərməsinə kömək etmək məsələsi qoyulub. [17, s. 53] V.M. Şumilov qeyd edir ki, çoxtərəfli ticarət danışıqları üçün forum kimi ÜTT belə danışıqların aparılmasına dair müəyyən bir inhisarlıq verilib. Bu ilk növbədə əmtəə, xidmətlər ilə ticarətə və ya əqli mülkiyyətə olan hüquqların ticarət aspektlərinə və həmçinin bu təşkilata üzv dövlətlərin nazirlər konfransı tərəfindən müəyyn edilə bilən digər məsələlərə aiddir [26, s. 115]. Azərbaycan 16 iyul 1997-ci ildə ÜTT üzv olmasına dair rəsmi müraciət etdikdən sonra (belə müraciət 23 iyun 1997-ci ildə

edilmişdir) ÜTT katibliyi yanında Azərbaycan üzrə işçi qrupu yaradılmışdır və həmçinin bizim ölkə ÜTT-nın müşahidəçi statusunu əldə etmişdir. Qeyd etmək lazımdır ki, işçi qrupun işində Aİ ilə yanaşı ABŞ, Yaponiya, Avstraliya və Braziliya da ən fəal iştirak edir. İşçi qrupun iclaslarında Azərbaycanın ticarət rejiminə aid olan müxtəlif problemlər müzakirə edilir. Məsələn, belə müzakirə predmetlərini idxalat gömrük rüsumları, dövlət tərəfindən verilən kənd təsərrüfat subsidiyaların ən minimal səviyyəsinin müəyyən edilməsi və s. məsələlər təşkil edirdi. Belə müzakirələnin nəticələri kimi ÜTT üzvləri bir sıra əlavə məsələlər qaldırmışlar. Bunların içində vətəndaşların və yüklərin Azərbaycan xarici sərhədlərini keçdiyində qüvvədə olan və yeni tərtib edilən gömrük qaydalarına və ticarət-iqtisadi normalara aid işlərin vəziyyəti haqqında məsələlərdir [28, s. 265]. Həmçinin belə görüşlərin nəticəsi kimi, ÜTT nöqteyi-nəzərindən Azərbaycanda ölkənin milli qanunvericiliyinə zəruri dəyişikliklərin edilməsini nəzərdə tutan qanunvericilik iş planı tərtib edilmişdir.

Digər səbəb kənd təsərrüfat subsidiyaların verilməsi üçün ölkənin büdcə imkanlarının aşağı səviyyədə olmasından ibarətdir. Məsələn, Aİ ölkələri özlərinin kənd təsərrüfatı istehsalçılarına hər il çoxmilyardlı subsidiyalar ayırır. Lakin Azərbaycanda kənd təsərrüfatı subsidiyaların nisbətən aşağı səviyyədə olmasını nəzərə alaraq bizim ölkəyə öz aqrar bazarını qorumaq çox çətin olacaq. Həqiqətən, hər bir ölkə ÜTT-dan kənd təsərrüfatı subsidiyalarına aid aşağı dərəcənin tətbiq edilməsinə müvafiq icazə almaq hüququna malikdir. Bununla yanaşı onun yuxarı sərhəddi kənd təsərrüfatı sahəsində bütün istehsal həcminin 10% təşkil edə bilər. Onu da qeyd etmək lazımdır ki, hal-hazırda belə növ subsidiyaların yuxarı dərəcəsi inkişafda olan dövlətlərə dair 10%, inkişaf etmiş ölkələr üçün isə 5% təşkil edir. Bu səbəbdən Azərbaycan, ÜTT üzvləri təqid etdikləri kimi, ÜTT-yə inkişaf etmiş kənd təsərrüfatı ölkəsi qismində yox, inkişafda olan dövlət qismində daxil olmağa çalışır. Buna görə Azərbaycan ÜTT-yə daxil olduqdan sonra aqrar-sənaye kompleksinə hər il 2 mlrd.$ səviyyəsində birdəfəlik yardım almağa ümid edir [22].

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan bu təşkilata üzvolma haqqında danışıqlar aparsa da çətin ki yaxın bir vaxtda bu təşkilata üzv olmaq haqqında düşünür. Fransa iş adamları təşkilatının üzvləri ilə görüş zamanı Azərbaycan Respublikası Prezidenti İ.Əliyev birbaşa bəyan etdi ki, bizim ölkə yaxın vaxtlarda ÜTT-ya üzv olmayacaq. Prezident İlham Əliyev qeyd etdi ki ölkəmiz bu məsələyə dair məsləhətləşmələr aparır və bütövlükdə bu proses davam edir, lakin bununla bağlı hər-hansı bir vaxt çərçivəsi nəzərdə tutulmayıb. Bununla bağlı Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanın ÜTT üzv olması bazarın rəqabət qabiliyyətini artıracaq, bu isə, öz növbəsində qiymətlərin səviyyəsinə müsbət təsir edəcək. Azrəbaycan ÜTT daxil olmaqla beynəlxalq təşkilatlara inteqrasiya olunmasına çalışır. Lakin ÜTT üzrə araşdırılmasını tələb edən bir sıra fikirlər mövcuddur. Bunların birinə görə bu təşkilata üzvlük müəyyən dərəcədə bizim ölkənin qeyri-neft sektorunun inkişafını ləngidə bilər. Bu kənd təsərrüfatına, kiçik və orta biznesə aiddir. Bununla bağlı bizim ölkədə iqtisadiyyatın diversifikasiyası üzrə iş aparılır. Bununla yanaşı ölkənin yerli kənd təsərrüfatını və sənayesini əsasən ixracat yönümlü məhsulun buraxılmasına istiqamətləndirmək lazımdır və yanlız bundan sonra ÜTT-na üzv olmaq məqsədəmüvafiqdir [23]. O.F. Əfəndiyev və E.A. Əliyev bizim ölkənin ÜTT qoşulması prosesində öz həllini tələb edən digər bir problemi də göstərirlər. Bu Azərbaycan qanunvericiliyinin QATT/ÜTT sazişləri və razılaşdırılmalarında öz əksini tapmış müddəalarla uyğunlaşdırılmasın təmin edilməsi problemidir. Çünki ticarət-iqtisadi münasibətlərin çoxtərəfli tənzimlənməsi sistemində tamhüquqlu iştiraketmə dövlətlərin üzərinə bir sıra öhdəliklər qoyur. Belə öhdəliklər isə müəyyən dərəcədə xarici iqtisadiyyat əlaqələrin tənzimlənməsində vasitələrin və

tədbirlərin azadlığını məhdudlaşdırır, yəni Azərbaycanın xarici iqtisadi əlaqələrinin idarəolunması yanlız ÜTT tələblərinə zidd olmayan üsullarla həyata keçirilə bilər. Bununla əlaqədar artıq Azərbaycanın ÜTT üzvolma prosesinin başlanğıc mərhələsində ölkə qanunvericiliyinin QATT/ÜTT tələblərinə uyğunlaşdırılması zərurəti yaranır [30, s. 158]. Qeyd etmək lazımdır ki, Azərbaycan ÜTT üzvolma planları çərçivəsində öz milli qanunvericiliyini təkmilləşdirir. Belə ki, 2 avqust 2006-cı il tarixli 1583 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Tədbirlər Planı"nda 39 normativ-hüquqi sənəd nəzərdə tutulub. Azərbaycanın ÜTT üzvolma üzrə danışıq qrupunun başçısı, Azərbaycan Respublikası xarici işlər nazirinin müavini M. Məmmədquliyev vurğulamışdır ki, bu istiqamətdə son dövrdə ölkəmizdə 20-ə yaxın qanun və digər normativ aktlar qəbul olunmuşdur [13]. Öz tərəfindən Aİ Azərbaycanın ÜTT qoşulmasını fəal dəstəkləyir. O dövrdə Avropa Komissiyasının sədri J.M.Barrozu qeyd etmişdir ki, ÜTT-na üzvolma Azərbaycan iqtisadiyyatının inkişafında kömək edə bilər. O həmçinin xüsusi vurğulamışdır ki, Azərbaycan ÜTT qoşulma yolunda tərəqqiyə nail olmuşdur. Tariflərin aşağı salınması və ticarətin liberallaşdırılması tərəflər arasında danışıqların ikinci mərhələsinin başlanması üçün yaxşı əsas kimi çıxış edir [12]. Ölkə elmi ədəbiyyatda qeyd edilir ki, Azərbaycanın ÜTT üzvolma üzrə Aİ-nin ilkin təhlili göstərir ki, Aİ bizim ölkənin ticarət-iqtisadi münasibətlərin çoxtərəfli tənzimlənməsi sisteminin tamhüquqlu iştirakçısı olma niyyətini dəstəkləyir. Həmçinin Aİ: Azərbaycan iqtisadiyyatında sistemli dəyişikliklərin surətləndirilməsi; Azərbaycanın xarici iqtisadi əlaqələr rejiminin əhəmiyyətli dərəcədə liberallaşdırılması; Azərbaycan ticarət münasibətləri mexanizminin fəaliyyətini QATT/ ÜTT standartları və normaları ilə uyğunlaşdırılması; Aİ-nin ən "həssas" bazarlarında Azərbaycan ixracatçıları tərəfindən rəqabət mübarizə riskinin azaldılması; Aİ nöqteyi-nəzərindən Azərbaycan əmtəə və xidmətlər bazarına əlverişli çıxış şərtlərin təmin edilməsi kimi məsələlərin həllinə çan atır [30, s. 170].

Azərbaycan uzun müddət ərzində Aİ ilə assosiasiya haqqında müqavilənin bağlanmasına dair danışıqlar aparırdı. Cəmi bir neçə belə danışırlar raundu keçirilmişdir. Lakin çox güman ki, Rusiya və Qərb arasında münasibətlərin gərginləşməsi və bunun nəticəsi kimi Ukraynanın Aİ ilə assosiasiya haqqında sazişin imzalanmasından imtina etməsi, bunun ardınca isə Ukraynada baş verən hadisələr digər regionlara da öz təsirini göstərməyə bilməzdi. Məsələn, Aİ ilə assosiasiya haqqında sazişin imzalanmasına hazırlaşan Ermənistan son məqamda Rusiyanın güclü siyasi təsiri nəticəsində öz gələcək inkişaf vektorunu dəyişərək Aİ ilə assosiasiya haqqında sazişin imzalanmasından imtina etmiş və Rusiyanın başçılıq etdiyi Avrasiya İqtisadi İttifaqına üzv olmuşdur.

Təbii ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə və Azərbaycan torpaqlarının azad olunmasına çalışan bizim ölkə bu siyasi amilləri nəzərə almaya bilməzdi. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2014-ci ilin yanvarında Davosda çıxış edərək qeyd etmişdir ki, Azərbaycan Aİ ilə assosiasiya haqqında sazişin bağlanması imkanını nəzərdən keçirmir. O həmçinin vurğulamışdır ki, Azərbaycan və Aİ arasında qarşılılı əlaqələrin səviyyəsi çox güman ki, assosiasiyadan daha yüksək əməkdaşlıq formasını tələb edir. Azərbaycan bütün mənalarda, həm siyasi, həmçinin iqtisadi mənada özünəkifayət edən ölkədir. Hər bir ölkə inteqrasiya prosesinə əlavə preferensiyalar (üstünlüklər) əldə etmək üçün gedir. Özünün çıxışında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev həmçinin qeyd etmişdir ki, əgər digər əməkdaşlıq formaları təklif olunsa, məsələn strateji əməkdaşlıq, onda təbii ki, biz buna baxa bilərik [9].

İkinci model modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında müqavilə əsasında Azərbaycan

Respublikası və Avropa İttifaqı arasında münasibətləri tənzimləyən yeni baza sazişinin bağlanması perspektivindən ibarətdir.

İlk növbədə qeyd etmək lazımdır ki, Aİ bir sıra postsovet ölkələri ilə (məsələn, Rusiya və Qazaxıstan) yeni TƏS bağlanması haqqında danışıqlar aparırdı. Rusiya elmi ədəbiyyatında Rusiya Federasiyası və Aİ arasında belə növ sazişin bağlanması lehinə müxtəlif arqumentlər göstərlimişdir. Belə ki qeyd edilirdi ki, birincisi, hazırki zamanda qarşılıqlı fəaliyyət iştirakçılarının özləri əhəmiyyətli dərəcədə dəyişmişdir, xüsusən də Aİ-nin coğrafiyası dəyişmişdir. İkincisi, bu gün onlar arasında əməkdaşlıq 1994-ci ildə bağlanmış TƏS-la nəzərdə tutulmayan yeni sahələri əhatə edir. [21] Üçüncüsü, Rusiya və Aİ arasında münasibətləri nizamlayan müddəaların müəyyən, bəlkə də əhəmiyyətli dərəcədə bir hissəsi, xüsusən də Rusiyanın ÜTT üzv olmasından sonra köhnəlmişdir. Belə ki, S.Y. Kaşkin qeyd edir di ki, Rusiyanın ÜTT üzv olduqdan sonra Aİ və Rusiya arasında TƏS-in 112 maddəsindən praktiki cəhətdən qüvvədə qalacaq və tətbiq edilə bilən yanlız 38 maddə olacaqdır [18, s. 30].

Rusiya alimləri və ekspertlərin əksəriyyəti yeni TƏS bağlanması ideyası tərəfdarıdır. P.A.Kaliniçenko qeyd edir ki, belə bir ümumi anlam formalaşmışdır ki, yeni saziş öz təbiətinə görə beynəlxalq hüquqi xarakter daşımalıdır və sadəcə siyasi bəyannamə olmamalıdır, bununla yanaşı tərəflər onun imzalanmasına tələsməməlidirlər [16, s. 97-100]. S.Y. Kaşkin vurğulayır ki, praktikada dəyişikliklərə daha çevik olması üçün çərçivə xarakterli TƏS nisbətdə yeni saziş mahiyyətcə daha sadə xarakter daşıya bilər. Onun müddəalarını konkterləşdirən belə bir sazişə bir sıra sahəvi müqavilələr əlavə etmək olar. Bununla belə yeni saziş tərəflərin niyyətləri haqqında ifadələrə yox, dəqiq müddəalara malik olmalıdır [18, s. 30, 32]. M.L. Entin onu şərti TƏS-2 adlandıraraq yeni müqavilənin bağlanması və ya TƏS-in modernləşdirilməsi arasında fərq aparmır. Onun fikrincə TƏS-dən və həmçinin tərəflərin qarşılıqlı fəaliyyəti nəticəsində toplanmış müsbət təcrübədən bütün optimal və perspektiv olanları götürmək vacibdir, bununla belə köhnəlmişləri aradan qaldırmaq lazımdır. Həmçinin tərəflərin qarşılıqlı fəaliyyətinə gələcəyə yönəlmiş səmərəli mexanizmlər və prosedurlar əlavə etmək lazımdır [29, s. 115-116]. Rusiya alimləri və ekspertləri Rusiyanı və bütövlükdə Aİ-ni iqtisadi nöqteyi-nəzərindən bərabərhüquqlu tərəfdaşlar kimi hesab edirlər. Onlar nəzərə almaq istəmirlər ki, təkcə iqtisadi nöqteyi-nəzərindən bir inteqrasiya qurumu kimi Aİ dəfələrlə Rusiyadan qüdrətli və güclüdür, demək olar ki, tərəfləri iqtisadi cəhətdən bir-biri ilə müqayisə etmək olmaz. Bu səbəbdən Rusiyanın Aİ ilə iqtisadi məkanların birgə idarəolunmasına dair təklifi Aİ üçün qəbulolunmazdır. Rusiya və Aİ arasında yeni sazişin imzalanması yolunda iqtisadi amillərlə yanaşı siyasi xarakterli amillər də mövcüddur. Belə ki, Krımın və Sevastopolun Rusiya tərəfindən işğal edilməsindən sonra Aİ bu ölkəyə qarşı bir sıra sanksiyalar tətbiq etdi. Rusiyaya qarşı sanksiyalar indiyə kimi qüvvədədir. Bu səbəbdən hazırki dövrdə əməkdaşlığın inkişafından və həm də tərəflər arasında müxtəlif sahələrdə inteqrasiyadan danışmaq belə yersizdir.

Aİ-nin üçüncü dövlətlərlə qarşılıqlı fəaliyyət səviyyəsi yüksək olan hallarda tərəflər arasında sazişlərinin fərqləndirici əlaməti təkamüllük və kondisionallığa dair müddəaların mövcudluğudur. Təkamüllük tərəflər arasında qarşılıqlı fəaliyyət dərəcəsinin tədricən dərinləşməsini nəzərdə tutur. Kondisionallıq prinsipinə dair, məsələn X. Qrabbe qeyd edir ki, kondisionallıq prinsipi əsasında ölkələrin avropalaşdırma prosesi güclü effektə malikdir və onun təsiri altında namizəd dövlətlərin idarəedən strukturlarının, iqtisadiyyatının və vətəndaş çəmiyyətinin Aİ standartlarına transformasiyası baş verir, çünki bu Aİ-yə üzvolma ilə əsaslandırılır [3, s. 309-310]. Çox güman ki, Rusiya öz qarşısına Aİ-yə üzvolma və buna müvafiq olaraq öz idarəedici strukturlarının və

iqtisadiyyatının Aİ-nin mövcud standartlarına transformasiya olunması məqsədini qoymur. Buradan isə Rusiya Federasiyası və Aİ arasında münasibətlərin tənzimlənməsinə yönəlmiş yeni bazis sazişinin bağlanmasına dair müxtəlif konseptual yanaşmalar mövcuddur.

Rusiyadan başqa Aİ ilə Qazaxıstanla da üzun müddət ərzində yeni hərtərəfli müqavilənin bağlanması üzrə danışıqlar aparırdı. Tərəflər arasında gücləndirilmiş tərəfdaşlıq və əməkdaşlıq adlandırılan yeni sazişin bağlanması haqqında rəsmi danışıqlar 2011-ci ilin iyun ayında başlandı. Qeyd etmək lazımdır ki, 10 oktyabr 2014-cü ildə Aİ və Qazaxıstan yeni saziş layihəsi üzrə yekun danışıqları bitirmiş və Brüsseldə müvafiq sənədi imzalanmışlar. Qazaxıstanın 1-ci prezidenti N. Nazarbayev qeyd etdiyi kimi, Qazaxıstan Mərkəzi Asiyada Aİ ilə yeni saziş, ikinci nəsil sazişi bağlayan yeganə ölkədir. Bu isə öz-özlüyündə bu sazişin tərəfləri arasında münasibətlərin keyfiyyətcə yeni səviyyəyə çıxmasına dəlalət edir və tərəflər arasında tərəfdaşlığın yetkinliyini və strateji xarakterini vurğulayır [25]. Aİ və Qazaxıstan arasında Genişləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Saziş (GTƏS) 21 dekabr 2015-ci ildə Astanada imzalanmışdır. Bütövlükdə bu sənəd tərəflərin qarşılıqlı fəaliyyətinin 29 sahəsini əhatə edir. O cümlədən bu sənəd beynəlxalq münasibətlər, regional təhlükəsizlik, ticarət, investisiyalar, infrastrukturun inkişafı və həmçinin innovasiyalar, mədəniyyət, idman və turizm kimi sahələr üzrə qarşılıqlı fəaliyyəti də nəzərdə tuturdu. Qazaxıstan Senatı 2016-cı ilin mart ayında bu sənədə ratifikasiya etmişdir [5]. 1 may 2016-cı ildən bu sazişin Aİ-nin səlahiyyətinə aid olan ayrı-ayrı müddəaları müvəqqəti tətbiq edilməyə başlandı. Saziş çərçivə xarakterlidir. Ona əlavə kimi həm “yol xəritələri”, həmçinin müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsi haqqında sahəvi sazişlər tərtib edilərək qəbul oluna bilər. Bu yeni müqavilə Qazaxıstan üçün vacib əhəmiyyət kəsb edir. Belə ki, bu müqaviləyə əsasən Aİ öz üzərinə tərəflər arasında əməkdaşlığın yüngülləşdirilməsinə yönəlmiş bir sıra öhdəliklər götürmüşdür. Sənəddə həmçinin Aİ və Qazaxıstan arasında energetika sahəsində, o cümlədən enerji daşıyıcılarının nəql edilməsinin Transxəzər marşrutu üzrə həyata keçirilməsi məsələlərinə dair əməkdaşlığın vacibliyi qeyd olunur.

Aİ ilə assosiasiya haqqında sazişin əvəzinə Azərbaycan da tərəfdaşlıq və əməkdaşlıq haqqında yeni müqavilənin bağlanması ideyasının tərəfdarıdır və bu istiqamətdə müəyyən addımlar atır. Belə ki, Azərbaycan Aİ-yə “Modernləşdirilmiş strateji tərfdaşlıq haqqında Saziş” (Strategic Modernization Partnership) adlanan yeni müqavilə bağlamağı təklif etmişdir. Aİ-də qeyd etmişdilər ki, Azərbaycan və Aİ hal-hazırda belə bir sazişin bağlanmasına dair danışıqlar aparır. Avropa İttifaqı Şurası 14 noyabr 2016-cı ildə Aİ və ona üzv olan dövlətlərin adından Azərbaycan Respublikası ilə hərtərəfli sazişin imzalanmasına dair danışıqların aparılması üzrə Avropa Komissiyasının və Xarici İşlər və Təhlükəsizlik siyasəti üzrə Aİ Ali Nümayəndəsinin mandatını təsdiq etmişdir. Bu yeni saziş üzrə danışıqlar 7 fevral 2017-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Brüsselə səfərindən sonra başlanmışdır. Azərbaycanda Aİ nümayəndəliyinin başçısı Malena Mardın sözlərinə görə bu sənəd tərəflər arasında müxtəlif sahələrdə əməkdaşlığı əhatə edən bir sənəddir. Həmçinin o qeyd etmişdir ki, Aİ Azərbaycanla iqtisadiyyatın həm neft, həmçinin qeyri-neft sahələrində əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsinə hazırdır. Onun sözlərinə görə tərəflər arasında assosiasiya haqqında müqavilə və modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında saziş bir-birini tamamlayır [10].

Fikrimcə, həm siyasi, həm də hüquqi nöqteyi-nəzərdən bu mümkün deyil. Assosiasiya haqqında müqavilə və modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında saziş müxtəlif məqsədlərə və vəzifələrə malik olan tamamilə müxtəlif tipli sazişlərdir. Məsələn, Aİ ilə assosiasiya haqqında sazişləri imzalayaraq Moldova,

Gürcüstan və Ukrayna birbaşa bəyan edirdilər ki, onların son məqsədi Aİ-yə üzv olmaqdır. Düzdür, bu haqda sazişlərin mətnində qeyd edilmir. Bununla belə Aİ-yə üzv dövlətlərin bir çoxu ilk mərhələdə bu qurumla assosiasiya haqqında sazişlər imzalamış və tədricən bu inteqrasiya qurumuna üzv olma məqsədilə müvafiq addımlar atmışlar.

İlk növbədə qeyd etmək lazımdır ki, Aİ və Azərbaycan arasında münasibətlər köklü surətdə Aİ və Rusiya, Qazaxıstan, Belarusiya və Ermənistan ilə münasibətlərdən fərqlənir. Bu dövlətlər Avrasiya İqtisadi İttifaqın üzvləridir və bu dövlətlərin inteqrasiya prosesləri bu qurum çərçivəsində baş verir. Bununla yanaşı, bütün bu dövlətlər hərbi-siyasi blok olan Kollektiv Təhlüksizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvləridir. Məsələn, bundan fərqli olan Aİ-nin demək olar ki, bütün üzvləri NATO hərbi-siyasi blokun üzvləridir. Bu səbəbdən Aİ və Avrasiya İqtisadi İttifaqın ölkələri arasında qarşılıqlı fəaliyyət çox güman ki, əməkdaşlığın sadə formaları ilə məhdudlaşacaq və inteqrasiya xarakteri daşımayacaq. Bundan fərqli olaraq Azərbaycan və Aİ arasında qarşılıqlı münasibətlər xüsusən də iqtisadi sahədə çoxlu sayda inteqrasiya proseslərin ünsürlərinə malikdir. Bundan əlavə, Azərbaycan KTMT üzv deyil və onun AİI-na üzv dövlətlərlə qarşılıqlı iqtisadi fəaliyyət dərəcəsi, xüsusən də inteqrasiya prosesləri sahəsində, heç də yüksək deyil. Bununla belə, Azərbaycan və Aİ-yə 9 üzv dövlət arasında strateji tərəfdaşlıq haqqında sazişlər imzalanmışdır. Belə növ sazişlər AİI-na üzv olan heç bir dövlətlə imzalanmamışdır.

Fikrimcə, Azərbaycan və Aİ arasında yeni modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında saziş bir sıra əhəmiyyətli parametrlərə malik olmalıdır. İlk növbədə sənədin adı müasir dövrdə Azərbaycan və Aİ arasında münasibətlərin məzmununu və mahiyyətini əks etdirməlidir. Bu səbəbdən «modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında saziş» ifadəsini uğurlu hesab etmək olar. Heç də sirr deyil ki, Azərbaycan və Aİ arasında münasibətlər strateji tərəfdarlıq səviyyəsinə çatmışdır. Məsələn, enerji və Aİ-nin enerji təhlükəsizliyi sahələrində. Sazişin adında «modernləşdirilmiş» terminin əks etdirilməsi yeni sazişdə tərəflər arasında qarşılıqlı fəaliyyət səviyyəsində müasir reallıqları nəzərə alır və əks etdirir və heç də sadəcə köhnə sazişin yeniləşdirilmiş variantının olmasına dəlalət etmir. Bununla belə, fikrimcə, yeni Modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında sazişdə Azərbaycan Respublikası və Aİ arasında qüvvədə olan TƏS-in müddəalarının varisliyi prinsipinə əməl edilməlidir. Digər tərəfdən yeni sazişin müddəaları qüvvədə olan TƏS-in müddəalarının inkişafına yönəlməlidir. Belə yanaşma tərəflər arasında əldə edilmiş və vacib əhəmiyyət kəsb edən inteqrasiya ünsürlərini saxlamaq imkanı verir. Həmçinin, fikrimizcə yeni saziş də ümumi müddəaları əks etdirən və tərəflər arasında müxtəlif sahələrdə münasibətlərin tənzimlənməsinə imkan yaradan çərçivə xarakterli olmalıdır. Belə ki bu saziş tərəflər arasında konkret sahə sazişləri və müqavilərin bağlanması imkanını nəzərdə tutmalıdır. Məsələn, hal-hazırda Azərbaycan Respublikası və Aİ arasında aviasiya haqqında («Açıq hava məkanı») sazişin imzalanması məsələləri üzrə danışıqlar aparılır. Bu haqda təklif Nəqliyyat üzrə Avropa komissiyasının vitse-prezidenti S. Kallas tərəfindən irəli sürülmüşdür. Azərbaycan Respublikasının Prezidenti öz növbəsində buna çox müsbət yanaşmışdır.

Azərbaycan Respublikası və Aİ arasında ümumi aviasiya məkanını yaradılması üzrə danışıqların birinci raundu 24-25 yanvar 2013-ci ildə Bakıda keçirilmişdir. Onun gedişatında Azərbaycan mülki aviasiya dövlət administrasiyasının direktoru bir daha bizim ölkənin mülki aviasiyasının müvafiq Avropa strukturlarına inteqrasiya olunması istəyini təsdiqlədi. Aİ belə növ sazişləri İsrail, Mərəkeş, Moldova, Gürcüstan, İordaniya, Qərbi Balkan dövlətləri daxil olmaqla bir sıra qonşu ölkələrlə bağlamışdır. Belə növ müqavilə 2010-cu ildə Aİ və Türkiyə arasında bağlanmışdır. Həmçinin onu da qeyd etmək olar ki hələ 7 iyul 2009-cu ildə

Aİ və Azərbaycan Respublikası aviasiya xidmətləri haqqında üfüqi saziş imzalanmışdır. Bu sazişə müvafiq olaraq Aİ-yə üzv ölkələrlə Azərbaycan Respublikası arasında hava dəhlizinin genişləndirilməsi nəzərdə tutulib. Bununla yanaşı bu saziş Azərbaycan və Aİ-yə üzv ölkələr arasında mövcüd olan ikitərəfli sazişləri əvəz etmir və onları bu sahədə olan Aİ qanunvericiliyi ilə uyğunlaşdırır. Hazırki zamana Aİ və 50 ölkə arasında 40-dan çox belə növ "üfüqi" sazişlər imzalanmışdır [19, s. 24]. Həmçinin qeyd etmək lazımdır ki, Azərbaycan və Aİ aviasiya sahəsində "üfüqi" saziş imzalansa da, Aİ daha irəli getməyi və "Vahid hava məkanı" haqqında çoxtərəfli sazişin imzalanmasını təklif edir. Bundan əlavə Azərbaycanda nüvə enerqetikasının və həmçinin alternativ energetikanın inkişafı ilə bağlı əməkdaşlıq etmə imkanı əmələ gəlir.

Beləliklə belə bir nəticəyə gəlmək olar ki:

1. Azərbaycan Respublikası və Aİ arasında Modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında yeni sazişin ən vacib parametrlərindən biri bu sazişin yaxın gələcəkdə mümkün olan və gözlənilən Azərbaycanın ÜTT-na üzv olmasına zidd olmamalıdır.

2. Yeni sazişin mətnində ÜTT-nın sənədlərində əks olunmuş müvafiq müddəaları təkrarlamaq ehtiyacı yoxdur. Zərurət yarandığı halda ÜTT-nın belə aktlarına istinad etmə üsulunu tətbiq etmək mümkündür.

3. Azərbaycan Respublikası və Aİ arasında Modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında sazişin bağlanması heç də demək deyil ki, gələcəkdə Azərbaycan Respublikası və Aİ arasında münasibətləri tənzimləyən yeni bazis sazişinin bağlanmasına zərurət yaranmayacaq. Bu halda öz formasına görə bu ya assosiasiya haqqında saziş, ya da ki Azərbaycan Respublikası və Aİ arasında azad ticarət zonasının yaradılmasına dair müqavilə ola bilər. Lakin bunun üçün əsas şərtlərdən biri, ilk növbədə, Azərbaycanın ÜTT-yə üzv olmasıdır.

**Ədəbiyyat:**


1. Sadıqov, Ə.İ. Beynəlxalq iqtisadi hüquq: Dərslik / Ə.İ. Sadiqov. – Bakı: "Bakı Universiteti" nəşriyyatı, – 2008. – 370 s.
2. Sadıqov, Ə.İ. Qlobal enerji təhlükəsizliyi və beynəlxalq hüquq // Ə.İ. Sadıqov. – Bakı: "Bakı Universiteti" nəşriyyatı, – 2008. – 236 s.
3. Healther, G. H. Europeanization Goes East: Power and Uncertainty in the EU Accession Process / G.H. Healther. Edited by Kevin Featherstone and Claudio M. Radaelli – Oxford: Oxford University Press, 2003. – 309-310
4. Igor Simutenkov v Ministerio de Educación y Cultura and Real Federación Española de Fútbol: Judgment of the Court (Grand Chamber) of 12 April 2005 in Case C-265/03 // European Court Reports, 2005, p. I-02579.
5. Kazakh parliament ratifies accord on broadening partnership with EU: [Electronic resource] / INTERFAX. 17.03. 2016. URL: http://en.interfax.com.ua/news/general/331218.html.
6. Petrov, R.A. The Partnership and Cooperation Agreements with the Newly Independent States // Handbook on European Enlargement. A Commentary on the Enlargement Process / eds. By A. Ott, K. Inglis. The Hague, 2002. – pp.175-194.
7. World Economic Outlook Database, April 2013/International Monetary Fund/4.URL: Report for Selected Country Groups and Subjects)// http://www.imf.org/external/pubs/ft/weo/2013/01/weodata/weorept.aspx?sy=2010
8. World Economic Outlook Database, October 2019/International Monetary Fund/URL: https://www.imf.org/en/Publications/WEO/weo-database/2019/October/select-date-range?a=1&c=001,110,163,119,123,200,505,511,903,205,400,603,&s=PPPPC
9. Алиев Ильхам. Более высокая форма сотрудничества, чем ассоциация. Интервью в Давосе: [Elektron resurs] / 24.01. 2014. URL: http://ru.president.az.
10. Азербайджан и Евросоюз заменяют ассоциативное соглашение новой формой стратегического партнерства: [Электронный ресурс] / 1news.az. 29 января 2014 г. URL: http: //www.1news.az/politics/20140129124318787.html.
11. Азербайджан пробивает «энергетическое окно» в Европу: [Электронный ресурс] / 1news.az. 14.11. 2014. URL: http://www.1news.az/authors/editorial/20141114025854112.html.
12. Жозе Мануэль Баррозу: «Евросоюз активно поддерживает вступление Азербайджана в ВТО» - интервью: [Электронный ресурс] / MAIL. Ru. 13 июля 2013г.URL:http://news.mail.ru/inworld/azerbaijan/politics/18538648/?frommail=1
13. Замминистра Махмуд Мамедгулиев рассказал, какие работы проводит Азербайджан для вступления в ВТО: [Электронный ресурс] / DAY.AZ. 27 октября 2010. URL: http://news.day.az/economy/235545.html.
14. Ильхам Алиев о прекрасном жесте председателя Евросоюза в Баку: [Электронный ресурс] / haqqin.az. 23.07.2021. URL: https://haqqin.az/news/215889
15. Калиниченко, П.А. Влияние дела Симутенкова на развитие принципа прямого действия в европейском праве // - М.: Журнал зарубежного законодательства и сравнительного правоведения, 2007. Вып. 3. - с. 62-69.

16. Калиниченко, П.А. Европейский Союз: право и отношения с Россией: монография / П.А.Калиниченко. – М.: Норма: ИНФРА-М, 2012. - 272 с.
17. Карро, Д. Международное экономическое право. / Д. Карро, П. Жюйар. – М.: Международные отношения, 2002. – 580 с.
18. Кашкин, С.Ю. Принципиальные черты и отличительные особенности будущего договора // Основные положения будущего Базового договора между Россией и Европейским союзом: позиции сторон. // Материалы международной конференции МГИМО (У), 26 апреля 2006 г. «По пути к договору о стратегическом партнерстве между Россией и Европейским союзом». - М.:, 2007. - с. 30-33.
19. Малеев, Ю. Единое региональное небо: концепция и реальность // Третья конференция по воздушному праву. Научно-практическая конференция: Сборник докладов / - Университет ГА С.-Петербург, 2013. - с. 22-27
20. Моца, А.А. Правовая природа соглашений Европейского Союза об ассоциации // - Курск: Журнал научных публикаций аспирантов и докторантов. Выпуск № 3, 2013. - с. 44-48.
21. По пути к договору о стратегическом партнерстве между Россией и Европейским Союзом / Ред. М.Л.Энтин, Н.Ю.Кавешников, Л.Н.Галенская; МГИМО (У) МИД России; Фонд Европейского права. СПб: Россия-Нева, 2007. - 261 с.
22. Почему Азербайджан не вступает в ВТО: [Электронный ресурс] / Эхо. 21 августа 2017 г. URL: http:// https://ru.echo.az/?p=61989.
23. Президент АР: В ближайшее время Азербайджан не вступит в ВТО: [Электронный ресурс] / AZE. AZ. 22 сентября 2012. URL: http://www.aze.az/news_prezident_ar__82405.html.
24. Президент Ильхам Алиев принял глав МИД Румынии, Австрии, Литвы и делегацию ЕС: [Электронный ресурс] / Trend.az. 25.06 2021.URL: https://www.trend.az/azerbaijan/society/3445528.html
25. Реализация соглашения о расширенном партнерстве Казахстана и ЕС посодействует углублению экономических связей – Назарбаев: [Электронный ресурс] / UNTERФАКС-ЗАПАД. 10 октября 2014. URL:http://www.interfax.by/news/belarus/1168713.
26. Шумилов, В.М. Всемирная торговая организация: право и система. Учебное пособие / В.М. Шумилов. - М.: ТК Велби, Изд-во Проспект, 2006.- 208 с.
27. Эминов, Э.Е. Договор об ассоциации в системе правового регулирования экономических связей между ЕС и Азербайджаном // - Bakı: Dirçəliş XXI əsr, 2013. №176-177. - с. 185 – 191.
28. Эмир-Ильясова, Э.И. Международные и государственные институты и приоритеты внешнеэкономической политики Азербайджанской Республики / Э.И.Эмир-Ильясова. – Баку: «Элм», 2010. - 370 с.
29. Энтин, М.Л. Коренная модернизация Соглашения о партнерстве и сотрудничестве: политический аспект // Основные положения будущего Базового договора между Россией и Европейским союзом: позиции сторон. Материалы международной конференции МГИМО (У), 26 апреля 2006 г. По пути к договору о стратегическом партнерстве между Россией и Европейским Союзом. М.:, 2007, - с. 114-136.
30. Эфендиев, О.Ф. Внешнеэкономическая деятельность современного Азербайджана. Учебное пособие / О.Ф. Эфендиев, Э.А. Алиев. - Баку: Издательско-

полиграфическое предприятие «Зардаби LTD» ООО, 2007. - 328 с.
31. Эфендиев, О.Ф. Некоторые международно-правовые аспекты либерализации мировой торговли // - Баку: Международное право, 1998. № 1. – с.47-57.

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Avropa İttifaqı, əməkdaşlıq, inteqrasiya modelləri, perspektivlər, strateji tərəfdaşlıq, saziş*

**Шебнем Зейналова**
*Докторант Университета «Хазар»*

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ЕВРОПЕЙСКИМ СОЮЗОМ (ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ)

### РЕЗЮМЕ

В статье автор анализирует различные возможные модели перспективы развития отношений между Азербайджанской Ресрубликой и Европейским Союзом. Автор, используя различные научные методы исследования, в результате проведенного исследования приходит к заключению, что самым оптимальным вариантом является регулирование отношений между Азербайджанской Республикой и Европейским Союзом в рамках нового договора – соглашения о Модернизированном стратегическом партнерстве. Наряду с этим, данный документ не должен противоречить возможному в ближайшем будущем и ожидаемому членству Азербайджана в ВТО. По мнению автора, в тексте документа нет необходимости в повторении соответствующих положений, закрепленных в документах ВТО. В случае необходимости можно использовать метод отсылки к такого рода актам ВТО.

***Ключевые слова:*** *Азербайджанская Республика, Европейский Союз, сотрудничество, интеграционные модели, перспективы, стратегическое партнерство, соглашение*

**Shebnem Zeynalova**
*Khazar University, PhD Candidate*

# PROSPECTS FOR THE DEVELOPMENT OF RELATIONS OF THE REPUBLIC OF AZERBAIJAN AND THE EUROPEAN UNION (THEORETICAL ASPECTS)

## ABSTRACT

In the article, the author analyzes various possible prospects for developing relations between the Republic of Azerbaijan and the European Union. The author, using various scientific research methods, as a result of the study, concludes that the most optimal option is to regulate relations between the Republic of Azerbaijan and the European Union within the framework of a new treaty - the Agreement on the Modernized Strategic Partnership. Along with this, this document should not exclude the possible and expected membership of Azerbaijan in the WTO in the near future. According to the author, there is no need to repeat the relevant provisions enshrined in the WTO documents in the text of this document. If necessary, one can use the method of referring to this kind of WTO acts.

***Keywords:*** *Republic of Azerbaijan, European Union, cooperation, integration models, prospects, strategic partnership, agreement*

# G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
# Y O U N G R E S E A R C H E R S

## B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R
## I N T E R N A T I O N A L R E L A T I O N S

UOT 327; 339.9

**TƏHMİNƏ MƏSİMOVA**
**Bakı Dövlət Universitetinin**
**Beynəlxalq münasibətlər kafedrasının doktorantı**
*e-mail: tahmina_rustamova@yahoo.com*

# AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİNDƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ AMİLİ

**Giriş**

Hər bir ölkənin iqtisadi və sosial inkişafının ən vacib elementlərindən biri enerji mənbələrinin mövcudluğudur.

Azərbaycan Respublikası da zəngin enerji ehtiyatlarına, inkişaf etmiş yanacaq və enerji infrastrukturuna və enerji sisteminə malik ölkələrdəndir. Neft mütəxəssisləri ölkənin təsdiqlənmiş neft ehtiyatlarını 13 milyard barel hesab edirlər. Azərbaycan dövləti bu rəqəmin 17,7 milyard barel olduğunu bildirir. Azərbaycanın təsdiq olunmuş təbii qaz ehtiyatları isə 1.31 trilyon kub metr olmaqla dünya təbii qaz ehtiyatlarının 0,7% -ni təşkil edir [4, s.74].

Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin əsasları öz başlanğıcını 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi»ndən götürmüşdür.

1994-cü il sentyabrın 20-də Azərbaycanın XX əsr tarixində siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə ən mühüm müqavilələrdən biri – Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən «Azəri», «Çıraq» neft yataqlarının və «Günəşli» neft yatağının bir hissəsinin müştərək işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş – «Əsrin müqaviləsi» imzalanıb. Dəyəri 7,4 milyard dollar olan «Əsrin müqaviləsi»ndə dünyanın 7 ölkəsini (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) təmsil edən 11 beynəlxalq neft şirkəti (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Türkiyə Petrolları, Pennzoil, Ramco, Delta) iştirak edib. Bu razılaşma ilə Azərbaycanın enerji sektoruna 60 milyard dollar həcmində xarici sərmayə qoyuldu.

«Əsrin müqaviləsi» Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə güclü təkan verdi, Avropa Birliyinə inteqrasiya olunmasına, əsas dünya ölkələri, ilk növbədə, böyük dövlətlərlə dostluq və strateji əməkdaşlıq münasibətlərinin yaranmasına və inkişafına əlverişli imkan və müsbət zəmin yaratmışdır.

1994-cü ildə Əsrin müqaviləsi imzalanandan sonra çıxarılacaq neftin dünya bazarlarına necə təqdim ediləcəyi məsələsi gündəmə gəldi. Əslində Bakıdan Novorossiyskə neft xətti var idi (12 noyabr 1997-ci ildə Bakı-Novorossiysk neft kəməri təmir edilərək istifadəyə verilmişdir). Bununla belə, bu xətt Avropa İttifaqı üçün maraqlı deyildi, çünki enerji Rusiya ərazisi ilə Avropaya çatdırılırdı və ümumiyyətlə layihə Aİ üzvlərinin məqsədlərinə xidmət etmirdi. Üstəlik, Bakı-Novorossiyskdə çıxarılacaq neftin nəqli üçün kifayət qədər güc yox idi. Buna görə yeni boru kəmərləri ilə bağlı müzakirələr müqavilənin imzalanmasının ilk illərindən başladı. O dövrdə ən çox müzakirə olunan üç xətt bunlar idi:

- Bakıdan Gürcüstanın Supsa şəhərinə (Bakı-Supsa) neft nəql edəcək xətt;
- Gürcüstanın Tiflis şəhəri üzərindən keçib Türkiyənin Ceyhan limanına (BTC) neft nəql edəcək xətt;
- İran üzərindən neft nəql edəcək xətt (Cənub xətti).

Bunların arasında ən çox qiymətləndirilən BTC xətti oldu (18, s. 141). Üçüncü xətt gündəmdən düşsə də, vaxt keçdikcə Bakı-Supsa və BTC boru kəmərləri reallığa çevrildi. Rusiya Azərbaycan neftini Rusiya üzərindən Qərbə çatdırmaqda israr etsə də, ABŞ-ın dəstəyi ilə Azərbaycan yeni boru kəmərləri həyata keçirə bildi. Əsrin Müqaviləsindən sonra yaradılan beynəlxalq konsorsium 1995-ci ilin oktyabrında Azərbaycandan «erkən neft»in (ilk dövrdə) həm Bakı-Novorossiysk, həm də Bakı-Supsa xətləri ilə daşınacağı barədə qərarını elan etdikdən sonra Rusiya məyus oldu. Beləliklə, Azərbaycan neftinin daşınmasında Rusiyanın tək əli qırıldı. ABƏŞ-in (Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti) Bakı-Supsa marşrutunun seçməsində ABŞ prezidenti Bill Klintonun xüsusilə böyük rol oynadığı məlum olub və Azərbaycan Prezidenti Heydər Əliyevə zəng edərək Gürcüstan ərazisindən «erkən neft» üçün marşrut təklif edib. Bu xətt haqqında ilk məlumat 1995-ci ilin aprelində ABŞ şirkətinin hesabatına da daxil edilmişdir [7, s. 354-355]. Qərb İxrac Boru Kəməri də adlandırılan Bakı-Supsa, Azərbaycan neftini Gürcüstan üzərindən dünya bazarlarına nəql edir. Xam neft Gürcüstanın Supsa terminalındakı tankerlərə yüklənir və İstanbul boğazından Avropaya göndərilir.

8 Mart 1996-cı ildə Azərbaycan və Gürcüstan Prezidentləri Heydər Əliyev və Eduard Şevarnadze arasında Bakı-Supsa xəttinin inşasına dair bir müqavilə imzalanmış və xətt 1997–1998-ci illərdə inşa edilmişdir. Bu xəttlə 17 aprel 1999-cu il tarixindən etibarən «erkən neft» ixracata başladı. Bu xəttin ən böyük üstünlüyü Rusiyanın nefti ilə qarışmaması və yalnız daha keyfiyyətli və daha təmiz «Azeri Light» daşımasıdır [37].

12 avqust 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsi və Cənubi Osetiya münaqişəsi ilə əlaqədar olaraq, BP təhlükəsizlik məqsədi ilə Bakı-Supsa xəttini qısa müddətə dayandırdı [41].

Azərbaycanın enerji təhlükəsizliyi siyasətində Türkiyə ilə olan əlaqələr xüsusi yer tutur. Bu iki türk dövləti ötən əsrdən günümüzədək daim bir-birini dəstəkləmişdir, Azərbaycan Demokratik Respublikasına Osmanlı dövlətinin hərbi və iqtisadi yardımını xüsusilə qeyd etmək lazımdır, çünki məhz bu əlaqələr «bir millət, iki dövlət» anlayışının əsasını formalaşdırmışdır. 1920-ci ildən sonra Azərbaycanın SSRİ-nin himayəsində olduqdan sonra ikitərəfli münasibətlər siyasi qopma həddinə çatsa da, iki xalq arasında qardaşlıq əlaqələri davam etdirilmişdir. Sonrakı illərdə Azərbaycanın yenidən müstəqilliyini bərpa etməsi ilə bu qardaşlıq bağı iki ölkə arasında iqtisadi, hərbi və siyasi əməkdaşlığa öz töhfəsini verdi.

Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələr Azərbaycan müstəqillik qazanmazdan əvvəl, 1990-cı il yanvarın 10-da imzalanmış «Türkiyə ilə Azərbaycan arasında iqtisadi və ticarət əlaqələrinin inkişafı haqqında Protokol»la formalaşmağa başlayıb. Əslində iki ölkə arasında iqtisadi əməkdaşlıq Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra inkişaf etməyə başlamış və bu günə kimi iqtisadiyyatın müxtəlif sahələrində 200-dən çox saziş və protokol imzalanmışdır [23, s. 142-143].

Azərbaycan müstəqilliyini əldə etdiyi ilk dövrdə Türkiyə ilə əlaqələr inkişaf etməmişdi, lakin Azərbaycanda hakimiyyət dəyişikliyindən sonra bu münasibətlər ən yüksək səviyyəyə çatmışdır. Türkiyə Azərbaycana strateji tərəfdaş və model ölkə olaraq görülmüş və Bakı-Ceyhan marşrutunu hər iki tərəf yeni boru kəməri layihəsi kimi dəstəklədi [5, s. 383]. Müxtəlif sahələrə qoyulan investisiyalarla yanaşı, Azərbaycan, Qərb şirkətlərinin öz enerji qaynaqlarının istehsalı ilə bağlı imzalayacağı neft müqaviləsində Türkiyənin də yer almasını istəmişdir [6, s. 24]. Ümummilli lider Heydər Əliyevin «bir millət, iki dövlət» tezisi əsasında iki ölkə arasında əlaqələr sürətlə inkişaf etməyə başladı. Heydər Əliyev Azərbaycan

ilə Türkiyə arasında dostluq əlaqələrinin genişlənməsinə həmişə böyük əhəmiyyət verib [1, s. 159-160].

Türkiyə Azərbaycanın enerji sektoruna böyük sərmayə yatırmışdır. TPAO (Türkiye Petrolları Anonim Ortaklığı) Azərbaycanın neft və təbii qaz yataqlarının istismarında paya malikdir. 1994-cü ildə Azəri-Çıraq-Günəşli neft müqaviləsində TPAO ilk dəfə 1,75% pay almışdı.

1995-ci il aprelin 12-də Türkiyənin baş naziri Tansu Çillər qısamüddətli işgüzar səfərlə Azərbaycana gəldi. Bu səfərin əsas məqsədi SOCAR və TPAO arasında Xəzər dənizinin Azərbaycan sektorunda enerji ehtiyatları yataqlarının istismarına dair müqavilənin imzalanması idi. Prezident Heydər Əliyev: «Əsrin müqaviləsi ilə TPAO-nun layihədə cəmi 1,75% payı var. Amma Türkiyə əvvəldən bu razılaşmanın içində idi. Ona görə də biz Azərbaycan Respublikasının 20%-lik payını nəzərə aldıq. Eyni zamanda Türkiyə Prezidenti, əziz dostumuz və qardaşımız cənab Süleyman Dəmirəl də mənə məktub göndərərək, bununla bağlı xüsusi xahişlə çıxış etdi. Bütün bunları və Türkiyə ilə Azərbaycan arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərini nəzərə alaraq və bu əlaqələrin daha da inkişaf etdirilməsini arzu edən Respublikamız eyni müqavilədəki payının 5%-ni Türkiyə Respublikasına məxsus bir şirkətə verməyə razıdır. Hazırda bu məsələ ilə bağlı danışıqlar yekunlaşmaq üzrədir. Bir sıra sənədlər hazırlanıb və biz bu gün həmin sənədlərin imzalanma mərasiminə toplaşmışıq» dedi [35].

1995-ci ildə isə Azərbaycan öz payının 5%-ni Türkiyəyə satdı və bununla da TPAO-nun payı 6,75%-ə yüksəldi.

Həm Azərbaycan, həm də Türkiyə Bakı-Ceyhanın «əsas neftin» nəql kəmərinə çevrilməsi üçün böyük səylər göstərib. «Əsrin müqaviləsi» imzalanmamışdan əvvəl 1993-cü il martın 9-da SOCAR ilə TPAO arasında Azərbaycan neftinin Bakı-Ceyhan boru kəməri ilə nəqlinə dair saziş imzalansa da, bu məsələ uzun müddət regionda təsir dairəsi uğrunda mübarizə zamanı diplomatik qarşıdurmanın predmeti olub [1, s. 159].

1998-ci ildə ABŞ rəhbərliyi BTC layihəsini Azərbaycan neftini beynəlxalq bazara çıxarmaq üçün ən yaxşı yol kimi göstərdi.

1998-ci ildə ABŞ, Türkiyə, Gürcüstan və Azərbaycanın iştirakı ilə Ankarada BTC ilə bağlı Ankara Bəyannaməsi [25, s. 148] imzalandı.

Ümummilli lider Heydər Əliyev Azərbaycan neftini Türkiyə vasitəsilə dünya bazarlarına çıxarmaq arzusunu dəfələrlə dilə gətirmişdir. Bununla belə, Azərbaycanın enerji resurslarının beynəlxalq bazarlara hansı xətlə nəql edilməsi ilə bağlı müzakirələr uzun müddət davam etdi. Mövzu ilə bağlı mühüm inkişaf 1999-cu ilin ikinci yarısında yaşandı. Xüsusilə, Azərbaycan Prezidenti Heydər Əliyevin qətiyyətli mövqeyi və BP (İngiltərə)-Amoko (ABŞ) tərəfdaşlığının mövzu ilə bağlı qeyd-şərtlərinin aradan qaldırılması ilə BTC xətti ilə bağlı müvafiq şirkətlə dövlət nümayəndələri arasında fikir mübadiləsinə başlanıldı. 1999-cu ilin noyabrında ATƏT-in İstanbul Zirvə toplantısında BTC xətti ilə bağlı çox sürətli inkişaf baş verdi. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul toplantısında BTC Neft İxrac Boru Kəməri haqqında Saziş imzalanmışdır. İstanbul sammitində bir araya gələn Türkiyə, Gürcüstan və Azərbaycan liderləri Çırağan sarayında hər üç ölkənin ərazisindən keçəcək BTC əsas neft xəttinin tikintisi ilə bağlı razılığa gəliblər. 1999-cu ildə BTC layihəsi təsdiqlənərək inşaat mərhələsinə keçdi. Türkiyə və Azərbaycan tərəflərinin bu qətiyyətli addımlarına Gürcüstanın davamlı dəstəyi xəttin formalaşmasını təmin etdi. Azərbaycan-Türkiyə-Gürcüstan arasında üçtərəfli əməkdaşlıq nəticəsində 2000-ci ilin oktyabrında «Cənubi Qafqaz Təhlükəsizlik Paktı» imzalandı [3, s. 29].

Azərbaycanın 1991-ci ildə müstəqillik əldə etməsindən 10 il çəkən BTC Xam Neft Boru Kəməri Layihəsi ilə bağlı gərgin müzakirələr nəticəsində nəhayət müqavilə imzalandı. Prosesin bu qədər uzanmasının səbəbi, layihənin «iqtisadi» tərəfi və ABŞ-ın RF ilə «taktiki müharibələri» deyil, «siyasi» tərəfi idi. Bu layihədə, Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan neftinin Tiflis yolu ilə Türkiyənin

Ceyhan limanına nəql ediləcəyi və gündəlik 1 milyon ton neft nəql gücünə malik boru kəmərinin inşası nəzərdə tutulurdu.

2002-ci il sentyabrın 18-də BTC xəttinin təməli qoyuldu və dərhal sonra tikinti işlərinə başlanıldı. 25 may 2005-ci ildə BTC boru kəməri ilə sınaqdan keçirilmiş neft axını həyata keçirildi və 2006-cı ilin iyun ayında normal neft axını başladı [22, s. 103-106]. Xəttin rəsmi açılış mərasimi 2006-cı ilin iyul ayında Ceyhan terminalında keçirildi. Orta Asiya və Qafqazın enerji qaynaqlarını Qərb bazarlarına çatdırmaqla, BTC Rusiyanın bu sahədəki inhisarını qırır və bu çərçivədə birinci olduğu üçün strateji əhəmiyyətə malikdir. Bu layihə həm də Gürcüstanı Rusiyanın təsirindən qurtardı, Türkiyə vasitəsilə dünya bazarlarına bağladı və enerji təhlükəsizliyi baxımından xüsusilə həssas olan Aİ ölkələrinə gətirdi [11, s. 89-91].

2008-ci ildən bəri Qazaxıstanın Tengiz nefti BTC xətti ilə az miqdarda nəql olunur. 2010-2013-cü illər arasında bu nəqliyyat müəyyən səbəblərdən dayandırılsa da, 2013-cü ildə yenidən neft göndərilməyə başlandı. Qazaxıstan hər il BTC xətti ilə Avropa bazarlarına 5 milyon ton neft nəql edir. Bundan əlavə, Türkmənistan ildə 11,8 milyon ton neft hasil edir və onun kiçik bir hissəsi BTC ilə dünya bazarına nəql olunur [27, s. 73]. Türkmənistanın BTC ilə 2013-cü ildə 3.3 milyon ton, 2014-cü ildə 5.6 milyon ton neft nəql etdiyi məlumdur [30].

BTC-nin neft vurma həcmi gündə 1,2 milyon bareldir. 2006-cı ilin iyunundan 2017-ci ilin sonuna qədər, Türkiyənin Ceyhan limanında BTC boru kəməri ilə 383 milyon tondan çox (təxminən 2.87 milyard barel) neft nəql edilmiş və 3.758 tankerə yükləndikdən sonra dünya bazarlarına göndərilmişdir. 2017-ci il ərzində BTC xətti ilə 34 milyon ton (256 milyon barel) neft ixrac edildi və Ceyhanda 333 tankerə yükləndi.

Lakin Türkiyənin Azərbaycanın enerji sahəsinə yatırdığı investisiyalar təkcə «Əsrin müqaviləsi» ilə məhdudlaşmır. Türkiyənin Azərbaycanın bütün neft-qaz sazişlərində müəyyən payı var: Bakı-Tbilisi Ceyhan Boru Kəməri layihəsində 6,15%, Azəri-Çıraq-Günəşli layihəsində 6,75%, Şahdəniz layihəsində 9%, Kürdaşı layihəsində 5%, Araz Alov-Orient layihəsində 10%. Türkiyənin özəl neft şirkəti olan Petoil SOCAR ilə 50% ortaqlıq əsasında Azer Petrol şirkətini də yaradıb. Bu şirkət Murovdağ neft yatağında hasilat fəaliyyəti ilə məşğuldur [1, s. 159-160].

Deməк olar ki, Türkiyə və Azərbaycanın iqtisadiyyatları bir-birini tamamlayır. Belə ki, Türkiyə iqtisadiyyatı xaric yönümlü olması və emal sənayesi üstünlük təşkil etdiyi halda, Azərbaycan iqtisadiyyatında xammal istehsalı üstünlük təşkil edir. Türk iş adamları Azərbaycanda həm neft, həm də qeyri-neft sektoruna əhəmiyyətli investisiyalar edirlər. 2000-ci illərin əvvəllərinə qədər iki ölkə arasında ticarət balansı Türkiyənin xeyrinə olsa da, 2006-cı ildən etibarən ticarət balansı xüsusilə enerji ehtiyatlarının istehsalı və ixracı ilə bağlı Azərbaycandakı inkişafa görə dəyişdi. Nəticədə, 2006-cı ildən bəri Türkiyənin Azərbaycandan idxal həcminin Azərbaycana ixrac həcmindən daha sürətli artdığı müşahidə edilir [23, s. 144].

2008-ci ildə iki ölkə arasında erməni məsələsi ilə bağlı gərgin dövr yaşanmışdı. Futbol diplomatiyasından sonra Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesi Azərbaycanın sərt reaksiyalarına səbəb oldu. 2010-cu ildə ikitərəfli münasibətlərdə gərgin dövrün başa çatması strateji əməkdaşlığın dönüş nöqtəsi oldu. 2010-cu ildə imzalanan «Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişi» ilə Türkiyə ilə Azərbaycan arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq ən yüksək səviyyəyə çatdırıldı [12].

2010-cu ildə iki ölkənin dövlət başçılarının iştirakı ilə Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması və Şuranın mütəmadi iclaslarının keçirilməsi də əlaqələrin daha da inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir [16]. Beləliklə, 2010-cu ildən mövcud vəziyyət dəyişdi, Azərbaycan ilə Türkiyə arasında illərdir davam edən dostluq və qardaşlıq münasibətləri qaldığı yerdən davam etdi.

1993-2008-ci illər arasında Azərbaycana 32,7 milyard dollara yaxın birbaşa xarici investisiya yatırılıb. 1995-2008-ci illər üzrə Türkiyə Azərbaycanda neft və təbii qaz sektoruna xarici kapital qoyuluşlarında ABŞ və İngiltərədən sonra üçüncü, qeyri-neft və təbii qaz sektoruna xarici kapital qoyuluşlarında isə ikinci yeri tutmuşdur. TPAO-nun məlumatına görə, bu şirkətin 1994-2007-ci illər arasında Azərbaycanda ümumi investisiyaları 2,8 milyard dollara bərabərdir [8, s.273]. Bu gün Türkiyə Azərbaycanda ən böyük investorlardan biridir.

2016-cı ildə ümumi istehsalının 65%-ni xaricdən təmin edən TPAO-nun xarici istehsalında Azərbaycandakı layihələr 78% ilə ən böyük paya malikdir.

14 sentyabr 2017-ci il tarixində Azərbaycan neftini dünyaya nəql edəcək «Əsrin müqaviləsi» yeniləndi və müqavilə müddəti 2049-cu ilə qədər uzadıldı. Yeni müqaviləyə əsasən, SOCAR-ın faiz dərəcəsi 11,6%-dən 25%-ə qaldırıldı [31]. İmzalanma mərasimində Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak demişdir: «1994-cü ildən 23 ildir layihənin tərəfdaşı olan TPAO bu əməkdaşlığı bu gün imzalanacaq sazişlərlə genişləndirməklə Azərbaycana olan etimadı bir daha vurğulamaqdan fəxr edir» [20, s. 2].

Azərbaycan 1991-ci ildə müstəqillik qazandıqdan sonra, Şahdəniz təbii qaz yatağının beynəlxalq şirkətlərlə birgə istismarı üçün 1992-ci ildən başlayaraq bir çox danışıqlara başladı və ilk müqavilə 4 iyun 1996-cı ildə Bakıda imzalandı. Şahdəniz təbii qaz yatağında tədqiqat, inkişaf etdirmə və istehsalat işləri aparmaq üçün payların ayrılmasını nəzərdə tutan bu müqavilə Statoil (Norveç), BP (Böyük Britaniya), SOCAR, Lukacip (Rusiya-İtaliya), Niko (İran), Total (Fransa), TPAO (Türkiyə) şirkətləri tərəfindən imzalanmışdır [2, s. 75].

1 trilyon $m^3$ təbii qaz ehtiyatına malik olması proqnozlaşdırılan «Şahdəniz» yatağı dünyanın ən böyük təbii qaz yataqlarından biridir.

Bakının cənub-qərbindən 70 km məsafədə yerləşən və ümumi sahəsi 860 $km^2$ olan böyük bir qaz ehtiyatı olan yataq aşkar edildikdən və istehsal ediləcək təbii qazın beynəlxalq bazarlara ən sərfəli şəkildə çatdırılması üçün lazımi boru kəmərinin olmaması ehtiyacından sonra Bakı-Tbilisi-Ərzurum (BTƏ) təbii qaz kəməri layihəsi ön plana çıxdı. 1999-cu il noyabrın 18-də İstanbulda keçirilən ATƏT-in Zirvə toplantısında üç ölkənin (Azərbaycan, Türkiyə və Gürcüstan) energetika nazirləri səviyyəsində aparılan danışıqlardan sonra BTƏ təbii qaz kəməri layihəsi tikintisi istiqamətində ilk addım kimi anlaşma memorandumu imzalandı [19]. Beləliklə, Azərbaycan Rusiyanın iştirakı olmadan ikinci layihə ilə bağlı mühüm addımları atıb. Başqa sözlə, Qafqaz regionunda Azərbaycandan başlayaraq Türkiyəyə çatan neft və təbii qaz xətləri Rusiyanın Avropadakı effektivliyinə, eləcə də Mərkəzi Asiya və Qafqazdakı mövcudluğuna birbaşa təsir göstərdiyi üçün böyük əhəmiyyət kəsb edir [9]. Cənubi Qafqaz Boru Kəməri olaraq da bilinən BTƏ layihəsi, Şahdəniz yatağından təbii qazın Gürcüstan vasitəsilə Türkiyə-Gürcüstan sərhədinə çatdırılması üçün dizayn edilmişdir. İnşaatına 2004-cü ildə başlanan layihənin Gürcüstan hissəsi 2006-cı ildə tamamlanmış və dərhal işə başlamış, Türkiyədə inşaat başa çatdıqdan sonra 2007-ci ildə Türkiyəyə davamlı qaz tədarükü başlamışdır [21, s. 164]. Azərbaycan və Türkiyə arasında neft sahəsində strateji əməkdaşlıq BTƏ layihəsi ilə birlikdə təbii qaz sektorunu əhatə edir. BTƏ layihəsinin tikintisi Aİ ölkələrinin təbii qaz ixracında Rusiyadan başqa yeni alternativ bazarın yaranmasına səbəb oldu. BTƏ layihəsi də Türkiyə üçün son dərəcə əhəmiyyətlidir. Ankara BTƏ layihəsindən sonra Rusiya və İranla birlikdə Azərbaycandan qaz tədarük etməyə başladı və öz təbii qaz bazarını şaxələndirməyə nail oldu. Bu baxımdan 2007-ci ildə istismara verilən BTƏ təbii qaz kəmərindən sonra Türkiyə nəinki daha ucuz təbii qaz təmin etdi, həm də Ankaranı Moskva və Tehran qarşısında alternativ mənbəyə çevirdi [29]. İllik nəqletmə gücü 30 milyard kubmetr olan BTƏ xətti ilə «Şahdəniz» yatağının 1-ci fazasından ildə təxminən 7,7 milyard kubmetr təbii qaz əldə edilməklə Bakıdan Ərzuruma ötürülüb [17].

25 avqust 2015-ci ildə BTƏ-nin təbii qaz kəmərinin Qarsdan keçən hissəsində PKK terror təşkilatı tərəfindən təxribat törədilib. Partlayış nəticəsində təbii qazın ötürülməsi dayandırılsa da, sonradan xətt yenidən işə salınıb [30].

Belə ki, Azərbaycan neftlə müqayisədə təbii qazla daha zəngin olduğu üçün Türkiyə ilə enerji əlaqələri daha çox təbii qaza əsaslanır. 2019-cu ilin göstəricilərinə görə Azərbaycan 9,585 milyon kubmetrlə Rusiyadan sonra Türkiyənin ən çox təbii qaz idxal etdiyi ikinci ölkə olub [34].

«Şahdəniz» yatağı üzrə ilk qaz müqaviləsi 1996-cı ildə imzalanarkən enerji təhlükəsizliyi məsələsi indiki qədər aktual olmadığına görə qaz müqavilələri bir o qədər də rentabelli hesab edilmirdi. Lakin Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri ilə ilk addımını atan Azərbaycan bu layihə ilə ölkəmizin gələcəkdə böyük qaz ixracatçısı kimi tanınmaq istəyinin əsasını qoydu. Azərbaycanın BTƏ ilə birlikdə dünya bazarına təbii qaz ixracı ölkənin ümumi iqtisadi mənzərəsini yaxşılaşdırmağa kömək etmiş və daxili bazarda lazım olan təbii qazın daha ucuz qiymətə tədarükünü təmin etmişdir. Bu vəziyyət Azərbaycanın iqtisadi müstəqilliyi üçün son dərəcə vacibdir. Digər tərəfdən, bu layihə ilə Cənubi Qafqazda sülhün və iqtisadi əməkdaşlığın təmin edilməsi istiqamətində səylərin sürətləndirilməsi ilə Azərbaycan regionun lider ölkəsinə çevrildi. Nəticədə Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərinin işə salınması «Şahdəniz» yatağının işlənməsinin ikinci mərhələsinə yol açdı, Azərbaycan qazının əsas Avropa bazarlarına çıxışını təmin edən TANAP və TAP kimi strateji layihələrin üzə çıxmasını sürətləndirdi. Azərbaycanın təbii qaz ehtiyatlarını realizə etmək üçün müxtəlif imkanlar mövcud olsa da, rəsmi Bakı Avropaya ixrac kəmərinin tikilməsinə üstünlük verdi.

Azərbaycan və Türkmənistan qazının Rusiyadan yan keçməklə Avropaya nəqli üçün nəzərdə tutulmuş «Nabukko» qaz kəməri layihəsi uzun müddət müzakirə edildi. «Nabukko» ilə yanaşı, İTGİ və TAP Azərbaycan qazının Avropaya çıxarılması üçün təklif edildi. Lakin 250 milyon avro dəyərində qiymətləndirilən «Nabukko» siyasi və iqtisadi rəqabətə davam gətirməyərək sıradan çıxdı [3].

2011-ci ildə Avropa Komissiyası ilə imzalanan «Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə» əməkdaşlıqda tamamilə yeni mərhələnin əsasını qoydu. Hazırda «Cənub Qaz Dəhlizi»nin (CQD) icrasında yeddi ölkə – Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edir, eyni zamanda üç Balkan ölkəsi – Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun da növbəti mərhələdə bu layihəyə qoşulacağı gözlənilir. Gələcəkdə CQD-nin yeni qollarının yaranması proqnozlaşdırılır ki, bu da daha çox Avropa ölkəsinə Azərbaycan qazının ixracına imkan yaradacaq.

CQD layihəsi Avropa və Türkiyənin təbii qaz ehtiyaclarının bir hissəsini münasib qiymət və şərtlərlə ödədiyi, və Aİ ölkələri, Azərbaycan və Türkiyə kimi ölkələrin siyasi dəstəyinə malik olduğu üçün seçildi [36].

«Cənub Qaz Dəhlizi»nin seqmentlərini «Şahdəniz-2», Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) layihələri təşkil edir.

«Cənub Qaz Dəhlizi» «Şahdəniz Mərhələ-2» çərçivəsində hasil edilən qazın Xəzər dənizindən Türkiyəyə oradan da Avropaya nəql edəcək 3 min 500 kilometr uzunluğa malik ən nəhəng infrastruktur və qlobal enerji təhlükəsizliyi layihəsidir.

Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) Şahdəniz yatağının tam miqyaslı işlənməsi layihəsinin bir hissəsidir. Layihə üzrə işlərə 2013-cü ildə başlanıb. Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsinə Azərbaycan boyu yeni kəmərin çəkilməsi, Gürcüstanda iki yeni kompressor stansiyasının tikilməsi daxildir.

2011-ci ildə Aİ və Azərbaycan Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən Birgə Bəyanat imzaladı. Bu, «Cənub Qaz Dəhlizi» layihəsi üçün əsas məsələ oldu. Birgə Bəyanat TANAP və TAP-la bağlı Hökumətlərarası Sazişlərlə birlikdə uzunmüddətli qaz satış müqavilələri

üçün zəmin yaratdı. Daha sonra 2012-ci ildə Türkiyə və Azərbaycan siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində TAP kəmərinin tikintisi ilə bağlı razılıq əldə edildi. 2012-ci il iyunun 27-də Azərbaycanla Türkiyə arasında TANAP-la bağlı müqavilə imzalandı. Nəhayət, 2014-cü il sentyabrın 20-də "Cənub Qaz Dəhlizi"nin təməli qoyuldu [37].

Gürcüstan-Türkiyə sərhədindən başlayaraq Türkiyə-Yunanıstan sərhədinə qədər davam edən 1850 kilometrlik uzunluğunda Trans-anadolu Qaz Boru Kəməri (TANAP) regional, xüsusilə də Avropanın enerji təhlükəsizliyinin təminatçısı kimi çox vacib layihədir. Təsadüfi deyildir ki, 2020-ci ildə TANAP-ın layihə, proqram və portfel idarəçiliyi üzrə dünyanın qabaqcıl assosiasiyası olan Layihə İdarəetmə İnstitutu (PMI – Project Management Institute) tərəfindən «İlin Layihəsi» mükafatına layiq görülmüşdür [38].

2016-cı ilin may ayının 17-də Yunanıstanın Saloniki şəhərində TransAdriatik Boru Kəmərinin (TAP) təməli qoyulub. Türkiyə-Yunanıstan sərhədindən başlayaraq, Yunanıstan, Albaniya ərazisindən və Adriatik dənizinin dibi ilə İtaliyanın cənubunadək uzanan 878 km-lik bu kəmərin tikilməsi ilə enerji dəhlizinin yaradılması başa çatdırılıb. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP yeni təchizat mənbələrinə çıxış üçün strateji əhəmiyyətə malikdir. TAP Xəzər dənizinin Azərbaycan sektorundakı nəhəng «Şahdəniz» yatağından təbii qazı Avropaya daşıyır. TAP perspektivdə tikiləcək interkonnektorlar vasitəsi ilə Cənub-şərqi Avropa ölkələrinə qaz tədarükünü stimullaşdıra bilər.

Cənub Qaz Dəhlizinin sonuncu seqmenti kimi, Avropanın yeni təbii qaz mənbəyinə etibarlı çıxışını təmin edən və strateji əhəmiyyət daşıyan TAP Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsində, tədarükün şaxələndirilməsində mühüm rol oynayır, həmçinin dekarbonizasiya məqsədlərinə xidmət edir [40].

Enerji strategiyasının məqsədi, çox güclü, genişmiqyaslı qaz dəhlizi formalaşdırmaqdır. Xəzərin Azərbaycan sektorunun qaz-kondensat ehtiyatları ilə zəngin olduğu nəzərə alınaraq, «Cənub Qaz Dəhlizi» sistemi elə layihələndirilib ki, gələcəkdə mümkün əlavə qaz həcmlərinin təchiz edilməsi üçün onun seqmentlərinin hər birinin, o cümlədən, TAP-ın ötürücülük gücü artırıla bilsin. Gələcəkdə Türkmənistan və Qazaxıstan Avropa bazarına öz böyük qaz resurslarını ixrac etmək üçün həyata keçirilən infrastrukturdan istifadə edə bilər. Eləcə də İran və İraqın da qaz və enerji ehtiyatlarının əlavə edilməsi mümkündür. Bu, Xəzər dənizindən Avropanın ürəyinə uzanan yolda bütün ölkələrə fayda gətirməsi üçün nəzərdə tutulan unikal bir layihədir.

2020-ci ilin 31 dekabr tarixində Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik Qaz Boru Kəməri (TAP) vasitəsi ilə Azərbaycandan kommersiya məqsədli qazın nəqlinə başlanıldı. Tarixdə ilk dəfə Azərbaycan öz təbii qazını Avropa bazarına birbaşa boru xətləri vasitəsi ilə çıxarmağa nail oldu. 2020-ci il noyabrın 15-də TAP İtaliyanın qazpaylayıcı şəbəkəsinə uğurlu birləşdirildikdən sonra, 31 dekabr tarixində kommersiya məqsədli təbii qaz Melendugno məntəqəsindən SNAM Rete Gas (SRG) qazpaylayıcı şəbəkəsi ilə İtaliyaya, Nea Mesimvria məntəqəsindən isə DESFA şəbəkəsi ilə Yunanıstan və Bolqarıstana çatdırıldı [40]. Bu boru kəməri Yunanıstanin 20%, Bolqarıstanın 30%, İtaliyanın 10% təbii qaza olan tələbatını ödəyəcək.

CQD böyük strateji infrastruktur layihəsidir. Bu layihə gələcəkdə təkcə Azərbaycana xidmət etməyəcək, Qərb dövlətlərinin də layihəyə dəstək verməlari məhz bu məqamla əlaqədardır. Düzdür, Azərbaycanın bütövlükdə mövcud qaz resursları yalnız «Şahdəniz-2»dən ibarət deyil, «Abşeron», «Ümid», «Qarabağ», «Babək» və digər yataqlarımız da var ki, hazırda təsdiq olunan qaz ehtiyatlarımızın həcmi 2,6 trilyon kubmetrə bərabərdir. Azərbaycanda aşkar edilmiş ən böyük təbii qaz mənbəyi olan «Şahdəniz» yatağı CQD-nin əsas resurs bazasıdır. Bu nəhəng yatağın ilkin geoloji qaz ehtiyatı 1,2 trilyon kubmetrdir.

CQD Xəzər dənizinin qaz resurslarını ilk dəfə birbaşa Avropa bazarlarına çıxararaq, bütöv regionun enerji xəritəsini dəyişir.

«Cənub Qaz Dəhlizi» Aİ-nin enerji siyasətinin tərkib hissəsidir. İllərdir ki, Avropa Birliyinin üzv dövlətlərində təbii qazın istifadəsi və idxalı artmışdır. Avropada təbii qaz istehsalı azalmış və idxaldan asılılıq artmışdır. Əvvəlki kəsilmələrə və məhdudiyyətlərə və perspektivdə enerji təchizatı kəsintilərinə reaksiya olaraq, ABŞ-ın köməyi ilə Avropa səlahiyyətliləri tədarükün şaxələndirilməsi üçün alternativ mənbələri axtararaq enerji təhlükəsizliyini gücləndirməyə başladılar. Bəzi Aİ ölkələri tərəfindən Rusiya qazı üçün alternativ tranzit yollarının təşviq edilməsi seçimi idi. Bu proses Avropanı təbii ehtiyatlarından siyasi məqsədlər üçün istifadə edən Rusiyadan daha çox asılı vəziyyətə gətirdi, çünki Rusiya Avropanın əsas qaz təchizatçısı olaraq qalmaqdadır. «Cənub Qaz Dəhlizi», Aİ-nin Rusiyadan asılılığını azaltmaq məqsədilə Avropaya marşrutların və qaz ehtiyatlarının şaxələndirilməsini təşviq etmək üçün Avropa Komissiyası tərəfindən irəli sürülmüş layihədir. Vaşinqtonun bölgədəki maraqlarından dolayı, «Cənub Qaz Dəhlizi» yalnız Aİ üçün deyil, həm də ABŞ üçün geopolitik əhəmiyyət daşıyır. Bu da ABŞ-ın Aİ-nin səylərini fəal şəkildə dəstəkləməsinin əsas səbəbi idi. Layihə başlayandan bəri Dəhlizin yolu və miqyası Rusiyanın qaz inhisarı olan «Qazprom»un Aİ enerji bazarındakı maraqları, eləcə də Rusiyanın Xəzər dənizi bölgəsindəki siyasi maraqları ilə toqquşur. Buna görə Moskva layihənin həyata keçirilməsini əngəlləməyə, maliyyə və texniki məqsədəuyğunluğunu şübhə altına almağa çalışdı. Bu hədəfə çatmağın yollarından biri alternativ boru kəməri – «Mavi axın 2»-nin inkişafına və hal-hazırda «Cənub Qaz Dəhlizi» ilə eyni bazarlara qaz tədarük etməyi hədəfləyən «Cənub axını» layihəsini dəstəkləmək idi. Rusiya 2009-cu ildə bu qaz istehsalçılarının Avropaya alternativ yol tapmaq marağını azaltmaq üçün Mərkəzi Asiya qazı üçün daha çox ödəyəcəyini bildirdi. O, indiyə qədər Cənub Dəhlizi üçün yeganə təhlükəsiz qaz mənbəyi olan Şahdəniz yatağında çıxarılan bütün qazı almağı təklif etdi. Lakin bu günə qədər Moskvanın cəhdləri istənilən nəticəni vermədi. «Cənub Qaz Dəhlizi» layihəsi Avropa Birliyinin əsas enerji və geosiyasi təşəbbüsü olaraq qalacaq və Azərbaycan qazını Aİ-yə ixrac etməkdə maraqlıdır [28].

Layihənin əhəmiyyəti ilə bağlı məşhur Amerika nəşri «Forin Polisi»də dərc olunmuş, müəlliflərinin Lük Koffi və Əfqan Nifti olduğu «Azərbaycan Qərbə nəyə görə lazımdır?» məqaləsində də bu suallara cavab verilir, Azərbaycanın Şərqlə Qərb arasında enerji təchizatında, mal dövriyyəsində və rəqəmsal kommunikasiyalarda vacib rol oynadığı vurğulanır [26].

2021-ci iyulunda Azərbaycan və Türkmənistan hökumətləri arasında «Dostluq» neft-qaz yatağında əməkdaşlıq haqqında razılıq əldə edilmişdir. Türkmənistan və Azərbaycan tərəfindən «Dostluq» dəniz neft-qaz yatağının birgə işlənməsi ilə Transxəzər sualtı boru kəməri reallaşacağı təqdirdə Avropa ölkələrinə qaz ixrac etmək imkanı yaranacaq. Bu halda, boru kəməri Azərbaycanı Gürcüstan və Türkiyə vasitəsilə Aİ ölkələri ilə birləşdirən Cənub Qaz Dəhlizinə qoşula bilər [32].

Bu xəttin reallaşması CQD-nin Türkiyə və Avropa üçün alternativ xətt olma xüsusiyyətini daha da artırır.

Enerji təhlükəsizliyi layihələrindən region dövlətləri faydalanarkən Ermənistan dövləti beynəlxalq aləmdə tutduğu işğalçı mövqeyinə görə bu kəmərlər onun ərazisindən yan keçmişdir. Ermənistan xarici qüvvələrin köməyilə Azərbaycanın beynəlxalq tanınmış ərazilərinin 20%-ni işğal etmiş, 20 min dinc sakini qətl etmiş, 750 min azərbaycanlını silah zoruna öz doğma torpaqlarından didərgin salmışdır. Ermənistanın işğalçılıq siyasətinə cavab olaraq Türkiyə Azərbaycana dəstəyini nümayiş etdirmək üçün Ermənistanla sərhədini bağlamışdır. Azərbaycanın siyasi rəhbərliyinin qətiyyətli mövqeyi nəticəsində Birləşmiş Millətlət Təşkilatının Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edərək işğalçı qüvvələrin Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir.

Lakin Qərbin ikili standartları və xarici qüvvələrin təsirilə bu qətnamələr icra edilməmişdir.

Ermənistan daim yüksələn xətlə inkişaf edən Azərbaycan–Türkiyə münasibətləri və regionda Azərbaycanın həlledici rola malik olduğu enerji layihələrinə qısqanclıqla yanaşmışdır. «Böyük Ermənistan» xülyaları ilə yaşayan Ermənistan 2020-ci ilin iyul ayında Azərbaycanın Tovuz rayonuna hücum etmişdir, lakin güclü Azərbaycan ordusunun cavabı ilə susdurulmuşdur.

Ermənistanın hücumuna məruz qalan Tovuz rayonunun TANAP ilə birlikdə BTC və BTƏ xətlərinin tranzit marşrutu üzərində olması faktı bu hücumların məqsədini göstərir. Bundan əlavə, Bakı-Tbilisi-Qars dəmir yolunun bu bölgədə olması onu göstərir ki, region beynəlxalq daşımalar sahəsində ön plana çıxmağa başlayıb. Bununla bağlı Prezident İlham Əliyev «TRT Haber» televiziyasına müsahibəsi zamanı qeyd etmişdir: «İyul ayında Ermənistanın Tovuza hücumunun bir neçə hədəfi var idi. Çünki ondan öncəki dönəmdə bəyan etmişdilər ki, əgər Dağlıq Qarabağ ətrafında döyüşlər olarsa, onlar bizim strateji infrastruktur layihələrimizi vurmağa hazırdırlar – Səngəçal Neft-Qaz Terminalı və boru xətti. Ona görə Tovuz bölgəsində hücumun bir məqsədi də o idi ki, onlar test edirdilər, haraya qədər girə bilərlər. Çünki orada onların əsas məqsədi dövlət sərhədini keçmək, Azərbaycan torpaqlarını işğal etmək və həmin TANAP boru xəttinə yaxınlaşmaq, yaxud da ki, onu nəzarətə almaq idi» [39].

2020-ci ilin 27 sentyabrında başlayan hərbi əkshücum əməliyyatları ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsini özü icra edərək Azərbaycan torpaqlarının işğalına son qoymuş və ərazi bütövlüyünü bərpa etmişdir. Müharibə dövründə Türkiyə Azərbaycana ən çox mənəvi dəstək olan dövlət olmuşdur. 2020-ci ilin 10 noyabrında imzalanmış üçtərəfli bəyanatla atəşkəs əldə edilmiş və işğalçı Ermənistan dövləti kapitulyasiya edilmişdir. Bəyanatın 9-cu maddəsinə əsasən bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılır. Ermənistan Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinə zəmanət verir.

Göründüyü kimi, Azərbaycan əzəli torpağı olan Qarabağı işğaldan azad etməklə regionda yeni bir reallıq yaratmış oldu. Təxminən 40 kilometr uzunluğunda olan Zəngəzur dəhlizinin iqtisadi, siyasi, təhlükəsizlik, psixoloji və digər ciddi nəticələri olacaq. Dəhliz coğrafi mənada tarixi İpək Yolu (Şərq-Qərb ticarəti), Cənubi Qafqaz və bir qədər də geniş çərçivədə türk dünyası baxımından böyük əhəmiyyət kəsb edir.

İstanbulla (Xəzərdən keçməklə) türk dünyasının ən şərq hissəsinə birbaşa nəqliyyat əlaqəsini təmin etdiyi üçün dəhlizi bəzən «Turan dəhlizi» kimi qələmə verənlər də var. Lakin iqtisadi nöqteyi-nəzərdən bu, həm də Xəzərin qərb sahili ilə İstanbul – Marmaray da daxil olmaqla – Pekin və London arasında yeni əlaqə yaradacağına da inanmaq olar. Ona görə də 10 noyabr bəyanatı ilə regional əməkdaşlığın qlobal miqyasda nəticələr verə biləcəyinə ümidlər də artdı. Bu dəhliz Çin və Avropa arasında daha sürətli və təhlükəsiz ticarət baxımından mühüm rol oynaya bilər, beləliklə də Türkiyə və türk dünyasının Çin, Yaxın Şərq və Avropa ölkələri baxımından strateji mövqeyini gücləndirə bilər [10].

Azərbaycanın əsas məqsədi Naxçıvana və Türkiyəyə quru çıxışı əldə etməklə Naxçıvanın geosiyasi imkanlarını dirçəltmək və onu mühasirədən azad etməkdir. Naxçıvanın Azərbaycanla quru əlaqəsinin olmaması həm Azərbaycanın, həm də Türkiyənin hərəkətliliyini azaldır. Bu əlaqənin kəsilməsi Azərbaycanı və deməli, Naxçıvanı İrandan asılı vəziyyətə salır. Naxçıvan həm də Qafqazda kommersiya tranziti və enerji marşrutları ilə bağlı müzakirələrdən kənarda qalıb. Üstəlik, Gürcüstan və İran Azərbaycanın enerji və tranzit imkanlarından yararlandığı halda, Azərbaycanın bir hissəsi olan Naxçıvan nisbətən bundan məhrumdur.

Azərbaycan özünü Rusiyanın, Qafqazın və Mərkəzi Asiyanın yol və enerji tranzitinin xabına çevirərək, Avrasiya coğrafiyasında əhəmiyyətini artırmağı, enerji dəhlizi, xüsusilə

Xəzər və onun ətrafı ilə bağlı müzakirələrdə mərkəzə çevrilməyi və Türkiyə ilə türk dünyası arasında körpü olmağı hədəfləyir.

Aydındır ki, Zəngəzur dəhlizi Azərbaycan-Türkiyə əlaqələrini genişləndirəcək, iqtisadi, hərbi, siyasi, enerji və nəqliyyat kimi sahələrdə əməkdaşlığı getdikcə şaxələndirəcək.

Dəhliz sayəsində Türkiyənin Naxçıvana investisiyalrı artacaq və Türkiyə-Naxçıvan münasibətləri yeni bir mərhələyə qədəm qoyacaq. Türkiyənin Qafqaz sərhədlərində yerləşən vilayətləri iqtisadi cəhətdən güclənəcək.

Dəhlizin əhəmiyyəti ilə bağlı Prezident İlham Əliyev İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə çıxışı zamanı deyib: «Zəngəzur koridoru həm türk dünyasını, həm Avropanı, həm qonşularımızı birləşdirə biləcək bir layihədir və bu gün bu layihənin gerçəkləşməsi istiqamətində fəal işlər gedir».

Zəngəzur dəhlizinin sərhəd dəyişikliyi layihəsi deyil, regional sülh və əməkdaşlığı gücləndirəcək nəqliyyat layihəsi olduğunu bildirmək olar.

Enerji təhlükəsizliyi baxımından Türkiyə-Azərbaycan münasibətləri kompleks komponent kimi ortaya çıxır. Türkiyənin təbii ehtiyatları məhdud olduğundan o, enerji təhlükəsizliyi baxımından xaricdən asılıdır. Türkiyənin öz milli maraqlarına daha uyğun və etibar edilə bilən enerji qaynaqlarına sahib olan aktorları ilə yaxın əlaqələr qurmalı olduğu düşünülür [14].

**Nəticə**

Türkiyə ilə Azərbaycan arasında münasibətlərdə təbii sərvətlər mühüm yer tutur. Türkiyə Azərbaycanın enerji ehtiyatları ilə təkcə öz enerji tələbatını ödəmək üçün deyil, həm də Şərq-Qərb enerji dəhlizi olmaq istəyinə görə maraqlıdır. Dünyanın təsdiqlənmiş təbii qaz ehtiyatlarının 71,8%-nin, sübut edilmiş neft ehtiyatlarının isə 72,7%-nin olduğu coğrafiyada yerləşən Türkiyənin həm Yaxın Şərqə, həm də Xəzər hövzəsinə yaxınlığı beynəlxalq siyasət baxımından enerji dəhlizi kimi əlini gücləndirir. Bu kontekstdə Azərbaycan neftinin və təbii qazının Türkiyə üzərindən Qərbə nəqli üçün nəzərdə tutulan layihələrin hər biri Türkiyənin strateji dəyərini artırır və böyük əhəmiyyət kəsb edir [24, s. 45].

Azərbaycan ilə Türkiyə arasındakı ortaq mənşə və yaxın coğrafi mədəniyyət bağı son illərdə bir çox sahədə, xüsusilə iqtisadi sahədə ön plana çıxıb. Şübhəsiz ki, Azərbaycanın sahib olduğu ehtiyatlar Türkiyə üçün artıq son dərəcə əhəmiyyətlidir. Enerji təchizatında Rusiyanın üstünlüyünün qırılması nöqtəsində Türkiyə və Azərbaycanın birgə həyata keçirdiyi layihələr hər iki ölkəyə müxtəlif qazanclar verir.

Azərbaycan ilə Türkiyə arasında mədəni yaxınlığa əsaslanan, iqtisadi və enerji layihələri ilə daha da möhkəmlənən əlaqələr siyasi arenada hər iki dövlətin dəstəyi ilə özünü göstərir. Məsələn, Prezident İlham Əliyevin dediyi kimi, 2015-ci ildə Türkiyə G-20 Zirvə toplantısına sədrlik edəndə qonaq qismində yalnız bir ölkə dəvət oluna bilərdi və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycanı dəvət etdi. Azərbaycan və Türkiyə arasında beynəlxalq qurumlarda əməkdaşlıq böyük əhəmiyyət kəsb edir. Bundan başqa, Prezident İlham Əliyev 2017-ci ildə Türkiyədə keçirilən D-8 Zirvə toplantısına Ərdoğan tərəfindən dəvət olunub. 2018-ci ildən etibarən Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlər bütün sahələrdə ən yüksək səviyyədə davam edir və strateji tərəfdaşlıq xarakteri daşıyır [15, s. 2].

Türkiyə təhlükəsiz dəhliz olduğu üçün Azərbaycan qazı təhlükəsiz şəkildə ixrac olunur. Bununla da Azərbaycanın ölkə iqtisadiyyatı mühüm xarici valyuta axını əldə edir. Türkiyə isə bu ticarət ortaqlığından xərc üstünlüyü, enerji təchizatının şaxələndirilməsi, qiymət rəqabətindən faydalanmaq və enerji dəhlizi hədəfini reallaşdırmaq sahələrində əhəmiyyətli qazanc əldə edib. Azərbaycan və Türkiyə arasında həyata keçirilən son layihələrlə Türkiyənin enerji dəhlizi olma hədəfi hər keçən gün bir addım daha irəli gedir və rəqib ölkələr qarşısında ciddi üstünlük əldə edilir.

Enerji resursları baxımından zəngin ehtiyatlara malik olan Azərbaycanın geosiyasi

mövqeyinə görə neft və təbii qaz kimi enerji ehtiyatlarını qlobal bazarlara nəql etmək imkanları məhduddur. Azərbaycan Yunanıstan və Gürcüstana, eləcə də Rusiya və Türkiyəyə az miqdarda təbii qaz ixrac etsə də, əsas məqsədi istehsal etdiyi təbii qazı böyük bazar kimi gördüyü Avropa bazarlarına çıxarmaqdır. Bu məqsədə uyğun olaraq ən etibarlı marşrut, şübhəsiz ki, Türkiyədir.

Azərbaycan və Türkiyə bir millət, iki dövlət devizi ilə əməkdaşlığını ildən-ilə gücləndirir, əməkdaşlıq sahələrini artırır. Bu əməkdaşlıq iki ölkə arasında emosional kontekstdə inkişaf etmiş, lakin BTC kəməri, BTƏ kəməri, BTQ dəmir yolu və CQD kimi layihələr ilə gücləndirilmiş konkret struktura malikdir. TANAP layihəsi Azərbaycan və Türkiyə əlaqələrini daha da möhkəm təməllər üzərində quraraq, iki ölkə arasında iqtisadi əlaqələrin inkişafına töhfə verir.

XXI əsrdə enerji resurslarının əhəmiyyəti danılmaz reallıqdır. Bu baxımdan Türkiyə-Azərbaycan əlaqələrində enerji qaynaqlarının yeri və əhəmiyyəti günü-gündən artır və enerji əlaqələrin inkişafında öz mühüm yerini qoruyur. Türkiyənin enerji təchizatı təhlükəsizliyi ilə Azərbaycanın enerji tələbatının bir-birini tamamlaması iki ölkə arasında enerji əlaqələrinin daha da önəm daşımasına səbəb olur və iki ölkə arasında həyata keçiriləcək neft-qaz kəməri layihələrinin əhəmiyyətini artırır.

**Ədəbiyyat:**


1. Aslanlı A. və Hesenov İ. Haydar Aliyev Dönemi Azerbaycan`ın Dış Politikası (1993-2001), Platin Yayınları, Ankara, 2005, 282 s.
2. Aslan Y. Hazar Petrolleri Kafkas Kördüğümü ve Türkiye, Kişisel Basım, Ankara, 1997, 232 s.
3. Cemilli E. ABD'nin Güney Kafkasya politikası, IQ Kültur Sanat Yayıncılıq, İstanbul, 2007, 192 s.
4. Gurbanov S. Hollanda Hastalığı (Teori ve Ülke Örnekleri), 1. Baskı, Kitap Yayıncılık San.Tic. A. Ş., İstanbul, 2012, 160 s.
5. Kalafat Y. və Aslanlı A. “Türkiye Azerbaycan İlişkileri” içinde Türk Dış Politikası, Editör İdris Bal, Nobel, Ankara, 2004, 421 s.
6. Sarıibrahimoğlu L. Kurt kapanında kısır siyaset, İmge Yayınevi, Ankara, 1997, 143 s.
7. Yapıcı M. İ. Rus Dış Politikasını Oluşturan İç etkenler: Yeltsin ve Putin Dönemleri, Birinci Baskı, USAK Yayınları, Ankara, 2010, 564 s.
8. Zengin E. Piyasa Ekonomisine Geçiş Sürecinde Azerbaycan, ITO Yayınları, İstanbul, 2010, 320 s.
9. Arı T. “Orta Asya ve Kafkasya Rekabetten İşbirliğine”, MKM Yayinevi, Bursa, 2010.
10. Aslanlı A. “Zengezur koridoru: Zaferin taçlanması”, https://kriterdergi.com/dosya-turk-dunyasi/zengezur-koridoru-zaferin-taclanmasi, 2021.
11. Çal S. “Bakü-Tiflis-Ceyhan Boru Hattı Projesi Kapsamındaki Anlaşmaların Hukuki Yönden Değerlendirilmesi”, Ankara Üniversitesi SBF Dergisi, c. 63, S. 4, 2008.
12. Çelikpala M. və Veliyev C. “Azerbaycan-Gürcüstan-Türkiye Bölgesel işbirliğinin Başarı Örneyi”, Kadir Has Universitesi, Center for İnternational and European Studies Policy Brief, 3, 2015.
13. Erdoğan N. “TANAP Projesinin Türkiye ve Azerbaycan Enerji Politikalarındaki Yeri ve Önemi”, Ömer Halisdemi Üniversitesi İİBF Dergisi, c. 10, S. 3, 2017.
14. Güneş M. və Arslan T. “Enerji bağımlılığında Avrupa Birliği, Rusya, Türkiye Üçgeni ve Doğu Akdeniz Alanı”, International Journal of Humanities and Education, 2019.
15. Hacıyev M., (2018), “Azerbaycan-Türkiye İlişkileri: Yeni Zirve`nin Hedeflerinin İlk Adımları”, BİLGESAM Analiz, Kafkasya, S. 1378, 2018.
16. İbrahim H. “Azerbaycan- Türkiye Diplomatik ilişkilerin 25 Yıldönümü”, İrs Dergisi, 1 (17), 2017.

17. İsmayıl T. "Azerbaycan'ın Enerji Stratejisi ve Türkiye", Yeni Türkiye Dergisi, (54), 2013.
18. Kahraman A. Hazar Ekseninde Boru Hatları Diplomasisi, Stratejik Araştırmalar Dergisi, Stratejik Öngörü, S. 12, 2008.
19. Pamir N. A. "Türkiye'nin Enerji Gereksinimi Uluslararası Boru Hatları ve Jeostratejisi", ASAM Stratejik Analiz Dergisi, 1 (1), 2000.
20. Türkiye Petrolleri, "TP`nin Ortağı Olduğu Asrın Projesi 2049 Sonuna Kadar Uzatıldı", Basın Bilgi Notu, Ankara, s. 2, 2017.
21. Bahadır O. D., Özdal H., Necefoğlu H. Yeni Dönemde Türk Dış Politikası Uluslararası IV. Türk Dış Politikası Sempozyumu Tebliğleri, USAK Yayınları, Ankara, 2010, 490 s.
22. Babayeva V. Haydar Aliyev Dönemi Türkiye-Azerbaycan İlişkileri, İstanbul Ticaret Üniversitesi, Sosyal Bilimler Enstitüsü, (Yüksek Lisans Tezi), İstanbul, 2013.
23. Bulut A. Türkiye-Azerbaycan İlişkilerinin Güvenlik Boyutu ve Geleceği, Harp Akademileri Komutanlığı, Stratejik Araştırmalar Enstitüsü Müdürlüğü, Yüksek Lisans Tezi, İstanbul, 2007.
24. Güzel M. Türkiye-Azerbaycan İlişkilerin Uyum (Siyasi, Eenrji, Ekonomik ve Kültürel Boyutu) Gazi Üniversitesi, Sosyal Bilimler Enstitüsü, (Yüksek Lisans Tezi), Ankara, 2009.
25. Veliyev C. "Azerbaycan Dış Politikasının Enerji Boyutu", Gazi Üniversitesi, Sosyal Bilimler Enstitüsü, (Yüksek Lisans Tezi), Ankara, 2006.
26. Coffey L. And Nifti E. "Why the West needs Azerbaijan", https://foreignpolicy.com/2018/05/28/why-the-west-needs-azerbaijan/, 2018.
27. Garibov A. "The Trans-Caspian Corridor: Geopolitics of Transportation in Central Eurasia, Caucasus International, c. 6, S. 1, 2016.
28. Jarosiewicz A. "Southern Gas Corridor managed by Azerbaijan and Turkey", Centre for eastern studies, issue 86, 2012.
29. Kardash Sh. "The Turkey-Azerbaijan Energy Partnership in the Context of the Southern Corridors". Istituto Affari İnternazionali Working Papers, 14 (04), 2014.
30. http://apa.az/iqtisadiyyat-xeberleri/senaye-ve-energetika/turkiyenin-enerji-nazirliyi-baki-tbilisi-erzurum-qaz-kemeri-vasitesile-qaz-neqlinin-berpasi-istiqametinde-isler-davam-etdirilir.html
31. https://www.bp.com/az_az/caspian/operationsprojects/pipelines/BTC1.html
32. https://caspiannews.com/news-detail/azerbaijan-turkmenistan-agree-to-deepen-cooperation-on-dostlug-offshore-field-2021-7-30-0/
33. http://en.apa.az/azerbaijan_energy_and_industry/turkmenistan-to-resume-oil-transportation-via-btckazakhstan-holding-negotiations.html
34. http://www.epdk.gov.tr/
35. http://lib.aliyevheritage.org/tk/6428457.html
36. http://minenergydemo.yusifli.com/az/qaz/cenub-qaz-dehlizi-layihesinin-icrasi-ve-layihenin-regional-qarsiliqli-tesirleri
37. https://minenergy.gov.az/az/layiheler/cenub-qaz-dehlizi_2196
38. https://www.pmi.org/learning/library/2020-project-year-turkey-pipeline-12567
39. https://president.az/articles/41763
40. http://www.socar.az/socar/az/news-and-media/news-archives/news-archives/id/11515
41. https://www.sourcewatch.org/index.php/Baku_Supsa_Oil_Pipeline

***Açar sözlər:*** *enerji təhlükəsizliyi, Azərbaycan, Türkiyə, Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi, Zəngəzur dəhlizi*

**Tahmina Masimova**
*Baku State University,*
*Department of International Relations,*
*PhD Candidate*

# FACTOR OF ENERGY SECURITY IN AZERBAIJANI-TURKISH RELATIONS

## ABSTRACT

For hundreds of years, the energy factor has maintained its place among the most fundamental resources for human survival. Today, this factor continues to maintain its importance and plays a key strategic role in strengthening countries. Energy security is considered one of the most critical components of national security in the geopolitical literature. Energy security is a type of link between the availability of natural resources for energy production and national security. The Republic of Azerbaijan is also one of the countries with rich energy resources, developed fuel, energy infrastructure, and energy systems. To balance the influence of powerful states of the region itself and beyond, the political leadership of Azerbaijan, which recently restored its independence, developed relations with the Republic of Turkey under the motto "One nation, two states." The article discusses the cooperation between Azerbaijan and Turkey in the field of energy and the impact and prospects of these relations in the region.

***Keywords:*** *energy security, Azerbaijan, Turkey, Baku-Tbilisi-Jeyhan, Southern Gas Corridor, Zangazur Corridor*

**Тахмина Масимова**
*Докторант кафедры Международных отношений*
*Бакинского Государственного Университета*

## ФАКТОР ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ В АЗЕРБАЙДЖАНСКО-ТУРЕЦКИХ ОТНОШЕНИЯХ

### РЕЗЮМЕ

На протяжении сотен лет энергетический фактор сохраняет свое место среди наиболее важных и основных ресурсов для выживания человека. И сегодня этот фактор продолжает сохранять свое значение и играет ключевую стратегическую роль в укреплении стран. В геополитической литературе энергетическая безопасность считается одной из важнейших составляющих национальной безопасности. Энергетическая безопасность – это своего рода связующее звено между наличием природных ресурсов для производства энергии и национальной безопасностью. Азербайджанская Республика также является одной из стран с богатыми энергоресурсами, развитой топливно-энергетической инфраструктурой и энергетической системой. Чтобы уравновесить влияние на регион сильных государств как самого региона, так и за его пределами. Политическое руководство Азербайджана, недавно восстановившего свою независимость, развивает отношения с Турецкой Республикой под девизом «одна нация, два государства». В статье освещается сотрудничество между Азербайджаном и Турцией в области энергетики, а также влияние и перспективы этих отношений в регионе.

***Ключевые слова:*** *энергетическая безопасность, Азербайджан, Турция, Баку-Тбилиси-Джейхан, Южный Газовый Коридор, Зангезурский коридор*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

## *Dövlət İdarəçilik Akademiyası əməkdaşının məqaləsi Türkiyənin nüfuzlu jurnalda dərc edilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İnzibati İdarəetmə fakültəsinin dekan müavini Anar Şükürovun "Kamu Yönetiminde Halkla İlişkilerin Rolü: Azerbaycan. Asan Hizmet örneği" (Dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələrin rolu: Azərbaycan. ASAN Xidmət nümunəsində) adlı məqaləsi 27 yerli və beynəlxalq indekslər üzrə tanınan "Uluslararası Yönetim Akademisi Dergisi"nin IV Cildinin 2-ci nömrəsində çap edilmişdir.

Məqaləni oxumaq üçün aşağıdakı linklə keçid edə bilərsiz:

https://dergipark.org.tr/tr/pub/mana/issue/64779

## *Dövlət İdarəçilik Akademiyası "Vətəndaş məmnunluğunun təmin olunmasının müasir texnologiyaları" layihəsi üzrə növbəti təlim keçirib*

Azərbaycan Respublikasının Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya" nın Fəaliyyət Planında dövlət qulluğu sisteminin inkişaf etdirilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar Fəaliyyət Planında göstərilən prioritet istiqamətlərindən biri kimi rəhbər vəzifəli və dövlət qulluğuna yeni qəbul olunan şəxslərin etik davranış qaydaları sahəsində bilik və bacarıqların inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "ASAN" Xidmət mərkəzlərinin əməkdaşları üçün yeni tədris ilində təlim keçirib.

Təlim Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (Asan" Xidmət) ilə Əməkdaşlıq Memorandumu çərçivəsində həyata keçirilir.

Cari ildə də "ASAN" Xidmət mərkəzlərinin əməkdaşları üçün "Vətəndaş məmnunluğunun təmin olunmasının müasir texnologiyaları" mövzusunda təlimlərin davam etdirilməsi təsdiqlənib. İlk təlim 16 sentyabr 2021-ci il tarixində keçirilib.

Təlimdə "Azərbaycan Respublikasının milli prioritetləri: planlaşdırma və idarəetmə" adlı ilk mühazirəni Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov təqdim edib.

Daha sonra Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi Anar Həsənovun "Vətəndaş məmnuniyyətinin təmin edilməsində xidmət mədəniyyətinin rolu", "Vətəndaş-məmur münasibətlərində ünsiyyət bacarıqları" adlı mühazirəsi dinlənildi.

Təlimlər ilin sonunadək davam edəcək və təlimi uğurla bitirən iştirakçılara sertifikatlar təqdim ediləcək.

### *Azərbaycanda tətbiq edilən yeni idarəçilik texnologiyalarının nəticələri beynəlxalq platformada*

Son illər iqlim dəyişiklikləri, enerji səmərəliliyi və yaşıl enerjiyə keçid məsələləri qlobal miqyasda böyük aktuallıq qazanıb. Həmin səbəbdən bu sahədə dərc olunan elmi əsərlərə müxtəlif beynəlxalq platformalarda maraq gündən-günə artmaqdadır. Bu günlərdə Kaliforniyada fəaliyyət göstərən və alimlərin əməkdaşlığı üçün nəzərdə tutulmuş academia.edu platformasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru akademik Urxan Ələkbərovun "Enerji səmərəliliyi davamlı inkişaf indikatoru kimi: Azərbaycanın təcrübəsi" adlı məqaləsi dərc edilib. 2017-ci ildə Kanadanın "Davamlı inkişaf" jurnalında Nyu-Yorkun Kolumbiya Universitetinin professoru Jon Lourensin həmmüəllifliyi ilə çap olunan məqalə 63 milyon qeydiyyatdan keçmiş istifadəçisi olan platformada seçilmiş məqalələr sırasında qısa zamanda böyük marağa səbəb olub.

Məqalədə Azərbaycan Respublikasının qısa dönəmdə innovativ davamlı inkişaf siyasəti reallaşdırmağa müvəffəq olduğu vurğulanıb. Beynəlxalq qurumlar və müstəqil ekspertlərin sənədləri bu faktın aşkar təsdiqidir. Bildirilib ki, müstəqillik illərində Azərbaycan Respublikasında davamlı inkişaf naminə təbii ehtiyatların idarəedilməsi, xüsusilə də enerji səmərəliliyi sahəsində qazanılmış nəticələr postsovet ölkələri, o cümlədən indi Avropa İttifaqına üzv olan keçmiş sovet respublikaları arasında ən yüksək göstəricidir. Dünya Bankının 2017-ci ilin fevral ayında dərc olunan məlumatlarından göründüyü kimi, bu qrupa daxil olan bütün ölkələrdə eyni iqtisadi effektə nail olmaq üçün Azərbaycanla müqayisədə daha çox enerji sərf edilir. Ölkənin enerji səmərəliliyi göstəriciləri 2003-cü illə müqayisədə 3 dəfədən çox artıb. Göstərilən nailiyyət ölkədə dövlət idarəçiliyi sahəsində Prezident İlham Əliyev tərəfindən tətbiq edilən unikal dövlət idarəçiliyi texnologiyalarının yekunu və gerçəkləşdirilən uğurlu siyasətin parlaq təcəssümüdür. Eyni zamanda, bu, Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyinin təmin olunması və qlobal iqlim dəyişmələrinə təsirlərin azaldılmasına dair beynəlxalq öhdəliklərinə məsuliyyətlə yanaşmasından xəbər verir. ÜDM-nin istehsalı üçün enerji sərfinin azaldılması əsasən yeni yüksək texnologiyaların tətbiqi və iqtisadi inkişaf proseslərinin idarəedilməsi sistemlərinin optimallaşdırılması hesabına mümkündür. Platformada dərc edilən materialdan aydın olur ki, Azərbaycan hər min dollarlıq ÜDM üçün sərf olunan enerji göstəricilərinə görə Kanada, ABŞ, Fransa və Yaponiyadan irəlidədir. Neft ixrac edən dövlətlər arasında isə ölkə Norveçlə 1-2-ci yerləri bölüşür.

### *Dövlət İdarəçilik Akademiyasında "İkinci Qarabağ müharibəsi– Zəfərə gedən yolun başlanğıcı" adlı elmi konfrans keçirilmişdir*

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Şəhidlərin Anım Gününə həsr olunmuş "İkinci Qarabağ müharibəsi-Zəfərə gedən yolun başlanğıcı" adlı elmi konfrans keçirilib.

Əvvəlcə respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra elmi konfransda DİA-nın rektoru, akademik Urxan Ələkbərov müstəqil dövlətimizin qurucusu ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini xatırladıb. Rektor qeyd edib ki, bu gün dahi rəhbər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir

çox uğurlara imza atılıb. U.Ələkbərov müstəqil Azərbaycanın uğurlu inkişafınında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolu olduğunu qeyd etmişdir.

Akademik 44 günlük Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun düşmən üzərində qazandığı parlaq qələbədən söz açıb. İkinci Qarabağ müharibəsində Azərbaycan ordusunun qəhrəmanlığını, mübarizliyini xüsusi qeyd edib. Rektor Azərbaycan Ordusunun sentyabrın 27-də işğalçı Ermənistanın təcavüzünə qarşı başladığı əks-hücum əməliyyatlarından və qazandığı möhtəşəm Qələbədən bəhs edərək bildirib ki, Qələbəmizin başlıca amili Prezident, Ali Baş Komandan İlham Əliyevin uzun müddət ərzində həyata keçirdiyi güclü dövlət, güclü xalq və güclü ordu strategiyası olmuşdur.

Daha sonra Elmi-praktik konfransda çıxış edən Milli Məclisin deputatı Dövlət İdarəçilik Akademiyası "Dövlət qulluğu və kard siyasəti" kafedrasının dosenti Aydın Mirzəzadə, Dövlət İdarəçilik Akademiyası "Politologiya və siyasi idarəetmə" kafedrasının dosenti Cəlil Xəlilov, Dövlət İdarəçilik Akademiyası Siyasi idarəetmə fakültəsinin dekanı, professor Elçin Əhmədov və digər məruzəçilər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuzun qazandığı şanlı qələbənin tarixi əhəmiyyəti, qalib Azərbaycan xalqının qələbədə rolu, döyüş iştirakçılarının igidlik və qəhrəmanlıq nümunələri haqqında ətraflı fikir və mülahizələrini bölüşmüş, şəhidlərimizin xatirələrinin yaddaşlarda əbədi yaşayacağını qeyd etmişlər.

## *Dövlət İdarəçilik Akademiyasında ilk mühazirə Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbində dinlənilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbində 2021/2022-ci tədris ilində bakalavriat pilləsinə qəbul olunan birinci kurs tələbələri ilk mühazirəni dinləyiblər.

Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları" adlı ilk mühazirəni təqdim edib.

Rektor Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi haqqında məlumat verib. O qeyd edib ki, məktəb ümummilli lider, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin siyasi irsinin, azərbaycançılıq məfkurəsi və dövlətçilik fəlsəfəsinin təbliği məqsədilə yaradılıb. Rektor görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən bəhs edib, Ulu Öndərin siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Bildirib ki, müstəqilliyinin bərpasından keçən 30 il ərzində Azərbaycan Respublikası uğurla inkişaf etmiş və tarixi baxımdan çox qısa zaman kəsiyində ölkə bütün sahələrdə böyük uğurlar qazanıb.

Akademik U.Ələkbərov qazanılan uğurların əsasında ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dərin düşünülmüş innovativ inkişaf siyasətinin dayandığını vurğulayıb. Rektor, eyni zamanda, diqqətə çatdırıb ki, ölkədə bütün istiqamətlərdə nailiyyətlərin qazanılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın önəmli rolu var. Akademik vurğulayıb ki, əslində, daha az vəsaitlərlə yüksək göstəricilərə nail olunması dövlət inkişafı proseslərinin idarə edilməsində Prezident İlham Əliyev tərəfindən işlənmiş innovativ sinergetik, komplimentar və kompensasion texnologiyalar kompleksinin tətbiqinin nəticəsidir. Həmin texnologiyalar ölkənin hərtərəfli inkişafı və əhalinin rifahının yüksəlməsi üçün iqtisadi imkanlardan səmərəli







istifadəni təmin edib. Mühazirədə ölkənin sürətli inkişafı istiqamətində aparılan uğurlu siyasətin əsas hədəfləri, eləcə də davamlı inklüziv inkişafı xarakterizə edən göstəriciləri müqayisəli şəkildə tələbələrin diqqətinə çatdırılıb.

Rektor U.Ələkbərov qeyd edib ki, Vətən müharibəsinin 44 günü Azərbaycan dövlətçi-

liyi tarixində xüsusi mərhələ kimi qalacaq. “Qarabağ Azərbaycandır!” şüarı ilə səfərbər olan həmin günlər xalq-dövlət, xalq-hakimiyyət birliyinin nümayişi idi. Bu, hakimiyyət və xalq arasında qarşılıqlı inam və etimadın nə qədər vacib olduğunu parlaq surətdə nümayiş etdirdi. Azərbaycanı bu möhtəşəm Qələbəyə aparan Ali Baş Komandanın müdrik qərarları, müzəffər Ordumuzun gücü və xalqımızın sarsılmaz həmrəyliyi oldu. Qazandığımız bu Qələbə, həmçinin gəncliyimizə örnək oldu. Onlar gördülər ki, öz lideri ətrafında bir yumruq kimi birləşən xalq yenilməzdir və qalibdir.

Otuzillik müstəqillik yolunda Azərbaycanın bir çox istiqamətlərdə regional və qlobal liderə çevrildiyini qeyd edən rektor ölkəmizin inkişaf göstəricilərinin bir çox beynəlxalq təşkilatlar, o cümlədən BMT, UNESCO, Dünya Bankı və digər nüfuzlu qurumların rəsmi sənədlərində, müstəqil ekspertlər tərəfindən hazırlanmış hesabatlarda təsdiqini tapdığını bildirib.

Sonda tələbələrin sualları cavablandırılıb.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**............7
.
**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**.............................13

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**........................................23

Rusiyaya işgüzar səfər...........................................................................................................23
Daşkəsən, Naftalan, Goranboy və Gəncəyə səfəri ................................................................24
Kəlbəcər və Laçın rayonlarına səfər.......................................................................................34
Füzuli və Şuşaya səfər............................................................................................................43
Sumqayıt şəhərinə səfər..........................................................................................................52

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri** ..........................................................................................................55

Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik......................................................55

İlham Əliyevin "CNN Türk" televiziya kanalına müsahibəsi................................................55

Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində İlham Əliyevin nitqi..........................................................................................63

İlham Əliyevin Türkiyənin Anadolu Agentliyinə müsahibəsi.................................................66

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Elman Nəsirov.** İlham Əliyev: adını ölkə və dünya hərb tarixinə həkk etmiş müzəffər sərkərdə...........................................................................................................75

**Hadi Rəcəbli.** Sosial müdafiə sisteminin idarəedilməsi.............................................................85

**TARİX**

**Фуад Мамедов**. Низами Гянджеви как великий творец духовной культуры ......................91

**HÜQUQ**

**İsaxan Vəliyev.** Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ailə münasibətlərində iştirakı: ailə qanunvericiliyinə edilmiş son əlavə və dəyişikliklər kontekstində ....................................105

**Şahmar Məmmədov.** Vəkilliyin inkişafının Azərbaycan modeli ............................................117

**Asif Qədirov.** Cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi Azərbaycan Respublikasında dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi ...............127

**Нигяр Каландарли.** Государственная политика Азербайджана в области биоэтики...................................................................................................135

**SİYASƏT**

**Нигяр Алекперова**. Яркий имидж Президента Азербайджанской Республики Ильхама Алиева в свете победы во Второй Карабахской войне ........................................141

**Yusif Ağayev.** Mədəniyyətlərarası dialoq prosesinin təmin olunmasındaa Azərbaycan Respublikasının rolu ...........................................................................151

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Fuad Hümbətov**. Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik sisteminə real təhdid kimi qlobal iqlim dəyişmələri ilə mübarizə məsələləri ..........................................159

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Нафиля Рагимова.** Военно-политические интересы Турции и России в Черноморском регионе в современный период.................................................................177

**Севиль Гидаятова**. Геополитика Транскаспийского газопроводного проекта.................185

**RƏQƏMSAL DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR**

**Elçin Abasov, Həsən Nəsirli.** Şəhərlərin idarə olunmasında informasiya sistemlərinin verilənlər bazası ..........................................................................................195

**Qoşqar Əliyev.** Verilənlərin emalının avtomatlaşdırılmış sistemlərinin (VEAS) təhlükəsizliyi ..........................................................................................201

**İQTİSADİYYAT**

**Səidə Qurbanova.** İşğaldan azad edilmiş torpaqların Azərbaycanın iqtisadiyyatına təsiri .......207

**Ramilə Əliyeva.** COVID-19 və kiçik biznes inkişafının yeni vektoru ....................................213

**GƏNC TƏDQİQATÇILAR**

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Xəyyam Məmmədov.** Azərbaycanda dövlət xidməti sahəsinin inkişaf perspektivləri ............221

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Səbuhi Mehdizadə.** Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərk məişət və tikinti tullantılarının idarə edilməsi potensialı ...........................................................................229

**Ayaz Hacıyev.** Davamlı inkişafın təmin edilməsinə qlobal risklərin təsiri ...............................235

**HÜQUQ**

**Фарида Мовсумова**. Проблема бытового насилия в современном Азербайджане ..........245

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Şəbnəm Zeynalova.** Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətlərin inkişafı perspektivləri (nəzəri aspektlər) ......................................................................................257

**Təhminə Məsimova**. Azərbaycan-Türkiyə əlaqələrində enerji təhlükəsizliyi amili.................271

**Dövlət İdarəçilik Akademiyasında** ........................................................................................285

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal «Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации**
**в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2021, №3(75)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və baş müəllim *F.Şammədov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru,*
*dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.


Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*
Korrektoru *İradə Təhməzova*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində çap olunmuşdur.
Sifariş 4. Tiraj 500.

# Journal of Public Administration:
## Theory and Practice

***Scientific and theoretical journal***

**2021, №3(75)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, assistant professor*
and *F.Shammedov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., assistant professor*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*
Correctors *Irada Tahmazova*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed at the printing-house of the
**«Aspoliqraf LTD»**
Order 4. Number of copies printed 500